SEÇİLMİŞ ƏSƏRLƏRİ

AFAD QURBANOV

Ümumi dilçilik

III cild

90
illik
yubileyinə
həsr olunur

Afad Qurbanov

(1929–2009)

Beynəlxalq və milli akademiyaların akademiki,
Azərbaycanın görkəmli dilçi alimi, türkoloq və
ictimai xadim, müasir Azərbaycan Əlifbasının müəllifi və
Azərbaycan Onomastika Elmi Məktəbinin banisi

SEÇİLMİŞ ƏSƏRLƏRİ

AFAD QURBANOV

Ümumi dilçilik

III cild

Azərbaycan Milli Elmlər Akademiyasının Prezidentinin
121 saylı 07 mart 2019-cu il tarixli sərəncamı ilə çap olunur.

Afad Qurbanovun "Seçilmiş əsərləri" toplusunun
hazırlanması üzrə məsul şəxslər:

Akademik İsa Həbibbəyli
Akademik Kamal Abdullayev
Akademik Nizami Cəfərov
Akademik Möhsün Nağısoylu
Akademik Yaqub Mahmudov

Afad Qurbanov. Ümumi dilçilik. III cild (3 cilddə). Bakı, 2019, 512 səh.

Əsərin birinci bölməsində dilçiliyin dil və düşüncə, dil və nitq, dil və mədəniyyət, dil universaliləri, ümumdünya dili və sair nəzəri məsələləri aydınlaşdırılır. İkinci bölmə dilçilik tədqiqatlarının müasir metodlarının şərhinə həsr olunmuşdur. Burada elmi metodların hər biri geniş xarakterizə edilir.

Kitabdan müəllim, aspirant, dissertant, magistr, elmi işçi və həmçinin dilçiliklə maraqlanan hər bir kəs istifadə edə bilər.

Dünya dilçiliyini geniş əhatə edən bu əsər rus, türk, ingilis və fransız dillərində nəşr olunmuşdur.

Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Təkmilləşdirilmiş 4-cü nəşr.

ISBN 9 789952 835922

© Azərbaycan Milli Elmlər Akademiyası, 2019

www.afadgurbanov.az

GİRİŞ

Ümumi dilçilik
ümumbəşəri elm sahəsidir.

Oxuculara təqdim olunan bu kitab "Ümumi dilçilik" (I və II cildin) adlı dərsliyin davamıdır[1]*. Əsər dilçiliyin müasir vacib problemlərinə həsr edilmiş və iki bölmədən ibarətdir.*

Birinci bölməni ("Dillə əlaqədar məsələlərin nəzəri əsasları") *on müstəqil fəsil təşkil edir. Burada dil və düşüncə, dil və mədəniyyət, dil və siyasət, dillərdəki universallıq, dillərin əlaqəsi, vahid ümumdünya dili kimi problemlər nəzəri cəhətdən şərh olunur.*

İkinci bölmə ("Dil tədqiqinin mərhələləri və metodları") *dörd fəsildən ibarətdir. Bu bölmədə dilçilik tədqiqatının xarakteri, onun öyrənilməsi mərhələləri izah edilir. Bununla bərabər dilçiliyin tədqiqat metodları göstərilir, onların hər biri xarakterizə edilir, tədqiqatdakı yeri və mahiyyəti aydınlaşdırılır.*

Kitabın sonunda dərslik hazırlanarkən istifadə edilən əsas ədəbiyyat siyahısı verilir. Bu siyahı kursa aid ən vacib materiallardan və dilçilik klassiklərinin başlıca əsərlərindən ibarətdir. Mövzulara dair elmi ədəbiyyat müəllim tərəfindən müəyyənləşdirilir. Buna görə də o, verilmiş ədəbiyyatla yanaşı, mövzuya dair yeni nəşr edilən mühüm əsərləri də unutmamalıdır.

Əsər uzun illik təcrübə əsasında yazılmışdır. Buna baxmayaraq müasir tələblərə az cavab verən və ya unudulmuş sahələr də ola bilər. Müşahidə edilən qüsurları müəllifə çatdıranlara qabaqcadan təşəkkürümüzü bildiririk.

---

[1] Afad Qurbanov. "Ümumi dilçilik". I cild, Bakı, 2004.

V BÖLMƏ

DİLLƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRİN NƏZƏRİ ƏSASLARI

I FƏSİL

DİL VƏ DÜŞÜNCƏ

"DİL VƏ DÜŞÜNCƏ" PROBLEMİNİN MAHİYYƏTİ

İctimai həyat dilçilik elminin qarşısında mahiyyətcə aktual, həlli baxımından son dərəcə çətin və mürəkkəb olan bir sıra problemlər qoymuşdur. Bunların ən başlıcalarından biri "insan və dil" linqvistik problem sahəsidir. Bu geniş əhatəli problematik sahənin əsasını ***"dil və düşüncə"***, ***"dil və nitq"***, ***"dil və üslub"***, ***"dil və cəmiyyət"***, ***"dil və mədəniyyət"***, ***"dil və siyasət"*** və sair bu tipli məsələlər təşkil edir.[1]

"Dil və düşüncə" zəruri müasir problemdir. Bu problem əhatəsində dil, nitq, düşüncə, təfəkkür məsələləri şərh olunur. Burada dil–şüur, dil–təfəkkür münasibətləri, fərqlər və konkret vəzifələr aydınlaşdırılır.

"Dil və düşüncə" yalnız linqvistik yönümlü məsələ olmayıb, həm də fəlsəfi, məntiqi, psixoloji, fizioloji münasibət və müddəalarla əlaqələnən problemdir. Buna görə də dilçilərlə yanaşı, filosof, məntiqşünas, psixoloq və fizioloqlar da dil, şüur, təfəkkür məsələləri üzərində axtarış və tədqiqatlar aparırlar.

Dillə düşüncə və təfəkkürün münasibəti, fərqli əlamətləri, əlaqələri və digər məsələlər hələ uzaq keçmişdən dilçi alimlərlə yanaşı, müxtəlif elm və sənət sahibləri nümayəndələrinin diqqətini cəlb etmiş, vacib tədqiqat obyektinə çevrilmişdir.

---

[1] Bax: Afad Qurbanov. "İnsan və dil". "Gənclik" nəşriyyatı. Bakı, 1973.

Tarixən "dil və düşüncə" probleminin ***qoyuluşu*** və ***şərhində*** bir sıra ziddiyyətlər, qeyri-dəqiqliklər olmuşdur.

1. Bəzi alimlər bu problemin dilçiliyə aid olmadığı fikrini irəli sürüb, onun ancaq fəlsəfi problem olduğunu göstərmişlər.

Deməliyik ki, dilçilik biliklərinin – dilin mənşəyi, onun mahiyyəti, təbiəti, xarakteri, inkişaf qayda-qanunlarının dərindən və əsaslı öyrənilməsi düşüncə məsələləri ilə əlaqədardır. Buna görə də ümumən düşüncə problemi, xüsusi olaraq təfəkkür məsələləri, bunların dillə, nitqlə bağlılığı haqqında geniş və obyektiv biliyə malik olmadan dilçiliyin bir çox mürəkkəb məsələlərinin doğru və düzgün aydınlaşdırılması qeyri-mümkün olar.

2. "Dil və düşüncə" problemi, əsasən, "dil və təfəkkür" problemi yönümündə öyrənilmişdir. Həm də "dil və təfəkkür" uzun müddət o qədər qabarıq şəkildə qoyulmuşdur ki, "dil və düşüncə" probleminin özünü kölgəyə almışdı. Məlum olduğu kimi, "düşüncə" termini "təfəkkür" termininə nisbətən geniş və əhatəlidir. Düşüncə dedikdə, real varlığın insan beynində inikasının bütün prosesləri nəzərdə tutulur. Lakin təfəkkür isə real varlığın anlayış, mühakimə və əqli nəticə formasında inikası prosesidir. Deməli, təfəkkür düşüncə prosesinin (1-ci cədvəldə olduğu kimi) ancaq müəyyən bir sahəsini təşkil edir.

Cədvəl 1

3. "Dil və təfəkkür" məsələsinin şərhində bir sıra səhvlərə, dolaşıqlığa yol verilmişdir. Bəzi filosof və dilçi alimlər dili təfəkkürdən ayırmış və dilsiz təfəkkürün mövcud olduğunu sübut etməyə çalışmışlar. Bununla yanaşı, dil və təfəkkürün eyni şey olduğunu da iddia edənlər olmuşdur.

"Dil və təfəkkür" probleminin öyrənilməsi uzun tarixə malikdir. Dil və təfəkkür, bunların qarşılıqlı münasibəti məsələləri istər fəlsəfədə, istərsə də klassik dilçilikdə çox müxtəlif şəkildə geniş tədqiq edilmiş və öyrənilmişdir.[1]

Qədim Yunanıstan elmində bu problem başqa məsələlərlə qarışıq şəkildə olsa da, müzakirə və tədqiqat arenasına çıxarılmışdı. Antik mütəfəkkir Aristotelin təfəkkür vahidi olan mühakimə haqqında yaratdığı nəzəriyyənin məğzini aşağıdakı müddəalar təşkil edirdi:

1) Təsdiq və inkar olan yerdə həqiqət və yalan ola bilir.
2) Təsdiq və inkar olan yerdə mühakimə vardır.
3) Bütün çıxışların məzmununu mühakimə təşkil etmir və s.

Dil və təfəkkür məsələlərinə dair irəli sürülmüş Aristotel nəzəriyyəsinin bir sıra müddəaları indi də öz elmi dəyərini itirməmişdir.

Orta əsrlərdə müxtəlif ölkə alimləri dil və təfəkkür problemlərinin bəzi məsələlərinə toxunmuşlar. Həmin dövrlərdə, əsasən, nitq və təfəkkür məsələləri daha çox diqqəti cəlb etmişdir.

Tarixin sonrakı əsrlərində də bu məsələdən bəhs olunmuş, bir sıra elmi-nəzəri mülahizələr irəli sürülmüş, onun düzgün həllinə böyük səy göstərilmişdir. XVIII əsrin sonundan başlayaraq alimlər dili təfəkkürün məhsulu kimi qəbul etmişlər. Məşhur alman dilçisi, filosofu V.Humboldt da bu fikrin tərəfdarı idi.

XX əsrin 20-ci illərindən başlayaraq dil, nitq və təfəkkür məsələlərinin öyrənilməsi, tədqiqi tarixinə xüsusi nəzər salınmış və bu sahədə xeyli iş görülmüşdür. 1950–60-cı illər-

[1] İnsan təfəkkürünün ümumi şəkildə fəlsəfədə, konkret olaraq məntiq elmində geniş və ətraflı öyrənilməsinin nəzəri əsası qoyulmuşdu. Bu elm sahəsi bizim eradan əvvəl IV əsrdə Aristotel tərəfindən yaradılmışdır. Aristotel elm tarixində ilk dəfə olaraq təfəkkür vahidlərini müəyyənləşdirmiş və onların təhlilini vermişdir. Təfəkkürün vahidləri, qanunları haqqında nəzəri təlim olan müasir məntiq elmi təfəkkür problemlərinin həlli ilə məşğuldur.

də bir sıra aktual və mürəkkəb problemlərlə yanaşı, dil və təfəkkür məsələlərinə də xüsusi yer verilmişdir. Bu illərdə irəli sürülən müddəaların, mülahizələrin hamısı qəbul edilməmiş, bunların arasında mübahisə yaradanı da az deyildir.

Müasir dilçilikdə "dil və təfəkkür" problemi yeni istiqamətdə təhlilə başlanılmışdır. İndi bu, təkcə təfəkkür məsələlərini deyil, ümumiyyətlə, düşüncə proseslərini bütövlükdə əhatə edir.

"Dil və düşüncə" müxtəlif mürəkkəb məsələlərin kompleksindən ibarətdir. Dilçilik təliminin xüsusi sahəsini təşkil edən bu problem dövrümüzün elmi mühitində xüsusi diqqət mərkəzində durur.

1.01. DİL İLƏ DÜŞÜNCƏ VƏ TƏFƏKKÜRÜN VƏHDƏTİ NƏZƏRİYYƏSİ

"Dil və düşüncə" problemini ətraflı mənimsəmək üçün dilin, düşüncənin və onun tərkibinə aid təfəkkürün mahiyyətini bilmək olduqca zəruridir. Bunların mahiyyətini dərk etmək isə dilin, düşüncənin və təfəkkürün xarakteri, insan cəmiyyətində rolu və əhəmiyyəti haqqında minimum təsəvvürə malik olmağı tələb edir.

DİL HAQQINDA ANLAYIŞ

Dilçiliyin obyekti kimi dil müxtəlif dilçilik fənlərində bu və ya digər istiqamətdə ətraflı şəkildə öyrənilir. Burada biz mövzu ilə əlaqədar dilin ancaq bəzi məsələlərini xatırlatmaqla kifayətlənəcəyik.

Dil ictimai əmək prosesində insanlar arasında ünsiyyət vasitəsi məqsədi ilə meydana çıxmışdır. Ünsiyyət müxtəlif vasitələrlə ola bilər. Lakin dil hər cür ünsiyyət vasitəsindən fərqlənərək onların ən başlıcasıdır. İnsanlaşma

ilə bərabər formalaşmış dil cəmiyyətin həyatında böyük rol oynamış və indi də xüsusi əhəmiyyət kəsb etməkdədir.

Dil insanın bütün fəaliyyət dairəsini əhatə edir. Elə bir sahə yoxdur ki, insan orada dilə müraciət etməsin. Dil insanların sosial tələblərini ödəmək, qazanılmış nailiyyətləri möhkəmləndirmək və başqalarına çatdırmaqda əvəzsiz vasitədir.

Buradaca deməliyik ki, dil irsi deyildir. Müxtəlif xalqların içərisinə düşən yad və körpə uşaq öz əcdadının dili ilə dil açmır, ətraf mühitdə eşitdiyi dili öyrənir, o dildə danışmağa başlayır. İnsan cəmiyyətindən ayrılıb heyvanat aləminə düşən uşaqların həyatı da bunu sübut etmişdir. Müxtəlif şəraitdə bir çox insan övladı fillər, ayılar, canavarlar, meymunlar arasına düşmüşdür.[1] Dünyada 40-dan çox belə hadisə qeydə alınmışdır. Heyvanlar arasında olan uşaqlar nəinki öz ana dillərində dil açmamışlar, hətta düşdükləri mühitdə heyvanlar aləminə uyğunlaşmış, onlar kimi yaşamış və hərəkət etmişlər.

Dünyada iki növ dil mövcuddur. Bunlardan biri təbii, digəri süni dildir. Təbii dillər tarixən cəmiyyət kollektivləri tərəfindən yaranmış və tədricən formalaşmışdır. Təbii dil hər bir xalqın doğma və əsas dilidir. Süni dil isə köməkçi xarakterə malikdir. Hər bir süni dilin layihəsi ayrı-ayrı şəxslər tərəfindən irəli sürülür. Süni dil təbii dil əsasında yaradılır.[2]

Səsli informasiya olan hər bir dil müəyyən quruluşa malikdir. Bununla bərabər, dil sistem təşkil edir. Sübut olunub ki, geniş mənada dil sistemlər sistemidir. Bu sistemlərin hər biri sadə və mürəkkəb cəhətlərlə, xüsusi qayda və qanunlarla səciyyələnir.

---

[1] XVII əsrdə ayılar arasında olan oğlan uşağı, XX əsrdə Hindistanda canavarlar arasında qızlar tapılmışdır.

[2] Bu növ dillərdən daha çox elmi informasiya ifadə etmək üçün istifadə olunur. Süni dil, onun səciyyəvi cəhətləri haqqında dərsliyin IX fəslində geniş bəhs edilir. Ona görə də bu bölmədə süni dilə dair geniş bəhs açmağı məsləhət bilmədik.

Dil insan düşüncəsi üçün zərurət təşkil edir. O, düşüncənin praktik və maddi cəhətidir. İnsan düşüncəsinin başlıca silahı olan dil maddidir, ona görə ki, bu, səslərlə ifadə olunur. İnsan düşüncəsi ancaq dil əsasında ola bilər. Dilsiz, öz-özünə düşüncə qeyri-mümkündür. İnsan fikri düşüncə prosesində meydana gəlir. Bu proses dil üzərində və onun vahidi vasitəsilə həyata keçir. Belə prosesdə dil bir neçə vəzifə yerinə yetirir.

1) Dil fikrin formalaşmasında iştirak edir. Hər hansı bir fikir ancaq dil vahidləri vasitəsilə aydın və dəqiq formalaşır. Həmin nəzəri müddəanı bəzi alimlər mübahisəli hesab edirlər. Burada mübahisə doğuran, əsasən, daxili nitq, öz-özünə düşünmə problemidir. Belə ki, bir sıra tədqiqatçılar insanın öz-özünə fikirləşdiyi zaman, guya, dilə müraciət etmədiyi qənaətinə gəlmişlər. Bu, belə deyildir. İnsan danışanda da, danışmayanda da sözlə fikirləşir.

2) Dil insan fikrini ifadə etməkdə, bununla cəmiyyət üzvləri arasında fikir mübadiləsi yaratmaqda xüsusi rol oynayır. Fikir mübadiləsi bir neçə istiqamətdə olur:

a) İnsan dil vasitəsilə öz fikrini ifadə edir;
b) Başqasının fikrini öyrənir;
c) Qarşılıqlı fikri anlaşma imkanı əldə edir.

Deməli, fikrin bütün reallığı dildə təzahür edir. Fikirləşmə zamanı xüsusi rol oynayan səsli dil düşüncənin duyğudan təfəkkürə keçmə prosesinə imkan yaradır.

DÜŞÜNCƏ HAQQINDA ANLAYIŞ

Düşüncə çox geniş anlayışdır. İnsanın real aləmi dərk etməsinin bütün formaları bu anlayışa aiddir. Düşüncə insan beyninin köməyi ilə fikirləşmənin bütün psixi və ideal proseslərinin vəhdəti kimi təsəvvür olunur.

Yaradıcı şəkildə düşünmək bacarığı insan üçün, onun həyatı və fəaliyyəti üçün ən zəruri cəhətdir. Düşüncə insanın hər bir fəaliyyət dairəsində istifadə olunur. Bunun nəticəsində

elmi kəşflər, yeniliklər meydana çıxır ki, bu da insanın əməyini asanlaşdırır, onun yaşayış tərzinin inkişafına təsir edir.

Düşüncənin ifadə aləti dildir. Buna görə də dilsiz düşüncə mövcud ola bilmir. İnsan düşüncəsinin formalaşması və inkişafında dilin xüsusi rolu olmuşdur.

Bizi əhatə edən xarici aləmin dərk edilməsində düşüncənin rolu və vəzifəsi əvəzolunmazdır. Xarici aləm necədir? Xarici aləm, bütün kainat materiyadan ibarətdir. Bu materiyalar insan düşüncəsindən asılı olmayaraq mövcuddur. Real varlıq insan düşüncəsi ilə əmək prosesində öyrənilir.

Dünyanı dərk etmək birdən-birə yaranmamış, bu, tədricən, təcrübə və ənənələrdə pillələr, mərhələlər üzrə olmuşdur. Həmin proses insan fəaliyyətində indi də eyni qaydada davam və inkişaf edir. Ümumi şəkildə səciyyələndirsək, dərketmə prosesinin iki mərhələsi vardır: ilkin (birinci) mərhələ və ali (ikinci) mərhələ.

İlkin mərhələ duyğu, qavrayış və təsəvvürlə meydana gəlir. Buna görə də bu mərhələ *hissi dərketmə*, yaxud *hissi mərhələ* adlanır.

Ali mərhələ anlayış, mühakimə və əqli nəticə əsasında yaranır. Məntiqi formalarla ifadə olunan bu mərhələyə *məntiqi dərketmə*, yaxud *rasional mərhələ* də deyilir.



Cədvəl 2

Düşüncə prosesi duyğudan əqli nəticəyə doğru istiqamətlənir. Duyğu, qavrayış, təsəvvür, anlayış, mühakimə və s. bir-biri ilə zəncirvarı bağlıdır. Düşüncə proseslərində bunların hər birinin müəyyən vəzifələri vardır.

Duyğu. Hissi idrak duyğulardan başlayır. Onlar ilk pillə kimi bütün idrak proseslərinin bünövrəsini təşkil edir.

Duyğular – indiki anda hiss üzvlərinə təsir edən əşya və hadisələrin ayrı-ayrı keyfiyyət və xassələrinin beyində inikasıdır.

Duyğularda əşya və hadisələrin ancaq ayrı-ayrı keyfiyyət və xassələri əks olunur. İşığın, səsin, təzyiqin, istinin, soyuğun və sairin əks etdirilməsi buna misal ola bilər.

Duyğular müxtəlifdir. Onları, əsasən, üç qrupa ayırırlar: 1) Görmə, eşitmə, iybilmə, dadbilmə və dəri duyğuları eksteroseptiv və ya xarici duyğular adlanır. 2) Aclıq, toxluq, susuzluq duyğuları və s. interoseptiv və ya daxili duyğular qrupuna daxildir. 3) Hərəki və müvazinət duyğuları isə üçüncü qrup duyğulara misal ola bilər.

Xarici aləmin dərk olunmasında duyğuların özünəməxsus rolu vardır. İnsan duyğular vasitəsilə əşyanın həcmi, forması, rəngi, temperaturu, səsi, qoxusu və s. barəsində məlumat alır. Bu məlumatlar əşya və hadisələr haqqında yaranan obrazların, necə deyərlər, hüceyrəsinə daxil olur, öz əksini müxtəlif dil hadisələrində tapır.

Qavrayış. Hiss üzvlərinə bilavasitə təsir edən əşya və hadisələrin bütün əlamət və xassələrinin bütövlükdə inikasıdır. Onun duyğudan fərqini aydınlaşdırmaq üçün meyvənin bir növü olan almaya nəzər yetirək. Alma xarici cəhətinə görə girdə və uzunsovdur, özünəməxsus rəngi vardır, daxili cəhətinə görə şirin, acı, turş və ya kəmşirin olur, bunun tərkibi müxtəlif vitamin və digər şeylərdən ibarətdir. Lakin alma dedikdə, onun bütöv əlamət və xassələri yox, bunları bir bütöv halında özündə əks etdirən

bir şey – meyvənin bir növü nəzərdə tutulur. Yaxud, qarın əlamətinə nəzər yetirək. Qar ağ rəngli, yumşaq, ulduzvarı və s. olur. İnsan yağan qara baxanda bu əlamətləri ayrı-ayrı yox, bütövlükdə qavrayır. Hiss üzvlərinə təsir edən əşyaların belə bütöv obrazı qavrayış adlanır.

Duyğulardan fərqli olaraq, qavrayış daha mürəkkəb idrak prosesidir. Onun tərkibinə duyğularla yanaşı, insanın keçmiş təcrübəsi də daxildir. Bundan başqa, qavrayış nitq, təfəkkür, iradə və s. kimi mürəkkəb psixi proseslərlə bilavasitə bağlıdır.

Təsəvvür. Keçmiş duyğu və qavrayışlar əsasında əmələ gəlsə də, özünəməxsus xüsusiyyətləri ilə seçilir. Yuxarıda qeyd edildiyi kimi, qavrayış indiki anda hiss üzvlərimizə təsir edən əşya və hadisələrin beyində inikasıdır. Təsəvvür isə indi bilavasitə təsir etməyən, lakin keçmişdə bu və ya başqa şəkildə qavranılan əşya və hadisələrin surəti kimi formalaşır.

Təsəvvürlər əşyanın qavrayışa nisbətən daha ümumi inikasıdır. Duyğu və qavrayışlar kimi, təsəvvürlər də müxtəlif dil hadisələri ilə bilavasitə bağlıdır.

İnsan əldə edilmiş təsəvvür əsasında yeni-yeni təsəvvürlər yarada bilir. Bu təsəvvürlər xəyalən yaranır və real olmayan əşyanı da əks etdirir. Belə bir düşüncə prosesi *təxəyyül* adlanır. Təxəyyülün köməyi ilə insanda nəinki mövcud olan, hətta olmayan əşya haqqında da yaradıcı şəkildə obraz əmələ gəlir.

İnsanın real aləmi dərk etməsi düşüncə prosesi, duyğu, qavrayış və təsəvvürlərlə bitmir. Düşüncə prosesi getgedə genişlənir və dərinləşir. Bütün bu keyfiyyətlər təfəkkürün köməyi ilə həyata keçir.

TƏFƏKKÜR HAQQINDA ANLAYIŞ

İnikas nəzəriyyəsindən tam aydın olur ki, əşya və hadisələrin daxili cəhətini dərk etmək, onları hərtərəfli öy-

rənmək üçün hissi dərketmə tələbatı ödəmir. Belə ki, birinci mərhələ geniş ümumiləşdirmə və mücərrədləşdirmə imkanına ancaq məntiqi təfəkkür səviyyəsində mövcuddur.

Təfəkkür əhatəli anlayışdır. Bu, anlayış (məfhum), mühakimə (hökm) və əqli nəticə üzərində reallaşır.

Təfəkkür anlayışdan başlayır. Hər bir anlayış mühakimə prosesində yaranır. Mühakimədə obyektiv münasibətlər, əşya və hadisələrin əlaqəsi əks olunur.

Deməli, maddi aləmin və onun qanunlarının dərk edilməsində həlledici mərhələ ikinci mərhələdir, yəni məntiqi təfəkkürdür. Çünki məntiqi təfəkkür hissi dərketməyə nisbətən bütün varlığı daha dolğun və ətraflı göstərə bilir. Bütün deyilənlərdən bir daha aydın olur ki, təfəkkür duyğu, qavrayış və təsəvvürlə möhkəm əlaqə və vəhdətdə olsa da, idrakın daha yüksək pilləsidir.



Cədvəl 3

Təfəkkür əşya və hadisələrin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir. Maddi aləmin dərin və dolğun inikası isə onun dərk olunması-

dır. Bu dərkedilmə asandan çətinə, konkretdən mücərrədə keçə bilən mürəkkəb bir prosesdir.

Təfəkkürün özünəməxsus əlamət və keyfiyyətləri mövcuddur:

1. Təfəkkür üçün ümumiləşdirmə başlıca əlamətdir. İnsan mürəkkəb xarici aləmin əhatəsində yaşayır. İnsana təbiət və cəmiyyətin müxtəlif növ hadisələri təsir edir. Bunun əsasında insan müxtəlif sahələrdən çoxmiqdarlı məlumat alır, onun zəruri cəhətlərini yığcam şəkildə ümumiləşdirir. Belə ümumiləşdirmə əsasında isə müəyyən nəticə çıxarır. Nəticə çıxarma mürəkkəb psixoloji prosesdir. Deyilənlərə əsasən, təfəkkür varlığın ümumiləşdirilmiş şəkildə inikası hesab olunur.
2. Təfəkkür üçün zəruri olan cəhətlərdən biri də mücərrədləşdirmədir. Mücərrədlik təfəkkürün yüksək əlamətidir. Bu əlamət ətraf mühitin sirlərinin açılmasında, mənimsənilməsində xüsusi əhəmiyyət kəsb edir.
3 Real varlığın ardıcıl və müntəzəm əks olunmasına imkan yaratmaq təfəkkür üçün çox vacib cəhətdir. Maddi aləm müntəzəm olaraq ardıcıl şəkildə əks olunmasa, varlıq haqqında tam bilik əldə edilə bilməz. İnsanlığın təşəkkülü tarixində təfəkkürün bu əlaməti xüsusi olaraq diqqət mərkəzində olmuşdur.

Təfəkkürün keyfiyyəti bütün insanlarda eyni səviyyədə olmur. Buna görə də ***"dərin təfəkkür"*** və ***"səthi təfəkkür"*** anlayışları meydana çıxmışdır. Dilçilik sahəsində təfəkkürün dərinliyi dil hadisə və faktlarının, onların əlaqə və əlamətlərinin dərindən öyrənilməsi bacarığı ilə ölçülür. Dilçilikdə ***"qırmızı qələm", "qara kağız"*** ifadələri təhlil olunarkən ***"qırmızı"*** və ***"qara"*** sözləri əlamət bildirdiyi üçün sifət hesab olunur. Bu sözlərin sifət olması bütün dərinliyi ilə müəyyənləşdirilmişdir. Ona görə də ***"qara"*** və ***"qırmızı"*** sözlərinin sifət olması dil haqqında elmdə aksiomdur.

Təfəkkürün bir sıra növləri mövcuddur. Onlardan ən başlıcaları aşağıdakılar hesab olunur:

1. Konkret təfəkkür;
2. Mücərrəd təfəkkür;
3. Nəzəri təfəkkür;
4. İntuitiv təfəkkür;
5. Analitik təfəkkür;
6. Dialektik təfəkkür;
7. Empirik təfəkkür;
8. Yaradıcı təfəkkür.

Bunların hər biri müəyyən cəhətlərə görə digərindən fərqlənir. Məsələn, konkret təfəkkür hər hansı bir obyektin konkret modeli ilə qarşılıqlı münasibətdə olur və s.

İnsan fəaliyyətinin müxtəlif sahələri ilə bağlı bir çox təfəkkür növləri (bədii təfəkkür, obrazlı təfəkkür, riyazi təfəkkür, məntiqi təfəkkür və s.) də meydana çıxmışdır.

Obrazlı təfəkkür bədii yaradıcılıqla bağlıdır. Belə ki, yazıçı və şairlərdə özünəməxsus təfəkkür formalaşır ki, buna elmi ədəbiyyatda ***obrazlı təfəkkür*** deyilir. Obrazlı təfəkkür digərlərindən onunla seçilir ki, burada əşya və ya hadisələrin mahiyyəti obrazlar vasitəsilə açılıb ümumiləşdirilir.

Elmi təfəkkür insanın elmi fəaliyyəti ilə əlaqədardır. Elmi şəkildə düşünə bilmək bacarığı bu növ təfəkkür üçün zəruridir. Burada faktın təsvirini vermək, onu təhlil edib nəticə çıxarmaq ən başlıca şərtdir.

Yeri gəlmişkən, bir neçə söz də canlıların – heyvanların, quşların və digər varlıqların "təfəkkürü" haqqında demək lazımdır. Kainatın əşyalarını eyniləşdirmək, oxşatmaq və ya fərqləndirmək bacarığı heyvanlarda – canlılarda da vardır. Şübhəsiz ki, bu cəhət olmasa, heyvanat aləmi həyatda istiqamət götürə və yaşaya bilməzdi. Heyvanlar yaşamaq üçün münasib yer seçir, balalarını yırtıcılardan qoruyur, onları yemləyir və s. Durna ilin fəsillərində iq-

lim və digər şəraitlə bağlı şimala və cənuba köçüb gedir. Durna qatarlarındakı səliqə, intizam insanı valeh edir. Hörümçəyin düzəltdiyi tor ən möcüzəli insan qabiliyyətini xatırladır. Elm bunları necə qiymətləndirir?

Əvvəla deməliyik ki, insanla "heyvan təfəkkürü" arasında çox böyük fərqlər vardır:

1. Heyvanların davranışı nə qədər çoxcəhətli olsa da, onların əsasını şərtsiz reflekslər zəminində əmələ gələn instinktlər təşkil edir.
2. Heyvanın "təfəkkürü" insana nisbətən olduqca bəsitdir. Psixologiyada onun xüsusiyyətlərini heyvanların əqli davranışı baxımından təhlil edirlər. İnsanın təfəkkürü heyvanların əqli davranışından köklü surətdə seçilir. İnsan təfəkkürünün xüsusiyyətləri bənzərsizdir.
3. "Heyvan təfəkkürü" bəsit olduğu üçün ümumiləşdirmə və mücərrədləşdirmə keyfiyyətinə qadir deyildir.
4. İnsan öz təfəkküründə qarşıya məqsəd qoya bilir və ona nail olmağa səy göstərir.
5. Nəhayət, ən tez "sözə baxan" heyvan insan kimi düşünə və ya fikirləşə bilmir. Bu yüksək keyfiyyət – təfəkkür prosesi ancaq insana məxsusdur.

Təfəkkür prosesinin mahiyyəti və xarakterinin öyrənilməsi ilə fiziologiya elmi də məşğul olmuşdur. Bu sahədə akademik İ.P.Pavlovun təlimi məşhurdur. Onun I və II siqnal sistemi haqqında nəzəriyyəsi təfəkkürün fəaliyyət prosesinin açılmasında xüsusi əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd edildiyi kimi, kainatın hər hansı bir əşya və hadisəsi canlıların üzvlərinə təsir edir. Bu siqnal sistemi həm insana, həm də heyvana məxsusdur. Deməli, bütün canlılar üçün ümumidir. Lakin Pavlovun müəyyən etdiyi kimi, II siqnal sistemi ancaq insanlara aiddir. İnsanın hər iki siqnal sistemi birgə fəaliyyətdə olur. Lakin II siqnal sistemi insanların bir-birinə nəsə demək istədiyi prosesi

yaratmaqdır. II siqnal sistemi idarəedicidir, onun əsas vəzifəsi ünsiyyət vasitəsi olan nitq əmələ gətirməkdir.

Təfəkkür prosesi təbiətən ümumbəşəri xarakterə malikdir. Buna görə də hansı dildə danışılmasından asılı olmayaraq, təfəkkürün qanunları bütün insanlar üçün eynidir. Yer üzündəki hər bir insanın düşüncəsi real varlığı vahid qanun əsasında əks etdirir. Əgər belə olmasaydı, bir dildən digərinə tərcümə qeyri-mümkün olardı.

Təfəkkürün zəruri ifadə forması dildir. Bütün məntiqi qanunlar dil vahidləri, dil vasitələri əsasında mövcud olur.

Dil ilə təfəkkürün oxşar və fərqli cəhətləri vardır. Onların oxşar cəhətləri dil və düşüncənin münasibətində aydınlaşır. Bunların konkret fərqli cəhətləri aşağıdakılardır:

1. Dil üçün spesifik cəhət onun ünsiyyət vasitəsi, təfəkkürün səciyyəvi cəhəti isə varlığın ümumiləşmiş şəkildə əks etdirilməsinin yüksək forması olmasıdır.
2. Dil ilə təfəkkürün fərqlərinin biri də odur ki, bəzən eyni fikir dildə bir neçə formada ifadə edilə bilər. Məsələn, ***dilin yaradıcısı xalqdır, dil xalq tərəfindən yaranır, dil xalq yaradıcılığı məhsuludur, dil ümumxalq əməyinin nəticəsidir*** və s.
3. Dil sözlərdən, söz birləşmələrindən, cümlələrdən, təfəkkür isə anlayış, mühakimə və əqli nəticədən istifadə edir.

DİL VƏ DÜŞÜNCƏNİN MƏNBƏYİ

İnsanın ən yüksək keyfiyyətlərindən biri onun düşünmək, fikirləşmək bacarığıdır. Müəyyən məsələlərlə bağlı insan fikri yaranır, formalaşır və bir adamdan o birinə çatdırılır. Fikir prosesi təfəkkürün ayrı-ayrı vahidlərindən ibarət olur.

İnsanda əmələ gələn hər bir fikir beynin məhsuludur. Ona görə də fikirləşmə, düşünüb-daşınma prosesi insanın beynində gedir. Beyin qabığının fəaliyyətində müəyyən sistemlilik vardır.

Onun oyanma və ləngimə prosesləri daima qarşılıqlı münasibətdə olur. Beyin xüsusi tərkibə, quruluşa və fəaliyyətə malikdir. Tədqiqatçılara görə, insan beyni 10 milyard neyrondan – əsəb hüceyrələrindən ibarətdir. Bütün neyronlar bir-biri ilə bağlıdır. Beynin fəaliyyətində bunlar mühüm rol oynayır. İnsan orqanizminin bu hissəsi sol və sağ olmaqla iki yarımkürədən ibarətdir. Bunların hər birinin özünə aid fəaliyyət dairəsi və vəzifələri mövcuddur. Beyin idarəedici orqandır. Müxtəlif sahələrə dair idarəetmə beynin ayrı-ayrı zonalarında yerləşir.

Şəkil 1

Müəyyənləşdirildiyinə görə, konkret təfəkkür beynin sağ yarımkürəsi ilə, mücərrəd təfəkkür isə sol yarımkürəsi ilə bağlıdır.

İnsanın nitq fəaliyyətinə məxsus mərkəz beynin ***sol yarımkürəsindədir.*** Sol yarımkürənin *boyunardı* hissəsi dilin məntiqi-qrammatik əlaqələrini idarə edir.

İnsanda hər növ fikir ancaq dil vasitələri ilə əmələ gəlir. İnsan danışanda sözləri *tələffüz edir, eşidir,* öz-özünə fikirləşəndə, düşünəndə isə sözləri *təsəvvür edir.* Hər bir düşüncənin varlığı ancaq sözlə, ifadə ilə mövcud olur.

Bütün deyilənlərdən aydın olduğu kimi, beyin insanın həm dilinin, həm də düşüncəsinin, təfəkkürünün mənbəyidir.

DİLLƏ DÜŞÜNCƏNİN MÜNASİBƏTİ VƏ ƏLAQƏSİ

"Dil və düşüncə" probleminin əhatə dairəsində dillə düşüncənin münasibəti, bunların əlaqəsinin dəqiq aydınlaşdırılması zəruri məsələlərdən birini təşkil edir.

Dilin düşüncə, təfəkkürlə münasibət və əlaqəsi məsələsi elm aləmində ta qədimdən diqqəti cəlb etmişdir. Bu məsələdən təkcə dilçilikdə deyil, başqa elm sahələrində də bəhs olunmuşdur. Dil və düşüncənin münasibəti öyrənilərkən məsələyə müxtəlif mövqedən yanaşıldığı üçün birbirinə zidd olan bir sıra mülahizələr meydana gəlmişdir:

1) Dillə düşüncə eyniləşdirilmiş;
2) Dil düşüncədən fərqləndirilmiş;
3) Dillə düşüncənin müəyyən münasibətdə ola bilmədiyi göstərilmişdir.

Dillə düşüncəni eyniləşdirənlərdən biri alman filosofu Vilhelm fon Humboldt olmuşdur. O, bu iki anlayışı bölünməz hesab edir və bunun nəticəsində onları eyniləşdirirdi. Dövrünün məşhur filoloqu olan ingilis dilçisi Maks Müller deyirdi ki, dil və təfəkkür eyni şeyin yalnız iki adıdır. O, bunları ayrı-ayrı müstəqil anlayış kimi təsəvvür etmirdi. Dil ilə düşüncəni eyniləşdirmək fikri müasiri olduğumuz XX əsrdə də davam etmişdir. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən hətta görkəmli dilçi alimlər də dil və düşüncəni fərqləndirməmişlər. Məşhur Amerika dilçisi Leonard Blümfild təfəkkürü, insanın öz-özünə danışmasını daxili nitq adlandırmış, bunun nəticəsində dil ilə təfəkkürü eyniləşdirmişdir. Onun fikrincə, bu anlayışın hər ikisi ünsiyyətə aiddir.

Bəzi alimlər dil ilə düşüncəni – təfəkkürü bir-biri ilə bağlı münasibətdə görmüş və onları fərqləndirməyə çalışmışlar. Bu mülahizənin tərəfdarlarından biri Ferdinand de Sösür olmuşdur. O, hər iki anlayışı fərqləndirmiş, lakin bununla bərabər təfəkkürü dilin bir hissəsi hesab etmişdir. Bu, doğru deyildir.

Fransız dilçisi Emil Benvenist bu məsələdə Sössürdən qabağa getmiş və fikrin məzmununun dillə ifadə olunduğu müddəasını əsaslandırmışdır. Benvenistə görə, dil təfəkkür deyil, bunların hər ikisi müstəqil anlayışlardır.

Elmi ədəbiyyatda dillə düşüncənin müəyyən məqamda heç bir münasibətdə olmadığı fikri təbiət elmləri nümayəndələri tərəfindən irəli sürülmüşdü. Bu barədə fransız riyaziyyatçısı Jak Adamarın mülahizələri çox maraqlıdır. O deyir: "Mən təsdiq edirəm ki, düşünəndə mənim ağlımda tamamilə söz olmur. Mən düşünməyə başlayan andaca bütün sözlər yoxa çıxır; sözlər mənim düşüncəmdə ancaq mən tədqiqatı tamamlayanda və ya məşğul olmayanda özünü göstərir".[1]

Bu məsələ ilə bağlı deyilənlərlə yanaşı, daha bir çox fikir və mülahizələr də vardır. Dil və düşüncə ilə əlaqədar həqiqi konkret görüşlər aşağıdakılardır:

1. Qarşılıqlı münasibət. Dil ilə düşüncədə həm yaxınlıq, həm də oxşar cəhətlər mövcuddur. Bu, heç də onların eyniyyət kimi təsəvvür edilməsinə əsas vermir. Çünki bunların fərqli əlamətləri də az deyildir.

Dil və düşüncə arasında qarşılıqlı münasibət mövcuddur. Bu münasibət ikitərəflidir. Buna görə də məsələyə dilin düşüncəyə, düşüncənin dilə münasibəti kimi baxılmalıdır. Dilə münasibətdə düşüncənin, düşüncəyə münasibətdə də dilin konkret vəzifələri vardır. Bunların bir-birinə təsiri də qarşılıqlı xarakterdədir.

2. Dialektik əlaqə. Dil ilə düşüncə və onun tərkib hissələri, vahidləri, formaları arasında möhkəm dialektik əlaqə hökm sürür. Bu əlaqə nədən ibarətdir?

1) Dil düşüncəsiz, düşüncə də dilsiz ayrıca yarana və yaşaya bilməz.
2) Həm dil, həm də düşüncə ictimai əmək sayəsində bir mənbədən yaranmışdır. Buna görə də hər ikisi ictimai hadisədir.

[1] Ж.Адамар. «Исследование психологии процесса изобретения в области математики». М., 1970, с.72.



Cədvəl 4

3) Bu iki kateqoriyanın hər birinin varlığı digəri üçün zəruridir. Bunlardan biri digəri üçün forma məzmuna, məzmun formaya gərəkli olan qədər lazımlı və əvəzedilməzdir.
4) Hər iki fikrin yaranması üçün dil ilə düşüncənin qarşılıqlı fəaliyyəti vacibdir. Bunlardan birinin iştirakı olmadan beyində fikir yarana bilməz.

Dil ilə düşüncənin əlaqəsini eyniyyət hesab etmək həqiqətə uyğun olmaz. Çünki bunlar arasında eyniyyət yox, üzvi xarakterli vəhdət təşkil edən möhkəm əlaqə vardır.

3. Daimi asılılıq. Dil ilə düşüncə yarandığı andan bir-biri ilə asılı vəziyyətdədir. İnsan danışarkən onun düşüncəsində nəzarətin xüsusi mexanizmi işləyir ki, bunun köməyi ilə hər bir anlayış ifadəsi üçün lazımi söz axtarılır, seçilir və nitqdə işlədilir. Nitqin vasitəsilə insanlar öz düşüncə fəaliyyətinin nəticələrini ifadə edir və möhkəmlən-

dirirlər. Bu asılılıq heç vaxt zəifləmir, dilin fəaliyyət sahəsi ilə düşüncənin fəaliyyət sahəsi arasında daimi asılılıq fəal şəkildə özünü göstərir.

1.02. DİL VƏ TƏFƏKKÜRÜN VAHİDLƏRİ

İstər dilin və istərsə də təfəkkürün vahidləri məsələləri son dərəcə mürəkkəb xarakterlidir. Ona görə də əvvəlcə bunların mahiyyətini, vəzifələrini, nədən ibarət olduqlarını qısa da olsa xatırlatmaq yerinə düşər.



Cədvəl 5

1. DİL VAHİDLƏRİ

Dil vahidi anlayışı XX əsrdə elmin diqqətini daha çox cəlb etmişdir.[1] Ümumi şəkildə götürüldükdə dil tam və bütöv formada ictimai hadisədir. Bu, təbiətinə görə ünsürlərdən, hissələrdən ibarətdir ki, bunların da hər biri müəyyən quruluşa, vəzifəyə malikdir. Dilçilikdə bunlar "dil vahidi" termini ilə ifadə edilir.

[1] Dilçilik elmində dilin vahidləri problemi V.M. Solntsevin "Язык как системно-структурное образование" (Москва, 1971) adlı əsərində geniş şərh olunmuşdur. Əlavə məlumat almaq üçün həmin əsərə müraciət etmək olar.

Dil fəaliyyətdə olarkən onun vahidləri cümlə yaradır və mənalı informasiya ifadə etməyə yönəlir. Deməli, dil vahidləri ünsiyyət vasitəsi olan dilin varlığını, onun əsasını təşkil edir. Buna görə də mövcud olan hər hansı bir dil öz vahidləri ilə təsəvvür olunur. Vahidlərdən kənarda dil yoxdur.

Dil vahidləri hansılardır? Dilçilikdə dil vahidlərini müəyyənləşdirmək məqsədi ilə bir sıra prinsip və meyarlardan istifadə edilmişdir. Bunların əsasında dil vahidləri sırasına konkret vahidlərlə bərabər, bəzi dil hadisələri də aid edilmişdir. Məsələn, *fonem, morfem, söz, frazeoloji birləşmə, sərbəst söz birləşməsi, cümlə, cümlə üzvü, konstruksiya, vurğu, intonasiya* və s.

Dil vahidlərindən bəhs edilərkən nitq vahidləri məsələsini də xatırlamaq lazım gəlir. Çünki nitq prosesi də ayrı-ayrı vahidlərə bölünür və ümumi ünsiyyətə xidmət edir. Dilçilikdə dil və bu barədə konkret nəticələr söylənilmiş, dəqiqləşmələr aparılmışdır. Bəzi vahidlərin həm dilə, həm də nitqə məxsus olduğu göstərilmişdir. Məsələn, söz, cümlə və sair vahidlər hər ikisinə aiddir. Lakin vurğu, fasilə, intonasiya vahidləri isə nitqə məxsusdur.

Dil vahidləri müəyyənləşdirilərkən dilin sistemində onların rolu nəzərə alınmış və buna əsasən də bölgülər aparılmışdır:

1) Əsas və qeyri-əsas dil vahidləri;
2) Məna daşıyan və məna daşımayan vahidlər.

İkinci bölgüyə görə, söz, cümlə və sair məna daşıyan dil vahidləri hesab edilmişdir. Dil vahidlərinin əsas və qeyri-əsas deyə iki yerə bölünməsində həmrəylik olmamış, ciddi mübahisələr yaranmışdır. Dilçilərdən Q.Qlison fonemi əsas dil vahidi kimi təsəvvür etmişdir. Onun fikrincə, fonemsiz heç bir dil vahidi yarana və fəaliyyət göstərə bilməz. A.İ.Smirnitski isə fonemi nəinki əsas, hətta adi dil

vahidi hesab etmirdi. Fonemin başqa dil vahidinin yaradılmasında, onların fərqləndirilməsində vasitə olduğunu, heç bir məna ifadə etmədiyini göstərir və bununla fikrini sübuta yetirirdi. A.İ.Smirnitskiyə görə, dilin başlıca vahidi sözdür. Çünki hər bir söz dilin leksik sistemində və qrammatik quruluşunda həlledici rola malikdir. Dilçi İ.İ.Revzin başlıca dil vahidi dedikdə ancaq morfemi nəzərdə tutmuşdur. O, bu fikri irəli sürərkən morfemin kök və budaq morfemlərdən ibarət olduğuna nəzər yetirmişdir. Məlumdur ki, kök morfem söz deməkdir, lakin budaq morfem şəkilçi anlayışını ifadə edir ki, bu da əsas dil vahidi rolunda çıxış edə bilməzdi.

Y.S.Stepanov əsas dil vahidləri cərgəsinə fonem, morfem və konstruksiyanı daxil etmişdir.

Göründüyü kimi, dil vahidləri məsələsinin aydınlaşdırılması heç də asan yol keçməmişdir. Bu sahədə indi də mübahisələr davam etməkdədir.

Dil vahidlərinin ümumi və xüsusi əlamətlərinin təhlili nəticəsində aşağıdakı vahidlər müəyyənləşdirilmişdir: söz, söz birləşməsi və cümlə.

Dilin vahidləri, adətən, sadə və mürəkkəb olur. Məsələn, söz sadə dil vahididir. Lakin söz birləşməsi və cümlə sadə dil vahidlərinin kombinasiyasından əmələ gəldiyi üçün mürəkkəb dil vahidləridir.

Hər bir dil vahidi düşüncə və dərketmə prosesində yaranıb formalaşır. Burada qrammatik kateqoriyalar xüsusi rol oynayır. Yaranmış hər bir dil vahidinin ifadə forması və konkret vəzifəsi vardır.

SÖZ. Dilin ən başlıca vahidi sözdür. Hər bir söz səs kompleksidir. Lakin hər cür səs tərkibini, səs toplusunu söz adlandırmaq mümkün deyildir. Məsələn, "aəyth" səs yığımına nəzər yetirək. Burada zahiri əlamət – səslənmə var, lakin çatışmayan cəhət mənadır. Deməli, hər hansı bir

dildə ancaq müəyyən mənaya malik olan səs kompleksi "aəyth" – "həyat" dil vahidi, yəni söz ola bilər.

Dilin lüğət tərkibini təşkil edən bütün sözlər mənşəyinə görə iki yerə bölünür: əsl sözlər, düzəltmə sözlər. Dildəki hər bir söz müəyyən tələbat əsasında anlayışla bağlı əmələ gəlir, nitqdə işlənmək hüququ qazanır.

SÖZ BİRLƏŞMƏSİ. Söz birləşməsi dildə əsas vahidlərdən hesab olunur. Bunun iki növü mövcuddur: sabit söz birləşmələri (*göz açmaq, boy atmaq, qələbə çalmaq, axırına çıxmaq*), sərbəst söz birləşmələri (*məktəb direktoru, ali məktəb tələbəsi, baş həkim*).

Hər bir söz birləşməsi anlayışla bağlı sözlərdən əmələ gəlir. Onun sxematik sistemi aşağıdakı formadadır.

Morfem → söz → söz birləşməsi

CÜMLƏ. Ən böyük dil vahidi olan cümlə sözdən və söz birləşməsindən ciddi şəkildə seçilir. Belə ki, cümlə, başqa dil vahidlərindən fərqli olaraq, nitq fəaliyyəti prosesində bu və ya digər məlumatı ifadə edir. Hər bir cümlənin əsasında söz və söz birləşməsi durur. Buna görə də bütün cümlələr sözdən və söz birləşmələrindən əmələ gətirilir. Bunun sxematik sistemi aşağıdakı qaydadadır:



Dildə mühakimə və əqli nəticənin tələblərinə müvafiq olaraq cümlənin bir neçə forma və növləri fəaliyyət göstərir.

Dil vahidləri arasında qırılmaz əlaqələr mövcuddur. Belə əlaqələr söz birləşməsi və cümlələrin formalaşmasın-

da özünü daha bariz şəkildə göstərir. Dil vahidləri arasındakı əlaqələrin vəhdəti onların varlığı, təşəkkül tapması və fəaliyyətdə olması üçün əsas təşkil edir.

2. TƏFƏKKÜR VAHİDLƏRİ

Təfəkkürün vahidlərindən bəhs edilərkən filosoflar bu anlayışı "təfəkkür kateqoriyaları", məntiqçilər isə "təfəkkür formaları" termini ilə adlandırmışlar. Dilçilik elmində isə bu məqsədlə "təfəkkür vahidləri" termininin işləndiyinə az təsadüf olunur.[1] Dilçilikdə bu termindən istifadə edilməsi tamamilə məqsədəuyğundur.

Təfəkkürün başlıca vahidləri bunlardır: *anlayış, mühakimə, əqli nəticə*. Bu təfəkkür vahidlərinin hər biri inikasın tamlığına, bütövlüyünə və digər xüsusiyyət və əlamətlərinə görə xarakterizə olunur.

1. Anlayış. İnsan bu və ya digər əşya və ya hadisəni başqasından fərqləndirərkən onların müxtəlif əlamətini, keyfiyyətini nəzərə alır. Hər bir əşya və hadisədə xüsusi – fərdi, yaxud ümumi cəhətlər olur. Bu xüsusi – fərdi cəhət onu fərqləndirir. Məsələn, Azərbaycan ərazisində çox göl vardır. Lakin Göygölü fərqləndirən onun həcmi, coğrafi yerləşməsidir. Bu özünəməxsus əlamətlər başqa göllərə xas deyildir. İnsan düşünən və danışan varlıqdır. Belə keyfiyyət başqa canlılarda yoxdur.

Əşya və hadisələrin ümumi və mühüm əlamətlərinin inikasından ibarət olan təfəkkür forması *anlayış* adlanır.

Anlayış əşya və hadisələri mövcud əlamətləri ilə əks etdirən təfəkkür vahididir. Hər bir anlayış mücərrədləşdirmə və ümumiləşdirmə nəticəsində möhkəmləndirilmiş əlaqələr sisteminin ünsürüdür. Məsələn, *müəllimlik, həkimlik, mühəndislik* anlayışdır. Bunlar öz məzmununa görə sənət-peşə bildirir.

[1] Bax: П.В.Чеснаков. «Основные единицы языка и мышления». Ростов-на Дону, 1966.

Hər bir anlayış müəyyən məzmun və həcmə malik olur. Məsələni aydınlaşdırmaq üçün dilçilik anlayışları – *"fonem"* və *"leksem"* anlayışlarını götürək. Bunların birincisi dilin səs sisteminə, digəri isə lüğət tərkibinə aiddir. Deməli, bu anlayışlar məzmunca dilin müxtəlif komponentlərinə məxsusdur.

Anlayışın həcmi dedikdə, əşya və hadisənin əlamətlərinin az və ya çox əhatə olunması və onun məcmusu nəzərdə tutulur. Məsələn, *"fonem"* və *"sait fonem"* anlayışlarına nəzər yetirək. Dilçilikdə "fonem" dedikdə, bütün sait və samit fonemlər, onların əlamətləri, xüsusiyyətləri geniş həcmdə təsəvvür olunur. Lakin *"sait fonem"* dar həcmdə ancaq saitlər haqqında anlayışdır.

Anlayış necə formalaşır? İnsan şüurunda hər hansı bir əşya və hadisəyə dair anlayışın formalaşması tədrici proses əsasında meydana çıxır. Bu proses bir neçə pillə üzrə keçir. Hər bir elmi anlayış müəyyən axtarışın nəticəsidir. Məsələn, "baş üzvlər" anlayışının meydana gəlməsinə fikir verək. Bu anlayışın formalaşması üçün onlarla dil vahidi – cümlə tədqiqata cəlb edilmiş, təhlil, sintez, mücərrədləşdirmə və konkretləşdirmə əsasında "baş üzv" anlayışı müəyyənləşdirilmişdir. Həqiqətən, cümlənin baş üzvləri onun ana xəttini, özəyini təşkil edir.

Məsələn:

Məktəbli ———————	gəldi
‖	‖
Ucaboy	tez
‖	‖
başıaçıq	gülə-gülə
‖	‖
qara saçlı	yavaş-yavaş

Bu nümunədə birinci cərgədə duran sözləri *"məktəbli"* sözünün, ikinci cərgədəki sözləri isə *"gəldi"* sözünün əvvəlində işlətmək olur. Lakin əsas məzmunu *"məktəbli gəldi"* sözləri ifadə edir. Elə buna görə də həmin cümlədə *"məktəbli"* və *"gəldi"* sözləri cümlənin baş üzvləri olub, birincisi onun mübtədası, ikincisi isə xəbəri vəzifəsində çıxış edir.

Elmin sahələrinə dair anlayışlar formalaşır. Məsələn, ədəbiyyatşünaslıq anlayışları, fizika anlayışları, kimya anlayışları və s.

Hər bir elmin anlayışlarını təsnif etmək əsasında onun anlayışlar sistemi müəyyənləşir. Dilçilik elminin də əsrlər boyu anlayışlar sistemi yaranıb formalaşmışdır. Bu sistemi yaradan anlayışlar arasında müəyyən münasibətlər və möhkəm əlaqələr vardır. Təfəkkür vahidi olan hər bir anlayışın dildə başlıca ifadə forması söz və söz birləşmələridir.

2. Mühakimə. Hər bir mühakimə anlayışla üzvi surətdə bağlıdır. Bunların biri digəri üçün zəruridir və biri olmasa, digərini təsəvvür etmək qeyri-mümkündür. Buna görə də mühakimə qurmaq üçün mütləq anlayış lazım gəlir. Lakin hər bir anlayışı meydana çıxarmaqdan ötrü də mühakimə gərəkdir.

Mühakimə bu və ya başqa anlayışın əlaməti aydınlaşdırıldıqda yaranır. Məsələn, *"adam"* dedikdə anlayışdır, *"adam düşünməyə qadirdir"* dedikdə mühakimədir. Yaxud, *"müharibə"* dedikdə anlayışdır, *"müharibə minlərlə fəlakətlərə səbəb olur"* dedikdə mühakimədir.

Deməli, mühakimə maddi varlıqların əlaqə, xüsusiyyət və münasibətlərini əks etdirən təfəkkür vahididir.

Təfəkkür vahidlərindən anlayışa nisbətən mühakimə daha mürəkkəb prosesdir. Belə ki, mühakimə bitmiş, tamamlanmış fikirdir.

Hər bir elm sahəsinin özünə aid müəyyən mühakimə sistemi olur. Dilçiliyin də öz mühakimə sistemi yaranmışdır. Bu sistem bütövlükdə dilçilik elmini təşkil edir.

Düşüncənin məhsulu olan mühakimənin dildə ifadə forması cümlədir.

3. Əqli nəticə. Təfəkkürün ən mürəkkəb vahidi əqli nəticədir. Əqli nəticə müxtəlif yollarla alınır. Məlumdur ki, insan düşüncə fəaliyyəti prosesində get-gedə varlığı, onun sirlərini dərk etdikcə yeni-yeni biliklər qazanır. Bunların çoxunu almaq üçün illərlə mənimsənilmiş biliklərə əsaslanılır. Bu proses elmi nəticələrlə davam və inkişaf etdirilir. Burada məntiqi formalarla alınan elmi nəticələr *əqli nəticə* adlanır. Bunların hər biri yekun və nəticədən ibarət olur.

Deməli, təfəkkür vahidi olan əqli nəticə bir və ya bir neçə mühakimədən əmələ gəlir. Əqli nəticə vasitəsilə bir və ya bir neçə mühakimədən yeni mühakimə alınır.

Əqli nəticə anlayış və mühakimədən onunla fərqlənir ki, burada hər bir fikir üzərində dərin və geniş məntiqi əməliyyatlar aparılır.

Dünya elmlərinin hər biri məxsusi əqli nəticələrə malikdir. Dilçilik elmi də bu bünövrə üzərində dayanır. Onun əqli nəticəsinin həcmi çox-çox böyükdür. Bütün dünya dilləri tədqiqata cəlb olunub dərindən öyrənildikcə dilçiliyin sərhədi get-gedə daha da genişlənir. Keçmiş təcrübələr əsasında əldə edilmiş dilçilik əqli nəticələri dil haqqında müasir elmin inkişafında xüsusi rol oynayır.

Əqli nəticənin dildə ifadə forması cümlədir. Bəzi alimlər əqli nəticənin ifadə vasitəsinin mürəkkəb cümlə olduğu fikrini irəli sürürlər. Bu fikir hələ də mübahisəli olaraq qalır.

Nəhayət, deməliyik ki, dil ilə təfəkkürün səciyyəvi cəhətləri – onların yaxın, oxşar və fərqli əlamətləri sözlə anlayışın, cümlə ilə mühakimənin münasibətində özünü daha qabarıq və aydın göstərir. Bunlara nəzər yetirək.

1.03. SÖZLƏ ANLAYIŞIN MÜNASİBƏTİ

Sözlə anlayışın münasibəti olduqca mürəkkəb və çoxcəhətlidir. Yuxarıda deyildiyi kimi, dilin ən başlıca vahidi olan sözə münasib gələn təfəkkür vahidi anlayışdır. Lakin anlayış təkcə sözlə yox, həm də söz birləşmələri ilə ifadə olunur. İnsan təfəkküründə əmələ gələn bütün anlayışların hamısı dildə söz və söz birləşmələri ilə öz əksini tapır.

Anlayış → **sözlə**
Anlayış → **söz birləşməsi ilə**

Sözlə anlayışın münasibəti elm aləmində müxtəlif mövqelərdən aydınlaşdırılır. Hər şeydən əvvəl yadda saxlamaq lazımdır ki, bunlar arasında münasibət ikitərəfli, qarşılıqlıdır. Bunların biri digərindən asılıdır. Anlayışda ümumiləşdirmə cəhəti özünü göstərdiyi kimi, onun ifadəçisi olan sözlərdə də ümumilik olur. Məsələn, *"mən"* sözünü götürək. Dünyada neçə milyard əhali varsa, hamı özünə *"mən"* deyir. Yaxud *"o"* sözünə nəzər yetirək. Bu sözlə kainatdakı hər şeyə işarə etmək olur.

Sözlə anlayış təbiətinə, xarakter və digər əlamətlərinə görə bir-birindən fərqlidir. Söz ikitərəflidir. Yəni hər bir söz səs (səs kompleksi) və mənadan ibarətdir. Lakin anlayış ancaq məzmuna malikdir. Bunların sxematik şəkli belədir:

SÖZ
zahiri əlaməti ‖ **səs**
daxili əlaməti ‖ **məna**

ANLAYIŞ
zahiri əlaməti ‖ **—**
daxili əlaməti ‖ **məzmun**

Göstərilən əlaməti nəzərə alıb dildəki hər hansı bir sözü quruluşuna (məsələn, sözün fonetik tərkibinə, yaxud sözün morfoloji tərkibinə) görə təhlil etmək olur. Lakin anlayışın zahiri cəhəti olmadığı üçün onun bu baxımdan təhlili qeyri-mümkündür. Deməli, hər bir söz anlayışla məna cəhətdən bağlılıq təşkil edir. Sözlə anlayışın mənaya görə bağlılığı nəzəriyyəsi dilçilikdə geniş yayılmışdır və qızğın müdafiə olunur. Meydana çıxmış "məna və anlayış" problemi indi də dilçiliyin gündəliyində xüsusi yer tutur. Sözlə anlayışın münasibəti məsələsində hansı söz qrupunun anlayış ifadə etməsinin aydınlaşdırılması diqqəti çox cəlb etmişdi. Məlumdur ki, dil haqqında elm tarixində sözlər başlıca olaraq iki yerə – əsas və köməkçi sözlərə bölünmüşdü.

Müstəqil leksik mənalı sözlər əsas, natamam mənalı sözlər isə köməkçi hesab edilmişdir. Bəzi alimlər ancaq müstəqil leksik mənalı sözlərin anlayış ifadə etdiyini göstərmişlər. Bəziləri də həm əsas, həm də köməkçi sözlərin anlayış bildirdiyi fikrini irəli sürmüşlər.

Əsas sözlər anlayışı saf, konkret halda ifadə edir. Ona görə ki, bu qrup sözlər əşyaları, onların əlamətlərini, həm də əlamətin əlamətini bildirir. Lakin köməkçi sözlərin anlayış ifadə edib-etməməsi şübhə doğurur. Dilçilikdə köməkçi sözlərin anlayış bildirdiyini müdafiə edənlər bu qrup sözlərin əlaqə və münasibət bildirdiyinə əsaslanmışlar.

"Və" sözünə fikir verək. Bu köməkçi söz sözlər və obyekt arasında müəyyən əlaqə yaradır, mürəkkəb fikrin əlaqəli olduğunu bildirir. Məsələn, *Toğrul, Əsgər və Maqsud universitetin tələbələridir. Gün yavaş-yavaş görünürdü və belə aydın havalarda Şuşa sanatoriyasından görünən uzaq Molla Nəsrəddin yolunun qıvrılmalarında maşınların işığı da yavaş-yavaş yanmağa başlayırdı* (*Elçin*).

"Amma" sözü müəyyən mücərrəd anlayışla bağlıdır. *Əhməd yaxşı həkimdir, amma xasiyyəti dözülməzdir.* Bu cüm-

lədə "amma" sözü münasibət bildirir. Sözlə anlayışın nisbəti həmişə eyni olmur. Burada, əsasən, qeyri-bərabərlik özünü göstərir. Bunun iki formasına təsadüf edilir:

1) Bir anlayışın məzmunu bir və ya bir neçə söz və söz birləşməsi ilə ifadə olunur. Məsələn, "insani keyfiyyət" anlayışını bildirmək üçün onlarca söz və söz birləşməsi işlədilir.

İnsani müsbət keyfiyyət bildirən – *ağıllı, dərrakəli, xeyirxah, məsləhətcil, mehriban, gülərüz, hər şeyin yerini bilən* və s.

İnsani mənfi keyfiyyət bildirən – *yaltaq, alçaq, ikiüzlü, bədbəxt, xain* və s.

Sözlə anlayışın münasibətinin bu məqamı dildə sinonim sözlərin əmələ gəlməsinin əsasını təşkil edir. Ərəb aləmində bir anlayışın bir çox söz vasitəsilə ifadə olunması geniş yayılmışdır. "İlan" anlayışı 200, "şir" 500, "dəvə" anlayışı 1000 sözlə ifadə edilir.

Dildə bir anlayışın müəyyən söz qrupu ilə ifadə edilməsi halları da vardır. Məsələn.

Gözünü itirmiş adam – ***kor***;

Ağlı çaşmış adam – ***dəli***.

2) Bir neçə anlayışın ifadəsində bir söz iştirak edir. Bu hadisə iki formada özünü göstərir:

a) Bir neçə anlayışın ifadə olunmasında bir sözün iştirak etməsi əsasında çoxmənalılıq əmələ gəlir. Məsələn, *"adamın gözü"* anlayışına fikir verək. Göz görmək üçündür, görmək anlayışını bildirir. Lakin "stolun gözü", "bulağın gözü", "maşının gözü", "dizinin gözü" dedikdə burada "göz" sözü ilə başqa anlayışlar ifadə olunur. Bu semantik hadisə sözlərin çoxmənalılığıdır. Çoxmənalılıq sözlərin hər birinin müxtəlif mənalarda çıxış edə bilmək imkan və bacarığıdır. Sözlərin belə çoxmənalılığı məcazi məna əsasında meydana çıxır.

b) İki və daha artıq müxtəlif anlayışın ifadə edilməsində bir sözdən istifadə olunur. Məsələn, "bağ" sözünə nəzər sa-

laq. Bu sözlə həm meyvə bağı, həm də müəyyən əşyanı bağlamaq üçün istifadə edilən vasitə – *ip, kəndir, çatı* və s. nəzərdə tutulur. Bu semantik prosesdə omonim hadisəsi formalaşır.

Hər bir anlayış məzmun əlamətlərinə görə insanın düşüncəsində, şüurunda sistemləşir. Lakin söz nitq prosesində məna, sözyaratma, formadüzəltmə, üslubi və sair əlamətə görə nizamlanır. Bütün bu deyilənlər bir daha göstərir ki, sözlə anlayış arasında vəhdət vardır və bu, çox möhkəmdir. Lakin heç vaxt həmin vahidlər eyniyyət təşkil etmir. Bunlardan anlayışın məzmunu və təbiəti mühakimədə açılır, sözün mənası və vəzifəsi isə cümlədə müəyyənləşir. Elə buna görə də dil ilə təfəkkürün səciyyəvi cəhətlərini cümlə ilə mühakimənin münasibətində də görmək olur.

1.04. CÜMLƏ İLƏ MÜHAKİMƏNİN MÜNASİBƏTİ

Dilin ən böyük vahidi olan cümlə ilə təfəkkür vahidi olan mühakimə arasında qarşılıqlı münasibət mövcuddur. Digər vahidlərin münasibətinə görə bunların münasibəti daha mürəkkəb, daha çətindir.

Mühakimənin dildə ifadəsi məsələsi ilə uzun illər məşğul olunmuşdur. Bu məsələ məntiqçiləri daha çox maraqlandırmışdır. Məlumdur ki, mühakimənin dildə ifadə forması cümlədir. Lakin yada salmalıyıq ki, indi də dilçilikdə cümlə problemi dolaşıq və mübahisəli olaraq qalmaqdadır. Bütün dillər üçün cümlənin ümumməqbul tərifini vermək olmur. Cümlə nəzəriyyəsi problemində hələ qəliz suallar çoxdur.

Cümlə mühakimənin real varlığını bildirir. Qrammatik vahid olan cümlə mühakimənin zahiri əlaməti deyil,

o, hər bir mühakimənin yaranmasında xüsusi rol oynayır. Mühakimə cümlə vasitəsilə canlanır, reallaşır və emosional rəng alır. Deməli, mühakimənin və əqli nəticənin dildə ifadə forması cümlədir.

Mühakimə
cümlə ilə
Əqli nəticə

Cümlə və mühakimə öz tərkibinə görə bir-birindən fərqlənir. Mühakimələr əşyanın və onun əlamətləri ilə əlaqədar iki anlayışdan ibarət olur: a) subyekt; b) predikat.

Subyekt (latınca *subjectum*) mühakimənin predmetini əks etdirir.

Predikat (latınca *predicatum*) əşyanın əlamətini, hərəkətini bildirir.

Mühakimənin subyekt və predikatından əlavə bağlayıcı ünsürü də vardır. Bu, hər iki anlayışı bir-biri ilə bağlayır. Dünya dillərində bağlayıcı ünsür müxtəlif şəkildə özünü göstərir.

Mühakimənin tələbləri arasında cümlələr quruluşca sadə və mürəkkəb, müxtəsər və geniş formada olur. Baş üzvlərdən ibarət olan müxtəlif cümlələrdə subyekt mübtədaya, predikat isə xəbərə uyğun olur. Məsələn:

Fidan gəldi.

Tələbə fikirləşdi.

Diktor elan etdi.

Bu cümlələrdə *"Fidan"*, *"tələbə"*, *"diktor"* mühakimənin subyekti, cümlənin mübtədasıdır. *"Gəldi"*, *"fikirləşdi"*, *"elan etdi"* anlayışları mühakimənin predikatı olub, xəbərə uyğun gəlir.

Geniş cümlələrdə mühakimənin subyekti və predikatı mübtəda və xəbərlə yanaşı, ikinci dərəcəli üzvlərlə də

ifadə edilir. Məsələn: *"Universitetin geniş və işıqlı otaqları dərs keçmək üçün yararlı hala salınmışdı"*. Bu cümlədə ifadə olunan *"universitetin geniş və işıqlı otaqları"* mühakimə subyekti, *"dərs keçmək üçün yararlı hala salınmışdı"* anlayışı isə predikatıdır. Lakin qrammatik cəhətdən yanaşdıqda bu cümlədə baş üzvlərdən başqa ikinci dərəcəli üzvlər də iştirak etmişdir. Cümlə ilə mühakimənin bir-birindən bir sıra fərqli cəhətləri vardır. Bunlardan biri ondan ibarətdir ki, cümlənin mübtəda və xəbərinin stabil qrammatik ifadə forması mövcuddur. Məsələn, "*Günay* Pedaqoji Universitetdə oxuyur". Bu cümlədə qrammatik tələblərə görə "Günay" mübtəda, "pedaqoji" təyin, "universitet" zərflik, "oxuyur" xəbərdir. Bu qayda dəyişilməzdir. Lakin mühakimənin subyekt və predikatında belə daimi, pozulmaz ifadə forması yoxdur. Ona görə də mühakimənin ünsürləri bəzən məntiqi vurğu ilə tələffüz edildikdə mühakimənin subyekti dəyişir və müəyyənləşir. Məsələn:

Günay (başqası yox) *II kurs tələbəsidir.*

Günay *II kursun* (başqa kursun deyil) *tələbəsidir*.

Günay *II kursun* ***tələbəsidir*** (demək, tələbədir).

Cümlə ilə mühakimənin daha bir fərqi də ondan ibarətdir ki, cümlənin qrammatik quruluşu hər yerdə eynidir. Məsələn, "kitab" anlayışına fikir verək. Bilik mənbəyini bildirən bu anlayış – kitab inkişaf etmiş bütün xalqlarda eyni mənada anlaşılır. Lakin dünya dillərində müxtəlif sözlərlə ifadə edilir.

Azərbaycanca – *Bu kitabdır.*

Rusca – *Eta kniqa (Эта книга).*

İngiliscə – *Zis is e buk (this is a book).*

Almanca – *Das ist bux (das ist Buch).*

Beləliklə, deyilənlərdən bir daha aydın olur ki, cümlə ilə mühakimə arasındakı fərqlər onları bir-birindən seçib fərqləndirməyə imkan verir.

Cümlə ilə mühakimənin nisbəti aşağıdakı kimidir:

1. Bəzən cümlə ilə mühakimə uyğun gəlir. Bunun da nəticəsində bir cümlə bir mühakiməni ifadə edir.

2. Bəzən bir mühakimə bir neçə cümlə ilə ifadə olunur.

3. Bəzən cümlələrdə mühakimə olmaya da bilir.

Dildə nəqli cümlə öz məntiqi mənasına görə mühakimə bildirərək həqiqəti və ya yalanı ifadə edir. Sual, nida və əmr cümlələrində əsas, mühakimə ifadə olunmur.

Məsələn:

– *"Dayan! "*

– *"Kim suala cavab verər?"*

–*"Belə hərəkət etmək kimə lazımdır?"* və s.

Göründüyü kimi, sual cümləsinin vəzifəsi məlumat vermək yox, onun vasitəsilə cavab almaqdır. Belə cümlələrdə nə təsdiq, nə də inkar olur.

Təfəkkür vahidi olan əqli nəticə də cümlə ilə bağlıdır. Onun müxtəlif növləri Azərbaycan ədəbi dilində müxtəlif formalarda öz ifadəsini tapır. Deməli, əgər söz və söz birləşməsi anlayışı ifadə etməyə, onu möhkəmləndirməyə şərait yaradırsa, cümlə fikrin daha bütövləşmiş forması olan mühakimə və əqli nəticənin ifadəsinə imkan verir. Burada təkcə real aləmin hadisələri deyil, onlar arasında əlaqə və münasibətlər də əks olunur.

Bütün bura qədər deyilənlərdən tamamilə aydın olur ki, dil ilə düşüncə, təfəkkür vəhdət təşkil edir, bunların hər birinin özünəməxsus cəhətləri vardır və hər biri öz imkanları əsasında inkişaf edir.

1.05. DİL VƏ DÜŞÜNCƏNİN İNKİŞAFI

Dil və düşüncənin inkişafı məsələsinin öyrənilməsi birbaşa bunların hansının ilkin olması ilə bağlıdır. Düşün-

cənin təfəkkürəqədərki hissəsi haqqında heç bir mübahisə ola bilməz. Lakin düşüncənin əsas hissəsini təşkil edən təfəkkürün, yaxud dilin ilkin əmələ gəlməsi bir çox mübahisə və müzakirələrə səbəb olmuşdur.

Uzun müddət filosoflar və dilçilər dilin təfəkkürdən sonra əmələ gəlməsi haqqında məlum mülahizənin tərəfində dayanmış və 50-ci illərədək, əsasən, həmin konsepsiyanı müdafiə etmişlər. 1950-ci ildə alimlər arasında başlanmış elmi mübahisədə belə bir nəticəyə gəlinmişdi ki, dil və təfəkkürü bir-birindən təcrid olunmuş şəkildə təsəvvür etmək qeyri-mümkündür və şüurlu insan cəmiyyəti yarandığı ilk gündən təfəkkürlə dil eyni vaxtda meydana çıxmışdır. Bu mülahizənin tərəfdarları belə hesab edirlər ki, təfəkkürsüz dil olmadığı kimi, dilsiz də təfəkkür yoxdur. Dili təfəkkürlə ayrılmaz vəhdətdə götürən tədqiqatçılara görə, insan dil vasitəsilə düşünür və dilin iştirakı olmadan fikirləşmək qeyri-mümkündür.

Son illərdə tədqiqatçılar arasında dil və təfəkkürün hansının daha çox qədimliyi məsələsi ətrafında yenidən mübahisə əmələ gəlmişdir. Dilin tarixini təfəkkürdən təcrid etməyə çalışanlar belə hesab edirlər ki, dil və təfəkkürün eyni vaxtda əmələ gəldiyini iddia edən tədqiqatçılar məsələnin mahiyyətini düzgün başa düşməmişlər. Dil təfəkkürlə eyni vaxtda əmələ gəlməmişdir. Bunlardan təfəkkürün tarixi daha qədimdir. Lakin dil də təfəkkür kimi qədim tarixə malikdir. Dil ilə düşüncə vəhdətdə inkişaf edir. Buna görə də insanda hər hansı bir səbəbdən dil zəif olsa, onun düşüncəsi də lazımi səviyyədə inkişaf etməmiş olur.

Dil və düşüncənin birgə inkişafının əsası insanın əmək fəaliyyəti ilə bağlıdır. İstər ailə və istərsə də ictimai əmək prosesində insanlarda bir-birinə nəsə demək tələbi meydana çıxır. Bu tələb əsasında fikir mübadiləsi ilə qarşılıqlı ünsiyyət yaranır.

İnsanın əmək fəaliyyəti artdıqca onun düşüncəsi də inkişaf edir, zənginləşir. İnsanın düşüncəsi, xüsusilə təfəkkürü müəyyən inkişaf yolu keçmişdir. Bunu ilk insanla müasir insanın təfəkkürü arasındakı fərqlərdə aydın görmək olur. Bu fərqlər insanın əmək fəaliyyətinin səviyyəsi ilə bağlıdır. Belə ki, ilk dövrlərdə insanın əmək aləti sadə, gördüyü iş yüngül olduğu üçün ümumi əmək fəaliyyəti çox zəif şəkildə idi. Hazırkı dövrdə isə mürəkkəb alətlər və çətin əmək nəticəsində insan əməyi o səviyyəyə ucalmış ki, bunun əsasında elm və texnikaya dair milyonlarla anlayış meydana çıxmışdır. Deməli, müasir elmi təfəkkürün formalaşmasında ictimai əmək xüsusi rol oynamışdır.

Təfəkkürün inkişafı, onun əhatə dairəsinin, sahələrinin genişlənməsi ilə bağlı dilin də formaları, vahidləri təkmilləşmiş və zənginləşmişdir. Bu dil vahidləri get-gedə həm konkret, həm də mücərrəd anlayışlara dair fikirləri daha dəqiq və aydın ifadə etməyə yönəlmişdi.

Dilin köməyi ilə hər yeni nəsil keçmişdə əldə edilən nailiyyətləri mənimsəyir, təcrübə əldə edir. Beləliklə, bu ənənə müntəzəm davam edərək nəsildən-nəslə keçir. Bunun nəticəsi isə insan düşüncəsinin inkişafına öz müsbət təsirini göstərir.

Dil insanın maddi aləmi dərk etməsində, əldə edilmiş bilikləri möhkəmləndirməsində əvəzsiz rol oynayır. Lakin şifahi dil – nitq müəyyən çatışmazlıqlara malikdir. Belə ki, hər hansı bir sahəyə dair bilik ifadə olunanda yaddaşlarda əbədiləşib qalmır. Buna biliklərin həcmi və sair amillər maneçilik törədir. Bu çatışmayan cəhəti nəzərə alaraq insanlar yazılı dili – nitqi yaratmışlar. Bu isə insan düşüncəsinin yüksək inkişafı ilə bağlıdır.

II FƏSİL

DİL VƏ NİTQ

DİL VƏ NİTQ PROBLEMİNİN AKTUALLIĞI

Dil və nitq, bunların əlamətləri, əlaqə və fərqləri çoxdan alimlərin diqqətini cəlb etmişdir. Hələ eradan əvvəl stoiklər dil və nitq məsələlərini qaldırmış, müəyyən fikirlər irəli sürmüşlər. Lakin dil və nitq anlayışlarını rəsmi şəkildə fərqləndirmək XIX əsrin məşhur alimlərindən Vilhelm Humboldtdan başlayır. O, incə və dəqiq linqvistik müşahidələr əsasında dil ilə nitqi bir-birindən fərqləndirmək zəruriliyini irəli sürmüşdür. V.Humboldtun özü bu zəruriliyi nəzərə alıb ilk dəfə dilçilikdə onların fərqlənən cəhətlərini elmi-tədqiqat obyekti kimi nəzəri baxımdan əsaslandırmağa səy göstərmişdir. Onun elmi fəaliyyətində bu iki anlayışın sərhədi müəyyən mənada dəqiqləşdirilmişdir. V.Humboldt tərəfindən əsası qoyulmuş dil və nitqin münasibəti problemini sonralar A.Potebnya və Boduen de Kurtene həll etmək istəmişlər. Bu problemin həllində xüsusilə XX əsrin I rübündə (1906) F. de Sössür böyük iş görmüşdür. O, dilin və nitqin müxtəlif zəruri sahələrini elmi əsasda işıqlandırmışdır. Dil və nitq məfhumlarının fərqləndirilməsinə dair F. de Sössür təlimi son dövrlərə qədər dilçilikdə dəfələrlə diskussiya obyektinə çevrilmişdir. Bu sahədə mübahisələr indi də davam edir. Bəziləri dillə nitqin sərhədinə dair Sössür ideyalarını tamamilə inkar edir (A.S.Çikobava) və başqaları, bir qisim dilçilər Sössürün dil və nitq haqqındakı fikirlərini daha da inkişaf etdirməyə çalışırlar (A.A.Reformatski və başqaları). 1930-cu ildə Byüler də bu

sahədə xüsusi tədqiqat aparmışdır. Dil və nitq məsələləri ilə A.İ.Smirnitski, A.A.Reformatski və başqa dilçilər də məşğul olmuşlar.

Hazırda Avropanın bir sıra ölkələrində bu problemin öyrənilməsinə xüsusi maraq göstərilir.

1958-ci ildən İngiltərədə "Dil və nitq" ("Langue-parole") adlı beynəlxalq jurnal buraxılır. Burada dil və nitq problemləri ilə bağlı məsələlər işıqlandırılır. Problemin həllində dilçilərlə yanaşı, başqa ixtisas sahibləri, o cümlədən filosoflar, məntiqşünaslar, psixoloqlar, fizioloqlar, fiziklər, mühəndislər və başqaları iştirak edirdilər. 1971-ci ilin noyabrında Tbilisi şəhərində "dil və nitq" problemi üzrə xüsusi elmi sessiya keçirilmişdir. Həmin sessiyada dillə nitqin fərqləndirilməsi dilçilik və fəlsəfi baxımdan müxtəlif mütəxəssislər tərəfindən geniş müzakirə olunmuşdur. Dilçilər konkret dillərin təhlili əsasında belə bir ümumi fikir irəli sürmüşlər ki, dillə nitq ayrı-ayrı sahələrdir. Danışıq səsləri nitqə məxsusdursa, fonemlər dil vahidi hesab edilir. Filosoflar üçün isə dil ideya mənbəyi kimi götürülür və onu öyrənmək üçün konkret dillərə müraciət edilmir.

Hazırda dil və nitq məsələləri müasir dünya dilçiliyinin özək problemi sırasında xüsusi yerdə durur. Bu problemin geniş və hərtərəfli öyrənilməsinin dilçiliyin bəzi başlıca mövzularının elmi əsasda şərhinə nəzəri bünövrə ola biləcəyi diqqətdən kənarda qalmır.

2.01. DİL VƏ NİTQİN MAHİYYƏTİ – VƏZİFƏLƏRİ

Dil və nitq probleminin həllində əsas vəzifələrdən biri "dil" və "nitq" terminlərinin və bunlara aid anlayışların düzgün dərk edilməsidir. Ənənəvi dilçilikdə bu terminlərin bəzən düzgün olmayaraq sinonim kimi işlənildiyinə rast gəl-

mək olur ki, bunun da nəticəsində ciddi dolaşıqlıq yaranır. Bunların hər biri müstəqil termin olub, xüsusi və fərqli anlayışların ifadəsinə xidmət edir. Buna görə də "dil" termini ilə "nitq" termini arasında möhkəm sərhəd qoymaq lazımdır.

Ünsiyyət vasitəsi olan dil və ünsiyyət prosesi olan nitqin bir-biri ilə bağlı vəzifələri vardır. Bunların hər biri müəyyən mahiyyətə, əlamətə malikdir.

Hamı tərəfindən qəbul edilən belə bir fikir var ki, dilçiliyin obyekti dildir. Lakin dil anlayışı (məfhumu) altında nəyin başa düşülməsində alimlər arasında müxtəlif fikirlər mövcuddur. Bu fikir ayrılığının bir sıra səbəbləri vardır. *"Dil"* sözünün bir çox mənada işlənməsi buna səbəb olur. Məlumdur ki, *"dil"* dedikdə, burada heyvanların *"dili"*, süni dil, maşın dili və s. nəzərdə tutulur. Demək, dilçilik insan dili ilə məşğuldursa, istər-istəməz başqa dil anlayışlarına da toxunmalıdır. Belə olduqda dilçiliyin obyekti olan dilin dəqiq sərhədi müəyyənləşdirilməlidir. F. de Sössür dili işarələr sistemi kimi götürdükdə insan dili ilə başqa dil anlayışları arasında heç bir sərhəd qoymadan bütün dil işarələrini dilçiliyin obyektinə daxil edir və beləliklə, dilçiliyin vəzifələrini daha geniş şəkildə götürür.

Dilçiliyin obyekti kimi mübahisəli olan "dil" anlayışının başa düşülməsinə çətinlik törədən səbəblərdən biri də dilin olduqca mürəkkəb və çoxplanlı xarakterə malik olmasıdır. Yəni dil elə bir ictimai hadisədir ki, o özündə insanın biliklərini, fikirlərini, arzularını, iradə və hislərini əks etdirir. Buna görə də dil sistemlər sistemi kimi götürülür. Buraya dilin quruluş sistemi, məna sistemi, qarşılıqlı dil əlaqələri sistemi, qeyri-dil sistemi və s. daxildir.

Dillə nitqin qarşılıqlı münasibəti də dilin dilçilik obyekti kimi dəqiq müəyyənləşdirilməsində çətinlik törədir. Bu məsələdə dilçiləri nitq dilin mexanizmini aşkara çıxaran vasitə kimi maraqlandırır. Çünki dil nitq üçün ilkin

şərt olmaqdan başqa, həm də nitqin məhsuludur. Dil insan tələbatını nitq vasitəsilə ödəyir. Lakin buna baxmayaraq, dil həcmcə və kəmiyyətcə nitqdən çox genişdir. Yəni nitq fərdi xarakter daşıyırsa da, dil ümumxalq miqyasında fəaliyyət göstərir. Buna görə də bəşəriyyət tarixində dil hər hansı bir xalqın varlığı rolunu oynayır.

Dil öz funksiyasına görə də nitqdən fərqlənir. Məlum olduğu kimi, cəmiyyətdə dil üç mühüm funksiyanı yerinə yetirir: 1) ictimai-tarixi təcrübəni yaşatmaq, ötürmək və mənimsəmək vasitəsi rolunu oynayır; 2) kommunikasiya (ötürmək) rolunda çıxış edir; 3) intellektual fəaliyyət vasitəsi olur. Dilin həmin funksiyaları nitq prosesinin də istiqamətini müəyyənləşdirir.

Nitqin də özünəməxsus funksiyaları vardır: 1) nitq prosesində əşyalar, hal-hərəkət, vəziyyət, şərait, zaman və s. konkret adlandırılır; 2) nitq prosesində sözlər vasitəsilə ümumiləşdirmə aparılır; 3) nitq prosesi kommunikasiyaya (ünsiyyətə) xidmət edir.

Dil və nitqin ümumi cəhətləri də vardır. Birincisi, hər ikisi ictimai-sosial xarakter daşıyır. İkincisi, hər ikisi kommunikativ xarakterə malikdir və s.

Nəticə olaraq bilmək lazımdır ki, dil və nitq müxtəlif ictimai hadisələr deyil, bir ictimai hadisənin müxtəlif tərəfləridir. Bu tərəflərin hər ikisi üçün əsas vahid linqvistik ünsürlərdir.

DİL VƏ ONUN XARAKTERİ

Dil anlayışı. Dil anlayışı *"dil"* termini ilə ifadə edilir. Dilimizdə *"dil"* sözü[1] 30-dan artıq mənada işlənilir.

Dil ünsiyyət vasitəsidir. Bu elə bir başlıca ünsiyyət vasitəsidir ki, insan ondan hər an istifadə edir və onsuz cəmiyyət tərkibində insan həyatı qeyri-mümkündür.

[1] Ağızda qidanı dişlərin altına qoymağa və müxtəlif nitq hissələrinin formalaşmasına kömək edən ağız üzvünə "dil" deyilir.

Dilin təbiəti, cəmiyyətdə onun rolu, xarakteri, işarəviliyi və sair haqqında olduqca müxtəlif fikirlər deyilmişdir. Ümumiyyətlə, dil haqqında düşünənlər onun insanlar üçün sehrli, sirli bir dünya olduğunu həmişə qeyd etmişlər. Böyük alman dilçisi, ümumi dilçiliyin banisi V.Humboldt insana məxsus olan bu qeyri-adi qabiliyyəti hər hansı başqa şeylə müqayisə edərkən birinci növbədə heyvan instinktini xatırlayır və dili əqlin *intellektual instinkti* adlandırır. İngilis dilçisi U.C.Entunstl isə dili incəsənət adlandırır. Dil haqqında belə bir ümumi fikir də irəli sürülür ki, dil insanın ünsiyyəti, təfəkkürü və onun ifadəsinə xidmət edən işarələr sistemindən ibarət olan vasitədir. Dilin köməyi ilə dünya dərk edilir, dildə şəxsiyyətin özünü dərk etməsi təzahür olunur. Dil, həmçinin, informasiyanın saxlanması və başqasına ötürülməsinə, insan əxlaqının idarə olunmasına xidmət edən xüsusi ictimai vasitədir (A.Q.Spirkin).

Dil öz xarakter və təbiətinə görə işarələrdən ibarətdir. Bu işarələrin – sözlərin əsasını zəngin və rəngarəng mənalar təşkil edir. Dil işarələri zəncirvarı, möhkəm vəhdət yaradaraq mürəkkəb sistemlərdən ibarətdir. Dil kollektivin məhsuludur. Onun rolu varlıqdakı əşyaları, mücərrəd anlayışları və s. əks etdirməkdən ibarətdir. Bu əksetdirmə nə qədər zəngin olsa, dil üçün bir o qədər xarakterik müsbət cəhətdir.

Hər bir milli dil onun sahibi olan cəmiyyətin şüurunda lüğət kimi mövcuddur. Xalqın hər bir nümayəndəsi mövcud olan sözü eyni ilə qavrayır və öz hafizəsində saxlayır. Lakin bu sözlərdən danışıq prosesində hərə öz qabiliyyətinə görə istifadə edir. Bu proses artıq dil yox, nitq adlanır.

NİTQ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Nitq anlayışı. Bu geniş anlayış "nitq" sözü ilə ifadə olunur. Nitq anlayışının şərhi üçün "nitq" sözü ilə bağlı olan terminlərə nəzər yetirək: *rəvan nitq, aydın nitq, axıcı nitq, ba-*

yağı nitq, zəif nitq, güclü nitq, yazıçı nitqi, müəllif nitqi, surət nitqi, obraz nitqi, doğma nitq, əcnəbi nitq, böyük nitqi, uşaq nitqi, sadə nitq, mürəkkəb nitq, uzun nitq, qısa nitq, yaxşı nitq, xoşagələn nitq, pis nitq, xoşa gəlməyən nitq, vasitəli nitq, vasitəsiz nitq, monoloji nitq, dialoji nitq, yazılı nitq, şifahi nitq, poetik nitq, obrazlı nitq, məntiqi nitq, məntiqsiz nitq, nitq mədəniyyəti və s.

Nitq dilin təzahür formasıdır. Buna görə də nitq sözü ilə bağlı hər şeydən yox, ancaq bu anlayışda – ünsiyyət yaradıcısı olan nitqlə əlaqədar məsələlərdən bəhs edilməlidir.

A.A.Reformatski nitq haqqında bəhs edərkən göstərir: "Ən çətini nitqin nə olduğunu müəyyənləşdirməkdir. Hər şeydən əvvəl, bu nə dil, nə də nitq aktıdır... Nitq müxtəlif ünsiyyət şəraitində dilin başqa-başqa formalarda tətbiqidir".[1]

Nitqin bazası dildir. Dilin vasitə və imkanları nitqin yaranmasında həlledici rol oynayır. Nitqin xarakterindən asılı olaraq şərait və məqsədlə əlaqədar dil vasitələri seçilib istifadə olunur. Nitq prosesində işlədilən dil vahidləri əlavə məna və ya məna çaları kəsb edə bilir və belə əlavə keyfiyyət həmin dil ünsürində möhkəmlənib qala bilir. Belə bir proses universal xarakter daşıyır və bütün dillərdə mövcuddur.



Cədvəl 6

Sözlər danışığa – cümlə daxilinə keçmədikdə hələ nitq deyildir. Misallara nəzər yetirək.

1. Yusif: – Qulu, ay Qulu!

Qulu: – Bəli! (N.Nərimanov, "Şamdan bəy")

[1] А.А.Реформатский. «Введение в языковедение». М., "Просвещение", 1987, с.37.

2. Şamdan bəy: – Ola ki, poçtxana bu yavıqdadır.

Hacı İbrahim: – Bəli, bəli (Yenə orada).

3. Niyaz bəy: – Söz odur, hünər elə gərək.

Yusif: – Xeyr, xeyr. Bir hünər istəməz ki, bu, aşkar şeydir. Mən on il bundan müqəddəm onunla bir yerdə oxumuşam və oxuyan vaxtda mənim, həqiqət, bununla yeyib-içməyim bir yerdə olubdur (yenə orada).

4. Nadir şah: – Hə! Hə! Əlbəttə, adam demirəm: iki düşmən, yəni iki məzhəb (Mirzə fikrə gedir). *Nə üçün fikrə getdin, yoxsa yenə başa düşmürsən?*

Mirzə Mehdi xan: – Bəli, qibleyi-aləm! İndi başa düşdüm ("Nadir şah").

5. Ay Qurbanəli, əyri oturaq, düz danışaq. Sənin ata-baban oxumuşdumu?

Qurbanəli: – Yox ("Nadanlıq").

Bu cümlələrdəki *"bəli"*, *"xeyr"*, *"hə"*, *"yox"* nitq prosesinin ünsürləridir – nitqdir. Lakin ayrılıqda *"bəli"*, *"xeyr"*, *"hə"*, *"yox"* dedikdə bu dil vahidləri nitq deyil, dilin lüğət tərkibinə aid sözlərdir.

Nitq insan danışığının cəmidir. "Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyətin yaradıcısıdır". Nitqin yaranması fərdi xarakterlidir.

Nitq fəaliyyəti. Nitq fəaliyyəti nəzəriyyəsinə görə *"nitq fəaliyyəti"* anlayışı konkret nitq aktı kimi təsəvvür olunur. Bu nitq aktı fərdidir, nitqin fərdi aspektidir. Nitq fəaliyyətinə kommunikasiyanın həyata keçirilməsində müəyyən nitq – danışıq prosesi kimi baxılır. Nitq fəaliyyəti ünsiyyət fəaliyyətində əsas yer tutur. Buna görə də psixoloqlar, ümumiyyətlə, ünsiyyət fəaliyyətindən danışarkən nitq fəaliyyətinə xüsusi yer verirlər. Onların fikrincə, nitq fəaliyyəti də fəaliyyətin başqa növlərində istifadə olunan prinsiplərə əsasən təşkil olunur. Onun ilkin bələdləşmə fazası, planlaşdırma fazası, icra fazası və nəzarət fazası vardır. Nitq

fəaliyyəti çox cəhətdən fikri fəaliyyətə bənzəyir, yalnız burada subyektin həll edəcəyi məsələnin xarakteri başqa cür – idraki deyil, kommunikativ olur (A.A.Leontyev).

Nitq prosesi. Nitq ancaq ünsiyyət təşkilinin konkretləşdirilməsində özünü göstərir. Buna nitq prosesi deyilir. İnsan nitq prosesində özünün mənəvi varlığını əks etdirir. Bu prosesdə, həmçinin, insan tərbiyə olunur, hər hansı bir işi yerinə yetirməyə yönəldilir.

Nitq prosesinin üç başlıca ünsürü mövcuddur:

a) danışmaq;

b) eşitmək;

c) dərk etmək.

1. Danışmaq üçün ən vacib şərt insan orqanizmində danışıq üzvlərinin normal inkişafıdır. Əgər danışıq üzvlərindən biri qüsurlu olursa, həmin qüsur mütləq danışma prosesində öz əksini tapır. Danışmağın başlıca əlaməti danışıq səsləridir. İnsan danışmağa bir yaşından etibarən səy göstərir. Onun ilk danışığında ancaq danışıq səsləri, hecalar və ayrı-ayrı sözlər öz əksini tapır. Yalnız bu vasitələrlə onlar öz fikirlərini nitqə çevirə bilirlər. Psixoloqların fikrincə, uşaq nitqi eqosentrik nitqdən (özü üçün nitq) sosiallaşmış nitqə (başqaları üçün nitq) doğru inkişaf edir (J.Piaje). İnsan danışmağı böyüdükcə inkişaf etdirir və fəal nitq prosesinə qoşulur.

2. Eşitmək insan orqanizminin üzvlərindən olan qulaqla həyata keçirilir. Nitq prosesində eşitmənin tam təmin olunması üçün qulaqların sağlam olması əsas şərtdir. Qulaqları sağlam olmayan, ağır eşidən, yaxud tamamilə eşitməyən adamlarla nitq prosesi çox çətin keçir və ya tamamilə baş tutmur. Eşitmək nitqin düzgün dərk edilməsində mühüm rol oynayır.

3. Dərk etmək nitq prosesinin nəticəsi kimi özünü göstərir. Dərk etmək şifahi və yazılı nitq prosesində baş verir. Hər hansı şəxsin nitqinin başqası tərəfindən dərk edilməsi mürəkkəb psixoloji prosesdir.

Nitq üçün xarakterik olan bir sıra cəhətlər vardır:

a) Nitq axını;

b) nitq taktı;

c) nitq ritmi və s.

1. Nitq axını dedikdə, nitq prosesində baş verən xətti ardıcıllıq nəzərdə tutulur. Yəni burada dil vahidləri xaotik şəkildə deyil, müəyyən qanunauyğun cərgə əsasında nitqə düzülür, işlədilir. Nitq dərkolunma prosesində ancaq səslər və ya hərflər şəklində deyil, onların təşkil etdiyi sözlər, söz birləşməsi, ifadə və cümlə şəklində mənimsənilir.

2. Nitq taktı cümlə və ya ifadənin müəyyən intonasiyaya görə parçalanması nəticəsində əmələ gələn ayrı-ayrı mənalı hissələrdən ibarət ən kiçik bölümlərdir. Məsələn, A.Səhhətin "Vətən" şeirindən nümunə gətirilmiş nəzm parçası aşağıdakı nitq taktlarına bölünür:

Könlümün//sevgili məhbubu//mənim
Vətənimdir,//vətənimdir,//vətənim.
Vətənim//verdi mənə//nanü-nəmək,
Vətəni//məncə unutmaq//nə demək?
Anadır//hər kişiyə//öz vətəni;
Bəsləyib//sinəsi üstündə//onu.
Südüdür//kim dolanıb//qanım olub,
O mənim//sevgili//cananım olub,
Saxlaram//gözlərim üstə//onu mən,
Ölərəm//əldən əgər//getsə vətən.

Nitq taktı məna ilə bağlı olduğuna görə dilçilikdə semantik hadisə hesab olunur.

3. Nitq ritmi nitqdə vurğulu və vurğusuz, uzun və qısa hecaların bir-birini əvəz etməsi hadisəsidir. Bu zaman nitqin müxtəlif çalarları və üslubları meydana çıxır. Məsələn, iki bədii mətni nitq ritmi baxımından nəzərdən keçirək.

1. Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam! (Nəsimi)

2. Hava getdikcə sakitləşirdi.

Birinci şeir parçasında hecaların bir qismini uzatmamış tələffüz etmək mümkün deyildir. İkinci nəsr parçasında isə hecaların uzun tələffüzünə heç bir ehtiyac yoxdur. Burada da nəsr nitqi və ya nəzm nitqinin fərqi meydana çıxır.

DİL İLƏ NİTQİN MÜNASİBƏTİ

Dil ilə nitq bir-biri ilə bağlıdır. Bunlar arasındakı əlaqə obyektiv zərurət kimi mövcuddur. Çünki dil öz varlığını nitqdə, nitq isə mənbəyini dildə tapır. Nitq prosesi olmasa dil, dil olmasa nitq prosesi təzahür edə bilməz.

Dil öz varlığını, qeyd etdiyimiz kimi, nitqdə, nitq aktında göstərir. Lakin müəyyən nitq və ya nitq aktı dili bütövlükdə təşkil etmir. Çünki nitq fərdi xarakter daşıdığına görə o, dilin bütün leksikasını, qrammatik formalarını özündə əhatə edə bilməz. Buna görə də müəyyən bir dil öyrənmək, tədqiq etmək üçün bir-iki fərdin nitqini müşahidə etmək kifayət edə bilməz.

Ümumilikdə götürdükdə, belə bir tezis irəli sürmək olar ki, dil öyrənmək üçün nitq əsas təşkil edir. Belə ki, yalnız nitq faktlarını tədqiq etməklə bütövlükdə dili öyrənmək olar.

DİLİN İNKİŞAFINDA NİTQİN ROLU

Dilin lüğət tərkibi sabit qalsa, inkişaf edə bilməz. Nitq vasitəsilə dildə yeni-yeni sözlər yaranır, başqa dildən alınır və dil inkişaf edir. Dilin inkişafı nitqlə müəyyənləşir. Buna görə də F. de Sössür göstərir ki, "nitq hadisəsi dilin təkamülü üçün şərait yaratmışdır"[1]. Bu cəhətdən qeyd etmək

[1] Ф. де Соссюр. «Курс общей лингвистики». 1933, с.42.

olar ki, dilin lüğət tərkibində və qrammatik quruluşunda baş verən dəyişikliklər ancaq nitqdə meydana gəlir və sabitləşir. Nitqdə baş verən yeni-yeni dəyişikliklər dildəki köhnə qanunauyğunluqları dağıdır və həmin dəyişikliklər dilə keçir. Buna görə də dildə neologizmlər, arxaizmlər meydana çıxır. Bu baxımdan belə bir mütləq fikir irəli sürmək olar ki, nitq dilin inkişaf mənbəyi, dil isə nitqin məhsuludur.

Dilçilikdə bu fikrin əksinə olan belə bir fikir hökm sürür ki, dil – inkişafın məhsulu, nitq – inkişafın mənbəyidir. Əlbəttə, bu, tamamilə səhv fikirdir. Çünki nitqsiz dil mümkün olan hadisə deyildir. Nitqlə dili inkişafın ayrı-ayrı qütbləri kimi qarşılaşdırmaq elmə tamamilə zidd ola bilərdi. Əgər nitqlə dil müxtəlif hadisələr kimi qarşı-qarşıya qoyularsa, onda dil üçün bir sahə, nitq üçün başqa sahə tədqiq obyekti kimi götürülərdi. Bu baxımdan leksikologiyanı dilə, morfologiya və sintaksisi isə nitqə aid etmək zərurəti meydana çıxardı. Əslində isə dildə elə bir hadisə yoxdur ki, o özünü nitqdə büruzə verməsin. Nitqdə isə elə bir hal yoxdur ki, o, dildə öz əksini tapmamış olsun. Buna görə də qeyd etmək lazımdır ki, dil və nitq müxtəlif ictimai hadisə kimi deyil, bir ictimai hadisənin müxtəlif tərəfləri kimi başa düşülməlidir.

Dil mahiyyətcə nitqdə öz əksini tapır. Dil təhlil, nitq qavrama və anlama yolu ilə dərk olunur.

Dilin inkişafı nitqlə bağlıdır. Müasir Azərbaycan ədəbi dilinin dünyanın zəngin və inkişaf etmiş dillər səviyyəsinə çatması ancaq nitqlə bağlı olmuşdur. Bu baxımdan Azərbaycan ədəbiyyatı klassiklərinin bədii nitqinin rolunu ayrıca qeyd etmək lazımdır. Ş.İ.Xətai və M.Füzuliyə qədər Azərbaycan şeir dili o qədər də inkişaf etməmişdi. M.Füzuli söz sərrafı kimi Azərbaycan dilinin lüğət tərkibinə saysız-hesabsız yeni sözlər gətirmiş və bunun əsasında

özünün qüdrətli poetik əsərlərini yaratmışdır. M.Füzulidən sonra M.P.Vaqifin bədii nitqində Azərbaycan dilinin lüğət tərkibi daha da aydınlaşdı, saflaşdı və zənginləşdi. Vaqifin XVIII əsrdə dediyi:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Xalq batıb noğula, şəkərə, qəndə, –

misraları müasir ədəbi dilimizin təşəkkülünün əsasını təşkil edir. Vaqifdən sonra gələn M.F.Axundov, Q.Zakir, S.Ə.Şirvani, C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı kimi klassiklərimizin bədii nitqi də bu cəhətdən ədəbi dilimizin inkişafı üçün misilsiz rol oynamışdır.

Bu gün Azərbaycan dili lüğət tərkibinin 15 faizə qədərini alınma sözlər təşkil edir. Şübhəsiz ki, bu alınmalar dildə öz-özünə birdən peyda olmur. Bunlar da Azərbaycan xalqının tarixən başqa xalqlar və millətlərlə çoxsahəli əlaqələri nəticəsində şifahi və yazılı nitq vasitəsilə dilə gətirilmişdir.

Bütün bunları nəzərə alaraq bir daha qeyd edirik ki, dil öz təzahürünü nitqdə tapır, nitq isə dili inkişaf etdirib yaradır.


NİTQ
Nitqin hissələri
Nitqin tərzi
Nitqin formaları
Nitqin növləri
Nitqin tipləri
Qeyri-müəyyən nitq hissələri
Köməkçi nitq hissələri
Əsas nitq hissələri
Vasitəli nitq
Vasitəsiz nitq
Yazılı nitq
Şifahi nitq
Dialoji nitq
Monoloji nitq
Xarici nitq
Daxili nitq

Cədvəl 7

2.02. NİTQİN TİPLƏRİ

Dilçilikdə nitqin təsnifi problemi həmişə diqqət mərkəzində durmuşdur. Hələ eramızdan əvvəl II əsrdə yunan stoikləri nitqin iki tipi olduğunu göstərmişlər: a) daxili nitq; b) xarici nitq[1]. Sonralar dilin təzahür forması kimi nitq hadisəsini müxtəlif istiqamətdə təsnif etməyə səy göstərmişlər. Nitqdə obyektiv və subyektiv amillər əsas götürülərək onun fərdi xarakterinə görə təsniflər aparmışlar. Nitq aktında şəxs əvəzliklərinin iştirakına görə nitqin üç tipi müəyyən olunmuşdur: 1) I şəxs əsasında qurulan nitq; 2) II şəxs əsasında qurulan nitq; 3) III şəxs əsasında qurulan nitq[2].

Ümumiyyətlə, nitqi dildən fərqləndirən başlıca əlamətlərdən biri onun (nitqin) şəxslər arasında baş verməsidir. Şəxssiz nitq mümkün deyildir. Buna görə də nitq aktının üç komponenti obyektiv şəkildə mövcuddur: *danışan, qulaq asan, verilən məlumat.*

Nitqi tiplərinə görə təsnif etməyin ən düzgün yolu onun səsli və səssiz olmasına görə bölgüsüdür. Çünki şəxslərə görə bölgü nitqi düzgün müəyyənləşdirə bilmir.

Nitq səssiz və səsli olmaqla iki tipə ayrılır: daxili nitq, xarici nitq. Bunların hər birinə aid səciyyəvi xüsusiyyətlər mövcuddur.

1. DAXİLİ NİTQ

Daxili nitq problemi ən mürəkkəb və hələ çox az öyrənilmiş sahələrdən hesab olunur. Əvvəllər belə hesab edirdilər ki, *daxili nitq* öz quruluşuna görə xarici nitqə uyğun gəlir, onlar arasındakı fərq ancaq səsli tələffüzün

[1] Bax: Afad Qurbanov. "Ümumi dilçilik". I hissə, Bakı, 1989, səh.38.
[2] Г.Я.Солганик. «К проблеме типологии речи». Журн. "Вопросы языкознания", 1981, № 1.

olub-olmamasıdır. Müasir tədqiqatlar daxili nitq problemi haqqında bu yanlış təsəvvürü aşkara çıxarmışdır.

Hər şeydən əvvəl qeyd etməliyik ki, insanın öz-özünə səssiz danışığı *daxili nitq* adlanır. Bu səslənməyən nitq fərdin özünə müraciəti və ya digər şəkillərdə ola bilir. Daxili nitq xarici nitqdən fərqli bir çox xüsusiyyətlərə malikdir:

1. Daxili nitq tələffüz edilməyən səssiz nitqdir. İnsan, əsasən, təklikdə daxili nitqə qapılır. Onun beynində oyanan fikirlər səssiz şəkildə daxili nitq prosesindən keçir.

   Psixoloqlar eksperiment nəticəsində müəyyən etmişlər ki, səssiz daxili nitq prosesində dil və qırtlaq hərəkətdə olur. İnsan hər hansı mürəkkəb tapşırıqlar üzərində öz-özünə düşünərkən nitq mühərrikinin fəallığı daha da artır[1].
2. Daxili nitq sürətli olur. Belə ki, insan hər hansı bir məsələ haqqında öz-özünə düşünərkən daha tez nəticə çıxarır. Lakin xarici nitqdə mürəkkəb quruluşlu çoxlu sintaktik konstruksiyalar dinləndiyindən nəticə çıxarmaq sürəti aşağı olur.
3. Daxili nitq lakonikliyə malikdir. Burada az sözlə çoxlu fikir ifadə edilir. Məsələn, bədii ədəbiyyatda qışın təsvirini ifadə edən bir neçə cümləlik, bir neçə abzaslıq, hətta bir neçə səhifəlik nitq parçası daxili nitqdə bir və ya bir neçə sözlə ("qışdır", "sərt qışdır", "şaxtadır", "hər tərəf qardır" və s.) ifadə olunur. Buna görə də lakonizm daxili nitq üçün daha xarakterikdir.
4. Daxili nitq qrammatik konstruksiya etibarilə elliptik xarakterlidir. Yəni daxili nitqdə bütün cümlə üzvləri yerli-yerində işlənmir. Onların çoxu düşür. Bu cəhətdən daxili nitq predikativliyi ilə səciyyələnir.

[1] Bax: А.Н.Соколов. «Внутренняя речь и мышление». М., 1968.

Yəni burada əşyanın adının çəkilməsindən daha çox onun haqqında məlumat verilir. Məsələn: *"Biz məktəbin həyətində voleybol oynayırıq"* cümləsi daxili nitqdə *"oynayırıq"* şəklində ifadə olunur. Göründüyü kimi, daxili nitqdə cümlə üzvü kimi xəbər daha çox işlənir.

5. Daxili nitq situativ xarakterlidir. Ona görə də o, tez-tez hissələrə bölünür. Çünki o, həmişə müəyyən şəraitlə, situasiya ilə bağlı olur. Belə vəziyyətdə daxili nitq ayrı-ayrı situasiyanı təhlil etmək, aydınlaşdırmaqla məşğul olur.

Daxili nitq barədə psixoloqların maraqlı fikirləri vardır. Əvvəla, onlar daxili nitqi nitq fəaliyyətinin xüsusi növü kimi götürür və göstərirlər ki, o, praktik və nəzəri fəaliyyətin planlaşdırma fazası kimi (məsələn, lazım olan yerə başqa yolla deyil, bu yolla getməyi seçməzdən əvvəl biz bu yolun o biri yollardan nə üçün üstün olduğunu öz-özümüzə "müzakirə" edirik) və ya planın bir sıra xüsusi mürəkkəb nəzəri fəaliyyət növlərində həyata keçirilməsi fazası kimi (məsələn, əgər biz çətin riyazi məsələni həll ediriksə, yenə də öz-özümüzə fikirləşirik) çıxış edir[1]. Psixoloqlar da daxili nitqin fraqmentlik, qırıqlıq, situativ xarakterli olmasından bəhs edir, onu bu cəhətdən xarici nitqin bir forması olan dialoji nitqə yaxın hesab edirlər[2]. Psixoloqların fikrincə, artikulyasiya üzvlərinin (dodaqların, dilin və s.) hərəkətini qeydə almaqla daxili nitqi tədqiq etmək mümkündür[3].

Psixoloji tədqiqatlar göstərir ki, məktəbəqədər yaşlı uşaqlarda daxili nitq hələ zəif inkişafda olur. Onlar, əsasən, səsli tələffüzdə öz-özünə danışırlar. Görünür, bu, bir tərəfdən onlarda daxili nitqin zəif inkişafı, digər tərəfdən, on-

[1] Bax: Общая психология. «Просвещение», 1977.
[2] Bax: Yenə orada.
[3] Bax: Yenə orada.

ların ümumi inkişaf mərhələsi ilə bağlıdır. Məktəblilərdə daxili nitq təlimin təsiri altında inkişaf edir. Müəllim həmişə şagirdlərə *"Cavab verməzdən əvvəl fikirləş"* tələbini qoymaqla, bir növ, onlarda daxili nitqin inkişafına təkan vermiş olur. Məktəblilərdə kitab oxusunun səssiz şəkildə aparılması da daxili nitqin formalaşmasına təsir göstərir.

Daxili nitqin bir cəhəti də ondan ibarətdir ki, o, hər cür siyasət, etika qaydalarına tabe olmur. Daxili nitq, bir növ, cəmiyyətdən uzaq "azad nitqdir". İnsan öz daxilində istədiyi şəkildə düşünə bilər, istədiyi şeyi arzu edə bilər, daxili nitqində bunlara uyğun istədiyi sözü və ya ifadəni işlədə bilər. Bunu o mənada deyirik ki, insan öz xarici nitqində yaşadığı cəmiyyətin siyasətinə, etika və əxlaq qaydalarına uyğun sözlər və ya ifadələr işlətməklə öz fikrini ifadə edir. Bu mənada xarici nitqdə işlədilməsi qadağan olunan sözlər və ya ifadələr mövcuddur. Bütün bunları insan, lazım gəldikdə, daxili nitqdə işlədə bilir və bunu heç kimə sezdirmir.

2. XARİCİ NİTQ

Danışıq səsləri ilə ifadə olunan nitqə xarici nitq deyilir. Xarici nitqin vahidləri bütöv və aydın olmalı, dinləyicini qavramada təmin etməlidir. Daxili nitqdən fərqli olaraq, xarici nitq aydınlıq, məntiqlik, ardıcıllıq, səlislik, təsirlilik, ahəngdarlıq və s. tələb edir. Buna görə də hələ daxili nitqdə insanın özü üçün aydın olan bu və ya digər fikri xarici nitqdə eyni aydınlıqla ifadə etmək hər zaman adama müyəssər olmur. Çünki fikrin insanın özü üçün aydın olan ifadəsi – daxili nitq arasında mühüm fərq vardır[1].

İnsan öz xarici nitqində cəmiyyətin müəyyən siyasətinə etika və əxlaq qaydalarına riayət etməli olur və ondan kənara çıxa bilmir. Buna görə də xarici nitq qrammatik qə-

[1] Bax: Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. "Psixologiya". "Maarif" nəşriyyatı, Bakı, 1989, səh. 316.

liblərə salınmaqla bərabər, həm də ideya və məzmunca da müəyyən çərçivəyə düşməli olur. İnsan müəyyən mənada xarici nitqdə özünün əsl fikirlərini ifadə etməməyə çalışır. Dahilərdən biri də belə demişdir: "Dil sizə öz fikirlərinizi gizlətmək üçün verilib".

Xarici nitq insandan öz fikrini mükəmməl ifadə etmək bacarığı tələb edir. Buna dilçilikdə *nitq mədəniyyəti* deyilir. Bütün insanlar öz fikirlərini eyni dərəcədə xarici nitq vasitəsilə başqasına çatdıra bilmirlər. Yunan filosofu Aristotel "Poetika" əsərində xarici nitqin mahiyyətini açaraq göstərir: "Sözlə əldə edilə bilən hər nə varsa, hamısı fikir sahəsinə aiddir. Bura daxildir: sübut, təkzib, daxili aləmdə, məsələn, mərhəmət, qorxu, qəzəb və bu kimi digər ruhi halların əmələ gəlməsi, həmçinin böyütmə və kiçiltmə. Aydındır ki, fikrin sözlə şərhində olduğu kimi, hadisələrin şərhində də əgər həmin hadisələri cılız, yaxud dəhşətamiz, böyük, yaxud adi göstərmək lazımdırsa, istifadə olunan vasitələr də gərək eyni mənbələrdən götürülsün, fərq yalnız bundadır ki, hərəkətlər... aydın və canlı olmalıdır, nitqin özündən asılı olmayaraq baş verən hərəkət kimi də öz təzahürünü tapmalıdır... "Sözlə ifadənin məziyyəti onun aydınlığında və alçaq olmamasındadır"[1].

Xarici nitq öz növlərinə, formalarına və tərzinə görə müxtəlifdir. Bu cəhətdən dialoji və monoloji nitq, şifahi və yazılı nitq, vasitəli və vasitəsiz nitq mövcuddur.

2.03. NİTQİN NÖVLƏRİ

Nitq şərait və məqsədlə əlaqədar iki növ olur: a) monoloji nitq; b) dialoji nitq.

[1]Aristotel. "Poetika". Azərnəşr. Bakı, 1974, səh. 90, 99.

Monoloq və dialoq nitqin vəhdət təşkil edən vahidləridir. Buna görə də dialoji nitqin ünsürləri monolojidə, monoloji nitqinki isə dialojidə öz əksini tapır. Bunların hər ikisi nitq ünsiyyətinin sisteminə daxil olub ümumi bir vəzifə yerinə yetirir. Bununla bərabər, hər növün özünə aid həm linqvistik, həm də ekstralinqvistik xüsusiyyətləri vardır.

1. MONOLOJİ NİTQ

Linqvistik ədəbiyyatda "monoloji nitq" termini nitqin müəyyən növünü bildirmək üçün işlədilir. Latınca *mono* (mono) – bir, *loqos* (logos) – nitq deməkdir.

Monoloji nitqin əsas mahiyyəti ondan ibarətdir ki, burada hər hansı müəyyən bir ideya, fikir, məsələ, problem, məlumat, informasiya, xatirə, tezis və s. bir nəfərin ardıcıl, rabitəli, geniş və ya qısa nitqi kimi özünü göstərir. Monoloji nitq mühazirə, məruzə, məlumat, çıxış, məktub, məqalə, monoqrafiya və s. formalarda ola bilir. Bunlar şifahi və ya yazılı şəkildə özünü göstərir.

Monoloji nitq müxtəlif məqsədlər güddüyünə görə müxtəlif məzmunlu olur. Məsələn, öyrətmə, inandırma, məlumat vermə, müxtəlif təbiət və cəmiyyət hadisələri haqqında daxili fikir, hiss və həyəcanlarını ifadə etmə və s. Bu cəhətdən monoloji nitqin elmi, publisistik, bədii, epistolyar və s. üslubları mövcuddur. Bu üslublardan bir qismi müəyyən hazırlıq, planqurma, uzun müddət düşünmək və s. tələb edir. Məsələn, yazıçı və ya alim hər hansı bir əsərini yazmağa başlamazdan əvvəl bir neçə müddət müəyyən mövzu üzərində düşünmüş, müxtəlif mənbələri araşdırmış, plan cızmış və onun əsasında əsəri yazmışdır. Lakin hər hansı bir gündəlik hadisə barədə məlumat verərkən bu, nitq sahibindən o qədər də hazırlıq tələb etmir. Qeyd etmək lazımdır ki, monoloji nitq nitq sahibindən yüksək nitq mədəniyyəti tələb edir. L.V.Şerba göstərir

ki, çox az adam monoloji nitqə qabildir; adamların çoxu rabitəli danışmağı bacarmır. Bütün bunları hər gün müşahidə etmək olar, lakin bu hal çox vaxt insan şüuruna çatmır.

L.P.Fedorenko monoloji nitqdən danışarkən fikrini belə izah edir: "Monoloji nitqə malik olmayan adamlar təkcə rabitəli hekayələr tərtib etmək bacarığından məhrum deyillər. Bundan başqa, onlar həm də monoloq şəklində yazılanları başa düşməzlər. Əgər bütün elmi ədəbiyyatın əsas etibarilə monoloq formasında yazıldığı nəzərə alınsa, onda bizə aydın olur ki, şagirdlərə ədəbi dilin məhz bu formasını öyrətməyin nə qədər böyük əhəmiyyəti vardır".

Monoloji nitq həm də son dərəcə fəal və ya sərbəst, mütəşəkkil nitq növüdür.

Monoloji nitq iki şəkildə özünü göstərir: *şifahi* və *yazılı*. Həcminə görə yazılı monoloji nitq geniş, şifahi monoloji nitq isə qısa, yığcam və konkret olur.

Monoloji nitq öz xarakterinə görə bir sıra xüsusiyyətlərə malikdir.

MONOLOJİ NİTQİN XARAKTERİ

Monoloji nitq bir şəxsin öz-özünə danışığıdır. Məsələn, Ə.Haqverdiyevin "Dağılan tifaq" pyesindən Nəcəf bəyin bir monoloqunu nəzərdən keçirək:

Nəcəf bəy*: – Tamaşa elə, dünya, gülün mənə, camaat, görün nə gündə sizin aranızda Nəcəf gəzir. Mənim axırım gərək belə olaydı. O adamlar ki mənəm-mənəm dedilər, hamısının axırı belə oldu. Pərvərdigara, məsləhət Sənindir. Evlər yıxmışam, yetim uşaqların gözlərinin yaşlarını tökdürmüşəm. Övrətlər başaçıq, ayaqyalın müsəllayə çıxıb, haqqü çəkib, üstümə nalə tökublər. Heç birinə qulaq verməmişəm, demişəm, mənim kefim kök olsun, istər aləm tufana getsin. Bizim hamımız beləyik. Cəmi insan tayfası belədir. İstərik həmişə öz qardaşımızdan uca olaq. Ondan ötrü öz qardaşımızın ayağının üstünə çıxıb başından basırıq.*

Amma demirik ki, qardaş başından basanın başından da Allah basar. Allahın divanını yada salmırıq, qiyaməti yada salmırıq... Vay!.. Xudaya, Pərvərdigara! Dərgahında günahdan savayı bir iş tutmamışam, amma indi sidqlə əl götürmüşəm dərgahına, ümid əlimi naümid qaytarma! Xudaya, bəsdir çəkdiyim əziyyət. Bilirəm, o dünyada mənim yerim cəhənnəmdir. Amma ikinci cəhənnəmi bu dünyada mənə çəkdirmə! Dağılın, qara buludlar! Kəsilin, gurultular! Sakit oturun, ildırımlar! Belə mənim duam gedə Xudavəndi-aləmə yetişə! Pərvərdigara, ucuz ölümünü məndən əsirgəmə! Xudaya, bilirəm, Qiyamət günü dərgahına üzüqara gələcəyəm, amma məni insan yanında üzüqara eləmə! Qiyamətdə hər nə tənbeh eləsən, hamısına layiqəm.

Bu monoloq nümunəsi monoloji nitqin müəyyən xüsusiyyətlərini özündə əks etdirir. Əvvəla, monoloji nitqin sahibi bir nəfər – Nəcəf bəydir. İkincisi, burada monoloji nitqə xas olan insanın daxili aləmini əks etdirmək xüsusiyyəti vardır. Nəcəf bəyin nitqindən məlum olur ki, o, daxilən vəhşi təbiətə malik bir şəxsdir. Həyatının sonunda bu vəhşiliyin, yırtıcılığın mahiyyətini dərk edən Nəcəf bəy üzünü Allaha tutaraq ondan imdad, kömək istəyir. Onun bu monoloqunda bir daxili sarsıntı, kor-peşmançılıq, həyata və insanlığa qarşı nifrət və s. mənfur sifətlər öz əksini tapmışdır. Ədib qüdrətli bir sənətkarlıqla hazırladığı bu monoloqda mənfi insan obrazı yaratmağa tamamilə nail olmuşdur.

Qeyd etdiyimiz kimi, monoloji nitq müxtəlif mövzularda ola bilər. Bədii ədəbiyyatda monoloqdan, əsasən, dramatik səhnələrdə geniş istifadə olunur. Məsələn, Ə.Haqverdiyevin "Bəxtsiz cavan" əsərində Fərhadın monoloqu öz məzmununa görə oxucunu dəhşətə gətirir. Oxucu, istər-istəməz, onun söylədiyi monoloqun təsiri altına düşür və əsərin qəhrəmanının taleyinə ürəkdən acıyır.

"Fərhad: – *Axın, gözlərimin yaşları, seylab eləyin dünyanı! Niyə gərək axmayasınız? Bu halda gərək cəmi dünya mənim üçün*

gözündən qan töksün! Gərək mənə olan zülmün müqabilində aləm tufana getsin. Yer, göy titrəsin, göyün quşları, yerin heyvanları, dəryaların balıqları, hamısı gərək mənim üçün ağlaşalar.

Amma yox!.. Heç kəsin xəbəri yoxdur. Hər kəs öz karındadır. Ancaq bir tək mən əlləri qoltuğunda qalıb, dərdimə dərman axtarıram. Yoxdur dərman eləyən, yoxdur, yox!.. Gəl, ey cümlə dərdlərin dərmanı! (Tapança çıxarır). *Bir sən mənim bu halətimdə mənə yoldaşsan! Cəmi dara düşənlər, dərdlərinə dərman axtaranlar gərək səndən kömək istəyələr. Bir yerdə ki insan mənim kimi puç olub gedəcək, onun dünyada qalmağı heç məsləhət deyil. Qurtarginən məni sən bu bivəfa dünyanın qeylü-qalından!"*

Bədii ədəbiyyatda şair monoloqdan özünün və ya qəhrəmanın sevinc və fərəh hissini ifadə etmək üçün də istifadə edir. Məsələn, S.Yurğunun "Azərbaycan" şeiri buna ən parlaq misaldır. Şair üzünü Azərbaycana tutub onun keçmişi, bugünü və gələcəyi haqqında öz ürək sözlərini ifadə edir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Monoloji nitq fərdi olmaqla yanaşı, eyni zamanda ictimai xarakter daşıyır. Onun bütün ünsürlərinin əsasında insan və cəmiyyət problemləri durur. Bu cəhətdən H.Cavidin "İblis" əsərində İblisin monoloqu daha xarakterikdir. Monoloqdan bir neçə parçanı nəzərdən keçirək:

...Həp din ilə, məzhəblə siyasətlə cahanda
Həp fırtına qopmuşsa, əvət, mən varam onda.
Hər yerdə ki vardır əzəmət, qəhr ilə dəhşət,

Hakimdi bu yerlərdə şu qarşındakı xilqət.
...Röya kimi hər an olaraq zahiri qaib
Mən Şərqdə abid oluram, Qərbdə rahib.
Bir qazı olub gah edərəm fitnələr icad.
Bir mürşid olub gah edərəm aləmi bərbad.
Bəzən olurım bir papa, cənnət satarım mən,
İsa dirilib gəlsə də, qorxar qəzəbimdən.
...İblis nədir?- Cümlə xəyanətlərə bais.
Ya hər kəsə xain olan insan nədir? – İblis.

Burada İblisin düşüncələri tamamilə bəşəri xarakter daşıyır, cəmiyyət ziddiyyətləri bir subyektin təfəkkür süzgəcindən keçərək nitqində təzahür edir.

Monoloji nitq subyektiv xarakter daşıdığından burada təbiət və cəmiyyət hadisələrinə birtərəfli yanaşılır. Buna görə də monoloji nitqdə əks olunan fikirlər, ideyalar bəzən obyektiv, bəzən də qeyri-obyektiv şəkildə qarşılanır.

Monoloji nitqdə fasilə, sürət, ahəng, ton xüsusi rol oynayır. Xüsusilə bədii əsərdə hər hansı ədəbi qəhrəmanın dili ilə ifadə olunmuş monoloqun oxusunda mütləq bu tələffüz ünsürləri özünü göstərir. Məsələn, məşhur monoloqlar ustası H.Cavidin "İblis" pyesində İblisin, Arifin və İxtiyar Şeyxin nitqindəki aşağıdakı monoloqları adi tonla demək heç cür mümkün deyildir!

İblis: – Həp rəqs ediyor qanlı günəş, qanlı üfüqlər,
Həp rəqs ediyor halə, qəmər, pənbə şəfəqlər.
Rəqs etmədə həm şerü düha, hüsnü lətafət,
Rəqs etmədə ulduzlu fəza, ruhi-təbiət.
Hər fəlsəfə hər dinü təriqət, bütün adət
Rəqs etmədə həp olsa xəyal, olsa həqiqət.
Həp rəqs ediyor hüznü sürür, eşqü fəlakət,
Həp rəqs ediyor xeyirlə şər, elmü cəhalət...

Rəqs etmədə hətta o görünməz ulu məbud,
Rəqs etmədə hətta o vücudi-ədəm alud.

Arif: – Dünyaları yoxdan yaradan ey ulu Tanrı!
Ey Xaliqi-hikmət!
Duyduqca, düşündükcə olur qəlbimə tarı
Min şübhəli illət.
Duyduqca, əvət, pərdəli hikmətləri hər an,
Min dürlü həqiqət,
Min dürlü müəmmalı həqiqət mana xəndan,
Həpsində də zülmət...
Bülbüllərin əlhanı, çiçəklərdəki əlvan,
Ya şöləyi-əcram.
Olmaz şu mənim qıldıracaq könlümə əlan
Bir mənbəyi-ilham.
Ey varlığı yox, yoxluğu vardan daulu dilbər!
Ruhim səni izlər.

İxtiyar Şeyx (Həyəcanlı və çılğınca bir fəryad ilə):
– Ah, bilməm ki, bu aləm nerəsi?
Mana bir söylə, cəhənnəm nerəsi?
Şu sönük qəlbimə atəş dilərim,
Ağlamaq istər ikən həp gülərim.

(Çılğınca bir qəhqəhədən sonra)

Ah, Xavər! Sana kim qıydı, gülüm!
Mən durarkən sana layiqmi ölüm?
Onlar, eyvah, ey səfil insanlar,
Qəlbi, vicdanı sönük qaplanlar!..

Bir az sonra İxtiyar Şeyx daha coşar:

İntiqam istərim, ancaq bu qədər!..
Tanrıdan, yırtıcı sərsəmlərdən,
Şu batan qanlı günəşdən, göydən,
Heçliyin qəhqəhəsindən.
Ey sən!
Sən ki fəxr etmədəsin əqlinlə,
Bu nə xilqət, bu nə hikmət? Söylə.

Bu monoloq nümunələrini xüsusi ton, intonasiya ilə oxumağı onların məzmunu və ideyası tələb edir.

Elə monoloji nitq növləri də vardır ki, onları adi tonla, yavaş-yavaş, fasilə ilə oxumaq lazım gəlir. Məsələn, hər hansı alimin əsərini və s. bu tərzdə oxumaq daha düzgündür.

MONOLOJİ NİTQİN FORMALARI

Monoloji nitq zahiri cəhətinə, məzmun və xarakterinə görə təsnif olunur. Bu cəhətdən monoloji nitqin üç formasını göstərmək olar: a) nəqletmə monoloqu; b) təsviri monoloq; c) məlumatverici monoloq.

a) NƏQLETMƏ MONOLOQU

Monoloji nitqin bu formasının məzmunu nəqletmə yolu ilə ifadə edilir. Bu formada təsviri monoloqun əksinə olaraq hər şey hərəkətdə, inkişafda verilir. Nəqletmə monoloqu həcminə görə bir cümlədən və ya bir neçə cümlədən ibarət ola bilər. Məsələn, S.Vurğun bəzi poemalarını bir neçə cümlədən ibarət nəqletmə monoloqu formasında başlayır:

Ayazlı, şaxtalı bir qış axşamı
Yeddi yoldaş olub yola düzəldik;
Qarlarla örtülü bir düzə gəldik;
Ayazlı, şaxtalı o qış axşamı,
O ay dediyimiz göylərin şamı

Bu qarlı düzlərə baxıb yanırdı,
Yolçular getdikcə yol uzanırdı...

Nəqletmə monoloqu bədii ədəbiyyatda yazıçının, nağılçının və ya ədəbi qəhrəmanın dili ilə verilə bilir. Özü də bu tip monoloqa ən çox nəsr əsərlərinin dilində rast gəlinir.

Bəzən nəqletmə monoloqu, yuxarıda qeyd etdiyimiz kimi, bir cümlədən ibarət olur ki, belə cümlələr dialoq üçün şərait yaradır. Məsələn:

Sahənin kənarında Təftişlə üz-üzə gələndə sifəti yanırdı, gözləri oynayırdı.

– Mənnən niyə elə danışdın sən, a kişi?!

– Bə nə təhər danışmalıydım?

– Təhqirini başa düşmürəm. Nə özümü layiq bilirəm o sözlərə, nə əmimi, nə də o bədbəxt zənəni!.. (İ.Hüseynov).

Bu bədii parçada monoloq birinci cümlədə yazıçının nitqini ifadə edən nəqletmə formasında çıxış edir və dialoq üçün uyğun zəmin törədir.

Nəqletmə monoloqunda mürəkkəb sintaktik konstruksiyalara daha çox rast gəlinir.

b) TƏSVİRİ MONOLOQ

Təsviri monoloq, əsasən, çoxcümləli nitq vahidindən ibarət olur. Burada təsvir dedikdə, sırf bədii təsvir nəzərdə tutulmur. Hər hansı bir elmi əsərin nəticə hissəsi də alimin təsviri monoloqu kimi səslənir. Təsviri monoloq nitq sahibindən zəngin lüğət tərkibinə malik olmaqla müəyyən hadisə, əşya, təbiət və sair haqqında aydın bir dildə təsvir etmək tələb edir. Bu nitq qabiliyyəti həyatda hər bir şəxsə lazım gəlir. Hər bir kəs öz gördüyünü qarşısındakı adama lazımi səviyyədə təsvir yolu ilə çatdırmalıdır. Bu isə uşaqlara lap kiçik yaşlarından aşılanmalıdır. Təsviri monoloqdan bədii ədəbiyyatda yazıçının və ya obrazın nitqində

daha çox istifadə olunur. M.Hüseynin "Dost" hekayəsində verilmiş bir təsviri monoloq nümunəsinə nəzər salaq:

İndi bütün kənd görünürdü. Cərgə ilə tikilmiş təzə ağ evlər, küçənin hər iki yanındakı sakit-sakit axan balaca arxlar, göz işlədikcə uzanan dümdüz şose yolu, hər addımda rəng verib rəng alan güllü-çiçəkli bağçalar, – bir sözlə, illərdən bəri insan əli ilə cənnətə çevrilmiş geniş düz ətirli nəfəs alan gözəl, dilbər bir guşə kimi görünürdü.

Amma hər tərəf sükut içində idi. Səhərlər günəş uzun şam ağacları arasından kəndə baxanda, səs-səsə verib ötüşən, pırıltı ilə budaqdan-budağa uçuşan balaca quşlar indi nizamlı yürüşü pozmadan şose yolu ilə yeriyən piyadaların ayaq səsindən ürküşüb qaçışır, yoldan xeyli kənarda, meşənin dərinliyində gözdən itirdilər. Bundan sonra ətraf daha da sakitləşirdi.

Verilən bu təsviri monoloq nümunəsi bir neçə cümlədən və iki abzasdan ibarətdir. Bu bədii parçada yazıçı kiçik bir təsvir yarada bilmişdir.

Təsviri monoloqda nəqletmədən fərqli olaraq, söz, cümlə, sadə cümlə daha çox işlənir:

Kür qırağı. Qarayazı, göy çəmən,
Qoşa palıd, tüstülənən od, ocaq,
Saç ağardı, unutmadım sizi mən.
Hansı şair, görən, bir də yazacaq. (S.Vurğun)

c) MƏLUMATVERİCİ MONOLOQ

Bu monoloq formasında hər hansı bir məsələ haqqında məlumat verilir. Məlumat ya rəsmi, ya da qeyri-rəsmi ola bilər. Buraya monoqrafiya, məruzə, tezis, çıxış və s. daxildir.

Bu cür monoloji nitq nümunələri öz quruluşuna görə üç tərkib hissəyə bölünür: *giriş, sübutetmə, nəticə*. Məlumatverici monoloq, əsasən, elmi-publisistik, danışıq, rəsmi üs-

lublarda ifadə edilir. Bədii ədəbiyyatın daxilində də məlumatverici monoloqlara rast gəlinir. Məsələn:

Nökərlərin adlar barədə müddəasını yadına sal: "Adlar nə dildədisə, xalq da o dildə danışır". Çox ciddi müddəadı bu. Nökərlər deyirdilər, məsələn, "Kiaksar" adı tamamilə anlaşılmaz dildədi, demək, Midiya dili anlaşılmazdı və ölüdü. Nəcəfqulu izah eləmişdi ki, yunanlar, bir qayda olaraq, adların əvvəlindəki "Od" sözünü tərcümə eləyiblər. "Odağsar" sözünün əvvəlindəki "od" da tərcümə olunub, yəni od əvəzinə "ki" deyilib, buna görə də "Odaksar" "Kiaksar"a çevrilib. Bağın, insanın, təbiətin həqiqi mənasında "Odağ" sözünü "Kiniq" eyləyib təhqiramiz məna veriblər... Bayaq dedim, "Odər" sözü "Atro" kimi işlənirmiş. Makedonskinin hakimiyyəti möhkəmlənəndən sonra "Odər"in əvvəlindəki "od" da tərcümə olunub, "Odər" "Kidar" şəklinə düşüb. Yevreylər də "Odər"in yunan variantını qəbul eləyib, İncildə "Kidar" yazıblar... Astiaqın qızı Pəhləvilərə ərə gedibmiş, oğlunun adını "Odər" qoyubmuş, yunanlar Pəhləvi dövlətini devirəndən sonra Pəhləvilər də "Odər" adının yunan variantını götürüb "Kidar'i "Kiər", "Kiər"i "Kir" eləyiblər... Odərlər sərhəd ərazisindəki qalalara "Kurodmən", "Odərmən" deyirmişlər. Quldurlar qalalara "Kirdman", "Kirman" deyiblər. Tək bir qala öz adıynan qalıb. Bayaq dedim: Fərağ – "Frakiya" – Bolqariya ərazisindədi o qala (İ.Hüseynov).

Bədii üslubda yazılmış bu məlumatverici monoloqun əsasında mühakimə durur. Ümumiyyətlə, məlumatverici monoloqu monoloji nitqin başqa növlərindən fərqləndirən başlıca cəhət mühakimə irəli sürməkdir.

Bədii ədəbiyyatda, xüsusilə poeziya yaradıcılığında məlumatverici monoloqlara daha çox rast gəlinir. Nümunə üçün A.Şaiqin "Gənclik marşı" şeirinə nəzər salaq:

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu,
Qaranlıqlarla çarpışan elm, ürfan ordusu.

Köhnə, çürük qüvvələri parçalayıb yıxan biz,
Şimşək kimi parıldayan, ildırımtək çaxan biz,
Daşqın, coşqun sellər kimi hər tərəfə axan biz,
Bizim nurlu aləm quran azad insan ordusu.
Sevgi, atəş ocağıdır Azərbaycan ölkəmiz,
Şərqə, Qərbə işıq saçan, atəş yaxan bizik, biz.
İgidlikdə, hər sənətdə ad çıxarmış nəslimiz,
Bizik bilik arxasınca gedən ön, şan ordusu.
Üstümüzdə dalğalanır nur saçaqlı bayrağımız,
Elmsizlik, istibdaddır bizim böyük yağımız,
Yorulmadan çarpışaq ki, parlasın ocağımız,
Bizik qaranlığı qovan, nur saçan dan ordusu.

Elmi ədəbiyyatda məlumatverici monoloqa dair müxtəlif məzmunlu bir sıra fikir irəli sürülmüşdür.

2. DİALOJİ NİTQ

Filoloji ədəbiyyatda ənənəvi olaraq nitqin digər növünü adlandırmaq üçün *"dialoji nitq"* terminindən istifadə edilir. Dialoji nitq quruluşuna, məqsəd və vəzifəsinə görə digərindən əsaslı şəkildə fərqlənir.

a) DİALOJİ NİTQİN ƏLAMƏTLƏRİ

Dialoji nitqin özünəməxsus bir sıra xarakterik cəhətləri, səciyyələndirici əlamətləri mövcuddur.

Dialoji nitqin əsas cəhətlərindən biri onun dialoq əsasında qurulmasıdır. *Dialoq* (dialog) sözü mənşəcə yunan dilinə məxsus olub bir neçə nəfər arasında danışıq mənasını ifadə edir. Monoloqda biri danışır, qalanları qulaq asırsa, dialoqda danışıq iştirak edənlər arasında baş verir. Məsələn:

– Ay uşaq, nə yığırsan?
– Çör-çöp yığıram.

– Çöp çöpdü, bəs çör nədir?
– Çör durandı, çöp yıxılandı...
– Bu quzular kimindi?
– Qoyunların.
– Kəndinizdə böyüklər kimlərdi?
– Öküzlər.
– Elə demirəm ey, kəndə qonaq gələndə kim qarşılayır?
– İtlər.
– Məni dolamısan? Qılıncımı çıxarıb səni çaparam.
– Yaxşısı budu çap, yoldaşlarına çat. (F.Kərimzadə)

Bu dialoqda iki nəfər iştirak edir. Bunlardan biri, dialoqun məzmunundan göründüyü kimi, yaşlı, ikincisi isə uşaqdır. Dialoqda uşaq yaşlı adamın suallarına cavab verir və hazırcavablıq göstərir.

Dialoji nitqdə sual-cavab forması əsas rol oynayır. Buradakı cümlələrin əksəriyyəti yarımçıq, bitməmiş ifadələrdir. Dialoq üçün xarakterik əlamətlərdən biri də replika, emosionallıq, yığcamlıqdır. Dialoji nitq, əsasən, iki və daha çox adamın iştirakı şəraitində baş verir. Buna görə də bu nitq formasında linqvistik və ekstralinqvistik əlamətlər bir-biri ilə əlaqəli şəkildə özünü göstərir.

Qeyd etmək lazım gəlir ki, dialoji nitq prosesində mimika və jestlərdən olduqca fəal şəkildə istifadə olunur və bunlar hər hansı sözü, cümləni və ya ifadəni asanlıqla əvəz edir. Məsələn: "Bu gün iclasda neçə nəfər iştirak etmişdir" sualına müsahib əlinin bir barmağını göstərməklə suala tam cavab vermiş olur.

Dialoqda sual-cavabın tərəflərini replika təşkil edir. *"Replika"* termini müxtəlif mənalarda işlənir: 1) sual-cavabın tərəfləri; 2) dramatik əsərdə aktyorun bu və ya başqa səhnədə söylədiyi son sözlər; 3) konkret bir neqativ məsələyə işarə edən qəzet və ya jurnal məqaləsi. Dilçilikdə replika dedikdə

dialoq nitqinin əsas struktur vahidi nəzərdə tutulur. Məsələn, C.Cabbarlının "Sevil" pyesindən bir dialoqa nəzər salaq:

Sevil: – ... Çalğıçılar, vals! Mən oynamaq istəyirəm!
Gülüş: – Edilya, sizdəmi vals oynayacaqsınız?
Dilbər: – Yox, mənim başım hərlənir; verin mənim papağımı, mən gedirəm.
Sevil: – Mənim isə artıq başım hərlənmir. Mən həyata sərxoş girib ayıq çıxmışam. Vals!
Məmmədəli: – Nə ay var, nə gün! Nə dünya var, nə axirət! Heç nə yoxdur.
Babakişi: – Adə, Atakişi, türkün sözü, gəmidə oynadığımız oyundur, ha!
Atakişi: – Di onda başla, Babakişi!

Bu dialoqda 6 nəfər – Sevil, Gülşən, Dilbər, Məmmədəli, Babakişi, Atakişi iştirak edir. Onların hər birinin nitqi öz-özlüyündə replikadır.

Replikanın qısalığı və qrammatik cəhətdən bütöv olmaması dialoqun dinamikliyini daha da artırır və onu canlı danışıq dilinə yaxınlaşdırır. Replikanın hər biri dialoqun tərkibində obrazın xarakterinin açılmasına kömək göstərir. Bir cəhət də diqqəti cəlb edir ki, bədii ədəbiyyatda, xüsusilə dram əsərlərində hər yazıçının, dramaturqun özünəməxsus dialoq tərzi vardır. Bu cəhətdən M.F.Axundov, H.Cavid, C.Cabbarlı və başqa görkəmli dramaturqların hər birinin spesifik dialoq üslubu mövcuddur. Məsələn, Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun dram dilinin özəyini təşkil edən dialoji nitqin başlıca xüsusiyyəti onun canlı xalq dilində olmasıdır. Bir nümunəyə nəzər salaq:

Kərəməli: – Ağa, atlar hazırdır, hara gedəcəksən?
Hacı Qara: – Təbrizə!

Kərəməli: – Təbrizə məni də istəyirsən aparasan?
Hacı Qara: – Bəli!
Kərəməli: – Nədən ötrü gedirsən, ağa?
Hacı Qara: – Sənin nə vecinə?
Kərəməli: – Necə vecinə deyil, axı deyirsən səni də aparıram... Bəs bilməyim ki, mən nəyə gərəyəm?
Hacı Qara: – Gedirəm xırıda. Mal alıb ata yükləyəcəyəm, sən çəkə-çəkə gətirəcəksən.
Kərəməli: – Ay ağa, havaxt başburt aldın ki, Təbrizə gedirsən?
Hacı Qara: – Başburt lazım deyil!
Kərəməli: – Elə olsa, mən getmənəm. Mən bir yol buradan Səlyana biletsiz getmişdim, murov o qədər döydürdü ki, indi də ağrısı yaddan çıxmayıbdır ("Hacı Qara").

Bu dialoqu təşkil edən replikalar tam canlı danışıq dili əsasında yazılmışdır.

H.Cavidin pyeslərində isə dialoqlar fəlsəfi məzmun, daxili bir məntiq və ardıcıllıq kəsb edir:

İblis: – Ona nail olur ancaq onlar
Ki, ovuclar dolusu altunu var.
Arif: – Məndə yox altun, əzizim, zira
Uymamış sərvətə könlüm əsla.
İblis: – (Yarım qəhqəhə ilə)*:*
Altunun yoxsa, silahın var, ya
Məni öldür də qovuş sonra ona.
Arif: – Yox, silahım da yox, insaf eylə.
İblis: – (Mənalı bir qəhqəhə ilə)*:*
Pək gözəl, anladım, ancaq Rəna
Qiymət olmaz bu təbiətlə sana.
Üzülüb durma, çəkil get, zira
Qüvvətə, altuna tabe dünya. ("İblis")

H.Cavidin dialoqlarında fikirlər arasındakı əlaqəyə, az sözlə çox fikir ifadə etməyə xüsusi əhəmiyyət verilir. Obrazlar tutduqları ictimai mövqedən çıxış edərək danışırlar.

Şifahi nitqdə intonasiya olduğu kimi, yazılı nitqdə də dialoqu canlandıran əsas vasitə durğu işarələridir. Durğu işarələrindən məqsədəuyğun şəkildə istifadə olunmaması replikaların anlaşılmamasına gətirib çıxara bilər. Buna görə də yazılı dialoji nitqdə ən çox sual (?), nida (!), sual-nida (?!), nida-çox nöqtə (!..) və s. durğu işarələrindən istifadə edilir. Məsələn:

Səməd... çax-çuxa sözünü necə başlamaq istəyirdisə, burada da, təxminən, elə başladı:

– Zülmətdəyəm mən. Heç nə görmürəm. Heç nə bilmirəm, – dedi.

– Necə olub bu iş?! Əmimin xəbəri varmı bizim münasibətimizdən?.. Bir söz deyin mənə... Soruşuram ki, qıznan mənim münasibətimdən xəbəri varmı əmimin?!

– Yox, yox!.. Yox, yox!.. – Hənifə arvadla Əlləzoğlunun titrək qısıq səsləri bir-birinə qarışdı və xırp kəsildi.

– Yox... Demək, yox... Bilirdim. Mən bilirdim müqəddəsdi mənim əmim!

– Səməd nəfəsini dərdi.

– Bəs siz necə razı olmusunuz ki, ləkələnsin o müqəddəs ad?! Niyə xəbərdarlıq eləməmişsiniz kişiyə?!

Səs çıxmadı. Hənifə arvadın əlləri üzündə qalmışdı. Əlləzoğlu isə hələ də geridə durub tərpənmirdi.

– Bəs Gülgəz özü niyə deməyib əmimə?! Mən bilmək istəyirəm! Partlayıram! Dağılıram mən. Başa düşürsünüz? Niyə susub Gülgəz?! Kim məcbur eləyib onu? Necə məcbur eləyiblər?! Qurğudursa, necə qurğudu? Qurğu deyilsə, nədi bu?! (İ.Hüseynov).

Bu dialoq parçasında hər bir durğu işarəsi müəyyən məzmunla bağlı intonasiyanı əks etdirir. Durğu işarəsiz həmin dialoq olduqca cansız və məzmunsuz görünə bilər.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, durğu işarələri vasitəsilə şifahi nitqdə əks olunmuş dialoqun bütün

incəliklərini olduğu kimi, əsasən, yazılı nitqə köçürmək mümkündür.

İstər şifahi, istərsə də yazılı nitqdə dialoqun tərkib hissəsini təşkil edən replika başqa nitq vahidlərinə nisbətən qısa və sadə sintaktik quruluşa malik olur.

Müəyyən şəraiti əks etdirən dialoqun komponentləri kimi, replika bir-biri ilə sıx əlaqədə olur və hər bir replika özünəməxsus tərzdə tamamlanır. Yəni hər bir replika müəyyən məsələ ilə bağlı sual və ya cavab məqsədi güdür, eyni zamanda reaksiya bildirir. Replikaları təşkil edən cümlələr sadə cümlələrdən ibarət nida, təhrik, nəql intonasiyalarını özündə əks etdirir.

Dialoji ünsiyyətdə danışan şəxs hər hansı bir məsələni həll etmək istəyir və dialoqda öz dediyini sübuta yetirməyə çalışır. Məsələn:

Bir gün bir neçə nəfər yığışıb öz həmyerlilərindən soruşdular:

– Ay Mosu, de görək dünyada ən çox kimi istəyirsən?

Mosu şəhadət barmağını yuxarı qaldırıb dedi:

– Bircə nəfəri.

– O bircə nəfər kimdir?

Mosu lovğa-lovğa cavab verdi:

– O bircə nəfər mənim birinci arvadım Əzizədir.

– Buna inanmırıq, sübut! – deyə həmyerliləri ona etiraz edirlər.

– Sübut, bu saat! – deyə Mosu sözə başladı. – İlk arvadımın Əzizə olduğunu bilirsinizmi?

– Bilirik, – deyə həmyerliləri cavab verdilər.

– Əzizədən ayrılıb bir müddət Lətifə ilə yaşadığıma etiraz etmirsiniz ki?

– Xeyr, etiraz etmirik.

– Lətifədən əl çəkib yenidən Əzizənin yanına qayıtdığımı dana bilməzsiniz ki?

– Xeyr, dana bilmərik.

– İkinci dəfə Əzizədən ayrılıb Qəmərlə yaşadığıma və ara-

dan iki-üç ay keçəndən sonra Qəmərin daşını atıb yenidən Əzizənin yanına qayıtdığıma da şəkk-şübhəniz yoxdur?

– Xeyr, yoxdur.

– Üçüncü dəfə Əzizədən əl çəkib Nina adlı bir arvadın evinə girdiyim hamınıza ki məlumdur.

– Bəli, məlumdur.

– Elə isə Ninadan ayrılıb yenidən Əzizənin yanına gəldiyim də hamınıza bəllidir.

– Bəli, bəllidir.

Mosu özünü çəkib qürurla dedi:

– Onda bəs məni nə üçün sorğu-suala tutmusunuz? (C.Gözəlov)

Burada hekayənin satirik qəhrəmanı olan Mosu dialoq vasitəsilə sübut etmək istəyir ki, onun ən istəkli arvadı Əzizə olmuşdur. Eyni zamanda dialoq vasitəsilə müəllif onun əyyaş və pozğun təbiətini də açıb göstərmişdir.

Dialoji nitqdə dialoqun yaranmasının xüsusi əhəmiyyəti vardır. Hər dialoq bir nitq situasiyası əsasında yaranır. Dialoji nitqdə dialoq quruluşunun və sisteminin də rolu az deyildir.

Dialoji nitqdə dialoq quruluşunun və sisteminin rolu xüsusi əhəmiyyət kəsb edir. Bu, özünü ən çox bədii dialoqda göstərir. Bədii dialoq bədii əsərin, xüsusilə dramatik əsərlərin əsas tərkib hissəsidir. Bədii dialoq həm də danışıq dilinə daha çox yaxındır. Buna görə də bədii dialoqda şifahi danışıq dilinə məxsus sərbəstlik, axıcılıq, yığcamlıq, emosionallıq və s. cəhətlər öz əksini tapır. Məsələn:

...Bu zaman yuxarıdan ona doğru gəlməkdə olan adam:

– Ey, kimsən? – deyə bağırdı.

Dursun əhəmiyyət vermədən irəlilədi. O səs:

– Sənə, kimsən deyirəm? – deyə bir də gurladı.

Dursun yorğun və boğunuq səslə:

– Mənəm, mən... – deyə cavab verdi.

– Sən kimsən?

– Dursunam... Dursun...

– Hansı Dursun?
– Bu evin sahibi.
– Səfərin atasımı?
– Hə, hə!.. (A.Şaiq)

Bədii dialoqda danışıq dilinin bütün xüsusiyyətlərinə rast gəlmək olur. Dialoqlar ancaq sual-cavablardan ibarət olmur. Bədii ədəbiyyatda elə dialoqlara rast gəlinir ki, orada suala sualla cavab verilir.

– Əlindəki nədir?
– Nə üçün soruşursan?
– Bilmək olmaz?
– Səni nə maraqlandırır?

Bu suallar mükaliməsində əsl mətləb personajlar arasındakı konflikti daha da gücləndirməkdir.

Bəzən dialoqlarda sual iştirak etmir. Mükalimələrin komponentlərini təşkil edən replikalar ancaq məlumat və təəssüratları ifadə edir. Məsələn:

Kəndlilər isə həsrətlə bir-birinə deyirdilər:
– İsmayılın kitabı gör nə cür olar ha!
– Onu oxuya bilən savadım olaydı!
– Hər adama qismət olmaz! (Mir Cəlal)

Bir cəhəti də qeyd etmək lazımdır ki, bu növ nitqdə dialoqun həcmi xüsusi əhəmiyyətə malikdir. Dialoqun həcmi, meyarı onun quruluşudur. Dialoq həcminə görə mikro və makro şəklində olur.

1. Mikrodialoq. Mikrodialoq, əsasən, bir neçə nəfərin qısa mükaliməsindən ibarətdir. Həm də mikrodialoqlardan nəsr əsərlərində – roman, povest və hekayələrdə istifadə edilir. Məsələn, A.Şaiqin "Oyunçu bağalar" hekayəsində çoxlu mikrodialoqa rast gəlinir. Onlardan birinə nəzər salaq:

Bir gün Qanbay atasından soruşdu:
– Ata, heyvanlar bu oyunları kimdən öyrənir?
– Oğlum, sən elmi kimdən öyrənirsən?

– Müəllimdən.

– Onları da öyrədən bir müəllim var.

– Onu bilirəm, axı bu dilsiz heyvanlara belə oyunları necə öyrədirlər?

– Oğlum, sirkdə əlində çubuq tutan bir adam var idi. Onu gördünmü?

– Gördüm.

– Bax, o, müəllimdir, həm də çox məharətli müəllimdir.

Mikrodialoqlar ya sual-cavab əsasında, ya da təəssürat bölüşdürülməsi əsasında aparılır. Buna görə də, demək olar ki, mikrodialoqların quruluşu sadə və aydın olur.

2. *Makrodialoq.* Bu cür dialoq bütövlükdə bədii əsərin quruluşunu əhatə edir. Dram əsərləri makrodialoq əsasında yazılır. Makrodialoq mürəkkəb və rəngarəng olur. Makrodialoq yaratmaqda yazıçının əsl sənətkarlığı üzə çıxır. Bu cəhətdən Azərbaycan ədəbiyyatında H.Cavid, C.Cabbarlı, S.Vurğun kimi klassiklərin əsərləri əvəzedilməz və təkrarolunmazdır.

Dialoji nitqin nüvəsi replika hesab edilir. Replika cümlələri müxtəlif olur. Məsələn, sual-replika cümlə, cavab-replika cümlə, məlumatverici replika cümlə, hiss-həyəcan bildirən replika cümlə və s.

Dialoji nitqdə bunlar bir-biri ilə möhkəm bağlı olur, biri digərini tamamlayır:

Zabitin əmri ilə əsir qadınları da həyətə gətirdilər; sıraya düzdülər. İndi onlar yeddi nəfərdi. Zabit hər biri ilə ayrı-ayrılıqda tanış olmaq istədi.

*– Bu kimdir? (**sual-replika**)*

*– Köhnə mülkədar qızıdır. Özü müəllimədir. Amma bizim adamdır, cənab zabit... (**məlumatverici replika**)*

*– Kolxozda varmı? (**sual-replika**)*

*– Yox, yox, yazıq deyil! (**hiss-həyəcan replikası**)*

*– Ah, demək, kolxozdakılarm hamısı yazıqdır?! (**sual-həyəcan**)*

*– Əlbəttə, cənab zabit! (**cavab**)*

*– Niyə ki? (**sual**)*

*– Çünki kolxoz... (**cavab**)* (M.Hüseyn)

Dialoji nitqdə replikaların məzmunu və intonasiyaca zənginliyi bədii sənətkarlığı artıran amillərdən hesab edilir.

Replikada, ümumiyyətlə, cümlə üzvü olmaya da bilər. Bəzən bir replika ancaq nidadan ibarət olur. Məsələn:

Qurban: – Yığdın mənim canımı boğazıma. Mən gedirəm, bu da sən (Hafizə xanımı öldürür).

Hafizə xanım: – Oy, oy... (ölür) (Ə.Haqverdiyev)

Bu dialoji nitqdə Hafizə xanımın nitqində verilmiş "Oy, oy" nidası ən müdhiş səhnəni əks etdirir.

b) DİALOJİ NİTQİN NÖVLƏRİ

Ünsiyyətin dialoji formasının bir neçə növü vardır:

a) Sual-cavab dialoqu. Bu növ nitqin əsasını sual verib cavab almaq təşkil edir. Məsələn:

Koxa: – Ay Niyazəli! Dur görək!

Niyazəli: – Nə var, ay Koxa?

Koxa: – Naçalnik gəlib, səni istəyir.

Niyazəli: – Hara düşübdür?

Koxa: – Hacı Abdullagildədir.

Ağakişi: – Adam çoxlu yığılıbdır?

Koxa: – Yox, hələ adam çox deyil! (N.Nərimanov)

Bu cür sual-cavab replikalarından ibarət bədii dialoqlarda cümlələr quruluşca və cümlə üzvlərinin iştirakına görə çox müxtəlif olur və bu, bədii nitq üçün normal hesab edilir.

Sual-cavab dialoqunda hər bir sual yeni və ya əlavə məlumat almaq məqsədini güdür və dialoqun müəyyən istiqamətə yönəldilməsində əsas rol oynayır. Bu zaman dialoqun bir tərəfini təşkil edən cavab replikaları məzmunca sual replikalarına tabe olur. Mükalimə prosesində hər hansı müsahib söhbətin məzmununu ancaq sualın köməyi ilə dəyişə bilər.

b) Müsahibə dialoqu. Dialoji ünsiyyət müxtəlif situasiya əsasında baş verir. Bir neçə mikrodialoq bir məsələnin açılmasına kömək edir. Dialoji nitqin bu növü, əsasən, *tematik müsahibə* şəklində özünü göstərir. Bu cür müsahibə dialoquna elmi, ictimai, publisistik söhbətlərdə rast gəlinir. Tematik müsahibə dialoji nitqin bir forması kimi fəaliyyət göstərir. Burada hər bir sual-replika ümumi məsələnin bu və ya digər cəhətinin açılmasına xidmət edir. Televiziya, qəzet və jurnallarda jurnalistlərin müxtəlif peşə və sənət adamları ilə apardıqları müsahibələr müsahibə dialoquna aiddir.

c) Müzakirə dialoqu. Bu növ dialoji nitqdə müəyyən problemə həsr olunmuş müzakirə, disput əsas yer tutur. Dialoqun bu növü bir məsələ haqqında müxtəlif rəy və fikirlərə mənsub şəxslərin müsahibəsi prosesində meydana gəlir. Müzakirə dialoqu hər bir şəxsin fikirlərini əks etdirən monoloji nitqin vəhdətindən əmələ gəlir. Müzakirə dialoqunda dialoji ünsür emosional yük daşıyırsa da, buraya daxil olan monoloji nitq söhbətin məntiqi məzmununu ifadə edir. Müzakirə zamanı, adətən, danışanların nitqi tez-tez kəsilir, birinin danışığını başqası davam etdirir, ya onun fikrini təkzib edir, ya da ayrı istiqamətə yönəldir. Lakin müzakirədə iştirak edən hər bir şəxs axıra qədər öz fikir və ideyalarını başqalarına çatdırmağa səy göstərir. Bu müzakirə dialoqu bəzən mübahisəyə də çevrilə bilir.

2.04. NİTQİN FORMALARI

İnsanlar ünsiyyət məqsədi ilə səsdən istifadə etdikləri kimi, şərti yazı işarələrinə də müraciət etmişlər. Bunun da nəticəsində nitqin iki forması meydana çıxmışdır: *şifahi (akustik) nitq, yazılı (optik) nitq.* Bu nitq formalarının hər birinə aid fərqli, səciyyəvi əlamət və vasitələri vardır.

1. ŞİFAHİ (AKUSTİK) NİTQ

Şifahi nitq ünsiyyətin ən qədim formasıdır. Bunun yaranması insanlığın təşəkkülü tarixi ilə bağlıdır. Şifahi nitq cəmiyyətin inkişafı ilə əlaqədar zaman-zaman tərəqqi tapmış, müxtəlif vasitələrlə zənginləşmə yolu keçmişdir. Ona görə də ilk dövrlərin şifahi nitqi bəsit olmuşdur. Hazırkı şifahi nitq isə istər zahiri, istər məzmunu, istərsə də ifadə tərzi və vasitələrinə görə çox-çox zəngindir. Hər cür fikri incəliyi ilə ifadə etməyə qadirdir.

ŞİFAHİ NİTQİN XÜSUSİYYƏTLƏRİ

Şifahi nitqin başlıca xüsusiyyəti onun danışılıb-eşidilməsidir. Burada nitq cihazının və eşitmə orqanının normallığı əsas şərtdir. Şifahi nitqi yazılı nitqdən fərqləndirən bir sıra xüsusiyyətlər vardır. Şifahi nitq prosesində bir sıra köməkçi vasitələrin (mimika, jest, intonasiya) köməyi ilə danışan şəxs öz fikirlərini daha aydın və lakonik bir şəkildə ifadə edə bilir. Yazılı nitqdə bu köməkçi vasitələr olmadığından o, lakoniklikdən uzaq olur.

Şifahi nitq bilavasitə səsli qavrayış üçün nəzərdə tutulur. Şifahi nitqə qulaq asan onun məzmununu həmin anda mənimsəyir. Buna görə də şifahi nitq mürəkkəb qrammatik konstruksiyalardan, mənası çətin dərk edilən qəliz söz və ifadələrdən azad olmalıdır. Sözlərin səhv tələffüzü, vurğu və intonasiyanın yerli-yerində işlədilməməsi şifahi nitqin mənimsənilməsini çətinləşdirir.

Şifahi nitqin konkret olaraq aşağıdakı özünəməxsus xüsusiyyətləri vardır:

1. Şifahi nitq danışılır və eşidilir.
2. Şifahi nitqin leksikasında hamıya aydın ümumişlək sözlərə daha çox yer verilir.
3. Şifahi nitqdə cümlələr, əsasən, qısa və quruluşca sadə olur.

4. Şifahi nitqdə danışıq dilinin xüsusiyyətləri mühafizə olunaraq yarımçıq cümlələrdən, qısa replikalardan çox istifadə edilir.
5. Şifahi nitqdə intonasiya, fasilə, vurğu və s. köməkçi vasitələrdən istifadə olunur.
6. Şifahi nitqdə fikrin daha düzgün və aydın ifadəsi üçün, həm də asan mənimsənilməsi məqsədilə əlavə olaraq mimika, jest və başqa hərəkətlər özünü göstərir.
7. Şifahi nitqin forma və məzmununu müəyyən texniki vasitələrin köməyi olmadan gələcək nəslə eyni ilə çatdırmaq mümkün deyildir.
8. Şifahi nitqin tempi çox sürətli olur. Adi halda insan bir dəqiqədə 80–100 söz tələffüz edə bilir. Bəzi natiqlər isə 120-dən çox söz tələffüz edir.

Şifahi nitqin tempinin sürəti vaxtla müəyyənləşir. Həm də nitqin sürəti dildəki sözlərin həcmindən – sözdəki səsin – fonemin miqdarından asılı olur. Bu meyarla yanaşdıqda aydın olur ki, bu və ya başqa bir dildə bir dəqiqə ərzində tələffüz edilən sözlərin miqdarı başqa dildəkinə uyğun gəlmir. Məsələn, bir dəqiqədə ingilis dilində 160 söz tələffüz edildiyi halda, rus dilində ancaq 120 söz tələffüz olunur. Bunun səbəbi rus dilində 1-8 hecalı sözlərin olmasıdır.

Bütün dillər üçün şifahi nitqdə aşağıdakı vasitələrdən istifadə olunur: tələffüz, vurğu, intonasiya, fasilə, təkrar, jest (əl-hərəkət), mimika və s.

ŞİFAHİ NİTQ VƏ TƏLƏFFÜZ

Şifahi nitqdə tələffüzün xüsusi rolu vardır. Tələffüzün başlıca olaraq üç növü mövcuddur: düzgün tələffüz, ədəbi tələffüz, loru tələffüz.

Düzgün və ədəbi tələffüz şifahi nitqin mədəni keyfiyyətini təmin edir. Şifahi nitqin mədəni keyfiyyətini tə-

min edən qaydalara *orfoepik qaydalar* deyilir. Bu qaydaların məcmusu isə *orfoepiya* adlanır. Orfoepiyanın obyekti aşağıdakılardır:

1) ayrı-ayrı səslərin və səs tərkibinin tələffüzü;
2) söz və ifadələrin tələffüzü;
3) qrammatik formaların tələffüzü.

Məlumdur ki, şifahi nitqdə sözlər birləşərkən heç də hamısı eyni tonla tələffüz olunmur. Birləşmələrdə bir sözün fərqli tələffüzü müəyyən məna və ya məna çaları ilə bağlı olur.

ŞİFAHİ NİTQ VƏ VURĞU

Vurğu şifahi nitqdə mühüm rol oynayır. O, eyni formada olan sözlərin, qrammatik formanın mənaca bir-birindən fərqlənməsinə xidmət edir. Canlı danışıqda vurğu hər bir müstəqil sözün xarici əlamətlərindən biri kimi özünü göstərir. Şifahi nitqdə vurğu sərbəst və sabit şəkildə özünü göstərir. *Sərbəst vurğu* söz tərkibindəki qrammatik formalar üzərində dəyişən vurğuya deyilir. Məsələn, Azərbaycan dilində *"yazı"* sözündə vurğu axırıncı hecanın (*-zı*) üzərində olursa, *"yazıçı"*, *"yazıçılıq"* sözlərində yerini dəyişərək başqa hecanın və ya qrammatik formanın (*-çı, -lıq*) üzərinə keçir. Vurğunun bu cür sərbəst xarakteri şifahi nitqdə bir sıra vurğu səhvlərinə səbəb olur. Məsələn, b**a**şqa (başq**a** əvəzinə), kaf**e**dra (k**a**fedra əvəzinə), q**a**ytar (qayt**a**r əvəzinə), d**i**nlə (dinl**ə** əvəzinə), **a**par (ap**a**r əvəzinə), g**ə**tir (gət**i**r əvəzinə), s**ü**pür (süp**ü**r əvəzinə), b**a**şla (başl**a** əvəzinə), **i**şlə (işl**ə** əvəzinə), q**u**rtar (qurt**a**r əvəzinə) və s. Şifahi nitqdə bu cür vurğu tələffüzü səhvləri ədəbi tələffüzə zidd hesab edilir. Çünki bir çox dünya dillərində olduğu kimi, Azərbaycan dilində də vurğunun işlənməsinə aid belə bir qanunauyğunluq hökm sürür ki, vurğu, əsasən, sözün son hecasına düşür. Azərbaycan dilində elə şəkilçilər var ki, onlar vurğu qəbul etmir. O zaman şifahi nitqdə vurğu son

hecaya düşmür. Məsələn, gəlmə, y**a**zma, ox**u**ma, işləmə, ox**u**mayır, b**i**lmədi, dinləmədi.

Misallardan göründüyü kimi, inkarlıq şəkilçisi olan *-ma, -mə* vurğunu qəbul etmir.

Azərbaycan dilində vurğu qəbul etməyən şəkilçilərə aşağıdakıları misal göstərmək olar: ***-gil*** (xal**a**mgil, əm**i**mgil, an**a**mgil və s.), ***-ma, -mə*** (day**a**nma, işləmə, ap**a**rmayırdılar və s.), **-san, -sən** (alırsan, gəl**i**rsən və s.), ***-am, -əm*** (yazıram, öyrən**i**rəm və s.), **(-ıq)**[4] (yazırıq, gəl**i**rik, gör**ü**rük və s.), ***(-sınız)***[4] (işləy**i**rsiniz, başlay**ı**rsınız və s.), ***"idi", "imiş"*** köməkçi feilləri (alırdı, gəl**i**rdi, yatırmış, gör**ü**rmüş və s.), ***-madan, -mədən*** (**a**lmadan, gəlmədən və s.), ***-aq, -ək*** (al**a**raq, gələrək və s.) və s.

Şifahi nitqdə vurğunun üç növü vardır:

1) heca vurğusu;

2) məntiqi vurğu;

3) həyəcanlı vurğu.

1. Heca vurğusu. Sözdəki hecalardan birinin digərinə nisbətən qüvvətli tələffüzünə *heca vurğusu* deyilir. Məsələn: *ayna, dəmir, çiçək, ata, qapı, çəmən, Azərbaycan, Göyəzən* və s. Dünya dillərində şifahi nitqdə vurğunun yeri müxtəlifdir: vurğu sözün əvvəlində, ortasında və sonunda ola bilər.

Polyak dilində vurğu həmişə sondakı ikinci hecanın üzərinə düşür[1]. Rus dilində vurğu sərbəstdir, yəni sözün müxtəlif hissəsində vurğu işlənir. Alman dilində sadə sözlərdə vurğu birinci hecaya düşür[2]. Fransız dilində vurğu, bir qayda olaraq, sözün son hecasında işlənir.

Azərbaycan dilində vurğu, əsasən, söz kökünün son hecasında olur. Azərbaycan şifahi nitqində vurğu söz kökünün əvvəlində və ya ortasında işlənirsə, onda yəqin etmək olur ki,

[1] Bax: F.Veysəlov. "Alman dilinin fonetikası". Bakı, "Maarif', 1980, səh. 136.
[2] Bax: Yenə orada, səh. 137.

həmin söz alınmadır. Məsələn, k**o**smos, k**a**fedra, **a**mper, d**i**zel, ş**a**hmat, el**e**ktrik, demokr**a**tiya, st**a**nsiya, r**a**dio, telev**i**zor, biol**o**giya, avt**o**bus, texn**i**ka, d**o**ktor, sanat**o**riya və s.

2. Məntiqi vurğu. Şifahi nitqdə cümlədəki sözlərdən birinin o birilərə nisbətən daha qüvvətli tələffüzünə *məntiqi vurğu* deyilir. Məntiqi vurğu cümlədə yerini dəyişdikdə cümlənin məzmunu dəyişir. Məsələn:

1. Rəşad İstanbula getdi.

2. Rəşad İstanbula getdi.

3. Rəşad İstanbula getdi.

Bu cümlələrin birincisində İstanbula başqa adamın deyil, Rəşadın getdiyi, ikincisində Rəşadın başqa yerə yox, İstanbula getdiyi, üçüncü cümlədə isə Rəşadın İstanbula getdiyi haqqında qəti məlumat verilir.

3. Həyəcanlı vurğu. Şifahi nitqdə müəyyən sözün, yaxud ifadənin hiss və həyəcanla ifadə olunması *həyəcanlı,* yaxud *emfatik vurğu* adlanır. Həyəcanlı vurğuda sözdəki səslərin bəzisi uzadılaraq tələffüz edilir. Məsələn:

Elman: – Ata! Ata! (cavab gəlmir). *Ata! Ata!* (cavab gəlmir). *Ah, atam da əlimdən getdi* (anasının cəsədinə yanaşır). *Bədbəxt anam!..* (A.Şaiq)

Bu replika parçasında *"ata"* sözləri şifahi nitqdə *"ataaa"*, *"ah"* nidası isə *"aaah"* formasında tələffüz edilir.

Şifahi nitqdə vurğu qrammatik məna ifadə etmək vasitələrindən biri kimi də çıxış edir. Məsələn, *"alma"* fonetik tərkibində vurğu birinci hecaya düşdükdə (**a**lma) feil, ikinci hecaya düşdükdə (alm**a**) isim kimi özünü göstərir.

Şifahi nitqdə özünü göstərən vurğu hadisəsi universal hesab olunur, çünki bütün dünya dillərinin şifahi formasında vurğu işlənilir.

Şifahi nitqdə vurğunun dinamik, musiqili, tonal və digər formalarından tez-tez istifadə olunur.

ŞİFAHİ NİTQ VƏ İNTONASİYA

Şifahi nitqdə intonasiyanın rolu və əhəmiyyəti az deyildir. İntonasiya şifahi nitqdə özünü göstərən mürəkkəb nitq hadisəsidir. Buraya (intonasiyaya) səs tonunun alçalması və ya artması, nitqin tempi, hecaların uzun və qısa tələffüzü, tələffüzün güclü və ya zəifliyi, ifadələr, sözlər arasında pauzanın olub-olmaması, danışanın hadisəyə münasibəti və s. ünsürlər daxildir. İntonasiyanın köməyi ilə şifahi nitqdə ifadə olunan müxtəlif fikirlər, rəylər, təkliflər bir-birindən fərqləndirilir, şübhə, təəccüb, sevinc, nifrət, kədər və s. hislər əyani şəkildə ifadə olunur. Bu cəhətdən bədii əsərlərin şifahi nitqdə səslənməsi daha əlverişli imkan tapır. Hər hansı bir bədii əsərin müxtəlif intonasiyada tələffüzü dinləyicidə müxtəlif təəssürat oyada bilir. Natiqlik sənətində də intonasiya auditoriyanı ələ alan ən mühüm vasitə kimi özünü göstərir.

İntonasiyanın əsas əlaməti dil vahidinin müxtəlif səs tempində, emosional çalarlıqda tələffüz edilməsidir. Məsələn, eyni bir cümlənin müxtəlif intonasiyada deyilməsinə nəzər salaq:

1. Müəllim gəlir.
2. Müəllim gəlir?
3. Müəllim gəlir!
4. Müəllim gəlir?!

Birinci cümlənin adi intonasiya ilə deyilməsində müəllimin gəlməsi haqqında xəbər verilir. İkinci cümlədə xəbərin (gəlir) ikinci hecanın (-lir) uzun tələffüzü sual intonasiyası yaradır və bu situasiya qarşıdakı şəxsdən müəllimin gəlib-gəlməməsi haqqında cavab tələb edir. Üçüncü cümlənin bütövlükdə ucadan tələffüzü nida intonasiyasını əmələ gətirir və cümlənin bu cür tələffüzü onu eşidənlər-

də müxtəlif hiss və həyəcan doğurur. Dördüncü cümlənin sual-nida intonasiyası tərzində tələffüzü danışanın intizar, narahatlıq hissini ifadə edir.

Göründüyü kimi, intonasiya məna ifadə edən universal səciyyəli sintaktik vasitədir. O, danışanın fikri daha düzgün və aydın ifadə etməsinə, dinləyənin isə onu (həmin fikri) asanlıqla və dəqiq başa düşməsinə, anlamasına xidmət göstərir.

İntonasiya cümlənin sərhədini göstərir və onu müxtəlif tipə ayırır. Bu cəhətdən Azərbaycan dilində cümlənin 4 tipi mövcuddur:

1. Nəqli cümlə;
2. Sual cümləsi;
3. Nida cümləsi;
4. Əmr cümləsi.

Bunlar haqqında dilçilikdə kifayət qədər məlumat verilmişdir.

Cümlənin intonasiyaya görə səciyyəsini vermək, onların kommunikativ tiplərini müəyyənləşdirmək dünya dilçiliyində *intonem* adlanır. Dünyanın hər bir dilində intonasiya mövcuddur. Lakin müxtəlif dillərdə intonasiyanı təsvir etmək çox çətin və mürəkkəbdir. Ona görə ki, dillərin xarakter və səciyyəsi bir-birindən fərqlidir.

Dilçilik ədəbiyyatında səsin tonunun dəyişilməsi ilə əlaqədar intonasiyanın üç tipi olduğu göstərilir:

1. Xəbərdaredici intonasiya. Bu tip intonasiya cümlənin bitməyini bildirir. Məsələn:

Onlar evə getdilər...

2. Tamamlayıcı intonasiya. Bu tip intonasiya cümlənin bitdiyini, tamamlandığını bildirir. Məsələn:

O, dərsə getdi.

3. Sadalayıcı intonasiya. Bu tip intonasiyada sadalama olur. Məsələn:

Onun əlində kitab, qələm, dəftər göründü.

İntonasiya problemi bütün dünya dilçiliyində tam həll edilməmiş, mübahisəli bir linqvistik hadisə kimi qalmaqdadır. Çünki nitq hadisəsi linqvistik xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də akustik və artikulyator xüsusiyyətləri ifadə edir. Buna görə də şifahi nitqdə intonasiyaya həm danışanın müəyyən obyektə şəxsi münasibətini ifadə edən bir vasitə kimi, həm də dildə müəyyən bir funksiya daşıyan, daha doğrusu, ifadə olunan fikrin dinləyiciyə tam canlı və obrazlı şəkildə çatdırılması üçün cümləni aktuallaşdıran bir fonoloji akt kimi baxmaq lazım gəlir.

Cümlədə intonasiya modelləri, intonasiyanın cümləni sintaqmlara bölməsi, intonasiyanın fonetik, melodik, dinamik, temporal (zaman) təbiəti və s. problemlərdən dilçilikdə müəyyən səviyyələrdə bəhs edilmişdir[1]. Bir cəhəti qeyd etmək lazımdır ki, intonasiya hadisəsi Avropa dillərində, xüsusilə alman, ingilis, fransız dillərində daha qabarıq şəkildə özünü göstərir.

ŞİFAHİ NİTQ VƏ FASİLƏ

Fasilə intonasiyanın başlıca komponenti olaraq şifahi danışıqda müəyyən vəzifə yerinə yetirir. Bunun iki forması müşahidə olunur: a) qısa fasilə; b) uzun fasilə.

Məlumdur ki, danışıq zamanı, nitq axınında hər bir nitq taktı arasında fasilə edilir. Nitq taktlarının bir-birini əvəz etməsi əsasında nitqin ritmi yaranır. Bu, qısaca ara vermək – qısa fasilədir. Məsələn:

Belə bir tərbiyənin nəticəsi olaraq atasının sərvətinə güvənən Varis içki və qumar düşkünü olan bir gənc kimi yetişirdi (A.Şaiq).

[1] Bax: F.Veysəlor. "Alman dilinin fonetikası". Bakı, "Maarif", 1980, səh. 148-157.

Bu cümləni nitqdə işlədərkən üç qısa fasilə edilir:
Belə bir tərbiyənin nəticəsi olaraq//
atasının sərvətinə güvənən Varis//
içki və qumar düşkünü olan//
bir gənc kimi yetişirdi.

Danışıq zamanı müəyyən məqsədlə bağlı nisbətən uzun fasilə edilir. Bu fasilə prosesində, əsasən, qarşılaşdırma üzə çıxır. Məsələn:

O, haqsız, ədalətsiz işlərdən qaçar, hər kəslə quzu kimi mülayim keçinməyə çalışar//uzun fasilə// ancaq izzəti-nəfsinə toxunuldumu, artıq nə edəcəyini düşünməz, qızmış bir aslan kimi coşar, kəskin və heybətli səsi ilə ətrafı sarsıdardı (A.Şaiq).

Göründüyü kimi, uzun fasiləyə qədərki fikirlə ondan sonrakı fikir bir-birinə ziddir. Bu zidd və ya əks fikirlərin nitqdə dalbadal işlədilməsi mütləq uzun fasilə tələb edir.

Şifahi nitq üçün üç əlamət xarakterikdir: *ton, ritm, ahəng.*

Nitqin tonu fikir və hislərin ifadə vasitəsi kimi özünü göstərir. Burada əsas məsələ sözlərin tələffüzü prosesində müəyyən səslərin aydın nəzərə çatdırılmasıdır. Ümumiyyətlə, nitqin tonu dedikdə, nitqin ahəngdarlığını təmin etmək üçün onun tonu iki qrupa bölünür: yüksək ton, enən ton.

Nitqin ritmi dedikdə, nitq zamanı sözlərin sürətli və ya yavaş tələffüzü, nitqdə gərginlik və zəifliyin, uzunluq və qısalığın, oxşarlıq və fərqlərin bir-birini izləməsi nəzərdə tutulur.

Nitqin ahəngi dedikdə, fikirləri bir-birindən ayırmağa xidmət edən melodiklik nəzərdə tutulur.

ŞİFAHİ NİTQ VƏ SÖZ SIRASI

Nitq zəncirində sözlərarası münasibətin ifadəsində söz sıralarının xüsusi rolu vardır. Ümumiyyətlə, dilçilik-

də söz sırası mühüm problemdir. Söz sırası nəzəriyyəsinə görə, hər dilin öz qanunu mövcuddur. Məsələn, türk dillərində, bir qayda olaraq, hal-hərəkət bildirən sözlər – xəbər rolunda cümlənin sonunda işlənir. Məsələn: *Dursun mühüm bir iş üçün Qaracalara getmişdi* (A.Şaiq).

Bu qayda slavyan dillərinə xas deyildir. Orada xəbər cümlənin əvvəlində də işlənə bilər. Məsələn: *"Иду я", "Говорит Баку"* və s. sözlərin sıralanması nitqdə qrammatik məna ifadə vasitəsidir. Müasir dillərdən alman, fransız və ingilis dilində qrammatik mənanı ifadə etmək üçün söz sırasından geniş istifadə olunur.

Çin, Vyetnam dillərində şəkilçiləşmə qrammatik mənanı ifadə etmək vasitəsi olmur. Buna görə də söz sırası belə dillərdə mənanı ifadə etmək üçün başlıca vasitədir.

Bədii dildə – monoloji nitqdə mətnin məntiqi təşkili üçün söz sırasından istifadə olunur.

ŞİFAHİ NİTQ VƏ TƏKRAR

Şifahi nitqdə təkrar xüsusi əhəmiyyətə malikdir. Təkrar fonetik, qrammatik və leksik vasitə kimi özünü göstərir. Məsələn:

Cip-cip, cücələrim!
Cip-cip-cip, cücələrim!

Burada "c" samitinin təkrarı fonetik vasitə kimi özünü göstərir və nitqdə müəyyən məqsəd güdür.

...Ancaq bu nainsaflar yazığı it kimi qapırlar, söyürlər, döyürlər, balacalar da onu ayaqlayırlar (A.Şaiq). Bu cümlədə *-lar, -lər* cəm şəkilçisinin 6 sözün tərkibində işlənməsi qrammatik təkrar kimi özünü göstərir.

Nitqdə təkrarlar iki cür olur:

a) Tam təkrar: belə təkrarlarda söz kökləri bütövlükdə təkrar olunur. Məsələn:
Ah, Səfər, Səfər, bədbəxt olduq, – deyə şiddətli ağlamağa başladı (A.Şaiq).

b) Natamam təkrar: belə təkrarlarda sözlərin qrammatik tərkibində bəzi dəyişikliklər baş verir. Məsələn: *Səfər kəndə yetişər-yetişməz təsadüfən Vəlini dükanın qarşısında gördü* (A.Şaiq). Bu cümlədə yetişmək feili iki dəfə təkrar olunur, lakin birində feilin təsdiq, digərində inkar formasında işlənmişdir.

Təkrar müxtəlif nitq hissələrində də işlənir. Azərbaycan dilində feili təkrarlar vasitəsilə məna çalarlığı – hərəkətin davamlılığı göstərilir.

Bu qayda rus dilində də belədir. Məsələn:

Oxuyursan, oxuyursan, başa düşülmür.
Gözləyirsən, gözləyirsən, gəlib çıxmır.

Читаешь, читаешь, но не понятно.
Ждешь, ждешь, не приходит.

Sifətlərin təkrarı sifətin artırma dərəcəsini ifadə edir. Məsələn:

Uca-uca dağlar.
Böyük-böyük adamlar!

Sifətin təkrarı əksər halda mənanın artmasına xidmət edir. Məsələn: hindi dilində *"lambe"* sözü tək işləndikdə *"uzun"*, *"lambe-lambe"* kimi işləndikdə isə *"çox uzun"* mənasını bildirir. Sözün bu qaydada işlənməsi fars dilində də mövcuddur.

Bəzi hallarda ismin təkrarlanması ilə danışığın məntiqinə işarə olunur. Məsələn:

Uşaq-uşaq danışmaq adamı hörmətdən salar.

Burada "uşaq-uşaq danışmaq" ifadəsi "uşaq kimi danışmaq" mənasında işlənir və danışığın lazımi məntiqi səviyyədə olmadığı bildirilir.

Dil vahidlərinin təkrarlanması müasir yapon və İndoneziya dillərində daha geniş yayılmış linqvistik hadisədir. Bu dillərdə sözün təkrarı ilə cəmlik anlayışı da bildirilir. Məsələn:

İndoneziya dilində: oranq (orang) – *"adam"*, oranq-oranq dedikdə *"adamlar"*, bunqa (bunga) – *"gül"*, bunqa-bunqa dedikdə isə *"güllər"* mənası ifadə edilir.

Yapon dilində: *yama* (yata) – *"dağ"*, *yama-yama* dedikdə *"dağlar"* mənası bildirilir.

Dünya dillərində səstəqlidi təkrardan geniş istifadə olunur. Məsələn:

O tərəfdən nəsə *şak-şak* elədi.

Bu növ təkrara *onomatopoetik təkrar* deyilir. Belə təkrarlar rus, fars, tamil dillərində daha geniş yayılmışdır.

ŞİFAHİ NİTQ VƏ MİMİKA – JEST

Təbii olaraq şifahi nitqə qeyri-nitq vasitələri də qoşula bilir. Üz mimikaları, baş, bədən və əl jestləri bu qəbildəndir. Bu ekstralinqvistik vasitələr şifahi nitqdə fikrin daha canlı və təsirli ifadə olunmasına xidmət edir.

Mimika və jestlər hər hansı bir dilin sistemini xarakterizə etmir, danışanın nitqinə fərdi xarakter verir. Hamı danışıqda bu vasitədən eyni bacarıqla istifadə edə bilmir. Bunları artistlər, səhnə ustaları daha bacarıqla işlədirlər. Bu vasitələr intonasiya ilə bağlı olub, onun vəzifəsinin icrasına kömək edir.

Azərbaycan şifahi nitqində işlənən mimika və jestlər sistemi hələ geniş elmi tədqiqata cəlb edilmədiyinə görə bu barədə bir az ətraflı danışmaq lazım gəlir. Məlumdur ki, mimika və jestlər dilçiliyin metodları ilə tədqiq olunmur. Bunların özünə aid metodları vardır.

Çox zaman mimika və jestin eyni anlayışı ifadə etdiyi başa düşülür. Əslində isə bu, belə deyildir. Mimika ter-

mini göz və üz əzələlərinin hərəkəti mənasını ifadə edir. Məsələn, qarşıdakı şəxsə gizlicə nə barədə işarə vermək əlaməti olaraq bir gözü qırpmaq, yaxud birisinin hər hansı bir hərəkətinə etiraz əlaməti olaraq üz turşutmaq mimika elementləri hesab olunur. *"Jest"* termini isə şifahi nitq prosesində istifadə olunan baş, bədən və əl hərəkəti anlayışını ifadə edir. Məsələn, birisini hədələmək üçün sağ əlin şəhadət barmağını irəli-geri tərpətmək, müəyyən bir məsələni şifahi nitqdə təsdiqləmək əlaməti olaraq başın qabağa, dala tərpədilməsi və s. jest elementləri hesab olunur.

Psixoloqların apardıqları eksperimentlər göstərmişdir ki, şifahi nitqdə mimika və jestlər müəyyən bir fikri ifadə etməklə sözü qabaqlayır[1].

Jest və mimikaların səsli dili çox gözəl müşayiət etməsinə baxmayaraq, heç vaxt onu əvəz edə bilməmiş və edə də bilməz. Bütün dünyada, o cümlədən müasir Avropa və Asiya xalqlarının şifahi nitqində də mimika və jestlər fikrin tam aydınlığı ilə ifadə olunmasına və dinləyiciyə çatdırılmasına xidmət edir.

Acılıq, şirinlik, turşuluq, duzluluq kimi dad duyğularını, razılıq, narazılıq hislərini əzələlərin hərəkəti hesab etmək olmaz. Jest şifahi nitqə yeni çalarlıq verir, hətta bəzən sözün mənasını dəyişə bilir. Məsələn, nitqdə *"gedərəm"* deyib üz-gözünü turşutmaq "getmərəm" deməkdir. Buna görə də bəzi dilçilər jestləri şifahi nitqdə daha dəqiq ifadə vasitəsi hesab edirlər. Bundan başqa, adi danışıq prosesi jestlərlə müşayiət ediləndə nitqin təsir qüvvəsi daha da artır.

Jest şifahi nitqdə mətnin ixtisar edilməsinə imkan yaradır, müstəqil replika rolunu oynayır, yaxud ifadəyə daxil olur. Jest bəzən bütöv ifadənin ekvivalenti kimi çıxış edir. Məsələn, *"Bugünkü konfransın gedişindən razısanmı?"*

[1] Bax: Я.Вальсинер, Х.Миккин. «Невербальная коммуникация в диадах». Тарту, 1974, вып. 335.

sualına səssizcə müsahibin başını bulaması "Bugünkü konfransın gedişindən razı deyiləm" ifadəsini bütövlükdə əvəz edir. Yaxud "Kim danışmaq istəyir?" müraciətinə jest dili ilə əli yuxarı qaldırıb, barmaqları irəli uzatmaqla (2-ci şəkildə olduğu kimi) *"Mən danışmaq istəyirəm"* fikri ifadə olunur.

Jestlərin əksəriyyəti çoxmənalıdır. 2-ci şəkildəki jest buna misal ola bilər. Həmin jest həm də *"razıyam"*, *"səs verirəm"* mənalarını ifadə edir.

Jestlərdən və mimikalardan səhnə sənətində geniş istifadə olunur.

Mimikaya aşağıdakı ünsürlər daxildir:

1) üz mimikası;
2) göz mimikası;
3) ağız mimikası;
4) dodaq mimikası;
5) alın mimikası və s.



Şəkil 2

Jestə aşağıdakı ünsürlər daxildir:

1) barmaq jestləri;
2) əl pəncəsi jestləri;
3) qol jestləri;
4) baş jestləri;
5) çiyin jestləri;
6) qıç jestləri;
7) ayaq jestləri və s.

Qeyd etmək lazımdır ki, jestlər, əsasən, əqli cəhətdən normal adamların nitqində işlənir. Jestlər işlənmə yerinə görə də fərqlənir. Ailə-məişət tərzində işlənən jestlərin bir qismi ictimai yerlərdə işlənmir. İctimai həyatda işlənmə-

sinə görə jestlər müxtəlifdir. Məsələn, *səhnə nitqində işlənən jestlər; kütləvi mühazirələrdə işlənən jestlər, ictimai-siyasi məruzələrdə istifadə olunan jestlər.*

Dünyanın bir sıra yerlərində yaşayan tayfa və qəbilələr hazırda jestlərdən şifahi nitqdə geniş istifadə edirlər. Məsələn, avstraliyalılar, buşmanlar, papuaslar, Şimali Amerikanın hindi qəbilələri (siu, kadd, alqonkin və s.) jest və mimikanın çox zəngin forma və növlərindən istifadə edirlər.

Dünya xalqlarının hər birinin özünəməxsus səciyyəvi mimika və jestləri mövcuddur. Məsələn, azərbaycanlılar nəsə hesablayanda kiçik barmaqdan, avropalılar isə baş barmaqdan başlayırlar. "Azərbaycan" mimika və jestinin "xarici" mimika və jest işarələri ilə uyğun gəlməsi halları çoxdur. Azərbaycan nitqində istifadə olunan mimika və jestlərin nitqə münasibətdə iki forması müşahidə olunur.

1) Nitqi müşayiət edən mimika və jestlər. Bu növ jestlərlə danışdıqda ifadə olunan əsas və başlıca məsələlər fərqləndirilir.
2) Nitqi əvəz edən mimika və jestlər. Bu formada olan jestlər "salamlaşmaq", "xudahafizləşmək" və s. kimi hallarda özünü göstərir.

MİMİKA VƏ JESTLƏRİN NÖVLƏRİ

Tarixi təcrübə və ənənələr əsasında yaranmış müasir Azərbaycan şifahi nitqində istifadə olunan mimika və jest işarələrinin aşağıdakı növlərinə təsadüf edilir:

I. Mimika işarələrinin növləri:

1) Xoş əhvali-ruhiyyə mimikası – *gözlərin gülümsəməsi;*
2) Xəlvəti işarə mimikası – *bir gözqırpma;*
3) Narazılıq mimikası – *üz-gözü turşutma;*
4) Təəccüb mimikası – *dodaqların birləşib qabağa çıxması;*
5) Nifrət mimikası – *gözlərin obyektə tuşlanaraq, baxışın gərginləşməsi;*

6) Həya mimikası – *üzün qızarması;*
7) Qorxu mimikası – *bənizin qaçması* və s.

II. Jest işarələrinin növləri:

Müasir Azərbaycan şifahi nitqində jestlərdən daha geniş istifadə olunur. Gündəlik ailə-məişət danışığında, səhnə nitqində, auditoriya nitqində, tikintidə, yol nəqliyyatında, təyyarə limanında və başqa sahələrdə də istifadə olunur. Hər bir pantomimik jest fikrin dil vasitəsilə ifadə olunmasına kömək edir.

Azərbaycan jestləri çox zəngin və rəngarəngdir. Bunların aşağıdakı növlərini göstərmək olar:

1. İstiqamətvermə jesti. Bu jest növündə insan başını müəyyən istiqamətə yönəltməklə müsahibinin diqqətini həmin səmtə yönəldir.
2. İşarəetmə jesti. Şəhadət barmağının köməyilə göstərilir. Xüsusilə *"o"*, *"bu"*, *"elə"*, *"belə"* anlayışları ifadə edir.
3. İcazə jesti. Burada iki məqam özünü göstərir:
   a) icazə almaq üçün əl və ya barmaq yuxarı qaldırılır;
   b) icazə vermək üçün başla işarə edilir.
4. Qorxu və təəccüb jesti. İki qolu birdən yuxarı qaldırmaqla qorxu, əlibükük vəziyyətdə barmaqları açmaqla təəccüb bildirilir.
5. Yalvarış və sitayiş jesti. İki əlini dirsəkdən əyilmiş şəkildə qabağa qaldıraraq üzünü göyə çevirib, insan müəyyən məqsəd və niyyətlə Allahdan kömək, imdad diləyir.
6. Rica və xahişetmə jesti. Əl və ya əlləri açıb irəli uzatmaqla rica və xahiş bildirilir.
7. İnkar və ya rəddetmə jesti. Bu jestdə baş və ya əl iştirak edir. Müəyyən bir iddianı, təklifi inkar və ya rədd etmək ifadəsi olaraq ya baş bulanır, ya da əl açılmış şəkildə yanlara doğru yönəldilir.
8. Təsdiq və ya razılıq jesti. Burada da baş və ya əl hərəkətləri özünü göstərir. Təsdiq və razılıq bildirmək üçün baş qabağa doğru əyilir.

9. Etiraz jestində yenə də baş və ya əldən istifadə olunur.
10. Hərəkətə təhrik jesti.
    a) açıq vəziyyətdə əli aşağı yelləməklə "otur" deyilir;
    b) açıq vəziyyətdə əli yuxarı yelləməklə "qalx" deyilir;
    c) əlin arxasını qabağa yelləməklə "get" deyilir;
    ç) tikintidə krançıya altdan yuxarı qaldırmaq və ya endirməyi bildirmək üçün əlin yuxarı qaldırılması və ya aşağı endirilməsi kifayətdir.
    d) Əlin qabağa doğru uzanması şəklində barmaqların birlikdə irəli-geri tərpənməsi müəyyən bir şəxsi özünə doğru çağırmaq deməkdir və s.
11. Vidalaşma jesti qatarla, təyyarə ilə, avtobusla və başqa nəqliyyat vasitələri ilə adam yola salarkən ayrılan zaman uzaqlaşdıqca, sağ əli qaldırıb yelləməklə bildirilir.
12. Birliyə çağırmaq jesti sağ əli qaldırıb yumruq formasında yelləməklə özünü göstərir.
13. Qələbə jesti yerində atılıb-düşməklə ifadə olunur.
    Başqa xalqlarda, o cümlədən avropalılarda qələbəni bildirmək üçün sağ əli qaldırıb şəhadət və orta barmaqlar haçalaşdırılır.
14. Keyfiyyət jesti. Görülmüş işin, hazırlanmış nemətin keyfiyyətini bildirmək üçün yumruq halında əlin baş barmağı (3-cü şəkildəki kimi) yuxarı qaldırılır.
    Bu jest vasitəsilə yerinə və məqamına görə *"keyfiyyətlidir"*, *"dəyərlidir"*, *"yaxşıdır"*, *"ələdır"*, *"gözəldir"*, *"qəşəngdir"* və sair anlayışlar ifadə olunur.

Şəkil 3

15. Təsviri jest. Bu növ jestlərdə əşya və hadisələr təsvir olunur. Məsələn, əl hərəkətilə *"su içmək", "çörək yemək", "yatmaq", "yük daşımaq", "odun yarmaq", "tullanmaq", "qaçmaq", "yavaş-yavaş yerimək"* və s. anlayışları bildirmək olur.

Bədii ədəbiyyatda mimika və jestlərin müxtəlif növlərinə rast gəlmək olur. Məsələn, A.Şaiqin əsərlərindən verilmiş parçalar bu cəhətdən maraq doğurur.

1. *"Gülcahan xala oturdu. Onu diqqətli baxışlarla başdan-ayağa süzdükdən sonra: "Başın sağ olsun, oğlum, fikir eləmə..." – dedi".*
2. *"Əşrəf Gülcahan xalanın yumşaq və ətli əllərini əlləri içində hörmətlə, nəzakətlə sıxdıqdan sonra: "Çox sağ ol, xalacan..." – deyə onu qapıya qədər ötürdü".*
3. *"Əllərini köksü üzərində çarpazlayaraq:*
   – Ah, o indi yanımda olmalı idi! – dedi".
4. *"...Zəkinin gözləri ümid qığılcımı ilə parladı, o, məğrur bir görkəm alıb sağ yumruğunu yuxarı qalxızdı, əlini havada oynadaraq... ucadan səsləndi".*
5. *"Saşa şəfqətlə xalasına baxdı, heç bir söz deməsə də, xalasını görməkdən çox məmnun olduğunu bildirən bir vəziyyət aldı".*
6. *"O indi Nəzakətin üzünə bir də baxmaq, onun simasındakı razılıq işarələrini, gözlərindəki təbəssümü görmək istəyirdi".*

Verilmiş bədii parçalarda söz vasitəsilə təsvir olunmuş mimika və jestlərin əlamətləri onu göstərir ki, bunlar insanın sözlü nitqi ilə qırılmaz surətdə bağlıdır. Buna görə də personajların daxili aləminin açılmasında, hadisələrin əyaniləşdirilməsində nasir və dramaturqlar mimika və jestlərdən öz əsərlərində çox ustalıqla istifadə edirlər.

Azərbaycan şifahi nitqində mimika və jestlərin yeri və rolu ayrıca tədqiqat tələb edən problemdir. Onun müstəqil tədqiqat obyekti kimi öyrənilməsi şifahi nitqin bir çox

məsələlərinin açılmasına kömək göstərə bilər. Buna görə də Azərbaycan mimika və jestləri özünün ətraflı və dərin elmi həllini gözləyir.

2. YAZILI (OPTİK) NİTQ

Yazılı nitq şifahi nitqdən sonra meydana çıxan dil hadisəsidir. O, müəyyən məqsədlə bağlı, müxtəlif tələbləri ödəmək üçün yaranmış və uzunmüddətli təkmilləşmə, formalaşma yolu keçmişdir. Şifahi nitqdən fərqli olaraq, yazılı nitq, əsasən, ədəbi dil çərçivəsində inkişaf edir. Ona görə də şifahi nitqdə rast gəlinən qeyri-ədəbi dil ünsürləri çox zaman yazılı nitqdə əks olunmur.

Azərbaycan yazılı nitqinin tarixini keçmişdən bu günə qədər qalmış qədim yazılı abidələr, tarixi sənədlər, klassik, bədii əsərlərin əlyazmaları və s. yazılı mənbələrdən öyrənmək mümkündür.

YAZILI NİTQİN XÜSUSİYYƏTLƏRİ

Şifahi nitqdən fərqli olaraq, yazılı nitqin özünəməxsus bir sıra xüsusiyyətləri vardır:

1. Yazılı nitq yazılır və oxunur.
2. Yazılı nitqdə elmi, texniki, siyasi və digər terminlər çox işlənir.
3. Yazılı nitqdə sadə, geniş və mürəkkəb cümlələrdən daha çox istifadə olunur.
4. Yazılı nitq ədəbi dilin əsasında formalaşıb inkişaf edir.
5. Yazılı nitqdə intonasiya, fasilə, vurğu və s. şifahi nitq ünsürlərini əks etdirən durğu işarələrindən istifadə olunur.
6. Yazılı nitqdə mimika və jestlərdən istifadə olunmadığından fikrin bütün incəliklərini sözlərin müxtəlif məna çalarlıqlarından istifadə etməklə təsvir etmək lazım gəlir.
7. Yazılı nitq hər hansı bir məlumatın, fikir xəzinəsinin nəsildən-nəslə keçməsində əsas rol oynayır. Məsələn,

XII əsrin dahi Azərbaycan şairi N.Gəncəvinin ölməz əsərləri bizə ancaq yazılı nitqin köməyi ilə gəlib çatmışdır.

8. Yazılı nitqin sürəti şifahi nitqə nisbətən çox aşağıdır.
9. Yazılı nitqdə danışıq səslərini özündə əks etdirən hərflərdən istifadə edilir.

YAZILI NİTQ VƏ QRAFEMLƏR

Yazılı nitq ancaq işarələrlə öz əksini tapır. Müasir yazılarda müxtəlif işarə və qrafemlərdən istifadə olunur. Lakin qrafemlər quruluş və vəzifəsinə görə bir-birinin eyni deyildir.

Eyni bir qrafemin yazılı nitqdə müxtəlif variantlarına rast gəlinir. Məsələn, A qrafemi böyük və kiçik hərflər şəklində olmaqla iki vəziyyətdə yazılır. İlk səsi (*a*) ilə başlanan söz cümlənin əvvəlində işləndikdə və (*a*) ilə başlanan xüsusi isimlərin yazılışında (*a*) qrafemi böyük (*A*), qalan hallarda isə kiçik (*a*) yazılır. Bundan başqa, yazıda fərqləndirmək üçün qrafemlər müxtəlif şərtlərlə göstərilir. Məsələn, *kursiv, ağ, qara, sətri* və s.

Qrafemlər müəyyən nizama salınmış qaydada hərflər şəklində əlifbada öz əksini tapır. Dünyada təxminən 250-dən çox əlifbadan istifadə olunur. Bunlarda oxşarlıq var, lakin tam eynilik yoxdur.

Əlifba siyasi məsələdir. Milli mədəniyyətin tərəqqi silahıdır. Ədəbi dilin inkişafında əlifba mühüm rol oynayır. Məlumdur ki, hər bir xalq öz dilinin səs sisteminə uyğun əlifbadan istifadə edir. Bir dilin mövcud əlifbası əsasında başqa dil üçün əlifba yaradıldıqda həmin dilin təbiəti, xüsusiyyəti nəzərə alınır, mənbə kimi istifadə olunan əlifba üzərində müəyyən islahatlar aparıldıqdan sonra o qəbul edilir. Məsələn, yunan əlifbası əsasında kiril, kiril əlifbası əsasında müasir rus, rus əlifbası əsasında isə keçmiş Azərbaycan əlifbası yaradılmışdır. Tarixən Azərbaycan əlifbası

bir neçə dəfə dəyişdirilmişdir. Buna müxtəlif dövrlərdə yaranmış ictimai-siyasi və digər səbəblər təsir etmişdir[1].

Qrafikanın əsasını əlifba təşkil etdiyindən əlifbanın tərkibi dəyişdikdə yazının qrafik sistemi də müxtəlifləşir. Deməli, əlifba ilə qrafika bir-birinin eyni olmasa da, bir-birinə çox yaxındır.

Yazılı nitqin hər hansı bir dilin bütün xüsusiyyətlərini özündə düzgün əks etdirməsi üçün əlifba və qrafemlərin mükəmməl hazırlanması başlıca şərtdir.

YAZILI NİTQ VƏ ABZAS

Yazılı nitqdə fikrin rabitəli şəkildə ardıcıllığı abzas vasitəsilə göstərilir. Abzas müəyyən elmi, bədii, publisistik mətnlərdə məntiqi cəhətdən bitmiş bir fikir bildirən bir və ya bir neçə cümlənin birləşməsindən əmələ gələn yazılı nitq parçasıdır. Yazılı nitqdə abzasdan istifadə etmək fikrin ardıcıl ifadəsinə xidmət edir.

"Abzas" həm də poliqrafik termin kimi işlənərək çap mətnində təzə sətrin sol başında üç şriftlik boş yer mənasında işlənir. Bu termin alman dilindəki absetzen (geriyə çəkmək) feilindən yaranmışdır. Hazırda bu termindən həm dilçilik, həm də poliqrafik termin kimi istifadə olunur.

Yazılı nitq vahidi olan abzas həcminə görə böyük və kiçik ola bilir. Kiçik abzas, əsasən, 1–5 cümlədən, böyük abzas isə 5 və daha çox cümlədən ibarət olur.

Yazılı nitqin müşahidəsi göstərir ki, bədii və publisistik mətnlərdə kiçik abzaslardan daha çox istifadə olunur. Nümunə üçün A.Şaiqin "Əsrimizin qəhrəmanları" romanından bir parçaya nəzər salaq.

Zəki konka duracağında Əhmədə rast gələndə Nəzakətlə təzəcə evləndiyi günlər idi.

[1] Bax: Afad Qurbanov. "Müasir Azərbaycan ədəbi dili". Bakı, 2003, səh. 127-141.

Zəki Əhmədi birbaş evinə apardı. Qapını Nəzakət açdı. Əhməd gözlərinə inanmadı. Bir anda vücudu titrədi, gözləri qaraldı. Bir də gülümsünən Zəkinin simasına baxınca məsələnin nə yerdə olduğunu anladı. Tez özünü toplayaraq Nəzakətlə görüşdü, Zəkini təbrik etdi. Sonra səliqə ilə döşənmiş şüşəbənddən keçib balaca otağa daxil oldu, stolun baş tərəfində qoyulmuş stulda oturdu.

Zəki Nəzakətə nə isə tapşırıb, dostunun dalınca otağa gəldi. Nəzakət şüşəbənddə qəlyanaltı hazırlamaqla məşğul oldu.

İki dost üz-üzə oturanda Zəki ilk əvvəl sosial-demokrat tələbə təşkilatı haqqında soruşdu. Əhməd son zamanlar təşkilatın ağır hal keçirdiyini, hər addımda xəfiyyələr tərəfindən təqib edildiyini söylədi.

Bu yazılı bədii nitq parçası 4 abzasa bölünmüşdür. *Birinci abzas* 1 cümlədən ibarət olub, Zəkinin Əhmədə rast gəlməsi xatırlanır. *İkinci abzas* 7 cümlədən ibarət olub, Zəkinin Əhmədi evinə qonaq aparması təsvir olunur. *Üçüncü abzas* iki cümlədən ibarət olub, Zəkinin arvadı Nəzakətin qəlyanaltı hazırlamaqla məşğul olduğu bildirilir. *Dördüncü abzas* da 2 cümlədən ibarətdir. Burada Zəki ilə Əhmədin söhbəti verilir. Göründüyü kimi, dörd abzasdan üçü kiçik, biri isə böyükdür. Elmi mətnlərdə fakt və dəlillərin geniş izahı böyük abzaslarda verilir.

Yazılı nitqdə aşağıdakı hallarda abzasdan istifadə olunur:

1. Yazılı nitqdə yeni fikrə keçildikdə.
2. Yazılı dialoji nitqin tərkib hissələri olan replikalar yeni sətirdən başlayanda. Məsələn:

   "Əhməd çox təəccüblə soruşdu:

   – Heç bir şey başa düşmədim. Necə yəni jandarm idarəsi?! İnqilabçı hara, casusluq hara? Bu nə deməkdir?

   – Bəli, hökumət mənə inanıb işə götürmüşdür, bunun üçün partiya çox çalışdı. Özüm isə inqilabın xeyrinə işləyirəm. Yəni qısa desəm, jandarmda işləyib, onların öz işlərinə mane oluram" (A.Şaiq).

3. Elmi mətndə müəyyən əlamət və xüsusiyyətlər, təsniflər, qruplaşdırmalar sıralanma yolu ilə verildikdə. Məsələn:

Eyni xüsusiyyətləri Zakirin mənzum hekayələrində də görə bilərik. Onun müxtəlif mövzularda yazılan mənzum hekayələrini məzmunlarına əsasən üç yerə bölmək olar:

1. *Məhəbbət mövzusunda yazılan hekayələr: "Məlikzadə və Şahsənəm", "Əmirzadə məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər".*
2. *Əxlaqi və tərbiyəvi hekayələr: "Tərlan və elçi", "Dəvəsi itən kəs".*
3. *Satirik-tənqidi mahiyyət daşıyan hekayələr: "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qız", "Bihəya türk", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim"* (F.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1966).

Yazılı nitqdə abzasın yerli-yerində işlənməsi düzgün ədəbi nitq əlamətlərindən hesab olunur. Fikrin abzaslara düzgün bölünməsi üçün birinci növbədə mövzunun aydın mənimsənilməsi və dərk olunması əsas şərtdir. Əgər mövzu yazılı nitq sahibi üçün qaranlıqdırsa, onda o, abzasdan düzgün istifadə edə bilməz.

YAZILI NİTQ VƏ DURĞU İŞARƏLƏRİ

Yazılı nitqi durğu işarəsiz təsəvvür etmək mümkün deyildir. Yazılı nitqin oxunması və dərk olunması durğu işarələrinin köməyi ilə olur. Həmçinin fikrin aydın və dəqiq şəkildə yazılı nitqə köçürülməsində durğu işarələrinin rolu əvəzsizdir. Buna görə də dünya dillərində yazılı nitqdə müxtəlif durğu işarələrindən istifadə olunur. Bunlardan ən geniş yayılan *nöqtə (.), vergül (,), nöqtəli vergül (;), iki nöqtə (:), çox nöqtə (...), sual (?), nida (!), tire (–), mötərizə ( ), dırnaq ("")* işarələridir.

Durğu işarələri cümlələr və ya sözlər arasındakı fasilə və intonasiyanı, başqa əlamətləri göstərməyə, cümlədəki

mənanın düzgün anlaşılmasına xidmət edir. Yazılı nitqdə durğu işarələrinin işlədilməsi dilin qrammatik quruluşuna, intonasiyaya və mənaya əsaslanır.

Durğu işarələri cümlənin həmcins üzvləri, əlavə və xüsusiləşmələr, vasitəli və vasitəsiz nitq və s. sintaktik konstruksiyalar arasında işlənməklə dilin qrammatik quruluşunu yazıda ifadə edir. Məsələn:

"Erməni katolikosu Bakıya gəldiyi zaman erməni burjuaziyasına: "Ey Bakı ermənləri, Nikolay deyir ki, Tiflis mənimdir, yalan deyir. Tiflis ermənilərindir. Çünki ən böyük, möhtəşəm binalar, ticarət, qısası, şəhərin iqtisadi həyatı bizim əlimizdədir. Mən zənn edirdim ki, siz Bakı ermənləri də Bakını Tiflisə çevirmisiniz. Mən yanılmışam, burada siz mühüm bir iş görə bilməmisiniz. Böyük binalar, torpaq, ticarət əksərən yerli varlıların əlindədir", – deyə söylədiyi nitq bir rəqabət və düşmənçiliyi bir qat daha artırmışdır" (A.Şaiq).

Bu parçada işlənən durğu işarələri tamamilə sintaktik quruluşun yazıda istifadəsinə xidmət edir. Bir vergül işarəsinin insan taleyini həll etməsi həqiqətdir. Məsələn, məktubda *"Əsiri çatan kimi güllələmək, olmaz gözləmək"* cümləsində vergülün işlənmə yeri buna əyani misaldır. Əgər əsiri çatan kimi güllələmək tələb olunursa, onda cümlədə vergül *"güllələmək"* sözündən sonra qoyulmalıdır: *"Əsiri çatan kimi güllələmək, olmaz gözləmək"*. Əgər əsiri güllələmək təxirə salınırsa, onda vergül *"olmaz"* sözündən sonra qoyulmalıdır: *"Əsiri çatan kimi güllələmək olmaz, gözləmək"*. Göründüyü kimi, burada durğu işarəsi sırf mənanın nitqdə ifadəsidir.

Söz və cümlənin müxtəlif intonasiyada tələffüzü yazılı nitqdə nöqtə, sual, nida işarələri ilə ifadə olunur. Məsələn, eyni bir qrammatik quruluşa, leksik tərkibə malik olan cümləni şifahi nitqdə müxtəlif intonasiya ilə demək mümkündür:

1. Azad qayıtdı (A.Şaiq).

2. Azad qayıtdı?

3. Azad qayıtdı!

Bədii ədəbiyyatdan götürülmüş birinci cümlə, sadəcə olaraq, Azadın qayıtmasını adi tonda xəbər verir. Bu zaman *"qayıtdı"* xəbərinin sonunda işlənən sait aşağı tonda tələffüz olunur və bu, yazıda nöqtə ilə işarə olunur. İkinci cümlədə sual işarəsi qoyulduğundan onu sual intonasiyası ilə oxumaq tələb olunur və müsahibdən Azadın qayıtması soruşulur.

Üçüncü cümlədə nida işarəsinin qoyulması onun nida intonasiyası ilə oxunmasını tələb edir və Azadın qayıtması xəbəri sevinc hissi ilə qarşılandığından, həmin cümlədə *"qayıtdı"* xəbəri daha yüksək tonla tələffüz edilir.

1. YAZILI NİTQ VƏ NÖQTƏ

Nöqtə yazılı nitqdə ən çox işlənən durğu işarələrindən biridir. Nöqtənin başlıca vəzifəsi intonasiya bitkinliyini göstərməkdir. Bu məqsədlə nöqtədən müxtəlif məqamlarda istifadə olunur:

a) Müxtəlif quruluşlu nəqli cümlələrin bitdiyini bildirmək məqsədilə nöqtə qoyulur. Məsələn:

Bir gün qapı şiddətlə açıldı (A.Şaiq).

Qəribə bir gecə idi (Ə.Məmmədxanlı).

b) Rəqəmlər arasında qruplaşma aparıldıqda rəqəmdən sonra nöqtə qoyulur. Məsələn:

Sözləri şərti olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Birsəsli sözlər...

2. İkisəsli sözlər...

3. Üç və çoxsəsli sözlər...

c) Antroponimik modellərdə ad və ata adının baş hərfindən sonra və başqa ixtisar növlərində nöqtə qoyulur. Məsələn, *C.Məmmədquluzadə, M.Ə.Sabir, S.Vurğun, C.Cabbarlı, akad. (akademiya), Ş.A. (Şərqi Abşeron), Azərb. (Azərbaycan)* və s.

ç) Sitat verərkən göstərilmiş ədəbiyyatın müəllifinin familiyasından sonra nöqtə qoyulur. Məsələn, *Əli Sultanlı.*

Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. Azərnəşr, Bakı, 1964.

d) Dram əsərlərində replikaların müəllifinin adından sonra nöqtə qoyulur. Məsələn:

Saleh. Ay ana, nə deyirsən?! İndi dərslərimi hazırlayıram, sonra danışarıq (A.Şaiq).

2. YAZILI NİTQ VƏ VERGÜL

Yazılı nitqdə vergül bir çox sintaktik məqamlarda işlənir və bütün hallarda fasilə məqsədini güdür. Bu, aşağıdakı hallarda özünü göstərir.

a) Həmcins üzvlər arasında: *Uşaqlıqdamı, ilk gənclikdəmi, nə vaxtsa günlərinin, aylarının, illərinin bir-birinə qatışdığı xoşbəxt çağlarda, bir axşam əllərini şalvarının ciblərinə soxub, Ortayolun ortasında dayanıb, Əlləzoğlunun çəpəri tərəfə baxa-baxa, "Ay bəri bax, bəri bax" oxuya-oxuya, "Qaraçı gözəli"ni mahnı ilə çağırarkən "Dəli Səməd"in qulağına heyrətli bir xəbər çatdı* (İ.Hüseynov).

Bu sadə, geniş cümlədə həmcins üzvlərin arasında 10 vergül işarəsi işlənmişdir. Bu o deməkdir ki, həmin cümlənin oxunmasında 10 dəfə fasilədən istifadə edilir.

b) Tabesiz mürəkkəb cümlələr arasında: *Kərimin hissəsinə də yeni qüvvə gəldi, öz qaydası ilə hücumlar davam etdi, yeni-yeni yerlər düşməndən təmizləndi* (S.Rəhimov).

c) Tabeli mürəkkəb cümlələr arasında: *Yerimizi tarazlamamışdıq ki, müəllimlə inspektor sinfə girdi* (Ə.Vəliyev).

ç) Xitab və ara sözlərin müxtəlif tərəflərində:

1. Ana, qırmızı rəng, bilirsən, mənə necə yaraşır?! (Q.İlkin)

2. Əlbəttə, bilirəm (Q.İlkin).

3. Görəsən, doğum evinə zəng çalıb halını soruşan olubmu? (Q.İlkin)

d) *"O", "bu"* əvəzlikləri ilə ifadə olunan mübtədalardan sonra isim, sifət, say gələrsə:

1. O, başını Lidiya İvanovanın çiyninə söykədi (Y.Əzimzadə).

*2. Bu, ucaboylu, enlikürəkli, qüvvətli, sarı saçlı, qonur gözlü, xoşxasiyyət, söhbətcil və sadə bir gənc id*i (Ə.Əbülhəsən).

Yazılı nitqdə ən çox işlənən durğu işarəsi vergüldür.

3. YAZILI NİTQ VƏ NİDA İŞARƏSİ

Nida işarəsi yazılı nitqdə emosionallığı ifadə edir. O, nida sözlərindən, xitablardan, *bəli, xeyr, yox* sözlərindən, nida və əmr cümlələrindən sonra qoyulur. Məsələn:

1. *Canım qurban belə kişiyə! Bir dənədi! İnsanlıqda da, rəhbərlikdə də bircə dənədi!* (İ.Hüseynov)

2. *Aslan: – Bura ver!*
Tuğan: – Sən bura ver! (A.Şaiq)

3. *Elman: – Ay! (Ürəyini tutur)* (A.Şaiq)

Bəzən sual cümləsi nida tonunda deyilir. Belə cümlələrin sonunda sual-nida işarəsi qoyulur. Məsələn:

Badam: – Paho, nə böyük adamsan, heç bilmirdik! Bu ixtiyarı sənə kim verdi?! (A.Şaiq)

4. YAZILI NİTQ VƏ SUAL İŞARƏSİ

Sual işarəsi sual əvəzliklərinin, sual məqsədilə işlənən cümlələrin sonunda qoyulur. Bu cümlələr bütöv və ya elliptik ola bilir. Elliptik cümlə bir sözdən də ibarət olur və bu məqamda da sual işarəsindən istifadə olunur. Məsələn:

1. *Mürsəl: – Xasay, papirosun biri neçəyədir?* (A.Şaiq)
2. *– Salman kişi kimdir?*
– Mənəm! – deyə gənc aydın hiss olunan bir qürurla cavab verdi. (Y.Əzimzadə)
3. *– Bəs gicgahındakı yara?*
– Gicgahındakı yara? – deyə uzun boylu oğlan təəccüblə soruşdu (X.Hasilova).

5. YAZILI NİTQDƏ ÇOX NÖQTƏ

Yazılı nitqdə çox nöqtə işarəsi fikrin bitmədiyini bildirmək məqsədilə işlədilir. Məsələn:

1. *– Elə ki onlar gün keçirir... deyə Varis köksünü ötürdü* (A.Şaiq).
2. *– Doğrusu, dünənki fırtına çox dəhşətli idi, – dedi. – Ancaq...* (A.Şaiq)

Bəzən bir əsərdən yarımçıq cümlə şəklində sitat verilərkən cümlənin əvvəlində üç nöqtə qoyulur. Məsələn:

...Təcnisin son bəndindəki "gözlər" sözü gözün ərəb əlifbası ilə yazılmış şəkli mənasında götürülmüşdür (F.Qasımzadə).

6. YAZILI NİTQDƏ İKİ NÖQTƏ İŞARƏSİ

Yazılı nitqdə iki nöqtə işarəsi bir çox halda işlədilir və fikrin davam etdiyini bildirir. Məsələn:

1. *Nəvələrimizin hər ikisi: Özbək də, Əbubəkr də çalışan və yorulmayan kəndlidir* (M.S.Ordubadi).
2. *Yazın gözəl çağı idi: yer yamyaşıldı, bənövşə açmışdı, ağ və çəhrayı çiçəklər ağacları bəzəkli gəlinə döndərmişdi!* (Y.V.Çəmənzəminli).

Vasitəsiz nitqin yazılışında da iki nöqtədən istifadə olunur.

O, yavaşca: "Həqiqətən bəxtiyarlıq sərvətdə deyil, həyatı qura bilmək və onu dərindən anlamaqdadır", – deyə pıçıldadı (A.Şaiq).

7. YAZILI NİTQDƏ NÖQTƏLİ VERGÜL İŞARƏSİ

Nöqtəli vergüldən yazılı nitqdən vergülün ifadə etdiyi fasilədən bir qədər böyük fasiləni ifadə etmək üçün istifadə edilir. Nöqtəli vergül işarəsi ən çox elmi mətndə işlədilir. Məsələn:

"Lakin dəqiq olsun deyə ilk mənbələri ümumi və xüsusi adları ilə fərqləndirmək vacibdir; yəni əksərən türk dilləri ailəsinə mənsub dillərin vahid xalq dili halında formalaşmasından əvvəlki dövrdə qəbilə və ya tayfa dilləri əsasında yazılmış kitabələri və şairəni ümumi ilk mənbələr, bu və ya digər dilin xalq dili halında formalaşması dövründə yazılan və ümumxalq dilinin ilk forma-

laşma mərhələsini əks etdirən kitabə və sairi isə xüsusi ilk mənbələr adlandırmaq lazımdır" (Ə.Dəmirçizadə).

8. YAZILI NİTQDƏ MÖTƏRİZƏ

Mötərizədən yazılı nitqdə aydınlaşdırıcı məlumat və ya izahat verilərkən istifadə olunur. Mötərizənin aşağıdakı formaları vardır:

1. Düz mötərizə – [ ]
2. Bucaq mötərizə – < >
3. Maili mötərizə – / /
4. Girdə mötərizə – ( )

Yazılı nitqdə mötərizədən, əsasən, elmi mətndə daha çox istifadə olunur. Bədii ədəbiyyatda da ən çox dram əsərlərində, remarkaların yazılışı mötərizə içərisində verilir.

Mötərizə aşağıdakı hallarda işlənir:

1. Elmi mətndə mötərizədən konkret termini göstərmək məqsədilə istifadə olunur: – *İnsan öz əqli fəaliyyətində ya ayrı-ayrı faktlardan çıxış edərək ümumi nəticələrə (induksiya), ya da ümumidən ayrı-ayrı nəticələrə (deduksiya) gəlir* (Ə.Fərəcov).

2. Elmi ədəbiyyatda qruplaşdırma apararkən ya rəqəmin, ya da hərfin sağ yanında yarımmötərizə qoyulur:

Tamamlıq budaq cümləsinin normal əlaməti aşağıdakılardır:

1) Tamamlığın bütün suallarına cavab olur;

2) Baş cümləyə həm "ki" bağlayıcısı ilə, həm də belə bir bağlayıcı olmadan bağlanır;

3) Mübtəda və xəbər budaq cümləsi kimi, tamamlıq budaq cümləsinin də iki tipi vardır: a) baş cümlədən sonra gələn, b) baş cümlədən əvvəl gələn (Ə.Fərəcov).

3. Elmi mətndə düz mötərizədən sitatın mənbəyini göstərmək vasitəsi kimi istifadə edilir:

Yalnız bir fikri ifadə edən cümləyə sadə cümlə deyilir [18, səh. 4].

4. Dram əsərlərində remarkalar mötərizə içində verilir:

Elman: Uğurlar olsun, dostum! [Simurq quşu havaya qalxır. Elman qəmli nəzərlərlə bir əfsanəli dağa baxır, bir də Dəmirçilər kəndinə] (A.Şaiq).

9. YAZILI NİTQDƏ DIRNAQ İŞARƏSİ

Dırnaq işarəsi bir sözün, ifadənin, cümlənin, xüsusi adın başqasından fərqləndirilməsinə xidmət edir. Aşağıdakı hallarda dırnaq işarəsindən istifadə edilir:

1. Sitatların yazılışında:

Prof. M.Hüseynzadə nitq hissələri məfhumuna tərif verərək yazır: "Müstəqil mənasına, morfoloji əlamətinə və sintaktik roluna görə qruplaşan sözlərə nitq hissələri deyilir". (Ə.Fərəcov)

2. Elmi ədəbiyyatda bədii əsərdən bəhs olunarkən onun adı dırnaqda yazılır.

"Sərgüzəşti-mərdi-xəsis" komediyasını yazdıqdan sonra Axundovun dramaturji yaradıcılığında üç illik fasilə olur (F.Qasımzadə).

3. Vasitəsiz nitq dırnaq içərisində yazılır:

Onun müvəffəqiyyətini alqışlayaraq: *"Afərin, oğlum! Xalqına, vətəninə səni faydalı bir oğul görmək istəyirəm!" – deyə əllərini əlləri içində sıxdı* (A.Şaiq).

4. Bəzi üslubi məqamlarda söz dırnaqda yazılır:

Pers gəldi, "varlıları" müşavirə zalından çıxardıb dəstəynən basdı vaqona, "on yeddi nəfərin işini xətm elədi"... "Operativ qruppa təşkil olunmuşdu. Gülənov o "qruppa"nın sədri idi (İ.Hüseynov).

10. YAZILI NİTQDƏ TİRE

Yazılı nitqdə tire də fərqləndirici əlamətə malikdir. Ən çox aşağıdakı hallarda tiredən istifadə olunur:

1. Yazılı ədəbiyyatda dialoqların komponentləri təzə sətirdən tire ilə göstərilir. Məsələn:

– Xəbərin varmı? – deyə Zər gül soruşdu.

– Nədən?

– Dünən gecə Naziləni doğum evinə apardılar.

– Doğrudanmı? – Səbihənin üzü gülümsədi.

– Mən istərdim ki, onun qızı olsun, özü kimi gözəl, göygöz.

– Özü oğlan istəyirdi.

– Nə olar. Oğlu olsa da, özünə oxşar: boylu-buxunlu (Q.Musayev).

2. Xüsusi isimlər, yer adları arasında işlənir. Məsələn:

Sarıbaba – Qırxqız dağı –
Ərlər-ərənlər oylağı.
Ər babalar bu dağları
Saxlayıbdı qollarında.
Yadlar gəzə bilməyibdi
Şuşa – Laçın yollarında (Əli Sarıbaba)

3. Müxtəlif fikirləri ifadə edən nitq vahidləri arasında işlənir. Məsələn:

İllərlə enirəm – qarşımda antik aləm.
İllərlə qalxıram – orta əsrlərdəyəm (X.Rza).

YAZILI NİTQ VƏ SİTAT

Sitat bir mətndən və ya şəxsin dilindən eynilə alınıb işlədilən dil vahidi, iqtibasdır.

Sitat ən çox elmi və publisistik mətnlərdə müəyyən fikri nümayiş etdirmək üçün verilir. Sitatlar yazılı nitqdə iki şəkildə işlənir: dəyişilmiş və olduğu kimi. Məsələn:

Ümumxalq dilinin iki qola ayrıldığını M.Qorki çox gözəl şərh etmişdir: "Dilin ədəbi və xalq dili deyə ikiyə bölünməsi yalnız onu göstərir ki, necə deyərlər, bir "xam" dil var, bir də sənətkarlar tərəfindən işlənilmiş dil"[1].

Şifahi nitqdən fərqli olaraq, yazılı nitqdə sitatlar çox zaman olduğu kimi verilir.

[1] M.Qorki. "Ədəbiyyat haqqında". Bakı, 1950, səh.106-107.

Sitatdan yazılı nitqdə müxtəlif məqsədlər üçün istifadə olunur.

1. Fikri təsdiq etmək üçün:

Qeyd etmək lazımdır ki, məktəb qrammatikasının izahat və təfsir dili də, verilən nümunə və misallar da elmi qrammatikanın dilindən, nümunə misallarından fərqlənir. F.İ.Buslayevin dediyi kimi, "Alim elmi iş yazarkən oxucunun və dinləyicinin şəxsiyyətinə əhəmiyyət vermədən ancaq elmin özü ilə məşğul olur; o öz elmini ancaq onu anlayanlara təqdim edir. Bunun tərsinə olaraq, pedaqoq şagirdlərin bacarıqlarını inkişaf etdirdikdə, mütəşəkkil hala saldıqda, biliyi şagirdlərə aşıladıqda məqsədinə müvəffəq olur" (Ə.Fərəcov)...

Burada prof. Ə.Fərəcov elmi qrammatika ilə məktəb qrammatikasının fərqli cəhətləri barədə irəli sürdüyü fikri təsdiq etmək üçün məşhur rus alimi, metodisti F.İ.Buslayevdən sitat gətirmişdir.

2. Fikri əsaslandırmaq üçün:

M.Hüseynzadə üçüncü növ təyini söz birləşməsinin tarix etibarilə bir o qədər də qədim olmadığı barədə öz fikrini əsaslandırmaq üçün N.K.Dmitriyevdən aşağıdakı sitatı verir:

"...İzafətin birinci xüsusiyyəti sözlərin sırasıdır. Təyin (isim) təyin olunandan (isimdən) əvvəl gəlir. Məsələn, dəmir barmaqlıq, ipək corab, gümüş saat. Bu tip izafət tarixən, gərək ki, daha qədimdir..."

3. Fikri inkar etmək üçün.

"Sözlərin ayrılıqda məna verən və dəyişməyən hissəsinə kök deyilir. Ə.Abbasovun dərsliyindən götürülmüş bu tərifdən (5, səh.27) belə çıxır ki, 1) kök sözün bir hissəsidir; 2) kök söz deyil; 3) kök dəyişmir. Əlbəttə, bunların heç biri ilə razılaşmaq olmaz. Çünki sadə sözlərin hamısı kökdür, deməli, bütün köklər sözdür, köklər söz olduğu üçün şəkilçi qəbul edərək dəyişir" (Ə. Fərəcov).

Sitatın mənbəyi elmi ədəbiyyatda, əsasən, düz mötərizə içərisində verilir. Burada göstərilən birinci rəqəm əsə-

rin elmi ədəbiyyatın sonunda tutduğu sıra nömrəsini, ikinci rəqəm isə əsərin səhifəsini göstərir. Məsələn: [17, 275].

Yazılı nitqdə sitatlardan istifadə müəllifdən böyük məsuliyyət tələb edir. Gətirilən sitat olduqca dəqiq verilməlidir. Əks təqdirdə verilmiş sitat elmi əhəmiyyətini itirmiş olar.

2.05. NİTQİN TƏRZİ

Nitqin tərzi problemi dünya dilçiliyində nisbətən az işlənmiş sahədir. Sintaksis məsələlərindən bəhs olunan əsərlərdə nitqin tərzi dedikdə, cümlə quruluşu nəzərdə tutulur. Nitq, tərzinə görə iki cür olur: *vasitəsiz nitq* və *vasitəli nitq*.

1. VASİTƏSİZ NİTQ

Vasitəsiz nitq başqasının nitqinin danışan və ya yazan şəxsin nitqində olduğu kimi işlənməsidir. Vasitəsiz nitq müəllifin nitqi olmadan işlənə bilməz. Buna görə də vasitəsiz nitqi, bir qayda olaraq, müəllifin sözü müşayiət edir. Məsələn:

– *Anam dedi: "Yəqin, atan göndərib..."*(Ə.Vəliyev)

Burada müəllifin nitqi (Anam dedi) olmadan vasitəsiz nitqi (*"Yəqin, atan göndərib..."*) başqasına çatdırmaq olmaz.

Müəllifin sözü ilə vasitəsiz nitq şifahi nitqdə bir-birindən xüsusi fasilə və intonasiya ilə, yazılı nitqdə isə durğu işarələrinin köməyi ilə ayrılır. Müəllifin sözünə nisbətən vasitəsiz nitq daha müstəqil sintaktik vahid kimi çıxış edir. Lakin müəllifin sözü ilə vasitəsiz nitqin qarşılıqlı münasibəti tabeli mürəkkəb cümlə formasını xatırladır.

Vasitəsiz nitq müəllifin sözündən əvvəl, ortasında və sonda da gələ bilər. Məsələn:

1. *Kiçik bacım qalaqdan gərmə götürə-götürə mızıldanırdı: "Xırda çillənin soyuğu təndirə təpər toyuğu"* (Ə.Vəliyev).

2. *Üç döyüşçü: "Salamatam", – deyə cavab verdi* (M.İbrahimov).
3. *"Mənə məktub var?" "Mənə məktub var?" – deyə yer-yerdən ona suallar yağdırar, "hə" və "yox" cavabı almayınca geri çəkilməzdilər* (H.Abbaszadə).

Vasitəsiz nitq formasında müxtəlif cür kənar nitq işlənir:

1. Başqasının nitqi sitat verilməklə vasitəsiz nitq şəklində işlənir. Məsələn:

F.Zeynalov yazır: "Saylar semantik söz qrupu olub, özünəməxsus spesifik əlamətlərlə digər nitq hissələrindən fərqlənir" (Ə.Fərəcov).

2. Danışan öz daxili fikrini vasitəsiz nitq şəklində ifadə edir. Məsələn:

Bünyad çal papağını gözlərinin üstünə basaraq avqustun istisində meşədən qalxıb maşına dolan xoş, ətirli havanı ciyərlərinə çəkə-çəkə fikirləşirdi: "Görəsən, onu görmək müyəssər olacaqmı?" (Q.İlkin)

3. Vasitəsiz nitq bəzən konkret bir şəxsin yox, bir qrup şəxsin fikrini əks etdirir. Məsələn:

Onun boru kimi gurlayan səsini, pərdə-pərdə yüksələn şən qəhqəhələrini eşidənlər heyrətlə: "Kasıblıq səsinin ürəyinə yol tapmayıb", – deyirdilər.

Vasitəsiz nitq vasitəli nitqə çevrildikdə dırnaq qoyulmur və müəllifin sözü ilə vasitəli nitq arasında "ki" bağlayıcısı işlənir. Məsələn:

Solovyov könüllülərə baxıb fikirləşirdi: "Deyəsən, yer azlıq edəcək, yeni bir çadır qurmaq lazımdır" (İ.Gözəlov).

Solovyov könüllülərə baxıb fikirləşirdi ki, deyəsən, yer azlıq edəcək, yeni bir çadır qurmaq lazımdır.

2. VASİTƏLİ NİTQ

Vasitəli nitq başqasının nitqinin budaq cümlə formasında təzahürüdür. Vasitəli nitq başqasının danışığını olduğu şəkildə deyil, ancaq məzmununu əks etdirir. Tərki-

bində vasitəli nitq olan cümlələr iki hissədən ibarət olur: müəllifin sözü və vasitəli nitq.

Müəllifin sözü, adətən, baş, vasitəli nitq isə budaq cümlə vəzifəsində çıxış edir. Məsələn:

O, bizə deyirdi ki, darıxmayaq, hər şey yaxşı olacaq (A.Şaiq).

Bu cümlə sintaktik cəhətdən tabeli mürəkkəb cümlənin tamamlıq budaq cümləsi növündəndir. Burada müəllifin sözü (O, bizə deyirdi) baş cümlə, vasitəli nitq (darıxmayaq, hər şey yaxşı olacaq) tamamlıq budaq cümləsi kimi çıxış edir.

Vasitəli nitq, bir qayda olaraq, müəllifin sözündən sonra gəlir. Vasitəli nitq ilə vasitəsiz nitq arasında sıx əlaqə vardır. Bunlar istənilən vaxt bir-birini əvəz edə bilir.

2.06. NİTQ HİSSƏLƏRİ

Hər bir dil vahidi ünsiyyət prosesində nitq vahidi xarakterini alır. Nitq vahidləri çox mürəkkəb və zəngin olan insan fəaliyyətinin bütün sahələrini əhatə etdiyi üçün müxtəlif məna və məzmun kəsb edir. Nitq vahidləri əşya və hərəkət məzmunu bildirdiyi kimi, əşya və hərəkətə aid müxtəlif əlamət və keyfiyyət məzmunu da ifadə edir. Nitq vahidlərinin bu cür müxtəliflik kəsb etməsi onların *nitq hissələri* adı altında təsnifi zərurətini meydana çıxarmışdır. *Nitq hissələri anlayışı* qrammatikadan daha çox nitq kateqoriyasına daxildir.

2.07. NİTQ HİSSƏLƏRİNİN TƏSNİFİ

Nitqi söz qruplarına bölməyin həm nəzəri, həm də praktik əhəmiyyəti vardır. Praktik əhəmiyyəti odur ki, dilin lüğət tərkibinin öyrənilməsini asanlaşdırır. Nəzəri əhəmiyyəti isə dilin elmi aspektdə tədqiqi ilə bağlıdır.

Nitq hissələrini müəyyənləşdirmək və onları təsnif etmək probleminin uzun tarixi vardır. Hələ çox qədim zamanlardan sözlərin qruplaşdırılması ilə maraqlanmışlar. Qədim Hindistanda alimlər, o cümlədən eramızdan əvvəl V əsrdə yaşamış Yaska qədim hind dillərində 4 nitq hissəsi – *isim, feil, önlük, hissəcik* olduğunu göstərmişdir. Bunlar da cümlədən kənar mənanı saxlaya bilməsinə görə iki yerə bölünmüşdür. İsim və feil cümlə xaricində məna saxladığına görə bir qrup təşkil etmiş, önlük və hissəcik isə cümlələrdə məna daşımadığı üçün xüsusi bir qrup yaratmışdır.

Deməli, nitq hissələri cümlə xaricində məna saxlaya bilməsi əlamətinə görə təsnif edilmişdir. Qədim Yunanıstanda görkəmli filosof Platon (Əflatun) bizim eradan əvvəl V əsrdə dilin sözlərini məntiqi əsasda 2 yerə bölmüşdür – *ad və feil.*

Platona görə, adda nəsə ifadə olunur. Feil isə adda deyiləni təsdiq edir!..

Qədim Yunanıstanın böyük mütəfəkkirlərindən biri olan Aristotel bizim eradan əvvəl IV əsrdə qədim yunan dilində 3 nitq hissəsi müəyyən etmişdir – ad (onoma), feil (rhema) və bağlayıcı (sundesmos).

Yunanıstanın İsgəndəriyyə dilçiləri isə 8 nitq hissəsi olduğunu göstərmişlər:

İsim, feil, feili sifət, artikl, əvəzlik, zərf, önlük, bağlayıcı.

Qədim Roma dilçiləri də nitq hissələri üzərində düşünmüşlər. Bunlar nidanı artırmışlar. Lakin artikli çıxarmışlar. Çünki artikl latın dilində yox idi. Antik dilçilikdə nitq hissələrinin təsnifi məntiqlə bağlı olmuşdur. Cümlə üzvləri məntiqi kateqoriyalar ilə eyniləşdirilmişdir.

Rus dilçiliyində nitq hissələrinin təsnifi M.V.Lomonosovla başlanır. O özünün "Rusiya qrammatikası" (1755) adlı əsərində antik qrammatikaya əsaslanaraq nitq hissələrini iki yerə ayırır:

1) Əsas nitq hissələri – adlar və feillər;
2) Köməkçi nitq hissələri – əvəzlik, zərf, feili sifət, bağlayıcı, nida.

A.Vostokovun "Rus qrammatikası" (1831) əsərində antik qrammatikaya əsaslanaraq 8 nitq hissəsi verilmişdir. Lakin M.Lomonosovdan fərqli olaraq, A.Vostokov sifəti isimdən ayıraraq ayrıca nitq hissəsi kimi, feili sifəti isə sifətin bir forması kimi verir. F.İ.Buslayev "Tarixi qrammatika təcrübəsi" (1858) əsərində də əsas və köməkçi olmaqla 8 nitq hissəsindən bəhs edir.

A.A.Potebnya "Rus qrammatikasına dair qeydlərdən" (1874) adlı kitabında əsas nitq hissələrinə "leksik sözlər" kimi yanaşaraq onlara feil, isim, sifət və zərfi, köməkçi nitq hissələrinə "formal sözlər" kimi yanaşaraq onlara bağlayıcıları, önlükləri, ədatları və köməkçi feilləri də daxil edir. A.Potebnya əvəzliyə xüsusi söz qrupu kimi yanaşır.

F.Fortunatovun "Müqayisəli dilçilik" kursunda (1901–1902) nitq hissələrinin ənənəvi bölgüsü pozulur. O, sözləri formal əlamətlər üzrə qruplaşdıraraq üç qrupa bölür: *bütöv sözlər* (feillər, isimlər, sifətlər, infinitivlər, zərflər), *yarımçıq sözlər* və *nidalar.*

A.M.Peşkovskinin nitq hissələrinə dair bölgüsü, təxminən, Fortunatov sxeminə yaxındır. O, 7 nitq hissəsi təsəvvür edir: feil, isim, sifət, feili sifət, zərf, feili bağlama və infinitiv. A.Peşkovski əvəzlik və say ayrıca nitq hissəsi hesab etmir, köməkçi sözlərə isə sintaktik vasitələr kimi baxır.

A.A.Şaxmatov nitq hissələrinin sayını 14-ə çatdırmışdır. O, nitq hissələri təlimini sintaksislə əlaqələndirərək nitq hissələrini əlamətdar (isim, sifət, feil, əvəzlik və say olmayan zərflər); qeyri-əlamətdar (say, əvəzlikli zərf), köməkçi (önlük, köməkçi feil bağlayıcı, prefiks, ədat), nida olmaqla 4 qrupa ayırmışdır.

V.A.Boqoroditski semantik və sintaktik əlamətləri ünsürlərdən üstün tutaraq nitq hissələrini 3 qrupa ayırır:

1) *Təmənnalı sözlər* müstəqil xüsusi mənalı (isim, feil, şəxs əvəzliyi) və bir qədər az dərəcədə müstəqil sözlər (sifət, say, təyini işarə əvəzliyi, feili sifət, zərf, feili bağlama);

2) *Xüsusi mənası olmayan sözlər* (önlüklər və bağlayıcılar);

3) *Nida*.

L.V.Şerba sözləri nitq hissələrinə görə əlamətdar sözlər (isimlər, sifətlər, zərflər, kəmiyyət bildirən sözlər, vəziyyət kateqoriyası, feil), köməkçi sözlər (köməkçi feillər, önlüklər, bağlayıcılar) və nidalar qrupuna bölür.

V.V.Vinoqradov nitq hissələrini aşağıdakı struktur semantik kateqoriyalara ayırır: 1) *nitq hissələri* (isim, sifət, say, əvəzlik); 2) *nitq ədatları* (xüsusi mənada ədatlar, ədat köməkçi feillər, önlüklər, bağlayıcılar); 3) *modal sözlər*; 4) *nidalar.*

M.V.Popov "Rus dilində nitq hissələri haqqında" adlı məqaləsində 5 əsas nitq hissəsi müəyyənləşdirir: isim, feil, feili bağlama, sifət, zərf, saylar və əvəzliklər başqa nitq hissələrinə daxil edilir, ədatlar və nidalar nitq hissəsi sistemindən kənar hesab olunur.

Nitq hissələrinin təsnifi tarixi göstərir ki, qədim dövrlərdə İsgəndəriyyə qrammatikalarında nitq hissələrinə morfoloji istiqamətdə baxılmış, Roma dilçiliyində nitq hissələri cümlə üzvləri ilə eyniləşdirilmiş, XIX əsrdə yenidən nitq hissələri üçün morfoloji prinsip başlıca meyar kimi götürülmüşdür.

Müasir dilçilikdə isə sözlərin semantik, morfoloji və sintaktik əlamətlərinə görə qruplaşdırılması nitq hissələrinin mahiyyətini müəyyənləşdirir.

Nitq hissəsi kateqoriyası bütün dünya dillərində özünü göstərdiyinə görə unversali hadisəsi hesab olunur. Buna görə də hazırda alimləri maraqlandıran cəhət budur ki, nitq hissələri üzrə elə prinsiplər müəyyən edilsin ki, o, bütün dillərə aid ola bilsin. Hələlik nitq hissələrini üç qrupa bölmək olar.

1. ƏSAS NİTQ HİSSƏLƏRİ

Dilçilik tarixində əsas nitq hissələri qrupuna aid olunan sözlər nitq prosesində fikrin ifadəsində əsas rol oynayır. Buna görə də çox zaman əsas nitq hissəsi dedikdə adlar və feillər nəzərdə tutulmuşdur. Çünki nitqdə ən çox işlənən adlar və feillərdir.

Lakin sonradan insanlar arasında nitq bir ünsiyyət prosesi kimi genişləndikcə və zənginləşdikcə ad və feildən başqa əlamət, miqdar, vəziyyət bildirən sözlər də nitqə gəlmişdir. Buna görə də nitqdə fəal işlənən və müstəqil məna kəsb edib suala cavab verən sözlər isim, sifət, say, əvəzlik, feil, zərf adı altında əsas nitq hissəsinə daxil edilir.

1. ***İsim.*** Əşyanın adını bildirmək üçün işlədilir. Əşya dedikdə buraya külli miqdarda anlayışlar daxildir: *dam, ağac, su, dəmir* və s. cansız varlıq; *Nadir, Məsmə, adam, ata, ana, inək, qoyun, dəvə* və s. canlı varlıq; *fikir, xəyal, düşüncə, sevinc* və s. mücərrəd varlıq; *Bakı, Gəncə, Naxçıvan, Təbriz, İstanbul* və s. yer adları.
2. ***Sifət.*** Nitqdə əlamət və keyfiyyət anlayışlarını ifadə edir. Məsələn, *acı, şirin, turş, böyük, kiçik, yaxşı, pis, dadsız* və s.
3. ***Say.*** Saylar nitqdə miqdar, kəmiyyət, sıra anlayışlarını ifadə edir. Məsələn, *üç, beş, on, qırx beş, az, çox, xeyli, birinci* və s.
4. ***Əvəzlik*** nitqdə heç bir konkretlik bildirməyən, varlığı ümumi şəkildə ifadə edən söz qrupudur. Məsələn, *mən* – I şəxsi, *sən* – II şəxsi, *bu* – hər hansı bir əşyanı, elə, belə – hər hansı bir əlamət və keyfiyyəti və s. ifadə edir.
5. ***Feil*** nitqdə iş, hərəkət, hal anlayışlarını ifadə edir. Məsələn, *al(maq), gəl(mək), gül(mək), kədərlən(mək), oxu(maq), işlə(mək), saxla(maq), arıqla(maq), qorx(maq), darıx(maq), yat(maq)* və s.

6. ***Zərf*** nitqdə hərəkətlə bağlı əlamət, keyfiyyət, hal-vəziyyət anlayışlarını ifadə edir. Məsələn: *qaça-qaça, qəsdən, gülə-gülə, irəli, geri, bərkdən, astadan* və s.

2. KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

Danışıqda elə dil vahidləri də işlənir ki, onlar nitqdən kənar heç bir ad, hərəkət, əlamət, proses və s. leksik məna bildirmir, yalnız fikir və anlayışlar arasında əlaqə və münasibət, nisbət bildirir. Köməkçi nitq hissələri ancaq nitq fəaliyyəti, ünsiyyət prosesi ilə əlaqədardır.

Dilçilikdə köməkçi nitq hissələrinə, əsasən, qoşma, bağlayıcı və ədatlar daxil edilir.

1. Qoşma nitqdə adlarla hərəkət arasında məkan, zaman, səbəb, məqsəd və başqa münasibətləri konkretləşdirir, halların mənasını dəqiqləşdirir və tamamlayır, cümlənin bitkin sintaktik vahid kimi formalaşmasında iştirak edir. Məsələn:

*Məhərrəm əmi bir **qədər** ailə həyatının əhəmiyyətindən bəhs etdikdən **sonra** Əhmədin ricası **ilə** İsgəndər bəyin yanına getdilər* (A.Şaiq).

Bədii nitqdə işlənən bu cümlədə *"qədər"*, *"sonra"*, *"ilə"* qoşmaları işlənməsə, şübhəsiz ki, o, bitkinlikdən uzaq olardı:

"Məhərrəm əmi bir ailə həyatının əhəmiyyətindən bəhs etdikdən Əhmədin ricası İsgəndər bəyin yanına getdilər".

Nitqdə yaratdıqları mənalara görə qoşmaların zaman, məkan, bənzətmə, səbəb, məqsəd, iştirak, ziddiyyət və qarşılıq, kəmiyyət, məhdudlaşdırma və s. növlərinə rast gəlinir.

2. Bağlayıcı nitqdə işlənən sözlər, söz birləşmələri, cümlələr arasında sintaktik, məntiqi əlaqə yaratmağa xidmət edir. Başqa nitq hissələrindən fərqli olaraq, heç bir morfoloji əlamət kəsb etmir, cümlə üzvü olmur. Bağlayıcı nitqdə özünün kəsb etdiyi leksik-qrammatik xüsusiyyətləri ilə nəzəri cəlb edir.

Bağlayıcılar nitqdə iki məqamda işlənir: sözlər, söz birləşmələri və cümlələr arasındakı tabesizlik və tabelilik məqamlarında. Məsələn:

1. Bu səhər vağzalda Qurbana əmin öz diliynən tapşırıb ki, kənardan göz qoy Səmədə, mən Bakıdan qayıdanacan bir xəta çıxartmasın (İ.Hüseynov).

2. Bahar səması təmiz və aydın idi (Q.Musayev).

Birinci cümlədə *"ki"* bağlayıcısı tabelilik əsasında yaranan baş və budaq cümlələr arasında işləndiyinə görə tabelilik, ikinci cümlədə *"və"* bağlayıcısı tabesizlik əlaqəsi əsasında birləşən həmcins üzvlər arasında işləndiyinə görə tabesizlik bağlayıcısı hesab olunur.

Bağlayıcılar, əsas nitq hissələrindən fərqli olaraq, ancaq nitqdə bir dil hadisəsi kimi meydana çıxır və ünsiyyət prosesinə xidmət edir. Bu zaman bağlayıcıların bir sıra məna növləri müşahidə olunur.

Türk dillərində, o cümlədən Azərbaycan dilində bağlayıcıların aşağıdakı məna növləri özünü göstərir:

1. Birləşdirici bağlayıcılar: *və, ilə*;
2. Qarşılaşdırıcı bağlayıcılar: *lakin, amma, ancaq, fəqət, halbuki;*
3. İnkarlıq bağlayıcıları: *nə, nə də, nə də ki;*
4. Bölüşdürücü bağlayıcılar: *ya, ya da, gah, gah da, yainki* və s.
5. Aydınlaşdırıcı bağlayıcılar: *yəni, yəni ki;*
6. İştirakedici bağlayıcılar: *həm, həm də, hətta, habelə, həmçinin.*

Azərbaycan dilində – yazılı nitqdə ən çox işlənən *"və"*, *"ki"* bağlayıcılarıdır.

3. Ədat nitqdə fikrin düzgün və aydın ifadəsi üçün sözlərə, söz birləşməsinə, ifadə və cümlələrə müxtəlif məna çalarlıqları verir.

Ədatların nitqdə böyük rolu vardır. Onlar, əsasən, şifahi nitqdə, bədii və publisistik üslublarda işlənir. Məsələn:

1. *Axşamüstü tamamilə yerin üzərinə enmiş göy qübbəsi indi yenidən nəhəng bir çətir kimi açılıb yüksəlmiş, ən uzaq ulduzları ilə ta ərşə dirənmişdi* (Ə.Məmmədxanlı).
2. *Sağ tərəfdəki birinci çarpayı mənimdir, basırığa salıb tutarsınız ha!* (İ.Gözəlov)
3. *Bu sözlər Məhərrəm əminin heç xoşuna gəlmədi* (A.Şaiq).

Göründüyü kimi, bu cümlələr *ən, ta, ha, heç* ədatları olmadan da işlənə bilərdi. Lakin onlar öz yerlərində işləndikdə birinci cümlədə *"uzaq"* və *"ərşə"* sözlərinin mənalarının bir az da qüvvətlənməsinə (ən uzaq, ta ərşə), ikinci cümlədə *"ha"* ədatı cümlənin bütövlükdə mənasının qüvvətlənməsinə, üçüncü cümlədə *"heç"* ədatı *"xoşuna gəlmədi"* ifadəsinin daha da güclənməsinə təsir göstərmişdir.

Nitqdə ədatlar əmələ gətirdiyi bu mənalara görə bir neçə qrupa bölünür:

1. İşarə ədatları: *odur, budur, elədir, belədir* və s.
2. Dəqiqləşdirmə ədatları: *elə, əsl, məhz, -ca, -cə* və s.
3. Məhdudlaşdırıcı ədatlar: *ancaq, bircə, təkcə, yalnız* və s.
4. Sual ədatları: *bəs, məgər, yəni, -mı (-mi, -mu, -mü), olmaya.*
5. Əmr ədatları: *qoy, di, gəl, da, də, -sana, -sənə* və s.
6. Təsdiq və inkar ədatları: *bəli, hə, yox, xeyr, heç* və s.
7. Arzu və qeyd-şərt ədatları: *barı, bircə, kaş, təki, nə ola* və s.

Ədatlar şifahi və yazılı nitqin daha canlı, obrazlı ifadəsində əvəzsiz rola malikdir.

3. QEYRİ-MÜƏYYƏN NİTQ HİSSƏLƏRİ

Nitq prosesində bəzən elə sözlər də işlənir ki, onları nə leksik, nə də qrammatik cəhətdən heç bir nitq hissəsinə aid etmək mümkün deyildir. Belə dil vahidlərini şərti olaraq qeyri-müəyyən nitq hissələri adı altında qruplaşdırmaq olar.

Qeyri-müəyyən nitq hissələrinə modal sözlər, nida, təqlidi sözlər, imperativ sözlər, uşaq sözləri və ritmik sözlər daxildir.

1) Modal sözlər danışanın obyektiv varlığı, əşya və hadisələrə, söylənilən fikrə münasibətini bildirən xüsusi nitq vahidləridir. Məsələn: *"**Əlbəttə**, ağır olacaq səndən ötrü bu söhbət"* (İ.Hüseynov). *"Bir boynu olsaydı bəşəriyyətin, Onu bir qılıncla vurardın, **yəqin**"* (S.Vurğun). *"**Bəlkə** danışan, əlavə eləyən, təklifi olan vardır"* (Ə.Vəliyev).

Bu bədii nitq parçalarında *"əlbəttə"*, *"yəqin"*, *"bəlkə"* sözləri söylənilən fikir və mühakimələrə danışanın münasibətini daha qabarıq şəkildə ifadə etməkdə kömək göstərir.

Modal sözlərin bir çox məna qrupları mövcuddur:

1. Həqiqəti bildirənlər: *əlbəttə, şübhəsiz, həqiqətən, doğrudan, əslində* və s.
2. Güman bildirənlər: *bəlkə, güman ki, ehtimal ki, görünür, yəqin, görəsən, deyəsən, guya* və s.
3. Qətiyyət bildirənlər: *hökmən, mütləq, şəksiz, şübhəsiz* və s.
4. Mənbə, istinad bildirənlər: *məncə, bizcə, sizcə, səncə, deyilənə görə* və s.
5. Təəssüf bildirənlər: *heyif ki, təəssüf ki, əfsus ki* və s.
6. Ümumiləşdirmə bildirənlər: *ümumiyyətlə, nəhayət, xülasə, demək ki, beləliklə* və s.

2) Nida sözlər nitqdə insanın keçirdiyi hiss və həyəcanı ifadə edir. Məsələn, ***Aha!*** *Baş əyməyir hüzurumda bu!* (S.Vurğun)

Paho! *Sən burada lap sərgi açıbsan ki!* (İ.Gözəlov)

Afərin, *şəhər qızı! Kaşşeyin çörəyi halalın olsun! – dedi* (İ.Hüseynov).

Bu nitq parçalarında *"aha"*, *"paho"*, *"afərin"* kimi sözlər danışanın daxili hiss və həyəcanlarını ifadə edir.

Nidalar çox zaman səs təqlidi yolu ilə yaranır. Məsələn, *a, ə, ax, oy, vay, oho, pah, oxqay* və s.

Nidalar nitqdə müxtəlif cür hiss və həyəcan bildirməsinə görə müəyyən qruplara ayrılır:

1) Şadlıq, sevinc, fərəh, zövq və s. hisləri ifadə edənlər: *oxqay, bəh-bəh, ay can, mərhəba, afərin* və s.

2) Kədər, nifrət, qəzəb, iztirab və s. hisləri ifadə edənlər: *ax, eyvah, aha, ox, paho, aha* və s.

3) Qorxu, ağrı, vahimə və s. hisləri ifadə edənlər: *of, uf, vay, aman, ilahi, ay haray* və s.

3) Təqlidi sözlər. Nitq prosesində danışan şəxs gördüklərini və ya eşitdiklərini bəzən yamsılamaqla ifadə edə bilir. Danışanın yamsılama və ya təqlid yolu ilə tələffüz etdiyi nitq aktı dilçilikdə təqlidi söz, yamsılama və s. terminlərlə ifadə edilir. Təqlidi sözlər nidalara yaxınlaşsa da, daxili məna keyfiyyəti ilə ondan fərqlidir. Çünki təqlidi sözlər hiss və həyəcan ifadə etmir.

*Zümrüd quşu **qa** deyəndə ət, **qu** deyəndə su verirdi* (Nağıl).

*"**Cib-cib** cücələrim"* (Mahnı), ***Tıq-tıq** xanım* (Nağıl), *"Arılar **vız-vız** vızıldayırdı".*

Bu nitq parçalarında işlənən *qa, qu, cib-cib, tıq-tıq, vız-vız* kimi nitq vahidləri öz xarakterinə və quruluşuna görə əsas və köməkçi nitq hissələrindən tamamilə fərqlənir.

4. İmperativ sözlər. Nitqdə başqasına müraciət, çağırış, əmr və s. mənaları ifadə etmək üçün imperativ sözlərdən istifadə edilir. Azərbaycan dilində imperativ sözlərin formalaşma prosesi indi də davam edir. İ*mperativ sözləri* iki qrupa bölmək olar:

1) İnsana müraciətlə işlədilən imperativ sözlər;

2) Heyvanlara müraciətlə işlədilən imperativ sözlər.

1) İnsana müraciətlə aşağıdakı imperativ sözlərdən istifadə olunur və bu zaman həmin sözlərdə vurğu aşağıdakı vəziyyətdə tələffüz edilir: *əz**i**zim, **a**tam, **a**nam, b**a**lam, ox**u**cum, q**ı**zım, d**a**yı, **ə**mi, b**a**ba, x**a**la, b**i**bi, **a**yə, c**a**nım, g**ö**züm, qad**a**sı, q**a**ğa, q**a**rdaş, b**a**lası, b**a**cım, x**a**nım, g**ü**lüm, sevg**i**lim, at**a**can, an**a**can, k**i**şi, **a**rvad, q**a**rı, **a**ğız, **ə**də* və s. Məsələn:

"***Xandostu***, amandı, qoyma gəldi" (M.Ə.Sabir).

"***Canım***, gözüm, əfəndim, sevdiyim, dövlətli sultanım" (Nəsimi).

"***Ə***, bu gözəllərin adlarını de görək" (İ.Gözəlov).

Şairim! Yaxanı bir qurtar da sən
İnsana dərd verən hadisələrdən (S.Vurğun).

Hanı qələm, hanı kağız?
Tez ol, gətir, ***a dildarım!*** (S.Vurğun)

"Bilirsənmi nə var, ***aşna!*** Açıq danışaq!" (S.Vurğun)

"***Oxucum!*** Qəmləndi ürəyim bir az" (S.Vurğun).

Yaddır Rahibimə hər qorxu, tələş,
Şir kimi döyüşkən bir xisləti var.
Sənin bu hünərin var olsun, ***qardaş***,
Qıyma fəlakətə düçar olanlar.
Bu qanlı sulara yar olsun, ***qardaş***! (Nizami Saraclı)

Bu bədii nitq parçalarında *Xandostu, canım, gözüm, əfəndim, sultanım, şairim, a dildarım, aşna, oxucum və qardaş* sözləri imperativ sözlər kimi işlənmişdir.

Azərbaycan dilində heyvana müraciətlə xarakterik imperativ sözlər işlənir. Məsələn: *piş-piş* (pişiyə müraciətlə); *oho-oho* (öküzə müraciətlə); *qaz-qaz* (qaza müraciətlə); *kşü-kşü* (toyuğa müraciətlə); *çe-çe* (qoyuna, keçiyə müraciətlə).

5. Uşaq sözləri. Müəyyən yaş dövründə kiçik yaşlı uşaqların nitqində işlənən sözlər dilçilikdə şərti olaraq

uşaq sözləri adlandırılır. Böyüklərlə ünsiyyət prosesində kiçik yaşlı uşaqlar öz fikirlərini ifadə etmək üçün müəyyən səsləri birlikdə işlədərək əşya və hadisə haqqında xəbər verir, onların adını çəkmək istəyirlər. Uşaq nitqində işlənən sözlər çox zaman yamsılamağa əsaslanır. Məsələn: *cız* (od, kibrit), *pəpə* (çörək), *pxı* (pis), *nəm-nəm* (yemək), *quxu* (qorxmaq), *bip-bip* (maşın), *dada* (yemək), *bay-bay* (yatmaq), *oppa* (gəzmək), *bəbə* (uşaq), *çi-çi* (geyim) və s.

Dünya dillərində eyni anlayışı bildirmək üçün müxtəlif uşaq sözlərindən istifadə olunur. Məsələn:

"İt" mənasında – *ham-ham* (azərbaycanca), *qav-qav* (rusca), *wav-wav* (almanca), *wow-wow* (ingiliscə), *waf-waf* (datca).

"Pişik" mənasında – *miyəu* (azərbaycanca), *myau* (rusca), *man-man* (almanca), *mav-mav* (ingiliscə), *nia-nia* (yaponca).

6. Ritmik sözlər. Nitqdə bəzən mənalı sözlə yanaşı mənasız sözlər də işlədilir. Məsələn, *çör-çöp, iş-zad, pul-mul, biş-düş, şey-mey, qazan-mazan, alağ-ulağ, it-mit, paltar-maltar, kitab-mitab, adam-udam, ət-mət, uşaq-muşaq* və s. Bu müştərək işlənən sözlərin biri ayrılıqda mənadan məhrum, ancaq səs yığımından ibarət sözlərdir. Bunlar nitqdə müəyyən ritm yaratmağa xidmət etdiyi üçün şərti olaraq *ritmik sözlər* adlanır.

III FƏSİL

DİL VƏ NORMA

ÜMUMXALQ DİLİNİN TƏRKİB HİSSƏLƏRİ

Ünsiyyət vasitəsi olan dillə bağlı elm aləmində, xüsusilə dilçilikdə bir çox anlayış meydana gəlmişdir. "Ümumxalq dili", "milli dil", "ədəbi dil", "danışıq dili", "rəsmi dil", "adi dil" və s. Bu anlayışların və onlara aid terminlərin müəyyənləşdirilməsi elm üçün ən vacib məsələlərdəndir.

Dünya xalqlarının hər birinin bir dili olur. Həmin dil mənsub olduğu xalqın və millətin vahid ümumi anlaşma vasitəsi olduğuna görə buna *ümumxalq dili* deyilir. Məsələn, *Azərbaycan ümumxalq dili, alman ümumxalq dili, çin ümumxalq dili, yunan ümumxalq dili* və s.

"Ümumxalq dili" çox geniş anlayışdır. Belə ki, *ümumxalq dili* dedikdə, xalqın bütün dil vasitə və formalarının məcmusu nəzərdə tutulur. Məlumdur ki, hər bir dil nitqdə müxtəlif formada özünü göstərir. Azərbaycan dilinə fikir verək. Bu dildə müəyyən qrup adamlar meyvənin bir növünü bildirmək üçün *"ərik"*, digər şəxslər isə *"qaysı"* sözünü işlədir. Yaxud "ya" ünsürünü bir çoxları bağlayıcı, qeyriləri isə inkar əlaməti kimi işlədirlər. Şəki danışığında *"ya mən danışım, ya sən"* dedikdə, *"nə mən danışım, nə də sən"* mənası ifadə olunur. Deməli, dildə bu cür və bunlara bənzər hər nə varsa, onların hamısını ümumxalq dili əhatə edir.

Öz inkişafının müəyyən mərhələsindəki hər bir dil vahid tərkibli ümumxalq dili formasında mövcud olur. Lakin insan fəaliyyətinin inkişafı ilə bağlı dilin tərkibində sonralar bir-birindən az-çox fərqlənə bilən qollar – tərkib his-

sələri əmələ gəlir. Bu tərkib hissələri – qollar, bunlara aid olan sistemlər, əsasən, cəmiyyət üzvlərinin dildən necə, nə dərəcədə istifadə edə bilməsi ilə əlaqədar meydana çıxır və diqqəti cəlb edir.

Ümumxalq dilinin tərkibini bir sıra danışıq sistemləri təşkil edir. Məsələn, *ədəbi danışıq, dialekt danışığı, loru danışıq, jarqon danışığı* və s. Bunların cəmiyyətdə rolu, işlənmə dairəsi, əhəmiyyəti eyni deyildir. Bu keyfiyyətlər nəzərə alınaraq ümumxalq dilini iki yerə bölmək olar ki, bunlar eyni zamanda *milli dilin qolları* adlanır[1]:



Cədvəl 8

a) ədəbi dil (ədəbi danışıq);

b) danışıq dili (qeyri-ədəbi danışıq).

Ümumxalq dilinin iki qola ayrılmasını şərti mənada başa düşmək lazımdır. Çünki qeyd etdiyimiz kimi, hər xalqın bir neçə deyil, ancaq bircə dili olur.

[1] Bax: Afad Qurbanov. "Azərbaycan ədəbi və danışıq dili". Bakı, 1965.

3.01. ƏDƏBİ DİL

Ədəbi dil ümumxalq dilinin ən vacib mədəni tərkib hissəsidir. Onun sistemində ədəbi dilin xüsusi yeri və vəzifəsi vardır. Dilçilik ədəbiyyatında *"ədəbi dil"* anlayışının ifadəsi üçün *"ədəbi dil"*, *"standart dil"*, *"kodlaşdırılmış dil"*, *"yazılı dil"* və sair terminlərdən istifadə olunduğuna təsadüf edilir. Həmin münasibətlə bağlı "ədəbi dil" termininin işlənməsi daha məqsədəuyğundur.

Ədəbi dil statusu bir sıra əlamət, keyfiyyət və xüsusiyyətlərə görə müəyyənləşdirilir.

1. ƏDƏBİ DİLİN ƏLAMƏTLƏRİ

Ümumxalq dilinin cilalanmış nümunəvi hissəsi olan ədəbi dil xalq dilinin ən yaxşı cəhətlərini özündə cəmləşdirir. Bu dil hər xalqın milli mədəniyyətinin nailiyyətlərini əks etdirir. Bunun əsas əlamətləri aşağıdakılar hesab olunur:

a) Ədəbi dil milli dilin formalaşmasında mühüm rol oynayır. Hər bir milli dilin ümumanlaşıqlı olması ədəbi dilin köməyi ilə təmin edilir. Buna görə də ədəbi dil daim saflaşır, cilalanır.

b) Ədəbi dilin ədəbi-mədəni səciyyəliliyi onun yüksək əlamətlərindəndir. Bu dilin mündəricəsini mədəni-linqvistik xüsusiyyətlər təşkil edir. Kobud və vulqar ünsürlər belə dilin ümumi qayəsinə yaddır.

c) Ədəbi dil normalaşdırılmış ünsiyyət vasitəsidir. Burada dilin hər bir səviyyəsinə dair norma müəyyənləşdirilir. Belə bir əlamət ədəbi dili qaydaya salır, onu standartlaşdırır. Ədəbi dilin normalaşdırılmasının əsas mənbəyini ümumxalq dili təşkil edir.

ç) Ədəbi dil tarixən əldə olunmuş ümummədəni nailiyyətlərin saxlanılması, əbədiləşdirilməsi və nəsillərə ötürülməsində xüsusi əhəmiyyət kəsb edir. Bütün

elmi kəşflər, bədii söz sənətkarlarının ölməz əsərləri ədəbi dil vasitəsilə yaşayır və xalqın xidmətində olur.

d) Ədəbi dilin zəngin lüğət tərkibinə, qrammatik quruluşa və üslublar sisteminə malik olması onun əsas xüsusiyyətlərindən sayılır.

e) Ədəbi dil şifahi və yazılı formalara malikdir. Bu əlamət onun rolunun və vəzifələrinin artmasında əvəzsizdir.

ə) Ədəbi dil müxtəlif məzmunlu hər növ informasiya verməyə qadirdir. Buna görə də ədəbi dil geniş dairədə işlədilir. Ondan dövlət idarələrində, elm, tədris, mətbuat, ədəbiyyat, rəsmi-kargüzarlıq, istehsalat və məişətdə istifadə olunur. Bir sözlə, ədəbi dil aid olduğu xalq tərəfindən ölkənin hər bucağında ünsiyyət vasitəsi kimi geniş tətbiq edilir.

Göstərilən bütün bu əlamət və keyfiyyətlər ədəbi dili danışıq dilindən əsaslı şəkildə fərqləndirir.

2. ƏDƏBİ DİLİN YARANMASI

Ədəbi dilin yaranması zəruri tarixi-linqvistik prosesin nəticəsidir. Bu şəkildə dilin meydana gəlməsi və onun formalaşmasına dair dilçilik elmində bir sıra fikir və mülahizələr olmuşdur. Bəziləri ədəbi dilin tam süni əsasda formalaşdığı fikrini irəli sürmüşlər. Ədəbi dili süni adlandıranlar onu ümumxalq dilindən ayrı olan bir ictimai hadisə hesab etmişlər. Belə bir fikir ədəbi dilin yaranma prosesini düzgün dərk və təsəvvür edə bilməməyin nəticəsidir.

Ədəbi dil ədəbi danışıq, mədəni danışıq formasında ümumxalq bazası əsasında yaranır və formalaşır. Hər bir ədəbi dilin əsasını müəyyən dialekt, dialekt qrupu və ya şivə təşkil edir. Belə hallarda, adətən, mərkəz dialekti, paytaxt şivəsi əsas götürülür. Rus ədəbi dili üçün Moskva şivəsinin olduğu göstərilir. Bizim ədəbi dilimizin əsasında Bakı–Şamaxı dialektinin durduğu qeyd edilir.

Ədəbi dil üçün əsas götürülən dialektdən get-gedə dar, məhdud xarakterli əlamətlər çıxarılır, başqa dialektlərin isə ümumaydın və yararlı olan cəhətləri seçilir və işlədilməsi bütün xalq üçün ümumməcburi hesab edilir. Bu proses nəticəsində ədəbi dil daha da zənginləşir və formalaşır.

Ədəbi dilin yaranması məsələsində ikinci bir mübahisə ədəbi dilin yazılı, yoxsa şifahi əsasda yaranması olmuşdur. "Ədəbi dilin yazılı əsası" anlayışını başlıca amil götürənlər ədəbi dilin yaranmasını yazı ilə bağlamışlar. Bu fikir uzun illər dilçilikdə öz qüvvəsində qalmışdır. Lakin sonralar ədəbi dilin şifahi yolla əmələ gəldiyi fikri meydana çıxmışdır. Bu konsepsiya həqiqətə daha uyğundur. Azərbaycan ədəbi dilinin tarixinə nəzər salaq. Xalqımız tarixin çox qədim dövrlərində yüzlərlə bədii nəzm və nəsr əsəri yaratmışdır. Həmin əsərlər bədiiliyi ilə yanaşı, həm də səlis dili, yüksək əxlaqi, estetik keyfiyyətləri ilə diqqəti cəlb edir:

Naşı bilməz sözünü,
Kor eləyər gözünü.
Ana bala ucundan
Oda yaxar özünü.

Bülbül uçar bağ üstə,
Şamamalar tağ üstə.
Nə qaydadır fələkdə
Dağı çəkər dağ üstə.

Qədim tarixə malik bu bayatılar ədəbi dilin hansı keyfiyyətindən geri qalır? Fikrimizcə, dildən-dilə keçib cilalanmış bu nümunələr ədəbi-bədii dilin ilkin və gözəl nümunələrindəndir. Buradaca qeyd edilməlidir ki, şifahi əsasda meydana gəlmiş ədəbi dilin inkişafında yazı hə-

mişə öz müsbət təsirini göstərmiş və ədəbi dilin forma və məzmunca inkişaf etməsinə başlıca səbəb olmuşdur.

Ədəbi dilin yazılı və şifahi formaları həmişə qarşılıqlı təsir münasibətində olur. Müxtəlif dillərdə bəzi əsərlərdə şifahi, bəzilərində isə yazılı dil daha qabarıq fərqləndirilmişdir. Hazırda Azərbaycan ədəbi dilində *"aparıcı rol"* yazılı ədəbi dildir.

3. ƏDƏBİ DİLİN XRONOLOJİ SƏRHƏDİ

Ədəbi dillərin xronoloji sərhədini müəyyənləşdirmək dilçilik elmində son dərəcə zəruri məsələlərdəndir. Hər hansı bir ədəbi dilin xronoloji sərhədi müəyyən edilərkən onun tarixi – keçib gəldiyi yollar izlənilir, faktlar, materiallar əsas kimi götürülür. Məlum olduğu üzrə, ərəbşünaslar ərəb dilini xronoloji tələblərə əsasən üç yerə bölürlər:

Qədim ərəb dili – bizim eranın VI əsrinə qədər;

Klassik ərəb dili – VI–XVIII əsrlərdə;

Müasir ərəb dili – XIX əsrdən indiyə kimi.

Ədəbi dilin xronoloji sərhədinin müəyyənləşdirilməsi problemində "müasir ədəbi dil" anlayışı daha çox mübahisələrə səbəb olmuşdur. Bəzi dilçilər "müasir" sözünü "indiki", "hazırkı" mənalarda nəzərdə tutub "müasir ədəbi dilin tarixini XIX əsrdən götürmüşlər. Rus dili tədqiqatçıları da bu dilin müasir ədəbi formasının XIX əsrdən başlandığı fikrini müdafiə etmişlər.

Müasir ədəbi dil dedikdə, dil vahidlərinin müasir baxımdan anlaşılması əsas meyar hesab edilir. Hazırkı Azərbaycan ədəbi dili XVIII əsr ədəbi dil materialları ilə tutuşdurulduqda, demək olar ki, heç bir çətinlik yaranmır. Buna görə də müasir Azərbaycan ədəbi dili dedikdə XVIII əsrdən bu günə qədərki ədəbi dili nəzərdə tutmalıyıq.

4. ŞİFAHİ ƏDƏBİ DİLİN TƏRKİBİ

Yuxarıda qeyd etdiyimiz kimi, ədəbi dil iki formada təzahür edir: a) şifahi ədəbi dil; b) yazılı ədəbi dil.

Yazılı ədəbi dil rəsmi ünsiyyət formasıdır. Buna görə də yazıda hər növ normaya, qayda-qanunlara ciddi əməl olunur.

Şifahi ədəbi dil həm rəsmi, həm də qeyri-rəsmi ünsiyyət formasıdır. İnkişaf etmiş hər bir şifahi ədəbi dilin müntəzəm zənginləşməsi və demokratikləşməsi ilə əlaqədar onun tərkibində iki komponent meydana çıxır:

a) kitab danışığı (kitab dili);

b) kütləvi ədəbi söhbət (kütləvi dil).

Kitab danışığı, kitab dili rəsmi danışıq formasıdır. Buna *kodlaşdırılmış danışıq* da deyilir. Buraya daxildir: mətbuat materialları, mühazirə, məruzə, tədris danışığı və s.

Kütləvi ədəbi söhbət, kütləvi dil qeyri-rəsmi danışıq formasıdır. Bunu sərbəst söhbət forması da adlandırmaq olar. Buraya adi və məişət danışığı və sair aiddir.

Dilçilik ədəbiyyatında şifahi ədəbi dilin bu *"kütləvi ədəbi söhbət"* komponenti *"danışıq nitqi"* (dili) adlandırılır[1]. Kütləvi ədəbi söhbət anlayışının *"danışıq dili"* termini ilə ifadə olunması dil haqqında elmdə ciddi dolaşıqlığa səbəb olmuşdur.

5. ƏDƏBİ DİLİN İNKİŞAF YOLLARI

Hər bir ədəbi dil öz milli bünövrəsi əsasında inkişaf edir. Milli bünövrəyə bağlanmaq və ondan qidalanmaq dilin varlığını əks etdirən başlıca şərtdir.

Ədəbi dil mənsub olduğu xalqın iqtisadi, siyasi, mədəni tərəqqisi ilə əlaqədar inkişaf edir. Həmin amillərin genişlənməsi, zənginləşib vüsət alması dildə öz əksini tapır.

[1] Русская разговорная речь. М., 1973.

Bu qanunauyğunluq baxımından Azərbaycan ədəbi dili aşağıdakı inkişaf yollarını keçmişdir:

1) Ədəbi dilin formalaşması və tədricən inkişafı dövrü (XVIII əsrin sonuna kimi);
2) Ədəbi dilin tam sərbəstləşməsi dövrü (XIX əsr və XX əsrin əvvəllərində);
3) Ədəbi dilin sürətli inkişaf dövrü (XX əsrin II–IV rüblərində).

Ədəbi dilin formalaşması və zaman-zaman inkişafında xalqın ictimai təbəqələrinin müxtəlif sahələrdə fəaliyyət göstərənlərinin, demək olar ki, hər birinin xüsusi rolu olur. Ədəbi dillərin tərəqqisində aşağıdakı fəaliyyət sahələrinin nümayəndələri bilavasitə iştirak edir: yazıçı və şairlər, alim və ziyalılar, ictimai və dövlət xadimləri, məktəb və müəllimlər, mətbuat və nəşriyyat işçiləri, radio və televiziya əməkdaşları. Bunlardan xüsusilə yazıçı və şairlər ədəbi dilin formalaşmasında, onun sonrakı dövrlərindəki inkişafı üçün ümumxalq dilində leksik və qrammatik forma və vahidlər seçməkdə, yaxud yeni-yeni söz və ifadələr, sintaktik tərkiblər yaratmaqda daha böyük rol oynamışlar. Azərbaycan ədəbi dilinin ayrı-ayrı dövrlərində klassiklərimizin böyük səyi və əməyi olmuşdur. Azərbaycan ədəbi dilinin inkişafı tarixində XIII əsrdə Həsənoğlu, XIV əsrdə Nəsimi, XVI əsrdə Xətai və Füzuli, XVII əsrdə Vaqif, XIX əsrdə M.F.Axundov, XX əsrdə M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, M.S.Ordubadi, C.Cabbarlı, S.Vurğun və başqalarının əvəzsiz rolu vardır. Eləcə də özbək dilinin inkişafında Əlişir Nəvainin, tatar ədəbi dilinin formalaşmasında Tukayın böyük rolu olmuşdur.

Nəhayət, hər bir ədəbi dilin inkişaf yollarının izlənilməsinin xüsusi elmi və praktik əhəmiyyəti vardır. Hər şeydən əvvəl, ədəbi dilin əsaslı tədqiqi, sistemli təsviri nitq mədəniyyətinin inkişafı üçün daha qiymətlidir.

3.02. DANIŞIQ DİLİ

Ümumxalq dilinin ikinci hissəsini danışıq dili təşkil edir. Dilçilik elmində *"danışıq dili"* anlayışının müxtəlif şəkildə şərh edildiyinə rast gəlmək olur. Ümumiyyətlə, *"danışıq dili"* anlayışının məzmununu müəyyənləşdirmək çətin problemlərdən birinə çevrilmişdir. Bu sahədə böyük terminoloji qarışıqlıq və mübahisələr meydana çıxmışdır.

Azərbaycan dilçiliyində *"danışıq"* sözü vasitəsilə bir çox termin yaradılıb istifadə edilir. *"Danışıq dili", "danışıq nitqi", "surət danışığı", "rəsmi danışıq", "ciddi danışıq", "məntiqi danışıq", "məzmunlu danışıq"* və s. Başqa bir sıra dillərdən fərqli olaraq, Azərbaycan dilində "söhbət" sözü ilə də bir çox termin meydana gəlmişdir. *"Adi söhbət", "rəsmi söhbət", "kütləvi ədəbi söhbət", "ailə-məişət söhbəti", "elmi söhbət"* və sair. Azərbaycan dilçiliyində "danışıq dili" anlayışının incəliyinin açılmasında "söhbət" sözünün termin tərkibində işlənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Danışıq dili statusunun müəyyənləşdirilməsində əsas məsələ "danışıq dili anlayışı"nın məzmununun aydınlaşdırılmasıdır. Dilçilikdə bu anlayışla bağlı *"danışıq dili"* termininin 5 mənada işləndiyinə təsadüf edilir.

1) ***Şifahi ədəbi dil mənasında.*** XX əsrin 50-ci illərindən başlayaraq "danışıq dili" dedikdə bütöv halda şifahi ədəbi dil mənasında təsəvvür edilmişdir. Tədqiqatçılar bunun tərkibinə bir o qədər də nəzər yetirməmişlər. Lakin tədqiqatlar artıb dərinləşdikcə obyektin əlamətləri daha da aydınlaşdırılmağa doğru istiqamət almışdır. Tədqiqatçılara məlum olmuşdur ki, şifahi ədəbi dilin tərkibi eyni xarakterli deyil və burada fərqli, səciyyəvi əlamətlər çoxdur.
2) ***Şifahi ədəbi dilin qeyri-rəsmi danışıq ünsiyyəti mənasında.*** XX əsrin II yarısından şifahi ədəbi dilin tədqiqat-

çıları onun tərkibini iki yerə bölmüşlər. Bunlardan biri kodlaşdırılmış rəsmi dil, digəri "danışıq dili" adlandırılmışdır. Rus dilçiliyində bu adda onlarca tədqiqat aparılmış, rus dili təhlil edilmişdir. Hazırda bir çoxları "danışıq dili" dedikdə, əsasən, bu mənanı qəbul edirlər.

3) ***Şifahi ədəbi dilin funksional üslubu mənasında***. Dilçilik elmində 1954-1955-ci illərdə üslubiyyata dair müzakirələrdən sonra funksional üslubiyyat məsələlərinə maraq daha da artmışdır. Həmin dövrlərdən şifahi ədəbi dilin qeyri-rəsmi danışıq sahəsi şifahi ədəbi dilin funksional üslubu kimi öyrənilməyə başlanılmışdır[1].

   Tədqiqatlarda bu üsluba dair başlıca əlamətlər müəyyənləşdirilmişdir. Danışıqda dialoqların çox işlənilməsi, danışan şəxsin ani surətdə ifadə qurması və sair bu üslub üçün səciyyəvi əlamət göstərilmişdir.

4) ***Dialoji nitq mənasında.*** XX əsrin 20-ci illərində şifahi ədəbi dilin qeyri-rəsmi hissəsi dialoji nitq kimi təsəvvür edilmişdir. Həmin zamandan dialoji nitq haqqında müxtəlif mülahizələr irəli sürülmüş, əsasən dialoqların xüsusiyyətləri aydınlaşdırılmışdır[2].

5) ***Ümumxalq dilinin bir hissəsi mənasında.*** "Danışıq dili" anlayışının məzmunu bu obyektə daha uyğundur. Başqa şəkildə xatırlatsaq, *"danışıq dili"*, həqiqətən geniş mənada ədəbi dildən kənarda olan bütün dil vasitələrinin cəmidir.

Dilçilik elmində danışıq dilinin ümumxalq dilinin bir hissəsi kimi öyrənilməsinə XIX əsrdən başlanılmışdır. Burada, əsasən, dialekt danışığı tədqiqatlara cəlb edilmişdir.

---

[1] А.Н.Васильева. «Разговорная речь как функциональный стиль». «Вопросы стилистики и преподавания русского языка иностранцам». Москва, 1972.

[2] Л.П.Якубинский. «О диалогической речи». «Русская речь», сборник. Т. I. Петербург, 1923.

Azərbaycan dilçiliyində XX əsrin birinci yarısında dialekt danışığı diqqəti cəlb etmişdir. Bu sahəyə dair aparılmış tədqiqatlarda həm məhəlli əlamətlər, həm də Ümumazərbaycan dil əlamətləri axtarılmışdır.

1. DANIŞIQ DİLİNİN XÜSUSİYYƏTLƏRİ

Danışıq dili bir sıra cəhətləri ilə ədəbi dildən seçilir. Belə başlıca fərqlər, əsasən, aşağıdakılardır:

a) Danışıq dilinin ictimai bazasını təşkil edən hər bir danışıq sistemindən ancaq müəyyən qrup insan istifadə edir. Bunlar geniş imkanlara malik deyildir. Ona görə də bu danışıq sistemləri insan fəaliyyətinin bütün sahələrində ünsiyyəti tam təmin edə bilmir.

b) Bu danışıq sistemlərinin vəzifələri zəif, anlaşma dairəsi isə məhduddur. Həmin səbəbdən danışıq dili sistemləri vasitəsilə elmi, mədəni, kütləvi əsər, hətta kargüzarlıq sənədləri yaratmaq olmur.

c) Danışıq dilinin yazılı forması yoxdur. Bundan şifahi kommunikasiya üçün istifadə edilir. Belə kommunikasiyalar, əsasən, adi mövzulara, ailə-məişət məsələlərinə aid olur.

ç) Danışıq dilinin lüğət tərkibi ciddi özünəməxsus səciyyəvi vahidlərə malikdir. Burada ümumxalqa məlum olmayan yüzlərcə leksik və frazeoloji vahid mövcuddur. Bu ünsürlər zaman-zaman ədəbi dilin zənginləşməsində iştirak edir.

d) Danışıq dili fərqli qrammatik cəhətlərə malikdir. Bu növ danışıqlar elliptik cümlələrlə daha çox səciyyələnir. Burada hər cümlədə sözlər ciddi şəkildə ixtisar edilir. Danışıq dilində bütöv cümlə, demək olar ki, işlənilmir. Bu prinsip dilin yığcamlığına səbəb olur.

e) Danışıq dili ünsürlərinə bədii ədəbiyyatda təsadüf edilir. Belə dil vahidlərindən müəyyən məqsədlə daha çox surət danışığında istifadə olunur.

2. DANIŞIQ DİLİNİN TƏRKİBİ

Ümumxalq dilinin bir hissəsi kimi danışıq dili dialekt danışığı, jarqon və loru danışığı əhatə edir. Bunlar istifadə olunma dairəsinə, təbiətinə, əlamət və keyfiyyətinə görə bir-birindən əsaslı şəkildə fərqlənir. Məsələn, loru danışıq vahidlərinə ümumxalq dilinin bütün areallarında təsadüf edilə bildiyi halda, dialekt ünsürlərinə ancaq onun mənsub olduğu dialektdə rast gəlmək olur və s.

a) DİALEKT DANIŞIĞI

Danışıq dilinin əsas hissəsini *dialekt danışığı* təşkil edir. Dialekt mənsub olduğu xalqın yaşadığı bütün ərazidə istifadə edilmir. Bunun işlənmə arealı məhəlli xarakterlidir. Elə buna uyğun olaraq məhəlli dialekt anlayışı da formalaşmışdır. Dialekt danışığından, əsasən, məişətdə, gündəlik ünsiyyətdə istifadə olunur. Bunun yazılı forması yoxdur.

Dialekt və dialekt danışığının ədəbi dilə münasibəti aşağıda xüsusi başlıq altında geniş şərh olunur.

b) JARQON DANIŞIĞI

Bu növ danışıq ayrı-ayrı sosial və professional insan qruplarına xidmət edir. Jarqon danışığına arqo danışığı da daxildir[1]. Bunların məqsəd və vəzifələrində əsaslı fərqlər yoxdur.

Jarqon danışığı öz lüğət tərkibinə görə dialekt və loru danışıqdan seçilir. Bunun leksik sistemindəki sözlər, əsasən, üç qrupa bölünür:

a) başqa dildən götürülmüş sözlər;

b) xüsusi quraşdırılmış sözlər;

c) mənası dəyişdirilmiş sözlər və s.

Jarqon danışığındakı sözlər qeyri-adi səciyyə daşıyır. Belə xüsusiyyət dinləyicidə ekspressiv və ifadəlilik hisləri-

[1] Nəzəri dilçilik ədəbiyyatında bu qrup danışıq eyni zamanda sosial dialekt də adlanır.

ni gücləndirir. Bunun da nəticəsində geniş yayılmaq imkanı yaranır.

Jarqon danışığının ünsürləri sənət-peşə aləmində, az miqdar şəxs tərəfindən meydana çıxmasına baxmayaraq, bütün gənclər arasında sürətlə yayılır, istifadə olunur.

Jarqon danışığı bütün xalqlarda eyni səviyyədə deyildir. Belə ki, bir çox xalqlarda bu, zəif, bəzi xalqlarda isə güclü inkişaf etmişdir. Məsələn, rus dilində XX əsrin əvvəllərinə qədər ovçuluq, ticarət sahələrinə aid jarqon danışığı daha geniş yayılmışdı.

c) LORU DANIŞIQ

Danışıq dili sisteminin müəyyən hissəsini loru danışıq təşkil edir. Dilçilikdə *"loru danışıq"* anlayışının məzmununun müxtəlif formada təsəvvür olunduğu müşahidə edilir. Bu anlayışın mahiyyətini aydın başa düşmək üçün "loru danışıq" termininin dilçilikdə hansı mənalarda işləndiyini bilmək lazımdır.

Birincisi – bəziləri *"loru danışıq"* dedikdə səciyyəvi şəhər danışığını nəzərdə tuturlar. Belə danışıq ədəbi dili bilməyən şəhər əhalisinin gündəlik ünsiyyəti hesab olunur. Səciyyəvi şəhər danışığı – *loru danışıq* müxtəlif dialektlərdə danışanların ümumi bir nitqdən istifadə etməyə keçilməsi əsasında formalaşdığını göstərir. Bu cür şəhər danışığı ilk dəfə qədim yunan şəhərlərindən birində – Koyne şəhərində müşahidə edilmişdir. Şəhərin adı ilə bağlı olaraq tədqiqatçılar loru şəhər danışığını koyne danışığı da adlandırmışlar ki, bu toponimik vahidin mənası yunanca "ümumi nitq" deməkdir.

İkincisi – *"loru danışıq"* bir qrup dilçi tərəfindən *ədəbi dilin funksional üslubu* kimi qəbul edilmiş və bunu sübuta yetirməyə çalışmışlar.

Üçüncüsü – ədəbi dilin tərkibinə daxil olmayıb, lakin bədii ədəbiyyatda, adi danışıqda işlənib emosionallığı, ifadəliliyi artıran və nitqə ironiya rəngi verən ünsürlər *loru danışıq* sistemi adlandırılmışdır.

Bu sonuncu müəyyənləşdirmə "loru danışığ"a daha uyğundur. Buna görə də *loru danışıq* dedikdə, həmin məzmunu nəzərdə tutmaq gərəkdir. Loru danışıq dialekt və jarqon danışığından bir sıra əlamətlərinə görə fərqlənir. Hər şeydən əvvəl, loru danışıq məhdud dairədə deyil, aid olduğu dilin yayıldığı bütün ərazidəki kənd və şəhər əhalisinin ünsiyyətində işlənir.

Bu danışıq forması özünəməxsus səciyyəvi sözlərlə seçilir. Məsələn, *bambılı, zırpı, daqqa, yolpa, zağar, köntöy, lələş* və s. Bu tipli sözlərin hər birinin bir neçə incə məna çaları mövcuddur. "Azərbaycan dilinin izahlı lüğəti"ndə *"bambılı"* sözünün aşağıdakı mənalarda işləndiyi göstərilir. Bambılı – *ləyaqətsiz, vecsiz, qeyri-ciddi, yüngül, boş, gülünc, avara, dəyərsiz adam*[1].

Loru danışıq ünsürləri sadə adamların nitqində daha çox istifadə olunur. Bu növ danışıq güclü milli koloritə, ifadəliliyə malikdir.

Danışıq dili sisteminin öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Hər şeydən əvvəl, bunun öyrənilməsinin məqsədi ədəbi dilin inkişafı üçün əsaslı baza yaratmaqdan ibarətdir. Danışıq dilinin tədqiqi və təhlilinin metodikası ədəbi dildəkindən fərqlənir. Yazılı ədəbi dildə mətnlər tədqiqat üçün məxəz və mənbə rolunu oynadığı halda, danışıq dilində heç bir yazılı mətn olmadığı üçün texniki vasitələrlə, xüsusilə maqnitofonla geniş iş aparılmalı olur. Danışıq dili problemlərinə dilçilərin diqqətinin artmasına baxmayaraq, yenə də həllini gözləyən məsələlər

[1] Bax: "Azərbaycan dilinin izahlı lüğəti". I cild, Bakı, 1966, səh. 192.

çoxdur. Azərbaycan danışıq dilinin daxili sistemlər üzrə izlənilməsinə, elmi tədqiqata cəlb olunmasına böyük ehtiyac vardır.

3.03. DANIŞIQ DİLİ İLƏ ƏDƏBİ DİLİN QARŞILIQLI MÜNASİBƏTİ

Ümumxalq dilinin bu iki hissəsi bir-biri ilə üzvi surətdə bağlıdır. Bunlardan biri digəri üçün əvəzedilməz olub, son dərəcə zərurət təşkil edir. Ədəbi və danışıq dilinin əlaqəsi daimi və dialektik, münasibətləri isə qarşılıqlı xarakterdədir.

a) Danışıq dilinin ədəbi dil üçün mənbə olması. Hər bir dil daxili və xarici amillər əsasında inkişaf edir. Dilin daxili imkanları daha məhsuldar və faydalı olur. Danışıq dili ədəbi dilin əsas qida mənbəyini təşkil edir. Yerli dialekt və loru danışıqdan müntəzəm olaraq ədəbi dilə ünsürlər keçir.

Danışıq dili böyük xəzinədir. Bəzən burada bir anlayış bir neçə vahidlə ifadə olunur, rəngarənglik müşahidə edilir. Məsələn, çörək (əppək), ata (lələ, dədə), xiyar (yerpənək), yemiş (qovun) və s. Bu misalların birinci sözləri ədəbi dildə işlənir, onun alternativləri isə dilin ehtiyat mənbəyi olaraq danışıq dilində yaşayır. Bunların seçilib ədəbi mühitə cəlb olunması dilin inkişafında xüsusi əhəmiyyətə malikdir.

b) Ədəbi dilin danışıq dilinə təsiri. Hər bir xalqın ictimai-siyasi, mədəni inkişafı ilə əlaqədar ədəbi dili də inkişaf edir. Ədəbi dilin funksiyaları zənginləşdikcə onun danışıq dilinə təsiri artır. Belə təsir nəticəsində danışıq dili sistemləri zəifləyir. Bu prosesdə xüsusilə dialektlərə daha çox təsir göstərilir. Şəhər və kəndlərdə geniş formada keçirilən mədəni-maarif tədbirləri dialekt ünsürlərinin azalmasına səbəb olur. Müasir dövrdə təkcə dialekt ün-

sürlərinin məhdudlaşdırılması deyil, bütün danışıq dili sistemində dəyişiklik gedir. İndi xalqın mədəni səviyyəsi çox-çox yüksəlmişdir. Elə bir ailə yoxdur ki, orada təhsilli şəxs olmasın. Bütün bunlar ədəbi dilin danışıq dilinə təsirini gücləndirən amillərdir.

Ədəbi dil ilə danışıq dilinin əlaqə və təsiri nəticəsində milli ədəbi dil, onun bütün sahələri zənginləşir və inkişaf yolu keçir.

3.04. ƏDƏBİ DİL VƏ NORMA

Norma anlayışı çox geniş olub, bütün elm sahələrində mövcuddur və bu, "norma" termini ilə ifadə edilir. Latın mənşəli norma sözünün müasir dildə iki başlıca mənası vardır:

Birincisi – "Qanuna salınmış; qayda, üsul (hamı tərəfindən qəbul edilmiş adi, məcburi qayda, nizam)"; *ikincisi – "Müəyyən edilmiş ölçü, miqdar, orta kəmiyyət"*[1].

Ümumi leksik vahid kimi "norma" termini dilçilikdə də özünə yer tapmışdır. Bu elmdə müəyyən növ qayda və hadisələrə *"dil norması"* deyilir.

Dil norması anlayışı dilçiliyin inkişafının bütün dövr və mərhələlərində diqqət mərkəzində olmuşdur. Bu anlayışla klassik yunan dilçiliyi məşğul olmuş, XVII–XVIII əsrlərdə isə normativ qrammatikalarda, izahlı lüğətlərdə bəhs edilmişdir. XIX əsrin bütün rüblərində norma problemi tez-tez müzakirə obyektinə çevrilmişdi. XX əsrdə nitq mədəniyyəti problemlərinin şərhi ilə əlaqədar norma məsələləri daha ətraflı öyrənilməyə başlanılmışdı.

Dil norması haqqında dilçilik tarixində müxtəlif baxışlar, mülahizələr olmuşdur. Bəzi dilçilər dil üçün dil

[1] Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı, 1983, səh.423.

normasını zəruri amil hesab etməmişlər. Onların fikrincə, dilə, onun inkişafına heç kəs qarışmamalıdır. Əgər belə olmasa, dil öz təbiiliyini itirər və məhv ola bilər. Lakin peşəkar dilçilərin əksəriyyəti bu fikirlərlə razılaşmamış, dilçilikdə "norma anlayışı"nı müdafiə edib, bu sahədə əsaslı linqvistik nəzəri və praktik işlər aparmışlar. A.İ.Boduen de Kurtene deyirdi: "Cəmiyyət dil üçün yox, dil cəmiyyət üçündür". Buna görə də cəmiyyət, xüsusilə alimlər və söz sənətkarları dilin inkişafına, onun normalaşmasına fəal surətdə istiqamət verməlidirlər.

Hazırkı dilçilikdə də norma məsələlərinə müxtəlif mövqelərdən yanaşıldığına təsadüf edilir. Dilçilər arasında dil normalarının təbiəti və xarakteri haqqında hələ, demək olar ki, vahid fikir formalaşmamışdır.

Müasir dil normalarını elmi şəkildə təsəvvür etmək üçün *"dil norması"* anlayışını ətraflı müəyyənləşdirmək lazımdır. Bu problem isə *ədəbi norma, norma meyarı, normanın dəyişməsi prosesi, birinin digərini əvəz etməsi, norma variantlarının meydana çıxması, norma ənənəsi* və sair bu kimi məsələlərin şərhi ilə bağlıdır.

1. "ƏDƏBİ DİL NORMASI" ANLAYIŞI

Dilçilik anlayışı kimi *ədəbi dil* norması dedikdə, cəmiyyət üzvləri tərəfindən qəbul edilmiş məcburi hər hansı bir qayda nəzərdə tutulur. Ədəbi dil norması milli və tarixi hadisədir. Buna görə də mövcud normalar hər xalqın mədəniyyəti ilə bağlı olur. Həm də bunlar tarixən uzun illər ərzində cilalanır və ədəbi dil üçün səciyyəviləşir.

Yeni yaranan normaların əksəriyyəti ümumxalq tərəfindən müqavimətsiz qarşılanır və qəbul edilir. Lakin bəzi ədəbi dil normaları ilk anda qulağa ağır gəlir. Bunlar get-gedə qulağı oxşayır, mənimsənilir, geniş istifadə edilir. Dilimizin leksik normalarına yad olan "çimərlik" sözünün seçilib

işlənmə tarixi də belə olmuşdur. Ədəbi dil normaları öz təbiətinə görə sistem xarakterlidir. Belə ki, dildə olan hər növ norma öz həmcinsi ilə sistem yaradır. Bu əlamət dilin ümumi təbiətindən irəli gəlir və normanın əsasını təşkil edir.

Hər hansı bir dilin ədəbi normaları, əsasən, dərslik və məlumat kitabçalarında, xüsusilə lüğətlərdə irəli sürülür. Ədəbi dil normalarının təşəkkül tapması və təkmilləşməsində həmçinin mədəniyyət xadimlərinin də rolu olduqca böyükdür.

Meydana çıxan hər bir normanın möhkəmləndirilməsində yazı xüsusi əhəmiyyət kəsb edir. Yazı vasitəsilə ədəbi dil normaları sabitləşdirilir, ənənəyə çevrilir.

Norma problemində əsas məsələ hər bir *normanın intensiv fəaliyyətdə* olmasıdır. Hər hansı konkret tarixi dil normasının dinamikası onun fəaliyyət mənzərəsinin nəticəsidir.

Fəaliyyətdə olan ədəbi dil normalarının geniş yayılmasının təbliğində orta və ali məktəblərin, radio və televiziyanın rolu əvəzsizdir. Buna görə də həmin müəssisə və birliklərin üzərinə ciddi dil məsuliyyəti düşür. Məktəblərdə hər bir dil vahidi ədəbi cəhətdən ölçülüb-biçilməli, radio və televiziya verilişlərində isə dil normalarına ciddi riayət olunmalıdır. Əks təqdirdə burada buraxılan hər hansı bir dil qüsuru milyonlarla dinləyici və tamaşaçının öz nitqində səhvlərə yol verməsinə səbəb ola bilər.

Son zamanlar dil vahidlərini seçib işlətmək sahəsində mətbuatda xoşagəlməz hallar – modalar meydana çıxmışdır. Belə ki, müxtəlif mətnlərdə ədəbi normadankənar söz qruplarından istifadə olunur. Xüsusilə arxaik sözlərə, mənası bir o qədər aydın olmayan ərəb, fars və Avropa mənşəli sözlərə geniş yer verilir.

Türkiyə Respublikası beynəlxalq ***konvensiyaya*** *daxil olmamışdır* (“Yeni fikir” qəzeti); *Qara Qarayevin* ***briqantinası***

("Ədəbiyyat və incəsənət" qəzeti); *İsmayıllının ispan* ***partnyoru*** ("Xalq qəzeti").

Dilçilərin təcrübəsi göstərir ki, bu cür hallara qarşı müqavimət göstərmək mədəni dil və nitq uğrunda mübarizənin aktual formasıdır. Cəmiyyətin mədəni nitq səviyyəsinin yüksəldilməsi üçün ədəbi dilin müasir normalarının düzgün təsvirinə böyük zərurət və ehtiyac vardır. Bu istiqamətdə iş aparılarkən norma anlayışı ictimai-sosial planda götürülür və hər bir normaya elmi mövqedən yanaşılır.

2. ƏDƏBİ DİLDƏ NORMA MEYARI

Tədricən təkmilləşən ədəbi dilin inkişafı prosesində təbii olaraq onun normaları yaranır və ənənə xarakteri alır.

Dilin inkişafında ən çətin məsələlərdən biri onun normalarını, digəri isə bu normaların meyarını müəyyənləşdirməkdir.

Müasir dilçilikdə dil normasını müəyyən edən rəsmi ölçü vahidi yoxdur. Həm də bu elmdə norma meyarı haqqında anlayışlar hələ əsaslı formada dəqiqləşdirilməmişdir. Tədqiqatçılar arasında müxtəlif fikir və mülahizələr mövcuddur. Meyarla bağlı irəli sürülmüş prinsiplər birbirindən ciddi şəkildə fərqlənir. Belə ki, bəziləri ədəbi norma üçün iki, digərləri isə üç və artıq meyar göstərmişlər. Bununla yanaşı, norma üçün dil hadisəsinin ancaq işlənmə dərəcəsini əsas götürənlər də vardır.

Ədəbi dil normaları müəyyənləşdirilərkən daha çox aşağıdakı meyarlar əsas götürülür.

1. ***Təbiilik.*** Hər bir normanın dil hadisəsinə uyğun olması, onun təbiiliyi birinci və başlıca meyar hesab olunur. Süni – qondarma norma dilin təbiətinə yad olduğu üçün dildə qala bilmir, tez silinib itir.
2. ***İşləklik.*** Hər hansı bir dil hadisəsinin normativ olması üçün onun dildə geniş istifadə edilməsi əsas şərtdir. Əgər bu əlamət olmasa, dil norması nitqdə özünə yer tapa bilməz,

onun varlığı qeyri-mümkün olar. Lakin qeyd olunmalıdır ki, hər cür geniş işlənən dil hadisəsi norma hüququ qazana bilmir. Belə hallar, əsasən, səhvən işlənən dil hadisəsində özünü göstərir. Məsələn, Azərbaycan ədəbi dilinin tələblərinə görə, cümlədə inkar əlaməti kimi ya *"nə"*, ya da *"-ma // -mə"* ünsürlərindən istifadə edilir. Lakin bu ünsürlərin hər ikisinin eyni cümlədə bərabər işləndiyinə geniş şəkildə rast gəlmək olur. Misal üçün, *"Nə mən din**mə**dim, nə də o"* cümləsinə nəzər salaq. Bu cümlədəki ***-mə*** inkar əlaməti yersiz işləndiyinə görə səhvdir. Belə hadisələr normalaşa bilmir və ədəbi dildə yolverilməzdir.

3. ***Sabitlik.*** Dil normaları az müddət üçün müəyyənləşdirilmir. Ona görə də sabitlik, stabillik, maksimum dəyişilməzlik ədəbi norma üçün səciyyəvi cəhətlərdən hesab olunur. Normanın tərəddüdü, tez-tez və ya ümumən dəyişikliyə uğraması onun zəifləməsinə və sıradan çıxmasına səbəb ola bilir.
4. ***Zərurilik.*** Dildəki hər bir ədəbi norma müəyyən tələbin, ehtiyacın nəticəsi olaraq özünü göstərir. Dil vacib olmayan, hər bir gərəksiz "normanı" öz sistemində yaşatmır. Buna əsasən də norma meyarında zərurilik, vaciblik, gərəklik xüsusi yer tutur.

Ədəbi dilin əsas əlaməti olan normadan istifadə ümumməcburidir. Ona görə də hamı norma tələblərinə eyni dərəcədə riayət etməlidir.

3. NORMA VARİANTLARI

Dilçilikdə diqqəti xüsusi cəlb edən məsələlərdən biri dil normaları variantı kateqoriyasıdır. Norma variantları və tərəddüdlərinin öyrənilməsi *ortologiya* problemləri sırasında xüsusi mövqeyə malikdir.

Norma variantı ifadə vasitələrinin eyni məqsəd üçün *dildə müvazi işlədilməsidir*. Bu linqvistik hadisə dilin hər

komponentində ola bilir. Məsələn: Lüğəvi variantlar: *fəal//aktiv, priyom//üsul, pedaqoq//müəllim* və s.

Qrammatik variantlar: *Onlar**ın** ikisi yeriyə bilmirdi* (“Bakı” qəzeti); *Onlar**dan** ikisi tələbə idi* (“Həyat” qəzeti) və s.

Norma variantları dünya dillərinin hər birində ola bilir və bu proses təbii və qanuni haldır. Müasir rus ədəbi dilində aşağıdakı kimi onlarca norma variantı fəaliyyətdədir:

в цęхе, yaxud *в цęху*,

в отпуске, yaxud *в отпуску*,

туристский, yaxud *туристический* və s.

Dildə norma variantlarından hansının düz olub-olmaması ayrı-ayrı şəxslərin zövqünə uyğun olaraq müəyyənləşdirilmir. Bu məsələlərdə dilçilik elminin nəzəri müddəalarına əsaslanıb düzgün fikir irəli sürülür.

Norma variantlarının yaranması dilin inkişafı ilə bağlıdır. Dilin müxtəlif dövrlərdə tərəqqi və zənginləşməsi prosesində köhnə norma ilə yanaşı, onun vəzifəsini icra edə bilən təzəsi də əmələ gəlib işlənilir. Məlum olduğu üzrə, ədəbi dillərdə yüzlərlə belə norma variantı meydana çıxmışdır. Tədqiqatçılar müəyyən etmişlər ki, çox halda hər iki variant ədəbi dildə müvazi işlənir, lakin ayrı-ayrı vəzifələr yerinə yetirir. Bu növ mürəkkəb xarakterli norma variantlarının səciyyələndirilməsinə nail olmaq son dərəcə çətinliklə yerinə yetirilə bilir.

Dilçilikdə bəzi alimlər norma variantlarının mövcud olmasmı canlı dil üçün mənfi hal hesab etmişlər. Onlar dili norma variantlarından təmizləmək tələbini irəli sürmüş və bunun icrasına çalışmışlar. Burada dilin inkişafına əhəmiyyət verilməmişdir. Dil yavaş-yavaş inkişaf etdikcə variantların da məzmun və vəzifəsində dəyişiklik yaranır, onlardan bəzisi qısa, bəzisi isə uzun müddətdən sonra sıradan çıxır. Buna görə də norma variantlarını müəyyən səbəblərdən süni şəkildə dildən çıxarmaq qeyri-mümkündür. Dildə norma variantlarının müəyyən vaxt “linqvistik mübarizəsi”

gedir. Bu mübarizənin qalibi olan hər bir norma dildə yaşamaq və fəaliyyət göstərmək hüququ qazanır. Dildə normaların vahidliyi, hər normanın müəyyən linqvistik yükə malik olması, onun vəzifəsinin dəqiqliyi, sabitliyi hər bir xalqın nitq mədəniyyətinin inkişafı üçün əsas amillərdəndir.

4. NORMANIN DƏYİŞİLMƏSİ

Dildə normalar sistem şəklindədir. Bu ümumi sistem və onu təşkil edən yarımsistemlər bir-biri ilə üzvi surətdə bağlı olub, zənginləşmə və inkişafetmə təbiətinə malikdir. Ədəbi dil norması daimi yaşayan, heç dəyişə bilməyən hadisə deyildir. Ədəbi dil normaları qanunauyğun dəyişikliyə uğrayır. Belə dəyişikliklər dilin daxili və xarici amilləri əsasında inkişafın təsirində meydana gəlir.

Norma dəyişikliyi müxtəlif dövrlərdə yazılmış elmi, bədii, publisistik, epistolyar və digər mətnlər əsasında müəyyənləşdirilir. Məsələn, 60 il bundan əvvəl yazılmış mətn dilimizin hazırkı səviyyəsi ilə tutuşdurulduqda oradakı mövcud fərqlər aydın surətdə aşkar olur.

Ədəbi dil sistemində istifadə edilən hər bir norma mədəni ənənədir. İnsan öz tarixi təcrübəsində ən yaxşı nə əldə edə bilibsə, onları gələcək nəslə ötürmüşdür. Ədəbi dil normaları da hər bir xalqın illərlə yaratdığı mədəni nailiyyətlərdəndir. Buna görə də dil normaları ədəbi ənənə hesab olunur. Hər hansı bir dilin norma cərgəsində müəyyən dəyişiklik baş verəndə onun mədəni ənənəsinə az da olsa xələl gəlmir. Məsələn, Azərbaycan ədəbi dili tarixində ta qədimdən tutmuş bu günə kimi normalar sırasında ciddi dəyişikliklər olmuşdur. Lakin bu dəyişikliklər onun mədəni ənənələrini heç bir cəhətdən pozmamışdır. Əksinə, ədəbi dilimizin normaları get-gedə təkmilləşmişdir.

Ədəbi dil normaları kortəbii halda inkişaf etmir. Ona mütəxəssislər tərəfindən şüurlu şəkildə nəzarət olunur. Bu

proses həmişə dilçilərin diqqət mərkəzində olduğu üçün onların məsuliyyətini daima artırır.

3.05. ƏDƏBİ DİL NORMALARI VƏ ONLARIN FORMALAŞMASI

Dilin normalarının yaranma və müəyyənləşdirilmə tarixi eyni deyildir. Bunlar ayrı-ayrı vaxtlarda ictimai-mədəni, iqtisadi-siyasi inkişafla bağlı formalaşmışdır. Tarixi inkişaf nəticəsində dilin hər bir komponentində müxtəlif növ normalar əmələ gəlmişdir. Bu normalar müasir ədəbi dillərin bütün sahələrində mövcuddur.

1. FONETİK NORMALAR

Ədəbi dil sistemində zahiri cəhətdən diqqəti cəlb edən ilk əlamət fonetik normalara əməl olunub-olunmamasıdır. Buraya fonetik hadisə və qanunlar, vurğuya dair ədəbi dil normaları daxildir.

a) Fonetik hadisələrə dair normalar. Bütün türk dillərində olduğu kimi, Azərbaycan dilində də sait və samitlərin möhkəm ahəngi mövcuddur. Buna əsasən sözlərdə səslər növünə və cinsinə görə bir-birini dəqiq izləyir. Məsələn, *alma, güzgü, işçi* sözlərinə qoşulan ünsür son saitin tələbinə uyğun işlənir – *almalar, güzgüdən, işçilər* və s. Bu növ fonetik qaydalar ədəbi dilimizdə normalaşmış və sabitləşmişdir.

Vaxtı ilə dilimizdə düzgün işlənən *yapraq, kiprik, topraq* ***kimi*** sözlərdə səslərin yerdəyişməsi əsasında onlar *yarpaq, torpaq, kirpik* formasına düşmüş və hazırkı ədəbi dil normalarına uyğunlaşdırılmışdır.

b) Vurğuya dair normalar. Azərbaycan ədəbi dilində orfoepik normalardan biri vurğunun sözün son hecasına düşməsidir. Lakin tələffüzdə vurğu ilə bağlı bu ədəbi

dil normasının pozulması halları da baş verir. Məsələn, *"başq**a**"* əvəzinə *b**a**şqa*, *"büt**ü**n"* əvəzinə *b**ü**tün*, *"çağ**ı**r"* əvəzinə *ç**a**ğır*, *"ox**u**"* əvəzinə ***o**xu* şəklində tələffüzə rast gəlirik.

Alınma sözlərdə vurğunun düzgün işlədilməsi də ədəbi dil normalarına daxildir. Dünyada elə dil yoxdur ki, onun lüğət tərkibində alınma sözlər olmasın. Buna görə də həmin alınmaların daxil olduğu dilin düzgün tələffüz normalarına uyğunlaşdırılması qanunauyğun haldır. Azərbaycandilli şifahi nitqdə alınma sözlərin vurğusu ilə bağlı aşağıdakı hallara təsadüf edilir. Məsələn, *"İng**i**ltərə"* əvəzinə *İngilt**ə**rə*, *"k**a**fedra"* əvəzinə *kaf**e**dra*, *"parlam**e**nt"* əvəzinə *parl**a**ment*, *"poliqr**a**fiya'"* əvəzinə *poliqraf**i**ya* və s.

Bütün bunlar onu göstərir ki, vurğu normalarına əməl olunması ən zəruri nitq mədəniyyəti əlamətidir. Buna görə də rus alimləri Y.K.Qroq, D.İ.Uşakov, V.V.Kolesov, V.L.Vorontsova, V.A.Redkin və başqalarının əsərlərində dildə vurğu və onun əsl mahiyyəti ətraflı şəkildə işlənmişdir.

Dünya dillərində vurğu özünü müxtəlif şəkildə büruzə verdiyi kimi, vurğu normaları da müxtəlifdir. Məsələn, alman və rus ədəbi dillərinin vurğu normalarına görə, vurğu sərbəstdir. Polyak dilində vurğu sözün sonundan ikinci hecanın üzərinə düşür. Danimarka alimi O.Yespersen, alman alimi E.Sivers, Y.Qrim, rus alimi L.V.Şerba vurğunun fonetik təbiətinə dair müxtəlif maraqlı fikirlər irəli sürərək ədəbi dildə vurğuya dair normalar formalaşmasına təkan vermişlər.

2. ORFOEPİK NORMALAR

Dilin orfoepik normaları birdən-birə deyil, tarixən formalaşmışdır. Dünyanın bir çox dillərində orfoepik normalar olduqca sabitləşmiş, vahid qanun halına düşmüşdür. Məsələn, alman filoloqları T.Zibs, E.Sivers, V.Fistor və b. 1898-ci ildə teatr xadimləri ilə birlikdə alman dilinin vahid orfoepik qaydalarını işləyib hazırlamışlar. Azərbaycan

dilçiliyində də orfoepik normalara dair bir sıra tədqiqatlar aparılmışdır. Dilimizin qaydaları içərisində sait və samitlərin tələffüzü, qrafik şəraitdə tələffüz, morfoloji şəraitdə tələffüz, sintaktik şəraitdə tələffüz, alınma sözlərin orfoepiyası və s. məsələlər geniş şərh olunmuşdur[1].

a) Fonemlərin tələffüzünə dair normalar. Dildə fonemlərin tələffüzünə dair normalara saitlərin uzun və qısa tələffüzü, samitlərin karlaşması və cingiltiləşməsi, samit səslərin əvəzlənməklə tələffüzü, tələffüz zamanı səsin düşməsi və s. daxildir. Məsələn, *a:lim, əda:lət, mu:siqi, e:lan, mö:cüzə, mə:lumat* (səs uzanması), *bulu(t), kita(p), aktı(f), kollekti(f), nö(k)san, a(f)tomobil, qona(x), müx(d)əsər, məf(d)il, tax(d)a, hət(d)a, to(k)qa, mütək(g)ə* (samitlərin karlaşması və ya cingiltiləşməsi), *sü(m)bül, zə(m)bil, tə(m)bəl, vi(j)dan, sə(t)də, ə(j) dad, qa(ş)dı, he(ş) zaman, kö(ş)dü* və s. (samitlərin əvəzlənməsi), *doşan, nöbə, töbə* və s. (səslərin tələffüzdə düşməsi).

Göstərilən misallar müasir Azərbaycan ədəbi dilində tələffüz normalarının tərkib hissəsinə daxildir.

b) Alınma sözlərin tələffüzünə dair normalar. Dildə alınma sözlər mənimsənilmə prosesində tədricən daxil olduğu dilin ədəbi tələffüz normalarına tabe olur. Lakin bu "tabeolma" prosesi olduqca çətin və mürəkkəb bir vəziyyətdə keçir. Çünki bəzən alınma sözlərin fonetik tərkibində yad səslər və səs birləşmələri olur ki, bunlar daxil olduğu dilin səs sisteminə uyğun gəlmir. Buna görə də bəzən bu cür alınmaların müxtəlif tələffüz variantlarına təsadüf edilir. Məsələn: *maqazin //mağaza, dram // drama, problem //problema, tunel // tonel.*

Alınma sözlərin ədəbi tələffüzdə özünü göstərən variantlılığı ədəbi dil üçün müsbət hal deyildir. Buna görə də belə çoxvariantlılıq tədricən tək forma ilə əvəz olunmalıdır.

[1] Bax: Ə.M.Dəmirçizadə. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, 1969; M.Ş.Şirəliyev. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, 1970 və s.

3. LEKSİK NORMALAR

Dilin leksik tərkibi cəmiyyətin maddi və mənəvi həyatı, onun dəyişilməsi, inkişafı ilə daha çox bağlıdır. Buna görə də leksika sahəsində müxtəlif növ norma meydana çıxmışdır ki, bunların da dilçilik mövqeyindən müəyyənləşdirilməsi son dərəcə mürəkkəb və qəlizdir.

Leksik sistemin normalaşdırılması böyük çətinliklərlə həyata keçirilir. Burada, demək olar ki, hər söz haqqında, onun taleyi, nitqdə işlənilməsi barədə konkret düşünmək lazım gəlir. Dilin leksikası ideologiya ilə sıx əlaqədardır. Xalqın dünyagörüşü, onun maddi və mədəni sahəsinin inkişaf səviyyəsi burada öz əksini tapır və s.

Leksik norma probleminə dair çoxlu məsələ vardır. Bunlardan bir neçəsinə nəzər yetirək.

1) Sözün seçilib yerində işlədilməsinə dair normalar. Sözlərin fikrə uyğun seçilib nitqdə işlədilməsi normaları *sözdən düzgün istifadə norması* adlanır.

Dildəki hər növ sözlər yerli-yerində istifadə edilib ədəbi dil normalarına uyğunlaşdırılmalıdır. Azərbaycan danışıq dilində tez-tez *"nöqteyi-nəzər"*, *"tərəfi-müqabil"* və s. kimi söz və birləşmələrin işlədilməsi ədəbi dil norması baxımından qüsurlu hesab olunur.

2) Yeni sözlərin işlədilməsinə dair normalar. Dildə yeni sözlərin yaranması canlı dillərin təbiətinə və tələblərinə müvafiq olur. Bu obyektiv proses zamanı dildə onlarca yeni-yeni sözlər – neologizmlər meydana çıxır.

a) Neologizmlərdən istifadə. Dildə yeni söz işlətmək çətin prosesdir. Bunun üçün həmin sözün fonetik tərkibi, qrammatik quruluşu, semantik tutumu dəqiqləşdirilməli və sonradan ədəbi dilə daxil edilməlidir. Əks təqdirdə hər hansı bir neologizmi yerli-yerində ədəbi dil normalarına uyğun işlətmək hər zaman uğurlu olmur. Neologizmlərdən ifrat dərəcədə istifadə etmək dildə *purizmə yaxınlaş-*

maqdır. Ədəbi dilin inkişafı prosesində purizmə qarşı daima mübarizə aparılmışdır.

XX əsrin 20-ci illərində Azərbaycan ədəbi dilinə süni şəkildə bir çox yeni sözlər daxil etdirmək meyli olmuşdur. Məsələn: *toplantay* (dövlət), *yaşaq* (əhali), *yaygan* (mədən), *topal* (cəm), *titrənc* (zəlzələ), *yerbilik* (coğrafiya), *uzaqgör* (teleskop), *uçan* (təyyarə), *görük* (pəncərə), *törədiş* (sənaye) və s. Ədəbi dilimizin sonrakı inkişafı həmin neologizmləri özünə yaxın buraxmamışdır.

b) Terminlərdən istifadə. Ədəbi dil normalarının tərkib hissəsi kimi terminlərdən düzgün istifadə etmək həmişə dil quruculuğunda diqqət mərkəzində durmuşdur. Terminlərdən həddindən çox yerli-yersiz istifadə dildə anlaşılmazlıq yaradır. Bundan əlavə, terminlərin ana dilinin öz hesabına yaradılması ədəbi dil normalarına daha çox uyğun gəlir. Alınma terminlərə aludəlik ədəbi dilin inkişaf prosesinə mənfi təsir göstərir. XX əsrin 20-ci illəri ilə 30-cu illəri arasında Azərbaycan dilçiliyi terminlərinin yaranması və işlədilməsində müəyyən dönüş olmuşdur. Bunu aşağıdakı misallarda görmək olar:

20-ci illərin dilçilik terminləri	**30-cu illərin dilçilik terminləri**
lisan	dil
lisaniyyat	dilçilik
mazi	keçmiş zaman
hal	indiki zaman
istiqbal	gələcək zaman
məfrəd	tək
izafət	yiyəlik birləşməsi
mücərrəd hal	adlıq hal
yapma sifət	düzəltmə sifət

Göründüyü kimi, 30-cu illərdə milli dil hesabına dilçilik terminləri yaratma meyli güclü olmuşdur.

Termin paralelliyi də ədəbi dil normalarının pozulmasına səbəb olur. Məsələn, *abstrakt-mücərrəd, obraz-surət, sait-səsli, peyzaj-mənzərə, funksiya-vəzifə, aptek-əczaxana, məfhum-anlayış, konfrans-müşavirə* və s. Ədəbi dil normalarının təsiri nəticəsində termin paralelliyi tədricən sıxışdırılıb aradan çıxarılmalıdır.

c) Başqa dilin sözlərindən istifadə. Dilə gələn hər bir alınma söz "ədəbi vətəndaşlıq" hüququ qazana bilmir. Belə sözlərin həddindən çox qəbul olunması dili ağırlaşdırır.

Azərbaycan ədəbi dilinin inkişaf mərhələlərində alınmalardan istifadə müxtəlif vəziyyətdə özünü göstərmişdir. Məsələn, 20-30-cu illərdə ərəb, fars, rus və Avropa sözlərinin ədəbi dilə gətirilməsi güclü olmuşdur. Bu meyil həmin dövrün ədəbi dil normalarına uyğun gəlirdisə, bu gün alınma sözlərdən yerli-yersiz istifadə etmək ədəbi dil norması baxımından qüsurlu hesab olunur.

Dildə yeni alınmaları qəbul etmək üçün ən məhsuldar qaydalardan istifadə etmək lazımdır. Hər bir alınma söz öz "həyatını" daxil olduğu dilin danışıq formasından başlayır.

4. ONOMASTİK NORMALAR

Dildə böyük ictimai əhəmiyyət kəsb edən xüsusi adların düzgün işlənməsi onomastik normalar daxilində baş verir. Qədim yer adlarının – qəbilə, tayfa, şəxs adlarının düzgün yazılış və tələffüz formalarının sabitləşməsi onomastik normaların başlıca əlamətləri hesab olunur.

a) Toponimlərə dair normalar. Ədəbi dil normaları çərçivəsində toponimlərin – xüsusi yer adlarının işlənməsi öz mahiyyətinə görə böyük ictimai xarakter kəsb edir. Çünki hər hansı yer adının düzgün yazılmaması və yaxud düz-

gün tələffüz olunmaması müəyyən anlaşılmazlığa səbəb olur. Bundan başqa, toponimlərin ümumi sözlər əsasında yaranması da diqqət mərkəzində olmalıdır. Məsələn, Azərbaycanda *Yenikənd, Təzəkənd* və s. toponimlərin tərkibində işlənən *"kənd"* sözündən sonra yenə də *"kənd"* sözü işlətmək (Yenikənd kəndi, Təzəkənd kəndi) ədəbi dil norması baxımından düzgün hesab oluna bilməz.

b) Antroponimlərə dair normalar. Dilin onomastik sistemində öz deyilişi, yazılışı, qrammatik quruluşu və mənası ilə ən çox diqqəti cəlb edən antroponimlərdir. Dünya xalqlarının həyatında çox müxtəlif antroponim ənənə mövcuddur. Bunlar hamısı müəyyən ədəbi dil normasına tabedir.

Müasir Azərbaycan antroponimik sistemində bir sıra normalar özünü göstərir: 1) şəxs adları yazılışca və tələffüzcə sadə olmalıdır. Məsələn, *Aydın, Günel, Fərəh, Ramin* və s.; 2) ailəvi şəxs adları (qardaş adları, bacı adları, qardaş-bacı adları) həmahəng olmalıdır. Məsələn, *Rəhman-Fidan* (qardaş-bacı adları), *Aygül, Aygün* (bacı adları), *Kamil, Şamil, Amil* (qardaş adları) və s.; 3) şəxs adı, ata adı, familiya müasir antroponimik modelə uyğun gəlməlidir. Məsələn, *Qədirli Adil Qəşəm oğlu, Novruzlu Pəri Orxan qızı* və s.; 4) şəxs adları azhecalı, təksözlü olmalı, *Məmmədhüseyn, Əlislam, Hüseynqulu* və s. kimi adlar sadələşməlidir. Məsələn, *Məmməd, Hüseyn, Əli, İslam, Qulu* və s.; 5) şəxs adları, əsasən, Azərbaycan dilinin öz sözləri əsasında düzəlməlidir. Məsələn, *Arzu, Atəş, Çiçək, Araz, Tamam, Könül* və s.

5. SEMANTİK NORMALAR

Ədəbi dil zəngin və rəngarəng semantik sistemə malikdir. Lakin bu sistem qarmaqarışıq deyil, müəyyən ədəbi dil normasına əsaslanır. Burada sözlərin məna dəqiqliyi, çoxmənalılıq, məna dəyişmələri, məna qruplarına və sairə dair normalar nəzərdə tutulur.

a) Məna dəqiqliyinə dair normalar. Bu normalara görə, dildə mövcud olan hər bir söz müəyyən məfhumu dəqiq şəkildə ifadə etməlidir. Əks təqdirdə ədəbi dildə müəyyən məna pozuntuları baş verər və nitq ünsiyyətində anlaşılmazlıq əmələ gələr.

b) Çoxmənalılığa dair normalar. Dildə bir sıra sözlər öz əsas mənalarından əlavə bir sıra mənalarda da işlənə bilir. Ədəbi dildə sözlərin çoxmənalılığı müsbət hal sayılır və norma hesab edilir. Məsələn: *"baş"* sözü – *adamın başı, ağacın başı, çayın başı, ürəyinin başı* və s.

Ədəbi dil normalarına görə, sözlərin çoxmənalılığı dilin kəmiyyət zənginliyinə dəlalət edir.

c) Sözün yeni mənada işlənməsinə dair normalar. Dildə mövcud olan sözlər həm formaca, həm də mənaca tarixi dəyişikliklərə uğrayır. Lakin bu dəyişiklik daha çox məna ilə bağlı olur. Ədəbi dil normalarına görə, sözlər yeni məna kəsb edərkən mənanın genişlənməsi və ya daralması hadisəsi baş verir. Bu dil hadisəsi ədəbi dil üçün məqbul sayılır.

6. FRAZEOLOJİ NORMALAR

Ədəbi dildə frazeoloji norma problemi həm mürəkkəb, həm də aktualdır. Sözlərin məcazlaşması nəticəsində bir-birinə qoşularaq müəyyən fikri, anlayışı ifadə etməsi norma çərçivəsində baş verir. Bu çərçivədən kənara çıxdıqda frazeoloji birləşmə nitqi düzgün səciyyələndirmir. Məsələn, Azərbaycan dilində *qulaq asmaq, fikrə getmək, əl götürmək, başa düşmək, əldən düşmək, dil açmaq, həyata göz yummaq* və s. frazeoloji birləşmələri eynilə həmin söz tərkibləri ilə əcnəbi dilə tərcümə edildikdə frazeoloji ifadə alınmır. Demək, ədəbi dil normasına görə, hər dilin özünəməxsus frazeoloji dil vahidləri mövcuddur.

7. SÖZYARATMA NORMALARI

Hər bir dilin özünün sözyaratma üsulları vardır ki, bunlar da norma çərçivəsində baş verir. Ədəbi dil normalarına görə, sözyaratma leksik, semantik, morfoloji və sintaktik yolla əmələ gəlir. Sözyaratma normaları müxtəlif fəaliyyət sahələrini əhatə edir.

a) Elmi sahədə sözyaratma. İnsan təbiət və cəmiyyət hadisələrini öyrəndikcə yeni-yeni kəşflərlə əlaqədar olaraq dildəki sözyaratma üsullarından istifadə edərək müəyyən söz və terminlər yaradır. Burada iki meyil (mütərəqqi və mürtəce) özünü göstərir. Əgər sözyaratma dilin öz sözü əsasında, fonetik və qrammatik sistemə uyğun baş verirsə və hər hansı məfhumu düzgün və dəqiq ifadə edirsə, bu, mütərəqqi sözyaratma prosesi hesab olunur.

Əgər dildə müəyyən anlayışı ifadə edən söz və ya termin ola-ola yenisi yaradılırsa, bu, mürtəce sözyaratma prosesi kimi qiymətləndirilir. Bu cür sözyaratma dilçilikdə *purizm* adlanır. Məsələn, XX əsrin 30–40-cı illərində *revolyusiya, kultıra, absolyutizm, zveno, provokasiya* və s. sözlərin Azərbaycan ədəbi dilinin elmi üslubunda işlənməsi buna əyani misaldır.

b) Yazıçının sözyaratması. Dildə sözyaratmanın böyük bir hissəsini yazıçı fəaliyyəti təşkil edir. Bu sözyaratma prosesi də müəyyən normaya tabe olur. Normadankənar hər hansı yazıçının yaratdığı yeni söz ədəbi dil üçün məqbul hesab olunmur. Məsələn: *Mübarizə bu gün də var, yarın da* (R.Rza). Bu cümlədə *"sabah"*, *"gələcək"* mənasında işlənən "yarın" sözü ədəbi dilə daxil ola bilməmişdir.

Klassik və müasir ədəbiyyatımızın görkəmli nümayəndələri M.Füzuli, M.P.Vaqif, M.F.Axundov, S.Vurğun, R.Rza və başqaları ədəbi dilimizin yeni sözlər hesabına zənginləşdirilməsində xüsusi rol oynamışlar. Ümumiyyətlə, "yazıçı və sözyaratma problemi" həmişə diqqət mərkəzində olmalıdır.

8. MORFOLOJİ NORMALAR

Dildə mövcud qanunauyğunluqlar əsasında sözlər müəyyən tərkib hissələrdən ibarət olur. Bu hissələr morfoloji kateqoriyalara əsaslanır və morfoloji normaların məcmusu hesab olunur. Morfoloji normalara sözlərin müəyyən hal, kəmiyyət, mənsubiyyət, şəxs, zaman və s. şəkilçilər qəbul etməsi, şəkilçilərin ahəng qanununa uyğun olaraq söz köklərinə artırılması və s. daxildir. Məsələn, müasir Azərbaycan dilində *görməzlik, ölməzlik* sözlərinin *görməməzlik, ölməməzlik* formasında yazılması və deyilişi morfoloji normaya uyğun gəlmir. Çünki *görməzlik, ölməzlik* sözləri inkarlıq formasında olduğu halda ona yenidən ***-ma, -mə*** inkarlıq şəkilçisi artırmaq normaya uyğun deyildir.

9. SİNTAKTİK NORMALAR

Ədəbi dil norması çərçivəsində söz birləşmələri, sözlər arasında əlaqələr, müxtəlif cümlə növləri, söz sırası, intonasiya mövcuddur ki, bunlar bütövlükdə sintaktik normaları əhatə edir. Məsələn, müasir Azərbaycan ədəbi dilində xəbərin mübtəda ilə şəxsə və ya kəmiyyətə görə uzlaşması sintaktik norma hesab olunur. Əgər hər hansı bir cümlədə mübtəda ilə xəbər arasında uzlaşma pozulmuşdursa, bu, ədəbi dil üçün qeyri-məqbul sayılır. Buna görə də ədəbi dilin bütün üslubları sintaktik normalar əsasında formalaşır və inkişaf edir.

10. ÜSLUBİ NORMALAR

Dildə üslubi normaların əsasını obrazlılıq, zənginlik, təsirlilik, ifadəlilik, sadəlik, aydınlıq, ahəngdarlıq və s. nitq əlamətləri təşkil edir. Üslubi normalara əməl olunması nitqin səlisləşməsinə, onun məntiqli və düzgün olmasına, təsirliliyi ilə seçilməsinə xidmət edir.

Üslubi normalar leksik və qrammatik normalarla bilavasitə bağlıdır. Buna görə də nitqdə dil sistemlərini ni-

zamlayan normalara riayət edilməsi eyni zamanda üslubi normaların pozulmasına səbəb olur.

Nəticə olaraq qeyd etmək lazımdır ki, dil normaları nitq fəaliyyətində obyektiv mövcud olan dil qaydalarının məcmusudur.

Dil normalarına düzgün riayət olunması mədəni-zəruri amildir. Bununla bərabər norma tələbləri danışan və dinləyənlər, yazanlar və oxuyanlar arasında ən münasib dil ünsiyyətinə şərait yaradır.

3.06. ƏDƏBİ DİL NORMASI VƏ İZAHLI LÜĞƏTLƏR

Dilin normalaşdırılmasında elmi-nəzəri və elmi-metodik tədqiqat əsərləri ilə bərabər lüğətlərin, xüsusilə *izahlı lüğətlərin* rolu inkaredilməzdir. Burada təkcə sözün mənası müəyyənləşdirilmir, eyni zamanda qrammatik forma və üslubi cəhət aydınlaşdırılmaqla hər bir sözün normativ xarakteristikası verilir. Buna görə də dilçilikdə belə bir ideya özünə yer tapmalıdır ki, lüğət ədəbi dilin normasının öyrənilməsində, möhkəmləndirilməsində və təbliğində əvəzsiz vasitədir.

İnkişaf etmiş bir sıra dünya dillərindən, o cümlədən ərəb, fars, türk, ingilis, alman, fransız, rus və başqa dillərə dair kiçik və böyük həcmli onlarca izahlı lüğət meydana çıxmışdır. Həmin dillərin ədəbi normalarının sabitləşməsində mövcud lüğətlər xüsusi rol oynamışdır.

XVII əsrdə Fransa Akademiyası fransız dilinin normativ lüğətini hazırlamışdır. Bu lüğətin məqsədi dilin normalarını rəsmiləşdirmək və sabitləşdirməkdən ibarət idi. XVIII əsrdə alman filoloqu İ.X.Adelunq (1732-1806) yuxarı alman dilinin birinci normativ izahlı lüğətini yaratmışdır.

Lakin bununla belə, deməliyik ki, hələlik dünyanın heç bir dilinin sözləri bütövlükdə lüğətlərə köçürülməmişdir. Məsələn, bir neçə izahlı lüğəti yaradılmış rus dilinə fikir verək. Bu dilə dair Uşakovun lüğətində 85 min 289 söz[1], on yeddi cildlik rus ədəbi dili lüğətində 120 min 480 söz[2], akademik V.Dalın lüğətində isə 200 minə yaxın söz[3] əhatə olunur.

Bu rəqəmlərin heç biri rus dili sözlərinin miqdarına bərabər deyildir. Həmin dilin sözləri göstərilən sonuncu saydan da qat-qat artıqdır.

Azərbaycan lüğətçiliyi tarixində ədəbi dilimizin normalaşdırılmasına 1966-87-ci illərdə nəşr olunmuş dördcildlik "Azərbaycan dilinin izahlı lüğəti" əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Həmin lüğətin tərkibində ədəbi dilimizin daha da inkişaf etməsinə, lüğət tərkibinin düzgün və aydm anlaşılmasına, sözlərin nitqdə dəqiq işlədilməsinə yardım etmək əsas məqsəd olduğu üçün bir sıra müvafiq prinsiplərə diqqət yetirilmişdir. Belə ki, burada ədəbi dildə işlənən hər bir sözün bütün mənaları, onun tətbiq sahəsi müasir və klassik ədəbiyyatımızdan, mətbuatdan və sair yazılı mənbələrdən götürülmüş nümunələrin köməyi ilə geniş oxucu kütləsinin başa düşəcəyi bir dildə aydınlaşdırılmışdır. Lüğət qarşısına sözlərin yerində işlənməsi, onların qrammatik cəhətdən düzgün əks olunması və s. kimi normativ vəzifələr də qoymuşdur. Burada, demək olar ki, sözlərin dildə mövcud olan bütün mənaları dil faktları əsasında izah edilir. Məsələn, *"ağartmaq"* sözünün 5 mənası göstərilir: 1) "Ağ rəngə boyamaq" (divarları ağartmaq); 2) Soldurmaq, rəngini qaçırtmaq (günün altın-

[1] Толковый словарь русского языка. Под ред. Д.Н.Ушакова. Т. I-IV, М., 1935-1940.
[2] Словарь современного русского литературного языка. Академия Наук СССР. Институт языкознания. Т. I-XVII, М.-Л., 1948-1964.
[3] В.И.Даль. Толковый словарь живого великорусского языка. Т. I-IV, М., 1979-1980.

da paltarını ağartmaq); 3) Aşkar etmək, üstünü açmaq (işi ağartmaq lazım deyil (məcazi mənada); 4) Təmizləmək, üzünü sürtüb parıldatmaq, qalaylatmaq (qazanı ağartmaq); 5) üzünü köçürtmək (məktubun üzünü ağartmaq).

"Azərbaycan dilinin izahlı lüğətində müasir Azərbaycan ədəbi dilinin normativ xarakteristikasını vermək baxımından bir sıra çatışmazlıqlar nəzərə çarpır. Əvvəla, müasir ədəbi dilimizdə işlənən onlarca söz təbii olaraq burada öz əksini tapmamışdır. Çünki cəmiyyətimizin inkişafı ilə bağlı olaraq ədəbi dilimizin lüğət tərkibinə yeni-yeni sözlər daxil olunmuşdur. Lakin leksikoqrafiya bunları əhatə edə bilmədiyi üçün cəmiyyətin inkişaf sürətindən geri qalmışdır. İkincisi, lüğətdə misallar, əsasən, bədii ədəbiyyatdan, yəni kodlaşdırılmış ədəbi dildən verilmişdir. Hazırda şifahi danışıq dili ədəbi dil normaları ilə daha çox zənginləşmişdir. Buna görə də gələcəkdə hazırlanacaq izahlı lüğətin misallarını seçərkən şifahi danışıq üslubu da nəzərə alınmalıdır. Bunsuz izahlı lüğət müasir ədəbi dil normalarını tam əhatə edə bilməz.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə 43.290 söz, 7100 ifadə əhatə olunmuşdur. Bu rəqəm dilimizdə istifadə etdiyimiz bütün sözlərin və ifadələrin miqdarına uyğun deyildir, ondan çox-çox azdır.

Müasir dilimiz geniş lüğət tərkibinə malikdir. Buradakı dil vahidləri xalqın çoxəsrlik söz xəzinəsidir. Bu söz xəzinəsi son dərəcə zəngin, rəngarəng və çoxsahəlidir.

Bəs Azərbaycan dilində nə qədər söz vardır? Bu çətin və mürəkkəb sual bütövlükdə Azərbaycan dilçiliyini düşündürür. Belə bir sualın dəqiq cavabının verilməsi *əsl linqvistik kəşf* ola bilər. Hər hansı bir dildəki sözlərin miqdarını ancaq ümumxalq dilinin tam izahlı lüğətinin hazırlanması vasitəsilə müəyyənləşdirmək olar. Buna görə də ümumxalq dili lüğəti ilə ədəbi dilin lüğəti anlayışlarını qarışdırmamaq la-

zımdır. Bunlardan ikincisi ancaq ədəbi dil vahidlərini özündə cəmləşdirir və ədəbi normalara xidmət edir.

Ümumxalq dilinin lüğəti isə xalqın istifadə etdiyi hər bir lüğəvi vahidin izahını verir. Bu növ lüğətlərdə heç bir ünsür unudulmamalı, təsvir və təhlildən kənarda qalmamalıdır. Belə lüğətə böyük ehtiyac vardır.

Hazırda dünya xalqlarının inkişaf səviyyəsi normativ xarakterli tam izahlı lüğətlərin hazırlanmasını tələb edir. Bu cür lüğətlər ədəbi dillərin dil faktlarını dəqiqləşdirməklə yanaşı, həm də xalqların nitq mədəniyyətinin inkişafında xüsusi rol oynaya bilər.

3.07. ƏDƏBİ DİL VƏ DİALEKT

Ümumxalq dilinin danışıq qolunun böyük bir hissəsini dialektlər təşkil edir. Buna görə də danışıq dili obyektlərinin bu növü ayrıca olaraq diqqəti daha çox cəlb edir.

"Dialekt" anlayışının ifadəsi üçün dilçilikdə işlənən *"dialekt"* termini yunan mənşəli dialektos" (*"ləhcə"* mənasında) sözündəndir. *"Dialekt"* dedikdə, müəyyən ərazi, sosial, peşə birliyində yaşayan əhalinin məhdud danışıq variantı; bir-birinə yaxın olan bir neçə şivənin məcmusu, ləhcə nəzərdə tutulur. Bu termin vasitəsilə dilçilikdə *"qəbilə dialekti"*, *"etnik dialekt"*, *"ədəbi dialekt"*, *"peşə dialekti"*, *"sinfi dialekt"*, *"sosial dialekt"*, *"ərazi dialekti"*, *"yerli dialekt"*, *"dialekt sözü"*, *"dialektizm"*, *"leksik-fonetik dialektizm"*, *"etnoqrafik dialektizm"*, *"morfoloji dialektizm"*, *"semantik dialektizm"*, *"qrammatik dialektizm"*, *"frazeoloji dialektizm"*, *"dialektoqrafiya"*, *"dialektoloji atlas"*, *"dialektoloji xəritə"*, *"dialektologiya"* və s. terminlər işlənir.

Müasir dünya dillərində minlərlə dialekt müəyyən edilmişdir. Fransa Elmlər Akademiyası əməkdaşlarının

axtarışları nəticəsində məlum olmuşdur ki, dünyada 8000 dialektdən istifadə edilir.

Dildəki dialektlərin bir-birinə yaxınlıq münasibəti eyni olmur. Belə ki, elə dil var ki, onun dialektləri bir-birindən çox, lakin bəzilərində isə az fərqlənir.

Müasir çin dilində 7 başlıca dialekt vardır*. Bu dialektlər arasında yaxınlıqdan daha çox uzaqlıq müşahidə edilir. Tədqiqatçıların bir qrupu bu dialektlərə hətta qohum dil kimi baxır. Çinin uzaq kənd və şəhərlərində yaşayanlar danışıq proseslərində bir-birini çox pis başa düşür, hətta anlaya bilmirlər.

Dünyada elə dillər vardır ki, onların dialektləri fonetik, leksik, qrammatik cəhətdən bir-birinə çox yaxındır. Məsələn, Azərbaycan dilinin dialektləri 4 qrupa bölünür:

1. Şərq qrupu – Quba, Bakı, Şamaxı dialektləri, Muğan və Lənkəran şivələri.
2. Qərb qrupu – Qazax, Qarabağ, Gəncə dialektləri, ayrım şivəsi.
3. Şimal qrupu – Şəki dialekti, Zaqatala, Qax şivəsi.
4. Cənub qrupu – Naxçıvan, Ordubad, Təbriz dialektləri, İrəvan şivəsi.

Bu dialektlərdə danışanların hamısı bir-birini çox aydın başa düşür, tərcüməyə heç bir ehtiyac qalmır. Belə qənaətə gəlmək olur ki, Azərbaycan dilinin dialektləri dilimizin çox qiymətli dil xəzinəsidir.

1. YERLİ DİALEKTLƏRİN TALEYİ

Dilçilik ədəbiyyatında müəyyən ərazidə yaşayan əhalinin danışığında özünü göstərən səciyyəvi dil xüsusiyyətlərinin cəmi *yerli dialekt* adlanır. Yerli dialektlər öz tarixi etibarilə tayfa, qəbilə quruluşu dövrünün və sonrakı dövrlərin məhəlli dil xüsusiyyətlərini özündə əks etdirir. Müəyyən ərazidə

* Mütəxəssislər bu başlıca dialektlərdən əlavə onlarca dialekt olduğunu göstərirlər.

əhalinin bir yerdən başqa yerə köçdüyünü, miqrasiya prosesini göstərir. Yerli dialektlərin tərkib hissələrini *şivələr* təşkil edir. Burada yerli iqtisadiyyat və təsərrüfatla əlaqədar söz və terminlər işlədilir. Azərbaycan dilinin yerli dialektlərində eyni anlayışı ifadə edən müxtəlif sözlərə rast gəlinir. Məsələn, *albalı – vişnə, gilənar, turş gilas, dəmgilas, nargilə, acıbəhli; qarğıdalı – peyğəmbəri, məkkəbuğdası, kəbəbuğdası, qormacabuğda, qarqundey; süzgəc – aşsüzən, düşbəlan, palankeş, qorapalan, çilossən; xəsis – simic, nırqız, xırnıs, qırnıs, göycə, kirnis, xımı, zəlia.*

Yerli dialekt müəyyən ərazinin adı ilə bağlıdır. Məsələn, Azərbaycan dilinin dialektləri: Bakı dialekti, Şəki dialekti, Quba dialekti, Gəncə dialekti, Şamaxı dialekti, Qazax dialekti, Qarabağ dialekti, Naxçıvan dialekti, Ordubad dialekti, Təbriz dialekti.

Yerli dialektlərin hər biri ayrı-ayrılıqda inkişaf edib ədəbi dil səviyyəsinə qalxa bilər, yaxud əriyib başqa yerli dialektlər arasında yox ola da bilər. Buna görə də yerli dialektlərin taleyinə obyektiv dil hadisəsi kimi yanaşmaq və onu dil tarixinin tərkib hissəsi kimi öyrənmək lazımdır.

2. ELM VƏ DİALEKTLƏR

Dilçilikdə dialekt və şivələri öyrənən sahə *dialektologiya* adlanır. Dialekt və şivələrin əsas elmi tədqiqi XIX əsrdə vüsət tapmışdır. Qərb dilçiliyində fransız dili dialektlərinin öyrənilməsi J.Jileron, E.Edmon, A.Doza, Q.Miryarde, A.Meye, Ş.Bruno, L.Terrame və başqa dialektoloqların fəaliyyəti ilə bağlı olmuşdur. Rus dilçiliyində İ.İ.Sereznevski, V.İ.Lamanski, A.İ.Sobolevski, A.A.Şaxmatov, D.N.Uşakov və başqaları rus dili dialektlərinin öyrənilməsi sahəsində çox böyük işlər görmüşlər.

Azərbaycan dili dialektlərinin öyrənilməsinin ilk izlərinə Mirzə Kazımbəyin *"Грамматика турецко-татарского языка"* (1839) adlı əsərində rast gəlinir. Burada ilk

dəfə olaraq Quba dialekti və Dərbənddə yaşayan azərbaycanlıların bəzi şivə xüsusiyyətlərindən bəhs olunur.

Azərbaycan dialekt və şivələrinin öyrənilməsi, əsasən, XX əsrin I yarısında böyük vüsət almışdır. Ekspedisiyalar və fərdi yollarla Azərbaycan dili dialektləri monoqrafik tədqiqatlara cəlb olunmuşdur. Bu sahədə Azərbaycan dialektoloqlarından M.Şirəliyev, R.Rüstəmov, K.Ramazanov, M.İslamov, T.Hacıyev, A.Hüseynov, B.İbrahimov, B.Sadıqov, T.Həmzəyev, A.Vəliyev, E.Əzizov, Q.Bağırov, Ö.Əhmədov və başqaları tədqiqat işləri aparmışlar.

Dialektlərin öyrənilməsinin özünəməxsus üsulları yaranmışdır. Bu üsullardan biri *müşahidədir*. Dialektoloq öyrənəcəyi dialektin xüsusiyyətlərini yaxından müşahidə etmək üçün müəyyən olunmuş yerlərə gedir, orada əhali ilə danışıqlar maqnitofon və başqa vasitələrlə qeydə alınır, lent yazısına köçürülür və s.

Dialektoloji tədqiqatda *kartoqrafik* üsuldan geniş istifadə olunur. Bu üsuldan istifadə edərkən müəyyən olunmuş dialekt və şivə xüsusiyyətləri həmin ərazinin xəritəsində xüsusi şərti işarələrlə göstərilir. Dialekt və şivə xüsusiyyətlərinin bu şəkildə xəritə və atlaslara köçürülməsi *dilçilik coğrafiyası* sahəsinin meydana gəlməsinə səbəb olmuşdur. Dialektlərin öyrənilməsində dilçilərlə bərabər etnoqraf və folklorşünaslar da fəal iştirak edirlər.

Dialektlərin öyrənilməsi sahəsində dilçilikdə xeyli tədqiqat aparılmışdır. Türk dillərinin tarixi ilə bağlı olaraq ayrı-ayrı dillərin yerli dialektlərinin monoqrafik tədqiqi sahəsində Y.Polivanov, Y.Yudaxin, Y.Ubryatova, V.Reşetov, Y.Boqoroditski, N.Dmitriyev, V.Jirmunski, N.Baskakov, E.Tenişev, A.Şerbak, A.Yuldaşev, L.Zalyay, P.Əzimov, Ş.Şaabduraxmanov, Q.Sadvakasov, X.Daniyarov, Q.Axatov, S.Amonjalov, F.Nasırov, C.Amansarıyev və başqaları fəaliyyət göstərmişlər.

Nəticə etibarilə demək olar ki, dillərin dialektlərinin öyrənilməsi dilçilik elmində müstəqil sahə kimi formalaşmış və inkişaf etmişdir.

3. DİALEKTOLOGİYANIN NÖVLƏRİ

Tədqiqatın xarakterindən asılı olaraq dialektologiyanın 3 növü meydana gəlmişdir.

1. Müasir (təsviri) dialektologiya. Bu sahədə yazılmış əsərlərdə dialektlərin müasir vəziyyəti öyrənilir. Azərbaycan dilçiliyində təsviri dialektologiya sahəsində çox mühüm işlər görülmüşdür. M.Şirəliyev Bakı dialektini, R.Rüstəmov Quba dialektini, B.İbrahimov Mərəzə şivəsini, İ.Hacıyev İsmayıllı rayonu şivəsini, A.Hüseynov Oğuz şivələrini, K.Ramazanov Salyan şivələrini və s. öyrənərək Azərbaycan dili dialektlərinin müasir vəziyyəti barədə monoqrafik tədqiqat aparmışlar.

2. Tarixi dialektologiya. Dialektologiyanın bu növü dialektlərin taleyini tarixi aspektdən öyrənir. Qədim qəbilə, tayfa dialektləri, onların müasir dialektlərdə izləri və s. problemlər tarixi dialektologiyaya daxildir. Məsələn, "Frank dialekti" əsəri tarixi dialektologiya səpkisində yazılmışdır. Burada humanitar elmin nəticələri əsasında qədim german qəbilələrinin dialekt xüsusiyyətləri aşkar edilmişdir.

Dil tarixinin öyrənilməsi sahəsində tarixi dialektologiya çox mühüm faktlar verə bilər. Azərbaycan dilçiliyində tarixi dialektologiya sahəsində hələ çox işlər görülməlidir.

3. Müqayisəli dialektologiya. Dialektlərin müqayisəli şəkildə öyrənilməsi müqayisəli dialektoloji tədqiqatın xarakterindən irəli gəlir. Burada iki istiqamət özünü göstərir:

a) Bir dilin dialektlərinin müqayisəsi. Azərbaycan dili dialektlərinin öyrənilməsi, demək olar ki, bu istiqamətdə aparılmışdır. Tədqiqatlar göstərir ki, ayrı-ayrı dialektlərdə spesifik xüsusiyyətlərlə yanaşı, bir-birinə uyğun gələn fo-

netik, leksik və qrammatik cəhətlər də vardır. Bir dilin dialektləri haqqında tam təsəvvür yaratmaq üçün müqayisəli şəkildə bu oxşar və fərqli dialekt xüsusiyyətlərini aşkara çıxarmaq tədqiqat üçün vacib məsələlərdəndir.

b) Qohum dillərin dialektlərinin müqayisəsi. Burada bir dilin dialektlərində rast gəlinən bəzi xüsusiyyətlər qohum dillərin dialektlərində aşkar olunarsa, bunlar müqayisə edilir və onun səbəbləri aydınlaşdırılır. Qohum dillərin dialektlərinin müqayisəsi dil tarixi, xalqın öz tarixi və başqa problemlərlə bağlıdır. Təəssüf ki, bu sahədə az tədqiqat aparılır.

"Ədəbi dil və dialekt" problemi müasir dilçiliyin ən aktual problemlərindəndir. Çünki dialektlərin tədqiqi ədəbi dilin müəyyən cəhətlərinin geniş öyrənilməsi ilə bağlıdır. Həm də dialektlər ədəbi dilin zənginləşmə mənbələrindən biridir.

3.08. ƏDƏBİ DİL NORMALARI VƏ BƏDİİ ƏDƏBİYYATIN DİLİ

"Ədəbi dil" ilə "bədii ədəbiyyatın dili" anlayışları eyni məzmuna malik deyildir. Bədii ədəbiyyatın dili müəyyən sahələrdə ədəbi dildən kənara çıxır.

Bədii ədəbiyyat mənsub olduğu milli dilin varlığı formalarından biridir. Başqa sözlə, hər bir milli dil həmin dildə yaranan bədii əsərlərdə öz əksini tapır.

Bədii ədəbiyyatın dili ilə ədəbi dilin münasibəti müəyyən mənada ziddiyyətlidir. Xüsusilə bədii əsərlərin dilində ədəbi normaya münasibət problemi daha qəliz xarakterdə olur.

Məlumdur ki, normanın ümumməcburiliyi və dəqiqliyi ədəbi dildə başlıca şərtdir. Lakin bədii ədəbiyyatın dilində normaya əməl etmək "sərbəst"dir.

Bədii əsərdə müəllifin fikir və ideyası ilə bağlı ədəbi dil normalarından kənaraçıxma halları dilin bütün sahələrində özünü göstərir.

Fonetika sahəsində. Həmqafiyə xatirinə şeirdə bir çox hallarda Azərbaycan dilinə xas olan ahəng qanunu pozulur. Məsələn:

Yurdumuzdan bir peyk daha
Uçub getdi fəzalara (N.Rəfibəyli).

Orda biganədir insan cəfayə
Orda möhtac deyil xəstə şəfayə.

Bu şeir parçalarında *fəzalara, cəfaya, şəfaya* sözləri *fəzalara, cəfayə, şəfayə* şəklində işləndiyi üçün ahəng qanununa uyğun fonetik dil norması pozulmuşdur.

Leksika sahəsində. Müəllif seçdiyi mövzu ilə bağlı, yeri gəldikdə, tarixizmlərdən və arxaizmlərdən də istifadə edir. Belə hallara, xüsusilə tarixi mövzularda yazılmış bədii nümunələrə tez-tez rast gəlmək olur. Məsələn: *Bəy yerə düşən kimi* ***sərkar*** *çaparıq qaçıb onun çamadanlarından yapışdı* (S.Rəhman). *Bahar görürdü ki, kürkünü,* ***çuxasını*** *nökərlərə təmizlədən Yassar vəznli kişinin yanında ikiqat bükülür, ayağına yıxılıb öpmək istəyirdi... Bahar görürdü ki, həmişə kənddə burunlarını dik tutub gəzən, heç nəyi, heç kəsi saya salmayan yasavullar indi gələn* ***məmurların*** *atlarını yemləyirlər* (M.Cəlal).

Bu cümlələrdəki *sərkar, çuxa, nökər, yasavul, məmur* sözləri müasir ədəbi dil üçün köhnəlmiş leksik vahidlərdir. Bunların işlənməsi müəyyən bədii məqsədlərlə bağlıdır.

Qrammatika sahəsində. Normadan kənara çıxma halları qrammatik formalardan istifadə olunmasında və söz sırasında da özünü göstərir. Məsələn:

Dinlədim quşların tərənəsini,
Sanki birdən-birə sərin meh əsdi.
Eşitdim kiminsə ayaq səsini,
Sanki doğma bir əl saçımda gəzdi. (N. Xəzri)

Bu bədii parçada *dinlədim, eşitdim* sözlərinin xəbərlərin cümlənin əvvəlində işlənməsi bədii cəhətdən qanunauyğun olsa da, ədəbi normanın pozulmasıdır.

Ədəbi dil normalarının pozulması hallarına, başqa sözlə, normadankənar hallara həm müəlliflərin, həm də surətlərin dilində təsadüf olunur. Çox zaman bu hal surətlərin dilini tipikləşdirməyə xidmət edir.

Nəzərə alınmalıdır ki, ədəbi normalardan kənar hallar bədii cəhətdən əsaslandırılmalıdır. Yəni dili belə hallarla korlamaq və ağırlaşdırmaq olmaz. Normadan kənara çıxmaq ədəbi dilin inkişafına mane olmamalıdır.

3.09. ÜMUMTÜRK ƏDƏBİ DİLİ MƏSƏLƏSİ

Təbii olaraq başqa xalqlardakı kimi, türk dünyasını təşkil edən hər bir xalqın da öz doğma, zəngin ədəbi dili yaranıb formalaşmışdır. Çoxsaylı türk dilləri qohumluq dərəcəsinə görə bir-birindən fərqlənir. Elə türk dilləri vardır ki, məsələn, Azərbaycan və türk dili kimi. Lakin elə türk dilləri də mövcuddur ki, onların qohumluq əlamətləri nisbətən az müşahidə edilir. Məsələn, Azərbaycan dili ilə çuvaş və ya şor dillərində olduğu kimi.

Türk dilləri arasındakı bu kəskin fərqlər müasir türk dünyasının inkişafına, onun xalqlarının daha da yaxınlaşmasına müəyyən mənada maneçilik törədir. İndiki dövrdə bu dil baryerini aradan götürüb, *ulu dili, dini, canı və qanı* bir olan türk xalqları üçün ***ümumtürk ədəbi dilinin*** yaradılmasına bö-

yük ehtiyac duyulur. Bu dili yaratmaq dövrün tələbidir. Çünki ümumtürk ədəbi dili vasitəsilə türk xalqlarının əlaqələri möhkəmləndikcə onlar iqtisadi, siyasi və mədəni cəhətdən yüksək inkişafa nail olmaq imkanı əldə edə biləcəklər.

Ümumtürk ədəbi dilinin yaradılması ən əvvəl bir sıra qlobal məsələlərlə bağlıdır.

1. ÜMUMTÜRK LÜĞƏTİ

Türk xalqları üçün ümumi ədəbi dilin yaradılmasında ən başlıca vasitələrdən biri ümumi məqsədli lüğət tərtibidir. Məlumdur ki, müasir türk dillərinin leksikasında yüzlərcə səciyyəvi söz və ifadə işlənir. Məsələn, müasir Azərbaycan ədəbi dilindəki *"yaxşı"* və *"bəli"* sözü əvəzinə müasir türk ədəbi dilində *"iyi"* və *"əvət"* sözləri işlənir. Eləcə də başqa türk dillərində ümumi anlaşmanı ağırlaşdıran bu kimi fərqli sözlər az deyildir. Məsələn, qazax dilində *sur* (mavi), *takool* (dayaq), *una* (bəyənmək, razılaşmaq), *upçu* (əmzik), *upat* (dağılma, məhv olma), *sepil* (qala divarı) və s. sözlər bu qəbildəndir.

Ümumtürk lüğətinin məqsədi müasir türk dillərindəki fərqli sözləri bütövlükdə əks etdirmək, onların əsas mənalarını və məna çalarlarını düzgün və ətraflı açıqlamaqdan ibarət olmalıdır. Daha çox qarşılaşdırma metodu əsasında yaradıla biləcək bu tipli lüğət canlı türk dillərini əhatə edib, qarşılıqlı anlaşmanı asanlaşdırmağa xidmət göstərməlidir.

Müasir Azərbaycan lüğətçiliyinin qarşısında ümumtürk lüğətinin tərkib hissəsi olan aşağıdakı ikidilli lüğətlər hazırlamaq ən vacib vəzifə kimi durur: *azərbaycanca-türkcə lüğət, azərbaycanca-özbəkcə lüğət, azərbaycanca-qazaxca lüğət, azərbaycanca-türkməncə lüğət, azərbaycanca-qaqauzca lüğət, azərbaycanca-qırğızca lüğət, azərbaycanca-tatarca lüğət, azərbaycanca-qaraqalpaqca lüğət, azərbaycanca-altayca lüğət, azərbaycanca-noqayca*

lüğət, azərbaycanca-başqırdca lüğət, azərbaycanca-qaraçay-balkarca lüğət, azərbaycanca-qumuqca lüğət, azərbaycanca-karaimcə lüğət, azərbaycanca-salarca lüğət, azərbaycanca-tuvaca lüğət, azərbaycanca-xakasca lüğət, azərbaycanca-şorca lüğət, azərbaycanca-çuvaşca lüğət, azərbaycanca-yakutca lüğət.

Həmin lüğətlərin əks qarşılıq əsasında (məsələn, *türkcə-azərbaycanca lüğət, qazaxca-azərbaycanca lüğət, türkməncə-azərbaycanca lüğət* və s.) tərtibi də unudulmamalıdır.

Bu lüğətçilik işi başqa türk xalqlarında da aparılmalıdır. Ancaq bundan sonra ümumtürk ədəbi dili məsələsi həyata keçə bilər.

Geniş ümumtürk izahlı lüğətinin hazırlanması da müasir türkoloji dilçiliyin indiki anda təxirəsalınmaz vəzifələri sırasında özünə xüsusi yer tutmalıdır. Çünki bu vacib işin başlanması və onun icrasının sürətləndirilməsi ancaq və ancaq türk xalqlarının ümumi inkişaf mənafeyinə xidmət edər. Lüğətin tərtibi üçün kifayət qədər imkan və təcrübə vardır. Belə ki, bütün türk xalqlarının dillərinə aid izahlı və ya tərcümə lüğətləri yaradılmışdır. Həmin lüğətlər ümumtürk lüğətinin tərkibində bir örnək ola bilər. Lüğətin tərtibi müxtəlif xalqlardan olan milli türkoloqların diqqətindən yayınmamalı, onları ciddi şəkildə düşündürməlidir.

2. ÜMUMTÜRK ƏLİFBASI

Hər bir ədəbi dilin inkişafında əlifba əvəzsiz rol oynayır. Təcrübə göstərir ki, dünya xalqlarının yazılı ədəbi dilləri əlifba sahəsində öz yüksək tərəqqi səviyyəsinə ucala bilmişdir. Şübhəsiz ki, yaradılacaq ümumtürk ədəbi dilinin formalaşması və inkişafında da türk xalqları üçün əlifba xüsusi əhəmiyyət kəsb edir.

Hazırda türk xalqları iki qrafika sistemindən – latın və kirildən istifadə edirlər. Türklər XX əsrin əvvəllərində öz yazılarını latınlaşdırmışlar. Digər türk xalqları da əlifbala-

rını latın qrafikası əsasında yaratmış və ondan bir neçə il bəhrələnmişlər. Lakin müəyyən siyasi oyunlar nəticəsində türk xalqlarının yazısı Kiril sisteminə keçirilmişdir. 1992-ci ildən Azərbaycanda yenidən latın əsaslı əlifbaya qayıtmağa başlanılmışdır. Çox güman ki, yaxın vaxtlarda başqa türkdilli xalqlar da bu yolu seçəcək, öz yazılarını arzuları əsasında qurmağa nail olacaqlar.

Latın qrafikası əsasında ümumtürk əlifbasının yaradılması ümumtürk ədəbi dilinin meydana gəlməsini reallaşdıra biləcəkdir. Bu sahədə Azərbaycan, türk və digər ölkələrin filoloq mütəxəssisləri türk dünyası üçün çox zəruri olan bu məsələnin həyata keçməsinə əzmlə nail olmağı bir vəzifə kimi qarşıya qoymalıdırlar.

3. TÜRK DİLLƏRİNİN ÖYRƏNİLMƏSİ

Ümumtürk ədəbi dilinin formalaşmasında hər bir türkdilli xalqın təhsil sistemində türk dillərinin tədrisinə geniş yer vermək mühüm rol oynaya bilər. Bunun üçün Azərbaycan ümumtəhsil məktəblərinin aşağı siniflərindən "Türk dilləri" fənninin tədrisinə başlamaq vacibdir. Bu fənnin məzmununda ayrı-ayrı müasir türk dilləri haqqında məlumat, onların oxşar və səciyyəvi dil xüsusiyyətləri və s. məsələlər verilə bilər.

Bu yolla Azərbaycan orta məktəbini bitirən hər bir vətəndaş türk dillərini müəyyən səviyyədə öyrənmiş olar.

Ali təhsil sistemində ***"Türk dilləri"*** fənni daha dərindən və geniş öyrədilməlidir. Burada türk dillərinin tarixinə dair məlumat, müasir türk dillərinin müqayisəli fonetika, leksika və qrammatikası, həmçinin digər zəruri məsələlər tədrisin məzmununa daxil edilə bilər[1].

[1] Afad Qurbanov. "Aktual türkoloji problemlər". "Həyat" qəzeti. 20 iyun, 1992-ci il.

IV FƏSİL

DİL VƏ ÜSLUB

DİL – ÜSLUB VƏ ÜSLUBİYYAT

Müasir dünya dilçiliyində diqqəti özünə çəkən ən zəruri problemlərdən biri dil və üslubdur. Elm aləmində bu problemin qoyuluşunun uzun və maraqlı tarixi vardır. Elmi-nəzəri dilçilik ədəbiyyatında üslub məsələsinə müxtəlif mövqedən yanaşılmış və bunun nəticəsində bəzi fərqli fikirlər meydana çıxmışdır.

ÜSLUB ANLAYIŞI

Üslub çox geniş anlayış olub, bir sıra sahələrdə özünü göstərir. Musiqidə, rəssamlıqda, heykəltəraşlıqda, memarlıqda bu anlayışa tez-tez təsadüf edilir. Məsələn, *klassik musiqi üslubu, rəngli boya üslubunda yaradılmış rəsmlər, İtaliya heykəltəraşlıq üslubu, Şərq üslubunda tikilmiş binalar* və s.

İstər musiqi və istərsə də təsviri incəsənət sahəsində fəaliyyət göstərən sənətkarların yaradıcılığında diqqəti cəlb edən keyfiyyətlərin, fərqlənən əlamətlərin cəmi də üslub adlanır. Bəstəkar Ü.Hacıbəyovun üslubu, memar Mikayıl Hüseynovun üslubu, heykəltəraş İbrahim Zeynalovun üslubu və s.

Filoloji aləmdə də üslub anlayışı müxtəlif çalarlıdır. Ədəbiyyat nəzəriyyəsində bu anlayış bir neçə mənada işlənilir:

1) Ədəbi cərəyan, ədəbi məktəb, ədəbi məclis və sair mənada. Adətən, bu cür ədəbi-bədii birliklər öz yaradıcılıq tərzinə, manerasına görə birləşən, uyğunlaşan, həmfikir olan yazıçıların (şair və nasirlərin) fəaliyyəti əsasında yaranır.

Dünya ədəbiyyatı tarixində bir çox ədəbi üslublar, o cümlədən "klassik üslub", "romantik üslub" məşhurdur.

2) Yazıçının üslubu – hər bir söz sənətkarının ideya-bədii xüsusiyyətlərinin cəmi, onun yaradıcılıq tərzi mənasında. Yazıçı üslubu onun ümumxalq dilindən dil vasitələrinin öz arzu və zövqünə, mövzu və məqsədinə görə necə seçib işlətməsi üsulları ilə bağlıdır. Hər bir yazıçının üslubu onun həyata münasibəti, elmi və siyasi biliyi, mədəniyyəti, bacarığı əsasında yaranır[1]. Buna görə də yazıçının dünyagörüşü ilə ifadə tərzinin vəhdəti onun üslubudur. Lakin yazıçının üslubu ümumdil xaricində mövcud deyildir. Bu, ümumidən asılı olaraq onun bir hissəsidir.

Bədii yaradıcılıqda hər bir sənətkarın öz üslubunun olması əsas şərtlərdəndir. Çünki fərdi üslub onun yaradıcılıq orijinallığını müəyyən edir və onu başqalarından fərqli bir sənətkar kimi tanıdır. Elə buna görə də bədii yaradıcılıqda *üslub sənətkarın özü* deməkdir.

3) Bədii əsərin üslubu – hər hansı bir bədii əsərin dil xüsusiyyətləri mənasında. Məlum olduğu kimi, yazıçının hər bir əsəri üçün material bütün zənginliyi, varlığı ilə ümumxalq dilidir. Hər hansı bir əsərin dili yazıçının ümumxalq dilindən istifadəsinin nəticəsidir. Həm də yaranmış bu və ya digər əsər sənətkarın ümumi yaradıcılığının bir hissəsini təşkil edir. Məsələn, *Süleyman Rəhimovun "Şamo" romanının üslubu, yaxud "Medalyon" povestinin üslubu* və s.

Ümumiyyətlə, ədəbiyyat və incəsənət sahəsində üslub anlayışı, əsasən, *tərz, üsul, metod, intizam* və sair mənalarda işlənilir. Məsələn,

Onun *iş* üslubu
Onun *iş* tərzi
Onun *iş* metodu
Onun *iş* intizamı və s.

[1] Afad Qurbanov. "Müasir Azərbaycan ədəbi dili". Bakı, 1985. səh.21.

Dilçilikdə *üslub* xüsusi anlayışdır. Bu anlayışın məzmunu ayrı-ayrı tarixi dövrlərdə çox müxtəlif şəkildə başa düşülmüşdür.

Hələ qədim dövrlərdə romalılar dil məsələləri ilə məşğul olarkən *üslub və üslubiyyat problemlərinə* də toxunmuş, bu barədə ilk dəfə elmi mülahizələr irəli sürmüşlər[1]. Yunanlar üçün üslub sübutetmə vasitəsi olmuşdur. Klassik elmdə üslubiyyat çox zaman ritorika kölgəsində şərh edilmişdir.

Qədim hindlilər üsluba nitqin zahiri əlaməti, onun bəzəyi kimi baxmışlar. Üslubiyyatı isə dilin ifadə vasitələri haqqında təlim hesab etmişlər.

Dilçiliyin tarixi boyu dünya elmində, o cümlədən türkoloji dilçilikdə üslub və üslubiyyat məsələlərinə toxunulmuş, bu barədə bir sıra fikirlər, müxtəlif mahiyyətli mülahizə və konsepsiyalar irəli sürülmüşdür.

Müasir dövrdə də dünya elmi ünsiyyət vasitəsi olan dilin funksional-kommunikativ istiqamətdə öyrənilməsinə xüsusi maraq göstərir. Bu maraq XX əsrin 60-cı illərindən daha da vüsət almışdır. Üslub məsələləri ilə bağlı bir çox elmi məclislər – konqres, konfrans, simpozium və s. keçirilmişdir. Müzakirələrdə üslub problemlərinin müəyyən sahələri, onların əlamətləri axtarışlara, tədqiqata cəlb edilmiş və hər bir cəhətə elmi rəng verilmişdir.

Yaranmış *üslubiyyat nəzəriyyəsində* üslub problemlərinin bir çoxunun öz elmi həllini tapmasına baxmayaraq, bəzi dolaşıqlıqlara da yol verilmişdir. Bu dolaşıqlıq içərisində termin qeyri-dəqiqliyi diqqəti daha çox cəlb edir. Belə ki, ədəbi dilin funksional üslubu anlayışını ifadə etmək üçün *"üslub"* termini ilə yanaşı, həmin mənada *"dil"* və *"nitq"* terminləri də işlədilmişdir. Məsələn, *"bədii dil"*, *"bədii nitq"*, *"bədii üslub"*, *"elmi dil"*, *"elmi nitq"*, *"elmi üslub"*.

[1] Afad Qurbanov. "Ümumi dilçilik". I cild, Bakı, 1989, səh.40.

Bunlardan *"bədii üslub"* və *"elmi üslub"* terminləri mənanın dəqiq ifadəçisi olduğu üçün daha düzgündür. Elmi ədəbiyyatda hökm sürən bu cür termin qeyri-dəqiqliyinə son qoyulması müasir üslubiyyatın əsas vəzifələrindəndir. Son zamanlara kimi qeyri-dəqiq olan məsələlərdən biri də üslub anlayışının müxtəlif mənada başa düşülməsi idi.

Müasir dilçilik üslub anlayışının elmi xarakteristikasını verərkən onu belə müəyyənləşdirmişdir: *linqvistik üslub insanların əmək fəaliyyəti ilə bağlı ədəbi dilin müxtəlifnövlüyüdür*. Ədəbi dildəki bu müxtəliflik həmin dildə danışanların başqa-başqa sahələrdəki əmək fəaliyyəti ilə əlaqədardır.

Linqvistik üslub sözlərin seçilməsinə, işlənilməsinə və nitqin sintaktik normalarına uyğun olaraq qurulur. Bununla bərabər nitqdə *aydınlıq, düzgünlük, dəqiqlik, təbiilik, təmizlik, axıcılıq, yığcamlıq* kimi üslubi normalar zərurət təşkil edir. Bunların birinə düzgün əməl edilməməsi ədəbi dilin üslublarına xələl gətirə bilir.

ÜSLUBİYYAT VƏ ONUN NÖVLƏRİ

Üslubiyyat – üslublar haqqında elm sahəsidir. Üslubiyyat çox geniş anlayışdır. Bu məfhumu bildirən *"Üslubiyyat"* termini müxtəlif sahələrdə işlənilir. Filologiya elmində istifadə edilən filoloji üslubiyyat iki yerə bölünür: a) dilçilik üslubiyyatı (buna linqvistik üslubiyyat da deyilir); b) ədəbiyyatşünaslıq üslubiyyatı. Bu filoloji üslubiyyat növləri bir-birindən mövzu, məqsəd və metoduna görə fərqlənir.

Ədəbiyyat sahəsində üslubiyyat ədəbiyyat nəzəriyyəsinin bədii əsərin dil xüsusiyyətlərini və ifadə vasitələrini öyrənən bəhsidir[1]. Burada ədəbi dilin ümumi inkişafı fonunda hər bir yazıçının əsərlərinin dil xüsusiyyətləri

[1] Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, 1987, səh.259.

şərh olunur, onun milli dilin vasitələrindən, üslublarından, xalq danışıq dilinin materiallarından öz əsərlərində necə istifadə etdiyi aydınlaşdırılır. Bütün bunların nəticəsində yazıçının fərdi üslubu müəyyənləşdirilib aşkara çıxarılır.

Linqvistik üslubiyyatın obyekti isə dilin üslubi quruluşudur. Bu üslubiyyat dilin funksional cəhətləri ilə məşğul olur, onun bütün vahidlərinin düzgün işlənilməsini müəyyənləşdirir. Üslubiyyatda söz, ifadə, cümlə üslubi meyarla ölçülür və öyrənilir. Burada üslub və üslublar sisteminin təşkili, onun səciyyəvi əlamətləri elmi-üslubi süzgəcdən keçirilir. Hər bir dil ünsürünün, ona aid normanın funksional üslubi xarakteristikası verilir və onlardan necə istifadə etməyin qaydaları göstərilir.

Dilçilik üslubiyyatının mövzu və məqsəddən asılı olaraq aşağıdakı növləri meydana gəlmişdir:

a) ümumi və xüsusi üslubiyyat;

b) nəzəri və təcrübi üslubiyyat;

c) təsviri, tarixi və müqayisəli üslubiyyat.

Üslubiyyat növlərinin hər biri müəyyən konkret vəzifə yerinə yetirir.

4.01. MÜASİR DİLÇİLİKDƏ ÜSLUBİYYAT PROBLEMLƏRİ

Üslubiyyat problemləri, yuxarıda deyildiyi kimi, öz elmi həllini hələ tam şəkildə tapa bilməmişdir. Bu barədə yeni konsepsiyalar irəli sürülməklə bərabər əsaslı işlər aparılmasına böyük ehtiyac duyulur. Müasir dilçilik bu məqsədlə öz gündəliyində aşağıdakı məsələlərə daha çox yer verir.

1. ÜSLUBİYYATIN BAŞLICA ANLAYIŞ VƏ KATEQORİYALARI

İstər ümumi, istərsə də xüsusi üslubiyyatda bir çox üslubi anlayışlar formalaşmışdır. Həmçinin dil səviyyələri və yaruslarına – qatlarına görə də üslubi anlayış və kateqoriyalar mövcuddur. *Üslubi vasitə, üslubi hadisə, üslubi vəzifə, üslubi kolorit, üslubi norma, üslubi variant, üslubi neytrallıq, üslubi çalarlıq, üslubi rəngarənglik, üslubi səciyyə, üslubi üsul, üslubi təhlil, ümumi üslub, xüsusi üslub, mikroüslub, makroüslub və sair kimi anlayış* və kateqoriyalar haqqında nəzəri məlumatlar xüsusi konkret üslubi məsələlərin açılması, anlaşılması üçün bir növ açar rolunu yerinə yetirir. Eyni zamanda, üslubiyyat nəzəriyyəsinin tamamlanması və təkmilləşməsinə xidmət edir.

2. SİNONİMLİK ÜSLUBİYYATIN BÜNÖVRƏSİ KİMİ

Dil vahidlərinin sinonimliyinin araşdırılması, dəqiq müəyyənləşdirilməsi üslubi tədqiqatın başlıca cəhətlərindəndir. Sinonimlik əlaməti dilin bütün komponentlərində, onları təşkil edən hər növ vahidlərdə mövcuddur. Bu keyfiyyət söz, ifadə və cümlələrdə daha zəngin və rəngarəngdir.

Lüğəvi sinonimlik. Sözlərin, ifadələrin sinonimliyi hər hansı bir fikrin incə və təsirli ifadə olunmasında xüsusi əhəmiyyət kəsb edir. Sinonimlik dilin lüğət tərkibini təşkil edən sözlə sözlər (*gənc//cavan, dünya//cahan*), ifadə və ifadələr (*həyat tərzi//yaşayış tərzi, ağ gün//xoş gün*) və sözlərlə ifadələr (*dinləmək//qulaq asmaq, yoxlamaq//baş çəkmək*) arasında mövcud olur. Belə bir cəhət kamil və təsirli nitq üçün hər cür imkan yaradır.

Qrammatik sinonimlik. Bu növ sinonimlik morfoloji formalarda, sintaktik konstruksiyalarda özünü daha çox göstərir. Məsələn: B*izi yaşadan xalqdır // Xalq bizi yaşadır. Əmək insanı ucaldır // İnsanı ucaldan əməkdir* və s.

Ümumiyyətlə, sinonimika ən əhatəli semasioloji kateqoriyadır. Lakin bunun mahiyyəti, vəzifəsi və digər əlamətləri hələ dünya dilçiliyində ətraflı öyrənilməmişdir.

3. ÜSLUBİYYATIN ƏSAS İSTİQAMƏTLƏRİ

Müasir üslubiyyatda dil vahidlərinin, üslubi hadisə və proseslərin öyrənilməsində iki istiqamət diqqəti cəlb edir:

a) dil vahidlərinin üslubi imkanlarının öyrənilməsi;

b) funksional üslubların tədqiqi istiqamətləri.

Dilçilikdə ən kiçik dil vahidlərindən tutmuş ən böyük dil vahidi əhatə olunmaqla bunların maksimum əlamətləri, imkanları öyrənilir, onların əhəmiyyəti elmi cəhətdən qiymətləndirilir. Bu istiqamətdə aparılan elmi axtarış və təhlillərə yenə də xüsusi yer verilir.

İkinci istiqamət – funksional üslubların müəyyənləşdirilməsi, təhlil və təsviri müasir dilçilikdə diqqət mərkəzindədir. Burada hər üslubun dil əlamətləri, onların işlənmə sahə və məqamı kimi məsələlər tədqiqata cəlb olunur. Üslubiyyatın bu istiqamətinə əsasən, dilçilikdə *"funksional üslubiyyat"* anlayışı meydana çıxmışdır.

4.02. DİL VAHİDLƏRİNİN ÜSLUBİ İMKANLARI

Bütün dünya dillərində dil vahidləri müəyyən üslubi əlamətlərə malikdir. Bu üslubi keyfiyyətlər dil vahidlərinin birində çox və zəngin, digərində az və nisbətən zəif ola bilir. Dil vahidlərinin üslubi yükü üslubiyyatda izlənilir, tədqiq olunur. Adətən, bu proses ən kiçik dil vahidindən başlanılır.

1. ÜSLUBİ FONETİKA

Dilin səs sistemində baş verən zəngin üslubi çalarlar üslubi fonetikanın məzmununu təşkil edir. Səslərin uzan-

ması, qısalması, samit səslərin təkrarı, cingiltiləşmə, vurğu, heca, ahəng qanunu, sonor samitlərin işləkliyi, intonasiya və s. fonetik əlamətlərin nitqdə müxtəlif məna çalarlıqları yaratması dil üçün müsbət hal sayılır.

Müşahidələr göstərir ki, uşaq poeziyasında misraların azhecalılığı üstünlük təşkil edir. Bu, uşaq təfəkkürünün səviyyəsi ilə bağlı olaraq fikrin sadə, oynaq bir dillə ifadəsi deməkdir. Məsələn:

Buz kimi nəfəsimlə,
Nəriltili səsimlə
Bir tufan olub əsdim,
Qar töküb yolu kəsdim.
Dondu çaylar, bulaqlar...
Üflədim bir dəfə, bax,
Qopdu yel, əsdi sazaq,
Aldı çölü duman, çən,
Səngərdə, düzdə düşmən
Tab etməyib şaxtaya
Donub döndü taxtaya. (Ə.Cəmil)

Şeirdə çoxhecalılıqdan, əsasən, dərin fəlsəfi fikirlərin ifadəsində istifadə edilir. Məsələn:

Ölüm – məlum bir iblisdir, o, varlıqdan kənar olmaz.
Ölümsüz, fitnəsiz, şərsiz, deyirlər, bir diyar olmaz.
Onun tufanı qopduqca uçar evlər və ehramlar,
Onun ruzigarı əsdikcə qış ağlar, ilk bahar olmaz. (S.Vurğun)

Demək, şeirdə çoxhecalılıq və azhecalılıq fonetik üslubi vasitə kimi özünü göstərir.

Dildə sait və samit səslərdən məqsədəuyğun şəkildə istifadə edilməsi də müəyyən üslubi məqsəd güdür. Məsələn:

Car çəkir çarxların çaxnaşıq səsi,
Car çəkir, qışqırır nəhəng motorlar. (S.Vurğun)

Göründüyü kimi, şair burada *"ç"*, *"c"* samitləri iştirak edən sözləri şeirə gətirməklə qızğın əmək cəbhəsinin ahəngini nitqdə poetik şəkildə ifadə etməyə nail olmuşdur.

Ümumiyyətlə, bədii ədəbiyyatda sənətkarlar eyni səslərin təkrarından müəyyən ahəngdarlıq yaratmaq vasitəsi kimi məharətlə istifadə edirlər. Məsələn:

Pıçıldaşır şirin-şirin şıltaq ləpələr. (S.Vurğun)

Yardın yağıların, yardın bağrını. (S.Rüstəm)

Sönmüş bir sevginin soyuğu gəlir. (S.Rüstəm)

Sahilin axşamlar aşıb-daşırmı,
O şıltaq ləpələr pıçıldaşırmı? (F.Mehdi)

Verilmiş poetik nümunələrdə *(ş)*, *(y)*, *(s)* samitləri iştirak edən sözlərin işlədilməsi bədiiliyi daha da artırmağa xidmət edir.

Bəzən bədii cəhətdən sönük olan hər hansı bir mətn gözəl intonasiya ilə oxunduqda da diqqəti cəlb edir. Təkcə poeziyada deyil, nəsr əsərlərində də nitqdə ahəngdarlıq yaradan fonetik vasitələrdən istifadə olunur. S.Rəhimov öz əsərlərində alliterasiya vasitəsilə müxtəlif üslubi situasiyalar yaratmağa nail olmuşdur. Ədibin əsərlərində *eyni səslərlə* başlayan sözlərin söz birləşməsi və ya cümlə daxilində yanaşı işlədilməsi təsadüfi deyil, məqsədyönlü və şüurlu yaradıcılıq əlaməti hesab oluna bilər. Məsələn:

1. **K**öhlən **k**imi **k**işnədi.
2. **Q**ucağı **q**undaqlı **Q**arabirçək...

Mənim canım **q**əbirdə də **q**aynayacaqdır.

3. **K**osa əlini **q**at-**q**at **q**ırışan **q**ara dərili çənəsinə gətirdi.

4. **B**oz sürüləri **b**ecərən saqqallı sərkar.

5. Ürəyinə **d**ərin **d**ərd düşüb.

6. **Q**ulağına **q**ədər **q**ızardı.

7. **C**anına **c**əfa basır.

8. **X**ətir üçün **x**əstə yatan Sübhanverdizadə.

9. **Y**ağ **y**eyib **y**axada gəzərdilər.

10. **D**ağbaşı **d**uruxa-**d**uruxa **d**illəndi, **d**üyünləri **d**olaşdı.

11. Ağzını **b**iryolluq **b**uradan çəkmiş, **b**ostanını **b**axımsız **b**aşlı-**b**aşına **b**uraxmışdır və s. ("Saçlı")

Bunlardan əlavə, üslubi fonetikanın əsas problemlərinə tələffüz üslubları (neytral tələffüz, kitab tələffüzü, yaxud "yüksək" tələffüz, adi danışıq tələffüzü, yaxud "alçaq" tələffüz, bütöv və ya yarımçıq tələffüz), tələffüz üslubları və tiplərinin şifahi və yazılı nitqin funksional üslublarına uyğun gəlməsi, ayrı-ayrı səs və səs birləşmələrinin üslubi variantları, müxtəlif vurğu variantları və onların üslubi keyfiyyətləri (neytral, adi, sadə), intonasiyanın üslubi imkanları və onun komponentləri (ahəng, fasilə, tembr, nitqin tempi və s.) nitqin fonetik quruluşunun funksional növlər, janrlar və formalarla bağlılığı və s. daxildir.

2. ÜSLUBİ LEKSİKA

Nitqdə sözlərin müxtəlif boyalarda və çalarlarda işlənməsi üslubi leksikanın əsas məzmununu təşkil edir. Sözlər müxtəlif məcazi mənada işləndiyinə görə onlar müəyyən üsluba xidmət edir. Azərbaycan dilində *ali, bahadır, qara, ekran, elçi, zirvə, yoldaş* və s. sözlər öz həqiqi mənalarından əlavə başqa sözlərlə yanaşı işlənərək yeni mənalar ifadə edir. Məsələn, *ali məqsəd* (əsas məqsəd), *əmək bahadırı* (əmək qəhrəmanı), qara kağız (ölüm kağızı), mavi ekran (televiziya), *xalq elçisi* (deputat), *zirvəyə ucalmaq* (yüksəlmək) və s.

Bütün üslublarda olduğu kimi, üslubi leksikanın əsasını da sinonimlik hadisəsi təşkil edir.

Bədii ədəbiyyatda sinonimlikdən müxtəlif məqsədlərlə istifadə olunur. Nümunə üçün aşağıdakı bədii parçalarda "ev" anlayışını ifadə edən sinonim cərgələrə diqqət yetirək:

1. *Safo kişi gözlərini Gülsənəm tərəfə ağardaraq, – Qarı arvaddır, – dedi, – hər nədir, səsini kəs, qoy rədd olsun öz cəhənnəminə* (S.Rəhimov).
2. *Tükəzban: Otuz il gördüyüm bu yoxsul ocaq...* (S.Vurğun)
3. *Səlbinaz xanım – Bir gün olmaz ki, bu xaraban dava, canbazlıq olmasın* (V.Vəzirov).
4. *Sən üst mərtəbədəsən,*
   Mən aşağıda.
   İnsan yuvasıdır
   Yuxarı da, aşağı da (R.Rza).

Bu bədii parçalarda işlənən *"cəhənnəm"*, *"ocaq"*, *"xaraba"*, *"yuva"* sözlərinin həqiqi mənaları tamamilə başqa-başqadır. Lakin diqqət yetirildikdə məlum olur ki, həmin bədii parçalarda onlar müxtəlif çalarlarda *"ev"* anlayışını ifadə edir.

Üslubi leksikada ümumişlək sözlərin imkanlarından daha çox istifadə olunur. Bu sözlər insanların əsas fikir və hislərini ifadə etdiyinə görə hamı tərəfindən eyni və ya yaxın səviyyədə anlaşılır. Buna görə də həmin sözlərin semantik tutumundan bədii ədəbiyyatda yüksək sənətkarlıqla istifadə olunduqda müvəffəqiyyətlə obrazlı ifadələr alınır.

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartınıb, ox kimi süzüb,
Yenə öz sürüsün nizamla düzüb
Baş alıb gedirsən hayana, ceyran?
Nə gözəl yaraşır Muğana ceyran! (S.Vurğun)

Buradakı sözlərin hamısı ümumişləkdir. Lakin həmin sözləri şeirə gətirib ustalıqla işlətmək isə yüksək sənətkarlıq tələb edir.

Üslubi leksikanın problemləri içərisində terminoloji sözlərin müxtəlif üslublarda işlənmə imkanları xüsusi yer tutur. Bu, bədii yaradıcılığa daha çox aiddir. Müəyyən sahədən bəhs edən bədii əsərdə mütləq həmin sahə ilə bağlı terminlər işlənir. Terminlərdən bu cür istifadə olunması əsərin real həyatla bağlılığını daha da gücləndirir. Məsələn, Ə.Əbülhəsənin müharibə mövzusunda yazılmış "Dostluq qalası" romanında bu məqsədlə bir çox hərbi termin və termin səciyyəli sözlər işlənmişdir. Nümunə üçün bir parçaya diqqət yetirək. *"On gündən çox idi ki, o, snayperlik kursunu qurtarıb rotaya gəlmişdi. Bu günlərdə Lidiya batalyon, sonra hissə, diviziya, daha sonra snayper və cəbhə komsomolçularının konfranslarında iştirak etmişdir. Top atəşindən yeni üsulla istifadə etmək haqqında rotalarda, batareyalarda təlimat müşavirələri çağırılmaq haqqında batalyon, batareya və rota komandirlərinə tapşırıq verildikdən sonra müşavirə qurtardı".* (Ə.Əbülhəsən). Burada yazıçı hərbi terminləri işlətməklə real sözlə müharibə səhnələri yaratmağa nail olmuşdur.

Üslubi leksikada dialektizm, jarqonizm, adi və loru danışıq sözləri, habelə alınma sözlərin işlənmə xüsusiyyətləri də diqqəti cəlb edir.

3. ÜSLUBİ ONOMASTİKA

Onomastik leksika üslubi onomastikanın əsas materialını təşkil edir. Şifahi və yazılı ədəbiyyatda onomastik vahidlər çox müxtəlif üslubi məqamlarda işlənir. Hələ çox qədim dövrlərdə yaranmış nağıl, dastan, bayatı, layla, oxşama və xalq ədəbiyyatının başqa nümunələrində şəxs, yer, planet adları və sair onomastik vahidlər ya real, ya da əfsanəvi planda işlənmişdir. Şifahi xalq ədəbiyyatında üs-

lubi onomastikanın belə bir xüsusiyyəti özünü göstərir ki, xalq içərisində ən geniş yayılmış şəxs adları tez-tez işlənir. Məsələn, Azərbaycan nağıllarında ən çox *Əhməd, İbrahim, Fatma,* rus folklorunda *İvan*, almanlarda *Hans*, ingilislərdə *Bili*, fransızlarda *Jan*, amerikalılarda *Sem* və s. işlənir.

Poetik onomastik vahidlər güclü obrazlılıq xüsusiyyətinə malikdir. Məsələn, Azərbaycan ədəbiyyatında bu cür obrazlı onomastik vahidlərə *Od gəlini, Yaşar, Sevil, Gülər* (C.Cabbarlı), *Palazqulaq oğlu Cibgir Xərquşov, Qudurğanov, Çulquduzov* (Ə.Haqverdiyev), *Qaloşlu adam, Saçlı* (S.Rəhimov), *Anket Anketov, İclas Qurusu, Düz adam* (M.Cəlal) və s. göstərmək olar.

Bədii ədəbiyyatda xüsusi adların çox müxtəlif üslubi xüsusiyyətləri özünü göstərir. Burada obrazın daxili aləmini açmaq vasitəsi kimi, habelə bir çox məqamlarda ləqəblərdən geniş istifadə olunur. Məsələn, *İ.Hüseynovun "İdeal" romanında rast gəlinən Lüt Cəfər, Kətyan İbrahim, Xızr Abı, Çax-çux Xalıq, Təftiş Abbas, Pisar Tacı, Göbələk Məmiş, Şirmayı Əsəd, Dəli Səməd, Axsaq Hacı, Kərpickəsən Möhsüm, Qılınc Qurban, Xəlvət Rəhim, Rik Ağamalı* və s. ləqəblərin bir qrupu yazıçının fərdi yaradıcılığının məhsuludursa, çoxu real həyatdan götürülmüşdür.

Yazılı ədəbiyyatda, əsasən, satirik əsərlərdə xüsusi adlardan komik vasitə kimi geniş istifadə edilir. Burada sənətkarın satira atəşinə tutduğu obrazın daxili aləmi onun adında öz əksini tapır. Məsələn, Azərbaycan ədəbiyyatında rast gəlinən *Qudurğanov, İclas Qurusu, Əntərzadə, Anketov, Nöqtə Vergülov* və s. bu qəbildəndir.

Yazılı ədəbiyyatda ümumi zoonimlər (yəni heyvan, quş adları), ümumi fitonimlər (yəni meyvə, tərəvəz və başqa bitki adları) alleqorik məqamda xüsusi adlar kimi işlənir. Məsələn, M.Füzulinin "Meyvələrin bəhsi" əsərində *Alça, Gavalı, Gilas, Qaysı, Püstə, Alma, Armud, Üzüm, Heyva,*

Nar, Badam surət adları bu cür yaranmışdır. Q.Zakirin təmsillərində A*slan, Qurd, Çaqqal, Dəvə, Tülkü, İlan, Tısbağa, Şir, Qarğa, Kəsəyən, Ahu*, S.Ə.Şirvaninin təmsillərində *Arı, Siçan, Pişik, Qaz, Durna, Ayı, Aslan, Öküz* və s. onomastik vahidlər ümumi sözlərin xüsusiləşməsi nəticəsində əmələ gəlmişdir.

Yazılı ədəbiyyatda bəzən adı çəkilən toponim qeyri-müəyyən məkan anlayışını bildirmək üçün işlədilir. Məsələn, H.Caviddə *Turan, Qaf dağı,* C.Məmmədquluzadədə *İtqapan kəndi, Danabaş kəndi, Nurcahan kəndi,* Ə.Haqverdiyevdə *Dəccalabad* və s. toponimlər bu qəbildəndir.

Bədii ədəbiyyatda kosmonimlərdən bənzətmə, təşbeh, metafora və s. məqsədlə istifadə olunur. Məsələn,

Zöhrə *təki ucalıb* ***Mizan*** *bürcünə Gəncə.*

Bir ***Müştəri*** *kim hər parlaq* ***Ülkər***
O xoşbəxtdir deyib verdi xoş xəbər.

Leyli göy üzündə ***Sürəyya*** *kimi*
Gözündən dənizə səpirdi inci.

Dahi şair N.Gəncəvinin əsərlərindən misal gətirilmiş bu bədii nümunələrdə göy cisimləri öz xassəsinə, yerinə uyğun şəkildə məqsədəuyğun formada istifadə olunmuşdur.

Onomastik vahid kimi hidronimlərdən də bədii ədəbiyyatda bir üslubi vasitə kimi istifadə edilir. Məsələn, Azərbaycan ədəbiyyatında *Araz, Kür, Göygöl, Maralgöl, Xəzər* və s. hidronimlər gözəllik, saflıq, təmizlik mücəssəməsi kimi tez-tez işlənir.

4. ÜSLUBİ FRAZEOLOGİYA

Üslubi frazeologiyanın əsasını sinonimlik təşkil edir. İstər canlı danışıqda, istərsə də bədii ədəbiyyatda fikri

daha dəqiq, eyni zamanda müxtəlif emosional çalarlarda təzahür etdirmək üçün eyni bir anlayış müxtəlif frazeoloji birləşmələrlə ifadə edilir.

Azərbaycan danışıq nitqində tez-tez *"vəzifədən ikiəlli tutmaq"*, *"vəzifədən dördəlli tutmaq"* ifadələri işlənir. Bildiyimiz kimi, həmin ifadələr vəzifəpərəst, şöhrətpərəst insanlar üçün deyilir. Belə ifadələr öz-özlüyündə bir-birindən mənasına görə fərqlənir. "Vəzifədən dördəlli tutmaq" ifadəsi "vəzifədən ikiəlli tutmaq"dan daha qüvvətli semantik tutuma malikdir.

Canlı danışıq nitqində *"od qiymətinə"*, *"su qiymətinə"* ifadələri *"baha"* və *"ucuz"* sözlərinin ifadə etdikləri mənaları bildirir. Burada da müxtəlif sinonim variantlar özünü göstərir. Məsələn,

Baha *– lap baha – bahadan baha –* ***od qiymətinə;***

Ucuz *– lap ucuz – ucuzdan ucuz –* ***su qiymətinə.***

Bədii ədəbiyyatda frazeoloji vahidlər daha zəngin üslubi xüsusiyyətlərə malikdir. Məsələn, S.Rəhmanın komediyalarında eyni mənanın müxtəlif birləşmələrlə ifadəsinə diqqət yetirək:

1. *"Başının üstünü kəsdirdilər" – "Nəfəs almağa qoymurlar".*
2. *"Başsız qoymaram" – "Tez-tez göz olacağam".*
3. *"Hərarətimi artırım" – "Motoruma benzin töküm".*
4. *"Özünü itirirsən" – "Dilin topuq çalır"* və s.

Göründüyü kimi, həmin frazeoloji vahidlər, təxminən, eyni mənanın ifadəsinə xidmət göstərir.

Dildə frazeoloji vahidlər olduqca zəngin üslubi xüsusiyyətlər kəsb edir.

5. ÜSLUBİ DERİVATOLOGİYA

Sözyaratma prosesində müxtəlif üslubi və ekspressiv-emosional vasitələr özünü göstərir. Bunları iki qrupa bölmək olar:

a) kitab üslubunda sözyaratma vasitələri;

b) adi danışıq üslubunda sözyaratma vasitələri.

Kitab üslubunda sözyaratma vasitələri dedikdə, *leksik* (*Ay* – planet, *ay* – ilin 30 günü; *iynə* – tikiş iynəsi, *iynə* – tibb aləti; *göy* – səma, *göy* – rəng; *gözəl* – keyfiyyət bildirən söz, *Gözəl* – xüsusi ad; *şirin* – dad bildirən söz, *Şirin* – xüsusi ad, *Bakı* – şəhər adı, *"Bakı"* – mehmanxana adı, *nərgiz* – çiçək adı, *Nərgiz* – şəxs adı, *"Nərgiz"* – kafe adı və s.), *morfoloji* (-çı)[4] (*yazı-çı, dəmir-çi, qoruq-çu, üzüm-çü*); (-lı)[4] (yağ-lı, çiçək-li, duz-lu, üz-lü və s); *sintaktik* (*meşəbəyi, əmioğlu, qırxayaq, sacayağı, əlüzyuyan, üçbucaq, beşdaş, dava-dərman, yorğan-döşək, alt-üst, var-yox, yazı-pozu* və s.) nəzərdə tutulur.

Adi danışıq üslubunun özünəməxsus sözyaratma xüsusiyyətləri vardır. Məsələn, Azərbaycan dilinin kitab üslubunda fel əsasən II şəxsin əmr formasında şəkilçisiz (*al, gəl, de, apar* və s.) işlənir. Lakin həmin forma adi danışıq üslubunda *-sana, -sənə* şəkilçisi ilə (*al-sana, gəl-sənə, de-sənə, apar-sana*) işlənir.

Sözyaratmanın üslubi xüsusiyyətlərindən biri sinonimlikdir. Məsələn, *ümidsiz – naümid, anormal – qeyri-normal, bivəfa – vəfasız, göy – səma, ürək – qəlb – könül, dünya cahan – aləm – kainat* və s.

6. ÜSLUBİ MORFOLOGİYA

Nitq hissələri məna və morfoloji əlamətlərinə görə müxtəlif üslubi imkanlara malikdir. Üslubi morfologiyanın əsasını morfoloji vahidlərin üslubi sinonimliyi və üslubi təhkimliyi təşkil edir.

Dildə ismə məxsus kateqoriyaların hər birinin müəyyən üslub çalarları özünü göstərir. Yiyəlik hal müxtəlif məna çalarlarında əksərən şəkilçili, bəzən isə şəkilçisiz işlənir. Məsələn: *Feldşer Mahirəyə yanaşdı və cibindən üstü bəzəkli* ***papiros qutusunu*** *çıxardı* (M.Hüseyn).

Bəllidir ki, *"papiros qutusunu"* birləşməsində I tərəf qeyri-müəyyən yiyəlik haldadır. Həmin birləşməni *"papirosun qutusunu"* formasında da işlətmək olar. Lakin göründüyü kimi, bu forma nitqə ağırlıq gətirir.

Hal şəkilçiləri isimlərdən əlavə, başqa nitq hissələrinə məxsus sözlərlə də işlənir. Bu da üslub hadisəsidir. Dildə mənsubiyyət şəkilçisi söz birləşməsində müəyyən sözlərin ixtisarına şərait yaradır. Məsələn:

*Nə **üzüm** qaradır, nə **dilim** qısa,*
Çıxsam da alovlar, odlar içindən.
***Mərdliyim, saflığım** az-çox qalıbsa,*
Sadə adamlara minnətdaram mən. (H.Arif)

Bu bədii şeir parçasında *"üzüm"*, *"dilim"*, *"mərdliyim"*, *"saflığım"* isimləri I şəxsin mənsubiyyət şəkilçisini qəbul etmiş və özündən əvvəl "mən(im)" əvəzliyinin işlənməməsinə şərait yaratmışdır (mənim üzüm, mənim dilim, mənim mərdliyim, mənim saflığım). Bu da üsluba bir yüngüllük gətirmişdir.

Üslubi məramlardan asılı olaraq sifətlərdə sinonimləşmə hadisəsi baş verir. Məsələn, *"qəşəng"*, *"gözəl"*, *"yaxşı"*, *"əla"* sifətləri müxtəlif məqamlarda isimlərə qoşulub əlamət, keyfiyyət bildirir. Heç vaxt "gözəl sənətkar" əvəzinə *"qəşəng sənətkar"* işlənmir, işlənsə də, bu üslub səhv hesab olunmalıdır. Çox zaman "gözəl" sözü canlı danışıqda öz həqiqi mənasından kənar işlənir. Məsələn, *gözəl tarixçi, gözəl alim, gözəl həkim* və s.

Fikrimizcə, bu birləşmələrdə "gözəl" sözü "yaxşı" sözünün sinonimi kimi işlənir. Məsələn, *yaxşı tarixçi, yaxşı alim, yaxşı bəstəkar, yaxşı həkim...* Lakin həmin birləşmələrdə "gözəl" sifətinin işlənməsi üslubi cəhətdən daha məqsədəuyğundur.

Dildə sayların, əvəzliklərin, zərflərin, fel və köməkçi nitq hissələrinin də özlərinə məxsus üslubi əlamət və xüsusiyyətləri mövcuddur.

7. ÜSLUBİ SİNTAKSİS

Nitqdə ən çox fəaliyyət göstərən üslubi fiqurlar dilin sintaktik quruluşu ilə bağlıdır. Burada özünü göstərən müxtəlif funksional üslubların, o cümlədən elmi üslubun, bədii üslubun, canlı danışıq üslubunun və s. tipik, səciyyəvi sintaktik ünsürləri vardır. Söz birləşmələri, idarə, yanaşma, uzlaşma əlaqələri, cümlə üzvlərinin sıralanması, söz birləşmələri daxilində başqa bir söz və ya ifadənin işlədilməsi, sadə cümlənin müxtəlif tipləri və növləri, mürəkkəb cümlənin quruluşu, əlavə və xüsusiləşmələr və başqa sintaktik vahidlər nitqdə heç də hər zaman müəyyən bir qəlib çərçivəsində eyni formada və quruluşda işlənmir. Üslubi sintaksisin əsasında da birinci növbədə sintaktik sinonimlik durur. Eyni bir fikri üslubi məqamla bağlı olaraq sadə və mürəkkəb cümlə ilə ifadə etmək mümkündür. Məsələn, *Günəşin üfüqləri qaralırdı ki, gəmi sahilə yaxınlaşdı. Günəşin üfüqləri qaralanda gəmi sahilə yaxınlaşdı.*

Bu cümlələrin məzmunu tamamilə eynidir. Lakin biri mürəkkəb, digəri sadə cümlə şəklində qurulmuşdur.

Üslubi sintaksisin ən xarakterik nümunələri nitqdə cümlə üzvlərinin sıralanmasında özünü göstərir. Nitqdə müəllifin məqsədindən asılı olaraq cümlə üzvlərinin sıralanması müxtəlif formada baş verir.

Sintaktik vasitə olan intonasiya nitqdə çox mühüm üslubi rol oynayır. Xüsusilə bədii üslubda intonasiyadan obrazın daxili aləminin açılmasında, müəyyən hadisə, mühit, şərait haqqında aydın təsəvvür yaratmaq üçün geniş istifadə olunur. Eyni bir cümlənin müxtəlif intonasiyada tələffüzü də buna xidmət edir və bunun nəticəsində nəqli, sual, nida cümlələri əmələ gəlir.

Dil vahidlərinin üslubi imkanları müasir dilçiliyin əsas problemi kimi diqqət mərkəzində durur. Onun nitqin müxtəlif formaları əsasında öyrənilməsi sahəsində hələ müəyyən tədqiqatlar aparılmasına ehtiyac duyulur.

4.03. FUNKSİONAL ÜSLUBLAR VƏ ONLARIN TƏSNİFİ

Üslubların vəzifə, əlamət və keyfiyyətlərinə görə qruplaşdırılması əsasında onların təsnifi verilir. Müxtəlif tipli dünya dillərində funksional üslubların müəyyənləşdirilməsi və onların təsnifi müasir dilçiliyin aktual və çətin məsələlərindəndir. Bu çətinliyin bir neçə səbəbi vardır. Əvvəla, üslubi hadisə təbiətinə görə çox incə, sürüşkən və mürəkkəbdir. İkincisi, bir çox üslubi anlayışlar elmi cəhətdən dəqiqləşdirilməmişdir. Üçüncüsü, bütün dünya dillərinin üslubları öyrənilməmişdir. Göstərilən çatışmazlıqlar dünya dillərinin üslubi təsnifinin verilməsinə maneçilik törədir, onun həllini ləngidir.

Dilçilik tarixində ədəbi dillərin funksional üslublarının ümumi elmi təsnifini verməyə bir çoxları səy göstərmişlər. Onların tədqiqatlarında üslublar, bunların xüsusiyyətləri və təsnifi barədə məqbul hesab edilə bilən müşahidələr irəli sürülmüşdür.

Yuxarıda qeyd edildiyi kimi, funksional üslublar ədəbi dilin insan fəaliyyətinin ayrı-ayrı sahələrinə uyğun işlədilməsidir. Başqa sözlə, üslublar nitqdə təzahür edir. Ona görə də dilin üslubları müəyyən vəzifə yerinə yetirdiyi üçün dilçilikdə funksional adlanır.

Funksional üslub meyarı. Dilçilik elmində üslubların müəyyənləşdirilməsinə dair hərtərəfli əsaslandırılmış dəqiq meyar yoxdur. Lakin bununla bərabər, ayrı-ayrı dövrlər

üzrə üslubların müəyyənləşdirilməsində bəzi zəruri əlamətlərin əsas götürülməsi mülahizələri mövcuddur. Məsələn, *müasir üslubların* varlığının və müstəqilliyinin müəyyənləşdirilməsi meyarı üçün iki amil zəruri hesab edilir:

a) Üslub adlandırılan hər hansı ədəbi dil müxtəlifliyi gərək insan fəaliyyətinin müəyyən sahəsində geniş işlənilsin və müəyyən vəzifə yerinə yetirsin. Məsələn, insanların elmi fəaliyyət sahəsində elmi üslubdan istifadə etdiyi kimi.

b) Belə ədəbi dil müxtəlifliyinin hər birinin lazımi qədər fərqləndirici ifadə vasitələrinin olması.

Bu başlıca üslub *müəyyənləşdirici amillərlə* yanaşı, dilin hər bir üslubi əlaməti də nəzərə alınmalı olur. Ümumiyyətlə, funksional üslublar onların tərkibində olan hər növ – irili-xırdalı ekstralinqvistik və linqvistik göstəricilərə əsasən müəyyənləşdirilib təsnif edilir.

Üslubiyyat tarixində funksional üslubların təsnif edilməsi təcrübəsində daha çox leksikaya əsaslanmaq ənənəsi olmuşdur. Buna səbəb leksikanın daha geniş üslubi imkanlara malik olması və bir sıra dünya dillərinin lüğət tərkibinin elmi əsasda öyrənilməsidir. Leksikoqrafiyası inkişaf etmiş bəzi Avropa dillərinin izahlı lüğətlərində sözlərin rəngarəng emosional-ekspressiv çalarları (loru, köhnə, yeni, dini, məcazi, ümumişlək, vulqar, ritorik, rəsmi, şivə, dialekt və s.) elmə, texnikaya, istehsalata aid olması, şifahi və yazılı nitqə məxsusluğu göstərilir.

Yalnız leksik əlamətə görə üslubları müəyyənləşdirmək elmdə dil hadisələrinə birtərəfli yanaşmaq kimi qiymətləndirilə bilər. Elə buna görə də dilin leksik əlaməti ilə yanaşı, fonetik, onomastik, frazeoloji, qrammatik cəhətlər və *ünsiyyət şəraitini* nəzərə alıb ədəbi dilin funksional üslublarını müəyyənləşdirmək daha düzgün yoldur.

Funksional üslubların yaranması.

Dil ünsiyyət vasitəsi kimi insan fəaliyyətinin bütün sahələrində, o cümlədən məişətdə, elmdə, təhsildə, ictimai

həyatda, siyasətdə, iqtisadiyyatda, sənayedə və s. istifadə olunur. Dildən bu müxtəlif sahələrdə istifadə olunarkən bu və ya başqa şəraitdə fikrin ifadə edilməsi məqsədi ilə dil vasitələrini seçib işlətmək əsasında onun üslubları yaranır. Hər bir üslub mövcud dilin *milli xüsusiyyətləri* əsasında qurulur.

Funksional üslubların yaranmasına və formalaşmasına aşağıdakı amillər xüsusi təsir göstərir.

a) milli ənənə;

b) milli mədəniyyət;

c) dövlət quruluşu;

ç) dini təbliğat;

d) dil kontaktı;

e) dil siyasəti və s.

Ədəbi dilin funksional üslublarının yaranması və fəaliyyət dairəsi eyni olmur. Bunların biri tez, digəri gec və ya paralel yaranır. Məsələn, Azərbaycan dilində bədii üslubun tarixi qədim, lakin elmi üslubunki isə nisbətən son dövrlərlə bağlıdır.

Cəmiyyətin tarixində bir üslub daha fəal və aparıcı ola bilir. Belə olduqda, o başqa üslublara da öz müsbət təsirini göstərir.

Tarixən funksional üslubların yaranmasında yazıçıların, ziyalıların, din xadimlərinin, müəllimlərin xüsusi xidmətləri olmuşdur. Üslubları yaradan və inkişaf etdirən, əsasən, əmək fəaliyyəti sahəsinin mütəxəssisləridir. Ona görə də alim elmi üslubun, yazıçı bədii üslubun, jurnalist publisistik üslubun təkmilləşməsində xüsusi rola malikdir.

Dünya dillərində funksional üslubların yaranma tarixini iki yerə bölmək olar: yazıyaqədərki və yazı ənənəsindən sonrakı dövrlərdə üslublar.

Bu dövrlərdə yaranan üslublar təbii olaraq yaranmasına, tərkibinə, vəzifəsinə, cəmiyyətdəki xidmətinə görə bir-birindən fərqlənir.

1. YAZIYAQƏDƏRKİ DÖVRLƏRDƏ FUNKSİONAL ÜSLUBLAR

Məlum olduğu üzrə *"üslub"* anlayışı ədəbi dillə bağlıdır. Ədəbi dil isə şifahi təşəkkül tapmışdır. Bu konsepsiyaya əsasən şifahi ədəbi dilin yarandığı ilk dövrlərdən bəsit də olsa, onun bəzi funksional üslubları meydana gəlmişdir. Həmin üslublar belədir:

1) poetik üslub;

2) ədəbi söhbət üslubu;

a) məişət-ədəbi söhbət üslubu;

b) rəsmi-ədəbi söhbət üslubu.

Yazıyaqədərki dövrlərdə şifahi ədəbi dilin funksional üslubları sistemində *poetik funksional üslubun* xüsusi yeri olmuşdur. Çoxəsrlik tarixi müddətdə yaranan bu üslub bir sıra janrlarla bağlı idi. Burada bayatı, nağıl, dastan mikroüslublarından geniş istifadə edilmişdir. Şifahi ədəbiyyat – ağız ədəbiyyatı poetik üslubun yaranması və formalaşmasında xüsusi rol oynamışdır. Bəzən şifahi ədəbiyyatı bədii ədəbiyyata qarşı qoyub, orada bədiilik olmadığı fikrini irəli sürənlərə də rast gəlmək olur. Bu, doğru deyildir. Folklor bədiiliyi, folklor poetikliyi söz sənətində ilkindir, güclüdür və təsirlidir. Bu keyfiyyətləri Azərbaycan şifahi ədəbiyyatının da nümunələrində aydın görmək olur.

Yazıyaqədərki şifahi ədəbi dilin *ədəbi söhbət funksional üslubunun* tarixi də qədimdir. Bu üslub hər bir dildə uzun illər yazı ənənəsi olmayan şəraitdə yaranır. Mənsub olduğu xalqın tarixinin qədim dövrlərindən təşəkkül tapan ədəbi söhbət üslubu formalaşdığı prosesdə özünün dil vahidlərindən müxtəlif məqsədlər üçün söz və ifadə seçib işlətmək prinsiplərini yaratmışdır. Bu üslub dilin ictimai vəzifəsini yerinə yetirərkən onun iki mikroüslubu meydana gəlmişdi. Məişət-ədəbi söhbət mikroüslubunda *ata qayğısı – ana nəvazişi, ata məsləhəti – ana nəsihəti* üçün ədəbi səciyyəli söz

və ifadələr – dil vahidləri seçilib işlədilmişdir. Rəsmi-ədəbi söhbət üslubunda da müxtəlif ricalar, xahişlər üçün mədəni söz tərkibinə, ifadələrə müraciət olunmuşdur.

Yazıyaqədərki Azərbaycan şifahi ədəbi dilində həm *poetik funksional üslub*, həm də *ədəbi söhbət funksional üslubu* fəaliyyət göstərmişdir.

2. YAZI ƏNƏNƏSİNDƏN SONRAKI DÖVRLƏRDƏ FUNKSİONAL ÜSLUBLAR

Ədəbi dil yazı ənənəsinə nail olduqdan sonra iki formada – şifahi və yazılı şəkildə fəaliyyət göstərməyə başlamışdır. Yazılı ədəbi dilin yaranması funksional üslubların meydana gəlməsi və formalaşmasında xüsusi rol oynamışdır. Yazı yaddaşında həkk olunan hər hansı ədəbi-mədəni dil əlamətləri, normaları, qaydaları və sair geniş xalq kütləsinə xidmət etmiş, get-gedə möhkəmlənmiş və sabitləşmişdir. Hər hansı bir dilin yazı ənənəsi yarandıqdan sonra onun üslublar sistemi genişlənməyə, formalaşmağa və təkmilləşməyə doğru istiqamətlənmişdir. Bu dövrlərdə mövcud olan üslublar üç növə bölünür: şifahi ədəbi dilə məxsus olan (ədəbi danışıq üslubu); yazılı ədəbi dilə aid olan (epistolyar üslub); həm şifahi, həm də yazılı dilə mənsub olan (rəsmi üslub, publisistik üslub və sair).

Ümumi dilçilikdə dünya dillərinə məxsus onlarca funksional üslub müəyyənləşdirilmişdir: *elmi üslub, publisistik üslub, kargüzarlıq üslubu, arxaik üslub, natiqlik üslubu, təntənəli üslub* və sair. Göstərilən üslubların hamısı ədəbi dil üçün funksional üslub hesab edilə bilməz. Məsələn, "təntənəli funksional üslub"a nəzər yetirək. Bunun bir sıra dil əlamətləri olsa da, onu müstəqil funksional üslub hesab etmək qeyri-mümkündür, çünki həyatın elə bir yaşayış sahəsi yoxdur ki, orada insanlar ancaq təntənəli funksional adlanan üslubla ünsiyyətdə ola bilsinlər. Təntənəli danışıq ancaq başqa müstəqil üslub materialları əsasında mövcud ola bilir.

Dünya xalqlarının, o cümlədən türkdilli xalqların yazılı ədəbi dillərində bir çox funksional üslub yaranıb formalaşmışdır. Yeri gəlmişkən xatırladaq ki, bütün dillərdə üslublar sisteminin yaranma tarixi, kəmiyyət və keyfiyyət əlamətləri eyni olmur. Belə fərqlər hər bir dilin öz materialı və inkişafı əsasında funksional üslubların yaranması ilə bağlıdır.

Dillərin üslubi imkanları son dərəcə zəngin olur. Buna görə də hər hansı bir dildə üslubları müəyyənləşdirmək və qruplaşdırmağa dair tədqiqatçılar arasında müxtəlif baxışlar, mövqelər meydana çıxır. Məsələn, bəzi dilçilər müasir rus ədəbi dilində üç funksional üslubun olduğunu göstərmişlər. Lakin bununla yanaşı, başqaları həmin dildə 5-6 və hətta 7 funksional üslubun fəaliyyət göstərdiyini sübut etməyə çalışmışlar.

Müasir Azərbaycan ədəbi dilindəki funksional üslubların miqdarı haqqında da müxtəlif fikirlər mövcuddur. Belə müxtəlifliyin səbəbi üslublarla məşğul olan *tədqiqatçıların üslubi hissetmə fəaliyyətləri* ilə əlaqədardır.

Funksional üslubların inkişafı. Dünya dillərində təşəkkül tapmış hər bir funksional üslub tədricən zənginləşmə və təkmilləşmə yolu keçir. Funksional üslubların inkişaf tarixi ümumxalq dilinin ədəbi qolunun tarixi ilə bağlı olur. Hər hansı bir dilin funksional üslubları müxtəlif sahə ziyalılarının, elm nümayəndələrinin təsirində inkişaf edib ümumxalq malına çevrilir. Üslubların inkişafı (9-cu cədvəldə olduğu kimi) dilin funksional inkişafı deməkdir.

Üslubların inkişafına *dildaxili amillərlə* bərabər *dilxarici amillər* də öz təsirini göstərir. Dilxarici amillər – dil kontaktları, əlaqələr, qarşılıqlı təsir bu prosesdə xüsusi rol oynayır. Dil, dövlət quruluşu, siyasət üslubların formalaşmasına öz təsirini göstərir.

Üslubların inkişafı xalqın milli mədəniyyətinin tərəqqisində xüsusi əhəmiyyət kəsb edir. Elə buna görə də inkişaf etmiş milli üslubların cəmi həmin dildə ünsiyyət-



Cədvəl 9

də olanların ən qiymətli, bəlkə də əvəzsiz ədəbi-mədəni nailiyyətləridir.

4.04. MÜASİR DÖVRDƏ FUNKSİONAL ÜSLUBLAR

Dilçilik tarixində "müasir dövr" dedikdə, XX əsr nəzərdə tutulur. Bu dövr başqa sahələrdə olduğu kimi, linqvistik baxımdan da diqqəti cəlb edir.

Müasir dövr üçün səciyyəvi olan dünya dillərində bir-birinə az və ya çox oxşar olan, yaxud da tamamilə fərqlənən onlarca funksional üslub müəyyənləşdirilmiş və bu anlayışlar müvafiq terminlərlə adlandırılmışdır: *danışıq üslubu, məişət danışıq üslubu, gündəlik məişət üslubu, loru danışıq üslubu, natiqlik üslubu, təntənəli üslub, bədii üslub, şifahi bədii üslub, ədəbi-bədii üslub, bədii-belletristik üslub, poetik üslub, elmi üslub, elmi-publisistik üslub, istehsalat texniki üslub, istehsalat əmək üslubu, publisistik üslub, ictimai publisistik üslub, siyasi publisistik üslub, siyasi qəzet üslubu, rəsmi üslub,*

rəsmi kar güzarlıq üslubu, kargüzarlıq üslubu, rəsmi sənədlər üslubu, idarəedici kargüzarlıq üslubu, rəsmi işlər üslubu, arxaik üslub, akademik üslub və sair.

İnkişaf etmiş müasir dillərdən biri kimi Azərbaycan ədəbi dilinin materialları əsasında XX əsrin II yarısında funksional üslubların aşağıdakı növlərini göstərmək olar: *ədəbi danışıq üslubu, bədii üslub, elmi üslub, rəsmi üslub, publisistik üslub və epistolyar üslub.*

Ədəbi dilin bu üslubları öz həcminə, vəzifəsinə, *işlənmə və anlaşılma dərəcəsinə görə* bir-birindən fərqlənir. Məsələn, bunlardan elmi üslub ancaq alimlər, ziyalı və təhsil sahəsində fəaliyyət göstərənlərə aydın olur. Lakin bədii üslub isə kütləvidir, daha geniş miqyasda yayılır və hamı tərəfindən asan anlaşılır.

Hər bir funksional üslubun konkret üslubi *göstəricisi* olur. Üslublar dil əlamətlərinə – *fonetik, lüğəvi, qrammatik* və başqa cəhətlərinə, işlənmə və anlaşılma dərəcəsinə görə bir-birindən fərqlənir. Bunları nəzərdən keçirək.

1. ƏDƏBİ DANIŞIQ ÜSLUBU

Dilçilik elmində ədəbi danışıq üslubu haqqında fikir müxtəlifliyi vardır. Bəzi alimlər bu dil hadisəsini üslub hesab etmirlər. Bəzi dilçilər isə bunu üslub kimi qəbul edir, lakin bu üslubun istifadə olunmasına dair müxtəlif fikirlər irəli sürürlər. Belə ki, bəziləri bu üslubun ancaq məişətdə, digəri isə yalnız elmi məclisdə işləndiyini göstərir. Bu fikirlər ədəbi danışıq üslubunun istifadəsini doğru olmayaraq, son dərəcə məhdudlaşdırır.

İstifadə dairəsi. Ədəbi danışıq üslubunun istifadə olunma dairəsi çox geniş əhatəlidir. İxtisasından, bilik və bacarığından asılı olmayaraq hamı bu üslubdan gündəlik istifadə edir.

Dilçilikdə ədəbi danışıq üslubu üçün müəyyənləşdirici başlıca əlamət haqqında müxtəlif mülahizələr vardır.

Bir qrup dilçi bu üslub üçün qeyri-rəsmi danışığı, digəri isə şifahi xarakterdə olması əlamətini əsas götürür. Lakin deməliyik ki, bu üslub funksional üslub meyarına tam uyğun gəlir və ədəbi dil sistemində müstəqil yerə malikdir.

Janrları. Ədəbi danışıq üslubunun tərkibində müxtəlif növ janrlar mövcuddur.

1) məruzə; 2) mühazirə; 3) çıxış; 4) müsahibə; 5) söhbət və s. Bu janrlar məzmun və formaca fərqləndiyi kimi, üslubi çalarlığa görə də bir-birindən ayrılır və seçilir.

Mikroüslubları. Ədəbi danışıq üslubunun aşağıdakı mikroüslubları vardır: a) rəsmi ədəbi danışıq üslubu; b) qeyri-rəsmi ədəbi danışıq üslubu.

a) Rəsmi ədəbi danışıq üslubu. Ünsiyyətin tələb və məqsədi ilə əlaqədar olaraq bu mikroüslubun tərkibində bir neçə müxtəlif üslub variantı özünü göstərir:

1. Mühazirə üslubu;
2. Məruzə üslubu;
3. Çıxış üslubu;
4. Televiziya üslubu;
5. Radio üslubu.

Rəsmi ədəbi danışıq üslubuna kodlaşdırılmış ədəbi danışıq üslubu da deyilir. Burada kitab dilinə yaxın danışılır, ədəbi norma və qaydalardan kənara çıxılmır.

b) Qeyri-rəsmi ədəbi danışıq üslubu. Ədəbi danışıq üslubunun bu növünü aşağıdakı üslub variantları təşkil edir:

1. Ailə-məişət danışıq üslubu;
2. İctimai-kütləvi danışıq üslubu.

Dilçilikdə qeyri-rəsmi ədəbi danışıq üslubu "adi danışıq üslubu" termini ilə də göstərilir. Bu növ üslub variantı "sərbəstlik" əsasında yaranır. Başqa sözlə desək, burada danışıq – dil vahidlərindən istifadə sərbəst olur.

Dil əlamətləri. Ədəbi danışıq üslubunun dil əlamətləri aydın şəkildə digər üslublardan seçilir. Bu üslub linq-

vistik cəhətdən ümumxalq dilinin danışıq dili qoluna da yaxındır. Adətən, üslubların tərkibində aşağıdakı sahələrdə fərqlər özünü göstərir:

a) Fonetika sahəsində. Ədəbi dilin danışıq üslubunda sözlərin tələffüzü şəraitlə, məqamla bağlı alçaq və ya ucadan ifa edilir. Bəzi sözlər natamam tələffüz olunur. Danışıq prosesində intonasiya əlamətləri də xüsusi üslubi vəzifə yerinə yetirir. Ədəbi danışıq üslubunda cümlənin bir sözünün xüsusi olaraq intonasiyalaşdırılması bu üslub üçün səciyyəvi cəhətlərdəndir. Məsələn:

– ***Onlar*** *bu gün şəhərə gəlsinlər.*

– ***Onlar! Onlar!***

Yaxud:

– *Aynur məktəbə* ***getsin****.*

– ***Getsin! Getsin!***

b) Lüğət tərkibi sahəsində. Məlum olduğu üzrə, dilin lüğət tərkibinin hər bir ünsürü başqa vahidlərə nisbətən daha incə və tutumlu üslubi yükə malik olur. Şifahi danışıqda bu üslubi zəriflik, rəngarəng çalarlıq özünü daha qabarıq göstərir.

Ədəbi danışıq üslubu üçün ümumişlək sözlərdən çox istifadə edilməsi səciyyəvi hal hesab olunur. Belə üslubda mənası ağır və ya anlaşılmaz sözlərə, demək olar ki, yer verilmir. Səs təqlidi, emosional sözlər bu üslubda bol-bol işlədilir.

Şifahi ədəbi danışıq üslubunda frazeoloji vahidlərin işlənilməsinin də xüsusi rolu vardır. Bu üslubda geniş formada özünə yer tapan frazeoloji vahidlər üslubda milli koloriti artırır, ünsiyyətin aydın və axıcılığını, yığcamlığını təmin edir.

c) Qrammatika sahəsində. Morfoloji baxımdan yanaşıldıqda ədəbi danışıq üslubunda bir qrup sözün – nitq hissələrinin daha çox işlənildiyi müşahidə edilir. Danışıqda

əsas nitq hissələrindən əvəzliklər və fellər daha çox işlənir. Məsələn: *Mən gördüm. Sən danışdın. Onlar yazdılar. Biz görüşdük* və s.

Ədəbi danışıq üslubunda qeyri-müəyyən nitq hissələrindən *nida* və *modal* sözlərə də tez-tez müraciət olunur. Bu qrup sözlər nitqin emosional-ekspressiv keyfiyyətini artırır.

Bu üslubu bir sıra sintaktik dil əlamətləri də səciyyələndirir. Burada yarımçıq və müxtəsər cümlələr geniş yer tutur. Cümlələrin elliptikliyindən tez-tez istifadə olunur və s.

Ədəbi danışıq üslubunun etnolinqvistik əlamətləri. Şifahi danışıq prosesində dilxarici vasitələrə də müraciət edilir. Ədəbi dilin bu üslubunda *mimika* və *jestlərdən* geniş istifadə olunur. Bunlar dinləyicini səfərbərliyə almaqda, fikri gücləndirməkdə danışana kömək edir.

2. BƏDİİ ÜSLUB

Fikrin bədii ifadə və təsvir vasitələri ilə ifadə olunmasına *ədəbi dilin funksional bədii üslubu* deyilir. Bədii üslub, eyni zamanda, bədii nitq və bədii dil də adlanır. Əlbəttə, yerinə görə "bədii üslub" termininin işlənməsi daha məqsədəmüvafıq olur.

Dilçilikdə bədii üslub anlayışı haqqında müxtəlif fikirlər vardır:

a) Bəzi dilçilər bədii üslubun funksional olduğunu qəbul etmirlər. Onu üslub yox, sadəcə olaraq bədii ədəbiyyatın dili hesab edirlər.

b) Bir qrup dilçi isə "bədii üslub" anlayışını qəbul edir və bədii əsərləri bütövlükdə yox, onlardakı ancaq müəllif nitqini bədii üslub adlandırır. Onlar surət danışığını qeyri-ədəbi hesab edirlər. Burada düzgün olmayan cəhət bəzi dilçilərin surət danışığı probleminə qeyri-obyektiv mövqedən yanaşmalarıdır. Məlumdur ki, bədii əsərdəki surət nitqi eyni ilə danışıq nitqi deyildir. Bunun üzərində yazıçı

və şairlər ciddi dil və üslub əməliyyatı aparır, ona bədii don geydirirlər.

Fikrimizcə, bədii üslub funksional üslub meyarına tam uyğun gəlir. Buna görə də onu ədəbi dilin digər funksional üslubları sırasına daxil etmək olar. Bədii üslub müstəqil və zəngin funksional üslubi yükə malik dil hadisəsidir.

Bədii üslub öz xüsusiyyət və əlamətləri ilə olduqca obrazlı, emosional və ekspressivdir. Bu üslub başqa funksional üslublara nisbətən xalq danışıq dilinə daha yaxındır.

İstifadə dairəsi. Ədəbi dilin bədii funksional üslubu tarixinə görə qədim, mahiyyətinə görə isə çox kütləvidir. Cəmiyyət üzvlərinin elə bir nümayəndəsinə rast gəlmək olmaz ki, o şəxs danışdığı dildə bədii yaradıcılıq nümunələrini bilməsin, şeiri, sənəti sevməsin. Bədii ədəbiyyat insanın mənəvi qida mənbəyidir. Hər bir insanı belə məzmunlu mənbələr ruhlandırır, onu qol-qanad açmağa həvəsləndirir. Elə buna görə də bədii üslubun istifadə olunma dairəsi çox-çox genişdir.

Azərbaycan ədəbi dilində bədii üslub xüsusi yer tutur. Bədii üslub yazıyaqədərki şifahi ədəbi dilimizin poetik üslubu əsasında formalaşmışdır. Hazırda Azərbaycan ədəbi dilinin bədii funksional üslubu çox geniş inkişaf etmişdir. Bu üslub ədəbi dilin və xalq danışıq dilinin xüsusiyyətləri əsasında get-gedə daha da zənginləşir.

Janrları. Bədii üslubda yazılan əsərlərin bir neçə janrı mövcuddur. Məsələn, l*irik əsərlər, epik əsərlər, dramatik əsərlər.*

Dünya dillərindəki bədii ədəbiyyatlarda janr müxtəlifliyi vardır. Buna görə də bu və ya başqa növ və ya janrda yaradılan əsər başqasında olmaya da bilər. Türk dillərindən olan Azərbaycan dilində çoxdan yaranmış *bayatı, qəzəl* və sairə başqa sistemli dillərdə təsadüf edilmir. Deməli, bu dil hadisəsi sırf milli xüsusiyyətlidir.

Mikroüslubları. Üslubların ədəbi janrlarla, bədii əsərlərin növləri ilə əlaqəsi üslub problemində əsas məsələlərdəndir.

Ədəbi dilin funksional bədii üslubunun iki mikroüslubu vardır: *nəzm üslubu və nəsr üslubu.*

Bədii üslubun nəzm və nəsr mikroüslubları bir sıra cəhətləri və əlamətlərinə görə bir-birindən fərqlənir. Nəzm və nəsr fərqli dil hadisəsidir. Bunların söz və ifadə seçməkdə, qrammatik formalardan istifadə edilməsində, sintaktik əlaqələrdə, emosional tonda özünəməxsus əlamətləri vardır. Bundan əlavə, şeirlə yazılan əsərlərdə müəyyən ölçü olur; belə ki, şeirdə hecanın miqdarına fikir verilir, qafiyə nəzərə alınır və s. Lakin nəsr əsərlərində isə bu ölçülər hazırkı dövrdə nəzərə alınmır (ədəbiyyatımızda qafiyəli nəsr də olmuşdur).

Ədəbi dilin funksional bədii üslubunun hər iki mikroüslublarında janrlarla əlaqədar bir sıra üslub variantları da olur. Məsələn:

1. Qəzəl üslubu.
2. Qəsidə üslubu.
3 Qoşma üslubu.
4. Roman üslubu.
5. Hekayə üslubu.
6. Dram üslubu.
7. Satira üslubu və s.

Dil əlamətləri. Ədəbi dilin bədii funksional üslubunun özünəməxsus bir sıra linqvistik əlamətləri vardır ki, bunlar onu başqalarından fərqləndirir. Həmin xüsusiyyətlər, əsasən, aşağıdakı sahələrdə özünü göstərir:

a) Fonetika sahəsində. Bədii üslubda dilin səs sistemi, bir növ, estetik təsir vasitəsinə çevrilir. Xüsusən poeziyada gözəl ahəng, musiqilik səslərlə yaradılır. Eyni zamanda, səslərin fonetik sıralanması ilə bəzən ifadənin təsiri də qüvvətləndirilir. Belə bir vəziyyət, əsasən, bədii üslub üçün xarakterikdir.

b) Lüğət tərkibi sahəsində. Ədəbi dilin bədii funksional üslubu lüğət tərkibinin materiallarından istifadə edilməsi sahəsində daha çox üslubi rəngarənglik göstərir.

Söz və ifadə seçməkdə. Bədii üslubda yaradılan əsərlərdə müxtəlif söz qruplarına müraciət olunur və orada lazımi sözlər seçilib işlədilir. Dildə elə bir söz qrupu ola bilməz ki, bədii üslub oradan istifadə etməsin. Dildə hər nə varsa, bədii üslubun xidmətindədir. Bədii üslubda bu və ya başqa üslubi məqam, yaxud surətin nitqini fərdiləşdirmək üçün danışıq dili vahidlərindən – sənət-peşə, loru və dialekt sözlərindən geniş istifadə olunur. Bununla yanaşı, bədii üslubda sözlərin məna qruplarından eyni səslənməyə malik müxtəlif sözlərdən (omonim); müxtəlif formalı, lakin yaxın məna ifadə edən sözlərdən (sinonim) bədii ifadə vasitəsi kimi çox geniş istifadə olunur. Bütün bunlar isə oxucu və ya dinləyicinin bədii zövqünü oxşamağa qüvvətli təsir göstərir.

Söz və ifadələrin işlədilməsində. Bədii ədəbiyyat dil sahəsində geniş novatorluq meydanıdır. Burada mövcud söz və ifadələrə yeni məna vermək, söz və ifadəyə emosional çalarlıq gətirmək və bunları çox müxtəlif formalarda, müxtəlif məqam və vəziyyətdə işlətmək olur. Bədii ədəbiyyatda ayrı-ayrı sözlərdən yeni mənalarda istifadə olunması onların məcazi məna kəsb etməsi imkanları ilə bağlıdır. Hər bir sözün məcazi mənası dildə müəyyən obrazlılıq əmələ gətirir. Bədii ədəbiyyatda məcazların müxtəlif formalarından olduqca geniş şəkildə istifadə edilir. Buna görə də bədii üslub obrazlı olur və bu cəhətinə əsasən digər üslublardan aydın fərqlənir.

c) Qrammatika sahəsində. Bədii üslubda bəzi dil vasitələrinə bədii meyarla yanaşılır. Bu və ya başqa bir vasitə bədii qanunlara müvafiq olaraq bədii zərurət əsasında işlənilir. Bədii üslubda sintaktik fiqurlar – ritorik suallar, bədii nidalar və xitablar çox işlənir. Bu da öz növbəsində onu başqa üslublardan fərqləndirir.

Başqa əlamətləri. Müəyyən məqsədlərlə ədəbi dilin bədii funksional üslubunda bir sıra vasitələrdən də istifadə olunur.

Sitatlardan istifadə. Bədii üslubda sitatlara geniş yer verilir. Burada işlənən hər bir poetik sitat öz vəzifəsinə görə elmi sitatdan fərqlənir. Poetik sitatlar bədii surətlərin nitqini fərdiləşdirmək və sair kimi üslubi cəhətlər üçün işlənilir.

Epiqrafların işlədilməsi. Ədəbi dilin bədii funksional üslubunda epiqraflara tez-tez müraciət olunur. Hər bir epiqraf mətnin əvvəlində verilərək həmin mətnin məzmunu ilə uyğun gəlir. Bunların vasitəsilə müəllif ifadə olunan fikrin təsirini daha da artırır.

3. ELMİ ÜSLUB

Fikrin elmi şəkildə ifadə olunması ədəbi dilin elmi funksional üslubu adlanır. Elmi üsluba, eyni zamanda, *elmi dil* də deyildiyinə rast gəlmək olur. Bu məqsədlə anlayış dəqiqliyi tələbinə müvafiq olaraq "elmi üslub" terminindən istifadə edilməsi məqsədə daha müvafiqdir.

Azərbaycan ədəbi dilinin elmi funksional üslubu bədii üslubdan sonra formalaşmağa başlamışdır. Bu üslub tarix boyu geniş təkmilləşmə və zənginləşmə yolu keçmişdir. Hazırda elmin bütün sahələrinə dair mükəmməl elmi əsərlər yaradılmış və bu üslubda yazılar, əsərlər yaradılmaqdadır.

İstifadə dairəsi. Ədəbi dilin elmi-funksional üslubundan insanların bütün *elmi fəaliyyəti* dairəsində istifadə olunur.

Elm təbiət və cəmiyyət qanunlarını aydınlaşdırır. Buna görə də elm mövcud anlayışlara dair dəqiq izah tələb edir; müəyyən məsələ şərh olunarkən elmi təfəkkür əsas götürülür. Müasir dövrdə elm sürətlə inkişaf edir. Bu proses isə ona aid ünsiyyət formasının daha da təkmilləşməsi-

ni tələb edir. İndiki elmi ünsiyyət özünün yığcamlığı, məntiqliyi və dəqiqliyi ilə səciyyələnir. Elmi üslub bədii üslub qədər kütləvi xarakter daşımır. Belə ki, bədii üslubda yazılan hər bir parçanı oxuyanda və ya eşidəndə hamı başa düşür. Lakin elmi üslubda müxtəlif sahələrə aid yazılan əsərləri xalqın bütün üzvləri dərk edə bilmir.

Janrları. Ədəbi dilin elmi funksional üslubunun aşağıdakı janrları vardır:

a) monoqrafiya;

b) dərslik;

c) tədris vəsaiti;

ç) elmi və metodiki jurnal məqaləsi və s.

Elmi üslubda meydana çıxan bu növ əsərlərdə yazılı monoloq forması daha üstün olur.

Mikroüslubları. Yazı ənənəsinə malik olan dünya dilləri yüzillər ərzində özünün ümumi elmi üslubunu yaratmışdır. İllər keçdikcə bu ümumi üslubun tərkibi *mikroüslublarla, üslub variantları* ilə genişlənib inkişaf etmişdir.

İnkişaf etmiş ədəbi dillərdə elmi üslubun iki növ mikroüslubu meydana gəlmişdir. Birinci növ mikroüslublar bunlardır:

a) ictimai elmlər üslubu;

b) təbiət elmləri üslubu;

c) texniki elmlər üslubu.

Bu mikroüslubların hər birinin konkret elm sahəsi ilə bağlı üslubları mövcuddur. Məsələn, riyaziyyat elminin üslubu, tibb elminin üslubu, tarix elminin üslubu, kimya elminin üslubu və s. Bunların heç biri müstəqil deyildir. Ümumi üslub fonunda üslubi variantlardır.

İkinci növ mikroüslublar aşağıdakılardır:

a) xüsusi elmi üslub;

b) elmi-tədris üslubu;

c) elmi-kütləvi üslub.

Ədəbi dilin elmi funksional üslubunun bu göstərilən variantları da müəyyən üslubi vəzifələr yerinə yetirir. Xüsusi elmi üslub – elmi-nəzəri ədəbiyyat (monoqrafiyalar), elmi-tədris üslubu, elmi-metodik ədəbiyyat (dərsliklər), elmi-kütləvi üslub isə geniş oxucu üçün nəzərdə tutulan əsərlər üçün xarakterik hadisələrdir.

Ədəbi dilin elmi funksional üslubunun tərkibinə aid olan mikroüslubların meydana çıxması və diferensiallaşması prosesi davam etməkdədir. Bu proses elmin inkişafı ilə davam edir və edəcəkdir.

Dil əlamətləri. Ədəbi dilin elmi funksional üslubunun bir sıra dil əlamətləri vardır. Bu əlamətlər dilin müxtəlif sahə və vahidlərində müşahidə olunur.

a) Fonetika sahəsində. Ədəbi dilin elmi funksional üslubunun *fonetik əlamətlərini* müəyyənləşdirmək üçün fonetik sistemi təşkil edən bütün vahidlər, onların birləşmə və yanaşma formaları, digər fonetik hadisələr nəzərdən keçirilir. Bu üslubda hər bir səsin – fonemin tam tələffüzü tələb olunur. Burada intonasiya və nitqin sürəti də xüsusi əhəmiyyətə malikdir.

b) Lüğət tərkibi sahəsində. Ədəbi dilin elmi funksional üslubu üçün bir çox lüğəvi əlamət müəyyənləşdirmək olur. Qeyd etməliyik ki, hər növ ünsiyyət üçün ilk növbədə uyğun söz və ifadə gərək olur. İnsan fəaliyyətinin elm sahəsinə dair ünsiyyətə də xüsusi dil vahidləri tələb olunur. Bu tələblə əlaqədar elmi üslubda lüğəvi əlamətlər meydana çıxır:

1. Bu üslub üçün anlayışı ən dəqiq ifadə edən sözlər seçilir.
2. Dar ixtisas sözlərindən, ümumkitab leksikasından geniş istifadə olunur.
3. Emosional-ekspressiv çalarlıq yaradan sözlərə, arxaizm və dialektizmlərə yer verilmir.

4. Terminlərdən bol-bol istifadə olunur. Termin elm üçün ən başlıca dil vasitəsidir. Buna görə də elmin müxtəlif sahələrinə dair aparılan tədqiqatlarda terminlərə tez-tez müraciət olunur. Bu terminlər aid olduğu elmin nəzəri konsepsiyaları ilə bağlı vəzifə daşıyır. Buna görə də termin dəqiq olmalıdır.

c) Qrammatika sahəsində. Ədəbi dilin elmi funksional üslubu morfoloji və sintaktik əlamətləri ilə digərindən seçilir.

Morfoloji dil əlamətləri dedikdə buraya, əsasən, aşağıdakılar aid edilir:

1. Adətən, fellərə nisbətən isimlərdən çox istifadə olunur.
2. Beynəlxalq xarakterli sözlər yaradan morfemlərə geniş yer verilir.

Sintaktik əlamətlər aşağıdakı dil hadisələrində daha çox nəzərə çarpır.

1. Bu və ya başqa anlayışın dəqiq və düzgün ifadə edilməsi üçün mürəkkəb cümlələrdən, sintaktik konstruksiyalardan geniş istifadə olunur.
2. Hər hansı məsələ şərh olunarkən elmi üslubun tələbləri ilə bağlı xüsusi ifadələr tez-tez işlənilir. Məsələn, *"tədqiqat göstərir ki"*, *"belə nəticəyə gəlmək olur ki"*, *"bu baxımdan"* və s.
3. Başqasının fikrini eyni ilə vermək üçün elmi sitatlara geniş yer verilir və s.

Ekstralinqvistik əlamətləri. Ədəbi dilin elmi üslubunda bir sıra ekstralinqvistik faktorlardan istifadə olunur. Nitqin bu növündə *üslub yaradan amil* kimi *simvolik və qrafik* vasitələr geniş işlənir:

a) Ayrı-ayrı elm sahələri ilə əlaqədar olaraq elmi üslubda yazılan əsərlərdə *müxtəlif işarələr sistemindən* istifadə edilir. Dialektoloji tədqiqatlarda transkripsiya ilə əlaqədar işarələr buna misal ola bilər.

b) Bəzi elm sahələrində qədim yunan və latın hərflərinə – qrafemlərə müraciət olunur. Məsələn, *iks* (x), *iqrek* (y) və s.

c) Elmi nəticələri ümumiləşdirmək və əyaniləşdirmək üçün sxem, cədvəl və sairdən istifadə edilir.

4. PUBLİSİSTİK ÜSLUB

İctimai və siyasi məsələlərin geniş xalq kütləsinin anlayacağı şəkildə izah edilməsi ədəbi dilin publisistik funksional üslubu adlanır. Publisistik üsluba, eyni zamanda, kütləvi *üslub, kütləvi dil* də deyilir.

Publisistik üslubun əmələ gəlməsində mətbuatın xüsusi rolu vardır. Buna görə də bu üslubu çox zaman *mətbuat üslubu* adlandırırlar. Lakin qeyd etməliyik ki, qəzet və jurnallardakı məqalələrin hamısı publisistik üslubda yazılmır.

Azərbaycan ədəbi dilinin publisistik funksional üslubunun bünövrəsi XIX əsrdə milli mətbuatın meydana çıxdığı dövrdə qoyulmuşdur. Ədəbi dilimizdə bu üslubun xüsusi mövqeyi və əhəmiyyəti vardır.

İstifadə dairəsi. Ədəbi dilin publisistik funksional üslubu universal xarakterdə olub, kütləvi kommunikasiya üçün geniş istifadə edilir. Hər cür kütləvi informasiya qəzet, radio, televiziya, mitinq və iclaslardakı çıxışlarla, əsasən publisistik üslubda geniş xalq kütləsinə çatdırılır.

Janrları. Publisistik üslub bir neçə janrda özünü göstərir. Həmin janrlar bunlardır:

1) Baş məqalə (qəzet və jurnalda); 2) oçerk; 3) felyeton; 4) intervü; 5) reportaj və s.

Mikroüslubları. Publisistik üslubun bir-birindən seçilən iki mikroüslubu fəaliyyət göstərir:

1) Jurnal üslubu;

2) Qəzet üslubu.

Bu üslubların fərqli cəhətləri çoxdur. Həmin fərqlər, hər şeydən əvvəl, ondadır ki, qəzetdə mənası ağır başa düşülən sözlərə, tərkiblərə yer verilmir. Lakin jurnalda yeni terminlər, tərkiblər, qısaltmalar daha çox işlənir.

Dil əlamətləri. Publisistik ədəbiyyat öz məzmununda iqtisadi, siyasi, mədəni, fəlsəfi, dini və sair problemləri əhatə etdiyinə görə həmin sahələrlə əlaqədar anlayışlarla bağlı dil vahidlərindən istifadə olunur. Bununla da publisistik üslubun xüsusi dil əlamətləri özünü göstərir:

a) Fonetika sahəsində. Publisistik üslub ədəbi dilin həm yazılı, həm də şifahi formasında istifadə edilir. Buna görə də burada səslərin tam tələffüz edilməsi tələb olunur. Səslərin aydın tələffüzü ilə yanaşı, onların ahəngdarlığı, tonu və sürəti də xüsusi əhəmiyyət kəsb edir. Fonetik tələblərə ciddi riayət olunması ədəbi dilin publisistik funksional üslubu üçün əsas şərtlərdən hesab olunur.

b) Lüğət tərkibi sahəsində. Publisistik üslubun səciyyələnməsində lüğəvi vahidlər xüsusi rol oynayır:

1) Burada ictimai-siyasi leksikadan, elm, mədəniyyət, sənaye və digər sahələrə dair terminlərdən geniş istifadə olunur;
2) Nitqi müxtəlif rəngə salmaq üçün yeni sözlərə, arxaizmlərə, məhdud dairədə işlənən söz və ifadələrə tez-tez müraciət olunur;
3) Müəyyən hədəfi tənqid və ifşa etmək məqsədi ilə kəskin söz və ifadələr seçilib işlədilir;
4) Sözün istehza ilə işlədilməsinə geniş yer verilir;
5) Frazeoloji vahidlərin hər növündən, özü də çox geniş istifadə edilir;
6) Müxtəlif mövzularda danışıq dili ünsürlərinə geniş yer verilir. Məsələn, "Kirpi" jurnalının materiallarında külli miqdarda xalq danışıq ifadə və tərkibləri və s. işlədilir.

c) Qrammatika sahəsində. Publisistik üslub üçün bir sıra morfoloji və sintaktik əlamətlər xarakterikdir.

Bu üslubda mücərrəd isimlər nitqə geniş daxil edilir. Felin indiki zamanı tez-tez işlənilir. Dildə yeni yaranan

beynəlxalq sözlərə dair budaq morfemlərdən – şəkilçilərdən yeri gəldikcə istifadə olunur.

Sintaktik vahidlərdən yarımçıq cümlələrin işlədilməsi, vasitəsiz nitqə geniş yer verilməsi, yaxud ritorik suallar, təkrarlar, anafora və antitezalardan istifadə olunması xüsusi üslubi vəzifə daşıyır.

Nəhayət, üslublar sistemində ədəbi dilin publisistik funksional üslubu daha çox sadəliyi, yığcamlığı, kütləviliyi, kəskinliyi və təsirliliyi ilə səciyyələnir.

5. RƏSMİ ÜSLUB

Cəmiyyətdə rəsmi münasibətləri bildirmək üçün yazılan dövlət sənədlərinin üslubu *ədəbi dilin rəsmi funksional üslubu* adlanır. Bu üsluba, eyni zamanda, *rəsmi sənədlərin üslubu, rəsmi dil də deyilir.*

Azərbaycan ədəbi dilinin rəsmi funksional üslubu, əsasən, XIX əsrdə, yəni milli ədəbi dilin sabitləşməsi dövründə formalaşmağa başlamışdır. Həmin dövrdən başlanan mübarizə nəticəsində bu üslub daha da inkişaf etmiş, onun janrları və mikroüslubları yaranmışdır.

İstifadə dairəsi. Ədəbi dilin bu üslubundan iqtisadiyyat, hüquq, mədəniyyət, ticarət işləri sahəsində, diplomatik münasibətlərin bildirilməsində istifadə olunur. Dövlət idarə, təşkilat və müəssisələrinin kargüzarlıq işlərinə dair sənədlərin dilində rəsmi üslub əsas yer tutur. Bu sahədə nitq təzahürü və şəraitində kargüzarlıq sənədlərinin üslubu standartlaşır, başqa yazılı işlərdən seçilir.

Janrları. Bu üslubda müxtəlif növ sənədlər hazırlanır. Rəsmi üslubun aşağıdakı janrları geniş yayılmışdır.

1) Qanun; 2) bəyanat; 3) qətnamə; 4) sərəncam; 5) qərar; 6) əmr; 7) nota; 8) təlimat; 9) hesabat; 10) vəkalətnamə; 11) qəbz; 12) protokol; 13) arayış; müraciət və s.

Mikroüslubları. Ədəbi dilin rəsmi funksional üslubunun bir neçə mikroüslubu meydana gəlmişdir:

1) Hüquqi qanunvericilik üslubu;

2) Siyasi – diplomatik üslub;

3) İdarə – dəftərxana üslubu.

Dil əlamətləri. Rəsmi üslubda yazılan sənədlərdə fikrin konkret şəkildə izahı tələb olunur. Buna əsasən də rəsmi üslubun özünə aid dil əlamətləri mövcuddur:

a) *Fonetika sahəsində.* Rəsmi üslubda olan sənədlər oxunarkən hər bir səs tam və aydın tələffüz olunur. Burada nitqin sürəti adi, ritmi mülayim olur. Sözlərin yazılışında səslərin düzgün və dəqiq əks olunması diqqət mərkəzində durur və s.

b) *Lüğət tərkibi sahəsində.* Bu üslub üçün başlıca lüğəvi əlamət kitab leksikasından və kargüzarlığa məxsus terminlərdən istifadə olunmasıdır. Burada ikimənalılığa, dolaşıqlığa yol verməmək üçün hər bir anlayışa dair tam aydın olan söz seçilib işlədilir.

c) *Qrammatika sahəsində.* Rəsmi üslub üçün qrammatik vahidlər də müəyyən vəzifə daşıyır:

1) Burada hər hansı bir anlayışın izahı üçün ədəbi dilin qrammatik normalarına düzgün və dəqiq riayət olunur, kitab dilinə məxsus söz birləşməsi və cümlələr işlədilir.

2) Ştamp xarakterli xüsusi tərkiblərdən, ifadələrdən geniş istifadə edilir.

Başqa əlamətlər. Ədəbi dilin rəsmi funksional üslubu üçün iki xüsusiyyət daha vacibdir:

1) Hər bir məsələnin *aydın* və olduqca *qısa* izah edilməsi;

2) Artıq və lüzumsuz sözlərə, təkrarlara, *bədii ifadə vasitələrinə* yol verilməməsi.

6. EPİSTOLYAR ÜSLUB

Epistolyar üslub ədəbi dilin funksional üslubları sistemində xüsusi mövqeyə malikdir[1]. Bu üslub tarixən müxtəlif növ məktubların meydana çıxması əsasında yaranıb formalaşmışdır.

İstifadə dairəsi. Məktublaşma sənədləri ədəbi dilin *epistolyar funksional* üslubunda yazılır. Buna şəxsi yazışma üslubu da deyilir.

Məktublaşma, əsasən, ikitərəfli olur. Hər hansı bir məktub adresata göndərilir və onun cavabı da gözlənilir.

Janrları. Epistolyar üslubun bir neçə janrı meydana çıxmışdır. Həmin janrlar bunlardır:

1) *Ailə-məişət məktubları.* Ailə üzvləri və qohumları arasındakı yazışmalar bu janra aid olur. Bu növ məktubların məzmununda hal-əhval bilməklə yanaşı, informasiya vermək də xüsusi yer tutur.
2) *Dostluq məktubları.* Dostlararası yazışma, bir növ, birinci qrup məktublara çox yaxın olur. Dost məktubu da vəziyyətlə tanışlıq və zəruri informasiya üzərində qurulur.
3) *Rəsmi məktublar.* Bu, əsasən, dövlət xadimlərinin bir-birinə olan yazışmalarına məxsus məktublardır. Belə yazışmalarda son dərəcə zəruri olan siyasi, iqtisadi və digər məsələlərə toxunulur. Məsələn, 1991-ci il iyul ayının 31-də Azərbaycan Respublikası Prezidentinin ABŞ Prezidentinə məktubunda olduğu kimi (“Həyat” qəzeti).
4) *Açıq məktublar.* Bu növ məktublar, adətən, mətbuatda dərc edilir. Bunun məzmunu tənqid və müraciətlə bağlı olur. Açıq məktublar, digərlərindən fərqli olaraq, həm şəxsi, həm də kollektiv şəkildə yazıla bilir.

[1] Afad Qurbanov. “Müasir Azərbaycan ədəbi dili”. Bakı, 1985, səh.27-28.

Dil əlamətləri. Ədəbi dilin epistolyar funksional üslubu aşağıdakı *dil əlamətlərinə* malikdir:

1) Hadisənin I şəxs tərəfindən nəql edilməsi və buna müvafiq 1 şəxs əvəzliyinin işlənilməsi;
2) Nəzərdə tutulan adresata müraciət və II şəxs əvəzliyinin tək və ya cəminin varlığının mövcud olması;
3) Tərkiblər və söz birləşmələri kimi dil vahidlərinin, xüsusən məktubların əvvəlində və sonunda özünü göstərən (ştamplar) standartların olması;
4) Müxtəlif quruluşlu xitabların işlənməsi.

Bu və ya başqa bir məktubun epistolyar üslubun hansı janrına aid olmasını məktub müəllifinin fərdi yaradıcılıq xüsusiyyətləri müəyyənləşdirir.

Epistolyar mətnlərin (məktubların) tərkibi, əsasən, üç komponentdən ibarət olur:

a) Başlanğıc hissə;

b) Əsas hissə;

c) Sonluq.

Başlanğıc hissədə, əksər hallarda, adresata müraciət edilir və bundan sonra ötəri olaraq hal-əhval soruşulur. Məktubda adresata müraciət epistolyar monoloqun dialoqlaşdırılması əlamətidir.

Əsas hissə ortada verilir. Burada adresata hər hansı bir informasiya məlum edilir, yaxud adresatı düşündürən məsələlər barədə mühakimə yürüdülür, yaxud da hər hansı hadisə nəql olunur və s.

Məktubun sonluğu yekunlaşdırıcı xüsusi, xarakterik ifadə və cümlələrlə tamamlanır.

Ümumiyyətlə, deməliyik ki, bu və ya başqa bir üslubun yaranma tarixi müəyyən zamanla – əsrlə bağlıdırsa, onun formalaşması və inkişafı xalqın əsrlər boyu əldə etdiyi nailiyyətlərin nəticəsidir.

4.05. FUNKSİONAL ÜSLUBLARIN ƏLAQƏ VƏ MÜNASİBƏTİ

Ədəbi dillərin funksional üslublarının sərhədinin müəyyənləşdirilməsi, onların qarşılıqlı əlaqə və münasibətlərinin aydınlaşdırılması üslub nəzəriyyəsində ən mürəkkəb məsələlərdən hesab olunur.

Üslubi sərhəd. İndiyə kimi dünya dillərindəki funksional üslubların heç birinin sərhədi qəti şəkildə müəyyənləşdirilməmişdir. XX əsrin məşhur üslub tədqiqatçıları belə bir fikirlə razılaşmışlar ki, ədəbi dillərin funksional üslubları arasında birdəfəlik sərhəd müəyyən etmək qeyri-mümkündür. Çünki bu və ya digər üsluba məxsus cəhətlər başqa üslublarda da ola bilir. Ümumiyyətlə, üslubların sərhədi çox dəyişkən xarakterlidir. Türk dillərində elmi üslubla publisistik üslubu tam fərqləndirmək çox çətindir. Bu iki üslub üçün eyni olan *üslubi əlamətlər* çoxdur. Buna görə də ədəbi dillərdə *üslublararası sərhəd* şərti olaraq göstərilir.

Üslubi əlaqə. Dildə heç bir hadisə başqasından təcrid olunmuş şəkildə yaşaya bilmir. Dili təşkil edən bütün hadisələr bir-biri ilə bağlıdır, biri digərinə yaxındır. Üslublar da belə keyfiyyətə malikdir. Ədəbi dilin ayrı-ayrı üslubları müxtəlif dərəcədə bir-birinə yaxındır.

Məsələn, elmi üslub bədii üsluba nisbətən daha çox publisistik üsluba yaxındır. Üslubi yaxınlıq hər növ üslubi əlaqənin əsasını təşkil edir.

Ədəbi dilin funksional üslubları bir-biri ilə hissolunmaz keçidlərlə əlaqəlidir. Ayrı-ayrı ünsürlər bir üslubdan digərinə keçir, onunla qarışır, müəyyən vəzifə yerinə yetirərkən əlaqəyə girir. Üslublararası əlaqə funksional üslublarda müxtəlif dərəcədə özünü göstərir. Məsələn, ədəbi danışıq üslubu bütün üslublarla möhkəm əlaqədə olub,



Cədvəl 10

üslubi əlaqələrin mərkəzində durur. Ədəbi dilin üslublar sisteminin əlaqəsini qrafik formada 10-cu cədvəldəki kimi təsəvvür etmək olar.

Üslubi münasibət. Ədəbi dilin funksional üslublarının vəziyyəti və onların inkişafı qarşılıqlı münasibət, qarşılıqlı təsir amili ilə bağlıdır. Üslubi münasibəti yaxınlıq və əlaqələr əsasında ədəbi dilin üslubları ümumi üslubi rəngarənglikdə cəmləşir, bütöv üslublar sistemi əmələ gəlir.

4.06. FUNKSİONAL ÜSLUBLARIN ÖYRƏNİLMƏSİ YOLLARI

Hər bir ədəbi dilin funksional üslubları sisteminin öyrənilməsinin, onun ayrı-ayrı üslublarının ümumi səciyyələndirilməsinin və elmi təsvirinin həm xüsusi nəzəri, həm də praktik əhəmiyyəti vardır. Üslubların təhlili aid olduğu dilin mədəni məsələlərinin aydınlaşdırılmasına kömək edir.

Funksional üslubların öyrənilməsi ümumən dilin funksional inkişafının araşdırılması deməkdir. Buna görə də *üslublar sahəsinin tədqiqi bütövlükdə ədəbi dilin tarixi* adlanır. Deməli, *üslubların inkişaf tarixi ədəbi dilin tarixidir.*

Dünya ədəbi dillərinin funksional üslublarının hərtərəfli və geniş elmi tədqiqata cəlb olunması nəticəsində *dilçiliyin ədəbi dil nəzəriyyəsi* daha da inkişaf edir və zənginləşir.

Üslubi mənbə. Dil hadisələrinin axtarılması və öyrənilməsində mənbə müəyyənləşdirilməsi də vacib məsələlərdəndir. Adətən, üslubi mənbə kimi *yazılı abidələr, bədii ədəbiyyat, rəsmi sənədlər* və s. tədqiqatçıların nəzərində olur. Vaxtında fəaliyyət göstərmiş və ya indi yaşayan hər bir üslubun müəyyənləşdirilməsində yazılı materiallar daha çox fakt verir. Buna görə də üslubların əlamətlərinin seçilməsi və fərqləndirilməsində həmin mənbələrə müraciət edilir, üslubi hadisələr linqvistik baxımdan obyektiv qiymətləndirilir.

Üslubi tədqiqat prinsipləri. Dilin üslubi hadisələri tədqiq olunarkən bir sıra prinsipdən istifadə edilir. Burada onların hamısı haqqında deyil, ancaq ən vacib hesab olunanların bir neçəsindən bəhs ediləcəkdir:

a) Milli bünövrəyə əsaslanmaq prinsipi. Dünya dillərinin hər birinin üslubi sistemi milli əlamət və keyfiyyətlərə malikdir. Mövcud canlı dillərdə üslubların miqdarı, həcmi, yayılması, onların sistemdə yeri, başqa üslublara yaxınlığı, qarşılıqlı əlaqəsi, təşəkkül tapma və inkişaf yolları müxtəlif olur. Buna görə də hər bir dilin üslublar sistemi üzərində tədqiqat aparılarkən onun milli bünövrəsi – milli əlamətləri, xüsusiyyətləri, cəhətləri nəzərə alınmalıdır.

Dünyanın bir çox inkişaf etmiş dillərinin, o cümlədən ərəb, fars, ingilis, alman, fransız, çin, yapon dilinin üslubları elmi əsasda öyrənilmişdir. Üslub tədqiqatçıları XIX əsrdə yapon dilinin altı üslubu olduğunu müəyyən etmişlər:

1. Çin dilinin hərfi tərcümə üslubu.
2. Yapon-Çin üslubu.
3. Yapon-Avropa üslubu.
4. Xalq danışıq üslubu.
5. Formal klassik üslub.
6. Danışıq dili ilə yazılı dilin vəhdəti üslubu.

Yapon dilinin XIX əsr üslublar sistemi müəyyənləşdirilərkən, göründüyü kimi, həmin dilin milli ünsiyyəti, dil əhatəsi, dövrün ictimai-siyasi vəziyyəti nəzərə alınmışdır. XIX əsrdə çin dilinin yapon dilinə təsiri güclü olmuş, onun üslublarında da bu cəhət öz əksini tapmışdır.

b) Xronoloji tarixilik prinsipi. Ədəbi dillərin funksional üslublarının öyrənilməsinin digər başlıca prinsipi tarixilikdir. Elm sübuta yetirmişdir ki, funksional üslubları təşkil edən materiallar təbiəti etibarı ilə dəyişkəndir. Buna görə də ədəbi dillərin üslubi sistemi tədqiq edilərkən hadisəyə konkret tarixi baxımdan yanaşılması tələb olunur. Belə olduqda tarixilik prinsipi üslubi hadisələrin doğru və düzgün müəyyənləşdirilməsini təmin edə bilir.

Ədəbi dilin funksional üslublarını bir sıra üsul və xronoloji bölgü əsasında öyrənmək olar:

1) *Yazıyaqədərki dövrün üslublarının tədqiqi.* Burada ədəbi dilin şifahi yolla təşəkkül tapdığı, lap ilk dövrlərdəki üslubi hadisələri nəzərdə tutulur. Məsələn, *"yazıyaqədərki dövrlərdə türk ədəbi dilinin funksional üslubları"*, *"yazıyaqədərki dövrlərdə Azərbaycan ədəbi dilinin funksional üslubları"* və s.
2) *Yazılı ədəbi dillə əlaqədar təşəkkül tapmış üslubların öyrənilməsi.* Belə tədqiqata hər hansı bir dilin bütün üslublar sistemi cəlb edilir. Məsələn, *"Azərbaycan ədəbi dilinin funksional üslublar sistemi"*, *"türkmən ədəbi dilinin funksional üslublar sistemi"* və s.
3) *Ayrılıqda bir üslubun tarixi.* Bu növ axtarışlarda müəyyən funksional üslub tədqiqat obyekti kimi götürülür.

Məsələn: *"Azərbaycan ədəbi dilinin rəsmi funksional üslubunun tarixi"*, *"tatar ədəbi dilinin elmi funksional üslubunun tarixi"* və s.

4) *Əsrlər üzrə üslubların öyrənilməsi.* Belə tədqiqatlarda ya bir və ya da bir neçə əsrin hissələri üzrə axtarışlar aparılır, üslubi hadisələrin elmi təhlili verilir. Məsələn:

VIII–IX əsrlərdə Azərbaycan ədəbi dilinin funksional üslubları.

X–XII əsrlərdə Azərbaycan ədəbi dilinin funksional üslubları.

XIII–XVIII əsrlərdə Azərbaycan ədəbi dilinin funksional üslubları.

XIX əsrdə Azərbaycan ədəbi dilinin funksional üslubları.

XX əsrdə Azərbaycan ədəbi dilinin funksional üslubları:

a) XX əsrin I yarısında funksional üslublar.

b) XX əsrin II yarısında funksional üslublar.

Azərbaycan ədəbi dilinin funksional üslublar sisteminin bu bölgülər üzrə tədqiqi, təhlili və təsviri dilçilik elmimizin böyük nailiyyətlərindən biri kimi həm də bununla dünya dilçiliyinə öz yeni bəhrəsini əlavə etmiş olar.

Ümumiyyətlə, deməliyik ki, hazırda üslubiyyat problemləri təkcə filoloq-dilçilərin deyil, bütün ictimaiyyətin maraq dairəsində xüsusi yer tutur. Buna görə də müasir elm həqiqi üslubiyyat nəzəriyyəsini tamamlamalıdır.

V FƏSİL

DİL VƏ MƏDƏNİYYƏT

DİL İLƏ MƏDƏNİYYƏTİN MÜNASİBƏTİ

Bir sıra digər aktual dilçilik məsələləri ilə yanaşı, "dil və mədəniyyət" problemi də ümumbəşəri problem olan "insan və mədəniyyət" probleminin tərkib hissələrindəndir. Elə buna görədir ki, dil və mədəniyyət probleminin məzmun və mahiyyəti ilə təkcə dilçilər deyil, həm də filosoflar, psixoloqlar, sosioloqlar və etnoqraflar da məşğul olmuşlar.

Dil və mədəniyyət probleminin məzmununu aydın və düzgün şəkildə mənimsəmək üçün mədəniyyət kateqoriyasının ümumi və xüsusi əlamətlərinə dair müəyyən təsəvvürə malik olmaq tələb edilir.

1. MƏDƏNİYYƏT ANLAYIŞI

Çoxsahəli insan fəaliyyətində mövcud olan ən geniş anlayışlardan biri mədəniyyətdir. Mədəniyyət anlayışı hələ uzaq keçmişdə antik mütəfəkkirlərin diqqətini xüsusi olaraq cəlb etmişdir. Qədim dövrlərdən başlayaraq mədəniyyət anlayışının məzmununun müxtəlif istiqamətlərdə müəyyənləşdirilməsinə səy göstərilmişdir.

Eradan əvvəl qədim xalqlarda "mədəniyyət" anlayışı o dərəcədə yayılmış ki, hətta fəlsəfəyə *"əqlin mədəniyyəti"* deyilmişdir. Ayrı-ayrı dövrlərdə mədəniyyət anlayışı ilə məşğul olanların bəziləri "nəzakətli və ədəbli olmağı", "gözəl davranış normalarına əməl etməyi", bəziləri "hər şeydən xəbər vermək bacarığına nail olmağı", "savadlılığı", digərləri isə "ədəbiyyat və incəsənət əsərlərini bilməyi

və onları təhlil etməyi bacarmağı", yaxud "öz ixtisasını ətraflı mənimsəməyi" mədəniyyət adlandırmışlar.

Ümuminsani mədəniyyət haqqında Q.Uisler demişdir: "Ümuminsani mədəniyyətin əlamətləri: dil, maddi mədəniyyət, incəsənət, bilik, din, cəmiyyət, xüsusiçilik, dövlət, müharibədir"[1]. Mədəniyyət anlayışı lüğətlərdə müxtəlif şəkildə aydınlaşdırılır, "Azərbaycan dilinin izahlı lüğəti"ndə mədəniyyət haqqında aşağıdakı izahlar verilmişdir:

Mədəniyyət (ər). 1. İnsan cəmiyyətinin istehsal sahəsində, ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu.

2. Hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi belə nailiyyətlərin səviyyəsi. Təsərrüfat və ya zehni fəaliyyətin, hər hansı birinin inkişaf səviyyəsi (istehsalat mədəniyyəti, nitq mədəniyyəti).

3. Savadlılıq, elmlilik, biliklilik // Cəmiyyətdə özünü apara bilmə // Mədəni adamın tələblərinə uyğun olan həyat şəraitinin məcmusu[2].

Mədəniyyət anlayışı, adətən, nəzəri ədəbiyyatda daha çox belə müəyyənləşdirilir: mədəniyyət insanların ictimai əmək prosesində yaratmış olduğu maddi sərvətlərin və mənəvi nemətlərin məcmusudur.

Mədəniyyətə münasibət hər bir sivilizasiyalı cəmiyyətin başlıca göstəricisidir. Elə buna görədir ki, elmi ədəbiyyatda "mədəniyyət" terminə sinonim kimi "sivilizasiya" sözünün də işləndiyinə rast gəlmək olur: qədim türk sivilizasiyası, Azərbaycan sivilizasiyası, ərəb sivilizasiyası, özbək sivilizasiyası və s.

Mədəniyyət anlayışının məzmunu müxtəlif fəaliyyət sahələrinə aid olduğu üçün müasir elmdə bir çox termindən istifadə olunur:

[1] G.Nisslor. Manand Gulture. N., V, 1923.
[2] Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı, 1983, səh.283.

– Xalq mədəniyyəti, milli mədəniyyət, ailə mədəniyyəti, maddi mədəniyyət, mənəvi mədəniyyət;

– Şərq mədəniyyəti, Qərb mədəniyyəti, şəhər mədəniyyəti, kənd mədəniyyəti, inşaat mədəniyyəti, təsərrüfat mədəniyyəti, sənaye mədəniyyəti, ticarət mədəniyyəti, incəsənət mədəniyyəti, musiqi mədəniyyəti, dini mədəniyyət, siyasi mədəniyyət, kitab mədəniyyəti, rəssamlıq mədəniyyəti, memarlıq mədəniyyəti;

– Ziyalı mədəniyyəti, yazıçı mədəniyyəti, şair mədəniyyəti, alim mədəniyyəti, müəllim mədəniyyəti, həkim mədəniyyəti, fəhlə mədəniyyəti;

– Dil mədəniyyəti, nitq mədəniyyəti, yazı mədəniyyəti, natiqlik mədəniyyəti və s.

Bu axırıncı terminlərin ifadə etdiyi anlayışlar – insan ünsiyyəti mədəniyyətinin linqvistik aspektləri olduğu üçün dilçilikdə öyrənilir.

Mədəniyyətin yaranması və inkişafı. Mədəniyyət insanın təbiətə, cəmiyyətə, onun üzvlərinə və özünün-özünə münasibətində yaranır. İnsanlar ictimai əmək və biliklərə sahib olmaq nəticəsində saysız-hesabsız rəngarəng, müxtəlif növ və çeşidli mədəniyyət abidələri yaratmışlar. Bu proses indi də arasıkəsilmədən davam edir.

Mədəniyyət dəyişən, təkmilləşən tarixi kateqoriyadır. Buna görə mədəniyyət də, başqa ictimai hadisələr kimi inkişaf edir, get-gedə şaxələnir, yeni-yeni nailiyyətlər qazanır. Mədəniyyətin inkişafı üçün insan fəaliyyəti əsas vasitədir. Bəşəri mədəniyyət insanın fiziki və zehni, xarici və daxili fəaliyyəti nəticəsində tərəqqi edir.

Hər yeni nəslin fiziki və zehni nailiyyətləri mədəniyyətin inkişafı üçün mənbədir. Bu nailiyyətlər keçmiş nəslin təcrübəsi əsasında, ona istinad olunaraq əldə edilir. Qazanılmış mədəniyyət nəsildən-nəslə verilir. Bu yol elmdə tarixi ənənə adlanır.

Mədəniyyət formaları. İnsan fəaliyyətinin iki başlıca – maddi və mənəvi sahəsi mövcuddur. Buna uyğun olaraq

onun iki forması meydana gəlmişdir: maddi mədəniyyət və mənəvi mədəniyyət.

Maddi mədəniyyət dedikdə, ictimai fiziki əmək nəticəsində istər keçmişdə, istərsə də indi yaranmış və gözlə görünən, müşahidə edilən əşyaların cəmi nəzərdə tutulur.

Mənəvi mədəniyyətə isə insanların yaratdığı elm, maarif, ədəbiyyat, incəsənət sərvətləri daxildir. Mədəniyyətin bu forması ictimai düşüncə formaları ilə möhkəm bağlıdır.

Milli mədəniyyət. Dünya xalqlarının hər birinin özünəməxsus mədəniyyəti vardır. Yer üzündə elə bir xalq tapmaq mümkün deyildir ki, onun öz əlləri ilə yaranmış maddi və mənəvi nailiyyətləri olmasın. Bu nailiyyətlər onu yaratmış xalqın milli mədəniyyətini təşkil edir.

Milli mədəniyyət xalqın miqdarı ilə deyil, onun yaratdığı nemətlərin, abidələrin kəmiyyət və keyfiyyətlərinə əsasən müəyyənləşdirilir. Azərbaycan ərazisində olan azsaylı xalqlardan *talışların* hələ uzaq keçmişdən özlərinə məxsus yüksək və təkrarolunmaz mədəniyyətləri formalaşmışdır. Lap azsaylı *udi* xalqının da diqqəti cəlb edən özünəməxsus qədim mədəniyyəti vardır.

Xalqların mədəniyyətləri ancaq milli çərçivədə məhdudlaşmır. Hər bir milli mədəniyyətdə *beynəlmiləl əlamətlər* də xüsusi yer tutur. Bu əlamətlər beynəlxalq əlaqələrin təsir və nəticəsi kimi özünü göstərir. Bütün xalqların mədəniyyətləri *ümumbəşəri mədəniyyətin t*ərkib hissəsini təşkil edir. Burada dil mədəniyyətinin də xüsusi yeri və rolu vardır.

2. MƏDƏNİYYƏTİN DİL İLƏ ƏLAQƏSİ

Dil və mədəniyyət arasında möhkəm əlaqə vardır. Bu əlaqə dialektik vəhdətin nəticəsi kimi özünü göstərir.

Dil ilə mədəniyyətin geniş əlaqəsi əsasında bunlar arasında qarşılıqlı təsir münasibəti yaranmışdır. Buna görə də dil mədəniyyətin, mədəniyyət də, öz növbəsində, dilin

inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə sıx bağlıdır. Millətin əsas əlamətlərindən olan dil o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir.

3. MƏDƏNİYYƏT VƏ ORTOLOGİYA

Yuxarıda qeyd olunduğu kimi, mədəniyyət insan fəaliyyətinin hər bir sahəsini əhatə edir. Cəmiyyətin varlığında mədəni tarixi hadisə olan dilin bir çox problemlərinin də mədəniyyət baxımından tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Ünsiyyət mədəniyyətinin öyrənilməsinin, xüsusilə mədəni nitqin xüsusiyyətlərinin axtarılması tarixi uzaq keçmişlə əlaqədardır. Qərbin və Şərqin bir sıra qədim mədəni ölkələrində nitq mədəniyyəti problemləri dövrün ictimai xadimlərini, filoloqlarını daha çox maraqlandırırdı. Dəbdə olan natiqlik sənətinin inkişafı nitq mədəniyyəti problemlərinə müraciət etmədən mümkün ola bilmirdi.

Dünya xalqlarının ictimai, siyasi və mədəni inkişafları ilə bağlı dil və nitq mədəniyyətinin yüksəlməsinə də xüsusi fikir verilmişdi. Tarixin ayrı-ayrı dövrlərində bu problemlər müstəqil elm sahəsi kimi öyrənilməmiş, buna başqa elm sahələri içərisində bu və ya digər şəkildə toxunulmuşdur.

XIX əsrdə nitq mədəniyyəti məsələləri müxtəlif elm və fəaliyyət sahələrinin diqqətini cəlb etmişdir. Bu əsrdə, xüsusi ilə yazıçı və şairlər düzgün nitq məsələlərinə ciddi nəzər yetirmişlər. XIX əsrin görkəmli söz sənətkarları Mirzə Fətəli Axundov Azərbaycan dilinin bir çox mədəni problemlərini qaldırmış və bu barədə xüsusi əhəmiyyətli işlər görmüşdür.

XX əsr dilçiliyində nitq mədəniyyətinin nəzəri və əməli vəzifələrinin elmi əsasda müəyyənləşdirilməsinin bünövrəsi qoyulmuşdur. Əsrin II yarısında nitq mədəniyyəti problemlərinin tədqiqi xüsusi vüsət almış və bunun əsasında *nitq mədəniyyəti nəzəriyyəsi* formalaşmışdır.

Müasir dilçilikdə bir çox dünya dillərinin nitq mədəniyyəti təlimi baxımından ortoloji təsviri verilmişdir. Hazırda *ortologiya* dilin mədəni problemlərindən bəhs edən bir dilçilik şöbəsi kimi öz varlığını göstərməkdədir.

Dilçiliyin *ortologiya* şöbəsinin ən başlıca vəzifəsi hər hansı bir dilin istər sinxronik, istərsə də diaxronik istiqamətdə ədəbi-mədəni əlamətlərinin xüsusiyyətlərinin obyektiv təhlilini verməkdən ibarətdir.

Azərbaycan dilinin ortoloji mənzərəsinin elmi təsviri – dil və nitq mədəniyyəti məsələləri əsrimizin 60-80-ci illərində tədqiqat obyekti kimi diqqəti özünə daha çox cəlb etmişdir. 1960-1970-ci illərdə Azərbaycan dilinin orfoepiyasına aid monoqrafiyalar yazılmışdır[1]. Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutu 70-80-ci illərdə "Dil mədəniyyəti" başlığı altında bir neçə məcmuə dərc etmişdir[2]. 1988-ci ildə Azərbaycan Pedaqoji Universitetində "Azərbaycan nitq mədəniyyəti problemləri" adlı əsər nəşr olunmuşdur[3]. Həmin universitetdə hazırlanmış "Azərbaycan terminologiyası problemləri"[4], üç cilddən ibarət "Azərbaycan onomastikası problemləri"[5] məcmuələrində nitq mədəniyyətinin ümumi məsələləri işıqlandırılmışdır.

Müasir dünyada bütün üzvləri arasında ünsiyyət mədəniyyəti tam inkişaf etmiş bir cəmiyyət tapmaq qeyri-mümkündür. Buna görə də ayrı-ayrı cəmiyyət üzvləri arasında mədəni nitqi yüksək səviyyəyə qaldırmaq üçün hazırkı dilçilikdə də "dil və mədəniyyət" problemi ictimai-mədəni əhəmiyyət kəsb edib öz aktuallığını saxlamaq-

[1] Ə.M.Dəmirçizadə. "Azərbaycan dili orfoepiyasının əsasları". Bakı, 1969; M.Ş.Şirəliyev. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, 1970.
[2] Dil mədəniyyəti, "Elm" nəşriyyatı. Bakı, 1972; II buraxılış, 1974; III buraxılış, 1979; IV buraxılış, 1985.
[3] Azərbaycan nitq mədəniyyəti problemləri. Bakı, 1988.
[4] Azərbaycan terminologiyası problemləri. Bakı, 1988.
[5] Azərbaycan onomastikası problemləri. Bakı, I cild, 1987; II cild, 1988; III cild, 1990.

dadır. Bu sahədə Azərbaycan dilçiliyinin də qarşısında hələ yerinə yetiriləsi bir sıra çətin və məsul vəzifələr durur.

5.01. XALQIN DİL MƏDƏNİYYƏTİ

İctimai ünsiyyət prosesinin mədəni əlamət və səviyyəsini ifadə etmək üçün dilçilik elmində "dil mədəniyyəti" və "nitq mədəniyyəti" terminlərindən istifadə olunur. Çox hallarda bu terminlər fərqləndirilmədən sinonim kimi işlənilir. Göstərilən terminlərin indiyə qədər fərqləndirilməməsinin bir sıra obyektiv və eləcə də subyektiv səbəbləri vardır. Hər şeydən əvvəl deməliyik ki, bu problem son zamanlarda dilçiliyin tədqiqat sahəsinə daxil olmuş, burada müəyyən elmi ənənə meydana gəlməmişdir.

Digər cəhətdən isə tədqiqatçılar mədəniyyət anlayışına müxtəlif mövqelərdən yanaşmış və bir-birindən fərqli mülahizələr irəli sürmüşlər.

Məlumdur ki, "dil mədəniyyəti" və "nitq mədəniyyəti" 11-ci cədvəldə göstərildiyi kimi, eyni anlayış deyildir.



Cədvəl 11

Bunların fərqi ayrılıqda *dil anlayışı və nitq anlayışı* fonunda özünü göstərir. Buna görə dil mədəniyyəti və nitq mədəniyyəti anlayışlarının sərhədinin dəqiq müəyyənləşdirilməsi xüsusi elmi əhəmiyyət kəsb edir.

DİL MƏDƏNİYYƏTİ MƏSƏLƏLƏRİ

Dil mədəniyyəti anlayışı çox geniş əhatəyə malikdir. Dilçilikdə bu anlayışı ifadə etmək məqsədilə "dil mədəniyyəti" və "mədəni dil" terminlərindən istifadə olunur.

Dil mədəniyyəti dedikdə, hər bir xalqın öz dilində fikrin bütün incəliyi ilə ifadə oluna bilməsi nəzərdə tutulur. Yüksək mədəniyyətə malik olan hər bir mədəni dil üçün onun ahəngdar fonemlər sistemi, geniş lüğət tərkibi, sabit qrammatik quruluşu olmalıdır.

Mədəni dil üçün mükəmməl və dəyişməz yazı sisteminin olması da başlıca şərtlərdəndir.

Məlumdur ki, dünya dillərinin əksəriyyəti hələ qədimdən yazıya malik olmuş və bunun təsirində onların mədəni səviyyəsi ucalmışdır. Lakin bununla bahəm bəzi dillərin yazısı XX əsrin ortalarında formalaşmış, bir sıra dünya xalqlarının isə indiyədək yazı ənənəsi yaranmamışdır. Belə bir cəhət, heç şübhəsiz, dillərə öz mənfi təsirini göstərməyə bilməz.

Dil dəyişən, inkişaf edən ictimai hadisədir. Onun ümumi prinsipləri, kateqoriyaları vardır. Zaman-zaman burada ciddi dil hadisələri baş verir. Bəzi dil hadisəsi yeni səviyyəli olub dilə keçir, bəzisi köhnəlir, arxaikləşir və sıradan çıxır.

Dil mədəniyyətinin inkişaf yolları izlənərkən bu dəyişikliklər linqvistik mövqedən qiymətləndirilməli, hər bir dil hadisəsinin taleyinə, gələcəyinə istiqamət verilməlidir. Bir sözlə, dil mədəniyyəti nəzəriyyəsi "dil təkamülü mexanizmi haqqında ümumi təlim" olmalıdır (E.D.Polivanov).

Dildə yaranan yeni hadisələri izah etmək, qiymətləndirmək yüksək *dil həssaslığı, dil hissiyyatı* tələb edir. Elm və texnikanın inkişafı ilə əlaqədar hər bir dildə, o cümlədən Azərbaycan dilində də yeni sözlər, terminlər meydana gəlir. Həmin leksik vahidlərin Azərbaycan dilinin qayda-qanunlarına uyğun şəkildə, hamının başa düşə biləcəyi formada işlənilməsinə istiqamət vermək vəzifəsi ilk növbədə dilçilərin üzərinə düşür[1].

[1] Bax: Afad Qurbanov. Dil mədəniyyəti. "Kommunist"qəzeti, 20 dekabr, 1984-cü il.

Müasir Azərbaycan dili yüksək *mədəni dillər* cərgəsində xüsusi yerə malikdir. Buradakı mədəniyyət, hər şeydən əvvəl, onun lüğət tərkibinin və ədəbi normalarının zənginliyi ilə sübuta yetir.

Dil mədəniyyəti tarixi səciyyə daşıyır. Belə ki, ayrı-ayrı dövrlərdə bunun prosesləri müxtəlif keyfiyyətli olur. Dilin inkişaf tarixində onun bir dövrünün nailiyyəti o biri dövrdəkindən hər cəhətdən fərqlənir. Hər hansı bir dilin inkişafı prosesində onun ədəbi formasının yaranması həmin dil üçün böyük mədəni əhəmiyyət kəsb edir. Ədəbi dil mədəni ənənələrin yaranması və saxlanılmasında əsas rol oynayır.

Dünya dilçiliyində dil mədəniyyətinin *əsas prinsip və kateqoriyaları* hələ tam aydınlaşdırılmamışdır. Dil mədəniyyətinin müasir vəziyyəti onun daha da təkmilləşdirilməsini tələb edir. Hazırda dil mədəniyyəti nəzəriyyəsi elmi əsasda hazırlansa, *xalqın mədəni nitq fəaliyyətinin* inkişafına kömək edə bilər.

NİTQ MƏDƏNİYYƏTİ MƏSƏLƏLƏRİ

Nitq mədəniyyəti anlayışı. Elmdə bu anlayışın müəyyənləşdirilməsinə dair hələ tam ümumməqbul fikir yoxdur. Bəziləri nitq mədəniyyəti dedikdə, ancaq dilin təsvir və ifadə vasitələrindən istifadə formalarını başa düşmüş, digər alimlər fikri düzgün, yığcam ifadə etməyi nitq mədəniyyəti hesab etmişlər. Bir qrup alim isə nitq mədəniyyəti məsələlərini ancaq üslublarla bağlı şərh etməyə çalışmışdır. Həqiqətdə, üslub düzgün və kamil nitqin ancaq bir tərəfidir. Nitqdə yalnız düzgün üslubi fiqurlar işlətməyə çalışmaqla yüksək nitq mədəniyyətinə sahib olmaq mümkün deyildir[1].

[1] Bax: Afad Qurbanov. "Azərbaycan nitq mədəniyyəti problemləri". Bakı, 1988, səh. 14.

Əslində, nitq mədəniyyəti geniş mənada fikir, düşüncə mədəniyyətidir. Öz düşüncəsini düzgün danışmaq və yazmaqla ifadə edərək kamil nitqə malik olmaq mədəni nitqin əsas əlamətidir. Elə bu əlamət fikri dəqiq və aydın, yığcam və təsirli ifadə etməyi də özündə əks etdirir.



Cədvəl 12

Nitq mədəniyyəti, hər şeydən əvvəl, dilin fəaliyyətdə olan normalarının və kateqoriyalarının tələblərinə ciddi əməl edilməsidir. Bu, eyni zamanda, qeyri-mədəni nitqə qarşı mübarizədir.

Fərdi və ictimai formada özünü göstərən nitq mədəniyyətini inkişaf etdirmək zamanın aktual problemidir. Fərdi nitq mədəniyyəti 12-ci cədvəldəki kimi ictimai kollektiv mədəniyyətdən asılı olur.

Mədəni nitq hər bir şəxsin ümumi mədəniyyətinin zəruri hissəsini təşkil edir. Yüksək nitq mədəniyyətinə yiyələnən hər bir kəs ictimai-siyasi, iqtisadi və mədəni həyatda daha fəal və məhsuldar iştirak etmək imkanına malik olur. Bu mənəvi nitq mədəniyyəti mədəni insan şəxsiyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edib, onun bütövlüyü və mənəvi kamilliyində başlıca rol oynayır.

Nitq mədəniyyəti şifahi və yazılı nitqin vəhdətindən ibarətdir. O, iki formada təzahür edir: şifahi nitq mədəniyyəti, yazılı nitq mədəniyyəti.

1) ŞİFAHİ NİTQ MƏDƏNİYYƏTİ

Ədəbi dilin şifahi forması əsasında şifahi nitq mədəniyyəti təşəkkül tapır. Şifahi nitqə məxsus bütün vasitələr şifahi nitq mədəniyyətinin ixtiyarında olub, ona xidmət edir.

Ünsiyyət prosesində ***düzgün*** və ***kamil*** danışmaq şifahi nitq mədəniyyətinin bünövrəsi, başlıca əsası rolunu oynayır.

2) YAZILI NİTQ MƏDƏNİYYƏTİ

Dilçiliyin tarixində bəzi dilçilər nitq mədəniyyəti dedikdə, ancaq nitqin şifahi formasını əsas götürmüş və bu istiqamətdə nitq mədəniyyətini müəyyənləşdirməyə çalışmışlar. Təcrübə göstərir ki, ancaq şifahi nitqə diqqət yetirib, yazılı nitqi unutmaq nitq mədəniyyəti problemini birtərəfli anlamağa, səhvə yol verməyə gətirib çıxara bilir.

Dünyada yazı ənənəsinə malik olan xalqların yazılı mədəniyyəti də şifahi mədəniyyətlə bahəm inkişaf edib təkmilləşir. Orfoqrafik savad yazılı nitq mədəniyyətində xüsusi yerə malikdir. Buna görə də *savadlı və kamil yazı yazılı nitq mədəniyyətinin özəyini* təşkil edir.

3) MƏDƏNİ NİTQİN İKİ BAŞLICA CƏHƏTİ

Mədəni nitq üçün iki mühüm cəhət mövcuddur: *nitqin düzgünlüyü, nitqin kamilliyi.*

a) Düzgün nitq. Düzgün nitqin əsasını ədəbi dilin müxtəlif sahələrinə dair normaları təşkil edir. Buna görə də düzgün nitq üçün başlıca tələblərdən biri ədəbi dilin normalarına yerli-yerində riayət olunmasıdır. Ədəbi dilin fonetik, orfoepik, leksik, onomastik, semantik, frazeoloji, derivatoloji, morfoloji, sintaktik və üslubi normaları öz zəngin imkanları ilə nitq mədəniyyətinin varlığında xüsusi rol oynayır. Normaların xarakter və xüsusiyyətləri dərsliyin III fəslində geniş şərh olunduğu üçün burada onlardan bəhs edilməyəcəkdir.

Lakin burada hər hansı normanın pozulması nəticəsində nə kimi qüsurların, qeyri-mədəni hadisələrin yarandığını xatırlamaq lazım gəlir. Müşahidələr göstərir ki, qəzet və jurnal səhifələrində dilin üslubi normalarının tez-

tez pozulması hallarına yol verilir. Üslubi normalara riayət edilməməsi nəticəsində yazılı və şifahi nitqdə yersiz təkrarlar, fikir dolaşıqlığı, sözçülük, uzunçuluq və sair hallar meydana çıxır.

b) Kamil nitq. Nitq vasitələrindən yerli-yerində məharətlə istifadə olunması kamil nitq üçün əsas cəhətlərdəndir. Kamil nitqi xarakterizə edən cəhətlər aşağıdakılardır. Bunları mahiyyət və roluna görə kateqoriya adlandırmaq olar.

1. NİTQİN DƏQİQLİYİ

Nitqin dəqiqliyi kateqoriyasına fikrin dil vahidləri vasitəsilə dəqiq ifadə olunması aiddir. Ünsiyyət prosesində nitq dəqiqliyinə əməl etmək başlıca kommunikativ keyfiyyət kimi qiymətləndirilir.

Dəqiq nitqə malik olmaq üçün birinci növbədə zəngin lüğət ehtiyatı tələb olunur. Lüğət ehtiyatı zəngin olmayan adam heç vaxt dəqiq nitq sahibi ola bilməz. Dəqiq nitqin başlıca əlamətləri sözləri ifadə olunan fikrə uyğun seçmək, düzgün sintaktik quruluşda cümlə qurmaq, intonasiyadan yerli-yerində istifadə etmək və s. ola bilər.

2. NİTQİN ZƏNGİNLİYİ

Nitqin zənginliyi kateqoriyası dedikdə, nitq prosesində leksik, semantik, frazeoloji, qrammatik vahidlərin rəngarəng formada işlədilməsi nəzərdə tutulur. Nitqdə yersiz təkrarlar, bəsit – qrammatik formaların işlədilməsi, eyni konstruksiya və formaların dalbadal verilməsi, şablon ifadə vasitələrinə müraciət edilməsi nitqi zənginlikdən uzaqlaşdırır. Sinonim söz və ifadələrdən, sinonim qrammatik formalardan nitqdə məharətlə istifadə etmək zəngin nitqin əsasını qoyur.

3. NİTQİN AYDINLIĞI

Nitq mədəniyyətinin əsasında nitqin aydınlığı durmalıdır. Aydın nitq aydın düşüncə ilə bağlıdır. Buna görə də dumanlı düşüncə aydın ifadə olunmur. Həmişə və hər məqamda aydın düşüncə aydın da ifadə olunmaq tələb etmişdir. Bəşəriyyətin qabaqcıl elm və maarif xadimləri həmişə aydın nitqi şəxsiyyətin başlıca əlamətlərindən biri hesab etmişlər. Böyük Azərbaycan bəstəkarı Ü.Hacıbəyov özünün "O olmasın, bu olsun" musiqili komediyasında bu məsələyə toxunaraq ziyafət məclisində XX əsr ziyalılarının bir qrupunun nitqinin aydın olmamasını Məşədi İbadın dili ilə tənqid etmişdir: *"A kişi, sən elə qəliz danışırsan ki, ''Tarixi-Nadir"i yarıya qədər oxumuşam, mən başa düşə bilmirəm. Bu yazıqlar hardan başa düşsünlər?!"* Nitqin aydınlığı həmişə nitqin sadəliyini, istifadə olunan sözlərin hamı üçün anlaşıqlı və aydın olmasını tələb edir.

4. NİTQİN TƏMİZLİYİ

Nitqin təmizliyi kateqoriyasına başqa dilə məxsus yersiz söz və ifadələrin işlədilməsi, ədəbi nitqdə dialektizmlərə, jarqonlara, loru sözlərə və s. yer verilməməsi daxildir. Nitq o zaman təmiz hesab edilə bilər ki, orada işlədilən bütün sözlər dinləyənin və ya oxuyanın ümumi səviyyəsinə uyğun gəlsin və onu asanlıqla başa düşə bilsin. Bəzi nitqdə yersiz terminlərdən istifadə olunması da nitqin təmizliyini pozur. Əgər biz dilçilik terminləri ilə dolu olan aşağıdakı cümləni zavod fəhlələri qarşısında səsləndirsək, şübhəsiz, onu başa düşə bilməyəcəklər: "Substantivləşmə linqvistik kateqoriyadır". Buna görə də kamil nitqə malik olmaq üçün nitqin təmizliyini, sözün münasib yerdə işlənməsini təmin etmək vacibdir.

5. NİTQİN MƏNTİQLİYİ

Nitqin məntiqliyi kateqoriyasına nitqdə bir-birinin əksini təşkil edən fikirlərin olmaması, qeyri-ardıcıllığa yol verilməməsi, təsdiq edilməyən fikirlərin işlədilməməsi və s. daxildir. Bundan əlavə, nitqdə mövzudan kənara çıxmaq, yazılı nitqdə abzaslardan yerli-yerində istifadə edə bilməmək və sair də məntiqsizliyə dəlalət edir.

6. NİTQİN YIĞCAMLIĞI

Nitqin yığcamlığı kateqoriyasına nitqdə sözçülüyə, uzunçuluğa yol verilməməsi, az sözlə geniş məna ifadə edilməsi və s. daxildir. Yığcam nitq öz sahibindən dərin bilik, həssas düşüncə, zəngin lüğət ehtiyatı tələb edir. Təsadüfi deyildir ki, birisi öz dostuna məktub yazarkən axırda göstərir: bağışla ki, vaxtım olmadığından məktubu uzun yazdım. İlk baxışda adama elə gəlir ki, vaxt olmadığından məktub da qısa yazılmalı idi. Lakin yadda saxlamaq lazımdır ki, nitqi yığcam etmək üçün mütləq ətraflı düşünmək və fikri dəqiq, aydın ifadə etmək üçün qısa və konkret ifadə tərzi düşünmək lazımdır.

7. NİTQİN İFADƏLİLİYİ

Nitqin ifadəliliyi kateqoriyasına məntiqi və emfatik vurğu, fasilə, temp, mimika və əl hərəkətləri, inversiya, ellipsis, antiteza, anafora, ritorik suallar və s. daxildir. Göründüyü kimi, nitqin ifadəliliyi natiqdən daha çox nitq bacarığı və vərdişləri tələb edir. İfadəli nitq oxucu və dinləyici tərəfindən olduqca asan qavranılır və düzgün mənimsənilir. İfadəli nitq həm də yaddaşlarda uzun zaman yaşaya bilir.

8. NİTQİN TƏSİRLİLİYİ

Nitqin təsirliliyi kateqoriyasına inandırıcı faktlardan istifadə olunması, obrazlı söz və ifadələrin işlədilməsi, atalar sözü və zərbi-məsəllərin verilməsi və s. daxildir. Təsirli nitq öz məzmunu ilə dinləyicinin və ya oxucunun diqqətini cəlb edir. Bu cəhətdən bədii əsərdə monoloq və dialoqların təsir gücü daha böyükdür. Yazıçı öz sənətkarlıq qüdrətini monoloq və dialoqların təsirli nitqlə verilməsinə sərf edir.

4) NİTQ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINA TƏSİR EDƏN VASİTƏLƏR

Nitq mədəniyyətini inkişaf etdirmək üçün şüurlu, faydalı təsir vasitələri çoxdur. Bunlardan bəzilərinə nəzər yetirək:

1. Məktəblər. Bütün tədris müəssisələri nitq mədəniyyətinin inkişafında xüsusi əhəmiyyətə malikdir. İstər orta, istər ali məktəb gənc nəslin nitqinin inkişafında xüsusi rol oynayır.

Gənclərin nitq mədəniyyətini inkişaf etdiımək üçün orta məktəbin üzərinə daha məsul vəzifələr düşür. Orta məktəbdə nitq mədəniyyətinin bünövrəsi möhkəm qoyulduqdan sonra bu əsasda onu daha da inkişaf etdirmək və formalaşdırmaq mümkün olur, bunun üçün geniş imkanlar yaranır.

Ali təhsilli yüksək ixtisaslı kadr hazırlığı işinin bir tərəfini nitq mədəniyyəti təşkil edir. Yalnız yüksək nitq mədəniyyətinə sahib olmaqla, müxtəlif elmlərin və peşələrin sirlərinə yiyələnmək, qabaqcıl, mütərəqqi fikir və ideyaların düzgün mənimsənilməsinə nail olmaq mümkündür.

Məlumdur ki, hər regionun öz dialekt, şivə xüsusiyyətləri vardır. Bu qeyri-ədəbi dil əlamətləri nitq mədə-

niyyətinin inkişafına mane olur. Məktəblər dialekt, şivə ünsürlərinə qarşı mübarizə aparmaqda ən təsirli vasitə rolunu oynayır.

2. Mətbuat yə nəşriyyat. Nitq mədəniyyətinin inkişafında mətbuat və nəşriyyat əvəzsiz rola malikdir. Çap olunmuş hər növ kitab, yaxud qəzet və jurnal ədəbi cəhətdən redaktə edilib kodlaşdırıldığı üçün dil normalarının sabitləşməsinə və yayılmasına kömək edir. Bunun da nəticəsində nitq mədəniyyəti geniş inkişaf yolu keçir.

Təəssüf ki, qəzet və jurnal səhifələrində tez-tez ədəbi dil normalarının pozulması hallarına təsadüf edilir. Bu hallarda üslub, orfoqrafiya, termin səhvlərinə, eləcə də bəzi alınma sözlərin yerli-yersiz yazılı nitqdə işlənilməsinə yol verilir. Hamı tərəfindən bunlara qarşı daima mübarizə aparmaq unudulmamalıdır.

3. Kino və teatr. Kino və teatr mədəni nitqin inkişafına güclü təsir göstərən vasitələrdir. Xüsusilə ana dilində yazılmış kinossenarilər, onların ciddi ədəbi şəkildə redaktə olunması nitq mədəniyyəti səviyyəsinin yüksəldilməsində əvəzsiz vasitəyə çevrilir.

Nitq mədəniyyəti tarixində səhnə dili həmişə xüsusi qeyd olunmuşdur. Öz gözəlliyi ilə seçilən səhnə dili həmişə geniş kütlənin nitq mədəniyyəti üçün nümunə olur.

Lakin bəzi hallarda səhnə ustalarının ədəbi normalardan, nitq mədəniyyəti tələblərindən uzaqlaşaraq şivəçiliyə aludə olduğuna, yersiz varvarizmlərə uymalarına rast gəlmək olur. Bu cür hallar isə nitq mədəniyyətinin inkişafına mənfi təsir göstərir.

4. Radio və televiziya. Kütlənin informasiya vasitəsi olan radio və televiziya verilişlərinin başlıca əhəmiyyəti ondadır ki, bunların vasitəsilə bütün ictimaiyyətin diqqəti kütləvi şəkildə dilə yönəldilir və ona dair möhkəm məhəbbət hissi oyadılır.

Radio və televiziya verilişlərində nitq mədəniyyəti baxımından tez-tez nöqsanlı çıxışlara təsadüf olunur. Bu nöqsanlar dialekt ünsürlərinin və yersiz olaraq başqa dilin sözlərini işlətməklə özünü daha çox göstərir. Əhalinin bütün qruplarını əhatə edən radio və televiziyadakı çıxışlar öz axıcılığı, aydınlığı, səlisliyi, düzgünlüyü, məntiqi ardıcıllığı, tonu və sair cəhətləri ilə diqqəti cəlb etməlidir.

Ümumiyyətlə, nitq mədəniyyətinin inkişafı üçün radio və televiziyanın imkanlarından daha fəal istifadə edilməlidir.

5.02. XALQIN YAZI MƏDƏNİYYƏTİ

Tarix boyu bəşəriyyət minlərlə kəşflər, yeniliklər əldə edərkən öz mədəni və mənəvi mədəniyyətini yaradıb inkişaf etdirməyə nail olmuşdur. Cəmiyyətin mənəvi mədəniyyətinin tərkibində yazı mədəniyyəti də xüsusi mövqe tutmuşdur. Yazı mədəniyyətinin meydana çıxması, müxtəlif sahəli insan təcrübə və ənənələrinin möhkəmləndirilməsi və əbədiləşdirilməsində zəruri vasitə olmuş, indi də öz ictimai-mədəni vəzifəsini yerinə yetirməkdədir. Yazı ənənəsi bir sıra ictimai-siyasi, iqtisadi və mədəni tələb və əlaqələrlə bağlı meydana gəlmiş, şəkilli yazı formasından səs yazısına doğru inkişaf etmişdir. Yazı mədəniyyətinin yaradılmasında dünyanın bütün xalqları iştirak etməmişdir. Bu mədəniyyətin təşəkkül tapması bir sıra qədim xalqların fəaliyyəti ilə bağlıdır. Dünya xalqlarının əksəriyyəti hazır şəkildə olan yazı mədəniyyətini öz dillərinə uyğunlaşdıraraq istifadə etmişdir. Cəmiyyətin yüksək inkişaf yolu keçdiyi müasir dövrdə bəzi xalqlar öz yazı mədəniyyətinə malik deyillər. Belə bir cəhət həmin xalqların elm və mədəniyyət əlaqələrinin inkişafına mənfi təsir göstərir.

Buna görə də hazırda bütün bəşəriyyətin ayrı-ayrı xalqlarının yazı ənənəsinə nail olması ən zəruri məsələlərdəndir[1].

5.03. AZƏRBAYCANDA YAZI MƏDƏNİYYƏTİ

Qədim Azərbaycanda mənəvi mədəniyyətin bu növündən geniş istifadə edilmişdir. Hələ uzaq keçmişdə Azərbaycan sakinləri öz düşüncə və fikirlərini ifadə etmək üçün müxtəlif vasitələrə əl atmış, əlavə ünsiyyət forması yaratmaqda böyük nailiyyətlər qazanmışlar. Hazırda istər Şimali Azərbaycanın, istərsə də Cənubi Azərbaycanın ərazisində qədim Azərbaycan yazı mədəniyyətinə aid yüzlərlə, minlərlə abidə mövcuddur. *Qobustanda, Abşeronda, Qazaxda, Mingəçevirdə, Gədəbəydə* olan daş və qaya yazıları yazının birinci növü kimi piktoqrafik xarakterlidir.

Azərbaycanlıların həkk etdikləri bu piktoqarfık yazıda şəkildən istifadə etmək üsulu ilə bir çox müxtəlif hadisələrin məzmunu əks olunmuşdur. Tədqiqatçılar Azərbaycan piktoqramlarını təhlil edərək onları məzmununa görə qruplaşdırmışlar. Bu haqda Nəsir Rzayev yazır: "Azərbaycan piktoqramlarını üç qrupda cəmləşdirmək olar. Birinci qrup yazılara yaddaş, təlimat xarakterli piktoqramlar daxildir. Bu tip yazılar qəbilədə keçirilən ənənəvi inisiasiya ayinini təfərrüatı ilə gənclərə öyrətmək, aşılamaq kimi yaddaş vəzifəsini görürdü.

İkinci qrup yazıların məzmunu xronika xarakteri daşıyır. Belə yazılarda qədim rəssam qəbilənin həyatında baş vermiş mühüm hadisələri nəql edir, totemistik sehrkarlıq ayinlərinin keçirilməsini və s. xəbər verir.

[1] Yazı mədəniyyəti haqqında dərsliyin I cildində geniş bəhs olunur. Bax: Afad Qurbanov. Ümumi dilçilik. I cild, Bakı, 1989.

Üçüncü qrup yazılar qəbilənin dini təsəvvürlərlə əlaqədar olan ayinlərin (qurbanvermə və s.) keçirilməsini nəql edir, öyrədir”[1].

Şəkil 4

Elmi ədəbiyyatda azərbaycanlıların ideoqrafık yazıdan da istifadə etdikləri fərz edilir. Bu haqda irəli sürülən fikirlərdə müəyyən həqiqət hiss olunur. Buna görə də zəngin Azərbaycan mədəniyyətinin bu sahəsinin qədim dövrlərinin tədqiqi və təhlili ilə ətraflı məşğul olmaq müasir dilçilik elmimizin başlıca vəzifələrindən olmalıdır.

[1] Bax: Nəsir Rzayev. Möcüzəli qərinələr. Bakı, 1984, səh. 77.

VI FƏSİL

DİL VƏ CƏMİYYƏT

"DİL VƏ CƏMİYYƏT" PROBLEMİNİN MƏZMUNU

Dilçilikdə "dil və cəmiyyət" problemi olduqca çoxsahəlidir. Bunun məzmununu bir-biri ilə bağlı olan aşağıdakı məsələlər təşkil edir: dilin əmələ gəlməsi, onun ictimai təbiəti, dillərin sosial tipləri, dilin inkişafının cəmiyyətin inkişafı ilə bağlı olması, dil və ictimai formasiyalar, dilin təkamülündə dilə məxsus və dildən kənar olan amillər, dillərin diferensiasiyası və onun qanunauyğunluğu, ədəbi dillərin formalaşması, onların funksional üslubları, cəmiyyətin mədəni inkişafına dilin təsiri, dillərin qarşılıqlı təsiri, ikidillilik, çoxdillilik və s. Bütün bu məsələlər "dil və cəmiyyət" probleminin nə dərəcədə geniş və mürəkkəb olduğunu aydın göstərir.

Problemin əhatə etdiyi məsələlərin hamısının bir fəsildə – bir ümumi başlıqda şərhi tədris baxımından qeyrimümkündür. Elə buna görə də həmin məsələlər qruplaşdırılaraq əsərin ayrı-ayrı fəsillərində verilmiş və bu fəsildə isə ancaq dörd mühüm məsələdən – dil və cəmiyyətin əlaqəsindən, dil və cəmiyyətin qarşılıqlı inkişafından, dillərin sosial tiplərindən və ictimai formasiyalarda dilin mövqeyindən bəhs olunması məqsədəuyğun hesab edilmişdir.

"Dil və cəmiyyət" probleminin öyrənilməsi ilə qədim dövrlərdən xüsusi məşğul olunmağa başlanılmışdır. Bunun başlıca məsələləri ayrı-ayrı dövrlərdə tədqiqat obyektinə çevrilmiş, istər nəzəri, istərsə də əməli tətbiqi sahəsində

əhəmiyyətli nailiyyətlər qazanılmışdır. Bu problem bir neçə amillə – tarixi, siyasi, iqtisadi, mədəni, psixoloji amillərlə əlaqəlidir. Buna görə də problemin elmi şərhində göstərilən sahələrin tədqiqatçılarının da iştirakı zəruri hesab olunmuş və həmin sahədə sosioloqlar müəyyən işlər görmüşlər.

XX əsrin I yarısında cəmiyyətin dilə təsiri və cəmiyyətin inkişafında dilin rolu məsələləri xüsusi olaraq təhlil edilmişdir.

Dünya dilçiliyində XX əsrin 60-cı illərində "dil və cəmiyyət" problemi elmi ictimaiyyəti daha çox maraqlandırmış, bunun nəticəsində bir sıra vacib məsələlər öz geniş həllini tapmışdır. Bununla bərabər, problemin bir sıra məsələlərinin öyrənilməsi indi də diqqət mərkəzindədir.

Dilçilik elmində dil ilə cəmiyyətin başlıca cəhətlərinin, əlaqə və münasibətlərinin, əlamət və funksiyalarının tədqiqi ilə məşğul olan sahə dilin *sosiologiyası, sosial dilçilik,* yaxud da *sosiolinqvistika* adlanır. Dünya dilçiliyinin bu sahəsinin məqsədi "dil və cəmiyyət" məsələlərini seçmə yolu ilə deyil, bütövlükdə nəzəri və tətbiqi cəhətdən aydınlaşdırmaqdan ibarətdir.

Müasir sosiolinqvistikanın aşağıdakı sahələri mövcuddur:

a) Ümumi sosiolinqvistika;
b) Xüsusi sosiolinqvistika;
c) Nəzəri sosiolinqvistika;
ç) Tətbiqi sosiolinqvistika.

6.01. DİL İLƏ CƏMİYYƏTİN ƏLAQƏSİ

Dil hadisələrinin cəmiyyətin tarixi ilə əlaqəsi olduqca rəngarəng və mürəkkəbdir. Bu əlaqələr müxtəlif növdə olub, bir sıra sahələrdə özünü göstərir.

Cəmiyyətlə dilin əlaqə və münasibətindən bəhs edilərkən ilk növbədə dilin öz təbiətinə görə ictimai hadisə olduğu nəzərə alınmalı olur. İctimai təbiətli dilin əsas vəzifəsi onun kommunikativliyidir.

İnsanlar arasında başlıca kommunikativ – ünsiyyət vasitəsi kimi dil cəmiyyətin tələbi əsasında təşəkkül tapır və ümumiyyətlə, öz yarandığı vaxtdan qarşılıqlı münasibətdə olub, onunla möhkəm əlaqə təşkil edir. Deməli, dil ancaq cəmiyyətdə mövcud ola bilir. Buna görə də cəmiyyətsiz dili, dilsiz də cəmiyyəti düşünmək, təsəvvürə gətirmək qeyri-mümkündür.

Dilin və xalqın tarixi bir-biri ilə vəhdət təşkil edir. Elə buna görədir ki, xalqın tarixində baş verən hadisələr dildə əks olunur. Məsələn, fars dilinə nəzər yetirək. Tarixin müəyyən dövründə islam dini və ərəb mədəniyyətinin farslara güclü təsiri nəticəsində fars dilinin lüğət tərkibinə yüzlərlə *dini anlayışı bildirən* söz və ifadə daxil olmuşdur.

Tarixi müşahidələr aydın göstərmişdir ki, hər bir xalq qüvvətdən düşəndə onun dili də zəifləyir və nəticədə get-gedə sıradan çıxır. Vaxtı ilə Nil sahillərində məskunlaşmış xalqlardan birinin ünsiyyət vasitəsi bonqo dili olmuşdur. XIX əsrin sonunda bonqoca danışanların miqdarı 100 mindən ibarət idi. Lakin xalqın ictimai zəifləməsi əsasında XX əsrin əvvəllərində bu dilin işlənmə dairəsi son dərəcə məhdudlaşmış və danışanların sayı 55 minə enmişdir.

Ümumiyyətlə, hər hansı bir xalqın zəifləməsi, süquta uğraması nəticəsində onun dili ölü dilə çevrilir. Qədim dövrlərdə fəal istifadə olunan *sanskrit, xett, urartu* dili bu yolla ölü dillər sırasına keçmişdir.

Dilçilik tarixində bir sıra cərəyanlar, elmi məktəblər dil ilə cəmiyyətin əlaqəsi məsələlərinə öz münasibətlərini bildirmişlər. Tədqiqatçılar arasında müxtəlif görüşlər, mülahizələr meydana çıxmışdır. Hətta bəziləri bu məsələni

dilçilik üçün yad hesab edərək, onu antropoloji, tarixi-etnoloji və ya sosioloji hadisə adlandırmışlar. Dil ilə cəmiyyətin əlaqəsi dilçilik məsələsidir. Buna görə də dil ilə cəmiyyətin əlaqəsi məsələsi aydınlaşdırılarkən onun statikası və dinamikası tədqiqat üçün əsas götürülməlidir.

6.02. DİLİN VƏ CƏMİYYƏTİN İNKİŞAFI

Dilin və cəmiyyətin inkişafı qarşılıqlı prosesdir. Burada hər iki tərəfin fəal iştirakı nəticəsində bəşəri tərəqqi təmin olunur. Bu tərəflərin hər birinin özünəməxsus təsir formaları vardır.

1. DİLİN İNKİŞAFINA CƏMİYYƏTİN TƏSİRİ

Dilin inkişafı – onun ictimai vəzifəsinin inkişafı cəmiyyətlə bağlıdır. Dilin bu vəzifəsinin inkişaf etdirilməsi dilin ümumi inkişafının və cəmiyyətin dilə təsirinin başlıca cəhətini təşkil edir.

Dil ictimai faktorların təsiri əsasında inkişaf edir. İctimai faktorlar az deyildir. Bunlardan sosial həyatın inkişafında xüsusi rol oynayan ən başlıcası orta məktəbin, ali təhsilin, elmin, ədəbiyyatın, mədəniyyətin, texnikanın, iqtisadiyyatın və dövlətin inkişafıdır.

Bütün bu fəaliyyət sahələrinin inkişafı dilə təsir edir, orada öz əksini tapır. Sosial faktorlar müxtəlif məzmuna malik olduğu üçün dilin inkişafına onların təsiri də müxtəlif forma və səviyyədə həyata keçir.

Cəmiyyətin dilə təsiri iki yolla özünü göstərir:

a) Dilin inkişafına cəmiyyətin stixi yolla təsiri. Bu yolla inkişaf hər hansı bir dilin qeyri-ədəbi danışıq formasında dialekt və şivələrində müşahidə olunur.

b) Dilin inkişafına cəmiyyətin şüurlu və daimi yolla təsiri. Dilə şüurlu təsir prosesində sosial tələblər əsas vasitə ro-

lunu oynayır. Bu yolla ümumxalq dilinin ədəbi formasına təsir göstərilir.

Cəmiyyətin maddi və mənəvi səviyyəsi artdıqca ədəbi dilin işlənmə, istifadə olunma dairəsi daha da genişlənir. Eyni zamanda dilin komponentləri – hissələri də zənginləşir.

Məlum olduğu kimi, dil üç mühüm komponentdən ibarətdir: *fonetik sistem, lüğət tərkibi* və *qrammatik quruluş.*

XIX əsr Avropa dilçiliyində dilin inkişafına cəmiyyətin təsiri məsələsinə xüsusi maraq olmuşdur. Həmin dövrdən tədqiqatçılar məsələnin həlli üçün daha çox leksik materiallara müraciət etmişlər. Həqiqətən, cəmiyyət inkişaf etdikcə yeni-yeni anlayışlar meydana çıxır. Bu anlayışların hər biri müxtəlif söz və ifadələrlə əks olunur. Bunun da əsasında dilin lüğət tərkibi zənginləşir. Belə lüğəvi faktlar dilin inkişafında cəmiyyətin təsirini daha açıq-aydın göstərir.

Lakin dilin inkişafında cəmiyyətin təsiri bununla məhdudlaşmır. Fonetik sistem, qrammatik quruluş sahəsi də cəmiyyətin təsirində inkişaf edir. Dilin funksional cəhətinin inkişafında xüsusi rol oynayan faktorlar üslubi sistemin təşəkkülü və formalaşmasına da öz təsirini göstərir.

2. CƏMİYYƏTİN İNKİŞAFINDA DİLİN ROLU

Cəmiyyətin inkişafında dilin müəyyən təsiri və rolu vardır. İnsanların elə bir fəaliyyət sahəsi yoxdur ki, orada bir-birini başa düşmək üçün əsaslı ünsiyyət vasitəsinə – dilə ehtiyac hiss olunmasın. Dil insanların hər növ əmək fəaliyyətində iştirak edərkən cəmiyyətə təsir göstərib, onun mədəni inkişafına imkan yaradır.

Dil insanlaşma prosesində, cəmiyyətin formalaşmasında tam əvəzsiz bir vasitə olmuşdur. Dilsiz heç bir cəmiyyət bərqərar ola bilməzdi. Dil insanın ətraf mühiti dərk etməsində xüsusi rol oynayır. Hər bir dil insanların əmək fəaliyyətinin təşkilində iştirak edərkən həm özü, həm cə-

miyyət inkişaf edir. Tarixin ayrı-ayrı pillələrində ictimai münasibətlər mürəkkəbləşdikcə maddi və mənəvi nemət və sərvətləri də çoxalır. Cəmiyyətin əldə etdiyi mənəvi sərvətlər dil vasitəsilə yaddaşlarda saxlanılır, şifahi və yazılı yolla yeni nəslə çatdırılır.

6.03. DİLLƏRİN SOSİAL TİPLƏRİ

Dilin yaranması və formalaşması cəmiyyətin tarixi ilə bağlıdır. İnsan cəmiyyəti inkişaf etdikcə onunla yanaşı dilin də funksiyası təkmilləşmiş, bir dil tipini digəri əvəz etmişdir.

İnsan birliklərinin məlum olan bir neçə forması mövcuddur: *qəbilə, tayfa, xalq* və *millət.* Bu etnik qrupların tarixi aydın şəkildə göstərir ki, dillər də qəbilə dillərindən başlayaraq milli dillərə doğru yüksək formalaşma yolu keçmişdir.

1. QƏBİLƏ DİLLƏRİ

Qəbilə insan birliyinin ilk formasıdır. Bu ilk insan birliyi forması yığcam və azsaylı olmuşdur. Həmin dövrlərdə insanların birləşməsi üçün əsas amil onların "qan qohumluğu" idi. Başqa şəkildə desək, qəbilələrdə ancaq qan qohumluğu olan şəxslər birləşirdilər. Qəbilə həyatı xüsusi mülkiyyət yaranana qədər davam etmişdir.

Qəbilə insan birliyinin birinci, başlanğıc mərhələsi olduğu üçün burada dil istər məzmun və istərsə də formaca az inkişaf etmiş halda özünü göstərirdi. Deməli, hər bir qəbilə dili bəşər tarixində dilin ən bəsit formasıdır.

2. TAYFA DİLLƏRİ

Qəbilədən sonra insan birliyinin nisbətən böyük forması *fratriya* və *tayfadır*. Bir neçə qohum qəbilə fratriya düzəltdiyi kimi, bir neçə qohum fratriya da tayfa təşkil edir.

Hər bir tayfanın öz dialekti – dili olmuşdur. Tədqiqatçıların qeyd etdiklərinə görə, tayfa ilə dialekt bir-birinə çox uyğun gəlirmiş. Lakin tayfalar tamamilə başqa-başqa dillərdə yox, "eyni bir dilin bir-birinə yaxın dialektlərində danışırdılar".

Deməli, dillərin inkişafı tayfaların inkişafı ilə bağlı olmuşdur. Buna görə də tayfalar parçalandıqca dillər də parçalanmış və çoxlu qohum dillər əmələ gəlmişdir.

Tayfa dilləri hazırda da mövcuddur. Amerika hindilərindən bir çoxunun dili tayfa dilidir. Dağıstan dillərindən *ağul, saxur, andiy, didoy, rutul* və s. tayfa dili hesab olunur.

3. XALQ DİLLƏRİ

İnsan birliyinin xalq forması tayfaların ittifaqından əmələ gəlmişdir. Belə ki, xalq tayfa içərisində formalaşmışdı. Bu formalaşma prosesində xalq dili də yaranmağa başlamışdır.

Xalq dili ilə tayfa dili bir-birinə çox yaxındır. Odur ki, bunları bir-birindən ayırmaq olduqca çətindir. Buna baxmayaraq, tayfa dili ilə xalq dilinin hər biri üçün başlıca xarakterik cəhətlər də vardır.

Xalq dilinin şifahi və yazılı ədəbi formaları ola bilir. Bunlardan xalq dilinin zənginləşməsi və təkmilləşməsində yazılı ədəbi dilin rolu daha üstün olmuşdur.

Müasir dövrdə xalq dillərinin sayı olduqca çoxdur. Dağıstanda yaşayan *ləzgi, lak, tabasaran, avar, dargin* dilləri xalq dili hesab olunur.

4. MİLLİ DİLLƏR

Millət insan cəmiyyəti inkişafının ən yüksək və mürəkkəb formasıdır. Bu, kapitalizm dövründə əmələ gəlmişdir. Millətin yaranması ilə əlaqədar olaraq milli dillər əmələ gəlir. Hər hansı bir xalq millətə çevrildikdə onun

milli dili də meydana çıxır. Lakin qeyd edilməlidir ki, millət və milli dillərin yaranma prosesi bütün xalqlarda eyni qayda və eyni formada olmur. Ayrı-ayrı millət və milli dillər çox müxtəlif şəkillərdə və həmçinin müxtəlif dövrlərdə yaranır.

Milli dillərin tarixi XVI–XVII əsrlərdən başlayır. Bu əsrlərdə ingilis və fransız milli dilləri əmələ gəlmişdir. Xalqımız, məlum olduğu kimi, XIX əsrin ikinci yarısında millət şəklində formalaşmış və onun milli dili əmələ gəlmişdir. Azərbaycanlıların millət şəklində formalaşması Azərbaycanda sənayenin inkişafı, milli bazarın yaranması, mədəni əlaqələrin artması, dəmir yolu xəttinin çəkilməsi və digər səbəblərlə əlaqələnmişdir.

Milli dil bu və ya başqa bir millətin bütün üzvlərinin ümumi dilidir. Azərbaycan, türk, türkmən, tatar, özbək, qazax, qırğız, moldav, fransız, yunan və sair müasir milli dillər mənsub olduğu millətlərə xidmət edir.

Millətin və milli dillərin formalaşmasında hər xalq öz milli dilini yaradır. Lakin bununla yanaşı, dünyada bir milli dildən bir neçə millətin istifadə etməsi təcrübəsi də vardır. Belə dillərə ingilis, alman, ispan, portuqal və sair dilləri misal göstərmək olar.

İngilis milli dili – ingilislərin milli dilidir. Bu dil Şimali Amerika, Yeni Zelandiya, Avstraliya millətlərinin də milli dilidir.

Alman milli dili – alman millətinin mədəni nailiyyətidir. Bu dildən Avstriyada da milli dil kimi istifadə olunur.

İspan milli dili – ispanların milli dili olan bu dildən həmin vəzifədə Latın Amerikasının 20-dən çox milləti də istifadə edir.

Portuqaliya milli dili – həm portuqallar, həm də braziliyalılar üçün milli dildir.

Çoxsaylı milli dillər bir sıra əlamətlərinə görə xalq dillərinə lap yaxın olduğu üçün bunları bir-birindən tam

fərqləndirmək son dərəcə çətinlik törədir. Buna görə də bəzi məsələlər şərti götürülür.

Beləliklə, yuxarıda deyilənlərdən aydın olur ki, dil özünün inkişaf forma və mərhələlərində ümumxalq xarakteri daşıyaraq aşağıdan yuxarıya, bəsitdən təkmilləşmişə doğru zənginləşmə yolu keçmişdir.

Bununla bərabər, dil mahiyyətinə, vəzifə və roluna, mənşə və inkişafına görə ictimai səciyyəli olmuşdur.

6.04. DİL VƏ İCTİMAİ FORMASİYALAR

Dil ilə ictimai formasiyaların qarşılıqlı münasibətinin geniş aydınlaşdırılması da "dil və cəmiyyət" probleminin həlli üçün zəruridir. Elm aləmində insanların tarixi birliyi ilə dilin həmişə asılı olduğu müəyyənləşdirilmişdir. Bu asılılıq müxtəlif məzmun və formalarda özünü göstərir.

Formasiyalarda müxtəlif xalqların dilləri eyni səviyyədə inkişaf etməmişdir. Tarixdə həmişə hakim dövlətin əsasını təşkil edən xalqların dili daha çox inkişaf etmişdir. Məsələn, İngiltərənin müstəmləkə ölkələrində təbii olaraq ingilis dili daha çox yayılmış və inkişaf etmişdir. Eləcə də keçmiş İttifaqda rus dili hakim dövlət dili olduğundan milli respublikalarda da onun nüfuzu daha çox olmuş və inkişaf etmişdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, ictimai quruluşun dəyişməsi dilə köklü surətdə təsir göstərmir. Yəni yeni ictimai quruluş yeni dil yaratmır, o, ancaq dildə müəyyən zənginləşmə prosesinə səbəb olur. Buna görə də eyni bir dilin ömrü bir neçə ictimai formasiyanın ömrünü əhatə edir.

İBTİDAİ İCMA VƏ DİLLƏR

Cəmiyyətin tarixi şüurlu insanın meydana gəlməsindən başlanır. İnsan o vaxt şüurlu bir varlıq kimi heyvan-

dan fərqlənmişdir ki, o, əmək alətləri hazırlayıb bunlardan istifadə etməyi bacarmışdır. Əmək prosesində insan özü formalaşmış, eyni zamanda, ünsiyyət vasitəsi kimi dil meydana gəlmişdir. Yəni dilin əsasını təşkil edən danışıq səslərinin yaranması üçün danışıq üzvləri modulyasiya yolu ilə formalaşmış və insanlar sadə dil ünsiyyətinə keçmişlər. Sonradan bu dil ünsiyyəti getdikcə mürəkkəbləşmə və zənginləşmə prosesinə qədəm qoymuşdur. Bu proses insanlığın ilk tarixi birlik forması olan ibtidai icma quruluşunda baş vermişdir. İnsan birliyi aşağıdakı kimi formalaşmışdır:

Böyük ailə — matriarxat
Böyük ailə — patriarxat
||
qəbilə
||
fratriya
||
tayfa...

On min illərlə davam edən ibtidai icma quruluşunda insanlar təbiətin hazır əşyalarından məqsədəuyğun əmək alətləri hazırlamış, od əldə etmiş, əkinçiliyə və maldarlığa başlamışlar. Bütün bu çoxsahəli ilk insan həyatında dil ən zəruri bir ünsiyyət vasitəsi kimi meydana çıxmışdır.

İbtidai icma quruluşunda (buna qəbilə-tayfa quruluşu da deyilir) insanlar qohumluq əlamətinə görə birləşərək qəbilə-tayfa icmaları halında yaşayırdılar. Buna uyğun olaraq bir-birindən az fərqlənən müxtəlif qəbilə-tayfa dilləri meydana gəlirdi.

Heç bir şübhə ola bilməz ki, ibtidai icma dövründəki dillər müasir dillərlə müqayisədə çox bəsit olmuşdur. Bunun başlıca səbəbləri ibtidai icma quruluşunda sənayenin

primitivliyi, siniflərin olmaması, yazının yoxluğu, dövlətin yaradılmaması, ticarətin zəifliyi və s. idi.

İbtidai icma quruluşunda qəbilə və tayfa dili qohum qəbilə və tayfa dillərindən az fərqlənirdi. Qəbilə və ya tayfa yaxınlığı əsasında qəbilə və ya tayfa ittifaqı dili əmələ gəlirdi. Bu dövrdə qəbilə və tayfa dialektləri daha geniş yayılmışdır. Bu cəhətdən slavyan və *türk qəbilə* və *tayfa dillərinin* müxtəlif dialektləri mövcud olmuşdur.

İbtidai icma quruluşunda xarakterik cəhətlərdən biri dillərin güclü xarici kontakta məruz qalması və çarpazlaşması idi.

QULDARLIQ VƏ DİLLƏR

Əmək məhsuldarlığı artdıqca qəbilə icması ailələrə parçalanmağa başladı. Xüsusi mülkiyyət meydana gəlməklə qəbilə icması dağıldı və ibtidai bərabərliyin yerini ictimai bərabərsizlik tutdu. İbtidai formasiyadan irs qalan məhsuldar qüvvələr quldarlıq ictimai-iqtisadi formasiyasında daha da inkişaf etdi. Burada əməyin getdikcə müxtəlif sahələri yaranır, insanlar arasındakı çoxsahəli münasibətlər sürətlə formalaşırdı.

Əmək bölgüsü prosesi davam edir, sənaye istehsalında onun müxtəlif sahələri: metal, silah, paltar, ayaqqabı hazırlamaq, dəmirçilik, dulusçuluq, toxuculuq, dəri aşılamaq və s. yaranırdı. Tikinti işi, gəmiqayırma, hərbi texnika geniş vüsət alırdı. Şəhərlər əmələ gəlir, ticarət genişlənirdi.

Quldarlıq dövrünə məxsus olan belə bir sinfilik şəraitində xəlqilik meydana çıxır. Bu dövrdə mövcud olan dillər sosial tipinə görə tayfa və xalq dilləri qrupuna daxildir. Həmin dillər qul və quldarlara ayrı-ayrılıqda deyil, ümumilikdə xidmət edirdi. Yəni eyni bir tayfa dillərindən həmin tayfaya məxsus qul və quldar eyni dərəcədə istifadə edirdi.

FEODALİZM VƏ DİLLƏR

İnsanların tarixi birlik formalarından biri olan feodalizm şəraitində məhsuldar qüvvələrin mütərəqqi inkişafı davam edirdi. Bu dövr bir çox kəşflərin başlanğıcı oldu. Su və külək dəyirmanları meydana gəldi, dəmir istehsal edildi, kağız, barıt, kitab çapı, ayaq cəhrəsi, lentli toxucu dəzgahı, eşmə maşını və başqa kəşflər olundu. Sənət və ticarət yüksəldikcə şəhərlər də böyüyürdü. Dünyada elm, sənət, mədəniyyət, ticarət mərkəzi rolunu oynayan bir sıra böyük şəhərlər meydana gəlmişdir. XV əsrin axırı, XVI əsrin əvvəllərində Amerikanın, Hindistan dəniz yolunun kəşfi kimi böyük coğrafi kəşflərin baş verməsi də məhsuldar qüvvələrin inkişafına güclü təkan verdi.

Feodalizmin ilk dövrlərində dillər arasında əlaqə zəif olmuş, hər xalq ancaq öz dilindən istifadə etmişdir. Lakin tədricən feodalizm cəmiyyətində dillərin qarşılıqlı təsiri prosesi başlanmışdır. Bu təsir o dərəcədə güclənirdi ki, hətta bir dil başqasına qalib gələrək hakim dilə çevrilirdi. Bu dövrdə ədəbi dil rolunda əcnəbi dildən istifadə olunması təcrübəsi özünü göstərdi. Məsələn, Avropada *latın dili,* Yaxın Şərqdə, Asiya ölkələrində *ərəb dili* ədəbi dil kimi böyük nüfuz qazanmışdı. Latın dilinin Qərbi Avropada işlənmə dairəsi daha geniş idi. O, kilsə dili, rəsmi kargüzarlıq dili, elm dili və bədii, ədəbi dil rollarında çıxış edirdi.

V–XV əsrlərdə feodalizm dövründə mövcud olan dillər sosial tipinə görə xalq dilləri qrupuna daxil idi.

KAPİTALİZM VƏ DİLLƏR

Cəmiyyətin inkişafında kapitalizm dövrü səciyyəvi cəhətlərə malikdir. Hər şeydən əvvəl, bu dövrdə sənaye özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoyur.

Çünki kapitalizmin məhsuldar qüvvələri üçün iri maşınlı istehsal zəruridir. Burada sənətkar emalatxanasının

və manufakturanın yerini böyük zavodlar və fabriklər, şaxtalar və mədənlər tutur. Kapitalizmə məxsus istehsal münasibətləri cəmiyyəti iki sinfə – burjua və proletar siniflərinə ayırmışdır. Eyni zamanda, kapitalizm cəmiyyətində müxtəlif millətlərə məxsus milli dillər meydana gəlmişdir. Burada da dil bütün siniflərə eyni dərəcədə xidmət etmişdir. Deməli, sinfi ziddiyyət və mübarizənin kəskinləşdiyi bir şəraitdə də milli dillər sinfi olmamış, əksinə, xalq üçün, millət üçün dil birliyi zəruri şərt sayılmışdır.

SOSİALİZM VƏ DİLLƏR

Sosializm dünyanın bir sıra ölkələrində 70 ildən artıq ömür sürdü. Bu illərdə yeni tipli dövlət quruluşu yarandı. Lakin sosializm dünyası düzgün inkişaf etdirilmədi.

Sosializmin mövcud olduğu ölkələrdə dil problemləri də öz mürəkkəbliyi ilə diqqəti cəlb etmişdir. Təəssüf ki, bütün xalqların dilinin deyil, rus dilinin inkişafı üçün bu illərdə daha geniş şərait və imkanlar yaradılmışdır.

VII FƏSİL

DİL VƏ SİYASƏT

SİYASƏT VƏ DİL SİYASƏTİ NƏZƏRİYYƏSİ

Siyasət anlayışı geniş məzmuna malikdir. Ailədən tutmuş dövlətə qədər insan fəaliyyətinin əksər sahələrində bu və ya digər məqsədli siyasətlər mövcuddur. Burada, ötəri də olsa, *siyasət – milli siyasət – milli dil siyasəti* anlayışları üzərində dayanaq.

Ümumi siyasət anlayışı lüğətdə belə izah olunur: "Siyasət (ər). Dövlətin, partiyanın və ya hər hansı bir ictimai qrupun daxili dövlət və ya beynəlxalq münasibət məsələlərində öz sinfi mənafeyinə uyğun fəaliyyəti. *Dövlətin daxili siyasəti...*"[1] Bu ümumi izahla yanaşı, siyasətin dar məzmunda işlədilməsi də mövcuddur. Məsələn, ailə siyasəti, məktəb siyasəti, təhsil siyasəti və s.

Milli siyasət anlayışı. Millətin varlığı, onun gələcəyi ilə bağlı olan hər hansı bir siyasi görüş, siyasi konsepsiya və ya siyasi maraq milli siyasətin tərkibini təşkil edir. Onun əhatəsində olan məsələlərdən biri və ən başlıcası milli dil siyasətidir.

Milli dil siyasəti anlayışı. Hər bir millət üçün milli dil zəruriliyi başlıca amillərdəndir. Milli dil millətin varlığını şərtləndirir. Hər hansı milli dilin qorunması onun sahibi olan millətin qorunub saxlanılması deməkdir. Antidemokratiya, şovinizm, totalitar rejim milli dil siyasəti üçün ən dəhşətli amillərdir. Demokratik milli dil siyasəti ancaq azad bünövrə üzərində inkişaf edə bilir.

Milli dil siyasəti bu və ya başqa dövlətin milli siyasətinin vəhdət yaradan hissəsidir. Buna görə də dil siyasətinin

[1] Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, 1987, səh. 72.

həyata keçirilməsi – cəmiyyətə dillə təsir edilməsi dövlət əhəmiyyəti kəsb edir.

Deməli, milli dil siyasəti milli siyasətin, milli siyasət isə ümumi siyasətin bir hissəsidir.

Dil quruculuğu. Elmi dilçilik ədəbiyyatında "dil siyasəti" ilə bərabər *"dil quruculuğu"* termini də işlənir. Bu terminlərin hər ikisi dilçiliyə siyasi ədəbiyyatdan keçmişdir. Həmin mənbələrdə "dil siyasəti" və "dil quruculuğu" terminləri milli məsələyə dair dövlətin dil mövqeyi siyasətini bildirmək üçün istifadə olunmuşdur.

Bəzi dilçilər düzgün olmayaraq "dil quruculuğu" terminini "dil siyasəti"nin sinonimi kimi eyni mənada işlətmişlər. Bu terminlərin hər biri fərqli anlayışları ifadə edir.

Dil quruculuğu nədir? Dil quruculuğu dedikdə dilin inkişafı, tərəqqi etdirilməsi ilə bağlı məsələlər nəzərdə tutulur. *Dil quruculuğu* anlayışının dünya dilçiliyində müxtəlif terminlərlə ifadə edildiyinə təsadüf olunur. Bu anlayışla bağlı Fransa dilçiliyində *"dil qurma", "dil normalaşdırma",* Kanada dilçiliyində *"dilin tənzimlənməsi"* terminləri işlənməkdədir. Müasir dünya dilçiliyində son zamanlar *"dil quruculuğu"* ənənəvi termin kimi əsaslı şəkildə qəbul edilmiş və geniş istifadə olunur.

Dil quruculuğu insan fəaliyyətinin elə bir sahəsidir ki, bu, bilavasitə təcrübə ilə, ictimai-siyasi həyatla, mədəni quruculuq yaratmaqla əlaqədardır.

Dil quruculuğunun iki istiqaməti mövcuddur:

a) ədəbi dil normalarının formalaşdırılması;

b) cəmiyyətdə dilin vəzifələrinin müəyyənləşdirilməsi.

Dil quruculuğu təcrübəsində norma seçmək, normanın kodlaşdırılması və normanın tətbiqi birinci problemin əsasını təşkil edir. Hər bir ədəbi dilin dayaq dialektini müəyyənləşdirmək, lüğət tərkibinin sürətlə inkişafetmə yollarını aydınlaşdırmaq, terminləri dəqiqləşdirmək, əlifba və orfoqrafiyanı təkmilləşdirmək, nitq mədəniyyətini

inkişaf etdirmək və sair bu kimi məsələlər də dil quruculuğu anlayışı altında işlənilmişdir.

XX əsrdə dil quruculuğu məsələləri dünyanın bir çox ölkələrində xüsusi maraq doğurmuşdur. Xalqlar ədəbi normaları nizama salmış, özləri üçün yeni yazı formaları axtarmışlar.

Dil quruculuğu ilə bağlı problemlərin həlli prosesləri elmi ziyalılar – o cümlədən, ilk növbədə dilçilər, ədəbiyyatçılar, filosoflar, tarixçilər, sosioloqlar tərəfindən izlənilmişdir.

Müasir dövrün dil quruculuğunda dil siyasətinin rolu olduqca əhəmiyyətlidir. Dil siyasətinin təsiri həmişə cəmiyyətin dil quruculuğu təcrübəsinin genişlənməsinə səbəb olmuş və indi də belədir.

Dil siyasəti ictimai, siyasi məsələlərlə əlaqədardır. Dilçilik elmində cəmiyyətin məqsədli şəkildə kənardan dilin inkişafının tənzimlənməsinə, nizama salınmasına qarışması dil siyasəti hesab olunur. Dilə kənardan qarışmaq, onun məqsəd və yollarının tədqiqi əsasında dil siyasəti nəzəriyyəsi meydana gəlmişdir.

Dil siyasəti nəzəriyyəsi bu linqvistik siyasətin iki əsas cəhətini müəyyənləşdirmişdir:

1) Dil siyasəti dövlətin məqsəd və mənafeyinə xidmət edir.
2) Dil siyasəti prosesində dil inkişaf edir, daha yararlı ünsiyyət vasitəsinə çevrilir.

Hər bir cəmiyyətdə dil siyasəti yeridilməsi hakim təbəqənin, dövlətin məqsəd və marağının həyata keçirilməsinə kömək edir. Ümumi siyasətin bir hissəsi kimi dil siyasəti dil vasitəsilə cəmiyyətə təsir etmək imkanı yaradır.

Dil siyasətinin başlıca cəhəti dilin inkişafına xidmət etməsidir. Dilin inkişafına cəmiyyətin sinifləri, idarəedici müəssisələri qarışa bilər. Bu prosesdə, başlıca olaraq, dilin funksional tərəfinə təsir göstərilir və o, inkişaf edir. Lakin bununla bərabər, dilin struktural sahəsi də kənarda qalmır. Çünki di-

lin bu iki sahəsi bir-birilə qırılmaz şəkildə bağlıdır. Dilin hər iki sahəsində dəyişiklik gedir və bunlar müvazi inkişaf edir.

Dilin sahələrində müəyyən məqsəd və tələblər əsasında baş verən dəyişikliklərin kəmiyyət və keyfiyyəti, təbii olaraq eyni səviyyədə özünü göstərmir. Bunlardan funksional dəyişiklik və inkişaf daha çox və daha sürətli olur.

Dil siyasətində başlıca amil dil azadlığıdır. Ona görə də *dil azadlığı* "dil siyasəti" problemi tərkibinə aid olub, onun ən vacib hissəsini təşkil edir. Dil azadlığı və onun istifadə dairəsində tam sərbəstlik olmadan həqiqi milli azadlıq mümkün deyildir. Tarixi təcrübələr göstərmişdir ki, *dil məhdudluğu həmişə milli azadlığın qənimi olmuşdur.*

Dil azadlığı ana dilinin insan fəaliyyətinin bütün sahələrində – dövlət idarələrində, ictimai təşkilatlarda, orduda, məhkəmədə, təhsildə işlənilməsini tələb edir.

Ana dili hər bir millətin, xalqın əvəzsiz mənəvi sərvəti və varlığıdır. Ona görə də bu dili qorumaq, onun ictimai roluna diqqətlə yanaşmaq hər bir kəsin vətəndaşlıq borcudur.

7.01. DÖVLƏT DİLİ SİYASƏTİ

Dövlət, icma quruluşunu sinifli cəmiyyət olan quldarlıq əvəz etdikdə meydana çıxmışdır. Dövlətin yaranması ilə əlaqədar onun bir sıra siyasəti formalaşmışdır. Bunlardan biri də dil siyasəti olmuşdur. Tarixən ümum-dövlət siyasətində dil siyasəti xüsusi yer tutmuşdur.

Dil siyasəti problemində dövlət dili məsələsi zəruri əhəmiyyət kəsb edir. *Dövlət dili dedikdə, bu və ya başqa bir ölkədə yaşayanlar arasında ünsiyyət üçün müəyyənləşdirilmiş dil nəzərdə tutulur. Dövlət dili* anlayışını, bəzi hallarda olduğu kimi, *milli dillə qarışdırmaq* doğru deyildir. Çünki bunların hər biri ayrı-ayrı məzmuna və müxtəlif vəzifələrə malikdir.

Qədim dövrlərdən başlamış müasir zamana qədərki dövlətlərdə ümumdövlət ünsiyyət forması – dövlət dilləri eyni səciyyəli və vahid məqsədli olmamışdır. Ayrı-ayrı dövrlərin, ictimai quruluşların tələbləri dövlət dillərində öz əksini tapmışdır. Buna görə qədim dövlətlərin dövlət dili müasir dövlətlərinkindən tamamilə fərqli şəkildə olmuşdur.

1. QƏDİM DÖVLƏTLƏR VƏ ONLARIN DİLİ

Qədim dövlət dedikdə, qədim sinifli cəmiyyət nəzərdə tutulur. Cəmiyyət tarixində ilk qədim dövlət quldarlıq dövrünün məhsuludur.

Qədim dövlət dilinin bir sıra özünəməxsus xüsusiyyətləri var idi. Tarixçilərin fərziyyələrinə görə, qədim dövrlərdə müxtəlifdilli tayfalar zor gücünə birləşdirilib dövlət yaradılmışdır. Belə hallarda iki dildən istifadə olunmuşdur: hakim olan tayfanın dili və başqa tayfaların dili. Deyildiyinə görə, hakim olanların danışığı başqaları üçün çətin anlaşılan ünsiyyət vasitəsi olmuşdur.

Qədim dövrlərdə dünyanın həm qərbində, həm də şərqində dövlətlər yaranıb fəaliyyət göstərmişdir.

Qədim Şərqin ilk dövlətlərindən biri Uyğur dövlətidir. Bir çox tayfaların birləşdirilməsi əsasında yaranmış *Qədim Uyğur dövlətinin* dili uyğur dili olmuşdur. Bu dövlət Orxon və Selenqa çayları ətrafında təşəkkül tapmışdır. Karabalqasun şəhəri dövlətin paytaxtı olmuşdur. Həmin dövrlərdə feodalizm münasibətləri ilə yaşayıb-yaradan bir çox tayfalar get-gedə yaxınlaşıb xalq kimi birləşmişlər. Bunun nəticəsində uyğur xalqı yaranmışdır. Elmi məlumatlara görə, uyğurlar VIII əsrdə *manixey dinini*, IX əsrdə isə müəyyən ictimai-siyasi səbəblərlə bağlı *buddizmi* qəbul etmişlər.

Uyğurlar V–VII əsrlərdə runik yazısından istifadə etmişlər. VIII–XIII əsrlərdə uyğur dilinin öz yazısı olmuşdur. Bu yazı yeni soqdi əlifbası əsasında yaradılmışdır.

Uyğur dilinin bir çox abidələri bizim dövrə qədər gəlib çıxmışdır. Bu abidələr müxtəlif məzmunludur. Bunların arasında dini hadisələrlə bağlı olanı az deyildir.

Uyğur dili Orta Asiyada bir sıra ədəbi dillərin (qədim özbək ədəbi dili XV–XIX, qədim türkmən ədəbi dili XVII–XIX) inkişafına öz təsirini göstərmişdi.

Qədim Qərbdə də bir sıra dövlətlər meydana gəlmişdir. Qərbi Avropada *qədim Yunan* və *qədim Roma* dövləti təşəkkül tapmışdır. Bu dövlətlərin sosial quruluşu qullardan istifadə forması ilə əlaqədar olmuşdur.

Qədim Yunan dövlətində *yunan dili*, qədim Roma dövlətində isə *latın dili* dövlət dili kimi işlədilmişdir. Bu dillər sonradan bir çox dillərin formalaşmasında, inkişafında xüsusi rol oynamışdır.

2. MÜASİR DÖVLƏTLƏR VƏ ONLARIN DİLİ

Müasir dövlətlərin tərkibi milli miqdara və istifadə olunan ünsiyyət vasitəsinə – dilə görə çox müxtəlifdir. Məlum olduğu kimi, bəzi dövlətlər, o cümlədən *Koreya* və *Kamboca* (burada az miqdar kxmerlər yaşayır) təkmillətlidir. Lakin dünyanın əksər dövlətləri çoxmillətli və çoxdillidir. Məsələn:

Sıra №-si	Ölkələr	Dillərin miqdarı
1	Hindistan	70
2	Nigeriya	300
3	Zair	210
4	İndoneziya	200
5	Kamerun	170
6	Tanzaniya	98
7	Filippin	80
8	Vyetnam	70

Bir dövlətin tərkibində onlarla, yüzlərlə millət və dilin olması həmin dövlətdə dövlət dili problemini qat-qat mürəkkəbləşdirir. Bu çoxdillilik dövlətdə böyük çətinlik törədir. Tanzaniyanın 12 milyon əhalisi 98 müxtəlif dildə danışır. Belə dil çoxluğu ölkədə mədəniyyətin, iqtisadiyyatın inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi. Adətən, çoxmillətli ölkənin üzvləri bir-birini başa düşməyəndə dövlətin tərkibində xalqlararası ünsiyyət üçün ümumi dil ehtiyacı meydana çıxır. Bu dil ehtiyacı dövlətin siyasətinə uyğun həll olunur.

Hər bir dövlətin dil siyasəti, konkret olaraq dövlət dili statusu konstitusiyalarda qeyd edilir. Lakin bu qeydlər bütün konstitusiyalarda eyni forma və məzmunda olmur. Kanada dilçisi C.Turi bu məqsədlə 150-yə yaxın ölkənin konstitusiyasını nəzərdən keçirib oradakı dil məsələlərinin təhlilini vermişdir. Tədqiqatçı konstitusiyalardakı qanunların müxtəlif olduğunu əsaslı şəkildə sübuta yetirmişdir.

Cəmiyyət tarixində çoxmillətli və çoxdilli ölkələrdə aşağıdakı prinsiplərə görə dövlət dili müəyyənləşdirildiyinə təsadüf olunur:

1. ***Hakim xalqın dilini dövlət dili elan etmək prinsipi.*** Dünyanın bir çox ölkələrində dövlət dili bu prinsipə əsaslanmışdır. Məsələn, Fransada fransız dili, İngiltərədə ingilis dili, Almaniyada alman dili bu qaydada dövlət dili kimi işlənilmişdir.
2. ***Ölkənin tərkibində olan azsaylı xalqların birinin dilini işlətmək prinsipi.*** Azsaylı yerli xalqın dilini dövlət dili elan etmək təcrübəsi müəyyən ölkələrdə ənənəvi xarakter almışdır. Tanzaniya ölkəsində azsaylı yerli suxalı xalqının dili, İndoneziyada isə, həmçinin az miqdarda olan malay xalqının dili dövlət dili kimi qəbul edilmişdir.
3. ***Ölkə kənarındakı millətlərin birinin dilini götürüb istifadə etmək prinsipi.*** Tarixi faktlar göstərir ki,

bəzi ölkələr dövlət dili kimi başqa xalqın dilini alıb işlətmişlər. Məsələn, müəyyən dövrlərdə Orta Asiya və İranda ərəb, Yaponiyada, Vyetnam və Koreyada klassik çin dilində (venyan) dövlət dili kimi istifadə olunmuşdur.

4. ***Müstəmləkəçi ölkənin dilini işlətmək prinsipi.*** Çoxmillətli ölkələrdə müstəmləkəçi dilinin dövlət dili vəzifəsində işlənilməsi halları az deyildir. İngilis ağalığı nəticəsində ingilis dili Qambiya, Keniya, Qvineya, Qana, Misirdə, fransız zorakılığı zamanı fransız dili Konqo, Toqo, Qabon, Əlcəzair və Mərakeş ölkələrində müstəmləkəçi dili kimi dövlət dili vəzifəsində işlənilmişdir. Vyetnamda 1944-cü ilə kimi fransız dili dövlət dili olmuşdur. Dünyanın əksər dövlətlərində bir dil rəsmi şəkildə işlənilir. Lakin bununla yanaşı, bəzi dövlətlərdə iki və daha artıq dövlət dilindən – rəsmi dildən istifadə olunduğu hallar da vardır. Məsələn, dövlət dili kimi Tanzaniyada iki dildən – *suxali* və *ingilis* dillərindən, Pakistanda *urdu* və *ingilis* dillərindən, Hindistanda *hind* və *ingilis* dillərindən, Kanadada *ingilis* və *fransız* dillərindən, Belçikada *fransız* və *flamand* dillərindən istifadə edilir. Keçmiş ittifaqın bütün respublikalarında iki dövlət dili fəaliyyət göstərirdi. Məsələn, Azərbaycanda iki dil – *Azərbaycan* və *rus* dilləri, Özbəkistanda – *özbək* və *rus* dilləri, Qazaxıstanda – *qazax* və *rus* dilləri və s.

Bir ölkədə bir çox rəsmi dildən istifadə təcrübəsi İsveçrədə daha xarakterikdir. Orada dörd dil – *alman, fransız, italyan* və *retoroman* dili rəsmi dillərdir. Dünyanın dövlət dili ənənəsindən aydın olur ki, bir ölkədə bir və ya bir neçə dövlət dili olduğu kimi, bir dilin bir neçə ölkədə işlədilməsi halları da mövcuddur. Hazırda İngiltərə və ABŞ-da *ingilis dili*, Almaniya və Avstriyada *alman dili*, Portuqaliya və Bra-

ziliyada *portəgiz dili*, İspaniya və Latın Amerikasında (20 ölkədə) *ispan dili* dövlət dili vəzifəsində fəaliyyət göstərir. Ərəb ölkələrinin hamısında *ərəb dili* rəsmi dövlət dilidir.

Hər dövlətin öz dil siyasəti olur. Buna görə də ayrı-ayrı ölkələrdə bu sahədəki siyasətin müxtəlif formaları meydana çıxır.

Dövlətlərdə aparılan dil siyasətinin müxtəlif məqsədi ola bilir:

a) milli dilləri inkişaf etdirmək siyasəti;

b) azsaylı xalqların dillərini sıxışdırmaq siyasəti.

Dil siyasətində *dilləri inkişaf etdirmək* ən proqressiv xarakterlidir. Məlumdur ki, dili inkişaf etdirməkdə dövlət böyük imkanlara malikdir. Bütün qanunvericilik, elmi-texniki, iqtisadi-siyasi və hər növ təşkilati imkanlar onun ixtiyarındadır. Dil kütləvi informasiyada, məktəblərdə, idarə və təşkilatlarda işlənmək hüququ qazananda sürətlə inkişaf edir.

İkinci halda çoxmillətli dövlətlərdə hakim xalq aqressiv mövqe tutub öz dilini azsaylı xalqlara müxtəlif bəhanələrlə qəbul etdirir və bununla da *onların ana dillərinin işlənilməsini məhdudlaşdırır.* Tarixən belə siyasət hələ qədim dövrlərdə Roma imperiyasında aparılmışdır. Tarixin uzaq olmayan dövrlərində də bu mürtəce mahiyyətli dil siyasətindən istifadə olunmuşdur. Məsələn, Cənubi və Mərkəzi Amerikada yerli dillər ispan dili ilə, Braziliyada portuqal dili ilə sıxışdırılmışdır. Hər bir dilin sıxışdırılması onun *ictimai həyatda, tədris prosesində və ailə şəraitində* işlənilməsindən asılıdır. Dil ailədə işlənməyəndə zəifləyir, inkişafdan qalır və nəticədə ölü dilə çevrilir. Dil siyasətində bu, ən təhlükəli haldır.

Dövlətin əlifba siyasəti. Dil siyasətində yazılı dil vasitələri – qrafika, əlifba məsələləri də xüsusi rol oynayır. Əlifba mədəniyyət silahıdır. Mükəmməl əlifba əsasında

aparılan yazı sistemi xalqın maddi-mədəni nailiyyətlərinin yaranmasında, yaşaması və inkişaf etməsində başlıca əhəmiyyət kəsb edir. Hər bir əlifba xalqın dilinin, *elmi və əməli əlaqələrinin möhkəmlənməsinə*, digər zəruri fəaliyyət sahələrinin tərəqqisinə imkan yaradır.

Dünyanın yazı ənənəsi tarixində iki məqsədin olduğu müşahidə edilir:

a) əlifbası olmayan xalqlar üçün yazı sistemi yaratmaq siyasəti;
b) din eyniliyi və dil qohumluğu olan xalqların əlaqəsini zəiflətmək siyasəti.

XX əsrin 30-cu illərindən başlayaraq əlifba siyasətinin hər iki növündən keçmiş İttifaqda məqsədli şəkildə istifadə edilmişdir. Məlumatlara görə, 50-yə qədər xalqın yazı mədəniyyəti yaradılmışdır. Bununla yanaşı, bir sıra xalqların, xüsusilə türkdilli xalqların, ümumiyyətlə, daxildə və xaricdə *əzəmətli türk dünyası üzvlərinin* yaxınlaşmasına, birləşməsinə və inkişafına mane olmaq, əlaqələrini kəsmək üçün onların yazısı rus əlifbasına keçirilmişdir. Keçmiş İttifaq xalqlarının və xüsusilə türkdilli xalqların yazı mədəniyyəti probleminə mərkəzi dövlət xadimlərinin qarışması bu xalqlara qarşı mürtəce siyasətin gizli forması idi.

"Mürtəce siyasətin nəticəsi Azərbaycan xalqının həyatında özünü daha qabarıq göstərmişdir. Mövcud informasiyalara görə, yer üzündə 30 milyondan artıq azərbaycanlı yaşayır. Cənubi Azərbaycanda və ərəb ölkələrində yaşayan azərbaycanlılar *ərəb qrafikasından*, Türkiyədə, Almaniyada, ABŞ-da, Fransada, İngiltərədə və başqa ölkələrdə məskunlaşanlar *latın qrafikasından*, Şimali Azərbaycandakılar isə *Kirill qrafikasından* istifadə edirlər. Belə əlifba çoxluğu Azərbaycan xalqının milli mədəniyyətinin birləşməsinə ancaq mənfi təsirini göstərir. Dünyanın müxtəlif regionlarında

yaşayan azərbaycanlıların bir-birinin nailiyyətləri haqqında birbaşa məlumatı ola bilmir, milli mədəniyyət arasında möhkəm əlaqə yaranmır. Buna görə də *xalqımızın birliyi*, onun iqtisadi, siyasi və mədəni inkişafı üçün mütərəqqi və yararlı əlifbadan istifadə etməyə doğru istiqamət göstərilməlidir. Belə əlifba isə 1928-1939-cu illərdə işlətdiyimiz və indi yenidən bərpa etdiyimiz latın əsaslı əlifba ola bilər"[1].

7.02. AZƏRBAYCANIN DÖVLƏT DİLİ

Dünya dövlətləri quruluşu sistemində Azərbaycan xalqının yaratdığı dövlətlərin də xüsusi mövqeyi olmuşdur.

Qədim Azərbaycan dövlətlərində ictimai-siyasi məsələlərlə bağlı rəsmi ünsiyyət vasitəsi kimi ərəb və fars dillərinə daha çox meyil göstərilmişdir. Lakin bu münasibət XVI əsrdə yaranmış Səfəvilər dövlətində tamamilə başqa istiqamət almışdır. Həmin dövlətdə Azərbaycan dili dövlət dili kimi işlənmək hüququ qazanmışdır. Bu tarixi hadisənin həyata keçirilməsində Azərbaycanı birləşdirib böyük bir dövlət yaratmış Şah ismayıl Xətainin böyük rolu olmuşdur. O, vuruşlarda qalib gəlib, nəhayət, 1502-ci ildə Təbrizdə özünü şah elan etdiyi gündən ziyalıları saraya toplayıb, doğma Azərbaycan dilinin genişliyi ilə istifadə olunmasına şəra-

Şəkil 5. Xətai

[1] Afad Qurbanov. "Azərbaycan əlifbası qrafikası". "'Kommunist" qəzeti. Bakı, 1 avqust 1990.

it və imkanlar yaratmışdır. Həmin illərdə Azərbaycan dili sarayda, rəsmi yerlərdə işlənməklə bərabər, bu dildən bədii yaradıcılıqda da geniş istifadə olunub görkəmli əsərlər yaradılmışdır. Şah İsmayıl Xətai də Azərbaycan dilində bir sıra bənzərsiz əsərlər yazmışdır. Onun əsərlərində Azərbaycan dilinin zənginliyi, təsir gücü, ahəngdarlığı böyük sənətkarlıqla təcəssüm etdirilmişdir:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü. ("Dəhnamə")

Belə misraların müəllifi ancaq Azərbaycanın vurğunu və Azərbaycan dilinin pərəstişkarı ola bilərdi.

Hazırda Azərbaycan müstəqil dövlətdir. Şimali Azərbaycan ərazisində yerləşən ***müasir Azərbaycan Respublikası*** çoxdilli ölkədir. Burada 20-yə qədər müxtəlif dildən istifadə olunur. Azərbaycan Respublikasındakı xalqların dilləri üç dil ailəsinə məxsusdur. Bunlardan *Azərbaycan dili, tatar dili türk dilləri ailəsinə; rus dili, tat dili, talış dili, kürd dili hind-Avropa dilləri ailəsinə, gürcü dili, ləzgi dili, avar dili, qrız dili, udin dili, ingiloy dili, saxur dili, budaq dili, xınalıq dili Qafqaz dilləri ailəsinə* aiddir. Bu dillərdən talış və ləzgi dillərində danışanların sayı daha çoxdur.

Azərbaycan Respublikasında ***Azərbaycan dili dövlət dilidir.*** Bu, Azərbaycan Respublikası Konstitusiyasında qanunvericilik yolu ilə qəbul olunmuşdur. Konstitusiyada Azərbaycan dilinin statusu, hüququ, azad inkişaf etdirilməsi və geniş işlənilməsinin əsasları da göstərilmişdir. Azərbaycan Respublikasının dövlət orqanlarında, mətbuatda, tədrisdə, müəssisələrdə və başqa sahələrdə bütün işlər Azərbaycan ədəbi dilində aparılır.

Azərbaycan Respublikası ictimai həyatın hər bir sahəsində Şimali Azərbaycan ərazisində yaşayan xalqların dillərinin istifadə olunması üçün şərait yaradır, onların hər cür inkişafı qayğısına qalır. Burada Azərbaycan dili başqa dillərin inkişaf etdirilməsi üçün bir mənbə rolunda iştirak edir.

Hazırda Azərbaycan ərazisində yaşayan hər bir xalqın dilinə milliyyətindən asılı olmayaraq böyük qayğı və hörmətlə yanaşılır.

7.03. DİL SİYASƏTİNDƏ BİLİNQVİZM MƏSƏLƏLƏRİ

Müasir dilçiliyin ən maraqlı məsələlərindən biri "dil və siyasət" probleminin bilinqvizm – ikidillilik məsələsidir. Məlumdur ki, ikidillilik hadisəsi ilə yanaşı, bəzi çoxmillətli ölkələrdə çoxdillilik də mövcuddur. Buna görə də hər iki qrup dil hadisəsinin xüsusiyyətləri dilçilik üçün maraqlı olub, elmi cəhətdən eyni dərəcədə izlənilməlidir.

1. BİLİNQVİZM VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Bilinqvizm latın mənşəli sözdür, mənası ikidillilik deməkdir. Bir ölkədə eyni zamanda iki dildən istifadə edilməsi elmdə və siyasətdə *bilinqvizm* adlanır. Məsələn, Azərbaycan-rus bilinqvizmi, özbək-rus bilinqvizmi, türkmən-rus bilinqvizmi, tatar-rus bilinqvizmi və s.

İkidillilik prosesində xalqın bütün üzvləri və ya onun müəyyən qrupu fəal iştirak edə bilir. Bununla bərabər, ikinci dil bəzi şəxs tərəfindən ya zəif, yaxud da ana dili səviyyəsində öyrənilə və işlədilə bilir.

Bilinqvizm təbii dil hadisəsi olaraq çoxmillətli ölkələrdə fəaliyyət göstərən obyektiv amillərdəndir. Bu hadisə-

nin yaranması və fəaliyyətdə olmasının bir-biri ilə bağlı bir sıra linqvistik və sosial səbəbləri olmuşdur. İkidilliliyin yaranmasının bəzi səbəbləri:

a) qarışıq ailələrdə qeyri-millət nümayəndəsi olduğuna görə övladlar iki dildə danışırlar;
b) əmək kollektivlərinin milli tərkibinin müxtəlifliyi əsasında ikidillilik meydana çıxır;
c) təhsildə, ictimai təşkilatlarda başqa dildən istifadə etməklə bağlı ikidillilik yaranır;
ç) elmi və mədəni əlaqələr aparılarkən çoxdillilik formalaşır və s.

Cəmiyyətdə ikidillilik hadisəsinin yaranmasının tarixi qədim dövrlərə gedib çıxır. Hələ uzaq keçmişdə insanlar başqa dili öyrənib, onun vasitəsilə cəmiyyətin inkişafına təsir etməyin mümkün olduğunun əhəmiyyətini dərk etdikləri zaman çoxdillilik prosesi vüsət tapmağa başlamışdır. Özgə dili bilmək yeni-yeni nailiyyətlər qazanmaqdır. Bilinqvizm probleminin yaranma, inkişafetmə tarixində böyük kəşflər, xalqlararası əlaqələr dövrü olan XVI–XVII əsrlər xüsusilə fərqlənir.

Dünyada ikidillilik çoxmillətli ölkələrdə böyük sürətlə yayılmış və bir çox dövlətləri bürümüşdür. Müasir dünyada bu hadisənin yaranması daha da genişlənmişdir. İndi İngiltərədə, Fransada, Belçikada ikidillilik geniş yayılmış, Latın Amerikası əhalisinin əsas hissəsi ikidillilik əsasında ünsiyyət saxlayır.

2. BİLİNQVİZM NƏZƏRİYYƏSİ

Dilçilik elmində bilinqvizm nəzəriyyəsi xüsusi yer tutur. Bu nəzəriyyə XIX əsrdə bilinqvizmin ümumi linqvistik istiqamətdə tədqiqi və öyrənilməsi əsasında meydana gəlmişdir. Bu problemin öyrənilməsinə dair elmdə müəyyən ənənə əmələ gəlmişdir.

İkidillilik məsələsi dilçilikdə çox mübahisə yaratmışdır. Bəzi dilçilər iki müxtəlif sistemli dili, bəziləri isə iki eyni tipli dili bilməyi bilinqvizm hesab etmişlər. Belə bir fikir də irəli sürülmüş ki, bir şəxsin iki dildə ana dili kimi danışa bilməsi ikidillilikdir. Əslində belə hallar çox az olur. İkidillilikdə ana dilini yaxşı bilənlərə daha çox təsadüf edilir.

İkidillilik hadisəsi nitqdə mövcuddur. Buna görə də onu nitq hadisəsi kimi canlı prosesdə öyrənmək lazımdır.

İkidillilik hadisəsi dünyanın müxtəlif yerlərində mövcuddur. Onun mədəni-tarixi və sosial şəraiti rəngarəng ola bilir. Ona görə də ikidilliliyin xüsusiyyətləri çətin təsvir edilir. Belə dil hadisəsinin tədqiqi və təhlili xüsusi linqvistik metodlar tələb edir.

Bilinqvizm nəzəriyyəsinə görə, ikidilliliyin əhəmiyyəti aydınlaşdırılarkən onun ərazi və dövlət əhəmiyyəti fərqləndirilməlidir. Çünki elə ikidillilik prosesi vardır ki, o, ancaq bir ərazidə yaşayan iki xalqa xidmət edir.

İkidilliliklə bağlı aparılan hər bir tədqiqat bu dil prosesinin açılmamış sahələrini işıqlandırmaqla bilinqvizm nəzəriyyəsini zənginləşdirməlidir.

3. BİLİNQVİZMİN NÖVLƏRİ

İnsanların iki dildə danışa bilmək bacarığının səviyyəsi əsasında bilinqvizmin aşağıdakı növləri meydana gəlmişdir: *saf bilinqvizm, qarışıq bilinqvizm.*

Saf bilinqvizm. Saf ikidillilikdə danışanın nitq fəaliyyəti müxtəlif dillərin tələblərindən asılı olmur. Yəni danışan şəxs bir dildən başqasına asanlıqla, heç bir qüsura, qarışıqlığa yol vermədən keçir. Məsələn, milliyətcə azərbaycanlı olan mühəndis ailədə azərbaycanca danışır, iş yerində isə rusca ünsiyyətdə olur. Bu zaman dilləri bir-birinə qarışdırmır, hər dili öz tələblərinə uyğun işlədir.

Qarışıq bilinqvizm. Bu növ ikidillilik dil materiallarını qarışdıranda, yersiz işlədəndə müşahidə edilir. Şəraitlə bağlı bu və ya başqa şəxs gah bu, gah da o biri dildə danışır. Bu zaman bir dilin sözü yersiz olaraq o biri dildə işlənir. Məsələn, Azərbaycan danışığında (*вообщем*), (*давай*), (*общем*) və s. sözlərin işləndiyi kimi. Başqa dilin ünsürlərini ana dilində bu şəkildə işlətmək interfe-rensiya (latınca "ortada işlənən" deməkdir) adlanır.

Qarışıq bilinqvizm dillərin təmizliyinə, təsir qüvvəsinə və ahənginə xələl gətirən hadisədir.

4. BİLİNQVİZM VƏ DİQLOSSİYA

Dilçilikdə bilinqvizm və diqlossiya anlayışları haqqında müxtəlif mövqelər, mülahizələr vardır. Belə ki, bəzi dilçilər *bilinqvizm* və *diqlossiya* terminlərinin eyni məzmunlu anlayış ifadə etdiyini bildirmişlər. Digərləri isə bunların ayrı-ayrı anlayışlar olduğunu göstərmişlər. Bilinqvizm müxtəlif sistemli dillərin, diqlossiya etnik cəhətdən yaxın olan dillərin paralel işlədilməsidir. Yunanca "di" iki, "qlossa" dil deməkdir.

Diqlossiya hadisəsinin bir neçə forması meydana gəlmişdir:

1) *Bir xalqın tarixən iki ədəbi dildən istifadə etməsi.* Yunanıstanda vaxtilə iki ədəbi dil formalaşmışdır. Bunlardan biri *yeni eranın əvvəllərində yaranmış yunan ədəbi dilidir.* Bu ədəbi dil bizim eraya qədərki V–IV əsrlərdə yaşamış qədim yunan klassiklərinin yamsılanması əsasında əmələ gəlmişdir. İkincisi isə daha sonralar *formalaşmış yeni yunan ədəbi dilidir.* Bu ədəbi dil mütəxəssislərin fikrincə, bütün arxaik ünsürlərdən azad, xalqa daha yaxın və aydın olan ədəbi dil formasıdır.
2) *Bir neçə xalqın öz ana dili ilə yanaşı, ümumi qohum dildən istifadə etməsi.* Bu növ diqlossiya ərəb ölkələri üçün xarakterikdir. Ərəblərin vahid ədəbi dili VII əsrdə əmələ

gəlmiş yazılı ədəbi dildir. Bütün ərəb xalqları elm, mədəniyyət, ədəbiyyat, din, təhsil və sair sahələrdə bu ədəbi dildən istifadə edirlər. Lakin bununla bərabər, hər bir ərəb xalqının fərqlənən danışıq dili də mövcuddur. Tədqiqatçılar bu fərqli dilləri dialekt adı ilə də tədqiq və təsvir edirlər.

3) *İki müstəqil qohum dildən istifadə olunması.* Bu formada diqlossiya hadisəsinə müxtəlif dilli xalqların fəaliyyətində təsadüf olunur. Məlum olduğu kimi, Azərbaycanda, Türkmənistanda, Özbəkistanda yaşayan tatarlar ailədə tatarca, ictimai mühitdə Azərbaycan, türkmən və özbək dilində ünsiyyətdə olurlar. Bu dillərin dördü də genetik cəhətdən bir-biri ilə qohum olduğu üçün türk dilləri ailəsinə aiddir. Yaxud Litva Respublikasında yaşayan latışlar ailədə latış dilində, ictimai yerlərdə isə litva dilində danışırlar. Bu qohum dillərin hər ikisi genetik cəhətdən hind-Avropa dilləri ailəsinin Baltik qrupuna daxildir.

5. BİLİNQVİZMİN PRİNSİPLƏRİ

Bilinqvizm siyasətinin özünəməxsus prinsipləri mövcuddur ki, bunlar da bir-birindən fərqlənir.

Humanist prinsip. Bilinqvizmin humanist prinsiplərinə görə, hər bir şəxs mənsub olduğu xalqın sayından asılı olmayaraq, bütün fəaliyyət sahələrində öz dilindən geniş istifadə etməli və onun qayğısına qalmalıdır. Çünki hər bir dil onu yaradanların mənəvi sərvətidir. İnsanlar bu sərvəti qoruyub, öz dilində danışmaq hüququna malik olmalı və milli, mədəni ənənələrinə uyğun yaşayıb-yaratmalıdırlar.

Deməli, *ikidillilik şəraitində humanist* prinsip ana dilinin inkişaf etdirilməsi mövqeyinə xidmət edir.

Antihumanist prinsip. Adından bəlli olduğu kimi, bu, humanist prinsipin əksini təşkil edir. Antihumanist prin-

sipin tələblərinə görə, ikidillilikdə ana dili sıxışdırır, onun imkanları azaldılır. Məsələn, İran İslam Respublikasında məktəbdə, radioda, televiziyada işlər, əsasən, fars dilində aparılır. Buna görə də oradakı dillər lazımi səviyyədə inkişaf etmək imkanına nail ola bilmir.

6. BİLİNQVİZM HADİSƏSİNDƏ MİNORİTAR DİLİN TALEYİ

Bilinqvizm şəraitində ana dili *minoritar dil*, başqa dil *majoritar dil* adlanır. Tarixi faktlar göstərir ki, ikidillilik *sabit hadisə* olmayıb, gec-tez bilinqvizm təşkil edən dillərdən biri, əsasən, majoritar dil o birisini "əridir" və sıradan çıxarır. Deməli, öz xarakterinə görə o, başqa bir dili əvəz edən prosesdir. Bunun özü bir sıra ictimai-siyasi və mədəni proseslə bağlı həyata keçir.

İkidillilik şəraitinin ilk dövrlərindən minoritar dil məhv olmaq, sıradan çıxmaq yolunda durur. Bilinqvizm prosesində minoritar dilin – ana dilinin rolu zəifləyir, onun fonetik sisteminə, qrammatik quruluşuna əks təsir yaranır, hətta lüğət tərkibini təşkil edən leksik və frazeoloji vahidlərin çoxu istifadədən qalır, onların əvəzinə majoritar dilin ünsürləri işlənilir.

Ana dilində əmək fəaliyyətinin bütün sahələrində tam və azad istifadə etmək imkanlarından məhrum olan insanlar doğma dillərindən (məcburiyyət qarşısında) arzuolunmaz halda imtina edirlər. Onlarda öz ana dillərinə nifrət etmək, onu eşitmək istəməmək kimi hisslər baş qaldırır və nəticədə minoritar dilin sahibləri tamamilə majoritar dilə – hakim dilə keçirlər. Tarixdə baş verən belə dil hadisələrini Amerika dilçiləri "Self hatred" (zəhləsi getmək) adlandırmışlar.

Dünya xalqlarının dil siyasəti tarixi aydın göstərir ki, bütün ölkələrdə həmişə majoritar dillərin xeyrinə qərarlar qəbul edilmişdir.

7.04. POLİLİNQVİZM VƏ ONUN ƏLAMƏTLƏRİ

a) Monolinqvizm. Xalqın ancaq bir dildən istifadə etməsi monolinqvizm – təkdillilik hadisəsidir[1]. Belə dil hadisəsi cəmiyyətin ilk mərhələlərində daha xarakterik olmuşdur. Müasir dünya təcrübəsindən aydın olduğuna görə monolinqvizm son dərəcə məhdudlaşmış, çox az miqdarda xalqın ictimai həyatında müşahidə olunur. Lakin indiki şəraitdə təkdilliliyin tamamilə olmadığı fikrini irəli sürənlər də vardır. Bu fikirlərlə razılaşmaq olmaz. Onun düzgünlüyünü dünyanın dil mənzərəsinin ətraflı təhlili göstərə bilər ki, buna da böyük ehtiyac vardır.

b) Polilinqvizm. Xalqın bir neçə dildə danışması polilinqvizm – *çoxdillilik* adlanır[2]. Bu hadisə bir ərazidə bir çox dil işlənildikdə meydana gəlir.

Dünyada çoxdillilik hadisəsi geniş yayılmışdır. Bəzi xalqlar üç və ya dörd dildən istifadə edirlər. Lakin bunlardan xalqlar arasında üçdillilik hadisəsi daha çox özünü göstərir. Məsələn, Azərbaycanda yaşayan talış ziyalıları evdə talışca, işdə azərbaycanca və rusca danışırlar. Yaxud, bu formada *Özbəkistanda:* ***tacik dili*** – özbək dili – rus dili; *Türkmənistanda:* ***tatar dili*** – türkmən dili – rus dili; *Gürcüstanda:* ***osetin dili*** – gürcü dili – rus dili; *Azərbaycanda:* ***Azərbaycan dili*** – gürcü dili – rus dili; *Litvada:* ***qaraçı dili*** – litva dili – rus dili, ***belorus dili*** – litva dili – rus dili; ***tatar dili*** – litva dili – rus dili, ***karaim dili***[3] – litva dili – rus dili işlədilir.

Polilinqvizmin bir neçə növü vardır:

1) *İstifadə edilən dillərin hamısını ana dili səviyyəsində bilmək.* Bu növ polilinqvizmdə insan işlətdiyi hər bir dil-

[1] Ancaq öz ana dilini bilən adam monoqlot adlanır.
[2] Çox dil bilən adam dilçilikdə poliqlot adlanır.
[3] Karaimlərin vətəni Krım olmuşdur. Onları XIV əsrdə Litva knyazları Litvaya köçməyə məcbur etmişlər.

də müstəqil fikir söyləyir, onun danışığı heç bir cəhətdən fərqlənmir.

2) *İstifadə olunan dillərin bir neçəsini yaxşı bilmək.* Burada ana dili kimi bir və ya iki dili mənimsəmək olar.
3) *İstifadə olunan dilləri anlamaq, lakin danışa bilməmək.* Şübhəsiz ki, qonşu dilləri hər bir kəs anlayır, amma hamı danışa bilmir. Başqa dillərdən lüğət vasitəsilə istifadə etmək də belə polilinqvizmə aiddir.
4) *Başqa dili bilib düzgün tələffüz edə bilməmək.* Belə halda ünsiyyətdə olan şəxsin nitqi qeyri-dilin tələffüz tələblərinə uyğun gəlmir. Gürcünün rusca danışığı onun kimliyini həmin andaca bildirir. İki və çox dil bilmək dünya xalqları arasında iqtisadi, siyasi və mədəni əlaqələrin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Ona görə də müxtəlif dillərin öyrənilməsi ictimaiyyətin, təşkilat və müəssisələrin diqqət mərkəzində olmalıdır.

7.05. BMT VƏ DİL SİYASƏTİ

Bəşəriyyətin sürətli inkişafının indiki dövründə elm və texnikanın, ədəbiyyat və incəsənətin tərəqqisi, mədəni və siyasi münasibətlərin yaranması, artması müxtəlif xalqların, dövlətlərin əlaqələrinin çoxalması və möhkəmlənməsi zəruriliyini meydana çıxarmışdır. Bu əlaqələrin başlıca vasitəsi dövlətlərarası, millətlərarası istifadə edilə bilən dildir.

Millətlərarası ünsiyyət dili ədəbi formada olub, müxtəlif dövlətlərin nümayəndələri arasında istifadə edilən vasitə kimi təsəvvür olunur.

Müasir dünyanın siyasi məsələləri ilə məşğul olan Birləşmiş Millətlər Təşkilatında (BMT) dövlətlərarası ün-

siyyət vasitəsi kimi bir sıra müasir dillərdən istifadə edilir. Həmin dillər bunlardır:

İngilis dili
Fransız dili
İspan dili
Rus dili
Ərəb dili
Çin dili

Bu dillər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə əsasən hüquqi olaraq rəsmiləşdirilmişdir.

Birləşmiş Millətlər Təşkilatında istifadə olunan dillərdən ingilis, fransız, ispan, rus dili – genetik cəhətdən hind-Avropa dilləri ailəsinə, ərəb dili Sami-hami dilləri ailəsinə, çin dili isə Çin-Tibet dilləri ailəsinə məxsusdur.

Onu da deyək ki, planetimizin 6 milyard 31 milyon əhalisinin[1] 1 milyard 300 milyonu müsəlmandır. Onların bir çoxu türk dillərindən istifadə edir. ***Təəssüflə qeyd olunmalıdır ki,*** bu xalqların istər dil, istərsə də dini baxımdan mövqeləri Birləşmiş Millətlər Təşkilatında nəzərə alınmamışdır. BMT-də ***türk dilindən*** də istifadə edilməsinin rəsmiləşdirilməsi müasir dövrün dövlətlərarası dil siyasətinin ən zəruri məsələlərindəndir.

[1] Son qeydəalınmaya əsasən.

VIII FƏSİL

DİL VƏ KONTAKT

DİL KONTAKTI VƏ DİLLƏRİN İNKİŞAFI

Müxtəlif sahələrdə təsadüf olunan kontakt anlayışı məzmunca çox genişdir. Kontakt (contactus) latın sözü olub, *yanaşmaq, yaxınlaşmaq, toxunmaq* və s. mənaları ifadə edir.

Kontakt termini elm və texnikaya aid ədəbiyyatda bir neçə mənada işlənilir. Məsələn, mənfi və müsbət elektrik cərəyanının bir-birinə toxunması kontakt adlanır və s.

Dil kontaktı anlayışı. Dilçilik elmində dillərin bir-biri ilə əlaqəsi, qarşılıqlı münasibəti, birinin digərinə olan zahiri və daxili təsiri dil kontaktı anlayışının məzmununu təşkil edir. Bu anlayışı ifadə etmək üçün dilçilikdə *"dil kontaktı"* terminindən istifadə olunur.

Dil kontaktı iki və daha çox dil arasında ola bilir. Kontakta daxil olan dillərin miqdarına görə *azdilli* (ikidilli) və *çoxdilli* kontakt anlayışları meydana gəlmişdir. Məsələn, XVIII əsrdə rus dili bir deyil, bir neçə dillə kontaktda olmuşdur.

Dil kontaktı mahiyyətcə çoxsahəli proses olduğu üçün ona dilin bütün sistemlərində, mikrosistemlərində və sistem ünsürlərində təsadüf etmək olur.

Dil kontaktı geniş əhatəli anlayışdır. Buraya aşağıdakılar daxildir:

a) müxtəlif dillərin kontaktı;

b) ədəbi dillə onun dialektlərinin kontaktı;

c) dialektlərarası kontakt.

Mövcud dil kontaktları müəyyən əlamətlərinə görə bir-birindən fərqlidir. Onlardan ən başlıcaları bunlardır:

1) fərdi və sosial dil kontaktı;
2) təsadüfi və daimi dil kontaktı.

Dil kontaktları nitqin formalarına əsasən iki yolla baş verir:

a) yazılı yolla meydana gələn dil kontaktları;
b) şifahi yolla yaranan dil kontaktları.

Bunlardan ikincisi daha çox qonşu dil şəraitində meydana çıxır.

Dil kontaktlarının dinamikası bütün kontaktlaşan dillərdə eyni kəmiyyət və keyfiyyətdə olmur. Bunlar bir-birindən fərqlənir. Elə xalq vardır ki, onun dilində kontakt prosesi intensiv şəkildə davam etmiş, lakin bəzi dillərdə isə bu proses dayanmış və ya çox zəif olmuşdur.

Dil kontaktı probleminin qoyuluşu və tarixi. Dilçilik elmində kontakt probleminin elmitədqiqata cəlb olunmasının xüsusi, lakin uzun olmayan tarixi vardır. Dilçilikdə dil kontaktları ilə XIX əsrdən məşğul olunmağa başlanılmışdır. İlk illərdə bu problem başqa məsələlərlə qarışıq şəkildə, özü də *"dil qatışması"*, *"dil çarpazlaşması"*, *"dil qovuşması"* anlayışı kimi öyrənilirdi.

XIX əsr dilçiliyində dillərin kontakta uğraması hadisəsinin tədqiqində yalnız *müqayisəli tarixi metoddan* istifadə olunmuşdur. Bu metodla dillərdə ümumi olan cəhətlər aşkar edilmiş, genetik əlamətə uyğun gəlməyən əlamətlərə "özgə" dilin ünsürləri (kontakt nəticələri) kimi baxılmışdır. Dilçi F.Mikloşiç ilk dəfə olaraq göstərilən istiqamətdə rumın, bolqar, alban dillərində axtarışlar aparıb müəyyən ünsürün hansı dilə məxsus olduğunu müəyyənləşdirməyə cəhd göstərmişdir.

Ümumiyyətlə götürüldükdə, XIX əsrdə kontakt hadisəsinin tədqiqi sahəsində gözəçarpan əsaslı nailiyyətlər əldə edilməmişdir. Bunun başlıca səbəblərindən biri *metod məhdudluğu* olmuşdur. Bu çatışmazlığı Paris dilçilik dərnə-

yinin nümayəndələri müşahidə etmiş və kontakt tədqiqinə daha bir sıra metodların cəlb olunmasını zəruri bilmişlər.

XX əsrin əvvəllərində dil kontaktı hadisəsinin tədqiqi başqa istiqamət almışdı. XX əsrin I yarısında dillərin əlaqəsi, qarşılıqlı təsiri, dillərarası çoxsahəli münasibətlər tədqiqatçıları daha çox cəlb etmişdir. Bununla yanaşı, tədqiqatların coğrafiyası da get-gedə genişlənməyə başlamışdır.

Avropada Boduen de Kurtene və Hüqo Şuxardt kimi dilçilər dil kontaktı ilə maraqlanmışlar. Amerikada Frans Boas bu problemlə ciddi məşğul olmuşdur.

Boduen de Kurtene dil kontaktı probleminə dair yeni konsepsiya irəli sürmüşdür. O, müqayisəli-tarixi metodla yanaşı, *qarşılaşdırma-tipoloji metoddan* da istifadə etmişdir. Kurtene həm qohum, həm yad və həm də *ərazi birliyində olan dilləri* tədqiqata cəlb etmişdir. O, hind-Avropa dilləri kimi, Ural-Altay dillərinin də bu formada tədqiq olunmasını nəzəri dilçilik üçün faydalı və zəruri hesab etmişdir.

XX əsrin II yarısı dil kontaktı haqqında yeni fikirlər, əsaslı tədqiqatlar dövrüdür. Andre Martine[1], Uriyel Veynreyk[2], Vyaçeslav İvanov[3], Viktor Rozensveyqin[4] əsərlərində kontakt məsələləri yeni istiqamətdə işlənilmişdir. Bu tədqiqatlarda *dil kontaktı nəzəriyyəsinin* bir sıra zəruri məsələləri elmi əsasda aydınlaşdırılmışdır.

Dil kontaktı problemi müasir dünya dilçiliyinin ən əsas problemlərindən biri olaraq qalır və bu dil hadisəsinin öyrənilməsi həmişə diqqət mərkəzində olacaqdır.

Dillərin inkişafında kontaktın rolu. Dil kontaktları dünya dillərinin zənginləşmə və inkişaf etməsinin müəyyən bir

[1] Andre Martinet. "Diffusion of language and Structural lingstics RPN", 1952, N 36.
[2] Uriel Weinreich. Languages in Contact N.Ü. 1. 1953.
[3] В.В.Иванов. Лингвистика как теория отношений между языковыми системами и ее современные практические приложения. В сб.: Лингвистические исследования по машинному переводу. Вып.2, М., 1961.
[4] В.Ю.Розенцвейг. Языковые контакты. М., 1972.

şəraitidir. Buna görə də dilçilik nəzəriyyəsində dil kontaktı ədəbi dillərin inkişafında xüsusi rolu olan bir faktor kimi qiymətləndirilir.

Məlumdur ki, ana dilinin başqa dillərlə kontaktı onun inkişafının ayrı-ayrı dövrlərində xüsusi rol kəsb edir. Hər şeydən əvvəl, kontakt prosesi dilin lüğət tərkibinin arasıkəsilməyən mənbəyidir. Həmçinin fəal kontakt şəraitində təkcə dillərin lüğət tərkibi deyil, həm də onların bütün sistemləri inkişaf edib get-gedə zənginləşir. Hazırkı dövrdə bütün dünya dillərinin inkişaf yolları və səviyyəsinin tədqiqində hər hansı bir dilin lüğət tərkibi və qrammatik quruluşu sahəsində kontakt hadisələrinin nəzərə alınıb ətraflı axtarılmasının, müasir elmi-metodlarla tədqiq və təhlil olunmasının böyük nəzəri və əməli əhəmiyyəti vardır.

8.01. DİL KONTAKTININ İSTİQAMƏTLƏRİ

Kontakt problemlərindən bəhs edərkən bəzi məsələlər haqqında qabaqcadan aydın təsəvvürə malik olmaq lazım gəlir.

Dünya dilləri və kontakt prosesi. Dünyada kontakta uğramayan dil varmı? Bu sual çoxlarını düşündürmüş və müxtəlif cavablar söylənilmişdir. Bəzi alimlər "saf dil" nəzəriyyəsini müdafiə edərək dünyada kontaktlaşmayan dil olduğu fikrini irəli sürmüşlər. Buna Avstraliyada olan bəzi tayfa dillərini nümunə göstərmişlər.

Tədqiqatçıların əksəriyyəti dünyada kontaktlaşmayan dilin olmadığını qeyd etmişlər. Həqiqətən, inkişaf etmiş dünya dillərinin hamısı dil kontaktına uğramış, bu və ya digər dillərlə əlaqədə, qarşılıqlı təsirdə olmuşdur.

Lakin qeyd edilməlidir ki, kontaktda olan dünya dillərinin kontaktlaşma dərəcəsi eyni kəmiyyətdə deyildir. Bu cəhətə görə dillər iki yerə bölünür:

a) azkontaktlı (kontakta az uğrayan) dillər;

b) çoxkontaktlı (kontakta çox uğramış) dillər.

Özünün bütün tarixi boyu müəyyən ictimai-siyasi vəziyyətlərlə bağlı Azərbaycan dili də ərəb, fars, slavyan və başqa dillərlə kontaktda olmuşdur. Başqırd, qaqauz, qazax, qaraqalpaq, qaraçay, qırğız, noqay, özbək, salar, tatar, türkmən, xakas, çuvaş, şor və s. türk dilləri də belə çoxkontaktlılığa məruz qalmışdır. Yeri gəlmişkən deməliyik ki, yaşadığımız ölkə daxilində slavyan-türk dil münasibətlərində, qarşılıqlı təsir prosesində slavyan dilləri birinci yerdə durmuşdur. Lakin xarici ölkələrdə türk-slavyan dil münasibətlərində başqa dillərə təsir məsələsində türk dili ön planda yer tutmuşdur.

Dillərdə kontakt istiqamətləri. Dil kontaktı dünya dillərində bir çox dövrlərin, əsrlərin və illərin nəticəsində baş verərək, müxtəlif istiqamətlərdə mövcud olmuşdur. Başlıca kontakt istiqamətləri aşağıdakılardır:

1. Dillərin çarpazlaşması;
2. Dil ittifaqlarının yaranması;
3. Hibrid dillərin meydana gəlməsi;
4. Dillərin qarşılıqlı təsiri.

Dil kontaktlarının bu istiqamətləri öz əlamətləri ilə bir-birindən fərqlənir.

1. DİLLƏRİN ÇARPAZLAŞMASI

Dilçilik elmində dillərin çarpazlaşmasına dair iki birbirindən ciddi şəkildə fərqlənən fikir meydana gəlmişdir:

a) İki dilin çarpazlaşması prosesində üçüncü yeni dil meydana çıxır. Bu ideyanın tərəfdarları çox deyildir.

b) İki dilin çarpazlaşması prosesi nəticəsində dilin biri *qalib gəlir*, digəri *məğlub olub* sıradan çıxır.

Öz müstəqilliyini saxlayan dil məğlubiyyətə uğrayan dilin bir sıra əlamət və xüsusiyyətlərini özünə götürür.

Belə bir vəziyyət həmin dilin daha da zənginləşməsinə və inkişafına səbəb olur.

Dilçilik elmində iki dilin çarpazlaşması şəraitində üstünlük qazanmış dilin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşundakı izlərin, əlamətlərin, ünsürlərin öyrənilməsi substrat (substratum) adlanır. Bu latın mənşəli sözün mənası *"bünövrə"*, *"astar"* deməkdir. Substrat nəzəriyyəsini inkişaf etdirmək müasir dünya dilçiliyinin təxirəsalınmaz vəzifələrindəndir.

2. DİL İTTİFAQININ YARANMASI

Uzunmüddətli dil kontaktı bir çox dilləri əhatə edə bilir. Bunun nəticəsində dil ittifaqı yaranır.

Dil ittifaqının əsasını iki başlıca əlamət təşkil edir.

1) Müxtəlif sistemli dillərin iştirakı;

2) Areal birliyi.

Dilçilikdə sübut edilmişdir ki, *eyni sistemli* dillər qohum olduğu üçün dil ailəsi təşkil edir. Deməli, dil ailəsi üçün *genetik qohumluq* əsas şərtdir. Lakin *müxtəlif sistemli* dillərin kontaktı dil ittifaqı yaranmasına səbəb olur. Deməli, dil ittifaqı üçün *tipoloji uyğunluq*, qohum olmayan dillərin birliyi kontaktın başlıca əlamətidir.

Dil ittifaqının yaranmasında *areal birliyinin* xüsusi rolu vardır. Belə ki, müxtəlif sistemli dillər ancaq müəyyən ərazidə fəaliyyət göstərdikdə dil ittifaqı yarana və təşəkkül tapa bilir.

Dil ittifaqı necə müəyyənləşdirilir? Əvvəla, deməliyik ki, tədqiqatçılar bu dil hadisəsini müşahidə edərkən onu *"dil birliyi"*, *"dil cəmiyyəti"* və s. adlandırmışlar. Lakin ilk dəfə olaraq XX əsrin əvvəllərində "dil ittifaqı" anlayışı dəqiqləşdirilmiş və ona uyğun termin işlədilmişdir. Dil qrupu kimi, dil ittifaqını müəyyənləşdirmək üçün bir arealda yerləşmiş müxtəlif sistemli dillərin quruluşunda

olan uyğunluqlar axtarılır. Dillərin *arxitektonikasına* struktur-tipoloji mövqedən qarşılaşdırma üsulu ilə yanaşdıqda belə dil uyğunluqları meydana çıxır, aşkar olunur. Bunların əsasında dil ittifaqı müəyyən edilir. *"Balkan dil ittifaqı"* bu qaydada müəyyənləşdirilmişdir. Bu dil ittifaqına alban, bolqar, yunan, rumın, Makedoniya dilləri daxildir. Həmin dillərin qrammatik quruluşunda aşağıdakı ümumi uyğunluqlar olduğu aşkar edilmişdir:

a) hal kateqoriyasında;

b) artikllərin işlədilməsində;

c) gələcək zaman formasında və s.

Dil ittifaqı probleminin öyrənilməsində Paris dilçilik dərnəyi nümayəndələrinin – R.Yakobson, N.S.Trubetskoyun xüsusi rolu olmuşdur. Dünya dillərinin həyatında baş vermiş bu hadisə hələ genişliyi ilə elmi təhlil əhatəsinə alınmamış, bir çox areallarda açılmamış qalan bu növ dil hadisələri çoxdur.

Dünyanın ən qədim və ən maraqlı guşələrindən biri olan Qafqaz dil baxımından da çox zəngin coğrafi arealdır. Burada yaşayan onlarca müxtəlif xalqın bir-biri ilə olan iqtisadi, siyasi, mədəni əlaqələri müxtəlif sistemli dillərinə də təsir etmişdir. Buna görə də dil kontaktının ən zəngin, ən güclü, ən rəngarəng formaları burada mövcuddur. Bunların araşdırılması *"Qafqaz dil ittifaqı"*nın ("Şimali Qafqaz dil ittifaqı", "Cənubi Qafqaz dil ittifaqı") müəyyənləşdirilməsinə gətirib çıxarır. Bunun üçün müasir Qafqaz dillərindəki kontakt hadisəsinin öyrənilməsi *Qafqaz dilçiliyində* ciddi tədqiqat obyektinə çevrilməlidir.

Qafqazın bir guşəsi olan Azərbaycan ərazisində də müxtəlif formalı dil kontaktları, əlaqələri müşahidə olunur. Məsələn, *türk dilləri* (Azərbaycan dili), *İran dilləri* (tat, talış dili), *Qafqaz dilləri* (ləzgi, gürcü dili) və s.

Bu dillərin kontakta uğramasını müxtəlif istiqamətdə öyrənmək olar ki, bu da öz növbəsində ümumi dilçilik nəzəriyyəsinin inkişafına bir töhfə kimi daxil ola bilir.

3. HİBRİD DİLLƏRİN MEYDANA GƏLMƏSİ

Dilçilikdə işlənən terminlərin bir çoxu başqa elmlərlə əlaqə nəticəsində formalaşmışdır. Belə terminlərdən biri də *hibriddir*.

Hibrid termini dilçiliyə təbiət elmlərindən keçmişdir. Bu termin biologiya və botanikada çox geniş işlənilir. Bunun ümumi mənası iki müxtəlif mənbədən əmələ gəlmiş hər hansı bir obyekti – hadisə və varlığı bildirməkdir.

Dil haqqında elmdə iki müxtəlif dilin qovuşub, qarışıb işlənilməsinə *qarışıq* və ya *hibrid dil* deyilir.

Hibrid dillər cəmiyyətin ayrı-ayrı milli tərkib nümayəndələrinin iqtisadi, siyasi və digər əlamətləri ilə bağlı formalaşır.

Hibrid dillər adi ünsiyyət, əlaqə üçün yaradılır. Məsələn, Hind okeanı adalarında əmələ gəlmiş hibrid dillər, əsasən, ingilis, fransız, ispan, portuqal və holland dillərinin materiallarından istifadə edib yerli əhali ilə danışmaq, müxtəlif sahələrdə əlaqə yaratmaq tələbatı nəticəsində əmələ gəlmişdir.

8.02. DİLLƏRİN QARŞILIQLI TƏSİRİ

Dil kontaktı hadisəsində ən proqressiv istiqamət dillərarası əlaqənin və qarşılıqlı təsirin yaranmasıdır.

Dillərin qarşılıqlı təsiri məsələsindən XIX əsrdə məşhur dilçi Hüqo Şuxardt bəhs etmişdir. Sonralar bu məsələnin öyrənilməsi mübahisələrə səbəb olmuşdur. Bəzi alimlər dillərin qarşılıqlı təsirinin tədqiqini dilçilikdən kənar problem hesab etmişlər. Onların fikrincə, dilin inkişafı üçün ancaq daxili faktorlar zəruridir.



Cədvəl 13

Bu fikirlə heç cəhətdən razılaşmaq olmaz. Ona görə ki, dilin inkişafında xarici faktorun – başqa dillərin təsirinin rolu və əhəmiyyəti az deyildir. Dil öz inkişafında hər iki faktorla bağlı mənbələrdən fasiləsiz olaraq qidalanır.

Dillərin qarşılıqlı təsiri hər bir xalqın tarixi, ənənəsi, mədəniyyəti və onun başqa xalqlara münasibətilə bağlı olur. Dillərin qarşılıqlı təsiri prosesi dilin bütün komponentlərində – sahələrində mövcuddur.

Dilin müxtəlif sahələrinə dair təsirlər eyni dərəcədə olmur. Bu sahələrin biri (leksika) kontakta daha çox uğradığı halda, digərində (fonetikada) bu cəhət az müşahidə edilir.

1. FONETİK SİSTEM SAHƏSİNDƏ DİLLƏRİN QARŞILIQLI TƏSİRİ

Dünya dilləri yalnız lüğət tərkibinə və qrammatik quruluşuna görə deyil, fonetik sisteminə əsasən də fərqlənir. Hər dilin öz fonemlər sistemi vardır. Lakin dünya dillərində elə fonemlər mövcuddur ki, onlar bir-birinə oxşayır, ilk baxışda uyğun görünür. Məsələn, [q] foneminə fikir verək. Bu səs dünya dillərində müxtəlif çalarlara malik olaraq öz çaları ilə işləndiyi dilə məxsus olur və onun müstəqilliyinin şərtlənməsində iştirak edir. Fonetik sistem sahəsində dillərin qarşılıqlı təsirinin müxtəlif yolları vardır:

a) Fonem çalarlarına təsir. Kontakta uğrayan dilə fonetik cəhətdən olan təsir həmin dilin bəzi fonemlərində az və ya çox dəyişiklik əmələ gətirir. Məsələn, XX əsrin 20-ci illərindən başlayaraq ölkəmizdə slavyan dil sistemi digər dillərin fonemlər sisteminə güclü təsir göstərmiş, bir çox dillərdə fonem çalarları, variantları həmin dil sisteminə yaxınlaşmış, onun kimi tələffüz edilmişdir. Rusiya ərazisindəki azsaylı xalqların dillərində bu xüsusiyyət daha aydın görünməkdədir. Azərbaycan dili fonetika sahəsində respublikadakı dillərə, o cümlədən budux dilinə güclü təsir göstərmişdir[1].

b) Müəyyən fonemin başqa dilə keçməsi. Hər hansı bir dilin foneminin müəyyən təsir əsasında başqa dilə keçməsi mahiyyətcə çox çətin prosesin nəticəsidir. Belə bir prosesdə fonem müstəqil, ayrıca deyil, hər hansı bir vasitənin köməyi ilə başqa dilə keçə bilir. Bu cür vasitə dilin leksik sistemidir. Kontakta uğrayan hər hansı bir dilə *yeni fonem keçməsi hadisəsi* dilin leksik sistemində olan əlaqə və təsir əsasında yaranır.

Tədqiqatçıların müəyyən etdiklərinə görə, bir dildən başqa dilə fonem keçməsi üçün kontakta məruz qalan dilə *xas olmayan fonem* tərkibli yüzlərlə söz həmin dilə daxil edildikdə mümkün ola bilir.

Məlum olduğu üzrə, Qafqaz mənşəli gürcü dilində [f] fonemi yoxdur. Tərkibində [f] fonemi olan başqa dilin sözləri *faktor, fontan, fraksiya, fakultet, filoloq, ferma, finiş, flaqman, fraqment, funksiya, forma* və sair bu kimi sözlər həmin dildə [p] səsi ilə tələffüz edilir. Deməli, yuxarıdakı mülahizəyə əsasən [f] foneminin gürcü ədəbi dilinə keçməsi üçün külli miqdarda [f] tərkibli söz həmin dilə daxil olmalıdır.

Ümumiyyətlə, dünya dillərinin məlum inkişaf tarixi göstərir ki, hər hansı bir dili *yeni sait və ya samit fonemlə*

[1] Ю.Д.Дешериев. Развитие младописьменных языков народов СССР. М., 1958. с. 192.

zənginləşdirməyin bu cür yolu geniş yayılmayan, olduqca az təsadüf edilən mürəkkəb linqvistik hadisədir.

2. LÜĞƏT TƏRKİBİ SAHƏSİNDƏ DİLLƏRİN QARŞILIQLI TƏSİRİ

Qarşılıqlı dil təsiri hadisəsini lüğət tərkibi üzərində daha tez və asan müəyyən etmək olur. Dilin ən çox təsirə məruz qalan və dəyişikliyə uğrayan komponenti lüğət tərkibidir. Lüğət tərkibinin ən başlıca vahidi olan hər söz öz təbiətinə müvafiq olaraq sərbəst miqrasiya imkanına malikdir. Bununla bərabər, hər yeni anlayış üçün dilin öz imkan və vasitələri kifayət etmir. Dildə *sözyaratma prosesinin sürəti* yeni anlayışyaratma prosesindən zəif olduğuna görə başqa dilin leksik materialına müraciət edilir və bir dildən başqasına hazır şəkildə sözlər keçir.

Əlaqə və təsir əsasında sözlər bir dildən başqasına iki yolla keçir:

1. Birbaşa keçən sözlər. Bu yolla müəyyən sözlər mənbə dildən birbaşa başqa dilə keçir. Belə sözlərə Azərbaycan dilinə keçmiş fars mənşəli sözlər misal ola bilər.

2. Dolayısı ilə keçən sözlər. Bir çox hallarda bir dilin sözlərinin başqa dilə keçməsində üçüncü dil iştirak edir. Bu dil *vasitəçi* olaraq başqa dilin sözünün özgə bir dilə keçməsində əsas rol oynayır. Ərəb və fars mənşəli sözlər, əsasən, türk dillərinin – Azərbaycan dilinin vasitəsilə gürcü dilinə keçmişdir. Bir dildən başqasına keçən sözlər kəmiyyətcə müxtəlif olur. Dünyada elə dil vardır ki, onun tərkibində 30-40 faiz alınma söz işlənir. Tədqiqatçılar tərəfindən müəyyən olunmuşdur ki, rumın dilində yalnız slavyan mənşəli sözlərin miqdarı 22 faiz təşkil edir.

Kontakta uğrayan dillərin *uzunmüddətli* əlaqə və təsiri nəticəsində dillərin lüğət tərkibində paralellər yarana bilir. Məsələn, *uzun-draz, aktiv-fəal, faktor-amil* və s.

Türk dillərində monqol-türk dil paralelləri çoxdur və bunlar uzunmüddətli dil kontaktı nəticəsində yaranmışdır.

Yeri gəlmişkən deməliyik ki, bir sıra Azərbaycan regionlarında *səksən//həşdat* paraleli işlənməkdədir. Dilimizdə *"həşdat"* sözünün işlənməsi yersizdir, müasir ədəbi dilimizin qanunlarına tam ziddir.

Dil kontaktı əsasında bir dildən başqasına söz və ifadə keçməsinin iki üsulu vardır:

1. Özgə dilin lüğəvi vahidi – söz və ifadəsi keçdiyi dildə dəyişilmədən (mənbə dildə olduğu kimi) işlənilir. Məsələn:

Sıra №-si	**Sözlər**	**Mənbə dil**	**Keçdiyi dil Azərbaycan dili**
1.	Ananas	ananas (ispan)	ananas
2.	Konsul	Gontsul (latın)	konsul
3.	Kosmos	Kosmos (yunan)	kosmos
4.	Tir	tir (fransız)	tir
5.	Torf	torf (alman)	torf

2. Bir dildən başqasına söz və ifadə keçəndə müəyyən dəyişikliyə uğradılaraq işlədilir. Belə dəyişikliklər dillərin təbiəti tələblərindən irəli gəlir.

Adətən, dəyişikliklər – mənimsəmələr iki istiqamətdə özünü göstərir:

a) Lüğəvi vahidlərin formasında dəyişiklik olur. Bu, əsasən, səs, tələffüz, orfoqrafik və qrammatik cəhətdən özünü göstərir.

b) Lüğəvi vahidlərin semantikasında dəyişiklik baş verir. Kontakt prosesində başqa dillərin söz və ifadələri eyni ilə deyil, tərcümə edilərək də başqa dilə keçə bilir. Belə bir proses *yamsılama – kalka üsulu* adlanır. Yamsı-

lamada forma yox, məzmun götürülür. Məsələn, xolodilnik – *soyuducu*, pılesos – *tozsoran* və s.

Kalkalar iki cür olur: *leksik* və *frazeoloji*.

3. QRAMMATİK SİSTEM SAHƏSİNDƏ DİLLƏRİN QARŞILIQLI TƏSİRİ

Dildə təsirə düşməyən sahə yoxdur və ola da bilməz. Qrammatik quruluş, onu təşkil edən morfoloji və sintaktik sistemlər də kontakt prosesində təsirə düşüb, müəyyən dəyişikliyə uğrayır.

Dilin morfoloji sistemində, sözyaratma prosesində başqa dilin təsiri daha aydın müşahidə edilir.

Uzun illər kontakta uğramış Azərbaycan dilində istifadə olunan aşağıdakı sözdüzəldici şəkilçilər əlaqə və təsir nəticəsində başqa dillərdən keçmişdir:

Anti *– antipedaqoji;* ***a*** *– anormal;* ***bi*** *– bihuş, bi-insaf, bihəya;* ***na*** *– nainsaf, narazı, narahat; -****logiya*** *– filologiya, biologiya; -izm – tarixizm, arxaizm, kapitalizm; -****qraf*** *– fotoqraf, orfoqraf; -****qram*** *– piktoqram, ideoqram* və s.

Dillərin söz birləşmələri və sintaktik konstruksiyalarında da kontakt nəticəsində təsirlər, dəyişikliklər ola bilir. Bu haqda müxtəlif dillərin materiallarına əsasən müəyyən nəzəri fikirlər irəli sürülmüşdür.

Nəhayət deməliyik ki, müasir türk dillərinin faktik materialları dil kontaktını bütün istiqamətlərdə nəzərdən keçirməyə imkan verir. Bu isə, öz növbəsində, *türkdilli xalqların* ədəbi dillərinin inkişaf yollarını və digər zəruri cəhətlərini öyrənməkdə xüsusi əhəmiyyət kəsb edir.

IX FƏSİL

DİL VƏ UNİVERSALLIQ

DİL UNİVERSALİLƏRİ NƏZƏRİYYƏSİ

Dil haqqında elmin inkişafı mərhələlərində dilçiliyin müxtəlif sahələrinin tələb və səviyyəsinə uyğun bir çox zəruri problemlər ortaya çıxmışdır. Bunlardan biri *universali* problemidir.

UNİVERSALİ PROBLEMİ

Dil universalisi məsələləri müasir dünya dilçiliyinin ən başlıca problemlərindəndir. Universali mənşəcə latın (universus) sözü olub, mənası "ümumi", "hamı üçün" deməkdir. Bu terminin ifadə etdiyi anlayış təkcə dilçiliyə məxsus deyildir. Onun coğrafiyası olduqca əhatəlidir. Belə ki, bir sıra elm sahələrində, o cümlədən antropologiyada, mədəniyyət tarixində, sosiologiya və başqa elmlərdə də universali barədə geniş bəhs olunur.

Bəs dil universalisi nədir? Dünya dillərində fərdi cəhətlərlə bərabər bir sıra ümumi qanunlar, əlamətlər, ənənələr vardır ki, bunlara ya bütün dillərdə, ya da dillərin çoxunda təsadüf edilir. Belə ümumi qanunauyğunluqlar dilçilik elmində *dil universalisi* adlanır[1].

Misal üçün universallıq mövqeyindən iki dil hadisəsinə nəzər salaq. Bunlardan biri xüsusi şəxs adları, digəri isə intonasiyadır.

Dünyada elə bir dil tapılmaz ki, orada şəxsləri bildirmək və onları bir-birindən fərqləndirmək üçün ad – antroponim olmasın. Məsələn:

[1] Dilçilikdə "dil universalisi" ilə yanaşı, "dilçilik universalisi" termini də vardır.

– ***Türk dillərində:*** *Toğrul, Yılmaz, Aydil, Nuran, Nurhan, Nihan, Nihat, Erol, Aydan, Erkin, Aygen, Ayhan, Aysel, Ayşen, Aytaç, Ayten, Arguç, Eral, Aynur, Güner, Güral, Leman, Nursal, Ursal.*

– ***İngilis dilində:*** *Çarli, Con, Cek, Çarlz, Ceyn, Vilyam, Tomas.*

– ***Alman dilində:*** *Fridrix, Hans, Avqust, Höte, Vilhelm, Bertold, Yakob, Karl, Qotfrid.*

– ***Fransız dilində:*** *Lui, Antuan, Fransua, Lozef, Pyer, Mişel, Jan, Klod, Anton.*

– ***Yunan dilində:*** *Apollon, Arximed, Platon, Odisey, Heraklit, Sokrat, Esxil, Evripid, Aristotel.*

– ***Gürcü dilində:*** *Şaliko, Şalva, Şoto, Eteri, Givi, İrakli, Ramaz, Nona, Dariko, Vaso.*

– ***Çin dilində:*** *Di, Li, Si, Van, Çan* və s.

Göründüyü kimi, bu adların işlənmə məqsədi eyni olmaqla bərabər, bunlarda hər xalqa məxsus milli kolorit də öz əksini tapmışdır.

Müəyyən istək və vəzifələrlə bağlı işlədilən intonasiyada da universallıq əlaməti vardır. Əvvəla, bütün dünya dillərində intonasiyadan istifadə edilir. İkincisi, emosiya yaradan intonasiya dünya dillərində – istər eynisistemli, istərsə də müxtəlifsistemli dillərdə eyni mənanın ifadəsinə xidmət edir. Məsələn,

1) Azərbaycan dilində – *Yaşasın azadlıq!*

2) İngilis dilində – *Long Live Freedom!*

3) Fransız dilində – *Vive la Paix!*

4) Alman dilində – *Es lebe die Freiheit!*

Bu cümlə bütün dillərdə eyni tonda və eyni məqsədlə ifadə olunur. Göstərilən misalların hər ikisi dilçilikdə ən ümumi universali hesab olunur. Universali səsli dilin həm formasında, həm də semantik quruluşunda mövcud ola bilir.

Dilçilikdə universali probleminin başlıca vəzifəsi dünya dillərinin müxtəlif səviyyələrinə, sahələrinə məxsus *universal münasibətləri* müəyyənləşdirib, onların elmi linqvistik təhlilini verməkdən ibarətdir.

Dünyada dillərin ümumi əlamətlərinin tipoloji öyrənilməsi əsasında indi dilçilikdə tam *dil universalisi nəzəriyyəsi* yaranıb formalaşmışdır. Bu nəzəriyyə təbii dillərin tədqiqata daha çox cəlb edilməsi, elmi axtarışların genişlənməsi və dərinləşməsi ilə bağlı get-gedə öz müddəalarının nəzəri əsaslarını daha da möhkəmləndirməkdədir[1]. Hazırda "dil universalisi nəzəriyyəsi" müasir dilçiliyin mərkəzindədir.

PROBLEMİN TARİXİNDƏN

Dil universalilərinin öyrənilməsinin tarixi uzaq keçmişlə bağlıdır. Belə ki, bu və ya başqa *dil hadisələrinin universallığı ideyası* çoxdan diqqəti cəlb etmişdir. Dünya dilçiliyinin inkişafı tarixinin hər bir dövründə, az və ya çox dərəcədə, dolayısı ilə, yaxud birbaşa universali məsələləri tədqiqata cəlb edilmişdir.

Dil universalisi sahəsində ilk tədqiqatçılar qədim dövrün filologları olmuşdur. Antik dilçilik nitq hissələri, cümlə üzvləri haqqında nəzəri biliklər yaratmağa çalışdıqları prosesdə universal münasibətlərlə rastlaşmış və bu ümumdil qanunlarını linqvistik mövqedən qiymətləndirmişdir. Cümlə üzvlərinə dair antik nəzəriyyə universali probleminin bünövrəsini qoymuşdur.

Orta əsrlərdə universal qrammatika yaratmaq meyli meydana gəlmişdir. Bununla da universali axtarışları, az da olsa, formalaşmağa doğru istiqamət almışdır. XIII əsrdən universal qrammatika "grammatica universalis" termini fəal işlənməyə başlanmışdır.

[1] ''Unirersals Itnguistic theory" ed B.E.Bach, R.Nazms, № 4, 1968.

Universali ideyası intibah dövründə get-gedə dərinləşdirilmişdir. Görkəmli çex mütəfəkkiri Yan Amos Komenski (1592–1670) fəlsəfə, pedaqogika, fizika, astronomiya məsələləri ilə yanaşı, dilçiliklə də məşğul olmuş və burada dil universallığına xüsusi nəzər yetirmişdir.

Universali ideyası XVII əsrdə Fransa alimlərini çox maraqlandırmışdır. 1660-cı ildə Fransada mətnşünas Antuan Amo və dilçi Klod Lanslo tərəfindən birinci dəfə olaraq yazılmış "Universal və rasional qrammatika" meydana çıxmışdır[1]. "Por-Royal qrammatikası" adı ilə məşhur olan bu əsərdə bütün dillərə aid olan ümumi cəhətləri müəyyən etmək və müxtəlif dillərdəki fərqləri və onların səbəblərini aydınlaşdırmaq qarşıya məqsəd qoyulmuşdur. Qrammatikanın müəllifləri məntiqin ümumi qanunlarına əsaslanaraq müxtəlif dillərin qrammatik quruluşu üçün də bir sıra ümumi prinsiplər göstərmişlər. Bu əsərdə ən əvvəl semantik universalilərin xüsusiyyətlərinə nəzər yetirilirdi.

"Por-Royal qrammatikası" dilçilik tarixində universali ideyasının geniş yayılmasında xüsusi rol oynamışdır. XVIII əsrdə paziqrafiya (ümumi yazı) problemləri ilə bağlı universal qrammatika məsələləri də diqqət kənarında qalmamışdır. Alman alimi İohani Fater (1771–1826) hələ 1799-cu ildə yazdığı əsərində universal qrammatikanın mühüm məsələlərinə toxunmuşdur.

XIX əsrdə universali problemi nisbətən zəifləsə də, müəyyən işlər aparılmışdır. Bu əsrin dilçiliyində dillərdə ümumi, tipik olan cəhətlər diqqəti daha çox cəlb etmişdir. Dillərin universal münasibətləri əsasında təsniflər meydana çıxmışdır. Xüsusilə dillərin morfoloji bölgüsündə bu növ dil faktlarının köməyi az olmamışdır. Dövrün görkəmli alimləri, o cümlədən alman mütəfəkkiri Vilhelm

[1] Bax: Afad Qurbanov. "Ümumi dilçilik". I hissə, "Maarif', Bakı, 1989, səh.58-59.

fon Humboldt ümumi cəhətləri təhlil edərkən onu dilin əmələ gəlməsi ilə əlaqələndirmişlər.

XX əsrdə universali problemi dilçilik tədqiqatlarında özünə xüsusi yer tutmağa doğru istiqamətlənmişdir. Kopenhagen strukturalizminin nümayəndəsi Lui Yelmslev 1928-ci ildə çap etdirdiyi "Ümumi qrammatikanın prinsipləri" adlı əsərində bu problemin vacibliyinə toxunmuşdur.

XX əsrin 40-cı illərində İttifaq dilçiliyində müxtəlif sistemli dillərdə hansı ümumi kateqoriyaların olması məsələsi qaldırılmışdır. Bununla əlaqədar xüsusi olaraq 1945-ci ildə akademik İ.İ.Meşşaninov dildə ümumilik ideyası ilə bağlı mülahizə irəli sürmüşdür[1]. Həmin dövrdən sintaktik universalilərə dair müxtəlif mövzularla bağlı dolayısı ilə fikirlər, elmi mülahizələr meydana çıxmışdır.

XX əsrin ikinci yarısından başlamış istər İttifaq, istərsə də xarici ölkə dilçiliyində dil universalilərinin mütəmadi tədqiqinə qədəm qoyulmuşdur. Bu illərdə universali sahəsində elmi tədqiqatlar, əsasən, N.S.Trubetskoyun elmi fəaliyyətinin təsiri ilə bağlı olmuşdur. Onun əsərləri problemin inkişafı üçün, bir növ, elmi istinad nöqtəsinə çevrilmişdir[2].

1958-ci ildə Osloda dilçilərin VIII qurultayında universali problemi gündəlikdəki vacib məsələlər cərgəsində durmuşdur. Roman Yakobson problemin vacib məsələlərini şərh etmişdir[3].

Dilçiliyin tarixində 60-cı illər dillərin müxtəlif səviyyələrdə universal münasibətlərinin tədqiqinin yeni mərhələsinə çevrilmişdir. 1961-ci il aprel ayında Nyu Yorkda universali problemlərinə həsr edilmiş xüsusi konfrans ke-

[1] И.И.Мешшанинов. Понятийные категории в языке. "Труды Военного Института иностранных языков". Т. 1, М., 1945.
[2] Н.С.Трубецкой. Основы фонологии. М., 1960.
[3] R.Yakobson. Tirological studies and their contlbution to nestorical comrarative linguisties "Procerdings of the 8th I International congress of Linguists", Oslo, 1958.

çirilmişdir. Konfransda *Cozef Qrinberq, Çar İz Osqud, Ceyms Cenkinson* "Dil universaliləri haqqında memorandum" yazmışlar. Memorandum latın sözü olub, "nəyi yadda saxlamaq lazımdır" mənasını bildirir. Həqiqətən də bu *"memorandum"* universali məsələsinin mahiyyətini incəliyi ilə aydınlaşdıran sənədə çevrilərək universali sahəsində tədqiqatların elmi-nəzəri istiqamətləndirilməsində xüsusi rol oynamışdır.

Universali axtarışlarının genişləndirilməsində B.A.Uspenskinin də xidmətləri az deyildir. Onun 1965-ci ildə çap edilmiş "Dillərin struktur topologiyası" adlı əsərlərində nəzəri məsələlərlə bərabər xeyli miqdar kəşf edilmiş universali siyahısı da göstərilmişdir.

1966-cı ilin noyabrında keçmiş İttifaq Elmlər Akademiyasının Asiya və Afrika Xalqları İnstitutunda dillərin universal cəhətlərinin öyrənilməsi məsələlərinə həsr olunmuş elmi konfrans təşkil edilmişdir. Konfransda universal nəzəriyyəsini dərinləşdirən bəzi məsələlər irəli sürülmüşdür.

1966-cı ildə Moskvada dillərin universal və areal xüsusiyyətlərinin öyrənilməsi probleminə həsr olunmuş konfrans keçirilmişdir. Konfransda alimlər (B.A.Uspenski, V.A.Terentiyev, İ.F.Bardul, Y.Y.Qlazov, A.A.Moskalyev, V.P.Nelyalkov, Y.V.Rojdestvenski) fonetika, morfologiya və sintaksisə dair bir sıra yeni universali göstərmişlər.

1972-ci ildə İtaliyada dilçilərin XI Beynəlxalq konqresi olmuşdur. Konqresdə C.Qrinberq, İ.Kuriloviç, A.Zayner və başqaları universali probleminə dair yeni-yeni nəzəri müddəalar irəli sürmüşlər.

Müasir dilçilik elmində universali məsələləri geniş tədqiq olunmaqdadır.

9.01. UNİVERSALİLƏRİN NÖVLƏRİ

Dillərdə tapılmış ümumi cəhətlər kəmiyyət və keyfiyyətcə olduqca rəngarəngdir. Belə müxtəliflik nəzərə alınaraq dilçilikdə universaliləri qruplaşdırmaq, növlərə və tiplərə görə təsnif etmək üçün iki prinsip irəli sürülmüşdür:

a) məntiqi quruluşa görə təsnif;

b) məzmuna görə təsnif.

Universaliləri bu iki prinsipə (yəni istər məntiqi quruluşa, istərsə də məzmuna) görə təsnif etdikdə, onların bir sıra növləri meydana çıxır[1]. Bunlardan bəzilərinə nəzər yetirək.

1. MÜTLƏQ VƏ STATİSTİK UNİVERSALİLƏR

Mütləq universali. Hər hansı bir əlamətə görə bütün dillərə aid olan universalilər mütləq universali adlanır. Bunlara eyni zamanda tam universali də deyilir. Bu növ universalilərə "bütün dillərdə sait fonem vardır", "bütün dillərdə xüsusi isim vardır" anlayışlarını misal göstərmək olar.

Belə universalilər ümumaydın olan bir həqiqətdir. Bunlar xaraktercə az informasiya tutumuna malik olur.

Statistik universali. Bu növ universalilərə *yarımçıq və ya natamam* universali də deyilir. Bunlar da əksər dillərə aid edilir. Lakin burada müəyyən müstəsnalığa yol verilir. Deyək ki, bütün dillərdə sait fonem vardır. Bəs bunların miqdarı? Müxtəlif sistemli bir neçə dili nəzərdən keçirək.

[1] B.A.Uspenski dil universalilərinin təsnifini verərkən yeddi növünü göstərir. Bax: Б.А.Успенский. Структурная типология языков. «Классификация языковых универсалий». М., 1965, с.179.

Dil ailələri	*Dillər*	*Saitlərin miqdarı*
Altay dilləri ailəsi	*Qazax dili* *Ozbək dili*	*9* *6*
Hind-Avropa dilləri ailəsi	*İngilis dili* *Alman dili*	*5* *17**
Qafqaz dilləri ailəsi	*Gürcü dili* *Saxur dili*	*5* *10*

Bu dillərdəki saitlər kəmiyyətcə fərqləndiyi kimi, keyfiyyətcə də seçilir.

2. SADƏ VƏ MÜRƏKKƏB UNİVERSALİLƏR

Sadə universali. Sinxronik xarakterli universalilər sadə universali adlanır. Dilçilik elmində indiyə kimi kəşf olunmuş universalilərin müəyyən hissəsini sadə universalilər təşkil edir.

Mürəkkəb universali. Diaxronik səciyyəli universalilər mürəkkəb universali adlanır.

Universali qanunauyğunluqları yalnız bütün dillərə və ya dil çoxluğuna aid olmur. Universali iki-üç dil arasında da ola bilir. Dilçilikdə ikidən artıq müxtəlif sistemli dilə aid olan universalilər də mürəkkəb universali hesab edilir.

3. DİAXRONİK VƏ SİNXRONİK UNİVERSALİLƏR

Diaxronik universali. Tarixi inkişafla bağlı olan ümumi dil hadisə və qanunları diaxronik universali adlanır. Müxtəlif dillərin inkişaf tarixi göstərir ki, uzun illər nəticəsində bir sıra müstəqil mənalı sözlərin öz vəzifəsini dəyişərək şəkilçiyə keçməsi prosesi olur. Alimlər müəyyən

* Saitlərin 14-ü monoftonq, 3-ü isə diftonqdur. Bax: F.Veysəlor. "Alman dilinin fonetikası". 1980, səh.60.

etmişlər ki, 20-dən çox müstəqil sanskrit (***-gat, -gan, -kar*** və s.) hazırda hind ədəbi dilində şəkilçi vəzifəsində işlənilir. Bununla bərabər bir dilin müstəqil sözünün başqa dilə keçib şəkilçi kimi işlənilməsi hadisəsi də olur. Məsələn, Azərbaycan dilində işlənən ***-şünas*** şəkilçisi (*təbiətşünas, ədəbiyyatşünas, ölkəşünas, diyarşünas* və s.) fars dilindəki "öyrənmək" mənasını bildirən morfemdəndir.

Sinxronik universali. Dilin hazırkı zamanda müasir vəziyyətdə mövcud olan universalilər sinxronik universali hesab edilir. Məsələn, müasir dillərdə hal kateqoriyası və onun xüsusiyyətləri. Bu ümumi hadisə şərh edilərkən tarixi cəhətdən yox, məhz müasir zamanda necə olduğundan bəhs edilir.

9.02. DİL SƏVİYYƏLƏRİNƏ GÖRƏ UNİVERSALİLƏR

Dilçilikdə "səviyyə" termini müxtəlif mənalarda işlənilir. Dilin elmi-nəzəri cəhətdən öyrənilməsi üçün fərqləndirilən hissələri səviyyə adlanır. Məsələn, dilin fonetik səviyyəsi, leksik səviyyəsi və s. Bunlara yarus, dilin qatları və ya dilin yarımsistemləri də deyilir.

Universalilər dilin müxtəlif səviyyələrində – fonetik, leksik, semantik və qrammatik səviyyələrdə özünü göstərir.

1. FONETİK UNİVERSALİLƏR

Dilin fonetik sahəsinə məxsus universalilər dilçilikdə fonetik və ya fonoloji universali[1] adlanır. Dünya dillərinin fonetik sistemləri rəngarəng hadisə və qanunlarla zəngin-

[1] Ч.Фергюсон. «Допущения относительно носовых: к вопросу о фонологических универсалиях. Новое в лингвистике». Вып. I, 1970, с.105.

dir. Bunların hər biri müxtəlif səciyyə və keyfiyyətlərə malikdir. Dilçilik tarixində bəzi fonetik hadisələrin xüsusiyyətlərinin inkişafının *coğrafi şəraitlə* bağlı olduğu fikrinə də təsadüf edilir. Dilçi Yespersen belə qənaətə gəlmiş ki, kiçik adalarda yaşayan xalqlarda sait səslər müəyyən keyfiyyətinə görə daha çox inkişaf etmiş olur[1].

Dilçilikdə onlarca fonetik universali müəyyənləşdirilmişdir. Fonetik səviyyə üzrə dillərin universal münasibətinə dair müəyyən edilmiş bəzi qanunauyğunluqlara nəzər yetirək.

1. *"Bütün dillərdə fonem vardır"*- bu mütləq fonoloji universalidir. Dünya dillərində fonemlərin miqdarı bir-birinə bərabər olmayıb, çox müxtəlifdir. Bununla belə, Yer kürəsindəki dillərdə 13-dən az, 85-dən çox fonem olmur. Dillərdəki müxtəlif fonemlər sistemi aşağıdakı sxem bölgülərində özünü göstərir.



Cədvəl 14.

Dünya dillərindən Avstraliyanın aranta dilində 13 fonemi vardır. Dillərin fonetik quruluşunda belə az fonemlilik müstəsna hal deyildir. Məsələn, Qava dilinin fonoloji sistemini də 13 fonem təşkil edir. Müasir dillərdən çinuk dilində 45 fonem, Hindistanın kaşmiri dilində isə 81 fonem vardır. Bunlardan birincisi verilmiş sxemin 4-cü qrafasına, ikincisi isə 8-ci qrafasına uyğun gəlir.

2. *"Bütün dillərdə sait fonem vardır"* – aparılmış tədqiqatlar sübut etmişdir ki, dünyada sait olmayan dil yox-

[1] O.Yespersen. Language, ist nature, develorment and origin. London, 1928.

dur. Məsələn, [a] fonemi dünya dillərinin əksəriyyətində işlənilir və demək olar ki, eyni şəkildə səslənir.

Dillər	***[a] saitli səslər***	***Mənası***
Türk	*kardeş*	*qardaş*
Alman	*hand*	*əl*
İngilis	*park*	*park*
Rus	*mama*	*ana*
İndoneziya	*api*	*ocaq* və s.

Bütün dillərdə ən azı 2 sait fonem olur. Lakin elmi məlumatlara görə *aranta dili* istisna təşkil edir. Belə ki, həmin dildə yalnız bircə sait səs mövcuddur.

3. "Bütün dillərdə samit fonem vardır". Bu, mütləq universalidir. Fonoloqlar müəyyən etmişlər ki, dünya dillərinin hər birində dil-diş, dilortası, dodaq samitləri vardır. Xüsusilə dünyada dil-diş samiti olmayan dil yoxdur.

Samit fonemlər, təbii olaraq, dillərdə kəmiyyət və keyfiyyətcə fərqlənir. Buna görə də bir dildə olan samit başqa dildə olmaya da bilir. Məsələn, bəzi türk dillərində olan [f] samiti Qafqaz dillərində, o cümlədən gürcü dillərində yoxdur. Buna görə də [f] fonemi həmin dildə [p] səsi ilə əvəz olunur. *Fond – pand, foto – poto, fabrika – pabrika* və s.

4. "Bütün dillərdə burun fonemləri vardır" – tipoloji axtarışlarla müəyyən edilmişdir ki, burun fonemləri həm samit, həm də saitlər cərgəsində mövcuddur. Tədqiqatçılar dünya dillərindəki burun fonemlərini 4 tipə bölmüşlər:

1. Sadə burun samitləri;
2. Mürəkkəb burun samitləri;
3. Burun saitləri;
4. Heca düzəldən burun fonemləri.

Dilçilər burun fonemləri sahəsində on beş universali müəyyən etmişlər. Bunlardan üçü diaxronik, ikisi sinxronik statistik, 10-u isə mütləq sinxronik universalidir[1].

5. "Bütün dillərdə sait və samitlərin kəmiyyətcə nisbəti eyni deyildir" – bəzi dillərdə sait az, samit çoxdur. Bir sıra dillərdə isə bunun əksini görmək olur.

Dillər	***Saitlərin miqdarı***	***Samitlərin miqdarı***	***Fonemlərin cəmi***
Abxaz	2	58	60
Rus	5	34	39
Azərbaycan	9	24	33
Koreya	21	19	40

Göründüyü kimi, Koreya dilindəki fonemlərin 50 faizindən çoxunu saitlər təşkil edir.

6. "Bütün dillərdə heca vardır" – dildə heca təşkil edərkən fonemlərin yanaşması, birləşməsində də universallıq münasibəti özünü göstərir. Dünya dillərində MS (samit+sait) quruluşlu heca daha geniş yayılmışdır. Buna görə də MS quruluşlu hecalar mütləq universali sayılır. Dünyada elə bir dil ailəsi və qrupu tapılmaz ki, orada bu heca quruluşu işlənməsin. Məsələn:

Türk dillərində: – *bu, su, ba-cı, bi-bi, xa-la, da-yı, nə-nə, nə-və, qa-ra, sa-rı, qu-ru, qu-zu, gə-mi, ka-sa, me-şə, də-rə, tə-pə, dö-şə-mə* və s.

Slavyan dillərində: – *ma-ma (ana), pa-pa (ata), da (bəli), vo-da (su), re-ka (çay), ne-bo (səma), je-le-zo (dəmir), do-ro-qa (yol), bo-lo-to (bataqlıq), ra-bo-ta (iş), mo-lo-ko (süd)* və s.

Qafqaz dillərində (gürcü dilində): – *ba-ra-ti (məktub), be-be-ri (qoca), be-di (tale), bo-bo-la (varlı), bo-li (tüstü), qa-te-*

[1] Ч.Фергюсон. «Допущения относительно носовых: к вопросу о фонологических универсалиях. Новое в лингвистике». Вып. V, 1970, с.107-108.

na-ba (işıqlanmaq), qa-na (məgər), da-ba-li (alçaq dağ), da-de-bi-ti (müsbət), da-du-me-ba (susmaq), di-la (səhər), za-vi (sülh) və s.

7. *"Bütün dillərdə vurğu vardır"* – dünyada elə bir dil yoxdur ki, orada vurğu olmasın. Bu, mütləq universalidir. Lakin dünya dillərində vurğunun əhəmiyyəti və rolu eyni dərəcədə deyildir. Bütün dillərdəki vurğunun fonoloji mənasını Ç.Ferquson üç qrupda müəyyənləşdirmişdir:

1) Bəzi dillərdə, o cümlədən ispan tipli dillərdə vurğu sait fonemlərin keyfiyyətinə bir o qədər *təsir etmir.*
2) İngilis və slavyan tipli dillərdə saitlər vurğunun təsirindən *uzanır*.
3) Bəzi dillərdə, o cümlədən ərəb dilində vurğunun təsiri ilə sait fonemlər uzanmır, onlar *yumşaq, zəif tələffüz edilir.*

Ümumiyyətlə, linqvistik tədqiqatlarda dilin fonetika sahəsinin başlıca xüsusiyyətlərinə nəzər yetirilmiş və bunun nəticəsində tipoloji axtarışlarla bağlı indiyə qədər 100-dən artıq universali müəyyənləşdirilmişdir. Lakin deməliyik ki, bu işlər fonetik universali sahəsində hələ son hədd deyildir.

2. LEKSİK UNİVERSALİLƏR

Universali axtarışları leksik quruluşu da əhatə etmişdir. Bu sahədə ayrı-ayrı konkret sözlər tipoloji tədqiqat obyektinə çevrilmişdir.

Dillərin leksik sistemində universali ilə bağlı bir sıra problemlər dəqiqləşdirilmişdir.

"Dünyadakı hər bir dilin maddi lüğəvi bazası sözlərdir". Deməli, dünyada sözsüz dil yoxdur və ola da bilməz. Bu, mütləq universalidir.

Bütün dillərdə əşya və hadisələr, mücərrəd anlayışlar sözlə adlandırılır. Sözlər ilkin və törəmə, əsli və düzəltmə, sadə və mürəkkəb olur.

Dünya dillərində sözlərin miqdarı eyni deyildir. Məsələn, Oksford lüğətində 400000 söz göstərilir. Başqa dillərdə bu rəqəmə eynilə rast gəlmək olmur.

3. SEMANTİK UNİVERSALİLƏR

Semantika sahəsində universalilərin müəyyənləşdirilməsi olduqca çətin məsələlərdəndir. Bu sahədə universali problemində çox müxtəlif müddəalar, mövqelər olmuşdur. Semantik universali müəyyənləşdirməyin əleyhinə çıxanlardan biri fransız dilçisi Antuan Meye olmuşdur. O, dildə semantik qanunauyğunluğun müəyyənləşdirilməsini mümkün hesab etmirdi. Dilçi alim M.M.Pokrovski isə əksinə, dildə ümumi semasioloji qanunauyğunluqların müəyyənləşdirilməsini zəruri bilirdi.

Semantik universalilər ingilis alimi S.Ulmani tərəfindən geniş işlənilmişdir. O, "Semantik universali"[1] adlı əsərində semantik universalilərin əsaslı şəkildə bölgüsünü verə bilmişdir. S.Ulmani semantik universalilərin əksəriyyətinin statistik xarakterdə olduğunu irəli sürmüşdür.

Semantik universalilərin bir neçəsinə nəzər yetirək.

1. "Sözlərin konkret mənada işlənilməsi hadisəsi" – dilin müəyyən leksik vahidi ilkin mənanı, birinci mənanı bildirir. Məsələn, *"ay"*, *"qaş"* və *"qızıl"* sözlərinin ilkin lüğəti mənasına fikir verək.

Ay – Yer kürəsinin peyki olub, onunla birlikdə Günəşin ətrafında fırlanan və gecələr əks olunan günəş işığı ilə işıqlanan göy cismi. *Ay işığı. Ayın batması. Ay buludlar arasından sıyrılıb çıxdı* (M.Hüseyn).

Qaş – insanın gözləri üstündə qövs şəklində uzanan tüklərdən ibarət xətt. *Qara qaş. Çatıq qaş. Qələm qaş* (incə və gözəl cizgili qaş). *Kaman qaş* (qövs şəklində qaş). *Ey könül, qədrini bil oxlarının sinəmdə; Edib ol qaşın kəman unları ənam sənə* (S.Ə.Şirvani).

[1] С.Улмани. «Семантические универсалии. Новое в лингвистике». Вып. V, М., 1970, с.250.

Qızıl – rəngi sarı, bahalı bəzək şeyləri və s. qayrılan və dəyər vahidi kimi işlədilən qiymətli metal. *Xalis qızıl. Qızıl mədəni*[1].

Sözün konkret mənada işlənilməsi ümumi qanunauyğunluq kimi bütün dillərdə geniş yayılmış semantik universalidir.

2. "Mənanın dəyişilməsi hadisəsi"– dünya dillərində sözün mövcud mənasının dəyişilməsi ümumi qanunauyğunluq kimi özünü göstərir. Dildəki sözlər qeyri-sabit xarakterə malikdir. Buna görə də istər onun formasında, istərsə də mənasında tarixi dəyişiklik baş verir. Hər bir sözün ilk mənasından sonra əmələ gələn dəyişiklik onun semantikasının dəyişilməsi hesab olunur.

Dildə sözün mənasında baş verən dəyişiklik prosesinin özünü göstərməsi bir sıra linqvistik və ekstra-linqvistik səbəblərlə bağlı olur. Mənanın dəyişməsi daha çox cəmiyyətin ictimai-siyasi inkişafı ilə əlaqədardır. Cəmiyyət müxtəlif fəaliyyət sahələri üzrə inkişaf etdikcə dildəki sözlərin mənasında da dəyişiklik hadisəsi meydana gəlir. Hər hansı bir leksik vahidin sözün semantikasında az və ya çox dərəcədə fərqləndirici dəyişiklik prosesi baş verə bilir. Bu zaman bəzən ilk məna itir, məna kəsb olunur. Bununla bərabər, mənanın daxili prosesində müəyyən əlamətlər, çalarlıqlar da meydana çıxır və s.

Bütün dünya dillərində mənanın dəyişilməsinin iki bir-birinə əks olan ənənəsi vardır. Bunlardan biri mənanın genişlənməsi, digəri isə mənanın daralmasıdır.

3. "Mənanın genişlənməsi hadisəsi" – Dillərin ümumi əlamətlərinin aşkar olunmasında sözün mənasının genişlənməsi qanunauyğunluqlarının da izlənilməsi xüsusi elmi əhəmiyyət kəsb edir.

[1] Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı, 1966.

Dünya dillərində sözlərin mənasının genişlənməsi tarixi hadisədir. Buna görə də onun öyrənilməsi diaxronik istiqamətdə aparılır. Sözün mənasının genişlənməsi onun adi məna çərçivəsindən çıxması, geniş planda işlədilməsi ilə əlaqələnir.

Sözün mənasının genişlənməsi prosesi bütün dillərdə özünə yer tapmışdır. Bu linqvistik proses türk dillərində də mövcuddur. Məsələn, "xalq" sözü Azərbaycan dilində keçmişdə ailə üzvü mənasında işlənmişdir. İndi isə bir millətin bütün nümayəndələrinin cəmi mənasını bildirir. *Azərbaycan xalqı, özbək xalqı, tacik xalqı, alman xalqı* və s. Yaxud, "ana" sözünə fikir verək. Bu söz də əvvəlki dövrlərə nisbətən indi daha geniş mənada işlənilir: *ana vətən, ana torpaq* və s.

Sözün mənasının genişlənməsi hadisəsi mahiyyətinə görə diaxronik universalidir. Dillərdə sözün mənasının genişlənməsi mənanın daralmasına nisbətən məhdud hadisədir.

4. "Mənanın daralması hadisəsi" – sözlərin mənasının daralması ənənəsi semantik universalidir. Mənanın daralması prosesində müəyyən cəhətlər özünü göstərir. Sözün mənasında baş verən bu dil hadisəsi də tarixidir. Buna görə də tarixin müxtəlif dövrlərindən başlayaraq bu və ya digər geniş mənalı söz dar mənada istifadə olunur. Bunun da nəticəsində mənanın daralması hadisəsi meydana çıxır.

Bu növ ümumi semantik qanun dünyanın müxtəlif sistemli bütün dilləri üçün xarakterikdir. Türk dillərində bu ümumi semantik qanun geniş yayılmışdır. Hazırda dilimizdəki sözlərin bəzilərinin ilk ifadə etdikləri geniş məna nisbətən daralmışdır. Misal üçün "don" sözünə nəzər yetirək. Bu söz qədimdə türk dillərində, o cümlədən Azərbaycan dilində ümumi şəkildə *"paltar"*, *"geyim"* mənasında işlənilmişdir. Bunu *"gözəllik ondur, doqquzu dondur"* atalar sözündə aydın müşahidə etmək olur. Bu atalar sözü həm

qadın, həm də kişi haqqında deyilə bilir. Həmçinin *"don"* sözünün ilk mənası əsasında yaradılmış *donluq* (maaş) sözü də həmin leksik vahidin əvvəllər geniş mənada işləndiyini sübut edir. Lakin müasir ədəbi dilimizdə *"don"* sözü, öz ilk mənasından fərqli olaraq, dar mənada, yəni qadın paltarının ancaq bir növünü bildirir[1].

Güllü ***don*** *tikərəm, alıb geyərsən,*
Sən də şirin-şirin qoğal yeyərsən. (S.Vurğun)

"Ər" sözünün mənasında da tarixi inkişaf prosesində daralma hadisəsi baş vermişdir. Vaxtilə Azərbaycan dilində *"ər"* sözü *"kişi"*, *"igid"*, *"qoçaq"*, *"mərd"* və s. mənalarda da işlənmişdir. Məsələn: *Yaxşılığa yaxşılıq hər kişinin işidir. Yamanlığa yaxşılıq ər kişinin işidir* (Atalar sözü); *"Səndə doğrudan da bir ər ürəyi varsa, açıq söylə: Solmazı çoxmu sevirsən?* (C.Cabbarlı). *Əsrlər boyunca ərlər, ərənlər hünər dünyasından doymadı getdi* (S.Vurğun).

Müasir Azərbaycan ədəbi dilində isə "ər" sözü yalnız arvadın qanuni həyat yoldaşı mənasında işlənir. Məsələn: *"Arvad qab dəsmalı ilə yaşarmış gözlərini silib ərinin qabağında döyükə-döyükə qaldı"* (S.Vurğun).

Qeyd edildiyi kimi, mənanın daralması başqa dillərdə də vardır. Məsələn, əvvəllər slavyan dillərində pivo sözü, ümumiyyətlə, içmək üçün istifadə olunan hər növ içki mənasını ifadə etmişdir. İndi isə həmin dillərdə "pivo" sözünün mənası daralmış və içkinin yalnız bir növünün adını bildirir.

Sözün mənasının daralması universalisi, sözün mənasının genişlənməsinə nisbətən daha geniş hadisədir.

5. "Sözlərin məcazi mənada işlənilməsi hadisəsi" – Bütün dillərdə sözlərin məcazi mənada işlənilməsinə təsadüf

[1] Bax: Afad Qurbanov. "Müasir Azərbaycan ədəbi dili". Bakı, 1985, səh.282-283.

edilir. Bu universali, yəni sözün həqiqi mənada məcaziləşməyə keçməsi ümumi ənənədir.

Dildə sözlər əşya və anlayışları bildirmək üçün, əsasən, öz həqiqi mənalarında işlənilir. Lakin bununla birlikdə, sözlərdən məcazi mənada da istifadə olunur. Sözün həqiqi mənası əsasdır, məcazilik isə sözün mənasının ancaq bir imkanıdır. Sözün məcazi mənada işlənərək ifadə etdiyi məna onun əsas mənasından kiçikdir, həm də qeyrimüstəqildir.

Dildə məcazlar ən çox insan bədəninin, onun üzvlərinin, eləcə də insani hiss və duyğuların adlarının cansız əşyalara, təbiət hadisələrinə verilməsi nəticəsində özünü göstərir. Məsələn:

Açır qonağına Şimal qoynunu,
Dalğalı zəmilər, gümüşü çaylar
Bu gün qarşılayır sevinclə onu. (N.Xəzri)

Yaxud:

Təbiət ağlayır adamdan betər,
Heç belə qırmızı göz yaşı olmaz. (S.Rüstəmxanlı)

Misallardakı *"qoynunu açma"* və *"ağlamaq"* insana aiddir və burada məcazi mənada işlənilmişdir. Dildə məcazlar müxtəlif səbəblərlə bağlı meydana çıxır. Buna görə də onun metafora, metonimiya, sinekdoxa kimi növləri vardır. Dildə məcazlar olmasa, dil ifadəlilik, yığcamlıq kimi gözəl keyfiyyətlərə malik ola bilməzdi.

Hər bir söz məcazi mənada işlənərkən öz həqiqi mənası üzərində yeni məna çalarlığı kəsb edir. Sözün belə məcazi işlənməsi ilə bağlı olaraq, dildə çoxmənalılıq deyilən semantik hadisə meydana çıxır.

6. "Sözlərin çoxmənalılığı hadisəsi" – bir sözün bir neçə məna bildirməsi qanunauyğunluğu bütün dünya dillərində vardır. Belə semantik hadisə dilçilikdə mütləq universali hesab olunur.

Sözün öz əsas mənasından əlavə başqa bir sıra məna bildirməsi çoxmənalılıq adlanır. Sözün çoxmənalılığı bu və ya başqa sözlərin əlaqəyə girməsi nəticəsində əmələ gəlir. Məsələn, *"göz"* sözünə nəzər salaq: a*damın gözü, stolun gözü, pəncərənin gözü, durnanın gözü, bulağın gözü, şkafın gözü, tərəzinin gözü, ocağın gözü, maşının gözü, gözlüyün gözü, yaranın gözü* və s.

Dünya dillərində eyni məqsəd üçün sözlərin əlaqəyə girməsi bir-birinə tam uyğun gəlmir. Belə ki, bir dildə çoxmənalılıq prosesində əlaqəyə girmiş sözü başqa dildə digəri əvəz edə bilir. Məsələn, Azərbaycan dilində iynənin sap keçən hissəsini bildirmək üçün iynə və göz sözləri əlaqə yaratdığı halda (*iynənin gözü*), rus dilində bu məqsədlə iynə və qulaq sözləri əlaqəyə girir, *iynənin qulağı* (*иголье ушко*) ifadəsi işlənilir. Bundan başqa, hər hansı bir sözün çoxmənalılığı bütün dillərdə eyni kəmiyyətdə olmur. Məsələn, türk dillərində *qulaq* sözünün məna həcmi, çoxmənalılıq yaratmaq arealı eyni ilə ingilis və alman dillərinə uyğun gəlmir, birində az, digərində çox və ya geniş olur. Belə bir cəhət, təbii olaraq, hər dilin öz milli xüsusiyyətləri ilə əlaqədardır.

Çoxmənalılıq dilin mahiyyəti ilə bağlıdır. Sözün öz əsas mənasından başqa, əlavə mənalarda işlənilməsi dilin inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Bu və ya başqa əlavə mənanın ifadəsi üçün hər zaman yeni söz axtarılmır. Həmin məna və məna incəliyi dildə mövcud olan xüsusi mənalı sözün vasitəsilə ifadə edilir. Beləliklə, çoxmənalılıq dilin lüğət tərkibinə minlərlə leksik vahidin daxil olmamasının qarşısını alır. Belə bir proses dilin istifadə edilməsini

asanlaşdırır, insan beynini yüzlərcə sözü yadda saxlamaqdan azad edir.

Sözlərin çoxmənalılığı dünya dillərində olduqca geniş yayılmış universalidir.

7. "Dillərdə omonimlik hadisəsi" – müxtəlif sistemli dünya dillərinin semantik sistemində diqqəti cəlb edən universalilərdən biri omonimlikdir. Dildə eyni səslənməyə malik olub, müxtəlif mənalar bildirən dil vahidləri omonim hadisəsi – statik universali hesab olunur. Məsələn:

Durna uçub ün çəkər havadə,
Gedər ünü qırx ***ağac*** *ziyadə.* (Xətai)

Orda ***ağac*** *gözəl, budaq gözəldir,*
Yarpaqlar əsdikcə nəğmə yüksəlir. (Nəbi Xəzri)

Bu nümunələrdəki "ağac" səs kompleksi iki müxtəlif sözdür. Bunlardan birincisi məsafə anlayışı, ikincisi isə bitkinin bir növünü bildirir.

Dildə omonimləri mətn içərisində müəyyən etmək olur. Çünki onların mənaları başqa sözlər əhatəsində tam aydın ola bilir. Dildə omonimlərin yaranmasının müxtəlif səbəb və yolları vardır. Dünya dillərində ən geniş yayılmış yol – çoxmənalı sözlərin bir mənasının tarixi inkişaf prosesində əsas mənadan əlaqəsini tamamilə kəsməsi nəticəsində meydana gəlməsidir.

Dünya dillərində omonimlərin yaranma səbəb və yollarının dəqiq müəyyənləşdirilməsi çox mürəkkəb problemdir. Bu barədə müxtəlif mülahizə və fikirlər mövcuddur. Bəzi dilçilər omonimləri dil üçün faydalı vasitə hesab etmirlər. Onlar dilin omonimsiz daha asan dərk olunduğunu bildirirlər[1]. Dünyada omonimsiz dilin olub-olmaması

[1] С.Улмани. «Семантические универсалии». «Новое в лингвистике». Вып. V, М., 1970, с.270.

dilçilik üçün hələ aydın deyildir. Bu məsələnin axtarılması olduqca maraqlıdır.

8. *"Dillərdə sinonimlik hadisəsi"* – bütün dünya dillərində bir mənanın və məna çalarının iki və daha artıq lüğəvi vahidlə ifadə olunması hadisəsi mövcuddur. Məsələn:

Məryəmi bir daha ***gətirmə*** *yada,*
Bir şey ki qayıdan deyil dünyada,
Onu ***xatırlamaq*** *kimə gərəkdir?!* (S.Vurğun)

Yenə itən illər ***yadıma düşdü,***
Səhər sizin ellər yadıma düşdü. (M.Müşfiq)

Yaxın qayalar üstə çığırışdı qağayılar,
Yada saldı *Xəzərlə bağlı xatirələri.* (Ə.Cəmil)

Buradakı *"yada gətirmək"*, *"xatırlamaq"*, *"yada düşmək"*, *"yada salmaq"* söz və ifadələri sinonim olub, müəyyən mənanın ifadəsinə xidmət edir.

Sinonimlik hadisəsi müasir dillərdə özünə geniş yer tapmışdır. Türk dilləri də öz sinonimliyi ilə zəngindir. Dildə sinonimlik hadisəsini ifadə edən söz və ifadələr sinonimik cərgə təşkil edir. Belə cərgələrdəki lüğəvi vahidlərin kəmiyyəti ayrı-ayrı dillərdə müxtəlif olur. Məsələn, tədqiqatçılar müəyyən etmişlər ki, XII əsrin məşhur fransız şairi Benua de Sent-Mor *"vuruş"* yə *"mübarizə"* mənalarını ifadə etmək üçün əsərlərində 37 isim işlətmişdir.

XIX əsrin görkəmli Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundov pyeslərində *"ölüm"*, *"öldürmək"* anlayışlarını bildirmək üçün 19 lüğəvi vahiddən (*vəfat etmək, canını tapşırmaq, aradan götürmək, Allahın rəhmətinə getmək, sağ qoymamaq, axırma çıxmaq, aradan çıxarmaq* və s.) istifadə etmişdir[1].

[1] Bax: S.Murtuzayev. "M.F.Axundovun komediyalarının frazeologiyası". Bakı. 1958, səh.34.

Sinonim universali problemi hazırda diqqəti özünə çəkən ən aktual sahədir.

9. "Dünya dillərində tabu hadisəsi" – qabaqcadan deməliyik ki, tabu müxtəlif sahələrə aid olan geniş anlayışdır. Dilçilikdə ancaq dil tabularından bəhs olunur.

Tabu universalisi dünya dillərində çox yayılmış hadisədir. Ədəbi dildə işlənilməsi qadağan edilən, yaxud məhdudlaşdırılan söz və ya ifadələr tabu adlanır. Polinezi mənşəli olub, tabu sözü ilə ifadə edilən bu hadisənin əmələ gəlməsi müxtəlif ictimai və mədəni amillərlə, müəyyən şəraitlə və bir sıra obyektiv səbəblərlə bağlı olur.

1. Qorxu hissi ilə əlaqədar meydana çıxan dil tabuları. Dünya dillərində qorxu hissi ilə bağlı ən çox aşağıdakı hallarda tabulaşma prosesi olmuşdur:

a) İctimai mühitlə bağlı olaraq qeyri-real, qorxulu anlayış bildirən sözlər tabulaşdırılır. Məsələn: *Əzrayıl, cin, şeytan* və s.

b) Yırtıcı vəhşi heyvanlar faciəli vəziyyət yaratdığına görə cəmiyyətdə həmin heyvanın adının tələffüz edilməsi qadağan bilindikdə tabu hadisəsi meydana çıxır.

Bu növ tabular Afrika və Amerika dillərində daha çox yayılmışdır.

2. Adət-ənənəyə görə yaranma tabu hadisəsi. Bəzi xalqlarda vəfat edən adamın adı tabulaşdırılır. Onun işlədilməsi məqsədəuyğun hesab edilmir.

3. Mifoloji inamla əlaqədar yaranan tabular. Dünya xalqları müxtəlif dinlərə itaət edirlər. Dini anlayışlarla bağlı bir sıra tanrı adları, dini ad və ifadələr meydana gəlmişdir. Bəzi xalqlarda su allahı, külək allahı adları və sair yaranmışdır. Təbii fəlakətlərlə bağlı bu adların bəzisinin işlənilməsi ya qadağan edilir, ya da müəyyən dərəcədə məhdudlaşdırılır ki, burada da tabulaşma meydana çıxır. Mövhumata, dini inama görə tələffüzü qadağan edilən sözlər – tabular dünya dillərində az deyildir.

4. Bədən üzvlərinin qüsurları ilə bağlı yaranan tabular. Məlum olduğu üzrə, dildə bir qrup söz və ifadə vardır ki, onlar mənalarına görə kobud və ya təhqiramiz lüğəvi vahidlər hesab olunur. Haqqında danışılan şəxsi təhqir etməmək, qəlbinə toxunmamaq üçün belə sözlərin mənaları mədəni tələb, zərif insani hisslər, incə münasibətlər əsasında yumşaldılır. Belə sözlərə bir neçə misal.

Kar əvəzinə – *pis eşidən adam, qulaqları zəif olan adam, qulaqları ağır eşidən adam.*

Lal əvəzinə – *Allah dil verməyən adam, Allahın dilsiz bəndəsi, Allah dil əsirgəmiş* və s.

Çolaq əvəzinə – a*yağı şikəst olan, ayağı xəstə adam* və s.

Ünsiyyət prosesində bu qrup tabulardan olduqca məhdud dairədə istifadə edilir.

Nəzakətliliklə bağlı tabunun da bir neçə növünə təsadüf olunur. Məsələn, türk ailələrində xüsusi adların məhdud işlənilməsi halları vardır. Belə ki, türk kişiləri kənar adamlar yanında həyat yoldaşının adını çəkmədən "xanım əfəndi", qadınlar isə ərlərinə "əfəndim" sözləri ilə müraciət edirlər. Yapon kişiləri arvadlarını, əsasən, ictimai yerlərdə xüsusi adlar ilə deyil, "ayto" deyə çağırırlar.

5. *Əxlaq normaları ilə əlaqədar meydana gələn tabular.* Ədəb qaydalarına riayət etmək əsasında insan fəaliyyətinin müəyyən sahələrinə aid olan bir qrup söz və ifadənin kollektiv ünsiyyətdə işlədilməsi məqsədəuyğun sayılır. Bu qrup tabulara vulqar və söyüş sözləri də aid edilir.

Göstərilən bu tabu növü yəni qeyri-linqvistik amillər əsasında işlədilməsi məsləhət görülməyən sözlər – dünya dillərinin, demək olar ki, hamısında özünə yer tapmış universali hadisəsidir.

Ədəb qaydalarına əməl etmək səyi nəticəsində Azərbaycan dilində tabu hadisəsi kimi *həyat yoldaşının* adını çək-

məyib, onun əvəzinə *"uşaqların anası"* ifadəsi işlədilmişdir. Bu hadisə hazırda danışıq dilində geniş istifadə olunur.

Tabuların taleyi dünya dillərində eyni deyildir. Belə ki, dildə mövcud olan hər bir tabu xalqın mədəni və sosial dəyişiklikləri ilə bağlı inkişaf etdiyi kimi, sıradan çıxa da bilir.

10. *"Evfemizm hadisəsi"* – dildə kobud, xoşagəlməz, təhqiramiz söz və ifadələri daha yumşaq və mədəni ifadə etmək prosesi vardır. Belə hadisə dilçilikdə evfemizm adlanır. Evfemizm iki yunan sözünün birləşməsi olub, ev – yaxşı, phemi – danışıram deməkdir. Məsələn, *xəbərçi əvəzinə söz gəzdirən, yalan əvəzinə həqiqətə uyğun olmayan, pəltək əvəzinə dilişirin, axsaq əvəzinə ayağını çəkən* və s. Evfemizmlər zəngindir. Buna görə də bəzi ifadələr sinonimlik təşkil edir. Məsələn:

dəli —
- *şüursuz*
- *ağılsız*
- *düşüncəsiz*
- *ağlını itirmiş*
- *başına hava gəlmiş*

Yaxud:

yalançı —
- *düz danışmayan*
- *qeyri-dəqiq adam*
- *sözünə əməl etməyən* və s.

Evfemizmlər tabu hadisəsinə münasibətdə iki formada özünü göstərir. Birincisi mənanı ifadə etmək tərzi baxımından üslubi antonimlik təşkil edir. Məsələn:

Kobud ifadə tərzi (tabu)	*Nəzakətli ifadə tərzi (evfemizm)*
kor	*gözünü itirmiş*
	gözdən şikəst

ölmək — *vəfat etmək*
rəhmətə getmək

Buradakı antonimliyi, şübhəsiz ki, nisbi formada qəbul etmək lazımdır. İkincisi, tabu ilə evfemizm ifadələri sinonimlik əmələ gətirir. Məsələn, yetim – *ata-anasız*, mırıq – *dişsiz* və s.



Cədvəl 15.

Nitqdə işlənən tabunun əsasını kobud, kəskin və sərtlik, evfemizmin məzmununu isə mədənilik, yumşaqlıq və zəriflik təşkil edir. Buna görə də evfemizm mədəni ünsiyyətin əsas komponentlərindən biri kimi qiymətləndirilməlidir. Bu mənada müasir Azərbaycan ədəbi dilində hər hansı bir şəxsə hörmət əlaməti olaraq "sən" əvəzinə "siz" deyə müraciət edilməsini də evfemizm hadisəsi adlandırmaq olar.

Evfemizm ancaq tabuları əvəz etməklə məhdudlaşmır. Onun daha başqa növləri də mövcuddur. Xüsusən ədəb qaydaları ilə əlaqədar dünya dillərində bir sıra evfemizmlər işlənir. Bunların hamısı universali səciyyəlidir.

4. DERİVATOLOJİ UNİVERSALİLƏR

Dünya dillərinin dərindən izlənilməsi, elmi əsasda tədqiq edilməsi insanda dil qanun və hadisələrinin həddindən artıq çoxluğa, sonsuz rəngarəngliyə malik olduğu inamını artırır. Dil qanunauyğunluqlarının zənginliyinə dair yaranmış belə təsəvvür və görüşlər elmi tədqiqatların yeni-yeni sahələr üzrə aparılmasına istiqamət verir.

Dilçilik elmində müxtəlif sistemli dünya dillərinin sözyaratma prosesində də çox böyük yaxınlıq, ümumilik müəyyən edilmişdir. Məlumdur ki, şəkilçi vasitəsilə sözyaratma dilçilikdə morfoloji yol adlanır. Bu yolla müxtəlif dillərdə söz yaradıldığına rast gəlmək olur. Məsələn:

Hind-Avropa dillərindən ingilis dilində:

1. work+er – worker(s) – *fəhlələr*
2. read+er – reader(s) – *oxucular*
3. write+er – writer(s) – *yazıçılar*
4. play+er – player(s) – *oyunçular*
5. sports+man – men – *idmançılar*
6. physic+ist(s) – *fiziklər*
7. teach+er – teacher(s) – *müəllimlər*
8. sing+er – singer(s) – *müğənnilər*
9. dance+er – dancer(s) – *rəqqaslar*
10. art+ist – artist(s) – *rəssamlar*

Qafqaz dillərindən gürcü dilində[1]:

1. xortum+ian (n)+ebi – *xortum + lu + lar*
2. nal+ion (n)+ebi – *nal + lı + lar*
3. xel+ion (n)+ebi – *əl + li + lər*
4. xanql+ian (n)+ebi – *xəncər + li + lər*
5. dərd+iani (z) qan – *dərd + li + lər*

[1] Girdə mötərizədəki (i) səsi düşür.

6. kud+ioni (s)+qan – *şapka + lı + lar*
7. ksi+ (u)ani+dan – *yüz + lük + dən*
8. atasi+(n)an(n)+ebi – *min + lik + lər*
9. evron+cg(u) +s – *avropa + lı + lar*

Türk dillərindən müasir türk dilində[1]:
1. kanun+suz+luk – *qanunsuzluq*
2. kristal+leş+me – *kristallaşma*
3. olum+suz+luk – *olumsuzluq*
4. seda+lı – *sədalı*
5. sofra+lık – *süfrəlik*
6. tarih+çi – *tarixçi*
7. traktör+cü – *traktorçu*
8. utan+gaç – *utancaq*
9. zorba+ca – *zorbaca*
10. zincir+li – *zəncirli*

Müşahidə olunan bu ümumilik genetik cəhətlə izah oluna bilməz. Çünki misal verilən dillər bir-biri ilə qohum deyildir. Amerika dilçisi Cozef Qrinberq bu sahədə apardığı tədqiqatlar əsasında belə bir qənaətə gəlmişdir ki, əgər dillərdə həm sözdüzəldici, həm də sözdəyişdirici ünsür varsa, bunlardan sözdüzəldici ünsür sözün kökünə daha çox bağlı olur. Burada belə bir ümumiləşmə meydana çıxır ki, sözdüzəldici ünsür həmişə sözün kök ilə dəyişdirici ünsürünün arasında olur. Məsələn, *mək-təb-**li**-lər, dil-**çi**-dən, baş-**lıq**-dan, qonşu-**luq**-da* və s.

Dillərdə müşahidə edilən bu növ universali mütləq universalidir.

5. QRAMMATİK UNİVERSALİLƏR

Dilçilik tarixində istər iİttifaq və istərsə də xarici ölkə alimlərinin əsərlərində qrammatik universalilərə dair bir

[1] Düz mötərizədə göstərilən [s] səsi bitişdiricidir.

sıra mülahizə və görüşlər irəli sürülmüşdür. Dilin qrammatik quruluşuna aid universali məsələləri nəzəri dilçilik üçün də az maraqlı deyildir. Bu sahədə xeyli iş aparılmışdır. Dilçilər 50-yə qədər qrammatik universali müəyyən etmişlər.

Çoxcəhətli qrammatik universalilər xarakter və sahəsinə görə iki yerə bölünür: morfoloji universalilər, sintaktik universalilər.

a) MORFOLOJİ UNİVERSALİLƏR

Dünyada mövcud olan hər bir dildə nitq hissəsi vardır. Bütün dillərdə *isimlər* – əşya və mücərrəd adları, *feillər* – hal və hərəkəti, *sifətlər* – keyfiyyət və əlaməti[1], *saylar* – kəmiyyət bildirir. Dünya dillərinin hamısında isim və feil daha əsas nitq hissəsidir. Bizi əhatə edən hər şeyin adı – *ağac, çöl, daş, su, ot, dağ, dərı* və s. isimdir, bu bütün dillərdə də belədir, yəni eynidir, ümumidir. İsimlərin bu cür təbiəti onun universaliliyini göstərir.

Nitq hissəsinin universaliliyi sistem təşkil edir. Bu sistemdə xüsusi yerlərdən birini *əvəzliklər* tutur. Əvəzliklərin tədqiqi ilə D.İnqrem və K.Maytinskaya daha çox məşğul olmuşlar. D.İnqrem 71 dilin materialını tədqiq etmiş, əvəzliklərdə ümumi cəhətləri aydınlaşdırmağa çalışmışdır.

K.Maytinskaya isə müxtəlif sistemə, mənşəyə malik olan və eləcə də müxtəlif areallarda işlənən 250-yə yaxın dildə əvəzlikləri araşdırmışdır[2]. Tədqiqatçı qarşıya iki məqsəd qoymuşdur:

a) əvəzliklərin daxili sistemlərinin əlaqələrini aydınlaşdırmaq, onların yayılma dərəcəsini, *universallıq* səviyyəsini müəyyənləşdirmək;

[1] Bəzi dilçilər çin dilində əlamət anlayışının feillə bildirildiyini göstərir (E.Sepir).
[2] К.Е.Маитинская. Местоимения в языках разных систем. М., 1969, с.272.

b) əvəzliklərin yayılması və inkişaf etməsi qanunauyğunluqlarını izləmək[1].

Müəllif adıçəkilən əsərdə əvəzliklərin əmələ gəlməsinin ümumi prinsiplərini göstərə bilmişdir.

Dilçilik ədəbiyyatında əvəzliklər haqqında bir sıra müxtəlif mahiyyətli mülahizələr irəli sürülmüşdür.

1. Bəzi dilçilər əvəzlikləri nitq hissələrinə aid etmirlər.
2. Bəzi dilçilər əvəzlikləri köməkçi nitq hissəsi adlandırırlar.
3. Bəzi dilçilər əvəzlik dedikdə ancaq *şəxs əvəzliklərini* nəzərdə tuturlar.

Məlumdur ki, əvəzlik nitq hissəsidir, özü də əsas nitq hissəsinə aiddir. Onun mənaca növləri təkcə şəxs əvəzliyindən yox, bir neçə digər qrupdan ibarətdir.

Dünya dillərində əvəzliyin semantik qrupu eyni deyildir. Hind-Avropa, fin-uqor və altay dillərində *şəxs, işarə və sual* əvəzlikləri dəqiq özünü göstərir. Bu vəziyyət başqa bir sıra dillərdə də vardır. Lakin əvəzliyin mənaca başqa növləri bu dillərdə müxtəlifdir[2].

Əvəzliklər sistemini təşkil edən leksik vahidlərdən şəxs, işarə və sual əvəzliklərinin daha qədimdə formalaşdığı elmi əsasda sübut edilmişdir.

Tədqiqatçılar əvəzliyin məna qrupundan şəxs əvəzliklərinin universal əlamətlərinin təhlilini vermişlər. Bu qrup əvəzlik haqqında belə bir nəticə irəli sürülmüş ki, *"bütün dünya dillərində şəxs əvəzliyi vardır"*, *"bütün dillərdə əvəzliklər üç şəxs bildirir"*. Məsələn, müxtəlif sistemli dillərə nəzər yetirək:

[1] К.Е.Маитинская. Местоимения в языках разных систем. М., 1969, с.272.
[2] Yenə orada, səh. 38.

AZƏRBAYCAN DİLİNDƏ

TƏK	*CƏM*
I Mən otururam	I Biz otururuq
II Sən otururs an	II Siz otururs unuz
III O oturur	III Onlar otururlar

ALMAN DİLİNDƏ

I Ich sitze	I Wir sitzen
II Du sitzt	II Ihr sitzt
III Er sitzt	III Sie sitzen

FRANSIZ DİLİNDƏ

I Je massua	I Nous assuayöp
II Tu tassua	II Vous assuaye
II Il (el) sassua	III Il (el) sassua

FARS DİLİNDƏ

I Mən mineşinəm	I Ma mineşinim
II To mineşini	II Toma mineşinid
III U mineşinəd	III Onha mineşinənd

Şəxs əvəzliklərinin belə ümumi əlaməti onun universali və həm də mütləq universali olduğunu göstərir.

Şəxs əvəzliklərinin təkinin müsahibədə iştirak etməsi aşağıdakı kimi özünü göstərir:

I şəxs – danışan, informasiya verən;

II şəxs – dinləyən, müsahibədə iştirak edən;

III şəxs – müsahibədə iştirak etməyən. Müxtəlifsistemli dünya dilləri üzrə şəxs əvəzliyi sistemini azı 4, çoxu 15 vahid təşkil edir. Misallara nəzər salaq:

DÖRDÜZVLÜ SİSTEM
(*Koreya dilində*)

Təki	*Cəmi*
I mən	*I biz*
II sən	*II biz*
III o	*III biz*

Koreya dilində bizim dildəki kimi, I, II, III şəxsin təki üçün müstəqil leksik vahid işlənir. Lakin I, II, III şəxsin cəminə dair yalnız *"biz"* sözünün həmin dildəki qarşılığından istifadə olunur.

BEŞÜZVLÜ SİSTEM
(*İngilis dilində*)

Təki	*Cəmi*
I I (ay)	I We (vi)
II You (yu)	II You (yu)
III He (hi)	III,They (zey)

İngilis dilində II şəxsin təki (sən) və cəmi (siz) bir sözlə (yu) ifadə olunur.

ALTIÜZVLÜ SİSTEM
(*Türk dilində*)

Təki	*Cəmi*
I ben	I biz
II sen	II siz
III o	III onlar[1]

Dünya dillərindən latın, rus, fin, yapon dillərində də şəxs əvəzliklərinin 6 üzvlü sistemi mövcuddur.

[1] Tahsin Banguoğlu. "Türkçenin Grameri", Ankara, 1986, s.357.

Xantı dilində 9 üzvlü, çinuk, qava dillərində 11 üzvlü, noqoqu, uorora dillərində şəxs əvəzliyinin 15 üzvlü sistemi müşahidə olunur.

Dünya dillərində say kateqoriyası da maraqlıdır.

Bəzi dünya dillərinin say sistemində 11-dən 19-a qədər olan modeli eynidir. Əvvəlcə on, sonra bir, iki və s. işlənir. Məsələn, vyetnam dilində muio – "on", mot – "bir", muoim – "on bir". Bu model fin-uqor dillərindən udmurt, türk dillərindən isə qazax dilinin müqayisəsində aydın görünür.

qazax dili				*udmurt dili*
un ber	←	11	→	das odig
un ike	←	12	→	das kyk
un öç	←	13	→	das kuin'
un dürt	←	14	→	das n'yl
un biş	←	15	→	das vit
un altı	←	16	→	das kuat'
un jide	←	17	→	das s'iz'im
un siqez	←	18	→	das t'amys
un tuqız	←	19	→	das ukmys

Universali baxımından dünya dillərində diqqəti cəlb edən kateqoriyalardan biri cins kateqoriyası məsələsidir. Bu sahədəki tədqiqatlardan aydın olur ki, cins problemində iki məsələ – təbii cins anlayışı ilə cins kateqoriyası bir-birinə qarışdırılmamalıdır.

Təbii cins öz ifadə vasitələrini dünyanın hər bir dilində tapır. Məsələn, türk dillərindən Azərbaycan dilində cins anlayışının ifadəsinə fikir verək. Azərbaycan dilində cins kateqoriyası olmadığı üçün *təbii cins* anlayışı iki vasitə ilə bildirilir.

1. Leksik vasitə ilə;
2. Təsviri vasitə ilə.

Türk dillərində, o cümlədən Azərbaycan dilində canlılara aid təbii cins anlayışları müstəqil leksik vahidlərlə ifadə edilir. Məsələn:

İnsana aid: a) *kişi cinsi üçün – ər, qayınata, bəy, ağa, kürəkən, qayın, əmi, ağsaqqal, bığıburma, kosa və s.; b) qadın cinsi üçün – arvad, qayınana, gəlin, xanım, baldız, bibi, ağbirçək, hamilə, ərli, boylu* və s.

Xüsusi şəxs adlarında cins anlayışı çox aydın ifadə olunur. Məsələn: *Əsgər, Səməd, Məhəmməd, Əli, Hüseyn, Süleyman, Ramiz, Əsəd, Mahir, Murad, Sərxan, Rəhman, Tərlan, Teymur və s. adlarla kişi; Fərəh, Fidan, Fəridə, Dilbər, Gültac, Sədaqət, Telli, Nazlı, Pakizə, Şeyda, Şəhla, Həcər* və s. adlarla isə qadın anlayışı ifadə olunur[1].

Başqa canlılara aid: *erkək-dişi, qoç-qoyun, xoruz-toyuq, buğa-inək* və s.

	Sıra №-si	Türk dilləri sistemi (Azərbaycan dili)	Slavyan dilləri sistemi (rus dili)	Qafqaz dilləri sistemi (gürcü dili)
Kişi cinsi	1.	ata	отец	mama
	2.	baba	дедушка	babua
	3.	dayı	дядя	vidza
	4.	oğul	сын	vaji
Qadın cinsi	1.	ana	мать	deda
	2.	nənə	бабушка	bebie
	3.	xala	тетя	deida
	4.	qız	девочка	qoqo

Təbii cins anlayışının leksik vasitə ilə bildirilməsi müxtəlif sistemli bütün dillərdə müşahidə olunur. Məsələn:

Azərbaycan dilində cins anlayışının leksik vasitə ilə bildirilməsi mümkün olmadıqda təsviri vasitədən istifa-

[1] Dillərdə kişi və qadın üçün müştərək işlənən adlar da vardır. Məsələn, Hilal, Qüdrət, İzzət və s.

də edilir. Məlumdur ki, dilimizdə *"nəvə gəldi"*, yaxud *"o gəldi"* dedikdə, cins anlayışı bildirilmir, nəvənin, yaxud gələn şəxsin qadın və ya kişi cinsinə aid olduğu göstərilmir. Məsələn:

Внук – nəvə – oğlan nəvə
Внучка – nəvə – qız nəvə

Yaxud:

Он пришел – o gəldi – oğlan gəldi
Она пришла – o gəldi – qız gəldi

Nümunələrdə olduğu kimi, belə hallarda anlayış təsvirlə bildirilir, oğlana və ya qıza aid olduğu cins bildirən sözlə təsviri şəkildə ifadə edilir.

Təbii cins anlayışı bütün dünya dillərində işlənilən ümumi dil qanunu olub, universalidir. Bu universali mahiyyətinə görə mütləq xarakterlidir.

Qrammatik cins kateqoriyası dünyanın bütün dillərində deyil, ancaq bəzi dil ailələrində mövcuddur. Məsələn, hind-Avropa, sami dillərində olduğu kimi. Dilçilik tarixində cins kateqoriyasının genezisi problemi ətraflı işlənilmişdir. Tədqiqatlarda cins kateqoriyasının iki forması müəyyənləşdirilmişdir:

a) ikikomponentli – kişi və qadın cinsi (ərəb dili)
b) üçkomponentli – kişi, qadın və orta cins (slavyan dilləri)

Yeri gəlmişkən demək olar ki, qrammatik *cins* kateqoriyası müəyyən mənada *süni cins* anlayışı hesab oluna bilər. Belə ki, rus dilində *книга, школа, ручка, бумага* və s. sözlər qadın cinsinə aiddir. Bu cansız əşyalarda məntiqi cəhətdən hansı cinsi əlamət ola bilər? Ümumiyyətlə, cins kateqoriyası dildə ağırlıq törədir, ona görə də bəzi dillərdə cins kateqoriyası get-gedə zəifləyir. Məsələn, əvvəllər rus dilində

докторка, профессорша deyildiyi halda, indi belə ifadələr işlənmir. İngilis dilində də cins kateqoriyası xeyli zəifləyib.

Süni cins anlayışı – qrammatik cins kateqoriyası dünyanın bir çox dilində işlənən ümumi hadisə olduğu üçün statistik universalidir.

b) SİNTAKTİK UNİVERSALİLƏR

Dilçilikdə sintaktik universaliləri müəyyən etmək üçün məntiqi qanunauyğunluqlara əsaslanılır. Dil vahidi ilə təfəkkür qanunlarının münasibəti müəyyənləşdirilərək dildəki universalilər aydınlaşdırılır. Məlumdur ki, ünsiyyət ancaq söz və ya söz birləşməsi ilə qeyri-mümkündür. Ünsiyyət üçün cümlə vacibdir. Cümlə daxilində isə sözdən, söz birləşməsindən istifadə olunur.

Deməli, bütün dillər üçün cümlə danışığı (söyləm) ümumi əlamətdir. Beləliklə, *"bütün dillərdə insanların cümlə ilə danışması"* mütləq universalidir.

Amerika dilçisi Ç.Xokket dünya dillərinin sintaktik sistemi üzərində axtarışlar apararkən belə bir universali müəyyən etmişdir: *"Bütün dünya dillərində cümlənin ikiüzvlü növü mövcuddur"*. Məsələn: *Həkim gəldi. Müəllim danışdı. Təyyarə uçdu. Ay göründü* və s. Bütün dillərdə bu növ cümlələrin mövcudluğu ən ümumi sintaktik universali hesab olunur.

Cümlədə söz sırası da xüsusi əhəmiyyətə malikdir. Bəzi dillərdə, o cümlədən müasir çin dilində söz sırası daha böyük rola malikdir. Belə ki, həmin dildə sözlər arasında əlaqə bəzi köməkçi sözlərlə yanaşı, həm də söz sırası ilə ifadə olunur.

Dünya dillərində söz sırası da universal əlamətə malikdir[1]. Universali sahəsində xüsusi tədqiqatların müəllifi

[1] Bax: Е.И.Шутова. О некоторых универсальных закономерностях в соотношении синтаксического и морфологического уровней (в связи синтаксической ролью порядка слов и форм слов). Языковые универсалии и лингвистическая типология. М., 1969, с.141.

kimi tanınmış Cozef Qrinberq cümlədə söz sırasının universallığına dair də bir neçə təklif irəli sürmüşdür. O, nəqli cümlədən bəhs edərkən bütün dillər üçün onun normal sırası olduğunu göstərir.

9.03. DİL UNİVERSALİLƏRİNİN KƏŞFİ

Universalilərin kəşfi, onların elmi şərhi və əsaslandırılması dilçilikdə çox məsul və həm də mürəkkəb bir məsələ hesab edilir. Hər hansı bir universali böyük çətinliklə müəyyənləşdirilir. Tədqiqatçılar bu sahədə öz məqsədlərinə heç də həmişə birbaşa və ya uğurla nail ola bilmirdilər. Bu sahədə irəli sürülmüş bu və ya başqa fərziyyə bəzən qeyri-elmi xarakterdə olurdu.

Dil universaliləri *tipoloji tədqiqatlar* əsasında meydana çıxır.

Tipoloji tədqiqat nədir? Müxtəlif dillərdəki eyni və oxşar əlamətləri üzə çıxarmaq məqsədi ilə aparılan axtarışlar dilçilikdə tipoloji tədqiqat adlanır. Dilçilikdə tipoloji tədqiqat çoxdan aparılır, onun tarixi keçmiş əsrlərlə bağlıdır. XVII-XVIII əsrlərdə Avropada dillərin tipoloji tədqiqinə xüsusi yer verilmişdir. Bu tədqiqat forması XIX əsrdə daha geniş vüsət almışdır. Əsrin görkəmli alimlərindən Vilhelm Humboldtun və Avqust Şleyxerin əsərlərində bir sıra zəruri tipoloji problemlərə toxunulmuşdur.

XX əsrin 60-cı illərindən başlayaraq tipoloji tədqiqatların əhəmiyyəti daha da artmışdır. Belə bir cəhət dilçilikdə universali aşkar etməyə meyil və marağın çoxalması ilə bağlı olmuşdur.

Dilçiliyin müasir inkişaf mərhələsində dillərin tipoloji təsviri probleminin qoyuluşunda yeni-yeni aktual istiqamətlər meydana gəlmişdir. Yer kürəsində mövcud olan bütün dillərin hadisə, qanun və ənənələri öz xarakterinə

görə iki yerə bölünür: a) bütün dillərə aid olan; b) ancaq bir dilə və ya dil ailəsinə məxsus olanlar.

Dillər üçün uyğun və ümumi olan cəhətlər öyrənilərkən heç də hər cür uyğunluqlar ümumilik kimi götürülməməlidir. Çünki ümumilik termini mənasına görə "uyğunluq" sözünün sinonimi deyildir. Bunların mənaları bir-birindən fərqlidir. Dünya dillərinə uyğun cəhətlər çoxdur. Belə uyğunluqlar dörd formada izah olunur:

a) Genetik formada;

b) Areal formada;

c) Tipoloji (universallıq) formada;

ç) Təsadüfi uyğunluq formasında.

Tipoloji tədqiqatın məqsədi müxtəlif sistemli dünya dillərinin quruluşunda olan həqiqi ümumi münasibətləri, kateqoriya və qanunları aşkara çıxarmaqdan ibarətdir.

Dilçilik tipologiyasının iki başlıca vəzifəsi vardır:

a) Birinci vəzifə – bütün dünya dilləri üçün ümumi olan izomorf hadisəsini üzə çıxarmaqdır. Məlum olduğu üzrə belə tədqiqatlar, elmi nəticələr əsasında dünya dillərinin təsnifi daha da dəqiqləşdirilə bilər.

b) Digər vəzifəsi – bütün dillər üçün ümumi sistem müəyyən etməkdir. Universali sisteminin yaradılması nəzəri dilçiliyin ən başlıca müasir problemlərindəndir.

Tipoloji tədqiqatın metodları. Universali sistemini təşkil edən hər bir hadisə, ümumi qanunauyğunluq dilçiliyin mövcud məxsusi metodları əsasında müəyyən edilir. Bununla belə, burada bir sıra tipoloji üsullara da müraciət olunur.

Tipoloji tədqiqat metodları ilə bağlı aydın olmayan bir sıra məsələlər vardır. İndiyə qədər dünya dillərinə aid olan ümumi cəhətləri müəyyən etmək üçün xüsusi metodlar işlənib hazırlanmamışdır. Buna görə də tədqiqatlarda çox müxtəlif metodlardan istifadə olunduğuna rast gəlmək olur ki, bunların da nəticəsində bir çox mübahisələr meydana çıxmışdır.

Dilçilik elminin müasir mərhələsində tipoloji tədqiqatların aparılmasında universal münasibətləri – dil universaliləri kəşf edilərkən bir sıra başlıca üsullardan istifadə olunur.

Tipoloji müqayisə üsulu. Universali kəşfi prosesinin əsasını dillərin bir-biri ilə müqayisə edilməsi üsulu təşkil edir. Bir dili başqası ilə müqayisə etmək onların ümumi və fərqli cəhətlərini açmaqda ən qüvvətli vasitədir.

Müxtəlifsistemli dillərdə saitlərin mövcudluğuna nəzər yetirək.

Etalon dil	**Müqayisə edilən dillər**				
Azərbaycan dili	fars dili	rus dili	gürcü dili	ingilis dili	başqırd dili
a	a	a	a	a	a
1	-	1	-	-	-
o	o	o	o	o	o
u	u	u	u	u	u
ə	ə	-	-	-	ə
e	e	e	e	e	e
i	i	i	i	i	i
ö	-	-	-	-	ö
ü	-	-	-	-	ü

Qohum dillərin də müqayisəsi müəyyən ümumi və fərqli cəhətləri açmaqda ən qüvvətli vasitədir. Məsələn, türk dillərindən bir-birinə çox yaxın olan iki dilin – müasir türk və Azərbaycan dillərinin fonetik sisteminə müqayisəli nəzər yetirdikdə dilimizdəki ə, x fonemlərinin müasir türk dilində işlənmədiyini görmək mümkündür.

	Azərbaycanca	**Türkcə**
ə	*Əli*	*Ali*
	Əhməd	*Ahmet*
	Məhəmməd	*Mehmet*

X	*Xəlil*	*Halil*
	Xalid	*Halit*
	Xanım	*Hanım*

Dil universalisi kəşfi üçün çox dil tədqiqata cəlb edilməlidir. Tədqiqatların nəticələri göstərir ki, az dil üzərində aparılan axtarışlar tam fikir söyləməyə əsas vermir, hətta bir sıra hallarda səhv fərziyyə bildirildiyinə gətirib çıxarır.

Universali tədqiqində həm qohum, həm də yad dillər müqayisə edilməlidir. Bu, iki cəhətdən əhəmiyyətlidir. Birincisi, müxtəlif sistemli dillər tədqiq edilərkən bütün dünya dillərinə aid olan ümumi cəhətlər meydana çıxarılır. İkincisi, qohum dillərin araşdırılması ümumi məsələ ilə yanaşı, komparativistikanın da ətraflı inkişafına səbəb olur.

Tipoloji tədqiqatda *etalon dil* əsasında başqa dillər müqayisə olunur və ümumi qanunauyğunluqlar, ənənələr, qanunlar aşkar edilir.

Etalon dil seçmək üsulu. Başqa dilləri müqayisə etmək üçün əsas götürülən dil etalon adlanır. Tipoloji tədqiqat prosesində təhlil və təsvir etalon nümunəsi əsasında aparılır. Başqa formada desək, etalon nümunəsi meyar hesab olunur.

Müqayisə üçün etalon hansı dil götürülür? Tipoloji tədqiqatda etalon dil seçmək çox vacib məsələdir. Dilçilikdə etalon dil haqqında bir neçə prinsip mövcuddur:

1. Ana dili etalon götürülür. Ana dilinin etalon götürülməsində iki məqsəd həyata keçirilir:

a) Hər hansı bir xarici dili öyrənmək üçün ana dili başqa dillə müqayisə edilir. Məsələn, Azərbaycan dili etalon götürülüb ingilis, alman, fransız, fars, ərəb dilləri öyrənilir. Bu zaman Azərbaycan dilinin müəyyən hissəsi, deyək ki, fonetik sistemi həmin dillərlə qarşılaşdırılır, fərqlər müəyyən edilir. Belə bir cəhət mənimsəmə prosesini asanlaşdırır.

Müasir orta və ali məktəblərdə dillərin tədrisi prosesində bu prinsipdən geniş istifadə olunmalıdır:

b) Ümumxalq dilinin dialekt və şivələrini öyrənərkən ədəbi dil etalon götürülür. Dialekt və şivələrdəki fərqlər ancaq ədəbi dil materialları ilə qarşılaşdırıldıqda meydana çıxır. Dilçilik tarixində bu təcrübədən geniş istifadə olunmuş və olunmaqdadır.

2. Poliqlot (çox dil bilən) tədqiqatçı istədiyi dili etalon götürə bilir. Bu prinsiplə aparılan tədqiqatlara çox təsadüf edilir. Məsələn, dilçi tədqiqatçılar yunan dilini etalon dil götürüb latın dilinin xüsusiyyətlərini aşkar etmişlər.

3. Bəzən dil etalonu xüsusi olaraq qurulur. Məsələn, müəyyən obyekti bu və ya digər cəhətdən açmaq, işıqlandırmaq üçün bir sıra simvollar sistemi tərtib edilir. Başqa sözlə desək, tədqiq olunan dilin müəyyən səviyyəsinin hərtərəfli təsvirini vermək məqsədi ilə bir neçə dilin diqqəti cəlb edən cəhətləri etalon kimi götürülür. Dilçilik tarixində Yakobson dillərin fonoloji səviyyəsini təsvir etmək üçün xüsusi etalon irəli sürmüşdür.

Tədqiqatın metodikası. Bütün sahələrdə olduğu kimi, tipoloji tədqiqatlarda da yüksək elmi nailiyyətlər işin düzgün metodikası ilə bağlıdır. Tipoloji tədqiqatın metodikası ilə əlaqədar mübahisə doğuran, dəqiqləşdirilməsi vacib olan məsələlər az deyildir. Bunlardan bir neçəsinə fikir verək.

1. Tədqiqatın məqsədi aydın olmalıdır. *Məqsəd aydınlığı* hər bir tədqiqat üçün vacib olduğu kimi, universali kəşfində də işin başlıca cəhətidir. Universali məsələləri içərisində universali axtarmaq, *müəyyənləşdirmək metodikası* ilə yanaşı, ikinci bir məsələ – universalinin *mahiyyətini açmaq* məsələsi vardır. Bu hər iki məsələnin məqsəd və vəzifələri eyni deyildir. Deməli, tədqiqatçı bunları bir-biri ilə qarışdırmamalıdır.
2. Məsələləri ayrı-ayrı, yoxsa kompleks həll etmək? Bu məsələyə dair iki mülahizə vardır. Bəziləri ancaq bir

problemi götürüb, onu ayrıca şərh etməyi məsləhət bilir. Lakin bir qrup tədqiqatçı isə dil hadisələrinin kompleks öyrənilməsini faydalı hesab edir. Deməliyik ki, yolların ancaq biri deyil, hər ikisi tədqiqat üçün gərəklidir. Ona görə də tədqiqatçı bəzi məsələni ayrıca, bəzi məsələləri isə kompleks həll edə bilər. Bu, tədqiqat obyektinin xarakteri və xüsusiyyətləri ilə bağlıdır.

3. Müxtəlif dillərin müqayisə edilməsi metodikası. Dilçilik ədəbiyyatında "müxtəlif dilləri necə müqayisə etmək" sualına tez-tez rast gəlmək olur. Bu sualın qənaətləndirici cavabı hələ verilməmişdir. Tədqiqatlarda məsələyə müxtəlif mövqedən yanaşıldığına rast gəlmək olur.

Bu sahədə tədqiqat metodikasının işlənib hazırlanması müasir dilçiliyin zəruri problemləri cərgəsində dayanmaqdadır.

9.04. DİL UNİVERSALİLƏRİ VƏ DİLÇİLİK TƏDQİQATLARI

Filoloji elm aləmində dil universalisinin tədqiqi və təhlili, onun nəzəri və əməli əhəmiyyəti haqqında bir sıra mübahisəli fikirlər mövcuddur. Bu fikir və düşüncələr arasında subyektiv cəhətlərlə yanaşı, obyektiv mülahizələr daha çoxdur.

a) DİLÇİLİK TƏDQİQATI ÜÇÜN UNİVERSALİNİN ƏHƏMİYYƏTİ

Dövrün sürətlə inkişaf edən ümumi elmi tələblərinə uyğun olaraq dünya dillərindəki universal cəhətlərin öyrənilməsinin dilçilik üçün böyük nəzəri və əməli-tətbiqi əhəmiyyəti vardır.

Nəzəri əhəmiyyəti. Universalilərin öyrənilməsində ən başlıca əhəmiyyətli cəhət *dünya dillərinin təsnifi problemi-*

nin birdəfəlik həll olunmasına xidmət etməkdən ibarətdir. İndiyə kimi dillərin təsnifi mürəkkəb bir problem olaraq qalmaqdadır. Belə ki, hələlik dünya dillərinə dair ümumməqbul hesab edilən təsnif yaradılmamışdır. Mövcud olan təsniflər isə müəyyən mənada bir-birini inkar edir və ya biri digərinə uyğun gəlmir. Misal üçün, dilçilikdə çoxdan meydana çıxmış (XVIII əsrdə) Ural-Altay dillərinin bölgüsü – nəzəriyyəsi əsasında[1] Azərbaycan dilinin aid edildiyi dil qrupu və ailəsinə nəzər yetirək.



Ural-Altay dilləri nəzəriyyəsinə görə, guya, bizim eradan əvvəl ulu "Ural-Altay" dili olmuş, bu dil inkişaf edib sonradan iki böyük qola (Ural və Altay dilləri) ayrılmışdır. Bunun Ural dilləri qolunu fin-uqor və samodi dilləri, Altay dilləri qolunu isə tunqus-mancur, monqol və türk dilləri təşkil etmişdir. Dilimiz bunlardan türk dillərinə aid edilmişdir. Ural-Altay dilləri nəzəriyyəsinin irəli sürdüyü bütün müddəalar mübahisəli hesab olunur. Çünki dil ailələrinin müəyyənləşdirilməsində başlıca meyar olan dil yaxınlığı və qohumluğu, başqa dil ailələrində olduğu kimi, bunlarda yoxdur. Məsələn, hind-Avropa dillərini götürək. Bu ailəyə aid edilən dillər arasında istər leksik-semantik, istərsə də morfoloji-sintaktik qohumluq əlaqələri özünü çox aydın

[1] Ural-Altay dilləri nəzəriyyəsini İsveç alimi Tabbert Stralenberq irəli sürmüşdür.

göstərir. Lakin fin-uqor dilləri ilə türk dilləri arasında belə qohumluq, demək olar ki, müşahidə edilmir. Buna görə də fin-uqor, samodi, tunqus-mancur, monqol və türk dillərinin bir kök dildən meydana gəldiyi düzgün mülahizə deyildir.

Dilçilik elmində müxtəlif bölgülərin yaranmasının başlıca səbəbi bütün dünya dillərinin tam qeydiyyatının aparılmamasıdır. Yer kürəsində mövcud olan dillərin miqdarı dilçilikdə hələ dəqiqləşməmiş qalır. Buna görə də dillərin miqdarına dair müxtəlif rəqəmlərə rast gəlmək olur. Fransa Elmlər Akademiyasının məlumatına görə, bütün dünya xalqları 2796 dildə danışır. Bir sıra əsərlərdə yer üzərində 3000-ə qədər[1], 4000-ə qədər[2] dil olduğu göstərilir. Almaniya Respublikasının informasiyasına görə, hazırda dünya dillərinin miqdarı 5651-ə çatır. Yuneskonun məlumatında isə dünyada 6000-ə qədər dil olduğu qeyd edilir və s.

Beləliklə, deməliyik ki, dünya dillərindəki universalilərin bütövlükdə kəşfi dilçiliyin ən zəruri olan probleminin – dünya dillərinin təsnifinin elmi əsasda hazırlanmasında başlıca amil ola bilər. Bununla yanaşı, universalilərin öyrənilməsi dilçiliyin şöbə və sahələrinin də tədqiqində xüsusi nəzəri əhəmiyyətə malikdir. Xüsusilə dilçiliyin müstəqil şöbələrinin təsviri və tarixi növlərinin, o cümlədən təsviri morfologiyanın, tarixi qrammatikanın və s. daha da dəqiqləşdirilməsi və dərinləşdirilməsinin inkişafında universali kəşfi xüsusi əhəmiyyət kəsb edir.

Tətbiqi əhəmiyyəti. Linqvistik universalilər müxtəlif tip dillərə aid eynicinsli dil hadisələri olduğu üçün onun öyrənilməsinin tətbiqi əhəmiyyəti də az deyildir. Dilçilik tədqiqatında universalilərin praktik əhəmiyyətini aydın təsəvvür etmək üçün bir neçə problemi ötəri də olsa xatırlayaq.

[1] Afad Qurbanov. "Ümumi dilçilik". I hissə, Bakı, 1989, səh.422.
[2] Общее языкознание. Минск, 1983, с.417.

Universalilərin kəşfi, onun sisteminin müəyyənləşdirilməsi *müxtəlif tipli dillərin praktik öyrənilməsində* xüsusi rol oynayır. Ümumi qanunauyğunluqların tədqiqi dil tədrisinin asanlaşmasına da böyük xidmət göstərir. Universali hər hansı bir dilin xəzinəsini mühafizə edən, istər elmi və istərsə də praktik *lüğətlərin tərtibində* faydalı vasitə rolunu oynayır. Universaliləri bilmək lüğətlərin yüksək keyfiyyətdə hazırlanmasında olduqca mötəbər mənbə kimi faydalıdır.

Bütün dünya elmini maraqlandıran paziqrafiyanın ümumi *yazı sisteminin*[1] yaradılmasında da universalilər əhəmiyyətlidir. Yazı tarixinin mütəxəssisləri, eləcə də müasir yazı problemləri ilə maraqlananlar tipoloji tədqiqatın nəticələrindən yan keçə bilməzlər. Əsaslı müddəalar irəli sürmək üçün burada mütləq universalilərə müraciət etmək zərurəti qarşıya çıxır.

b) DİL UNİVERSALİLƏRİNİN TƏDQİQİ SAHƏSİNDƏ VƏZİFƏLƏR

Universali ideyasının dilçilikdə çoxdan meydana çıxmasına baxmayaraq, hələ demək olmaz ki, dil universalisi problemləri tam həll edilmişdir. İndiyə kimi universalinin ən ümumi məsələləri tədqiq olunmamışdır. Bu sahədə qaranlıq qalan, mübahisə doğuran məsələlər də az deyildir. Xüsusilə universali anlayışı universalinin müəyyənləşdirilməsinin başlıca meyarı, universalilərin təbiəti, tərkibi, universali növləri, universalinin tipologiyada yeri və digər bu kimi məsələlər öz elmi dəqiqləşməsini gözləyir. Universaliyə dair mübahisəli məsələlərdən biri də bu sahədəki tədqiqatın metodikası ilə bağlıdır.

[1] *Paziqrafiya* – yunanca *pazi* sözünün vasitəsilə yaranmış termindir. Mənası universal yazı sistemi deməkdir.

Göstərilən problemlərə dair filoloji ədəbiyyatda çox müxtəlif fikirlər vardır. Bu müxtəlifliklər, alimlər arasında gedən ciddi mübahisələr dilçilik elminin inkişafına maneçilik törədir.

Universali problemlərinin elmi əsasda aydınlaşdırılması, çatışmayan cəhətlərə son qoyulması bütün dünya dillərinin tədqiqata cəlb edilməsi ilə bağlıdır. Bütün dünya dillərinin universaliləri dərindən və ətraflı öyrənildikcə dilçiliyin linqvistik nəzəri əsasları daha da tərəqqi edib tamamlanmağa doğru gedəcəkdir.

Azərbaycan dilçiliyində universali və tipoloji paralellər sahəsində tədqiqatlar aparmağa xüsusi əhəmiyyət verilməlidir. Ümumiyyətlə, elmin inkişaf mərhələsində müasir dilçiliyin əsas vəzifəsi (əlbəttə, universali sahəsində) universali axtarışlarını zəiflətməməkdən, buna dair elmi marağı daha da çoxaltmaqdan, universal qanunauyğunluqları sistemləşdirməkdən, universali müəyyənləşdirilməsinin metodikasını təkmilləşdirməkdən ibarətdir.

Qeyd etmək yerinə düşər ki, indiyə kimi kəşf olunmuş universalilər belə bir nəticəyə gəlməyə əsas verir ki, dünya dillərinin hamısı eyni yolla, eyni modellə qurulub meydana gəlmişdir.

* * *

Nəhayət deməliyik ki, bütün dünya dillərinin ümumi cəhətləri eyni qanuna tabedir. Lakin dünya dillərində hələ kəşf olunmamış, elm aləminə məlum olmayan çoxlu ümumi hadisələr, qanunauyğunluqlar vardır. Bunların ətraflı, dəqiq və elmi şəkildə öyrənilməsi *ümumi dilçilik nəzəriyyəsinin* genişləndirilməsi və tərəqqisi üçün olduqca vacibdir.

X FƏSİL

VAHİD ÜMUMDÜNYA DİLİ

ÜMUMBƏŞƏRİ ÜNSİYYƏT VASİTƏSİ PROBLEMİ VƏ ONUN QOYULUŞU

Elmin hər bir sahəsinin zəruri problemləri var. Bu problemlər müxtəlif nəzəri və əməli cəhətlərlə əlaqəli meydana çıxır. Belə problemlərin həllinə müxtəlif mövqelərdən yanaşılır və tədqiqatın ayrı-ayrı üsul və yollarından istifadə olunur. Vahid ümumdünya ünsiyyəti yaratmaq da belə problemlərdəndir.

İNTERLİNQVİSTİKA PROBLEMİ

Umumdünya ünsiyyət vasitəsi, onun yaranması, bu haqda irəli sürülən ideya, mülahizə və fərziyyələrin elmi cəhətdən araşdırılması *dilçiliyin interlinqvistika* problemlərinə aiddir. Bu problem öz mahiyyətinə və əhəmiyyətinə görə müasir baxımdan çox aktuallıq təşkil edib, bütün dünya dilçilik elminin diqqət mərkəzində xüsusi yer tutmaqdadır. İnterlinqvistika probleminin tarixi, onun müasir vəziyyəti, bu sahədəki məqsəd və vəzifələrə dair onlarca elmi-tədqiqat əsəri yazılmışdır[1].

Ümumdünya dili probleminin dilçiliyə aid olmasına baxmayaraq, hələ qədim zamanlardan başlayaraq başqa elm sahələrinin nümayəndələri, o cümlədən interlinqvist filosoflar, sosioloqlar, fiziklər, riyaziyyatçılar, bioloqlar, fizioloqlar, sənətşünaslar, həkimlər, din xadimləri və başqaları da onunla məşğul olmuşlar. İndi də bu problemlə əlaqədar

[1] Bu fəsil hazırlanarkən görkəmli interlinqvist Elmar Svadostun «Как возникает всеобщий язык?» (M., 1968) adlı elmi-tədqiqat əsərindən geniş istifadə edilmişdir.

müxtəlif sahələrin alimləri fəaliyyət göstərməkdədirlər. Lakin burada dilçi mühakiməsi, dilçi sözü həlledicidir.

10.01. ÜMUMBƏŞƏRİ ÜNSİYYƏT ANLAYIŞI

Yer kürəsinin sakinləri – bütün insanlıq təşəkkül tapdığı gündən başlayaraq tarixən minlərlə müxtəlif dildən istifadə etmiş və indi də bu ənənə davam etməkdədir. Dillərin çoxluğu tarix boyu insanlar arasında müxtəlif sahələrdə əlaqələrin yaranmasına imkan verməmiş, ciddi maneçilik törətmişdi. İnsanlar bu çətinlikdən çıxmaq üçün düşünmüş və yollar axtarmışlar. Bunun nəticəsində ictimai tələb, zəruri arzu olaraq *vahid ümumdünya dili yaratmaq ideyası* meydana gəlmiş və bu anlayış formalaşmışdır.

Vahid ümumdünya dili anlayışı geniş əhatəlidir. Ümumdünya dili – ümumbəşəri dil dedikdə hamının – bütün dünya xalqlarının heç bir çətinlik çəkmədən başa düşəcəyi dil nəzərdə tutulur.

Ümumbəşəri ünsiyyət yaratmaq ideyası həm şifahi ümumi ünsiyyətə (interlinqvistika), həm də yazılı ümumi ünsiyyətə (paziqrafiya) aiddir.

İnterlinqvistika məsələlərinə məxsus olan şifahi ümumdünya dili yaratmaq ideyasının tarixi kökləri qədim dövrlərlə bağlıdır. Hələ eradan əvvəl müxtəlif xalqların bir-biri ilə ünsiyyət saxlamalarının çətinliyini hiss edən mütəfəkkirlər cəmiyyətin xoşbəxtliyini, bir növ, vahid dildə danışmaqda görürdülər.



Cədvəl 16.

Qədim farslar bəşəriyyətin bir çox dildə danışmasına insani əlaqələrin inkişafına maneçilik törədən vasitə kimi baxmışlar və onlar çoxdilliliyin yer tanrısı Hörmüzün hökmranlığına qədər davam edəcəyini bildirmişlər. Farslara görə, çoxdillilik aradan çıxandan sonra insanlar xoşbəxt olacaqlar, bütün kainatda bir ölkə və yalnız bir ümumi dil, bir qanun, bir hökumət olacaqdır.

Eramızdan əvvəl IV əsrdə məşhur yunan mütəfəkkiri Platon (Əflatun) insanların çoxdilli olmasından şikayətlənmiş, bu işdə tanrıları günahlandırmışdır. O deyirdi ki, əgər tanrılar insanlara bu qədər *çox dil əvəzinə bircə dil* vermiş olsaydılar, onda böyük xeyirxahlıq etmiş olardılar. Ümumbəşəri dil problemi orta əsrlərdə unudulmamış, maraqlı sosial hadisə kimi diqqəti yenə də cəlb etmişdi. XI əsrdə belə bir dil ideyasını Şeyx Məhyəddin müdafiə etmişdi. Məlumatlara görə, ərəb Şeyx Məhyəddin qəbilələrarası – xalqlararası dil sistemi hazırlamış və onun tətbiqinə çalışmışdı.

XVI əsrin görkəmli alimi Xuan Luis Vives (1492–1540) ümumi dil ideyasının tərəfdarı olmuş və onu təbliğ edib həyata keçirməyə böyük səy göstərmişdi. Bu məqsədlə o, yazmışdı: "Əgər bütün xalqların istifadə edə biləcəyi vahid dil mövcud olsa idi, onda xoşbəxtlik üz verərdi"[1].

İrəli sürülmüş bu elmi və sosial problemin həlli ilə dövrünün yüzlərlə qabaqcıl adamı məşğul olmuşdur. Ümumdünya dili probleminə dair istər xüsusi linqvistik ədəbiyyatda, istərsə də dolayısı ilə bəhs olunmuş başqa elm sahələrinə aid əsərlərdə tarixən xeyli layihə, təklif, nəzəriyyə meydana gəlmişdir. Ümumdil ideya və anlayışı ilə əlaqədar bir sıra yaxın və ya fərqli mənaya malik terminlər işlədilmişdir: *ümumi dil, bəşəri dil, ümumdünya dili,*

[1] Bax: Е.К.Дрезен. «Проблема международного языка на текущем этапе его развития». М., 1932, с.8.

dünya dili, beynəlxalq dili, beynəlmiləl dil, köməkçi beynəlxalq dil, universal dil, vahid cəmiyyət dili, planetimizin dili, ümumi elm dili, beynəlxalq elm dili və s. Bütün dünyanı bir dildə danışdırmaq ideyası ilə yanaşı, insanlar arasında iqtisadi, siyasi, elmi və mədəni əlaqələrin yaradılmasını asanlaşdırmaq üçün *beynəlxalq əlifba, ümumi durğu işarələri, universal rəqəmlər formalaşdırmaq* – ümumiyyətlə, bütün xalqların istifadə edə biləcəyi vahid yazı sistemi yaratmaq kimi problemlər də diqqəti cəlb etmişdir. Ümumi yazı sistemi kəşfi paziqrafiya problemlərinə aiddir.

Paziqrafiya problemlərinin tarixi də uzaq keçmişlə bağlıdır. Hələ eramızın II əsrində ümumi yazı dilinin kəşfi ilə Klavdi Qalen məşğul olmuşdu. O, Rim imperiyasının ən böyük şəhəri olan Perqamda 130-cu ildə dünyaya gəlmişdi. Öz dövrünün mütəfəkkiri, görkəmli həkimi olan bu şəxsiyyətin fəaliyyət dairəsi çox geniş olmuşdur. Onu maraqlandıran məsələlərdən biri bütün ölkələr və xalqlar üçün beynəlxalq yazı dili yaratmaq idi. Bu məqsədlə o, işarələr sistemi hazırlamışdı. Qalenin ümumi yazı üçün hazırladığı işarələr bir sıra ölkə və xalqlar üçün nəzərdə tutulmuşdu. Bu işarələr sisteminin qüsurları vaxtında göstərilmiş, düzəliş və islahat tələb edilmişdir.

Vahid ümumdünya yazılı ünsiyyət üçün XIII əsrdə filosof-paziqraf Raymond Lull (1234–1315) xüsusi yazı işarələri sistemi yaratmış və ondan istifadə etmək üçün yollar müəyyənləşdirmişdi. Bu işarələr sisteminin tərəfdarları onun təbliğinə cəhd etmişlər.

Dünyada mövcud olan əlifba müxtəlifliyini aradan götürmək üçün XIII əsrdən başlayaraq daha çox iş görülməyə başlanılmışdı. Ümumi əlifbaya dair 1657-ci ildə Londonda Keyv Bekin (Vesk) əsəri dərc olunmuşdu. O deyirdi: "Ümumi əlifba, onun vasitəsilə bütün millətlər bir-birinin fikrini başa düşə bilərlər". Bekin məqsədi bütün xalqların

oxuyub bir-birini başa düşə biləcəyi işarələr sistemi yaratmaq idi. O bu məqsədlə latın hərflərindən və ərəb rəqəmlərindən istifadə etmişdir.

XVIII əsrdə ümumi yazı məsələsi ciddi şəkildə nəzərləri özünə çəkmişdi. 1788-ci ildə alim De Ria ümumdünya əlifbasına dair layihə hazırlamışdı. Bu əlifba universal səciyyəli olub, bütün dünya dillərindəki yazıları əks etdirməyə imkan verirdi. 1797-ci ildə fransız ədəbiyyatşünası Jozef de Memenin (1753–1820) "Paris paziqrafiyası" çap olunmuşdu. Memenin əlifbası 12 qammadan (işarədən) ibarətdi:

1	2	3	4	5	6
—,	~,	χ,	ϒ,		
		γ,	λ,	*f*,	/.
7	8	9	10	11	12

Cədvəl 17.

Memenin əlifbası (17-ci cədvəl) çox sadədir. Burada az miqdar xətdən istifadə edilmiş, bəzi hərflər isə istiqamətini, yönünü dəyişməklə düzəldilmişdir. Məsələn, 4-cü işarə ilə 9-cu, 5-ci işarə ilə 8-ci, 6-cı işarə ilə 7-ci bir-birindən ancaq istiqamətinin dəyişdirilməsi ilə fərqlənir.

Meme yaratdığı əlifbada əsas işarələrlə yanaşı, diakritik işarələrdən də istifadə etmişdi. Müəllif əlifba paziqrafiyasının ümumi prinsiplərini, onun konkret qaydalarını da aydınlaşdırmağa xüsusi yer vermişdi. Memenin paziqrafik sistemi öz dövründə çox geniş yayılmışdı. Bu yazı sistemində sözlər 3, 4 və 5 işarə ilə əks olunurdu. Ümumiyyətlə götürüldükdə, sözlər daha çox 3 hərflə, işarə ilə göstərilirdi.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində ümumi əlifba məsələsi ilə yanaşı, ümumi rəqəmlər ideyası da maraq doğurmuşdu. Görkəmli alman dilçisi İohani Fater (1771–1826) bütün dünya üçün ümumi rəqəmlər hazırlamışdı. Onun rəqəmlər paziqrafiyası dövrün zəruri problemi kimi qiymətləndirilmişdi.

1877-ci ildə d-r Damm tərəfindən yaradılmış paziqrafiya sistemi çap edilmişdi. Bu yazı sistemi 100 əsas işarədən ibarət idi. Hər bir işarə 40 anlayış ifadə edə bilirdi. Paziqrafiya problemlərinə dair son dövrdə də onlarca fikir irəli sürülmüş, layihələr tərtib edilmiş və elmi tədqiqat işləri meydana gəlmişdi. Yazılı ümumdünya ünsiyyət vasitəsi anlayışını ifadə etmək üçün universal *yazı, vahid yazı sistemi, beynəlxalq əlifba, dünya əlifbası, universal əlifba, vahid rəqəmlər sistemi, ümumi durğu işarələri* və s. terminlərdən istifadə olunmuşdur.



Cədvəl 18.

Ümumdünya ünsiyyət vasitəsi anlayışının tərkib hissəsi olan interlinqvistika ilə paziqrafiya məsələləri bir-biri ilə vəhdət təşkil edir. Buna görə də bir sıra elmi əsərlərdə, layihələrdə bu problemlərin hər ikisindən bəhs olunur. Yəni dil haqqında layihə verilində yeni əlifbanın da quruluşu göstərilir. Məsələn, Esperanto dilində olduğu kimi.

PROBLEMİN QOYULUŞU

Ümumdünya dili problemi olduqca məsuliyyətli və mürəkkəbdir. Bu problemin qoyuluşunda bir sıra müxtəliflik, anlaşılmazlıq və ziddiyyətlər olmuşdur. Bir qrup alim insanlıq üçün ümumdünya dili yaratmağın zəruri olduğunu bildirmiş, digərləri isə belə bir dilə ehtiyac olmadığını göstərmişlər.

Ümumdil ideyasına zidd olanlar bir sıra dəlillərlə öz mövqelərini əsaslandırmağa çalışmışlar:

1. Ümumdilin lazım olmadığını bildirənlər bir ümumi dillə bütün dünya dillərində danışanların fikrini ifadə edə biləcək dilin mövcudluğuna inanmırdılar.
2. Bəzi alimlər sübut etmək istəyirdilər ki, əgər ümumdünya dili yaransa, bu dil az vaxtdan sonra yerli diferensiasiyaya məruz qalar, hədsiz dərəcədə dialekt yaranar, böyük anlaşılmazlıq baş verər.
3. Bir çox alimlər, o cümlədən İtaliya tədqiqatçıları belə bir fikir irəli sürmüşlər ki, əgər hər kəs 6-7 dil öyrənsə, bütün dünya xalqlarını anlaya bilər və bununla da ümumdünya dili yaratmağa ehtiyac qalmaz.

Bu sonuncu dəlil haqqında onu demək yerinə düşər ki, yaşadığımız dövrdə elmi informasiyalar toplamaq üçün hər bir elmi işçiyə bir çox dilə müraciət etmək tələb olunur. Get-gedə bu dillərin də miqdarı artır. Belə ki, əgər bir neçə il bundan əvvəl ingilis, fransız, alman, italyan və ispan dili ilə geniş beynəlxalq informasiya almaq mümkün olurdusa, indi həmin dillərin köməyi ilə bütün dünya elmindən tam məlumat almaq qeyri-mümkündür. Bununla belə, hətta elə dil var ki, onun sahibinin elmi kəşfləri öz sərhədlərindən kənara çıxa bilmir. Bu cür çətinlikləri aradan qaldırmaq üçün ümumdünya dilinə olan ehtiyac özünü aydın göstərir.

Ümumdünya dilinin əleyhdarları çox dil bilməklə dünya arenasından dil baryerinin götürülməsini mümkün hesab edərkən bir vacib məsələni unutmuşlar. Yadda saxlanılmalıdır ki, çox dil öyrənmək hamıya nəsib olan keyfiyyət deyildir. Dünyada əsl poliqlotların – çox dil bilənlərin sayı olduqca azdır.

İnterlinqvistika tarixindən məlum olduğu kimi, ümumdünya dili yaratmaq ideyasının tərəfdarları daha çox olmuş, lakin bu dilin mövqeyi, məqsəd və vəzifələrinə münasibət məsələsində fikir ayrılığı meydana çıxmışdı.

Ümumdünya dili yaratmaq ideyası tərəfdarlarının fikir və təkliflərini dörd yerə bölmək olar:

1) Bir qrup interlinqvist ümumdünya dili dedikdə *bütün cəmiyyət* üçün vahid dil nəzərdə tutmuşlar. Bu növ dil hamı üçün aydın və anlaşıqlı olub, bəşəriyyətin şifahi ünsiyyət tələblərinin ödənilməsində yeganə vasitəyə çevrilməlidir.
2) Bəzi alimlər ümumdünya dilinin hamı üçün yox, müəyyən sənət, peşə sahəsində fəaliyyət göstərənlərə aid hazırlanmasını bildirmişlər. Məşhur fransız məntiqşünası Lui Kutyura (1868–1914) qeyd edirdi ki, belə dil müxtəlif dillərdə danışan *alimlərin, sənayeçilərin, turistlərin, kommersantların* ünsiyyətini asanlaşdırmağa kömək etməlidir. Görkəmli Amerika psixoloqu E.L.Terndayk da ümumdünya dilini hamının yox, biznesmenlərin, diplomatların, teleqraf işçilərinin istifadəsi üçün lazım bilirdi.

   Yuxarıda adıçəkilən ixtisaslar insan fəaliyyətinin az bir hissəsini təşkil etdiyinə görə cəmiyyəti tam əhatə etmir. Ümumi dil kiçikdən böyüyə, fəhlədən alimə qədər sənətindən, peşəsindən asılı olmayaraq, hamıya gərəkdir.
3) Bir qrup mütəxəssis ancaq elm *üçün vahid dünya dilinin* yaradılmasını məsləhət bilmişdir. "Vahid elm dili" nəzəriyyəsinin tərəfdarları ümumi dil problemini ancaq elmlə məhdudlaşdırmış, elm üçün vahid dil, universal kod yaratmağı zəruri saymışlar. Bu nəzəriyyə də birtərəflidir. Belə ki, ümumi dil cəmiyyət üçün nəzərdə tutulsa, hər yerdə, o cümlədən elmdə, bədii ədəbiyyatda, məişətdə və bütün fəaliyyət sahələrində vahid ünsiyyət, ümumi anlaşma əldə edilə bilər.
4) Ümumdünya dili ilə əlaqədar fikirlər arasında iki ümumdünya dili yaratmaq ideyası da vardır. Bu fikri irəli atanlar bir ümumdilin Qərbi Avropa dillə-

rinin materialları üzərində, digər dilin isə qeyri-Avropa dilləri əsasında qurulmasını məsləhət bilmişlər. Bu dillər sonra bir-birilə mübarizə edib, biri qalib gələrək ümumdünya dili hüququ qazana bilər. Belə iki ümumdünya dili yaratmaq lüzumsuz təklifdir.

Vahid ümumdünya dili ideyasının reallaşdırılması və inkişafı ilə əlaqədar külli miqdarda mülahizə, təklif və elmi-praktik görüşlər irəli sürülmüşdür.

Ümumdil yaratmaq məsələsindən bəhs olunarkən belə bir *dilin mərhələlərlə* əmələ gələ biləcəyi fikri də meydana çıxmışdır. Ümumdünya dilinə keçid prosesinin iki mərhələsi göstərilmişdir:

1) Köməkçi vahid ümumdünya dili mərhələsi;

2) Əvəzedici vahid ümumdünya dili mərhələsi.

Ümumünsiyyət probleminin bu iki mərhələsini birbiri ilə qarışdırmaq olmaz. Bunlar iki müxtəlif istiqamətli, ardıcıl, iki cür ümumi dildir. Bu istiqamətlərdə yaranan dilin hər birinin öz sərhədi, məqsəd və vəzifələri vardır. Birinci mərhələdəki beynəlxalq köməkçi ümumi dil – bu dil dünyadakı kəşfləri, elmi nailiyyətləri yaymaq, təbliğ etmək, bütün xalqların malına çevirmək, xalqlararası əlaqə yaratmaq məqsədi daşıyır. Bu növ dilin *köməkçi xarakterdə* olması başlıca şərtdir. Belə dil ana dili ilə yanaşı işlənib, ona köməkçi rolunu yerinə yetirir.

İkinci mərhələdə xalqlar üçün vahid ümumi dil formalaşdırmaq məqsədi isə yalnız elmin təbliği yox, bütün xalqlar arasında ümumi ünsiyyət vasitəsi olub, iqtisadi, siyasi və mədəni əlaqələrə xidmət etməkdir. Bu növ dil *əvəzetmə xarakterlidir.*

Hər iki növ ümumi dilin xarakterik əlamətləri onların bir problem kimi eyniləşdirilməsinə heç cür yol vermir. Bunlar müstəqil problemlər kimi təsəvvür və təbliğ olunmalıdır.

Birinci problem köməkçi ümumi dil yaratmaq *müasir məsələdir*, indiki zamanda elm, mədəniyyət və texnikanın sürətli inkişafının zəruri tələblərinin nəticəsidir. İkinci problem – ümumbəşəri dil yaratmaq, ondan istifadə etmək cəmiyyət tarixinin vacib və unudulmaz problemi olub *uzaq gələcəklə* bağlıdır.

Məsələnin qoyuluşu və onun tarixi haqqında elmi-nəzəri dünya ədəbiyyatında ümumünsiyyət probleminin həlli imkanlarına dair aşağıda iki başlıca yol göstərilir:

1. Süni dil yaratmaq yolu ilə;
2. Təbii dillərdən birini seçmək yolu ilə.

Bu yolların hər ikisi haqqında, onların mənbə və vasitələrinə dair bir çox mülahizə söylənilmiş, elmi konsepsiyalar, praktik cümlələr irəli sürülmüşdür.

10.02. ÜMUMBƏŞƏRİ DİLİN ƏSASI

Ümumdünya dilinin əsası nə ola bilər? İnterlinqvistikada bu suala bir çox cavab verilmişdir. Hər şeydən əvvəl deməliyik ki, ümumbəşəri ünsiyyət vasitəsi mövcud dillər və ya dil materialları əsasında yaradıla bilərmi? Belə bir dilin əsasını müxtəlif tipli, müxtəlif quruluşlu minlərcə dünya dilinin sözləri, qrammatik qayda və formaları təşkil etməlidir. Başqa şəkildə desək, ümumdünya dili ancaq ünsiyyət vasitəsi hüququ qazanmış müstəqil dillərə əsaslana bilər.

İnterlinqvistika tarixində ümumdünya dilinin əsası haqqında iki fikir mövcuddur:

a) Bəzi dilçilər ümumdünya dilinin müxtəlif milli dillər əsasında yarana biləcəyini göstərmişlər[1].

b) Bir qrup alim isə ümumdünya dilinin süni dil əsasında yaranacağı fikrini irəli sürmüşdür.

[1] А.А.Реформатский. «Введение в языкознание». М., 1967, с.524.

TƏBİİ VƏ SÜNİ DİL

Dünya dilləri etnik cəhətinə, xarakter, quruluş, yaranma və istifadə olunmasına görə bir-birindən fərqlənir.

Mövcud şifahi ünsiyyət vasitələri – dillər iki yerə bölünür: a) təbii dillər; b) süni dillər.

Təbii dil anlayışım müəyyənləşdirmək üçün əvvəlcə "təbii" sözünün mənasına nəzər yetirək. *"Təbii"* sözü "Azərbaycan dilinin izahlı lüğəti"ndə yeddi mənada şərh olunur. Bunun beşinci mənası bizi daha çox maraqlandırır. Orada deyilir: *"Təbii – həqiqi, əsl, natural* (süninin əksi)"[1].

Deməli, "təbii" anlayışı təbiətlə, natura ilə bağlıdır. Təbii dil termini də buradan əmələ gəlmişdir. Dilçilikdə təbii dil termini ilə yanaşı, sinonim kimi *milli dil, etnik dil* terminlərinin də işlədildiyinə rast gəlmək olur. Təbii dillər xalq tərəfindən yaranmış və formalaşmışdır. Hər bir təbii dil uzun tarixi prosesin nəticəsidir. Təbii dillər insanların ictimai tələblərini ödəmək məqsədi ilə meydana gəlir və onu yaradanlar arasında ünsiyyətə xidmət edir. Buna görə də, bizcə, təbii dil termini ilə yanaşı, *xalq dili termini* də işlətmək məqsədəuyğun olar.

Təbii dillər zəngin ifadə vasitələrinə malik olub, insan həyatının bütün fəaliyyət sahələrini əhatə edir. Süni dil nədir? Əlbəttə, burada da "süni" sözünün ifadə etdiyi mənadan başlamaq lazımdır. Lüğətdə bu sözün iki mənası verilir: 1. *Təbii deyil*, insan əli ilə düzəldilmiş, əslində olduğu kimi düzəldilmiş; 2. *Saxta, uydurma, qeyri-səmimi*[2].

Süni sözünün birinci mənası müsbətdir. Məsələn, insan əli ilə süni göl, yaxud süni dərə yaradıldıqda burada müsbət məna ifadə edilir. Süni dil də belə müsbət mənada

[1] Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, 1987.
[2] Yenə orada.

götürülməlidir. Lakin bəzi dilçilər süni dil dedikdə, *süni* sözünün mənfi mənasını əsas götürüb, belə dili qondarma, həqiqi olmayan adlandırırlar. Süni dil qısa müddətdə bir şəxs və ya bir qrup adam tərəfindən yaradılmış ünsiyyət vasitəsidir. Hər cür süni dil linqvistik modelləşdirmə adlanır. Unutmamalıyıq ki, dilyaratma prosesində istər süni (linqvistik modelləşdirmə), istərsə də təbii dil arasında fərq olmur. Hər iki dil növü eyni qayda-qanunlar əsasında yaranıb formalaşır.

Hər bir süni dil mövcud təbii dillər üzərində meydana gəlir. Dilçilər arasında süni dil haqqında vahid fikir yoxdur. Bəzi alimlər süni dili vətənsiz adlandırıb, onu təkmilləşməmiş dil hesab edirlər.

Dilçilikdə *süni dil* ilə yanaşı, *sünilik* anlayışı da mövcuddur. Süni və sünilik sözləri bir çox məna ifadə edir. Bütün dillər nəzərdən keçirildikdə dil süniliyi müxtəlif dərəcədə özünü göstərir. Ermar Svadost dillərdəki süniliyi dərəcəsinə görə beş qrupa bölür[1].

Təbii dil və süni dil termin və anlayışlarına müxtəlif münasibət mövcuddur. Dilçilikdə bəzi alimlər "süni dil" termininin əleyhinə olmuşlar. E.Sepir bu terminin işlədilməsinin əksinə çıxış edib, onun psixoloji və tarixi cəhətdən özünü doğrultmadığını göstərirdi. Avropanın bir qrup dilçisi bu termini qeyri-dəqiq hesab edib, ondan əl çəkməyi, əvəzinə başqasını işlətməyi məsləhət bilirdi. Ayrı-ayrı dövrlərin dilçi alimləri süni dil anlayışını müxtəlif şəkildə başa düşmüşlər. Bir qrup dilçi bütün ədəbi dilləri süni adlandırmışdır. Görkəmli dilçi Boduen de Kurtene deyirdi: "Əsasən həmişə ədəbi dil süni yaranır". Akademik A.A.Şaxmatov dildəki hər növ normalaşdırmanı süni hesab etmişdi. Akademik Marr deyirdi: "Dünyada natural

[1] Bax: Э.Свадост. «Как возникает всеобщий язык?» М., 1968, с.219.

dil yoxdur, bütün dillər sünidir, hamısı insanlıq tərəfindən yaradılmışdır”[1].

Bəzi dilçilər təbii və süni dillər arasında sərhəd olmadığını bildirirdilər. Huqo Şuxardta görə: “Süni dillər çox, yaxud az təbiidir, təbii dillər çox, yaxud az sünidir”.

10.03. SÜNİ DİL ƏSASINDA ÜMUMDÜNYA DİLİ YARATMAQ

Vahid ümumdünya ünsiyyəti probleminin bu istiqamətdə həllinin bir sıra zəruri cəhətləri vardır. Burada süni dil anlayışına münasibət, süni dillərin xarakteri, yaranma tarixi, miqdarı, yayılması və sair məsələlər nəzərdən keçirildikdə problemin mahiyyəti daha aydın təsəvvür olunur.

1. SÜNİ DİL İDEYASINA MÜNASİBƏT

Ümumi dil kimi süni dil yaratmaq ideyası meydana çıxandan sonra heç də hər yerdə onu müdafiə etməmişlər. Bunun lehinə olanlarla bərabər əleyhdarları da olmuşdu. Tarixən bu iki mövqedə dayananlar arasında mübahisələr davam etmişdi. Süni dil yaratmaq və ondan ümumi ünsiyyət vasitəsi kimi istifadə etmək meyli XIX əsrdə çox güclü olmuşdur.

Süni dil əsasında ümumdünya dili yaratmaq tərəfdarları belə bir dili mövcud dillər nümunəsində və onların materialları əsasında qurmağı məsləhət bilirdilər. M.Müller süni dil ideyasını müdafiə edib yazırdı: “Süni dil yaratmaq təbii dildə danışmağa adət etmiş insanlar üçün çətin deyildir... Belə süni dil hər hansı bir təbii dildən daha düz-

[1] Н.Я.Марр. «Общий курс учения о языке». Избранные труды. Т.2, с.25.

gün, daha təkmilləşmiş olar və insanlar tərəfindən öyrənilər". Görkəmli ingilis filosof və psixoloqu Herbert Spenser (1820-1903) yazırdı: "Mən təsəvvür edirəm ki, bir süni dilin ümumdünyada istifadə edilməsi mümkündür və zəruridir". Görkəmli dilçilərdən Huqo Şuxardt, Boduen de Kurtene, Antuan Meye, Eduard Sepir, Otto Yespersen süni dil yaratmağın tərəfdarları idilər. Süni dil ideyasını dünyanın bir çox böyük yazıçıları, o cümlədən Anri Barbüs, Herbert Uells, Lev Tolstoy, Bernard Şou, Romen Rollan, Lui Sin, Epton Sinkler və başqaları da müdafiə etmişlər. Süni dil tərəfdarları bu dilin müvəffəqiyyətini onun asan olması, tez mənimsənilə bilməsi ilə ölçürdülər. XIX əsrin sonu, XX əsrin əvvəllərində süni dil məsələsinin müzakirəsi ciddi hal almışdı. Bir qrup alim süni dili pisləmiş, varlığının qeyri-mümkünlüyünü sübuta yetirməyə çalışmışdı.

Süni dil ideyasının qatı əleyhdarlarından biri G.Meyer olmuşdu. O, belə bir ideyanı lüzumsuz bilib, süni dilin yaranması, yayılması və geniş istifadə oluna biləcəyini ağlasığmaz bir hadisə hesab etmişdir. Onun fikrinə görə, dil xalq tərəfindən yaranır, ayrı-ayrı adamlar dil yarada bilməz.

XX əsrin əvvəllərində süni dil problemi daha böyük mübahisəyə səbəb olmuşdu. O dövrün məşhur alman alimləri Karl Bruqman və Avqust Leskin 1907-ci ildə "Süni beynəlxalq dillərin tənqidinə dair" adlı əsər çap etdirmişlər[1]. Bu əsərdə bəşəri dil problemi xarakterizə edilmiş, süni dillə dünya dili yaratmaq ideyası məqsədəuyğun sayılmamışdır. Müəlliflər mövcud süni dilləri geniş təhlil edib əsaslı qiymət vermişlər.

Süni dili necə yaratmalı? Bu sual ətrafında da mübahisələr getmiş, müxtəlif baxışlar meydana gəlmişdir. Bütün interlinqvistlər süni dilin ancaq müasir və ölü təbii

[1] Bax: K.Brugman und A.Zeskien. "Zur kritik der kunsllichen Weltsrarachen". Slrassburg, 1907.

dillərin materialları əsasında yaradılması fikrini müdafiə etmişlər. Qondarma, saxta dil yaratmaq mümkün deyil və əgər buna cəhd edən olsa, o, məqsədinə heç cür nail ola bilməz. Süni dil yaradılarkən mövcud dillərdən biri və ya müəyyən dil qrupu nümunə götürülür və onların leksik və qrammatik materiallarından istifadə edilir.

Süni dilin yaradılmasına dair iki fikir vardır:

a) Süni dili ancaq Avropa dilləri üzərində qurmaq;

b) Bütün dünya dillərinin materiallarına əsaslanmaq.

Birinci fikrin tərəfdarları müqayisə əsasında hansı layihənin daha çox Avropa ruhlu olduğunu müəyyən etməyə çalışırdılar. A.Qoud bildirirdi ki, onun iştirakı ilə hazırlanan İnterlinqva layihəsi başqalarına nisbətən daha çox Avropa əsaslıdır. A.Qoud süni dil tərtibində Avropa mövqeyini qızğın müdafiə edib bu növ dilin nəinki Avropa dilləri materialları əsasında, hətta Avropa təfəkkürü üzərində qurulmasını zəruri tələb hesab edirdi. Bu mülahizə tərəfdarları öz görüşləri ilə məsuliyyətli sosial problemin həll edilməsi yolunda ciddi səhvə yol vermişlər. Belə ki, ümumbəşəri dilin materialı ancaq Qərbin və ya Şərqin dili olmamalı, burada bütün dünyadakı dillərin ünsürləri nəzərə alınmalıdır. İndiyə kimi hazırlanmış süni dillərdə ancaq aşağıdakı dillərin materiallarından istifadə olunmuşdur:

Qərbi Avropanın əsas dillərindən – *latın, ingilis, fransız, alman dili.*

Asiyanın üç başlıca dilindən – **çin, yapon, handu.** Bunlardan başqa, Loqlen süni dil layihəsində ərəb dilindən də istifadə edilmişdi.

Süni dilin istifadə dairəsi. Süni dil məsələlərindən bəhs olunarkən bu növ dilin istifadə dairəsi və onun vəzifələri də müzakirəyə cəlb edilmişdi. İnterlinqvistlərin bəziləri süni dildən ancaq elmi məlumat, elmi əlaqə üçün

istifadə edilməsini məsləhət bilmişlər. Digərləri isə bütün insani fəaliyyət sahələrində bu dilin işlədilməsi tərəfdarı olmuşlar. Süni dillərdən Volyəpük, esperanto və başqa dillərin hər yerdə işlənməsi, o cümlədən bu dillərdə bədii əsərlərin yazılması, tərcümələr və s. ikinci fikri təsdiq etmişdi.

Bəzi alimlər süni dilin ancaq Avropa üçün lazım olduğunu bildirmişlər. Süni oksidental dili Qərb dili kimi yaranmışdı. Bu dildən bəhs edən Otto Yespersen bunun ancaq Avropada istifadə edilməsi üçün meydana çıxdığını müəyyən etmişdi. Amerika dilçisi Eduard Sepir ümumdilin yalnız Avropada istifadə edilə biləcəyi fikrini pisləmiş, bunun bütün dünya üçün lazım olduğunu göstərmişdi. Fransız dilçisi Andre Martine də bu növ dilin hamı üçün, o cümlədən Şərq üçün zəruri olduğunu əsaslandırmışdı.

Süni dillərin növləri. Süni dillərin forma, məzmun və vəzifələrinə dair müxtəlif baxışlar mövcuddur. Bəzi interlinqvistlər süni dil dedikdə, yalnız təbii dillərin materialları əsasında hazırlanmış dilləri nəzərə almışlar. Süni dil anlayışını geniş mənada götürüb, təbii dillərdən əlavə ünsiyyət üçün meydana çıxan hər cür layihəni, işarələr sistemini, kodu və s. nəzərdə tutmaq lazımdır.

Süni dillər kütləvi ünsiyyət vasitəsi ola bilməsi baxımından iki növə bölünür:

a) Şifahi ünsiyyət – danışıq dili kimi istifadə oluna bilən dillər. Məsələn, *esperanto, ido.*

b) Danışıq dilinə, şifahi ünsiyyətə çevrilə bilməyən dillər. Bunlar informasiya işarələri sistemi olub, riyaziyyat, fizika, kimya, kibernetika, hesablayıcı, texnikada elmi informasiyanın dəqiq və yığcam ifadəsinə kömək məqsədi daşıyır. *Kibernetika dili, maşın dili, riyazi dillər* – kodlar bu növ dillərdən hesab edilir.

2. MÖVCUD SÜNİ DİL LAYİHƏLƏRİ VƏ ONLARIN TARİXİ

Linqvistik modelləşdirmə (süni dil) layihələri yaradılmasının uzun və zəngin tarixi vardır[1]. Uzaq keçmişdən başlamış əsrlər boyu müxtəlif ölkələrdə yüzlərlə süni dil layihəsi meydana çıxmışdır.

Süni dil probleminin tarixinə ayrı-ayrı dövrlər üzrə xronoloji əsasda nəzər salındıqda aydın mənzərə yaranır, elmi baxışlar, münasibətlər və istiqamətlər obyektiv müəyyənləşir.

Qədim dövrlərdə. Süni dil ideyası ümumdünya dili yaratmaqla bağlıdır. İstər eramızdan əvvəl, istərsə də sonra – eramızın V əsrinə qədər süni dillə bağlı bir sıra baxışlar, layihə rüşeymləri meydana gəlmiş, müəyyən təcrübə toplanmağa başlanılmışdı. Əlbəttə, bu rüşeymləri tam süni dil layihələri hesab etmək olmazdı. Lakin dil layihələri yaratmaq sahəsində ilk və məqsədli addımlar idi.

Orta əsrlərdə. Tarixin bu bölməsində də bütün dünya xalqları üçün ümumvahid dil yaratmaq böyük arzu olmuşdu. Orta əsrlər sxolastika ilə səciyyələnməsinə baxmayaraq, VII əsrdə İngiltərədə süni dil yaratmaq və ondan dünya miqyasında istifadə etmək fikri irəli sürülmüşdür.

İntibah dövründə. Bu dövrdə (XVI–XVII əsrlərdə) ümumdünya dili problemi ilə proqressiv fikirli alimlər, xüsusi olaraq leksikoqraflar, maarifçilər və dövlət xadimləri daha çox məşğul olmuşlar. XVII əsrdə Cənubi Amerikada İosif de Ankieto və Manue de Veqa süni köməkçi dil yaradıb onun geniş lüğətini və qrammatikasını hazırlamışdılar. Bu dil bir sıra sahələrdə istifadə edilmiş, ünsiyyət vasitəsi

[1] Əlavə məlumat almaq üçün Elmar Svadostun adı çəkilən əsərinə baxmaq olar. O, 1968-ci ilə kimi bu problemin tarixini ətraflı araşdırmış, ümumiləşmələr vermişdi. Bundan əlavə, E.A.Boqarev, O.S.Axmanova, V.V.İranov, A.S.Superanskaya və başqaları da maraqlı əsərlər yazmışlar.

rolunu yerinə yetirmişdi. Xüsusilə, ispan missionerləri öz fəaliyyətlərində bu dildən geniş istifadə etmişlər. XVI əsrin məşhur ispan maarifçisi və filosofu Xuan Lune Vives (1492–1540) ümumdilə dair layihə hazırlamışdır. Onun layihəsi *asan mənimsənilmək prinsipi* əsasında qurulmuşdu. Əsrin bir çox alim və mütəfəkkirləri də süni dil layihəsi hazırlamış və onun əhəmiyyətindən bəhs etmişlər.

XVII əsr öz mündəricə və mahiyyətinə görə cəmiyyətin elmi və mədəni inkişafında xüsusi əhəmiyyətə malikdir. Bu əsrdə dünya mütəfəkkirlərinin ictimai-fəlsəfi görüşləri yeni-yeni ideyaların meydana çıxmasında mühüm əsas təşkil edirdi. Dünyada ilk dəfə olaraq İngiltərədə (Londonda) və Fransada (Parisdə) Elmlər Akademiyasının yaradılması da bu illərin əvəzsiz nailiyyətləri idi. Böyük elmi mərkəz kimi akademiyalar dövrün elmi qüvvələrini birləşdirib, meydana çıxan elmi ideya və müddəaların müzakirə və təbliğində əhəmiyyətli rol oynayırdı. Belə bir şəraitdə süni dil məsələsi də xüsusi vüsət almışdı. İngiltərədə, Fransada, Almaniyada və eləcə də İtaliyada dil yaratmaq məsələsi elmi şəkildə işlənilməyə başlanılmışdı.

XVII əsr elm dünyasının ən məşhur nümayəndələrindən biri kimi tanınmış ingilis alimi Frensis Bekon (1561–1626) süni dil yaratmağa xüsusi meyil göstərmişdi. Bekon qrammatikanı iki cür (ədəbi qrammatika və fəlsəfi qrammatika) təsəvvür edirdi. O deyirdi ki, qrammatikanın ədəbi növü mövcud ədəbi dilləri öyrənməyə, digəri fəlsəfi növü isə süni universal dil yaratmağa xidmət etməlidir. Bekona görə, süni ümumi dil mövcud dillərdəki nöqsanlardan azad, hamı üçün aydın və asan istifadə edilən bir dil olmalıdır.

Süni dil yaratmağa meyil get-gedə artır, onun tərəfdarları çoxalırdı. 1610-cu ildə məşhur italyan alimi Tommazo Kampanella "Fəlsəfi qrammatika" adlı kitab yazmışdı. O,

burada bütün dillər üçün vahid qrammatika yaratmaq fikrini əsaslandırmış, süni dilin əhəmiyyətini göstərmişdi.

XVII əsrin I yarısında geniş miqyasda tanınmış fransız filosof və riyaziyyatçısı Rene Dekart (1596–1650) universal dil yaratmağı çox yüksək qiymətləndirirdi. O bu məqsədlə 1969-cu ildə 6 dilin materialı əsasında süni ümumi dil layihəsi hazırlayıb ictimaiyyətə təqdim etmişdi. Bu süni dilin sxemində məntiqi dil ideyası əsas yer tutur.

Dekart süni universal dil haqqında özündən əvvəlki fikirlərə tənqidi yanaşıb şəxsi mülahizələrini, dilin fonem sistemindən başqa, onun leksika və qrammatikasına dair məntiqi əsasda filoloji mülahizələr irəli sürmüşdü. Dekartı, hər şeydən əvvəl, cəmiyyət üçün məqbul sayıla bilən hərtərəfli təkmilləşdirilmiş ümumi dil düşündürürdü. O, belə bir dili bütün bəşəriyyət üçün çox zəruri hesab edirdi.

XVII əsrin I yarısında beynəlxalq ünsiyyət vasitəsi problemi ilə böyük çex pedaqoqu Yan Amos Komenski də (1592–1670) maraqlanmışdı. O, 1641-ci ildə yazdığı "İşığa doğru yol" adlı əsərində deyirdi: "Dünyanın ümumi dilə ehtiyacı var". Komenski İngiltərədə olarkən ümumi dilə dair oradakı layihələrlə tanış olmuş və özü yeni bir layihə hazırlamaq fikrinə gəlmişdi.

Komenskinin süni ümumi dil hiqqında konsepsiyası belə idi: – Dil sadə, aydın və yığcam olmalı. Komenski süni dilin lüğət tərkibi üçün az söz götürüb onu morfoloji sözyaratma üsulu ilə genişləndirməyi əsas prinsip hesab edirdi. O özü belə dil üçün əsası latın mənşəli 200 söz seçmiş və onlardan yeni-yeni leksik vahidlər yaratmışdı. Məsələn, "danışmaq" mənasını bildirən *"lal"* sözünün əvvəlinə *"i"* ünsürü artırmaqla *"ilal"* sözü əmələ gətirmişdi ki, mənası *"çağırmaq"* deməkdir. Komenski mövcud dillərdəki çətinliyi, xüsusilə çoxmənalılığı tənqid etmiş, süni dildə buna yer verməməyi tələb etmişdi. Dillərin qrammatika quruluşun-

dakı ağırlıq, mürəkkəblik də onun nəzərindən qaçmamışdı. Komenski qrammatik formalar, kateqoriyalar üçün ən yığcam və yararlı vasitələr axtarmışdı.

XVII əsrin ortalarından süni dilə dair onlarca layihə və təklif meydana çıxmışdır. 1653-cü ildə Tomas Urkxartın (1611–1660) süni dil haqqında mülahizə və təklifləri dərc olunmuşdu. Urkxart burada dilin lüğət tərkibinin tərtibi prinsiplərinə, nitq hissələri və qrammatik formalarına dair öz fikrini bildirmişdir.

XVII əsrdə süni dil məsələləri ilə təkcə alimlər deyil, müxtəlif sahələrin əməkdaşları, o cümlədən din xadimləri və başqaları da məşğul olmuşlar. Əsrin məşhur ingilis keşişi Con Uilkins (1614–1672) süni dil probleminə xüsusi əhəmiyyət vermişdi. O, 1668-ci ildə süni dil layihəsi hazırlamış, bu dil məsələlərinə dair elmi və maraqlı oçerklər çap etdirmişdi. Con Uilkinsin linqvistik mülahizələri həm İngiltərə və həm də xarici alimlərin böyük marağına səbəb olmuşdu.

Con Uilkins söz köklərinin əvvəlinə (prefiks) və sonuna (postfiks) şəkilçi artırmaqla yeni sözlər yaratmağı münasib dil prosesi hesab etmişdi. Məsələn, "ruh" mənasını bildirən "dab" sözünün əvvəlinə "o" prefiksi artırmaqla "odab" sözü əmələ gətirilmişdir ki, bunun da mənası "bədən" deməkdir. Müəyyən məlumatlara görə, keşiş Con yaratdığı süni dillə dostları və yoldaşları ilə ünsiyyətdə olmuşdu. O, belə bir nəticəyə gəlmişdir ki, bütün dillərdən fərqli, hamının istifadə edə biləcəyi bir dil yaratmaq olar və bu, cəmiyyət üçün çox zəruridir.

XVII əsrin II yarısında süni dil ideyasının möhkəm tərəfdarlarından biri görkəmli ingilis fiziki İsaak Nyuton (1643–1723) olmuşdur. O, hələ universitetin tələbəsi ikən 1662-ci ildə "Ümumdünya dili" adlı süni dil layihəsi hazırlamışdı. Onun layihəsi ingilis dili əsasında qurulmuşdu.

Nyuton ümumdilə dair lüğət tərtib edib, orada sözləri anlayışlara uyğun təsnif etmişdi. İsaak Nyuton heç bir dildə olmayan tam yeni prinsiplərlə bir söz kökündən neçə-neçə söz yaratmağa meyil göstərmiş və onun nümunələrini vermişdir. Məsələn, *tol* (tol) söz kökünə (rəssam deməkdir) müəyyən ünsürlər artırmaqla bu sözdən təxminən II yeni məna verən (*tolr* – rəsm, *tolk* – şəkil kağızı, *tolg* – tamamlanmış rəsm əsəri və s.) söz düzəltmişdi. Alimin istər "Ümumdünya dili" adlı əlyazmasında, istərsə də tələbəlik illərindən qalmış dəftər qeydlərində ümumi dilə dair bir çox elmi fikirləri vardır. Nyuton gələcək dil üçün universal əlifba da tərtib etmişdi.

XVII əsrin sonu, XVIII əsrin əvvəllərində görkəmli alman alimi Qotfrid Vilhelm Leybnits (1646-1716) süni universal dil məsələləri ilə 20 il məşğul olmuşdu. O, 19 yaşında ikən süni dil üzərində düşünmüş, maraqlı nəzəri mülahizələr irəli sürmüşdü.

Filosof dilçi kimi Leybnits ümumi dilə dair layihə yaratmışdı. Onun 1704-cti ildə yazdığı "İnsan düşüncəsinə dair yeni təcrübə" adlı əsərinin 3-cü hissəsi dilin fəlsəfi məsələlərinə həsr olunmuşdu. Burada o, "təkmilləşməmiş sözlər" başlığı altında dildəki sözlərin insan fikrini ifadə etməklə qeyri-dəqiq olan və eləcə də çoxmənalılıq göstərən sözlər prosesini tənqid edir. Leybnits layihəni öz yeni konsepsiyasına uyğun qurmuşdu. O, dildə iki əsas söz qrupu müəyyən etmişdi: *ad və feil.*

Leybnitsin layihəsində leksik vahidlər şəkilçilər vasitəsilə yaradılır. Onun bu sahədəki görüşləri indi də öz qiymətini itirməmişdir.

Leybnits dünyada ümumi dilin yaranacağına böyük inam bəsləyirdi. O, belə bir dilin yaradılmasını təxirəsalınmaz bir ictimai hadisə hesab edirdi.

XVIII əsrdə süni dil problemi diqqəti daha çox cəlb etmişdi. Süni dil yaratmağa Fransa maarifçiləri xeyli əmək

və vaxt sərf etmişdilər. Əsrin görkəmli Fransa alimi Volter (1694-1778) bütün xalqlar üçün eyni dil üzərində əvəzsiz iş aparmışdı. O deyirdi ki, xalqların müxtəlif dillərdə danışması cəmiyyətin ən böyük bədbəxtliyidir.

Süni ümumdünya dili ideyası XVIII əsrin ortalarında bütün Avropanın qabaqcıl ölkələrində diqqət mərkəzində olmuşdu. 1794-cü ildə Delormel süni dünya dilinə dair layihə hazırlamışdı. Onun məqsədi bütün xalqları, millətləri birləşdirmək idi. O deyirdi ki, ümumdünya dili milli dilləri əvəz etməlidir. Hər kəs öz dilində danışmalıdır.

Görkəmli fizik Andre Mari Amper (1775-1836) gənc yaşlarında süni dil problemi ilə maraqlanmışdı. Hələ 18 yaşında olarkən özünün süni məntiqi dilə dair layihəsini yaratmışdı. O, yaratdığı dildə bir neçə şeir yazmışdı. Ümumiyyətlə, XVIII əsrin sonlarında 60-a yaxın süni dil layihəsi meydana gəlmişdi.

Yeni dövrdə. Bu dövr (XIX əsr) öz mahiyyət və məzmunicəsinə görə başqa dövrlərdən əsaslı şəkildə fərqlənir. Bu illərdə elm və texnikanın, ədəbiyyat və incəsənətin, sənayenin inkişafı insanlar arasında əlaqələrin yaranmasını və daha da möhkəmlənməsini tələb edirdi. Belə bir ictimai-siyasi şəraitdə ümumi ünsiyyət vasitəsinə ehtiyac çoxalır, tələb artırdı. Buna görə də dövrün qabaqcıl adamları, elm və mədəniyyət xadimləri süni ümumi dilə dair əməli işlər görür, yeni-yeni süni dil layihələri yaradıb cəmiyyətin müzakirəsinə təqdim edirdilər.

Solresol dili. Bu süni dili 1817-ci ildə Fransa alimi Jan Fransua Südr (1787-1862) yaratmışdı. Dilin adı musiqi notlarının adından götürülmüşdü. Solresol dilinin layihəsi mücərrəd sxem əsasında hazırlanmışdı.

Solresol dili 7 musiqi notu (*do, re, mi, fa, sol, lya, si*) üzərində qurulmuşdu. Bu notlar hərf və heca bildirir. Notlarla sözlər aşağıdakı kimi yaradılmışdı.

İsim: *do+re+mi – doremi – gün*
do+re+sol – doresol – ay

Əvəzlik: *do+re+ – dore – mən*
do+mi – domi – sən

Fel: *sol+lya+si – sollyasi – qaldırmaq*
sol+lya+sol – solyasol – endirmək

Bu qaydada müəllif solresol dili üçün 11,725 söz tərtib etmişdi. Bunlardan yeddisi birhecalı, qırx doqquzu ikihecalı, üç yüz otuz altısı üçhecalı, iki min iki yüz altmış səkkizi dördhecalı, doqquz min yetmiş ikisi beşhecalıdır.

Solresol dili çox qəribədir. Bu dilin sözləri həm hərflə, həm də ərəb rəqəmləri ilə (1–7) yazıla bilir.

Solresol dilinin layihəsi Fransada böyük elmi hadisə hesab edilib, ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdi. Layihə 1851-ci ildə Parisdə keçirilmiş beynəlxalq sərgidə mükafata layiq görülmüşdü. 1862-ci ildə isə Londonda təşkil olunmuş beynəlxalq sərgidə fəxri medal verilmişdi. Viktor Hüqo bu süni dili dövrü üçün əlamətdar hadisə adlandırıb, ondan geniş istifadə edilməsini məsləhət bilmişdi.

Süni dil məsələsində maarif işçiləri kənarda qalmamışlar. XIX əsrin məşhur ritorika müəllimi Letele (Letelier) təxminən 15 il ümumdünya dili layihəsi üzərində çalışmışdı. Letele ümumi ünsiyyət üçün süni dil yaratmağı vacib bilirdi.

Letelenin hazırladığı süni dilin özünə aid xüsusiyyətləri vardır. Bu layihədə sait səslərin qısa və uzun tələffüzü məna fərqləndirici keyfiyyətlərə malikdir. O, bir söz kökünə (e), (i), (o) fonemlərini artırmaq və uzun tələffüz etməklə yeni sözlər yaratmışdı. Məsələn:

ege — ata	*egē — ana*
egi — oğul	*egī — qız*
ego — qardaş	*egō — bacı* və s.

Göründüyü kimi, birinci cərgədə "eg" söz kökünə müxtəlif sait artırmaqla üç yeni söz əmələ gətirmişdi. Həmçinin üçüncü cərgədə həmin sözlərdə saitlərin uzun tələffüzü ilə üç yeni məna ifadə edilmişdi. Bu layihə çox mürəkkəb səciyyəli olduğu üçün ciddi tənqidə məruz qalmışdı.

Avropanın digər ölkələrində də süni dil yaratmaq diqqəti çəkirdi. O cümlədən, ispaniyalı məşhur elm xadimi Oçando süni dilə dair maraqlı layihə yaratmışdı. Onun layihəsi 1852-ci ildə Madrid şəhərində dərc edilmişdi. Oçan-donun layihəsi maraqla qarşılanmasına baxmayaraq bəzi çatışmayan əlamətlərinə görə geniş yayıla bilməmişdi.

XIX əsrdə süni dil problemi ayrı-ayrı şəxslərin fəaliyyətindən başqa elmi cəmiyyətlərdə, o cümlədən dilçilik cəmiyyətlərində də xüsusi olaraq müzakirə obyektinə çevrilmişdi. 1855-ci ildə Parisdə keçirilən beynəlxalq dilçilik cəmiyyətində filosof interlinqvist Şarl Renuve "XIX əsrin süni ümumi dili" mövzusunda məruzə etmişdi. O, dünya dili üçün mövcud layihələrdə *həddindən çox olan süniliyi* pisləmişdi.

Filosof Şarl Renuvenin təklifi ilə beynəlxalq dil komitəsi yaradılmışdı. Bu komitənin vəzifəsi beynəlxalq süni dil yaratmağın əsaslarını hazırlamaq, onun meydana çıxması və formalaşmasının praktik yollarını işləməkdən ibarət idi. Ümumi süni dil yaratmağa dair dil komitəsində müxtəlif baxışlar, mülahizələr olmuşdu.

Lakin əksəriyyətin fikri belə idi: "Süni ümumi dil elmi xarakter daşımalı, eyni zamanda aydın, sadə, asan, rasional, məntiqi, fəlsəfi, zəngin, ahəngdar, elastiki və gələcəkdə təkmilləşməyə qadir olmalı".

Dil komitəsi süni dil yaratmaq sahəsində xeyli fəaliyyət göstərmiş, dünya alimləri ilə əlaqə yaratmış, fikir mübadiləsi və s. təşkil etmişdi. Dilçilik cəmiyyətinin elmi məclislərində mövcud ispan alimi Oçandonun süni dil layihəsi nisbətən müsbət qiymətləndirilmişdi.

XIX əsrin II yarısında süni dil yaratmaq ideyası görkəmli ingilis alimi Maks Müllerin də (1823–1900) diqqətini cəlb etmişdi. Hər şeydən əvvəl, bu alim süni ümumi dil yaratmaq ideyasını möhkəm müdafiə etmişdi. O deyirdi: "Ümumi dil yaratmaq əgər praktik cəhətdən zəruri olmasa, nəzəri cəhətdən son dərəcə vacibdir. Belə bir dil yaransa, təbii dillərin tədqiqi və öyrənilməsi asanlaşar".

Universalqlot dili. Fransız J.Pirro "Universalqlot" adlı süni dil layihəsi hazırlamış və onu 1868-ci ildə dərc etdirmişdi. Universalqlot bir sıra linqvistik prinsiplər üzərində qurulmuşdu. Bunlardan dilin lüğət tərkibinə aid olanlara nəzər yetirək.

Dilin leksik tərkibinə məxsus prinsiplərə görə:

a) Sözlər uydurulmamalı, canlı dildən götürülməli;

b) Sözlər qısa və aydın olmalı;

c) Sözlər asan tələffüz edilməli.

Bu prinsiplərə görə J.Pirro yaratdığı süni dilin lüğət tərkibi üçün daha çox latın dilindən sözlər – leksik vahidlər seçib işlətmişdi.

XIX əsrin sonunda maraqlı və diqqəti daha çox cəlb edən bir sıra süni dil meydana gəlmişdi. Bu illərdə xüsusilə *"Volyəpük"* və *"Esperanto"* süni dilləri ictimaiyyəti daha çox maraqlandırmışdı. Həmin dillərin hər ikisi haqqında aşağıda "Geniş yayılmış süni dillər" başlığı altında ayrıca və ətraflı bəhs olunur.

Ümumiyyətlə, XIX əsrdə süni ümumdünya dili məsələsi çox ciddi şəkil almışdı. Bütün əsr boyu tez-tez mətbuatda süni ümumdünya dili probleminə dair məqalələr

dərc olunmuş, yeni-yeni fikirlər irəli sürülmüşdü. Problemi daha da dəqiqləşdirmək məqsədi ilə "beynəlmiləl dil", "beynəlxalq dil", "köməkçi ümumi dil" terminlərindən geniş istifadə edilmişdi.

Müasir dövrdə. XX əsrdə vahid ümumdünya dilinin reallığı xüsusi olaraq diqqəti cəlb etmiş və buna görə də bütün dünyanın elm və mədəniyyət nümayəndələri arasında bu ideya çox geniş yayılmışdı. Bu əsrdə ümumdil məsələsinə bütün beynəlxalq ictimaiyyət cəlb edilmişdi. Ümumdünya dili problemi ilə filoloqlarla yanaşı, tarixçi, iqtisadçı, fizik, riyaziyyatçı, mədəniyyət xadimləri, yazıçılar və başqaları da fəal məşğul olmuşlar.

1900-cü ildən başlayaraq ümumdünya dili problemini həll etmək üçün bir sıra tədbirlər həyata keçirilməyə başlanmışdı. Bu ildə ümumdilə dair kimin nə fikri olduğunu bilmək üçün müraciətlər edilmişdi. Bu müraciətləri hazırlayanlardan biri Fransa riyaziyyatçısı Leopold Lo idi. Onun 1900-cü ildə "Ümumdünya dili mümkündürmü?" adlı əsəri də çap edilmişdi.

XX əsrdə həm ümumdünya dili problemi işlənilir, həm də bu problemin tarixi öyrənilirdi. 1903-cü ildə məşhur ümumdünya dili ideyası tarixçiləri Lui Kutyura və Leopold Lo "Ümumdünya dilinin tarixi" adlı əsər çap etdirmişlər. Bu əsər ümumdünya dili ideyasının tarixinin təhlili və şərhinə dair yüksək səviyyəli tədqiqat işidir.

Neutral dili. Bu süni dilin layihəsi 1902-ci ildə nəşr edilmişdi. Onun əsas müəllifi V.Rozenberqer idi.

Neutral dilinin lüğət tərkibi Avropa dillərinin materialı əsasında təşkil edilmişdi. Bu dilin I layihəsinin leksik sistemi 9000 söz kökündən ibarətdir.

V.Rozenberqer yaratdığı dilin morfoloji quruluşu üçün təbii dillərə müraciət etmişdi. Onun qrammatikasında sözdüzəldici şəkilçilərin miqdarı 50-dən artıq olmamışdı.

Neutral dili qüsursuz deyildi. Buna görə də müəllif onun üzərində islahat və təkmilləşmə işi aparıb layihənin II variantını hazırlamışdı. Bu dil özündən əvvəlkilərə nisbətən asan olmasına və təkmilləşməsinə baxmayaraq yaşamaq hüququ qazana bilməmişdi.

Ro dili. Amerikalı Eduard Foster ümumdünya dili üçün ro adlı süni dil layihəsi hazırlamış və bunu ilk dəfə 1906-cı ildə çap etdirmişdi. Başqa bir sıra süni ümumdil layihələrində olduğu kimi, burada da hər bir hərf simvol xarakterlidir. Leksik tərkibi təşkil edən sözlər aşağıdakı prinsip əsasında yaradılmışdı:

ba – *əşya*	–	ba+b – *ünsür*
bed – *qaz*	–	bed+af – *buğ*
cid – *çox*	–	cid+no – *az*
bicam – *hava*	–	bical – *iqlim* və s.

Göründüyü kimi, bəzi sözlərə bir və ya iki hərf artırmaqla, bəzi sözlərdə isə bir hərfin başqası ilə əvəz edilməsi əsasında eyni söz kökü əsasında müxtəlif mənalar ifadə edilmişdir.

Ro dilinin yayılması və istifadə edilməsi ilə geniş məşğul olunmuşdu. 1920-ci ildə "Roca-ingiliscə lüğət" nəşr edilmiş, haqqında məqalələr, kitablar yazılmışdı. 40-45 il bu dillə məşğul olanlar məqsədlərinə çata bilməmiş, dil geniş istifadə olunmamış, get-gedə unudulmuşdu. Bunun başlıca səbəblərindən biri leksik vahidlərin süni düzəldilməsi, uydurulmuş sözlərin olması idi. Qlobako, unilinqva dili də ro dili xarakterli idi. Bu dillər subyektiv olduğu üçün yayılmamışdı.

İdo dili. Bu süni dilin layihəsi 1907-ci ildə Esperantonun variantı kimi meydana çıxmışdı. Layihəni fransız filoloqu Lui de Bofron həkim Zamenqofun layihəsi əsasın-

da hazırlamışdı. Süni ido dilinin adı esperantoca – *nəsil, gələcək nəsil* deməkdir. İdo dilinin lüğət tərkibi Avropa mənşəli sözlərdən ibarət idi. Bu dildə müxtəlif vəzifəli şəkilçilər 20-dən çox deyil.

İdo dilinin xeyli tərəfdarı olmuşdu. Xüsusilə kimyaçı Vilhelm Ostvald, riyaziyyatçı Cüzeppe Peano, professor L.Pfaundler bu layihəni ciddi müdafiə etmişlər. V.Ostvald aldığı Nobel mükafatının böyük hissəsini ido dilinin təbliğinə sərf etmişdi. Bunun əsasında ido layihəsi müxtəlif ölkələrin 12 jurnalında çapdan çıxır. Dilin öyrənilməsi üçün dərnəklər təşkil edilir, buraya xüsusi müəllimlər dəvət olunur. İdo dilinin layihəsində çatışmayan, mübahisəyə səbəb ola bilən məsələlər də özünü göstərirdi. 1908-ci ildə bunun üzərində islahat aparılıb, düzəlişlər edilir. 1909-cu ildə ido dilinin tərəfdarları ittifaq yaradırlar. Bu ittifaqa bir çox ölkədən nümayəndə daxil edilir. İdo dilinin ittifaqı müəyyən məsələlərə dair bir neçə dəfə konqres və konfranslar da keçirmişdir.

Bütün dünyada ido dilindən 200-dən artıq adam istifadə etmişdi. Bu dildən ən çox Fransada 51 nəfər, Almaniyada 23 nəfər, İspaniyada 21 nəfər istifadə etmişdir.

Bu dilin ciddi təkmilləşdirilməsinə baxmayaraq, tərəfdarları arasında həmrəylik olmadığı üçün yayılmamış və köhnəlib sıradan çıxmışdır.

Neo dili. Süni ümumdünya dili yaratmaq məqsədi ilə hazırlanmış dillərdən biri də neo dilidir. Bu dil də esperanto tipli idi. Neo dilinin tərəfdarları çox az olduğu üçün onun layihəsi yayıla bilməmişdi.

Parla dili. Bu süni dil layihəsinin müəllifi interlinqvist Karl Şpitserdir. Müəllif layihəni yaradarkən başqalarından fərqli olaraq, dildə yığcamlıq prinsipini hər şeydən üstün tutmuşdu. Bu zəruri keyfiyyətinə baxmayaraq, parla dili yayıla bilməmişdi.

Oksidental dili. 1922-ci ildə eston interlinqvisti Edqar de Val "Oksidental" adlı süni dil layihəsi hazırlamışdı. Oksidental "Qərb dili" deməkdir. Bu süni dil ancaq Qərbdə istifadə olunmaq üçün yaradılmışdı. Oksidentalın əsasını Qərbi Avropa dillərinə aid beynəlxalq leksika təşkil edirdi. Bu dilin layihəsində linqvistik tələblər kifayət səviyyədə nəzərə alınmadığı üçün tez parlayıb, tez də sönmüşdü.

Mediol dili. 1922-ci ildə meydana çıxmış bu süni dil layihəsinin müəllifi İ.Veysbartdır. Mediol dili Avropa dilləri üzərində qurulmuşdu. Mediol dilinin lüğət tərkibinin yaradılmasında istifadə olunan prinsiplər başqalarından fərqlənirdi. İki və artıq Avropa mənşəli sözdən bir anlayışı bildirən leksem yaratmaq prinsipi ancaq bu dilə xasdır.

Novial dili. Bu dilin layihəsi 1928-ci ildə ictimaiyyətə təqdim olunmuşdu. Süni novial dilinin layihəsi Kopenhagen Universitetinin professoru Otto Yespersenin rəhbərliyi ilə hazırlanmışdı. Layihə ingilis dili materialları əsasında qurulmuşdu. Peşəkar dilçilərin hazırlamasına baxmayaraq, ciddi qüsurları olduğu üçün novial dili ünsiyyət vasitəsinə çevrilə bilməmişdi.

İnterlinqva dili. 1951-ci ildə *interlinqva* adlı süni ümumdil layihəsi çap edilmişdi. Bu layihəni XX əsrin məşhur dilçilərindən E.Sepir, J.Vandriyes, N.Trubetskoy, O.Yespersen və A.Martine yaratmışdı. İnterlinqva iki latın sözündən əmələ gəlib *inter* – "inter" beynəlxalq, *lin-qua* "lingua" dil mənasını bildirir. Bu süni dilin lüğət tərkibinə müxtəlif Avropa dillərindən sözlər daxil edilmişdi. Qrammatik quruluşu isə ancaq latın dili əsasında yaradılmışdı. İnterlinqva bir sıra konfranslarda, elmi məclislərdə ingilis və fransız dilləri ilə bərabər işlədilmişdi. Xüsusilə tibb konfranslarında interlinqvaca məruzələr dinlənilmiş, müzakirələr aparılmışdı. İnterlinqva dilindən müxtəlif sahələr üzrə bir çox əsər çap edilmişdi. Bundan əlavə, elmi jurnal-

larda ingilis və s. dillərdə çap edilən məqalələrə interlinqvaca xülasələr verilmişdi.

İnterlinqva süni dilindən ən çox ABŞ-da istifadə edilmişdi. Buna görə də interlinqva bir çox hallarda Amerika süni dili də adlanır. Bu süni dil yayıla bilməmişdi.

Loqlan dili. Bu süni dilin layihəsi 1960-cı ildə nəşr olunmuşdu. Layihəni amerikalı psixoloq C.Braun tərtib etmişdi.

Professor Braunun hazırladığı "loqlan" layihəsi çox geniş müzakirə olunmuş, bir çox yeni-yeni təkliflər irəli sürülmüşdü. Braun bu dilin lüğət tərkibi üçün bir sıra milli dildən söz götürmüşdü. Lakin müzakirələrdə həmin dillərlə kifayətlənməyib ingilis, fransız, ərəb, alman dili ilə yanaşı, ispan, rus, hindu, yapon və çin dillərinə də müraciət edib, leksik vahid götürməyi zəruri hesab edirdi. Bu dillər müxtəlif sistemli olduğu üçün sözseçmə qaydaları olduqca çətinləşir və dilin ağırlaşmasına səbəb olurdu. Müzakirələrdə bir qrup alim yuxarıda göstərilən dillərlə kifayətlənməyib "loqlan"ın lüğət tərkibinə bütün dillərdən söz götürməyi tövsiyə edirdi. Bu tövsiyəyə əməl edilsə, süni dilin leksikası son dərəcə genişlənər və onun öyrənilməsi qeyri-mümkün olardı. Dilin lüğət tərkibinin təşkili ilə əlaqədar belə bir qəribə təklif də var idi. O da "loqlan" üçün söz seçib götürəndə hər bir xalqın sayının nəzərə alınması şərti idi. Məsələn, dünyada ingilis, çin dilində danışan əhali çox olduğu üçün çox söz götürmək, özbək, qazax, gürcü, çex, bolqar əhalisi az olduğu üçün az söz götürmək. Bu cür təklif heç də dilin xeyrinə olmamış, əksinə, onu daha da qəlizləşdirmişdi. Bu cəhətlərinə görə "loqlan" dili geniş yayılıb ümumi ünsiyyət vasitəsinə çevrilə bilməmişdi.

Alqol dili. 1960-cı ildə alqol adlı süni dil layihəsi yaradılmışdı. Bu dilin layihəsi Parisdə keçirilən beynəlxalq konfransda müzakirə edilib qəbul olunmuşdu.

Alqol simvolik süni dildir. Bu, şifahi ünsiyyət üçün deyildir. Buna görə də burada latın hərflərindən, ərəb rəqəmlərindən, simvolik işarələrdən istifadə olunur. Alqol süni dili elmi məqsəd daşıyır. Bu dil elektron hesablama maşınları üçün alqoritm və proqramlar hazırlanmasında tədqiqatçıların köməyinə gəlir.

Linkos dili. Linkos iki latın sözündən (linqva+kos-mos) əmələ gəlmişdi. Mənası "kosmos dili", "kosmik dil" deməkdir. Bu süni dil məsələsi ilə ilk dəfə holland alimi Qans Froydental məşğul olmuşdu. Onun 1961-ci ildə "Linkos" adlı kitabı çap edilmişdi. Bu əsərdə problemin bir çox cəhətləri aşkar edilmişdi. Linkos süni dilinin yaradılmasının məqsədi başqa planetlərin sakinləri ilə ünsiyyət saxlamaqdan ibarətdir. İndiyə qədərki elm aləmində başqa planetlərdə insan olduğu haqda məlumat verilməmişdi. Lakin insan tək deyildir. Şübhəsiz ki, başqa planetlərdə də insan vardır.

Bəs belədirsə, onda başqa planetin insanları yer üzünün hansı dilini bilirlər? Əlbəttə, heç birini! Məhz bu dil alimləri linkos üzərində düşünməyə, ümumi dil yaratmağa vadar etmişdir. Linkos dili riyaziyyat üzərində qurulmuşdu. Məlumdur ki, maddi aləmin qanunları vahid səciyyəyə malikdir. Buna görə də əgər planetlərin birində düşünən canlı varlıq inkişaf edib, təbiət elmləri, o cümlədən riyaziyyat elmi yaradıbsa, onların riyazi kəşfləri bizim alimlərin əldə etdikləri qanunların eyni olacaqdır. Məhz, bu deyilənlərə görə də kosmik dili ancaq *riyaziyyatın dili* ilə şərh etmək olar.

Lanqdok dili. Bu süni dil 1961-ci ildə ictimaiyyətin müzakirəsinə verilmişdi. Lanqdok süni dil layihəsinin müəllifi R.Taboridir. Onun məqsədi vahid ümumdünya ünsiyyətinə kömək etmək idi.

Boabomo dili. Bu süni dil 1962-ci ildə Yaponiyada meydana çıxmışdı. Süni dil problemi XX əsrdə təkcə Qərbi yox, həm də Şərqi düşündürürdü. Dövrün ümumdünya

dili tələbi əsasında yaranan bu süni dili yaponiyalı F.Okamoto irəli sürmüşdü.

Nebula dili. Bu süni dilin adı dörd sözün ixtisarından (Natural Electronic Business Language) əmələ gəlmişdi. Nebula süni dilinin vəzifəsi ticarət və kargüzarlıq hesablamalarını qeydə almaq üçündür. Bu növ dillər şifahi ünsiyyət məqsədi daşımır.

Maşın dili. "Maşın dili" anlayışı çox genişdir. Maşın dili dedikdə, kodla yerinə yetirilən proses təsəvvür olunur. Buna görə də maşın vasitəsilə alman bütün informasiyalar *maşın dili* adlanır. Burada hər cür informasiya deyil, ancaq insan əqli ilə dərk edilə bilən informasiya nəzərdə tutulur.

Mövcud olan bütün alqoritmik dillər elmi məqsəd daşıyır. Alqoritmik dillərin vəzifəsi hər bir hesablayıcı prosesin təsvirini verməkdən ibarətdir. Alqoritmik məşhur riyaziyyatçı Xarəzminin adının latınca (Algorithmi) formasıdır. Bütün tarix boyu yaranmış süni dillər xarakter və xüsusiyyətlərinə görə eyni deyildir. Belə ki, bəzi süni dillər (ro, unilinqva və s.) qondarma, quraşdırma sözlər əsasında yaradılmış, digər süni dillər isə (esperanto, interlinqva və s.) təbii dillərin materialları əsasında hazırlanmışdı. Dillərin diqqəti cəlb edən əlamətlərini nəzərə alan interlinqvistlər müxtəlif bölgülər aparmışlar. İnterlinqvist E.A.Bokarev süni dilləri 4 tipə bölmüşdür. İnterlinqvistika sahəsində böyük tədqiqatlar aparmış E.K.Drezen bütün süni dil layihələrini 6 yerə bölür:

1. Ümumdünya fəlsəfi layihəsi;
2. Universal yazı layihələri;
3. Bir "təbii" dilin beynəlxalq dil kimi qəbul edilməsi layihələri;
4. "Qarışıq" dil sistemləri layihələri;
5. Ölü və canlı "təbii" dillərin islahı əsasında köməkçi dil yaratmaq layihələri;

6. "Apostorpor" – müasir dillərin beynəlmiləl ünsürləri bazası əsasında hazırlanan layihələr.

Bu bölgüdə ikinci maddə yazılı dilə, qalanları isə şifahi ünsiyyətə aiddir. Məlum həqiqətdir ki, cəmiyyətin inkişafı ilə bağlı bu bölgülərdən sonra bir çox yeni tipli süni dil layihələri meydana gəlmişdi. Bunlara əsaslanaraq verilmiş bölgülərin maddələrini daha da artırmaq olar.

Hazırda bütün dünya səviyyəsində süni dil layihələri yaratmaq prosesi fəal surətdə davam edir. Bu proses, şübhəsiz ki, insanlıq məqsədinə nail olana qədər davam edəcəkdir.

10.04. GENİŞ YAYILMIŞ SÜNİ DİLLƏR

Dünyada ümumünsiyyət vasitəsinə olan ehtiyac ildən-ilə artdığı üçün yüzlərlə müxtəlif məzmunlu, lakin vahid məqsədli süni dil layihəsi meydana gəlmişdi. Bunların miqdarı XX əsrin 60-cı illərində 500 olmuş[1], 70-ci illərdə isə həmin rəqəm 900-ə çatmışdı[2]. Hazırda dünyada 1000-dən artıq süni dil layihəsi mövcuddur.

Süni dil layihələrinin hamısı eyni səviyyədə qarşılanıb, eyni dərəcədə də yayıla bilməmişdi.

Tarixən təqdim olunmuş süni dil layihələrindən ikisi daha çox rəğbətlə qarşılanıb, dünyanın bir sıra ölkələrinə yayılmışdı. Bunlardan biri *Volyəpük* (1880), digəri isə *Esperanto* (1887) dilidir.

1. VOLYƏPÜK *(Wolapük)* DİLİ

Volyəpük interlinqvistika tarixində ilk dəfə olaraq ən geniş yayılmış süni dildir. Bu dilin geniş yayılmasının baş-

[1] Э.Свадост. «Как возникает всеобщий язык?» М., 1968.
[2] М.Исаев. «Язык Эсперанто». М., 1981, с.10.

lıca səbəblərindən biri onun layihəsinin özündən əvvəlki layihələrdən müsbət mənada çox-çox fərqlənməsi idi.

Volyəpük – ümumdünya dili deməkdir. Bu dilin layihəsi 1880-ci ildə nəşr olunmuşdur. Bu layihənin müəllifi *İohann Martin Şleyerdir* (Schleyer, 1831–1912). Şleyer dünya dillərinin bir çoxunun xüsusiyyətlərinə bələd idi. O, 70 dil bilirdi.

Poliqlot – interlinqvist İohann Şleyeri cəmiyyət üçün vahid dil ideyası çox maraqlandırırdı. O, bütün xalqların bir dildə ünsiyyət saxlamaları üçün vahid ümumi dil yaratmaq fikrinə gəldikdən sonra bu sahədə nəzəri və əməli iş aparmağa başlamış, nəticədə arzu etdiyi dilin layihəsini müvəffəqiyyətlə hazırlaya bilmişdi. Bu dilin adı kimi məqsədi də müəllifin özü tərəfindən dəqiq müəyyənləşdirilmişdi. Şleyer aydın təsəvvür edirdi ki, gələcəkdə insanlıq vahid bəşəriyyət kimi formalaşacaqdır. Buna görə də müəllifin ümumi dil haqqında şüarı belə idi: *"Vahid bəşəriyyətə vahid dil"*. Lakin qeyd etməliyik ki, bu dil Şleyerin düşündüyü formada hər yerdə və hamı tərəfindən vahid ümumdünya dili kimi qəbul edilmirdi. Fransızlar bu dili "beynəlmiləl ticarət dili", almanlar isə "anlaşmanın beynəlmiləl vasitəsi" adlandırırdılar. Dövrünün görkəmli alimi Hüqo Şuxardt Volyəpük dilini beynəlxalq köməkçi elm dili kimi qiymətləndirirdi[1].

Volyəpük dili mövcud təbii dillərin nümunəsi və materialları əsasında müxtəlif linqvistik qayda və qanunlara uyğun yaradılmış və bir sıra maraqlı xüsusiyyətlərə malikdir.

Fonetika. Şleyer yaratdığı dilin fonetik sistemini mövcud adi samit və saitlər üzərində qurmuşdu. Lakin bununla bərabər, o, saitlər sisteminə (a), (o), (i) incə saitləri də artırmışdı.

[1] Bax: H.Schuchardt. Auf Anlass des Volapuks. Berlin, 1888.

Volyəpük dilində vurğunun yeri sabitdir. Burada, bir qayda olaraq, vurğu sözün son hecası üzərinə düşür.

Orfoqrafiya. Volyəpük dilində orfoqrafiyanın fonetik prinsipi əsas götürülmüşdür. Fonetik orfoqrafiyaya uyğun olaraq burada hər bir söz deyildiyi kimi yazılır və yazıldığı kimi də oxunur, tələffüz olunur. Məsələn:

lüf – *məhəbbət*,	cif – *rəis*
lüffün – *sevmək*,	son – *oğul* və s.

Leksika. Volyəpük zəngin leksik tərkibə malikdir. Bunun əsasını başlıca olaraq dörd dilin, o cümlədən latın, ingilis, fransız və alman dillərinin söz kökləri təşkil edir. Lakin müəllif leksik sistemin yaradılmasında Avropa dillərinin materialları ilə kifayətlənməmiş, başqa dillərə də müraciət etmişdir.

Sözyaratma. Volyəpük dilində sözyaratmanın müxtəlif yollarına müraciət olunmuşdu. Bununla bərabər, Şleyer lüğət materialları üzərində əməliyyat aparmaq prinsipindən də geniş istifadə etmişdir. Bunlardan bir neçəsinə nəzər yetirək.

a) Çoxhecalı sözləri qısaldıb azhecalı formasına salmaq. Məsələn, *diplome* (diplome) sözünü qısaldıb birhecalı plom (plom), *republigue* (respublika) sözünü blig (blik), *probleme* (probleme) sözünü blem (blem) formasında işlətmişdir.
b) Sözlərin quruluşu, onların səs tərkibini dəyişmək. Məsələn, *Afrika* sözünü dəyişib Filop (Filop), *Amerika* sözünü isə Melop (Melop) formasına salmışdı. Sözlər üzərində aparılan bu cür əməliyyat onları tanınmaz dərəcədə dəyişmiş olurdu.

Qrammatika. Bu dilin qrammatikası məntiqi qanunlar əsasında yaradılmışdı. Lakin Şleyer yaratdığı dilin qram-

matik quruluşuna elə ünsürlər daxil etmiş ki, onlara heç bir təbii dildə təsadüf olunmur. Müəllifin feil formaları və şəkillərinə aid əlavə etdiyi ünsürlərə dildə ehtiyac duyulmadığı üçün lüzumsuz idi. Bunlar ancaq və ancaq dili ağırlaşdırmağa, çətinləşdirməyə gətirib çıxarardı.

Qüsurlarına baxmayaraq, bu dil XIX əsrin axırlarında Avropanın bir sıra ölkələrində geniş şəkildə işlənilirdi. Dünyada bu dilin öyrənilməsi və təlbiği ilə əlaqədar bir çox ölkədə cəmiyyətlər yaranmış və bunların sayı 280-dən artıq olmuşdur. Volyəpük dilini öyrənmək üçün ayrı-ayrı ölkələrdə xüsusi kurslar, dərnəklər təşkil olunmuş, ali və orta məktəblərdə tədris edilmişdir. Müəyyən məlumata görə, bu dilin tədrisi ilə xüsusi hazırlanmış mindən çox müəllim məşğul olmuşdur. Dünyanın müxtəlif yerlərində milyondan artıq adam Volyəpük dilini öyrənmiş və ondan sərbəst istifadə etmişdir. Bununla bərabər, bəzi Avropa ölkələrində, o cümlədən Fransa və İngiltərədə Volyəpük dilində danışıqlar və yazı işləri də aparılmışdır. Dünya şəhərlərinin bir çoxunda Volyəpük dilində 20-dən çox jurnal nəşr olunurdu. Bu jurnallarda ümumdünya dilinin təbliğini gücləndirmək, tərəfdarlarını çoxaltmaq üçün "Ana dilinə heç bir xələl gətirmədən" başlığı altında materiallar dərc edilirdi.

Yer üzünün hər yerinə yayılmış Volyəpük dilinin tədrisi ilə əlaqədar kitab və mətbuat vasitələrindən əlavə bir sıra lüğətlər də dərc olunmuşdu. Bu məqsədlə Çində çap edilmiş "On minlərlə xalqlar üçün lüğət" çox maraqla qarşılanmışdır. Volyəpük dili əsrin rəğbətlə qarşılanan ümumi ünsiyyət vasitəsi olduğu üçün müxtəlif sahələrdə çox geniş istifadə edilirdi. Bir sıra söz sənətkarlarının əsərləri bu dilə tərcümə olunurdu. Bununla bərabər, hətta həmin dildə orijinal şeirlər də yazılırdı. Məsələn:

Ronstanobsüd famikğno!
In balif binom valüd.
Pallfuloms nefıkulo
Fikuls fd Lalül stenğd!

Gücümüzün qüdrətilə,
Möhkəm-möhkəm birləşək!
Əlbir olaq işimizlə
Maneəni dəf edək!

Volyəpük dilinin təbliğinə geniş yer verilirdi. Bu məqsədlə mətbuatda 500-dən artıq rəy dərc edilmişdi. Həmin rəylərdə Volyəpük dilinin bəşəriyyət tarixində əvəzsiz bir hadisə olduğu göstərilirdi. Bir şəxsin dil yaratması və onun yayılıb canlı dilə çevrilməsi, işlədilməsi əsrin möcüzəsi kimi qiymətləndirilirdi.

Volyəpük dilinin yalnız öyrənilməsi və təbliği yox, həm də onun elmi-nəzəri problemləri dövrün ictimaiyyətini düşündürürdü. H.Şuxardt bu dili müdafiə etməklə yanaşı, onun hələ təkmilləşmədiyini göstərirdi. Volyəpük dilinin elmi-nəzəri məsələsinə dair bir neçə dəfə konqres çağırılmış və burada geniş müzakirələr keçirilmişdi. Volyəpük dilinə aid III Ümumdünya konqresi 1889-cu ildə Paris şəhərində təşkil edilmişdi. Konqresin bütün iclasları, yazı işləri və sair Volyəpük dilində aparılmışdı.

Konqresin başlıca məqsədi bu dillə əlaqədar meydana çıxmış ən ciddi məsələləri müzakirə yolu ilə həll etmək idi. Konqresdə Volyəpük dilinin bir çox məsələləri müzakirə obyektinə çevrilmişdi. Burada, hər şeydən əvvəl, dilin elmi əsaslarının işlənilməsi diqqəti daha çox cəlb etmişdi. Paris Ali Ticarət məktəbinin dil tədrisi professoru Avqust Kerkqofs Volyəpük dilinin nəzəri cəhətdən çoxlu qüsurları olduğunu göstərmiş və burada əsaslı islahat aparılmasını

tələb etmişdi. Konqres iştirakçılarının bir çoxu bu dildə dəyişiklik aparılmasına, onun təkmilləşdirilməsinə böyük ehtiyac olduğunu göstərmişdir.

Lakin müəllif – İohann Şleyer özünü interlinqvistika sahəsində əvəzsiz mütəxəssis hesab edib Volyəpük dilində heç bir dəyişikliyə icazə verməmişdi. Müəllifin inadkarlığı, dildəki qüsurlar, yaranmış digər ümumdil layihələri bu dilin get-gedə məhdudlaşmasına, istifadədən çıxmasına səbəb olmuşdu.

İnterlinqvistika tarixində Volyəpük dilinin elmi və praktik əhəmiyyəti az olmamışdı.

a) Hər şeydən əvvəl, bu dil *ümumdil ideyasını* reallaşdırmışdı.
b) Bunun təsirində bir sıra *ümumdünya dili* layihəsi meydana çıxmışdı.
c) Bu dilin geniş yayılması süni dilin *beynəlxalq köməkçi dil rolunda* işlənə biləcəyini göstərmişdi.

2. ESPERANTO (*ESPERANTO*) DİLİ

Esperanto dünyada ən geniş yayılmış süni dildir. Bu dili Lüdviq Lazar Zamenqof (1859–1917) yaratmışdır[1].

Lüdviq Zamenqof Polşanın Belostok şəhərində doğulmuşdur. O, hələ gimnaziyada oxuyarkən süni dil yaratmaq haqqında düşünürdü. Çox keçmir ki, o, ümumdil problemi üzrə layihə hazırlayır. Lakin atası bu layihədən şübhələnir və onu yandırır. Zamenqof tibb institutunun tələbəsi olarkən yenidən süni dil məsələsinə bir də qayıdır və layihə tərtib etməklə məşğul olur. İnstitutu bitirdikdən sonra Varşava şəhərində göz həkimi kimi işə başlayır. Həkim Lüdviq Zamenqof hazırladığı süni dil layihəsi üzərində təkmilləşmə və tamamlama işləri aparıb onu kitabça – dərslik halında çap etdirir. Kitabça belə adlanırdı: Doktor

[1] Bax: Rusca Людвиг Маркович Заменгоф deyilir.

Esperanto (L.Zamenqof). *Beynəlxalq dil* (Lingvo internacia)". Lüdviq Zamenqof *"Esperanto"* sözünü özünə təxəllüs götürmüş və yaratdığı süni dili bu sözlə adlandırmışdı. Mənası *"ümid edən"*, *"ümid etmək"*, *"ümidli olmaq"* deməkdir. L.Zamenqof bu sahədə qalib gələcəyinə, layihənin bəyəniləcəyinə ümid edirdi.

Tarixən süni dil təklif edənlər qabaqcadan öz məqsədlərini müəyyənləşdirmiş və sonra belə bir dil layihəsi yaratmağa başlamışlar. Zamenqof da dil fəaliyyətinə bu qaydada qədəm qoymuşdu. O, irəli sürdüyü dili yaratmağın səbəb və məqsədini izah etmişdi. Onun başlıca məqsədi beynəlxalq köməkçi dil yaratmaq idi. Zamenqofa görə, belə bir dilin vəzifəsi hər xalqın doğma dili ilə yanaşı işlənib bütün xalqların, millətlərin bir-birini başa düşmələrinə xidmət etməkdir.

Lüdviq Zamenqof çox dil bilirdi. Onun poliqlot olması süni dil yaratmaqda xüsusi əhəmiyyət kəsb etmişdi. O, özündən əvvəlki süni dil layihələri və onlar haqqındakı müxtəlifdilli elmi və metodiki ədəbiyyatla tanış olmuş, fikir və mülahizələrə tənqidi yanaşıb düzgün istiqamət götürə bilmişdi. Zamenqof süni dil probleminə praktik cəhətdən əhəmiyyət verirdi. O, həkim kimi yaşadığı ərazidə bir çox millətin nümayəndələri ilə (alman, yəhudi, eston, polyak, litva və s.) ünsiyyətdə olur, onlarda dil fərqlərini və dil baryerini, çətinliyini görürdü. Bu vəziyyət onun süni dil fəaliyyətinə təsir edir, ümumünsiyyət vasitəsi yaratmaq marağını daha da artırırdı.

Lüdviq Zamenqof süni Esperanto dilini müxtəlif Avropa dillərinin materialları əsasında yaratmışdı. Bu dilin quruluşu, onu təşkil edən istər fonetik, istər leksik, istərsə də qrammatik sistem sadə olub məntiqi prinsiplərə əsaslanır. Esperantonun bu keyfiyyətləri təsadüfi deyildir. Müəllif doğru olaraq süni dilin müvəffəqiyyət qazanması üçün

onun asan və sadə olmasını ən başlıca meyar, əvəzsiz keyfiyyət hesab etmişdi. Bu haqda Zamenqof yazırdı: "Mənim başlıca məqsədim dilin asan olması idi. Buna görə də mən qrammatikanı çox sadələşdirdim. Mənim qrammatikamı *yarım saata* öyrənmək olar. Bütövlükdə Esperanto dilini mənimsəməyə *bir neçə gün* kifayət edər"[1].

Esperanto dilinin yaxşı cəhətləri sırasında onun yüksək bədiiliyə və obrazlılığa malik olması da diqqəti xüsusi cəlb edirdi. Deyilənlərdən əlavə, bu dil təkmilləşmə keyfiyyətinə də qadirdir. Buna əsasən də Esperanto zaman-zaman təkmilləşmiş və get-gedə inkişaf edib zənginləşmişdir.

Lüdviq Zamenqof təkcə Esperantonun yaradıcısı yox, həm də onun təbliğatçısı idi. O, öz layihəsinin təbliği ilə ilk gündən məşğul olmağa başlamışdır. Bu məqsədlə dil layihəsini müxtəlif ölkələrin redaksiyalarına, o cümlədən elmi cəmiyyətlərə göndərmişdi. Bununla yanaşı, o, həm lüğət tərtibi ilə məşğul olmuş, həm də Şekspirin "Hamlet", Qoqolun "Müfəttiş" əsərlərini tərcümə etmişdir. Müəllifin bu fəaliyyəti Esperantonun yayılmasında xüsusi rol oynamışdır.

10.05. ESPERANTO DİLİNİN XÜSUSİYYƏTLƏRİ

Esperanto dilinin sistemi başqa süni dillərdən öz fonetik, leksik, qrammatik və digər əlamətləri ilə fərqlənir.

a) FONETİK VƏ QRAFİK CƏHƏTLƏR

Esperanto dilinin fonetik sistemində 6 sait, 22 samit fonem vardır. Bu dildə fonemlərin uzun və qısa variantları yoxdur. Bütün səslər adi qaydada – adi kəmiyyətlə tələffüz edilir. Esperanto dilinin yazısı latın qrafikası əsasında təş-

[1] D-r Esperanto (L.Zamenqof) – Международный язык. Варшава, 1887.

kil olunmuşdur. Məlumdur ki, latın qrafikası bütün dünyada çox geniş yayılmış yazı formasıdır.

Esperantonun əlifbası linqvistik baxımdan mədəni səciyyəlidir. Bu əlifba 28 hərfdən ibarətdir.

Esperanto əlifbasındakı hərflərin 22-si sadə quruluşa malikdir. Lakin 6 hərfin yazılışında diakritik işarə işlədilmişdir. Bu əlifbada diakritik işarələrə dair bir prinsipdən, yəni hərfüstü diakritik işarə işlətməkdən istifadə olunur.

Esperantoca hərflər və adları					
s.N	Hərflər	Adları	s.N	Hərflər	Adları
1.	*Aa*	a	15.	*Ko*	ko
2.	*Bb*	bo	16.	*Li*	lo
3.	*Cc*	tso	17.	*Mm*	mo
4.	*Ĉĉ*	ço	18.	*Nn*	no
5.	*Dd*	do	19.	*Oo*	o
6.	*Ee*	e	20.	*Pp*	po
7.	*Ff*	fo	21.	*Rr*	ro
8.	*Ĝq*	qo	22.	*Ss*	so
9.	*Ĝq̂*	ço	23.	*Sŝ*	şo
10.	*Hh*	ho	24.	*Tt*	to
11.	*Hĥ*	xo	25.	*Uu*	u
12.	*İi*	i	26.	*Ûu*	yo
13.	*Yy*	yo	27.	*Vv*	vo
14.	*Ŷy*	jo	28.	*Zz*	zo

Diakritik işarələrdən istifadə edilərkən texniki çətinlik yarandıqda samit fonemləri bildirmək üçün hərflərin birləşdirilməsi üsuluna da yol verilir.

Məsələn:

ğ (c) – gh – Ĭego – legho (leco – qanun);

ŷ (j) – yh –ŷaluza – yhaluza (jaluza – qısqanc);

ĉ (ç) – ch – ĉielo – chielo (çislo – göy);
Ĥ (x) – hh – Ĥoro – hhoro (xoro – xor);
ŝ (ş) – sh – ŝiro – shiro (şipo – gəmi) və s.

İşlənmə yerindən, başqa hərflərlə yanaşmasından asılı olmayaraq hərflərin hamısı hər yerdə eyni şəkildə yazılır və eyni formada oxunur[1].

b) ORFOEPİK VƏ ORFOQRAFİK XÜSUSİYYƏTLƏR

Esperanto sözlərində vurğu sabitdir. Onun xüsusi yeri və rolu vardır. Bu dildə vurğu sözün axırıncıdan əvvəlki hecasının üzərinə düşür. Məsələn:

fade'no (fadeno) – sap
kaye'ro (kayero) – dəftər
mate'no (mateno) – səhər
some'ro (somero) – yay
valo'ra (valora) – qiymətli
vespe'ra (vespera) – axşam və s.

Sözlərin yazılışında orfoqrafiyanın fonetik prinsipi əsas götürülür. Sözlər necə deyilirsə, elə də yazılır. Esperanto sözlərində heca saitlərdə müəyyənləşir. Məsələn: *po-mo* (pomo – alma), *te-ro* (tero – torpaq), *su-no* (suno – günəş), *pre-zen-ti* (prezidenti – sədr) və s.

Esperantoda sözün sətirdən-sətrə keçirilməsi sərbəstdir. Məsələn: alfabeto – al-fabeto, alfa-beto, alfabe-to. Bu dildə xüsusi isimlər böyük hərflə yazılır. Məsələn, Parizo (Paris), Flober (Flober) və s. Esperantoda xüsusi adlar mötərizə daxilində milli transkripsiyada verilir. Məsələn, Bako (Bakı), Seko (Şəki), Omar Xayam (Ömər Xəyyam) və s.

[1] Bax: И.В.Сергеев. Основы эсператно. М., 1963, с.3.

c) LÜĞƏT TƏRKİBİ

Dilin lüğət tərkibi onun varlığı üçün əsas amillərdəndir. Buna görə də Esperantonun yaradılmasında lüğət tərkibi məsələsinə də xüsusi əhəmiyyət verilmiş və təbii dillərdən zəif olmayan leksik və frazeoloji tərkib yaradılmışdı. Esperantonun leksik tərkibi müxtəlif laylardan, qatlardan, söz qruplarından ibarətdir.

Esperanto dilinin leksik tərkibini Avropa dillərindən latın, fransız, ingilis, alman dillərinin sözləri təşkil edir. Məsələn, teatro (teatr), motoro (mühərrik), lifto (lift), ekstr (ekstra), diametro (diametr), teksto (mətn), tezo (tezis) və s.

Dil üçün leksik vahidlər seçilərkən iki cəhət nəzərə alınmalıdır:

a) Söz kökləri götürülmüş;

b) Beynəlmiləl sözlər seçilmiş.

İlk dəfə Esperantonun leksik tərkibində az miqdar söz var idi. 1901-ci ildə bu dilin tərkibində təxminən 900 sözdən istifadə edilirdi. Lakin leksik tərkibin inkişaf prosesi get-gedə sürətlənmiş və genişlənmişdi. Bunun nəticəsində 1927-ci ildə leksemlərin həcmi artıb 18 minə çatmışdı. Esperanto dilinin lüğət tərkibi xüsusi inkişaf yolu keçərək, son illərdə yeni-yeni sözlərlə daha da zənginləşmişdir. İndi onun ümumi sözlərinin miqdarı 60 minə yaxındır. Bu, Esperantonun lüğət tərkibinin heç bir təbii dildən zəif olmadığını göstərən cəhətdir. Esperanto dilinin leksik əsasını beynəlmiləl sözlər təşkil edir[1].

Bu qrup sözlər başqa dillərdə olduğu kimi, müasir Azərbaycan ədəbi dilində də işlənir.

Elm və tədrisə aid – akademia (akademik), biologo (bioloq), geologo (geoloq), etimologio (etimologiya), fi-

[1] Bax: М.Исаев. «Язык эсперанто». М., 1981, с.27.

lologio (filologiya), gemotrio (geometriya), darvinismo (darvinizm), universittato (universitet), profesoro (professor), dekano (dekan), abiturionto (abituriyent), gramatiko (qrammatika)...

Ədəbiyyat və incəsənətə aid – dıamaturgio (dramaturgiya), antologio (antologiya), memuaro (memuar), fantazio (fantaziya), epizodo (epizod), epigramo (epiqrafik), gitaro (gitara), melodio (melodiya), metaforo (metafora), filmo (film), muziko (musiqi), ekardiono (akkardion), talento (talant)...

İqtisadiyyat və siyasətə aid – islamo (islam), eksporto (eksport), himno (himn), etapo (etap), burokrato (bürokrat), demokratio (demokratiya), diktaturo (diktatura), humanismo (humanizm), udeo (ideya), udeologio (ideologiya), imperialismo (imperializm), kapitalo (kapital), kapitalismo (kapitalizm), komuno (kommuna), obyekto (obyekt)...

Tibb və səhiyyəyə aid – apteko (əczaxana), aspirino (aspirin), diabeto (diabet), diagnozo (diaqnoz), farmakologio (farmakologiya), bakterio (bakteriya)...

Əşya və varlıqlara aid – benzino (benzin), azoto (azot), atomo (atom), bombo (bomba), automato (avtomat), generalo (general), fabriko (fabrika), yubileo (yubiley), kakao (kakao), kofo (kofe), kongreso (konqres), kvadrato (kvadrat), metalo (metal), metro (metro), muzeo (muzey), universalo (universal)...

İlin aylarının adları – yanuaro, favruaro, arrilo, iunio, sertembro, oktobre, decembio.

Esperantonun lüğət tərkibində müxtəlif sahələrə dair beynəlmiləl sözlər çoxdur. Bunların mənaları, demək olar ki, bütün dillərdə, yaxud əksər dillərdə eynidir. Belə söz qrupları Esperantonun daha geniş istifadə olunmasına imkan və şərait yaradır.

Frazeoloji vahidlər hər bir dilin yüksək bədiiliyi və obrazlılığında xüsusi əhəmiyyət kəsb edir. Buna görə də frazeoloji tərkibin zənginliyi həmin dilin yüksək bədii təsir qüvvəsinə malik olması deməkdir. Esperantonun tərkibi frazeoloji vahidlərlə zəngindir. Burada atalar sözləri, zərbi-məsəllər və digər sabit ifadələr xüsusi yer tutur.

ç) DERİVATOLOJİ CƏHƏTLƏRİ

Esperanto dili zəngin və məhsuldar şəkilçilər sisteminə malikdir. Burada sözdüzəldici, sözdəyişdirici forma yaradan şəkilçilər, qrammatik sonluqlar mövcuddur. Şəkilçilərin iki növündən – ön şəkilçilər (prefiks) və son şəkilçilərdən (suffiks) istifadə olunur.

Esperanto dilində şəkilçilər sözlərə qoşularkən heç bir yerdə öz formasını dəyişmir. İstər sözdüzəldici, istərsə də sözdəyişdirici şəkilçilər yüzlərlə söz və ifadənin yaranmasında müstəqil iştirak edir. Bir söz kökündən 50-60 yeni söz yaratmaq olur.

Esperanto dilində sözyaratma bütün sözlər əsasında olur. Burada sözyaratma üçün önlükdən və sözdüzəldici şəkilçilərdən istifadə edilir. Bu dildə iki önlük işlənilir və bunlar şəkilçi vəzifəsində iştirak edir. Yəni sözyaratmada xüsusi rol oynayır.

Esperantoda sözyaratmanın iki yolu – morfoloji və sintaktik yolla sözyaratma geniş yer tutur.

Morfoloji yolla sözyaratmada iki üsul özünü göstərir:

1) Sözün əvvəlinə şəkilçi artırmaqla söz yaradılır. Məsələn:

mab-

lumo (lumo) – işıq – may+lumo – qaranlıq

ĝranda (qranda) – böyük mal+ĝranda – kiçik

bona (bona) – yaxşı mal+bona – pis

fermi (fermi) – bağlamaq – mal+fermi – açmaq

dis-
iri (iri) – getmək dis+iri – dağılışmaq
ŝiri (şiri) – cırmaq dis+ŝiri – parçalamaq

Bu şəkilçi ayrılıqda müstəqil məna da bildirir. Məsələn, həmin şəkilçiyə sifətə aid (a) ünsürü artırılır. Dis+a (disa) – *"kəsilmiş "* mənasını ifadə edir. Ümumiyyətlə, bu dildə bir sıra şəkilçi belə xüsusiyyətə malikdir.

2) Sözün sonuna şəkilçi artırmaqla söz yaradılır. Məsələn:

-an
urbo (urbo) – şəhər urb[an]o (urbano) – şəhərli
Bako (Bako) – Bakı Bak[an]o (Bakano) – bakılı

-ar
arbo (arbo) – ağac arb[ar]o (arbaro) – meşə
varto (varto) – söz vart[ar]o (vartaro) – sözlük

-et
libro (libro) – kitab libr[et]o (libreto) – kitabça
voyo (voyo) – yol – voy[et]o (voyeto) – cığır
ridi (ridi) – gülmək rid[et]o (rideto) – gülümsəmək

-in
fılo (filo) – oğul fıl[in]o (fılino) – qız
patro (patro) – ata patr[in]o (patrino) – ana

Esperanto dilində bu qaydada söz yaratmağa geniş yer verilmiş, onlarca belə düzəltmə sözlər yaradılmışdır. Esperanto dilinin lüğət tərkibində sintaktik yolla əmələ gəlmiş leksik vahidlər az deyildir. Bu dildə sintaktik yolla sözyaratma, əsasən, iki sözün yanaşması ilə olur. Məsələn,

meza (meza – orta), epoka (epoka – epoxa) sözlərindən mezeroka (mezepoka) əmələ gətirilmişdir ki, bunun da mənası *"orta əsrlər"* deməkdir.

d) QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Esperanto dilinin qrammatik quruluşu olduqca sadədir. Hətta, ən sadə sayıla bilən bir çox təbii dillərin də qrammatik sistemindən asan və yığcamdır. Bu dildə qrammatik formalar təkmənalıdır. Hər bir qrammatik forma istənilən sözlərə bitişə bilər. Belə prosesdə heç bir fleksiya və ya digər morfoloji hadisə baş vermir.

Esperanto dilinin qrammatik quruluşunu təşkil edən morfologiya və sintaksisin özünəməxsus cəhətləri vardır.

Morfologiya. Esperantonun morfologiyası iltisaqi səciyyəlidir. Buna görə də onun morfoloji sistemi *türk dillərinə* daha yaxındır. Bu dildə nitq hissələri (isim, sifət, say, əvəzlik, feil, zərf, önlük, bağlayıcı, hissəcik, nida) təbii dillərdə olduğu kimidir. Onlardan bir neçəsinə nəzər yetirək.

İsim (Substantivo). Esperanto dilində isimlərin xüsusi əlaməti vardır. Burada isimlər (O) ünsürü ilə bildirilir. Məsələn, ringo (rinqo) – üzük, pano (pano) – çörək, pomo (pomo) – alma, fadeno (fadeno) – sap, fayıo (fayro) – ocaq və s.

Esperanto dilində cəmlik anlayışı (j) ünsürü ilə ifadə edilir. Məsələn:

Tək		***Cəm***
hotelo mehmanxana (hotelo)	–	hotelo+j – mehmanxanalar
infano – uşaq (infano)	–	infano+j – uşaqlar
jaro – il (yaro)	–	jaro+j – illər
maro – dəniz (maro)	–	maro+j – dənizlər

Bu dildə ismin iki halı vardır:

1. *Adlıq hal.* Buna ümumi hal da deyilir. Bütün isimlər adlıq halda olur. Məsələn, akvo (akvo – su), aglo (aqlo – qartal), fero (fero – dəmir), lando (lando – ölkə) və s.
2. *Təsirlik hal.* İsmin bu halının morfoloji əlaməti (p) ünsürüdür.

Adlıq halda		Təsirlik halda
Tək		***Cəm***
fiso (fiso – balıq)	–	fiso+n (fison – balığı)
birdo (birdo – quş)	–	birdo+n (birdon – quşu)

Esperantoda ismin hallarının belə az olması dilin heç bir keyfiyyətinə xələl gətirmir. Qalan halları bildirmək üçün önlükdən istifadə olunur. Həmin dildə "el" önlüyü çıxışlıq, "en" isə yerlik anlayışını bildirməyə kömək edir. Məsələn:

el urbo (el urbo) – şəhərdən
en urbo (en urbo) – şəhərə

Sifət (adjektivo). Esperanto dilində [a] ünsürü sifətin morfoloji əlamətidir. Bunun vasitəsilə, əsasən, keyfiyyət anlayışı bildirilir. Məsələn:

nigra (niqra) – qara
bona (bona) – yaxşı
bela (bela) – gözəl və s.

Sifətlərdə cəmlik ifadə etmək üçün isimlərdə olduğu kimi (j) ünsüründən istifadə olunur. Məsələn:

malbela (malbela) – çirkin
malbela+j – çirkinlə

Say (numeralo). Saylar bütün dillərdə olduğu kimi, Esperantoda da əsas nitq hissəsidir. Bu dildə miqdar sayları iyirmiyə kimi Azərbaycan dilində olduğu formadadır.

Esperantoca	*Azərbaycanca*
1 – unu (unu)	bir
2 – du (du)	iki
3 – tri (tri)	üç
4 – kvar (kvar)	dörd
5 – kvin (kvin)	beş
6 – ses (ses)	altı
7 – sep (sep)	yeddi
8 – ok (ok)	səkkiz
9 – naj (nay)	doqquz
10 – dek (dek)	on
11 – dekunu (dekunu)	on bir
12 – dekdu (dekdu)	on iki

Miqdar sayları iyirmiyə qədər bu qaydada davam edir.

Onluqların bildirilməsi Azərbaycan dilindən fərqlidir. Belə ki, "on" sözünün qarşısında təklik bildirən say sözləri işlədildikdə onluqlar ifadə olunur. Məsələn:

dudek (iki on) – 20 (iyirmi)
tridek (üç on) – 30 (otuz)
kvardek (dörd on) – 40 (qırx) və s.

Esperanto dilində miqdar sayları hallanmır. Bu dildə sıra saylarını əmələ gətirmək üçün (a) morfemi miqdar saylarına artırılır. Məsələn:

unu – bi	*unu+a – birinci*
du – iki	*du+a – ikinci*
dek – on	*dek+a – onuncu*

Yaxud:

kvincent tridek ses – 536
(beş yüz üç on altı)
okcent sepdek unu – 871
(səkkiz yüz yeddi on bir)
dumil kvarcent dudek sep – 2427
(iki min dörd yüz iki on yeddi)
mil naücent naüdek unu – 1991
(min doqquz yüz doqquz on bir)

Əvəzlik (pronoma). Esperanto dilində əvəzliklər sistemi əsaslı işlənilmişdir. Əvəzliklə bağlı anlayışların ifadəsi üçün müxtəlif leksemlərdən istifadə olunur. Esperantoda şəxs əvəzlikləri Azərbaycan dilində olduğu kimi, altı komponentdir.

mi (mi) – mən *ni (ni) – biz*
ci (si) – sən *vi (vi) – siz*
li (li) – o *ili (ili) – onlar*

Esperanto dilində II şəxsin təkini bildirən əvəzlikdən – sözdən az istifadə olunur. Bunun əvəzində daha çox vi – siz əvəzliyi işlənilir.

Feil (verbo). Esperanto dilinin feilləri asan olduğu üçün tez mənimsənilir və yadda qalır. Bu dildə feil sonluqlarının miqdarı çox deyildir. Bu məqsədlə cəmi 6 sonluqdan (-i, -as, -is, -os, -us, -u) istifadə olunur.

-i sonluğu. Esperanto dilində məsdəri əmələ gətirmək üçün feillərin sonuna -i morfemi əlavə olunur. Məsələn:

haiti (haiti) – *dayanmaq*
lavi (lavi) – *yumaq*

karti (karti) – *tutmaq*
levi (levi) – *qaldırmaq*
ami (ami) – *sevmək*
lidi (lidi) – *oynamaq* və s.

-as, -is, -os sonluqları. Bu morfoloji əlamətlər feilin zamanlarını bildirmək üçün işlədilir.

Feilin indiki zamanı *-as (as)* ünsürü ilə düzəldilir. Məsələn:

Skribi (skribi) – mi skrib+as
yazmaq – mən yazıram
Studi (studi) – mi stud+as
öyrənmək – mən öyrənirəm

Feilin *gələcək zamanını* göstərmək üçün *-os (os)* morfemindən istifadə olunur. Məsələn:

mi skrib+os – mən yazaram
mi stud+os – mən öyrənərəm

Feilin *keçmiş zamanını* bildirmək üçün *-is (is)* sonluğu işlədilir. Məsələn:

mi skrib+is – mən yazdım
mi stud+is – mən öyrəndim

Feilin *şərt forması -us (us)* sonluğu ilə ifadə edilir. Məsələn:
porali – mi poral+us (*danışmaq*) – *mən danışsam*
levi – mi lev+us (*qaldırmaq*) – *mən qaldırsam* və s.

Feilin *əmr formasını* bildirmək üçün *-u (u)* morfemi işlənilir. Məsələn:

Sidi – ci sid+u (*oturmaq*) – *(sən otur)*
Silenti – ci silent+u (*susmaq*) – (*sən sus*)

Sintaksis. Esperanto dilinin maraqlı xüsusiyyətlərə malik sintaksisi var. Bu sintaktik sistem inkişaf etmiş təbii dillərin sintaksisindən heç də zəif deyildir.

Esperantonun sintaktik sistemində baş üzvlərin sərbəstliyi diqqəti daha çox cəlb etdi. Bu dildə mübtəda cümlənin əvvəlində və axırında işlənə bilər. Məsələn: *Müəllim gəldi. Gəldi müəllim* və s.

Esperanto dilində söz birləşmələrinin Azərbaycan dilində olduğu kimi iki növü mövcuddur: sabit söz birləşmələri, sərbəst söz birləşmələri.

Bu dildə sabit birləşmələr qrupunu idiomlar, atalar sözü və digər birləşmələr təşkil edir. Esperanto dilində sərbəst birləşmələr Azərbaycan dilində olduğu qaydada, sözlərin yanaşması ilə yaranır. Məsələn:

alta homo (alta homo) – *ucaboy adam*
nigra haro (niqra haro) – *qara saç*
langa fıngro (landa fınqro) – *uzun barmaq...*

Bu dildə cümlənin quruluşu, məqsəd və intonasiyaya görə növləri Azərbaycan dilində olduğu formadadır.

ESPERANTO DİLİNİN YAYILMASI VƏ İSTİFADƏ EDİLMƏSİ

Esperanto dili meydana çıxanda ictimaiyyət tərəfindən adi bir hadisə kimi qarşılanmışdı. Çünki bu dil yaranana qədər yuxarıda deyildiyi kimi, bir çox süni dil mövcud idi. Az keçmədən Esperanto dili ictimaiyyətin diqqətini özünə çəkmiş, get-gedə maraqlananların sayı artmışdı. Lakin bu dilə maraq göstərənlərin hamısı həmfikir deyildi.

Bunların arasında Esperantonun *əleyhdarları və tərəfdarları* əmələ gəlmişdi.

Esperantonun əleyhdarları. Esperanto dili ictimaiyyətə təqdim olunduğu gündən onu müsbət mənada qəbul etməyənlər bu dilin nöqsanlarını və lüzumsuz olduğunu göstərmişlər. XIX əsrin 90-cı illərində G.Meyer, XX əsrin əvvəllərində K.Bruqman və A.Leskin Esperantonun əleyhinə çıxış etmişlər. K.Bruqman və A.Leskin süni dilə dair yazılmış əsərləri izləmiş və bu sahədə fərqli tənqidi əsər yazmışlar. K.Bruqman bəşəri dil problemini təhlil etməyə çalışmış və bu barədə yeni görüşlər irəli sürmüşdü. O, bəşəri dil məsələsinə naturalistik mövqedən yanaşırdı. Bruqman dili "təbiətin hədiyyəsi" hesab edirdi. A.Leskin Esperanto dilinin çox qüsurlu olduğunu göstərib, onun fonetik sistemini, sözyaratma prosesini, qrammatik quruluşunu ciddi tənqid etmişdi. XX əsrin 30-cu illərində də Esperantonu tənqid edənlər olmuşdu. Xüsusilə 1931-ci ildə Cenevrədə dilçilərin II beynəlxalq konqresində Esperanto dili geniş elmi müzakirə və tənqid obyektinə çevrilmişdi.

Esperantonun əksinə olanlar öz görüşlərini aşağıdakı kimi ifadə edirdilər:

a) Süni Esperanto dili zəngin və incə insani hissləri ifadə etməkdə acizdir;
b) Esperanto beynəlxalq dil kimi qəbul edilsə, bəşəriyyətin minillik mədəniyyəti itər, gələcək nəsil onu anlaya bilməz;
c) Cəmiyyətin süni dilə heç bir ehtiyac və tələbi yoxdur.

Əleyhdarların bu fikirlərinin bir sıra dilçi alimlər tərəfindən əsassız olduğu göstərilmişdi. Dilçilərdən Boduen de Kurtene Bruqman və Leskini tənqid edib bildirdi ki, beynəlxalq dil problemini bəyənməmək elmdə geridə qalmaqdır. Onun fikrincə, beynəlxalq dil problemi vaxtı çatmış ictimai məsələdir və bunu yaxın vaxtda həll etmək lazımdır.

Fransız dilçisi Mişel Breal Esperantonun əhəmiyyətini çox yüksək qiymətləndirib deyirdi ki, bu dil dilçiləri dil haqqında daha dərindən düşünməyə məcbur etdi. Antuan Meye beynəlxalq dilin gec-tez tətbiq ediləcəyi zəruriliyini bildirirdi. O deyirdi ki, beynəlxalq əlaqələr müvafiq ünsiyyət vasitəsi tələb edir. Belə ünsiyyət vasitəsi süni dil, o cümlədən Esperanto ola bilər.

Esperantonun tərəfdarları. Esperantonun əleyhdarlarına nisbətən tərəfdarları daha çox idi. Çünki Esperanto əvəzsiz ictimai hadisə kimi dünyanın bir sıra ölkələrində böyük marağa səbəb olmuşdu. Yer kürəsinin bir qrup tanınmış şəxsiyyəti – alimləri, dövlət, ədəbiyyat və mədəniyyət xadimləri Esperanto tərəfdarları olub, onun son dərəcə əhəmiyyətli olduğunu əsaslandırmağa çalışmışlar. Görkəmli dilçilərdən Hüqo Şuxardt, Boduen de Kurtene, Antuan Meye, N.S.Trubetskoy, E.Sepir, O.Yespersen, A.Martine, məşhur alimlərdən Albert Eynşteyn, V.Obruçev, dünyada tanınmış yazıçılardan Anri Barbüs, Maksim Qorki, Lu Sin və başqaları Esperanto dilinin elmi və texniki yeniliklərin yayılmasındakı rolunu çox yüksək qiymətləndirmişlər. Bu dilin müsbət hadisə olduğundan, onun ictimai əhəmiyyətindən başqa sənət sahələrinin nümayəndələri də dönə-dönə bəhs etmiş, tərəfdar olduqlarını bildirmişlər.

Esperanto dilinin perspektivli olduğunu müəyyən edən bir çox ölkələrin alimləri bu dilin təbliği ilə məşğul olmağa başlamışlar. Esperanto dilinin meydana çıxmasının ikinci ilində (1888) ilk esperantoçulardan biri olan yazıçı Leopold Eynşteyn Almaniyada Esperanto Cəmiyyəti təşkil etmişdi. O, 1889-cu ildən "Le esperantisto" adlı jurnal çap etdirmişdi. Esperanto dili ilə Fransada ilk dəfə Q.Mok və filoloq L. de Bofron məşğul olmuşdular. Həmin ölkədə 1889-cu ildə Esperantoçular Cəmiyyəti yaradılmış və "L'esperantiste" adlı jurnal nəşr olunmağa başlamışdı.

1905-ci ildən etibarən Esperanto dilinə dair konqreslər keçirilməyə başlanmışdı. Həmin ildə Esperanto həvəskarlarının I konqresi keçirilmişdir. Burada 27 millətin elçisi iştirak edirdi. II konqres 1906, III konqres 1907 və IV konqres 1908-ci ildə keçirilmişdir.

1908-ci ildə "Beynəlxalq Esperanto Akademiyası" yaradılmışdı. 45 üzvdən ibarət olan bu akademiyanın vəzifəsi Esperanto dilini təkmilləşdirmək, onu inkişaf etdirməkdən ibarətdi.

Esperanto canlı dil kimi inkişaf edirdi. Onun bu cəhətini görən mütərəqqi fikirli alimlər Esperanto tərəfdarı olub, cəmiyyətlər yaratmışlar. Bununla yanaşı, Esperanto dilini müdafiə edən hərəkatlar da meydana gəlmişdi. Bu hərəkatlar bütün ölkələrdə özünə tərəfdar tapmışdı. Esperanto hərəkatı bu dilin praktik tətbiqi əhəmiyyətini xüsusi olaraq qiymətləndirirdi. Esperanto tərəfdarı olan mövcud beynəlmiləl və milli təşkilatlar Ümumdünya Esperanto Assosiasiyasının birinci sədri Qodler bu süni dilin təbliği üçün 200 min qızıl frank ayırmışdı.

Esperanto asan quruluşlu dildir. Onu öyrənmək üçün yüzlərlə qayda və qanunu öyrənməyə ehtiyac olmur. Bu dil zəngin lüğət tərkibinə, ifadə vasitələrinə, məntiqi və dəqiq fonetik, leksik və qrammatik sistemlərə malikdir. Mütəxəssislərin fikrincə, ümumdünya Esperanto süni dili hər hansı bir təbii dilə nisbətən 10–15 dəfə asan öyrənilir. Buna görə də dünyanın 80 ölkəsində bu dilin öyrənilməsinə xüsusi həvəs və maraq yaranmışdı. Esperanto dili Almaniya, Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, İtaliya, İspaniya, Polşa, İsveçrə, Yuqoslaviya, Macarıstan, Finlandiya, Yaponiya, Çin, Vyetnam, Madaqaskar, İran, Hindistan və ərəb ölkələrində daha geniş yayılmışdır.

Esperantonun öyrənilməsi ilə yalnız dərnəklər deyil, məktəblər və universitetlər də məşğul olmuşdu. 1920–30-cu illərdə Almaniya və İsveçrənin məktəblərində

"Esperanto" fənni tədris olunmuşdu. 1964-cü ildə Ümumdünya Esperanto Assosiasiyasının sədri İvo Lapenna məlumat vermişdir ki, dünyanın 32 ölkəsinin 600 məktəbində 16 min şagird, 20 universitetdə isə çoxlu tələbə bu dilin öyrənilməsi ilə məşğul olur.

Esperanto dilinin mükəmməl öyrənilməsinə dair müxtəlif ölkələrdə bir sıra *dərslik və dərs vəsaiti* yaradılmışdı. Məsələn, S.Rublyovun "Esperanto dərnəyi" dərsliyi, V.Svistupovun "Esperanto ünsürləri", İ.V.Sergeyevin "Esperantonun əsasları", E.V.Semyonova, M.İ.İsayevin "Esperanto dilinin dərsliyi" və s. Bununla bərabər, 40 dildə "Esperanto açan" adlı müxtəsər dərslik çap edilmişdi.

Lüğət hər hansı bir dilin öyrənilməsində əvəzsiz vasitədir. Esperanto dilinə dair 137 izahlı lüğət yaradılmışdı. "Esperantoca-ingiliscə böyük lüğət", "Esperantoca-fransızca böyük lüğət", "Esperantoca-almanca lüğət" və s. Bundan başqa, müxtəlif ixtisaslar üzrə esperantoca 112 terminoloji lüğət də nəşr edilmişdi. Ümumiyyətlə, esperantoya dair 80 dildə dərslik və lüğət hazırlandığı göstərilir.

Dünyanın müxtəlif ölkələrində Esperanto dilində 100-dən artıq qəzet və jurnal çap olunur. "Tibb jurnalı", "Polşa", "Çexoslovakiya", "Esperantoçu", "Çin", "Macarıstan", "Kosmos", "Müasir Bolqarıstan" və sair bu kimi esperantoca çıxan jurnalların ayrı-ayrı ölkələrdə yüz minlərlə abunəçisi və həvəskarı vardır.

Esperanto dilində çoxlu kitab nəşr olunmuşdu[1]. Hazırda dünyanın onlarca nəşriyyatı Esperanto dilində ədəbiyyat çap edir. Bu dildə 90 minə qədər müxtəlif həcm və məzmunda orijinal və ya tərcümə edilmiş kitab çap olunmuşdu. Bunların içərisində həm elmi, həm də bədii ədəbiyyat vardır.

[1] Esperanto dilinə dair ən böyük kitabxana Londondadır.

Elmin müxtəlif sahələrinə, o cümlədən dilçilik, ədəbiyyatşünaslıq, fizika, riyaziyyat, biologiya, coğrafiya məsələlərinə dair külli miqdarda monoqrafiya yazılmış və ya mövcud materiallar tərcümə edilmişdir. Esperanto həvəskarlarından K.Kaloçay (macar), R.Şvarts (fransız), M.Bolton (ingilis), N.Xoxlov (rus) və X.Drezenin (eston) bir çox əsəri Esperanto dilindədir. Esperantonu sənət əsərlərinə – bədii ədəbiyyata tətbiq etmək bəzi mübahisələrə səbəb olmuşdu. Karl Fosler Esperantonu ancaq elm dili üçün məhdudlaşdırmağı tələb etmişdi. Esperanto dili bədii ədəbiyyat dili üçün yararlı olduğunu aydın göstərdi. Bu dil geniş lüğət tərkibinə, zəngin ifadə və təsvir vasitələrinə malikdir.

Esperanto dilinə bədii əsərlərin tərcüməsi esperantoşünaslıqda xüsusi yer tutur. Bir çox söz sənətkarlarının, o cümlədən Şekspirin, Taqorun, Puşkinin, Tolstoyun, Lermontovun, Şoloxovun və onlarca məşhur yazıçının əsərləri bu dilə tərcümə edilmişdir.

Bədii tərcümələr müxtəlif sistemli dillərdən edilmişdir. Hər bir dildən Esperantoya bədii tərcümə etmək olur və bu tərcümələr çoxmənalı səslənir. Bədii tərcümələr içərisində Şərqin böyük sənətkarı Ömər Xəyyamın rübailəri də diqqəti cəlb edir.

Omar Kajam

Kvar robajoj*

Kiam Alah' nin kreis el humo de la tero,
li sciis, kion nepre ni faros, sen libero;
jam ĉiujn niajn rekojn decidis lia klero.
Do, ĉe la Fina Juĝo, pro kio ĉi Infero?

* *kvar* – dörd, *robojo* – rübai deməkdir. Sözün sonundakı (j) səsi cəmlik bildirir.

La karavan' de l'vivo – kiel voj' ĝi pasas!
Ekkaptu la minuton de pura ĝoj': ĝi pasas!
Verŝisto, kial zorgi pri la ınorgaû' de l'gastoj?
Alportu la pokalon, ĉar nokto, oj: ĝi pasas.

*

Drinku do vinono! Baldaû vi dormos ja sen fın'
sen kamarad', sen gasto, amiko aù edzin'!
Atentu: al neniu konfıdu či sekreton –
velkinte, la tulipo ne plu relevos sin!

*

Via ekzisto estu nur idili' – kaj poste?
Vi legu ĝis la fmo de rulfoli' – kaj poste?
Supoze, ke vi vivis cent jarojn da feliĉo,
kay vivos, ni supozu, cent jarojn pli – kay poste?

Təcrübə göstərir ki, nəinki esperantoca bədii əsər tərcümə etmək olar, hətta bu dildə müxtəlif janrlarda *orijinal bədii əsərlər də yaratmaq mümkündür.* Bunu orijinal əsərlər yaratmaq təcrübəsi əsaslı sübut etdi.

Əməli şəkildə istifadə olunmaq üçün də Esperanto dilində müxtəlif çeşidli materialların çapına xüsusi əhəmiyyət verilir. İndiyə kimi yüzlərcə reklam, məlumat kitabçası, yaddaş, turist kitabçaları nəşr edilmişdir. Ümumiyyətlə, dünyanın yüzlərlə şəhərində esperantoca yaddaş kitabçaları çap olunmuşdur.

Esperanto dili elmi məclislərdə geniş istifadə olunan ünsiyyət vasitəsinə çevrilmişdir. ABŞ-da, İngiltərədə, Fransada, Almaniyada, Polşada, Yaponiyada və başqa bir sıra ölkələrdə keçirilən konqreslərdə, simpoziumlarda əsas, aparıcı dil Esperanto olmuşdur. İndi də bu dildə beynəlxalq konqres, konfrans və digər elmi məclislər keçirilir. Dünyada çap olunan elmi jurnalların 60–70 faizində elmi

informasiya məqsədi ilə hər məqaləyə dair esperantoca xülasələr verilir. Hazırda Esperanto ancaq elmi və bədii ədəbiyyatda deyil, radio verilişlərində də istifadə olunur. On ölkədə 30-dan artıq radiostansiyada müxtəlif elmi, elmi-metodiki, bədii və digər mövzulara dair müntəzəm verilişlər təşkil edilir. Varşava radiosunda bu dil daha çox səsləndirilir. Rəsmi məlumatlara görə, həmin radio vasitəsilə gündə üç veriliş eşidilir.

Esperantodan sonra bir çox süni dil yaranmışdır. Bu dillər, o cümlədən ido, novil, oksidental, interlinqva bəzi cəhətləri ilə Esperantodan fərqlənsə də, ictimaiyyətin marağına səbəb ola bilməmişdir. Esperanto bunlara üstün gəlmişdir. Bunun səbəblərindən bəhs edən müəlliflərə görə, Esperantonun qalib gəlməsini müəyyən etmək üçün bir neçə linqvistik tələbləri və sosial amilləri bilmək lazımdır[1]. Həmin tələb və amillər bunlardır:

1. Bu dil zəngin lüğət tərkibinə malikdir, beynəlmiləl leksika onun bünövrəsini təşkil edir.
2. Zəngin ifadə vasitələri vardır.
3. Cəmiyyətin müasir mədəni inkişaf səviyyəsini əks etdirə bilir.
4. Qrammatik quruluşu dəqiq və məntiqidir.
5. İstifadə olunarkən təkmilləşmə və zənginləşmə imkanına malikdir.

Müasir ölkələrarası beynəlxalq əlaqələr sahəsində Esperantodan geniş istifadə olunur. YUNESKO 1954-cü ildə bu baxımdan Esperantonun əhəmiyyətini çox yüksək qiymətləndirmişdir. Həmin ildən Esperanto BMT-nin rəsmi dillərindən biri kimi qəbul edilmişdir. BMT-nin bir çox məclislərində bu dildə məruzələr dinlənilir, dialoqlar keçirilir və müzakirələr aparılır.

[1] Bax: М.Исаев. «Язык Эсперанто». М., 1981, с.15.

Esperanto dili 105 ildir ki, geniş yayılıb, praktik olaraq tətbiq edilir. Müasir dövrdə bu dilə maraq get-gedə çoxalır. İndi Esperanto dilini işlədənlərin sayı 30 milyona çatmışdır. Bu rəqəm ildən-ilə artır.

10.06. AZƏRBAYCAN DİLÇİLİYİ VƏ ESPERANTO DİLİ

Müasir elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi indiki dövrdə bir dildə yazıb-yaratmaqla dünya elmi arenasına çıxmaq olduqca çətin məsələdir. Hətta bir neçə dildə yazıb-oxumağı bacaran ziyalılarımızın da qarşısına olduqca böyük maneələr çıxır. Çünki indi beynəlxalq aləmdə ingilis, fransız, alman, rus dilləri ilə yanaşı, yapon, çin, ərəb, ispan və sair dillərdə də külli miqdarda elmi informasiya verilir. Bütün bu dillərə ayrı-ayrılıqda yiyələnmək və həmin dillərdə verilən iqtisadi, siyasi, elmi, mədəni informasiyaları oxuyub mənimsəmək insanın potensial imkanı xaricindədir. Çoxdilli elmi və kütləvi ədəbiyyat təkcə müxtəlif sahə alimlərini deyil, həm də professional, poliqlot dilçiləri də ağır vəziyyət qarşısında qoyur. Məşhur fransız dilçisi Antuan Meye Avropanın çoxdilliliyinin törətdiyi çətin vəziyyəti belə xarakterizə edirdi: "Təkcə Avropanın sivilizasiyasını izləmək üçün 20 dil bilmək kifayət etməz".

Məlumdur ki, bütün alimlər əsərlərini öz milli dillərində yaradırlar. Belə olduqda nə qədər dil bilmək tələb olunur? Müxtəlif dillərdə yaranmış yalnız bircə ilin materiallarını bir neçə ilə tərcümə etmək də qeyri-mümkündür. Hətta buna vəsait çatdırmaq da imkan xaricindədir. Elə buna görə də *millətlərarası ünsiyyət vasitəsi* problemi inkişaf etmiş bütün ölkələrin ziyalılarının ciddi düşünmələrinə səbəb olmuş-

dur. Müasir aləmdə millətlərarası ünsiyyət vasitəsi ən geniş yayılan Esperanto dilidir. Dünyanın bir çox xalqları hazırda bu dildən çox fəal şəkildə istifadə edir və onun bəhrəsini görür. Hazırda Esperanto dili Rusiya Federasiyasında, Ukraynada, Özbəkistanda, Latviyada, Litvada, Estoniyada və başqa ölkələrdə geniş öyrənilir və istifadə edilir.

Məlumdur ki, Azərbaycan elminin dünya elmi inkişafında xüsusi yeri və rolu vardır. Lakin yaranan elmi kəşflər heç də həmişə bütün dünyaya yayılmır. Biz elmi nailiyyətlərin yayılması üçün əsasən rus, bəzi hallarda isə xarici dillərdən istifadə edirik. Bu, kifayət deyildir. Buna görə də beynəlxalq dil problemi başqa xalqlar kimi, Azərbaycan xalqının da çoxsahəli həyatına daxil olmalıdır. Biz ancaq belə bir dil vasitəsilə xalqımızın varlığını, iqtisadi gücünü, elmi potensialını dünya arenasına çıxara bilərik.

Qısaca xatırladaq ki, Esperanto dilinin qrammatik sistemi türk dillərinə uyğun gəlir, Azərbaycan dilində işlənən beynəlxalq sözlərin çoxuna bu dilin leksikasında rast gəlmək olur. Onun yazısı da latın əlifbası əsasında qurulmuşdur. Buna əsasən də xalqımız, onun gəncləri və ziyalıları Esperanto dilini çox asanlıqla öyrənə və mənimsəyə bilərlər.

Azərbaycan elminin bugünkü vəziyyəti, sabahkı günü, gələcəyi dilçilərdən bu problemin həllini, özü də tezliklə və düzgün həllini tələb edir. Biz beynəlxalq dil məsələsində xeyli gecikmişik. İndi məsələnin həllinə hərtərəfli başlanılmalıdır. Esperanto dilinin öyrənilməsinin bir sıra nəzəri və praktik məsələləri mövcuddur. Hər şeydən əvvəl, respublikada bütün ictimaiyyəti bu problemlə maraqlandırmaq dilçilərin mühüm və təxirəsalınmaz vəzifəsi olmalıdır. Esperantonun öyrənilməsini asanlaşdırmaq məqsədi ilə dilçilər doğma dilimizdə Esperantonun müqayisəsini verməli, fərqləri aşkar etməli, "müqayisəli fonetika", "müqayisəli qrammatika" yaratmalıdırlar.

Esperanto dili bir fənn kimi orta və ali məktəblərin tədris planına daxil olunmalıdır. Bunun xüsusi əhəmiyyəti olar:

a) Esperanto dilinin öyrənilməsi gələcəkdə yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsinə kömək edər.
b) Esperanto orta və ali məktəblərdə latın əlifbalı xarici dillərin öyrənilməsinin asanlaşdırılmasına imkan yaradar.

Esperanto dilinin mənimsənilməsi və tətbiqi üçün ali məktəblərdə xüsusi kurslar, akademiyanın institutlarında dərnəklər təşkil etmək lazımdır. Bununla yanaşı, dərsliklər hazırlanmalı, "Azərbaycanca-esperantoca lüğət", "Esperantoca-azərbaycanca lüğət"lər yaradılmalıdır.

Esperanto dilinin respublikada öyrənilməsi və əməli şəkildə istifadə olunması azərbaycanşünaslığın inkişafında ancaq müsbət rol oynaya bilər.

10.07. TƏBİİ DİL ƏSASINDA ÜMUMDÜNYA DİLİ YARATMAQ PROBLEMİ

Ümumdünya dili probleminin bu istiqamətdə həll edilməsi ilə bağlı bir sıra bir-birinə zidd olan mülahizələr, görüşlər meydana gəlmişdir. Bu görüşlərdə həm obyektiv, həm də subyektiv cəhətlər müşahidə edilir. Bununla bərabər, təbii dil əsasında bəşəri dil yaradılması məsələsinin də müəyyən tarixi vardır.

1. TƏBİİ DİL İDEYASINA MÜNASİBƏT

Təbii dil əsasında ümumdünya dili yaratmaq ideyasının həm tərəfdarları, həm də əleyhdarları olmuşdur. İdeyanın əleyhdarları sübut etməyə çalışırdılar ki, heç bir təbii dil ümumdünya dilinə çevrilə bilməz. Diplomat-interlinqvist Avqust Qrimm qeyd edirdi ki, bu böyük və zəruri ictimai problemi həll etmək üçün mövcud etnik dillərin heç

biri ümumdünya dili olmağa qadir deyildir. Akademik Ernest Navill yazırdı ki, heç bir canlı və yaxud ölü dil bu vəzifəni yerinə yetirə bilməz. Çünki təbii dillərin öyrənilməsi çox çətindir və bəzilərinin dediyi kimi, belə dillərdə çatışmayan cəhətlər çoxdur. Ümumdünya dili ideyasının bir qrup tərəfdarı belə bir nəticəyə gəlmiş ki, müasir dillərin biri ümumi dil rolunda çıxış edə bilər. Çünki müasir canlı dillər daima inkişaf edir, meydana çıxan yeni-yeni anlayışları ifadə edən leksik vahidlərlə zənginləşir. Fridrix Nihammer 1809-cu ildə çap etdirdiyi "Paziqrafiya və ideoqrafiyaya dair" adlı əsərində göstərmişdir ki, ümumdünya dili ancaq təbii dillər üzərində qurulsa baş tutar.

1884-cü ildə Almaniyada məşhur yazıçı Lepold Eynşteyn təbii dillərdən birini – ümumdünya dili seçmək ideyasını müdafiə etmişdir. Bu istiqamətdə olan ideyanın tərəfdarları çox olmuşdu. Hətta 1931-ci ildə Cenevrədə keçirilən II beynəlxalq dilçilik konqresində ümumdil rolunda milli dil olmasını A.Doza, R.Kelloq, B.Spekman, E.Darko kimi dilçilər də müdafiə etmişlər. Təbii dillər əsasında ümumdünya dili yaratmaq ideyasına dair daha bir çox fikirlər irəli sürülmüşdür. Bunların əsasında bəziləri dil üçün milli dillərdən birini seçmək, kiçik xalqlardan birinin dilini götürmək, bütün dünya dillərinin qovuşması əsasında ümumdünya dili yaratmaq nəzəriyyələri və variantları yaranmışdır. Bunların hər biri müəyyən cəhətdən diqqəti cəlb edir.

2. *MİLLİ DİLLƏRDƏN BİRİNİ SEÇMƏK NƏZƏRİYYƏSİ*

Ümumdünya dili üçün bir milli dil seçmək fikri XIX əsrdə diqqət mərkəzində olmuşdu. Milli dillərdən ümumdünya dili seçmək nəzəriyyəsinin müəlliflərindən biri olan alman mütəfəkkiri Karl Kautskinin (1854–1930) ümum-

dünya dili konsepsiyasının əsasını "Mövcud dillərdən biri ümumdünya dilinə çevrilə biləcəkdir" fikri təşkil edirdi.

Ümumdünya dili üçün bu fikrin tərəfdarlarının görüşləri eyni istiqamətli deyildi. Belə ki, bu məqsəd üçün bəziləri ölü dillərdən, bəziləri isə canlı dillərdən ümumdünya dili seçməyi məqsədəuyğun hesab edirdilər.

Ölü dillərdən götürmək. Bu yolla ümumdünya dili seçmək üçün klassik ölü dillərdən ikisi haqqında fikir söylənilmişdi. Bunlardan biri *latın*, digəri *qədim yunan* dilidir. Latın dili çox qədim dillərdəndir. Bütün orta əsrlər boyu və eləcə də XVII əsrin ortalarına kimi latın dili çox geniş istifadə olunmuş, beynəlxalq dilə olan ehtiyacı nisbətən ödəyə bilmişdi. Lakin həmin əsrin sonlarına yaxın bu dil öz əhəmiyyətini itirməyə doğru getmiş, milli dillərin sürətlə tərəqqisi onu sıxışdırıb, istifadə olunma dairəsini məhdudlaşdırmışdı.

Latın dilinin ümumi dil rolunda olması ideyası çoxdan irəli sürülmüş və bu barədə xeyli iş görülmüşdür. Alman alimi H.Dils latın dilinin ümumi dil olmasını çox təbliğ etmişdi. İtaliya riyaziyyatçısı C.Peano latın dili üzərində böyük islahat aparmış, onu son dərəcə sadələşdirmiş, tanınmaz hala salmışdı. 1920–30-cu illərdə sadələşmiş latınca jurnal da çap edilmişdir.

Son zamanlar "Latino sino flexione" adlı layihələr yayılmış və latın dili təbliğ edilmişdir. XX əsrin 50-ci illərində Qərbi Avropada və Cənubi Amerikada bu dili beynəlxalq dil kimi işlətmək istəyən cərəyan yaranmışdı. Bununla əlaqədar xüsusilə 60-cı illərdə bir neçə dəfə beynəlxalq konqres çağırılmış, simpoziumlar keçirilmiş, praktik işlər aparılmışdı. Lakin bu qədər iş görülməsinə baxmayaraq, latın dilinin müasirləşdirilməsi, onun yeni ruhda işlədilməsi mümkün olmamışdır.

Canlı dillərdən seçmək. Canlı dillərdən ümumdünya dili seçmək sahəsində bir sıra alimlər fikir irəli sürmüş və əməli işlə məşğul olmuşlar.

Təbii dillərdən ümumdünya dili seçməyin prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1) Könüllü olaraq ümumdünya dili seçmək;
2) Razılaşma yolu ilə ümumdünya dili müəyyənləşdirmək;
3) Təzyiq göstərməklə ümumdünya dili qəbul etdirmək.

Qərbdə bu axırıncı prinsipin tərəfdarları daha çox idi. Amerikalı Henri Ford və bir çox başqaları bu fikri qızğın müdafiə edirdilər. Dil siyasətində bu prinsip yolverilməzdir.

Təbii dillərdən ümumdünya dili seçmək üçün bir deyil, bir neçə dil məsləhət bilinmişdir.

1. Fransız dilini seçmək. Ümumdünya dili üçün fransız ideoloqları fransız dilinin götürülməsi fikrini irəli sürmüşlər. Bu fikri müdafiə edənlər az olmamışdır. XVI əsrdən başlayaraq bu məsələyə xüsusi əsərlər də həsr olunmuşdur. Fransız alimi Esten "Fransız dilinin birinciliyi" adlı əsərini 1579-cu ildə çap etdirmişdir. Şarpantenin "Fransız dilinin üstünlükləri haqqında" əsəri 1683-cü ildə oxuculara təqdim edilmişdir. XVIII və XIX əsrlərdə də fransız dilinin ümumdünya dili olmasını çox təbliğ etmişlər. Fransızlar Avropada bu dili hamının sevdiyini bildirirdilər. Fransız dili diplomatiya silahı hesab olunurdu. Fransa imperiyasının zəbt etdiyi ölkələrdə bu dil yayılır və istifadə edilirdi. XVII əsrdə rus aristokratiyası fransız dilini çox geniş işlədirdi. Bu dil Avropanın bir çox ölkəsində, Afrikada, Yaxın Şərqdə geniş yayılmışdı. Fransa ziyalıları öz dillərini təbliğ edir, onun yayılmasına çalışırdılar. Lakin buna baxmayaraq, bütün səylər nəticəsiz qalmışdır.

2. Alman dilini götürmək. Ümumdünya dili üçün alman dilinin olması fikrini ortaya atanlar da az deyildi. Bu dilin təbliğatçıları, əsasən, almanların özləri olmuşdu ki, bu da milli hisslər və düşüncələrlə bağlı idi. Alman filosofu Fixte alman dilini son dərəcə yüksək qiymətləndirmiş, onu tayı-bərabəri olmayan bir dil kimi tərifləmişdir. Onun fikrincə, ümumdünya dili ancaq və ancaq alman dili ola bilər.

Ümumdünya dili rolunda alman dilinin təbliği ilə XX əsrin əvvəllərində A.Bauman və V.Ostvald xüsusilə məşğul olmuş, geniş təbliğat işləri aparmışlar. XX əsrin I yarısında F.Pirfelder "Alman dili dünya dili kimi" adlı əsər yazmışdır. Burada alman dilinin keyfiyyəti sadalanır, onun başqa dillərdən üstünlüyü göstərilir.

Almanların dil siyasətinin əsası öz dillərini bütün dünyaya qəbul etdirməkdən ibarət idi. Bu məqsədlə planlı şəkildə bir çox tədbirlər keçirilmişdir. Lakin bunun heç bir nəticəsi olmamışdır.

3. İngilis dilini seçmək. İngilis dilini ümumdünya dili kimi götürmək və işlətmək fikri də çox geniş yayılmışdı. Bu ideyanın tərəfdarları ingilis dilini dünyada ən çox inkişaf etmiş zəngin dil kimi qiymətləndirir və onu ciddi təbliğ edirdilər. İngilis dilinin ümumdünya dili roluna keçməsi üçün iki formada fikir söylənilmiş və iş aparılmışdır:

a) İngilis dilini qeydsiz-şərtsiz olaraq eyni ilə seçmək;

b) İngilis dilində müəyyən dəyişiklik apararaq ümumdünya dili kimi qəbul etmək.

a) İngilis dilini olduğu formada götürmək.

XIX əsrdən başlayaraq normal ingilis dilinin ümumdünya dili kimi qəbul edilməsi fikri yüksək vüsət almış və onun təbliğatçıları ildən-ilə artmışdı.

XX əsrin əvvəllərində xüsusilə 10-cu illərdə ABŞ-da, eləcə də İngiltərədə bu dilin ümumdünya dili roluna seçilməsi daha qızğın və geniş müdafiə edilmişdi. Bu ideyanın tərəfdarları bildirirdilər ki, tarix özü ingilis dilini ümumdünya dili kimi yetişdirmişdi. XX əsrin 20-ci illərində kapitalist aləminin məşhur liderləri, o cümlədən Henri Ford belə bir şüar irəli sürmüşdür: "Hamını ingiliscə danışmağa məcbur edin!" ("Make everyboy speale English!") Dil öyrənməkdə məcburiyyət doğru yol deyildir. Bu yolla heç bir nailiyyət qazanmaq olmaz. Dili öyrənmək üçün onu sev-

mək və hiss etmək başlıca şərtlərdəndir. Bu dilin təbliğinə dair XX əsrin I yarısında bir çox əsərlər meydana çıxmışdır. 1926-cı ildə L.Holledeyin "İngilis dili beynəlxalq dil kimi" adlı əsəri, 1944-cü ildə Morno Pennin "İngilis dili ümumdünya dilidir" kitabı çap olunmuşdu. Bu əsərlərin adından bəlli olduğu kimi, müəlliflər ingilis dilinin ümumdünya dili səviyyəsinə çatdığını inamla göstərməyə çalışmışlar.

XX əsrin II yarısında ingilis dilinin təbliği kütləvi xarakter almışdır. 1956-cı ildə "Beynəlmiləl ingilis dili" adlı jurnal çap edilməyə başlanmışdı. Dünyanın bir sıra iri şəhərlərində, o cümlədən Londonda, Nyu Yorkda, Cenevrədə güclü təbliğatlar aparılır, tərəfdarlar çoxaldılırdı. Ç.K.Oqden sübut edirdi ki, dünya əhalisinin yarısı ingilis dilini ümumdünya dili hesab edir.

XX əsrin ortalarından başlayaraq ingilis dilindən elmi konfranslarda daha geniş istifadə olundu. Hətta bir çox elmi jurnalların sonunda xülasələr bu dildə verildi. Deməliyik ki, bəzi jurnallar indi də bu ənənəni davam etdirir.

b) İngilis dilində müəyyən dəyişiklik etməklə onu ümumdünya dili kimi seçmək. Hələ XIX əsrin ortalarında C.Bredşou dəyişdirilmiş, sadələşdirilmiş ingilis dili layihəsini Londonda çap etdirmişdi. Burada ingilis dilinin beynəlxalq dilə keçməsinin planını vermiş və yollarını göstərmişdi. İngilis dilində müəyyən dəyişiklik etməklə onu ümumdünya dilinə çevirməyə dair onlarca layihə hazırlanıb çap olunmuşdur. Bunlardan ən geniş yayılanı Beysik İnqliş (əsas deməkdir) adlanır. Onun müəllifi Ç.K.Oqden ictimaiyyətə təqdim etmək üçün hazırladığı layihəni 1932-ci ildə çap etdirmişdir.

Ç.K.Oqden ingilis dili üzərində əməliyyat apararaq onun leksikasını ixtisar etmiş və qrammatikasını sadələşdirmişdir. Onun fikrincə, mövcud ingilis dilində olan 200000 sözü azaldıb 850 sözlə əvəz etmək olar. Bunlar nitq hissələrinə görə belədir:

İsim – 600 söz
Sifət – 150 söz
Köməkçi söz – 100 söz

Göründüyü kimi, Oqden leksik vahidlərin miqdarını son dərəcə azaltmaqla dili yığcamlaşdırmağa və asanlaşdırmağa doğru istiqamət götürmüşdü. O, başqa anlayışları, xüsusilə elm sahələri ilə bağlı fikirləri bildirmək üçün göstərilən lüğət tərkibinə yeni leksik vahidlərin artırılmasını münasib və zəruri hesab etmişdir.

Oqdenin layihəsi İngiltərədə və Amerikada müsbət qarşılanmışdır. Hətta dövlət xadimləri (Çerçili, Trumen) bu layihəni yüksək qiymətləndirərək onun yayılmasını məsləhət bilmişlər. Lakin bu layihə geniş yayıla bilməmişdi. Bunun əsas səbəblərindən biri bu idi ki, ingilis dilinin ümumdünya dili olmasını hamı istəmirdi. Bəzi alimlər onun çətin orfoqrafiya və tələffüzə malik olduğunu əsas səbəb kimi göstərirdilər. Hətta XIII əsrdən qalma orfoqrafik qaydalar bugünkü ingilis dilində işlənilir. İngilis orfoqrafiyasını fonetikləşdirmək üçün bir çox elmi məqalə və əsər dərc edilmiş, lakin heç bir nəticə verməmişdi.

İngilis dilinin ümumdünya dili roluna daxil olmasını əksər xalqlar yaxın qoymurdu. Yaxın Şərqdə, Cənubi Amerikada, Hindistanda, Pakistanda, Seylonda və başqa ölkələrdə açıqdan-açığa narazılıq və etiraz bildirilirdi. Ümumdünya dili problemində bir dil göstərənlərlə yanaşı, iki, üç və daha artıq dilin müvazi işlənilməsini də irəli sürənlər olmuşdu. Məsələn, XIX əsrin sonunda fransız Gedoz üç dilin rəsmi beynəlxalq dil olmasını tələb etmişdir:

1) Fransız dili;
2) İngilis dili;
3) Alman dili.

Alman filoloqu Dils aşağıdakı dilləri məsləhət bilmişdir:

1) Alman dili;

2) İngilis dili;

3) Latın dili.

Bu barədə fransız dilçisi Adber Dozanın (1877–1955) fikri daha maraqlıdır. O deyirdi ki, əvvəla, vahid ümumdünya dilindən əl çəkməli. Bu məqsədlə bir deyil, bir sıra beynəlxalq dillərdən istifadə olunmalı, hər sahə üçün bir beynəlxalq dil işlədilməlidir.

Məsələn:

Beynəlxalq dillər
- *fransız dili* – riyaziyyatda
- *ingilis dili* – siyasi-iqtisadda
- *alman dili* – kimyada
- *italyan dili* – musiqidə və s.

Bu yolla problemi həll etmək qeyri-mümkün olduğu üçün onun tərəfdarları olmamışdır. Ümumdünya dili roluna inkişaf etmiş hər hansı bir dili irəli sürmək olar. Lakin bu məqsədlə nəzərdə tutulan dilin sahibi olan xalq, təbii ki, dil öyrənməyə vaxt sərf etməyəcəkdir. Başqa xalqlar isə bu dilə yiyələnənə kimi həmin dilin sahibi olan xalq elm, ədəbiyyat və mədəniyyət sahəsində çox-çox irəli gedə bilər. Bunun da nəticəsində xalqlar arasında ciddi fərqlər, ziddiyyətlər və nəhayət, böyük siyasi problemlər meydana gələr. Elə buna görədir ki, dünyanın heç bir xalqı bəşəri dil problemini bu yolla həll etməyə razı olmur.

3. KİÇİK XALQLARDAN BİRİNİN DİLİNİ GÖTÜRMƏK NƏZƏRİYYƏSİ

Ümumdünya dili probleminin həlli üçün irəli sürülmüş nəzəriyyələr içərisində "kiçik xalqların" birinin dilini götürmək mülahizəsi də marağa səbəb olmuşdur. G.Me-

yer azsaylı xalqların dilindən ümumi dil yaratmaq tərəfdarı idi. Bu fikri müdafiə edənlər müəyyən cəhətə əsaslanırdılar. O da bu idi ki, "böyük xalqın" dilini qəbul etmək qəsbkarlıq olar. Burada siyasi məsələlər ictimai məsələlərlə qarışıb dolaşıqlıq yaradır və s.

Hüqo Şuxardt xalqları böyük və kiçiyə bölməyi tənqid edirdi. Onun fikrincə, xalq xalqdır. Onun böyüyü, kiçiyi yoxdur. Əhalinin sayı xalqı bu şəkildə bölmək üçün meyar ola bilməz.

4. BÜTÜN DÜNYA DİLLƏRİNİN QOVUŞMASI NƏZƏRİYYƏSİ

Dünya dillərinin qaynayıb-qarışması – qovuşması əsasında ümumdünya dilinin yaranması fikri elmi ədəbiyyatda xüsusi yer tutur. Dilçilərin və sosioloqların bu barədə görüşləri, nəzəri baxışları əsasında maraqlı interlinqvistik nəzəriyyə meydana gəlmişdir. Bu nəzəriyyə öz zənginliyi və konsepsiya müxtəlifliyinə görə digərindən əsaslı şəkildə fərqlənir.

Mövcud dünya dillərinin qovuşması əsasında ümumdünya dilinin yaranmasına dair nəzəriyyənin bir neçə yolu və variantları vardır:

a) Dillərin çarpazlaşması nəzəriyyəsi;

b) Zona dilləri nəzəriyyəsi;

c) Etnik dillərin birlik dilində qovuşması nəzəriyyəsi.

Bunların hər üçündə dillərin yaxınlaşmasından, qovuşmasından bəhs edilirdi. Lakin yolları müxtəlif formada göstərilirdi.

a) DİLLƏRİN ÇARPAZLAŞMASI NƏZƏRİYYƏSİ

Dillərin bir-biri ilə çarpazlaşması fikri bir sıra alimlər tərəfindən hələ XIX əsrdə meydana atılmış və müdafiə edilmişdi. Dilçilikdə naturalizm cərəyanının banisi Avqust

Şleyxer dillərin inkişafında çarpazlaşmanın xüsusi rolu olduğunu qeyd edirdi. O, dillərin *çarpazlaşma* yolu ilə inkişaf etdiyini nəzəri cəhətdən əsaslandırmağa böyük səy göstərmişdi. Yeri gəlmişkən deməliyik ki, bir sıra dilçilik terminləri kimi, "çarpazlaşma" termini də təbiət elmlərindən götürülmüşdür.

XX əsrdə dillərin gələcəkdə çarpazlaşacağı ideyası geniş yayılmış və onun tərəfdarları çoxalmışdı. Dünya dillərinin tədricən yaxınlaşması, bir-birinə keçməsi, çarpazlaşması nəticəsində onların vahid ümumdünya dilinə istiqamətlənməsi ideyasını XX əsrin əvvəllərində akademik Marr daha da inkişaf etdirmişdi. Marr dillərin çarpazlaşmasını onların inkişafı hesab etmişdi: "Dilin özünün təşəkkülündə və təbii ki, dillərin sonrakı inkişafında çarpazlaşma əsas rol oynayır"[1].

Dillərin çarpazlaşması nəticəsində bir dilmi qalib gəlir, yoxsa yeni dilmi yaranır? Bu sual dilçilikdə hələ də mübahisəli olaraq qalır.

b) ZONA DİLLƏRİ NƏZƏRİYYƏSİ

Bu, dilçilikdə ən maraqlı nəzəriyyədir. Ümumdilə doğru gedən prosesdə zona dillərinin yaranacağı ideyası rüşeym halında olsa da, XIX əsrdən meydana gəlməyə başlamışdı. Lakin bu ideya XX əsrin 50-ci illərində aydın şəkildə özünü büruzə vermişdi. 1951-ci ildə fransız alimləri Fuşe və Tomnero dünyanı dil zonalarına bölməyi təklif etmişlər. Onlar zonalarda iki və ya üç rəsmi dilin olmasını məsləhət bilmişlər. Dünyanın zona dilləri, təxminən belə təsəvvür edilmişdi. Deyək ki, Qərbdə ingilis və fransız dili, yaxud ingilis-fransız-alman dili; Şərqdə çin və ya yapon dili, yaxud çin-yapon-vyetnam dili və s.

[1] Н.Я.Марр. «Предисловие». Сб. "Языкознание и материализм". Т. 2, М., с.245.



Cədvəl 19.

Dillərin zona nəzəriyyəsində dünyanın neçə zonaya bölünməsi haqda konkret fikir söylənilmir. Lakin zona dillərinin mərhələlərlə qovuşacağı 19-cu cədvəldə olduğu kimi göstərilir. Yəni I mərhələdə zona dilləri yaranır, II mərhələdə bunlar daha böyük zonalarda (A–B) birləşir, III mərhələdə isə zonaların dilləri kəndirvari qovuşub ümumdünya dilini yaradır. Zona ideyası tərəfdarlarına görə, belə prosesin müəyyən hissəsində yerli etnik dillərlə təklif olunan zona dilləri müvazi işlənəcəkdir. Bu fərziyyədir, onun həqiqi olacağını ancaq gələcək göstərə bilər.

c) ETNİK DİLLƏRİN BİRLİK DİLİNDƏ QOVUŞMASI NƏZƏRİYYƏSİ

Bütün dünyadakı etnik dillərin bir dildə qovuşacağı ideyası XIX əsrdə meydana gəlmişdi. XIX əsrin məşhur alimlərindən Fransua Mari Şarl Füre (1772–1837) "Ümumdünya birliyi nəzəriyyəsi" adlı əsərində yazırdı: "Xalqlar arasında münasibətlər o dərəcədə aktuallığa gəlib çatacaq

ki, bütün dillər bir dildə – birlik dilində qovuşacaq...” Dillərin qovuşması dedikdə, həm bir-birinə qohum, həm də biri digərinə yad sistemli olan dillər nəzərdə tutulur. Bu nəzəriyyənin *başlıca konsepsiyası* belədir: yerli, etnik dillərlə nəzərdə tutulan ümumi dil müvazi işlənir, prosesdə milli dillər tədricən, ayrı-ayrı dövrlərdə *inteqrasiyaya uğrayıb* sıradan çıxır, ölü dillər sırasına keçir, həmin xalq isə başlıca ünsiyyət üçün ümumi dildən istifadə edir.

Milli dillərin inteqrasiyaya məruz qalması nəticəsində ölü dilə çevrilməsi son dərəcə ağır gedən prosesdir. Tarixi faktlar göstərir ki, uzun illər müəyyən ərazidə yaşayıb ətraf dil mühitinin daimi təsirində olan bir çox dillər indiyə kimi inteqrasiyaya uğramamış, müstəqil olaraq yaşamaqdadır. Məsələn, Quba rayonu ərazisindəki Xınalıq dilində az miqdar danışan vardır. Bu dilin tərkibində Azərbaycan sözləri çoxdur. Lakin dil hələ inteqrasiyaya uğramır, yaşayır və sahibinə ünsiyyət vasitəsi kimi xidmət edir.

Dilçilərin və eləcə də müxtəlif ixtisaslı interlinqvistlərin fikrincə, dillərin inteqrasiyaya uğraması prosesini sürətləndirmək üçün heç bir “süni tədbir” həyata keçirmək mümkün deyildir. Bu prosesin yolu ancaq təbii və tədrici olmaqdır.

Ümumdünya dilinin inteqrasiya (unifikasiya) yolu ilə əmələ gəlməsi nəzəriyyəsinin tərəfdarları indi də bunu müdafiə edir və belə bir konsepsiyanın həyata keçəcəyinə ümid bəsləyirlər.

10.8. GƏLƏCƏK İNSANLAR ÜÇÜN ÜMUMBƏŞƏRİ DİL ZƏRURİLİYİ

Bəşəriyyətin bu günü və sabahı ilə bağlı bir çox ictimai və sosial problemlər vardır ki, onların həlli ciddi şəkildə

qarşıda durur[1]. Bunlardan biri şifahi və yazılı ümumbəşəri ünsiyyət vasitəsinin yaradılmasıdır. Bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, hələ lazımi elmi və praktik nəticələr əldə edilməmişdir.

1. VAHİD ÜMUMDÜNYA DİLİ GƏLƏCƏYİN ZƏRURİ PROBLEMİ KİMİ

Elm və texnika günü-gündən çox sürətlə inkişaf edir. İndi yerdən göyə yeni-yeni arzularla uçuşlar olur. Göydən yerə zəkanın təsiri ilə ağlagəlməz elmi nəticələr enir. İnsan fəaliyyətinin bütün sahələri üzrə ümumbəşəri kəşflərin meydana çıxması, mətbuat və nəşriyyat orqanlarının çoxalması, çoxdilli radio və televiziya verilişlərinin müxtəlif mövzularda artması, elmi tədqiqatın, kosmosun öyrənilməsinin genişlənməsi, hər cür elmi-texniki tərəqqi ümumi ünsiyyətə olan tələbi bir daha artırır. İndi 20-30 dil bilmək də müasir nailiyyətləri öyrənməyə kifayət etmir. Buna görə də gündən-günə elmi işçilərin vəziyyəti ağırlaşmağa doğru gedir. Hazırda hər bir elmi işçi vahid dilin olmamasını ciddi şəkildə hiss edir. Vahid dil çatışmazlığı çoxdilli ədəbiyyatı oxumaq üçün həddən çox vaxt və qüvvə aparır. Cəmiyyətin bütün təbəqələri arasında vahid ümumünsiyyət vasitəsinə – ümumi dilə olan tələbat ildən-ilə çoxalır.

Dünyaya bir dil gərəkdir. Ümumi dil çoxmillətli cəmiyyətimizin birləşməsində xüsusi rol oynaya bilər. Buna görə də dil birliyi zərurət kimi meydana çıxır. Bu dil bütün dünyadakı insanlar arasında zəruri əlaqə və anlaşma yaradar, onun möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb edər.

Vahid ümumdünya dili yaratmaq mümkündürmü? Bu suala cavab verməzdən əvvəl iki anlayışın fərqinə varmaq la-

[1] Müasir aləmdə dünya ictimaiyyətini düşündürən ən zəruri linqvistik problemlər bunlardır: a) vahid ümumdünya dili; b) vahid əlifba sistemi; c) universal durğu işarələri; ç) universal rəqəmlər sistemi. Bunların hamısı bir-birilə bağlı məsələdir.

zımdır. Bunlardan biri *"dünya dili"*, digəri isə *"vahid ümumdünya dili"*dir.

"Dünya dili" termininin ifadə etdiyi anlayış dar həcmlidir. Belə ki, indi dünya dilləri adlanan dillər vardır. Məsələn, BMT altı dili dünya dili adlandırmışdır. Bu dünya dillərinin sayı arta da bilər.

"Vahid ümumdünya dili" termini ilə bildirilən anlayış isə çox geniş həcmlidir. Bu, cəmiyyət üçün bir dil, bütün dünyanın bir dili olması anlayışıdır. Buna görə də bu iki anlayışı bir-biri ilə qarışdırmaq olmaz.

Ümumdünya dili dedikdə, ardıcıl iki dil nəzərdə tutulur. Bunlardan birincisi vahid *köməkçi* ümumdünya dili, ikincisi vahid *əvəzedici* ümumdünya dilidir.

Bunlardan köməkçi dil milli dillərlə birlikdə işlənəcək, ikinci dil isə bütün dilləri əvəz edəcək, yeganə başlıca ünsiyyət vasitəsi olacaqdır.



Cədvəl 20.

Vahid ümumdünya dili yaratmaq cəmiyyətin böyük arzusudur və bunun həyata keçməsi mümkün haldır. Bəşəriyyətin tarixi təcrübəsi göstərir ki, insanlar indiyə kimi, ümumdünya xarakterli bir çox məsələlərə nail olmuşlar. Məsələn, hər bir bəstəkar başqa-başqa ölkələrin bəstəkarlarının bəstələdiyi mahnını musiqi notları ilə oxuya bilir. Hava və dəniz nəqliyyatında işlənən kodlar bütün millətlərdən olan nəqliyyatçılar tərəfindən asanlıqla istifadə

edilə bilir. Riyaziyyat, fizika və kimya elmindəki işarələr universal olduğu üçün alimlər bir-birinə oxuyur və başa düşürlər. Eləcə də əksər yazılardakı rəqəmlər ümumi səciyyəlidir. Ərəb mənşəli rəqəm işarələrini deyək ki, 3, 5, 6 və s. ingilis, alman, fransız, rus, azərbaycanlı və yüzlərcə digər xalqlar eyni cür yazır və eyni mənada da başa düşür.

Deməli, tarixən toplanmış ictimai təcrübələr və əldə edilmiş ümumi nailiyyətlər nəticəsində bütün dünyanı eyni dildə danışdırmaq üçün vahid bəşəri dil yaratmaq olar. Akademik Marr çox doğru demişdir: "İnsan dilinin yolu – çoxdillilikdən vahid dilə doğrudur"[1].

Vahid ümumdünya dili nə vaxt və necə yaranacaqdır? Bu suallara cavab vermək – yəni elə bir dilin yaranacağına dair vaxt göstərmək və ya konkret yollar müəyyənləşdirmək hələ çətindir. Lakin bununla belə, deməliyik ki, *gələcəyin vahid dili problemi* müasir dünya elminin gündəliyindədir.

Vahid gələcək dili yaratmaq problemi heç də hamı tərəfindən eyni mənada qarşılanmamışdır. Dünyanın bir sıra alim və sənət sahibləri belə bir dil haqqında düşünməyi lüzumsuz hesab etmişlər. Onların fikrincə, heç bir xalq doğma dilini atıb, yad dili götürməz.

Vahid ümumdünya dili yaratmaq tərəfdarları çox olmuş, lakin bunların da arasında fikir müxtəlifliyi hökm sürürdü. Belə ki, elm aləmində vahid ümumdünya dili probleminin müasir dövrdə qaldırılmasına dair iki əks istiqamətli fikir meydana çıxmışdı.

1) Bəzi alimlər ümumdünya dili məsələlərini həll etməyə başlamağın hələ tez olduğunu, bunun vaxtı çatmadığını iddia edirdilər.

2) Əksər interlinqvistlər isə gecikmədən bu məsələyə başlamaq zəruriliyini irəli sürürdülər.

[1] Bax: Н.Я.Марр. «Абхазский аналитический алфавит». Изб.работы. Т.2, с.328.

Vahid ümumdünya dili yaratmaq prosesinə indidən başlanılmışdır. Hazırkı zaman bu dili yaratmaq ideyasının geniş təbliği və tədricən praktik həyata keçirilməsi ilə ciddi məşğul olmaq dövrüdür. Bunun yolları böyük zəhmət və ağıllı planlar tələb edir. Gələcəyin ümumdünya dili zəmanəmizdə ana dili – milli dillərlə müvazi işlənən ünsiyyət vasitəsi rolunda özünü göstərməlidir. Bu dil (19-cu cədvəldəki kimidir) I mərhələdə köməkçi, II mərhələdə isə əvəzedici – vahid ümumdünya dili olacaqdır.

	I mərhələ		*II mərhələ*
MİLLİ DİLLƏR	**köməkçi dil**	→	**əvəzedici dil**

Cədvəl 21.

Ümumbəşəri dil az vaxtda deyil, bir çox yüzillik ərzində işlənib hazırlana bilən çətin problemdir. İnsanlığın vahid dilə keçməsi prosesi çox tədrici olmalı, mərhələ-mərhələ həyata keçirilməlidir. Ümumdünya dilinin əsasını hansı növ dil təşkil edəcəkdir? Bu haqda dəqiq mövqe müəyyənləşməlidir. Hələlik ikilik konsepsiyası hökm sürür. Vahid dilin əsasını ya canlı dillərdən, ya da süni dil layihələrindən biri təşkil edə bilər. Bunu tarix göstərəcəkdir. Vahid ümumdünya dilinin formalaşması və inkişaf etməsi ilə əlaqədar iki fikir mövcuddur:

1. Bəzi alimlər bu dil prosesinə qarışmağı məsləhət bilməmişlər. Onların fikrincə, gələcəyin ümumi dili özbaşına yaranıb formalaşmalıdır. Burada heç bir linqvistik və ya ictimai tədbir görülməməlidir. Bir sözlə, burada toxunulmazlıq prinsipi gözlənilməlidir.

2. Ümumdil problemi ilə məşğul olanların əksəriyyəti bu prosesin izlənməsini, ona istiqamət verilməsini zəruri hesab etmişlər. XX əsrin əvvəllərindən başlayaraq bir çox məşhur dilçi alim bu fikrə tərəfdar çıxmış və onu daha da möhkəmləndirmişdir. Akademik Marr deyirdi ki, insanlığın istifadə etdiyi minlərlə dildən bir dilə keçməsi üçün praktik tədbirlər görülməlidir. Belə tədbirlər bu prosesin sürətlə artmasına kömək edər.

Vahid dünya dili yaratmaq ümumbəşəri elmi-mədəni və ictimai-siyasi problemdir. Buna görə də ümumbəşəri dil yaratmaq bir adamın işi deyildir. Bu böyük və məsuliyyətli vəzifəni yerinə yetirmək üçün bütün dünya ziyalılarının qüvvəsi birləşdirilməlidir. Bunun həllində dilçilərlə bərabər, bütün elm sahələrinin, o cümlədən filosof, sosioloq, məntiqşünas və təbiət elmləri nümayəndələrinin birgə səyi tələb olunur. Lakin bu problemin başa çatması başqa elm sahələrinə nisbətən dünya dilçilərinin üzərinə daha çox ciddi vəzifələr qoyur.

2. *GƏLƏCƏYİN VAHİD DİLİ*

Gələcəyin vahid dili necə olacaq? Bu dil hansı linqvistik keyfiyyətləri özündə əks etdirəcəkdir? Bu suallar olduqca çətin və mürəkkəbidr. Çünki bunların obyektiv cavabının müəyyən hissəsi uzaq gələcəklə bağlıdır. İndi bu haqda ancaq fərziyyə xarakterli cavablar üzərində düşünmək olar.

Vahid ümumdünya dili problemindən bəhs edən interlinqvistlər gələcək insanlar üçün ünsiyyət vasitəsinin necə keyfiyyətlərə malik olmasına toxunmuş və canlı dillərin yüksək əlamətlərini bu dildə görmək istəmişlər. Akademik Marr deyirdi: “Gələcək insanlığın ümumi dili ölü və canlı dillərin zənginliyini özündə əks etdirəcəkdir”.

Vahid ümumdünya dili arzu edənlər bu dilin sadə, aydın, məntiqli olmasını, sözlərin az, mənanın dəqiqliyini, lüğət tərkibinin zənginliyini, qrammatikanın yığcamlığını tələb etmişlər. Bununla yanaşı, bütün xalqları təmin edəcək bu dilin obrazlı, emosional və təsirli olmasını zəruri keyfiyyət hesab etmişlər. Alman diplomatı Avqust Qrimm bu dilin poetik xüsusiyyətləri üçün İtaliya dilinin keyfiyyətlərini nümunə göstərmişdir. Həqiqətən, poeziya İtaliya dilində gözəl səslənir. Lakin türk dillərinin ahəngdarlığını heç bir dillə müqayisə etmək olmaz.

Vahid ümumdünya dili ümumi fonetik, lüğət tərkibi və ümumi qrammatikaya malik olmalıdır.

Ümumi fonetika. Vahid bəşəri dilin ümumi səviyyəli fonetikası necə təsəvvür edilməlidir? Məlumdur ki, müasir milli dillərdən istifadə edilən fonemlərin miqdarı müxtəlifdir. Məsələn, alman dilində 43, rus dilində 39, fransız dilində 33 fonem vardır. Başqa dillərdə fonemlərin sayı bunlardan daha azdır. Məsələn, elə dil var ki, orada cəmi 13 fonemdən istifadə edilir. Alman alimi H.Lauberq yaratdığı süni dil üçün cəmi 20 fonem müəyyən etmişdi. O, bu fonemlərin köməyi ilə bir, iki, üç, dörd və beş fonemdən ibarət 3368420 söz yaratmışdır. Deməli, fonemin sayı artdıqca düzəldilən sözlərin də miqdarı çoxalır, bunun üçün imkan yaranır. Buna görə də vahid ümumdünya dilinin fonetik sistemi bütün dillərin fonoloji tələblərini ödəyə biləcək miqdarda fonemlərdən ibarət olmalıdır.

Ümumi leksika. Vahid ümumdünya dilinin leksik tərkibinin necə olacağı çox maraqlı məsələdir. Məlumdur ki, söz dilin başlıca vahidlərindəndir. Sözsüz dil mövcud deyil və ola da bilməz. Hər söz müəyyən məna ilə bağlıdır. Vahid ümumdünya dili üçün sözlər hansı prinsiplərə görə seçiləcək? Bu sual interlinqvistləri çox düşündürür.

Hər şeydən əvvəl, şübhəsiz ki, aydın mənalı və hamı üçün asan mənimsənilən sözlər və xüsusi terminlər bu dilin lüğət tərkibinin əsasını təşkil edəcəkdir. İndidən bir qrup söz və termin beynəlmiləl səciyyəli olub, gələcək vahid dilin ilk ünsürləri kimi yavaş-yavaş formalaşmaqdadır.

Müasir dövrdə, demək olar ki, dünyanın bütün ölkələrində elmin, ədəbiyyatın, musiqinin, texnika və idmanın bir çox terminləri ümumxarakter daşıyıb eyni mənadan istifadə edilir. Məsələn, *ölçü, çəki, silah, vahid, təqvim, xəstəlik, dərman, musiqi, alət, müxtəlif geyim və əşya adları* və s. Elm, mədəniyyət və iqtisadiyyatla bağlı terminlərdən başqa bir sıra *bitki və heyvan adları*, *coğrafi* obyektlərin adları da dünya dillərində eyni forma və məzmunda işlənilir. Bütün bunlar və bu tipli leksemlər vahid ümumdünya dilinin lüğət tərkibində xüsusi yer və rola malik ola biləcəkdir. Bu proses get-gedə çoxalır, bunlar ümumdünya dilinin zəruri ünsürləri kimi təsəvvür olunmalıdır. Mövcud dillərin leksikasının beynəlmiləlləşdirilməsi gələcək vahid ümumdünya dili üçün olduqca zəruri linqvistik prosesdir. Beynəlmiləl leksika məsələsi dilçilik elmində dəfələrlə qaldırılmışdır. Lakin bu məsələ ilə bağlı görüləcək işlər hələ çoxdur.

Ümumi qrammatika. Vahid ümumdünya dili üçün, heç şübhəsiz, asan və sadə qrammatika olmalıdır. Dildə belə qrammatik quruluşu yaratmaq mümkündür. Bunu indiyə kimi hazırlanmış süni dil yaratmaq təcrübəsi aydın surətdə göstərir. Həmin dil layihələrinin bəzisində – Esperantoda az miqdar qrammatik forma və vasitədən istifadə etməklə məqsədə tam nail olunur. Çoxdilliliyin aradan çıxması, dünyanın vahid dildə danışa bilməsi olduqca uzun sürən bir prosesin nəticəsidir. Bununla əlaqədar bir çox tədbirlər həyata keçirilməli, elmi-linqvistik, ictimai-sosial istiqamətlərdə işlər görülməlidir.

Hər şeydən əvvəl, bu məqsədlə geniş və dəqiq olan əsasda hazırlanmış vahid ümumdünya dili layihəsi hər növ təcrübədə sınaqdan keçirilməli, dünyanın hər yerinə yayılmalı, beynəlxalq konqreslərdə müzakirə edilməli, teleradio verilişləri ilə tədricən təbliğat işləri aparılmalıdır. Bu cür tədbirlərin planlı və ardıcıl təşkili əsasında bütün bəşəriyyət vahid dildən istifadə etmək arzusuna müvəffəqiyyətlə çata bilər.

VI BÖLMƏ

DİL TƏDQİQİNİN MƏRHƏLƏLƏRİ VƏ METODLARI

XI FƏSİL

DİLÇİLİK TƏDQİQATININ MƏRHƏLƏLƏRİ

DİLÇİLİK TƏDQİQATI VƏ ONUN AKTUALLIĞI

Bütün təbiət və cəmiyyət hadisələri kimi, dil də öz yaranışı, mənşəyi, inkişaf tarixi və müasir mənzərəsi etibarı ilə olduqca zəngin hadisə və qanunauyğunluqlardan, rəngarəng vahidlər sistemindən ibarətdir. Bu cür mürəkkəb bir prosesin elmi təhlilini vermək, buradakı obyektiv hadisə və qanunauyğunluqları aşkar etmək, hər hansı bir dilin spesifik xüsusiyyətlərini müəyyənləşdirmək və s. problemlər dilçilik tədqiqatlarında aşkar olur.

Müasir dövrdə başqa sahələrə aid elmi tədqiqatlar kimi, dilçilik üzrə aparılan elmi-tədqiqat işlərinin də təşkili xüsusi əhəmiyyətli məsələlərə aiddir. Buna görə də ölkəmizdə istər nəzəri, istərsə də tətbiqi xarakterdə olan hər növ dilçilik tədqiqatı müasir elmin vəzifələrindən irəli gələn tələblərlə üzvi surətdə uzlaşır.

Son illər ərzində ölkədə dövlət sənədlərində həm ictimai elmlər, həm də təbiət və texnika elmləri sahəsində elmi tədqiqatların inkişafı üçün ən başlıca istiqamətlər müəyyən edilmiş və müasir dövr üçün vacib problemlərin həlli qarşıya məqsəd qoyulmuşdur. Azərbaycan dilçiliyi elmi tədqiqatların inkişafı üçün dövlət tərəfindən müəyyən edilmiş istiqamətlərdən yeni, həlledici istiqamət almışdır.

Əsrimizdə bütün elmlər kimi, dilçilik də çox sürətlə inkişaf edir. İndi dilçilik üzrə elmi-tədqiqat işlərinin sahəsi

çox əhatəli və rəngarəngdir. Burada aktual problemlərin həlli ön plana çəkilmişdir ki, bu da dilçilik elminə verilən tələbin nəticəsidir.

Azərbaycan dilçilik tədqiqat işləri müxtəlif idarə və müəssisələrdə görülür. Məsələn, respublikamızda Elmlər Akademiyası sistemində müstəqil Dilçilik İnstitutu fəaliyyət göstərir. Bu elmi müəssisə ölkəmizdə *dilçilik mərkəzi* hesab olunur. Dilçilik tədqiqatları elmi-tədqiqat institutlarından başqa ali məktəblərin dilçilik kafedralarında da aparılır. Respublikamızda dilçilik tədqiqatlarının çap edilməsinə xüsusi şərait yaradılır. Elmi-tədqiqat işləri öz dilimizdə nəşr olunmaqla yanaşı, başqa dillər vasitəsilə də geniş oxucu kütləsinə çatdırılır.

11.01. DİLÇİLİK EİMİ-TƏDQİQAT İŞLƏRİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Dilçilik tədqiqatının özünəməxsus bir sıra səciyyəvi xüsusiyyətləri vardır.

Dilçi alimin həmin xüsusiyyətlərə bələd olması onun bu sahədə elmi-tədqiqat işini müvəffəqiyyətlə aparması üçün zəmin yaradır.

1. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, dilçilik tədqiqatı riyaziyyat elmi kimi olduqca *dəqiqlik* tələb edir. Yəni dil hadisələrinin şərhində gətirilən misallar hər hansı kateqoriyanı özündə dəqiq əks etdirməlidir. Əks təqdirdə, irəli sürülən ideya inandırıcı ola bilməz.

2. Məlumdur ki, dildən hər an istifadə əsasında insanlarda belə bir təsəvvür oyanır ki, guya, onlar dili *elmi-nəzəri* cəhətdən bilirlər. Lakin dildən praktik olaraq bacarıqla istifadə etmək, sözləri yerli-yerində işlətmək, semantik incəlikləri nəzərə almaq, düzgün cümlə qurmaq

və onun tərkibində söz sırasına riayət etmək və s. bütün bunlar hələ dilin hadisə və qanunlarını nəzəri cəhətdən mənimsəməyin sübutu deyildir. Dil hadisələrini obyektiv şərh etmək üçün dilçi-tədqiqatçının minimum dilçilik biliyi ilə silahlanması gərəkdir. Çünki filoloji təhsil olmadan tədqiqatçı dil hadisələrini düzgün təhlil etməyi bacarmaz.

Dilə dair tədqiqatda dilçi həssaslığı özünü göstərir. Dilçi başqasının dildə görə bilmədiyini görmək, seçə bilmədiyni seçmək, hiss edə bilmədiyini hiss etməklə fərqlənir.

Dilçilik tədqiqatında dil bütövlükdə tədqiqata cəlb olunur. Buna görə də dilçi-tədqiqatçı dili hərtərəfli öyrənməyi qarşıya məqsəd qoyur. Tədqiqat prosesində dilin bütün məsələləri – həm də ümumi və konkret cəhətləri araşdırılıb təhlil edilir.

3. Bütün dilçilik tədqiqatları öz *elmi-nəzəri bazasına* əsaslanır. Məlumdur ki, başqa ictimai elmlər kimi, dilçiliyin də özünəməxsus nəzəri bünövrəsi vardır ki, bu onun əsasını təşkil edir. Buna görə də dilçi-tədqiqatçı hər şeyi yenidən başlamayıb, əsrlərdən bəri yaranıb gələn nəzəri görüşləri öz tədqiqatı ilə əlaqələndirməyi bacarmalıdır. Bunsuz hər hansı bir tədqiqatçı yüksək səviyyəli elmi iş yarada bilməz. Dilə dair hər bir yeni tədqiqat dilçilik biliklərinin davamı olub onların dərinləşməsinə, tamamlanmasına və nəhayət, dilçilik elminin inkişafına xidmət edir.

4. Hər bir dilçilik tədqiqatının mərkəzində fəlsəfi müddəalar durur.

Məlumdur ki, bütün hadisə və proseslər bir-biri ilə üzvi surətdə bağlı, biri digərindən asılı olur, bunlar dəyişikliyə uğrayır və inkişaf edir. Dil hadisə və vahidləri də bu xüsusiyyətlərə malikdir.

5. Dilə dair tədqiqat işin forması, təşkili, təhlilə cəlb edilmiş materialın xarakteri ilə əlaqədar *çətin* və ya *asan* ola

bilir. Məsələn, dildəki semantik proseslərin tədqiqi olduqca mürəkkəb məsələlərdən biridir.

6. Dilçilik tədqiqatı üçün bir neçə *mənbə* vardır. Dilçilər öz tədqiqatları üçün ancaq bir mənbədə – istifadə etdikləri ədəbi dildə material axtarmırlar. Elmi işin məqsəd və vəzifəsindən asılı olaraq ədəbi dillə yanaşı, xalq danışığı, dialekt və şivələr, şifahi və yazılı ədəbiyyat nümunələri, abidələr, arxiv salnamələri və sair dilçilik tədqiqatı üçün mənbə hesab olunur və bunlarda dilçilik axtarışları aparılır.

7. Dilə dair aparılan dialektik metodla yanaşı, bir sıra xüsusi metodlardan da istifadə olunur. Dilçilik tədqiqatında başqa elmə aid bəzi metodlara müraciət olunur, bunlar filolojiləşdirilir. Mövzunun və hadisələrin xarakteri ilə bağlı tədqiqat metodu dəyişə bilir. Ümumiyyətlə, dil vahidlərinin mənsub olduğu hər qrup üçün xüsusi metod müəyyənləşdirilir[1].

8. Dilçilik tədqiqatının müvəffəqiyyətlə aparılmasında dəqiq düşünülmüş *iş planının* rolu az deyildir. Məlumdur ki, insan fəaliyyətinin başqa sahələrində olduğu kimi, tədqiqat işinin də düzgün istiqamətdə getməsini təmin edir.

Dilçilik tədqiqatının planlaşdırılmasında iki məsələyə xüsusi fikir verilir:

a) Tədqiqatın *ümumi planı* tərtib olunur, burada işin mərhələləri müəyyənləşdirilir.

b) Tədqiqatın hər bir mərhələsinə dair xüsusi plan tərtib edilir, burada mərhələnin məzmun və mahiyyəti qeyd olunur. Mərhələlərin planında işin əsas bölmələri müəyyənləşdirilir, bunların arasındakı münasibət və ardıcıllıq göstərilir.

Beləliklə, dilçilik tədqiqatının planlaşdırılması da ən vacib məsələlərdəndir.

[1] Əsərin XII fəslində metod haqqında ətraflı bəhs olunur.

9. Başqa elmlərdə olduğu kimi, dilçilik tədqiqatında da iki nəticə – *elmi* və *əməli nəticə* gözlənilir. Hər hansı bir tədqiqat işində *ilk* və *son* nəticə olur. Alınmış ilk nəticələr əksərən *son nəticələrlə* tamamlanır.

11.02. DİLÇİLİK TƏDQİQATININ MƏRHƏLƏLƏRİ ANLAYIŞI HAQQINDA

Hər bir elmdə həmin elmin obyektinə dair və onunla əlaqədar problemlər həll olunur. Bütün elm sahələrində olduğu kimi, dilçilikdə də həll ediləsi problemlər çoxdur. Bu problemlərin hamısını eyni zamanda aydınlaşdırmaq qeyri-mümkündür. Bunlardan ilk növbədə dilçilik elminin inkişafı üçün daha vacib olan ən aktual problemləri seçmək zəruridir. Elmdə aktual problemləri müəyyənləşdirmək heç də asan məsələ deyildir. Elə buna görə elm aləmində belə bir fikir mövcuddur ki, problemi seçmək tədqiqatın yarısını yerinə yetirməyə bərabərdir.

Hər bir elmi problemi həll etmək üçün faktoloji material lazım gəlir. Hadisələri izləmək, elmi axtarışlar aparmaq, faktları üzə çıxarmaq, bunları təhlil etmək, elmi nəticələr söyləmək və s. bütün bunlar xüsusi proseslərdir. Dilçilik tədqiqatının bu prosesləri qanuni olaraq müəyyən mərhələlərdə hər hansı bir dil hadisəsinə dair fikir, ideya yaranır, inkişaf edir, formalaşır və tezisə çevrilir. Bu mərhələləri keçmədən heç bir həqiqi fikir söyləmək olmaz.

Dilçilik tədqiqatının müəyyən məqsəd və vəzifələrinin üç əsas mərhələsi vardır. Birincisi material toplamaq, ikincisi – toplanmış materialı qruplaşdırıb sistemə salmaq, üçüncüsü – qruplaşdırılmış materialın elmi şərhini vermək.

Elmi-tədqiqat prosesində bu mərəhələlərin tələblərinə riayət etmək başlıca şərtlərdəndir.

BİRİNCİ MƏRHƏLƏ – MATERİAL TOPLAMAQ

Dilçilik tədqiqatında material toplamaq onun birinci mərhələsini təşkil edir. Dilə dair aparılan elmi-tədqiqat işində bu mərhələ çətin olduğu qədər də məsuliyyətlidir. Belə ki, tədqiqatın düzgün nəticələnməsi materialın necə və nə qədər toplanmasından asılı olur.

1. TƏDQİQAT ÜÇÜN MATERİAL TOPLAMAĞIN ƏHƏMİYYƏTİ

Məlumdur ki, hər bir problemi həll etmək üçün lazımi material gərək olur. Materialsız tədqiqat aparmaq qeyri-mümkündür. Buna görə də tədqiqatçının birinci vəzifəsi seçdiyi mövzuya dair ilk növbədə material (özü də faktoloji material) toplamaqdan ibarətdir. Antik dövrün böyük mütəfəkkirlərindən biri olan Aristotel demişdir ki, əvvəlcə faktları toplamaq və sonra onları təhlil etmək lazımdır.

Fakt nədir? Fakt elmi biliyin əsasıdır. Elm faktlara əsaslanır. Akademik İ.P.Pavlov deyirdi: "Quşun qanadı nə qədər mükəmməl olsa belə, yenə də havaya istinad etmədən quşu yüksəklərə qaldıra bilməz. Faktlar da alimin havasıdır".

Dilin bu və ya digər cəhətinə aid hər hansı bir məsələni ətraflı şərh etmək üçün bir-iki fakta əsaslanmaq olmaz. *Fakt nə qədər çox olarsa,* tədqiq edilən hadisə bir o qədər dərin və doğru izah edilə bilər. Buna görə də geniş axtarış aparıb çox fakt toplamaq tədqiqatçı üçün ən vacib məsələlərdəndir.

Tədqiqat üçün toplanan material *doğru* və *düzgün*, *tam* və *ətraflı*, *dəqiq* və *konkret* olmalıdır. Çünki hər bir səmərəli elmi işin taleyi bu göstərilən cəhətlərlə möhkəm bağlı olur. Fakt toplayarkən tədqiqatçı həssas və ardıcıl olmalı, hər bir hadisəyə məsuliyyətlə yanaşmalıdır. Tədqiqat prosesində müşahidə olunmuş, hətta kiçik fakta belə səthi və formal

yanaşdıqda tədqiq edilən hadisə haqqında yanlış və ya dolaşıq mülahizələr söylənilə bilər. Buna görə də qeydə alınmış tədqiqat materiallarının mötəbərliyinə və obyektivliyinə nail olmağa ciddi səy göstərilməlidir.

2. MATERİAL TOPLAMAĞIN YOLLARI VƏ MATERİALI QEYDƏ ALMAĞIN FORMALARI

Dilçilikdə mövzu ilə bağlı olaraq faktik materialın *toplanması* və *qeydə alınması* prosesində bir sıra yollara və formalara müraciət edilir. Məsələn, tədqiqatçı özünün müşahidə etdiyi hadisə və faktları yazıya köçürür, yaxud bu və ya başqa məsələni bilmək üçün sorğu təşkil edir. Belə sorğu prosesində eyni zamanda müxtəlif vasitələrdən də istifadə olunur. Bütün bu vasitə və yollardan məqsədli və düşünülmüş şəkildə istifadə etmək elmi-tədqiqat işinin keyfiyyətini artırır.

Material toplamağın yolları. Dilçilik tədqiqatında material toplamağın, başlıca olaraq, iki yolu vardır. 1) Şəxsi axtarış yolu ilə material toplamaq; 2) Sorğu yolu ilə material toplamaq. Bu yollar mahiyyətcə bir-birindən fərqli olub, bütün elmi-tədqiqat işi üçün eyni dərəcədə gərək deyildir. Buna görə də tədqiqatçı işlədiyi mövzunun xarakterik tələbinə uyğun olaraq bu yolların birindən və ya hər ikisindən istifadə edə bilir.

1. Şəxsi axtarış yolu ilə material toplamaq. Məlumdur ki, hər bir tədqiqatçı seçdiyi mövzuya dair axtarışlar apararkən təsadüf etdiyi hadisə və faktların xüsusiyyətlərinə nəzər yetirir, müşahidə etdiyi cəhətləri qeydə alır. Dilçi də belə axtarışlar aparır və lazımi qeydlər edir. Bu şəxsi axtarışlar, ilk müşahidələr tədqiqatçının elmi işinin başlanğıcı, onun bünövrəsi olur. Dilçiliyin, demək olar ki, bütün şöbələrinə dair problemlərin tədqiqində şəxsi axtarış əsas yer tutur.

2. Sorğu yolu ilə material toplamaq. Dil faktları toplanarkən sorğu üsulundan da istifadə olunur. Sorğu iki formada aparıla bilir: a) yazılı sorğu; b) şifahi sorğu.

Yazılı sorğu. Tədqiqatçı, əsasən, məkanla əlaqədar bu və ya başqa faktı əldə edə bilmədikdə yazılı sorğudan istifadə edir. Yazılı sorğu zamanı tədqiqatçı maraqlandığı hadisəyə dair suallar tərtib edir və ayrı-ayrı yerlərə göndərir. Həmin suallara yerlərdən yazılı cavab alınır. Bu qayda ilə toplanılmış material sonradan tədqiqatçılar tərəfindən təhlil olunur.

Şifahi sorğu. Belə sorğu prosesində tədqiqatçının özü mütləq iştirak edir. Burada müsahibə yolu ilə vacib olan hadisələr aşkara çıxarılır və qeydə alınır.

Materialı qeydəalmanın formaları. Müşahidə edilmiş faktın, zəruri hesab edilən bütün materialın tam və düzgün qeydə alınması tədqiqat üçün əsas şərtlərdəndir. Belə ki, qeydəalınma zamanı yol verilmiş azacıq belə qeyri-dəqiqlik tədqiq olunan problem haqqında səhv nəticə söyləməyə gətirib çıxarır. Buna görə də ilk növbədə dilçi-tədqiqatçıdan hər faktı obyektiv şəkildə və çox diqqətlə qeydə almaq tələb edilir.

Dil faktları qeydə alınarkən yazı ləvazimatından geniş istifadə olunur. Materialı qeydə almanın, əsasən, üç forması mövcuddur:

1. Kartoçka tərtib etmək;
2. Anket doldurmaq;
3. Nitqi maqnitofonla yazmaq.

Bunlardan birinci və ikincinin metodikası nisbətən asandır. Lakin üçüncü forma, yəni nitqi maqnitofonla yazmaq tədqiqatçıdan xüsusi texniki hazırlıq tələb edir.

Məlumdur ki, hazırda dillərin xüsusiyyətləri bilavasitə gündəlik istifadə edilən müxtəlif üslublu şifahi və yazılı dil materialları əsasında öyrənilir. Bədii yazılarda dilin

bütün hadisələri deyil, ancaq bu və ya digər hadisəsi öz əksini tapır. Məsələn, dildə informasiyanın tədqiqində bədii mətn kifayət edə bilmir.

Şifahi nitqin xüsusiyyətlərini əl yazısı ilə bütün incəliyinə qədər, hərtərəfli qeydə almaq mümkün olmur. Belə ki, dildə əldə çətin qeyd edilən və tədqiqi zəruri olan çoxlu hadisə mövcuddur. Bu hadisələri tədqiqata cəlb etməkdə maqnitofon xüsusi əhəmiyyətə malikdir. Demək olar ki, maqnitofon xüsusi vurğu, intonasiya və s. hadisələrin qeydə alınmasında əvəzsiz vasitədir. Buna görə də maqnitofon yazısından dilçilik elmində son zamanlar geniş istifadə edilməyə başlanılmışdır.

Nitqin maqnitofonla yazıya alınmasında bir sıra şərtlərə əməl olunur. Bunlardan birincisi informantın düzgün seçilməsidir.

İnformant kim olmalıdır? Məlumdur ki, təsadüfi şəxslərin nitqini qeydə almaq tədqiqatçıya düzgün fakt verə bilmir. Məsələn, əgər tədqiqatçı Bərdə rayon şivələrini öyrənməyi qarşıya məqsəd qoyubsa, onda yerli sakinləri axtarıb tapmalıdır. Çünki həmin yerə sonradan köçüb gəlmiş şəxslərin nitqi tədqiqat üçün bir o qədər faydalı ola bilmir. Deməli, informant mütləq yerli şəxslərdən olmalıdır.

Nitq yazılarkən informantın yaşı da nəzərə alınır. Tədqiqatçıların təcrübələri göstərir ki, buraya həm gənc (17–27), həm orta (27–49) və həm də yaşlı nəslin (50–70) nümayəndələri cəlb edildikdə yaxşı nəticə əldə etmək olur. Maqnitofon yazısında informantın ixtisası, onunla ünsiyyət yeri və şəraiti xüsusi əhəmiyyət kəsb edir. İnformantların müxtəlif ixtisaslı (müəllim, məktəbli, aktyor, şair, kəndli...) olması məsləhət görülür. İnformantla ünsiyyət aparılarkən gərgin vəziyyət yaradılmamalıdır. Çünki gərginlik nəticəsində nitq rəsmiləşir və ya nitqdə təhrifə yol verilir, təbiilik itir. İnformantla ünsiyyət ancaq bir yerdə

deyil, insanların həyat tərzi ilə əlaqədar olan yerlərin hamısında (küçədə, evdə, məktəbdə...) aparılır.

Dil faktlarına dair zəngin maqnitofon yazısı da kartoçka və anket qədər qiymətli və vacibdir.

İKİNCİ MƏRHƏLƏ – MATERİALI QRUPLAŞDIRMAQ

Dilçilik tədqiqatında toplanılmış müxtəlif materialların qruplaşdırılması ən mühüm şərtlərdəndir. Məlumdur ki, toplanılmış dil materiallarını pərakəndə halında və ayrı-ayrılıqda təhlil etmək yolu ilə tədqiq olunan hadisə haqqında doğru fikir söyləmək olmur. Belə ki, material sistemə salınmadıqda qatmaqarışıqlıq yaranır və tədqiqatçı haradan başlayıb harada qurtarmağı müəyyənləşdirə bilmir. Nəticədə anlaşılmazlıq və dolaşıqlıq meydana çıxır. Buna görə də belə vəziyyətə yol verməmək üçün bu mərhələdə tədqiqatçı ilk növbədə materialı sistemə salmalı olur.

Materialı qruplaşdırmağın şərtləri. Toplanılmış hər bir dil faktı ayrıca təhlil edilsə, şübhəsiz ki, tədqiqatçı lüzumsuz təkrarlar arasında itib-batar. Təkrarlara yol verməmək, hadisəni elmi şəkildə tam və dürüst təhlil etmək üçün faktları qruplaşdırmaq lazım gəlir.

Materialın qruplaşdırılmasında faktların oxşar və yaxın cəhətləri nəzərə alınır. Oxşar və yaxın elementlərə əsasən qruplaşdırma elmi hesab edilir. Elmi qruplaşdırma müxtəlif hadisə qruplarının əlamətlərini bir-biri ilə müqayisə etməyə, qarşılaşdırmağa imkan verir ki, bunun da əsasında öyrənilən məsələ haqqında doğru fikir söyləyib, düzgün nəticə çıxarmaq olar.

Bütün bu deyilənləri nəzərə alaraq deməliyik ki, materialın qruplaşdırılmasma ciddi məsuliyyətlə yanaşmaq dilçi-tədqiqatçının əsas vəzifəsidir.

ÜÇÜNCÜ MƏRHƏLƏ – MATERİALI TƏHLİL ETMƏK

Dilçilik tədqiqatının üçüncü mərhələsini qruplaşdırılmış materialları linqvistik nəzəriyyə əsasında aydınlaşdırmaq təşkil edir. Bu son mərhələdə öyrənilən hadisənin hüdudu müəyyənləşdirilir, onun əlamətdar cəhətləri aşkar edilir və təhlil olunur. Burada tədqiq olunan hadisə haqqında nəticələr çıxarmaq başlıca məqsəddir.

Materialın təhlilində metod seçməyin rolu. Materialın təhlili mərhələsində ən mühüm məsələ tədqiqat metodunun seçilməsidir. Düzgün seçilmiş metod tədqiqat işinin lazımi elmi səviyyədə və əsaslı şəkildə hazırlanmasına kömək edir. Metodun mahiyyəti haqqında ayrıca fəsildə bəhs olunacaqdır.

Nəhayət qeyd etməliyik ki, dilçilik tədqiqatının mahiyyəti bu üç mərhələnin vəhdət və düzgün aparılması ilə möhkəm bağlıdır. Bunlar həmişə bir-birini tamamlamalıdır. Buna görə də dilçi-tədqiqatçı birinci mərhələdən başlayıb və ardıcıl şəkildə ondan sonrakı mərhələləri də keçməlidir. Elmi iş ancaq belə təşkil edildikdə tədqiqatçı məqsədinə tam nail ola bilər.

XII FƏSİL

DİLÇİLİYİN TƏDQİQAT METODLARI

METOD PROBLEMİ VƏ ELMİN İNKİŞAFI ÜÇÜN ONUN ƏHƏMİYYƏTİ

Metod elmin ən zəruri bir komponentidir.

Hər bir elmin yaranması və inkişafetmə sürəti metodla bağlıdır. "Müəyyən metod tətbiq etmədən heç bir elmi və əməli vəzifəni yerinə yetirmək mümkün deyildir"[1]. Buna görə də müasir dövrdə metod problemlərinin müzakirə və həlli, yeni-yeni metodlar işlənib hazırlanması ayrı-ayrı elmlərin inkişaf etdirilməsi üçün son dərəcə əhəmiyyətlidir.

Metodoloji məsələlərə xüsusi əhəmiyyət verilməsinin müəyyən səbəbləri vardır. Bunun başlıcası, hər şeydən əvvəl, *elmi-texniki* inqilabdır. Məlumdur ki, əsrimizdə elm və texnika böyük sürətlə tərəqqi yolu keçir. Metod məsələsi də bu tərəqqi və yüksəlişin sürət tələbinə cavab verə bilməlidir. Metod problemləri ilə kimlər məşğul olmalıdır? Bu suala bəzi filosoflar cavab verərkən deyirlər ki, ayrı-ayrı konkret elmlərin bütün metodoloji problemləri fəlsəfi-məntiqi problemlərdir, elə buna görə də "həmin problemlərlə filosoflar məşğul olmalıdır"[2].

Metod haqqında belə fikir söyləmək, şübhəsiz, birtərəfli xarakterə malikdir. Belə ki, ayrı-ayrı elm nümayəndələrini metod məsələlərinin həllindən təcrid etmək ancaq elmin inkişafına mane olmaqdır. "Konkret elmlərin nəzəri

[1] Bax: V.Q.Afanasev. "Fəlsəfi biliklərin əsasları". Bakı, 1972, səh. 10.
[2] Философская энциклопедия. Т. 3, М., 1964, с.421.

və metodoloji əsasları yalnız fəlsəfə ilə yox, həm də elmlərin özləri tərəfindən işlənilir". Deməli, metod məsələsi ilə təkcə filosoflar deyil, həm də bütün elm sahələrinin nümayəndələri məşğul olmuş və olurlar. Başqa sahələrdə olduğu kimi, dilçilik elmində də metodların işlənilməsi ixtisasçıların – dilçilərin üzərinə düşür.

Elm tarixindən aydın olur ki, metod probleminə biganə qalmaq nəticəsində hər hansı bir elm çox şey itirə bilər. Buna görə də elmi daha da təkmilləşdirmək, durmadan inkişaf etdirmək üçün metod problemini heç zaman nəzərdən qaçırmaq, hətta ona münasibəti belə zəiflətmək olmaz. Bu zəruri məsələ dilçilik elmində həmişə diqqət mərkəzində dayanmış və gündəliyin ön planına çəkilmişdir.

Lakin qeyd etməliyik ki, metodoloji məsələlərdən bəhs olunarkən dilçilik ədəbiyyatında üç anlayış – "metod", "metodologiya" və "metodika" anlayışları müxtəlif şəkildə şərh edilmişdir. Ümumiyyətlə, bu anlayışların izahında fərqli mülahizələr, düşüncələr meydana çıxmışdır[1].

12.01. METOD ANLAYIŞI

Metod (methodos) yunan sözüdür. Termin kimi işlətdiyimiz bu sözün mənası, əsasən, yol (elmə yol, tədqiqat yolu, təlim yolu, idrak yolu...) deməkdir. Metod olduqca geniş anlayışdır. Elə buna görə də insan fəaliyyətinin bütün sahələrində metod anlayışı mövcuddur. Metod anlayışını ifadə etmək üçün metod sözündən istifadə olunur. Lakin qeyd etməliyik ki, bu söz çoxmənalıdır. Belə ki, metod ümumi mənada işlənib məqsədə çatmaq vasitəsini əks etdirdiyi kimi,

[1] Ю.С.Степанов. "Методы и принципы современной лингвистики". Москва, 1975, с.5.

fəlsəfi mənada işləndikdə dərketmə vasitəsini bildirir. Ayrı-ayrı konkret elmlərdə "metod" termininin daha müxtəlif mənalarda işləndiyinə də rast gəlmək olur.

Metod nədir? Bizi əhatə edən maddi aləm çoxcəhətli mürəkkəb və ziddiyyətli təbiət və cəmiyyət hadisələri ilə doludur. Təbiət və cəmiyyətdəki qanunlara, xüsusiyyətlərə və sair cəhətlərə dair hər hansı bir həqiqəti üzə çıxarmaqda müxtəlif vasitələrə müraciət edilmədən heç zaman müvəffəqiyyət qazanmaq mümkün deyildir. Bunun üçün mütləq aydın yollardan, qayda və vasitələrdən istifadə olunur. "İnsanlar idrak prosesində və əməli fəaliyyətdə öz qarşılarına müəyyən məqsədlər qoyur, bu və ya başqa vəzifələri də irəli sürürlər. Lakin qarşıya məqsəd qoymaq, vəzifəni müəyyənləşdirmək hələ heç də nəzərdə tutulanı həyata keçirmək demək deyildir. Məqsədə çatmaq üçün düzgün yollar, vəzifələri yerinə yetirmək üçün səmərəli üsullar tapmaq çox əhəmiyyətlidir. Məqsədə çatmaq yolları, nəzəri tədqiqatın və əməli fəaliyyətin müəyyən prinsiplərinin üsullarının məcmusu isə məhz metoddan ibarətdir"[1].

1. METODLARIN NÖVLƏRİ

İndiyə qədər insan fəaliyyətinin sahələri ilə əlaqədar onlarca metod meydana çıxıb formalaşmışdır. Mövcud metodlar mahiyyətcə bir-birinin eyni olmayıb müxtəlif xarakter və növə malikdir. Məsələn, *tədris metodları, tərbiyə metodları, tədqiqat metodları* və s. Tədris metodları[2] konkret elm sahəsi ilə bağlı müxtəlif olur. Pedaqoji dilçilik ədəbiy-

[1] V.Q.Afanasev. "Fəlsəfi biliklərin əsaslan". Bakı, 1972, səh.10.

[2] Bax: Педагогическая энциклопедия. Т. 2, М., 1965, с.813; Е.Я.Голант. Методы обучения в советской школе. Москва, 1957; И.Я.Пернер, М.Н.Скаткин. О методах обучения. Журнал "Советская педагогика", 1965, Т. 3; М.М.Левина. О сущности методов обучения. Журнал "Советская педагогика", 1970, Т. 2.

yatında dil tədrisi ilə əlaqədar bir sıra metodun adı çəkilir: *birbaşa metod, natural metod, müsahibə metodu, müşahidə metodu, tərcümə-qrammatik metod, çalışma metodu* və s.

Tədris metodu elmi metodla möhkəm dialektik vəhdət təşkil edir. Bundan əlavə, bəzən elmi metod həm də tədris metodu kimi işlənir. Məsələn, qarşılaşdırma elmi metodu, eyni zamanda, tədris metodu kimi də xidmət edə bilir[1].

2. *ELMİ METOD*

Dilçiliyin konkret elmi metodlarından bəhs etməmiş elmi metodun mahiyyətinə, xüsusiyyətlərinə, spesifik əlamətlərinə ötəri də olsa, nəzər salıb xarakteristikasını vermək olduqca vacibdir. Qeyd etməliyik ki, elmi metod haqqında fəlsəfi və filoloji ədəbiyyatlarda bir çox fikir söylənilmişdir. Bütün bunların hamısında həm ümumi, həm də fərqli cəhətlər vardır.

Elmi metod hər hansı bir obyektin elmi tədqiqində istifadə olunan üsulların (priyomların) sistemi kimi təsəvvür edilir. Elmi tədqiqatın hər hansı bir üsulu metodun ünsürüdür, onun tərkib hissəsidir. Elmi metod, əsasən, bir neçə üsuldan ibarət olur. Lakin dilçilikdə yalnız bircə üsuldan ibarət olan metoda da təsadüf edilir. Belə halda tədqiqatın aspekti son dərəcə məhdudlaşdırılır[2].

Elm üçün elmi metodun əhəmiyyəti əvəzsizdir. Buna görə də hər hansı bir elmi nailiyyət ilk növbədə onun metodları ilə bağlı olur. Hər hansı elmi-tədqiqat işinin taleyi metoddan asılıdır. Elmi metod hadisələr haqqında həqiqi biliklər əldə etməyə və bu bilikləri yadda saxlamağa, başqasına verməyə imkan yaradır. Lakin deməliyik ki, elm

[1] Общее языкознание (методы лингвистических исследований). Издательство "Наука", М., 1973, с.258.
[2] Yenə də orada, səh.258.

tarixində elmi metodun əhəmiyyətini inkar edənlər də olmuşdur. Məsələn, məşhur fizik Maks Born heç bir metodologiyanı qəbul etməmişdir[1].

Tarixi faktlardan məlum olur ki, müxtəlif elm sahələrinin görkəmli nümayəndələri, o cümlədən Nikolay Kopernik (1473–1543), Qalileo Qaliley (1554–1642), İsaak Nyuton (1643–1727), Mixail Lomonosov (1711–1765) və başqaları müntəzəm olaraq elmi metod haqqında düşünmüşlər, bu mütəfəkkirlər elmin inkişafını metodda görmüşlər. Məşhur ingilis filosofu Frensis Bekon (1561–1626) metodu yolçunun yolunu işıqlandıran fanara bənzədirdi. O, düzgün metodla silahlanmış alimi qaranlıqda dolaşıb fəhmlə özünə yol axtaran bir yolçuya oxşadırdı.

3. ELMİ METOD NECƏ YARANIR

Tədqiqatın hər hansı bir elmi metodu elmin inkişafı ilə əlaqədar meydana çıxır. Məlumdur ki, elm hələ uzaq keçmişdə əmələ gəlmişdir. Ayrı-ayrı elmlərin təşəkkülündə qədim hindlilərin xüsusi rolu olmuşdur. Humanitar elm olan dilçiliyin də təməli qədim hindlilər tərəfindən qoyulmuşdur. Dini fəlsəfi məcmuə olan vedaların dili üzərində aparılan müşahidələr və hadisələrin təsvir edilməsi nəticəsində elmi metodun rüşeymləri meydana çıxmışdır. Elmi metodun yaranması qədim yunanların adı ilə də bağlıdır. Qədim Yunanıstanda, Afinada respublika yarandıqdan sonra azad fikir mübadiləsinə şərait yaranmışdı. Bu şərait elmin və onun metodunun inkişafına səbəb olmuşdu.

Müasir dövrdə elmi metod öyrənilən obyektin xüsusiyyətlərinə müvafiq olaraq elmi birliyin müxtəlif sahələ-

[1] Общее языкознание (методы лингвистических исследований). Издательство "Наука", М., 1973, с.258.

rində işlənib yaranır. Təcrübə göstərir ki, elmin obyekti ilə bağlı olmayan hər hansı metod məqsədsiz və məzmunsuz məşqə çevrilir və hüquq qazana bilmir. Hər bir konkret elmin obyektinə uyğun olaraq metod yarandıqda həmin elmi metod xüsusiləşir. Belə xüsusiləşmiş metodlar "məxsusi metod", yaxud "xüsusi metod" adlanır.

Müxtəlif elm sahələrinə məxsus meydana çıxmış metodlar bir-birinin eyni olmur[1]. Məsələn, tarix elminin metodları kimyanın, fizikanın və başqa elmlərinkindən seçilir. Beləcə də dilçilik elminin metodları nəinki başqa elmlərdən, hətta doğma qardaşı olan ədəbiyyatşünaslığın metodlarından da fərqlənir:

Hər bir xüsusi elmi metod müəyyən cəhətlərlə xarakterizə edilir. Bunlardan aşağıdakıları göstərmək olar. Məsələn, metod aydın, məhsuldar, nəticəli, ümidli, istiqamətləndirici... olmalıdır[2]. Bu xüsusiyyətlərlə bərabər metodun həqiqiliyi başlıca məsələdir.

Elm tarixindən aydın olur ki, səhv və ya qondarma metodla heç bir məqsədə çatmaq mümkün deyildir. Elmi nailiyyət ancaq həqiqi elmi metodla əldə edilə bilir. Bəs metodun həqiqi elmi olması üçün hansı şərt vacibdir? "Metodun əsl elmi metod olması üçün, yəni düzgün biliklər əldə etmək aləti ola bilməsi üçün o öyrənilən gerçəkliyin inkişafının özü hansı yolla gedirsə, insanın fikrini də o yolla bir növ yanaşı aparmalıdır. Metod hadisələr arasında həqiqətən mövcud olan əlaqələri əks etdirməlidir, obyektin real dəyişilmələrini ifadə etməlidir".

Deməli, elmi-tədqiqat üçün həqiqi elmi metodun əhəmiyyəti olduqca böyükdür, bu, hər şeydən əvvəl, səhvə getməyə yol vermir.

---

[1] Bax: А.С.Чикобаева. «Проблема языка как предмета языкознания». М., 1959, с.7.
[2] Философская энциклопедия. Т. 3, М., 1964, с.411.

Xüsusi elmi metodun ömrü onun səmərəliliyi ilə bağlıdır. Buna görə də səmərəli metod çox uzun yaşaya bilir. "Xüsusi metodların *səmərəliliyi* elmi-tədqiqat təcrübəsi ilə yoxlanılır"[1].

Prosesdə metodun az səmərəliliyi müəyyənləşdirildikdə o daha səmərəli metodla əvəz edilir. Metodun belə dəyişdirilməsi elmin tərəqqisi, onun yeni-yeni tələbləri ilə əlaqədardır.

Nəhayət, *"metod"* anlayışından bəhs olunarkən qeyd etməliyik ki, bəzən bu anlayış *"metodologiya"* anlayışı ilə qarışdırılır. Bunları bir-biri ilə qarışdırmağa, onların hər birinin fərqli məqsəd və mahiyyəti olduğuna xüsusi nəzər yetirilməlidir.

12.02. METODOLOGİYA ANLAYIŞI

Bu anlayışı ifadə edən *"metodologiya"* termininin ikinci hissəsini təşkil edən loqos (logos) sözü də yunan mənşəlidir[2]. Mənası təlim deməkdir. Metod sözünə qovuşmuş şəkildə işləndikdə "metod haqqında təlim" anlayışını bildirir.

Metodologiya anlayışının fəlsəfi, filoloji və başqa ədəbiyyatlarda bir neçə formada təsəvvür edildiyinə rast gəlmək olur:

1. Metodologiyanın fəlsəfə kimi[3] təsəvvür edilməsi. Metodologiya bu mənada, əsasən, fəlsəfi ədəbiyyatda şərh olunur.

Metodologiyanı bu mövqedən təsəvvür edən filosof alimlərin bir qismi ayrı-ayrı konkret elmlərin metodologiyası olmasının tam əleyhinə çıxmışlar[4]. Onların fikrincə, hətta metodologiya sözünü ancaq materialist dialektika-

[1] A.S.Çikobava. "Göstərilən əsəri", səh.8.
[2] Методология. Философская энциклопедия. М., 1964.
[3] Философская энциклопедия. Т. 3, М., 1964, с.421.
[4] А.Быков. «К вопросу о системе «Диалектика и логика научного познания»». М., 1965, с.332.

dan söhbət edəndə işlətmək olar. Lakin deməliyik ki, elmlərin xüsusi metodologiyasının olması məsələsi elmdə artıq həll olunmuşdur. Elmlərin metodları ilə xüsusi məşğul olan alimlər – *metodoloqla*[1] hər elmin özünə məxsus xüsusi metodologiyası və bunun da problemləri olduğunu müəyyənləşdirmişlər.

2. Metodologiya tədqiqat üsullarının cəmi kimi. Bu haqda deyilir: "Metodologiya hər hansı bir elmdə tətbiq olunan tədqiqat üsullarının cəmidir"[2]. Ayrı-ayrı elmlərin metodoloji problemlərinə həsr olunmuş əsərlərdə də bu fikir müdafiə edilir. Tədqiqatçıların fikrincə, konkret elmlərin xüsusi metodları sistemi həmin elmin metodologiyasını təşkil edir.

3. Metodologiya tədqiqat metodları haqqında təlim kimi. "Metodologiya – ümumiyyətlə, elmi metod və ya ayrı-ayrı elmlərin metodları haqqında təlimdir"[3]. Başqa formada desək, metodologiya elmi tədqiqat metodlarının təhlili ilə məşğul olur[4]. Buna görə də metodologiya tədqiqat metodları haqqında təlim kimi təsəvvür edilir[5]. Metodologiyanın metod haqqında təlim mənasında işləndiyinə dair fəlsəfi ədəbiyyatda da fikir söylənilir[6].

Göründüyü kimi, metodologiya – fəlsəfə, üsulların cəmi və təlim mənalarında işlənilmişdir. Hazırda elmlərin metodoloji məsələləri geniş öyrənildiyi bir dövrdə metodologiya anlayışına sonuncu (təlim) daha çox uyğun gəlir.

Hər bir elm kimi, dilçiliyin də metodologiyası yaranmışdır. Biz dilçiliyin metodologiyası dedikdə, konkret linqvistik metodlar haqqında təlim nəzərdə tuturuq ki, burada

[1] В.В.Быков. Методы науки. М., 1974, с.5.
[2] Философский словарь. М., 1963, с.268.
[3] Rusca-azərbaycanca lüğət. I hissə, Bakı, 1956, səh.204.
[4] В.В.Быков. «Методы науки». М., 1974, с.3.
[5] В.И.Кондухов. «Общее языкознание». М., 1974, с.204.
[6] Bax: Философский словарь. М., 1963, с.268.

dialektik metodun tələbləri, dilçilik elmi-tədqiqat metodlarının mahiyyəti, xarakteri və inkişaf tarixi şərh olunur.

Müasir dövrdə dilçiliyin metodoloji məsələlərinin həlli ilə məşğul olmaq ən vacib məsələlərdəndir. Çünki "metodologiya, ümumiyyətlə, elmi metod və elmin ayrı-ayrı (xüsusi) metodları haqqında təlim kimi hər hansı müasir elmin, o cümlədən dilçiliyin də nəzəriyyə və praktikasında prinsipial əhəmiyyətə malikdir"[1].

12.03. METODİKA ANLAYIŞI

"Metodika" geniş anlayışdır. Bunun tərkibinə tədris metodikası, tədqiqat metodikası... və sair daxildir.

"Tədqiqat metodikası" anlayışı bu və ya başqa metodun, üsulun tətbiqi qaydaları kimi təsəvvür olunur. Tədqiqat metodikası hər bir elmin obyektinin təbiətindən asılı vəziyyətdə spesifik olur. Məsələn, obyektə görə dilçiliyin tədqiqat metodikası kimyanın tədqiqat metodikasından fərqlənir və s.

Tədqiqatın metodikası ilə metodları arasında möhkəm əlaqə tələb olunur. Bunlar arasında az da olsa uyğunsuzluğa yol verilsə, tədqiqat lazımi səviyyədə səmərəli ola bilmir. Hər bir elmi tədqiqatın müvəffəqiyyəti metodikadan çox asılıdır. "Tədqiqatın düzgün metodikası olmadan təhlilin ən yaxşı metod, yaxud üsulu lazımi nəticə verə bilməz. Belə ki, ancaq metodun üsulun özü yox, həm də bu və ya başqa metodun tətbiqi sənətkarlığı vacibdir"[2].

Göründüyü kimi, metodika elmi-tədqiqat prosesinin sahəsidir. Buna görə də müntəzəm olaraq metodikanın

[1] В.И.Кодухов. «Общее языкознание». М., 1974, с.202.
[2] Yenə orada, səh.204.

təkmilləşdirilməsi əsas vəzifə kimi elmin qarşısında durmalıdır. Deməliyik ki, tədqiqat işinin metodikası dilçilik elmində də hələ istənilən səviyyədə deyildir.

12.04. DİLÇİLİYİN ELMİ METODLARI

Hər bir elm öz obyektini müəyyən metodlarla tədqiq edir. Dilçilik elmi də tədqiq etdiyi obyektin hadisə və qanunlarını, əlamət və xüsusiyyətlərini, eləcə də proseslərini öyrənmək üçün lazımi nəzəri prinsiplər (tarixilik, məntiqilik, ardıcıllıq) müəyyən etmiş, bir sıra elmi metodlar (təsviri, müşahidə, eksperiment, modelləşdirmə...) işləyib hazırlamış və bunlara uyğun əsaslı metodika yaratmışdır.

Dilçiliyin hazırladığı elmi metodlar dilin təbiətinə, onun xarakterinə uyğun qurulduğu üçün bunların hər biri "xüsusi linqvistik metod" adlanır. Bu metodlar obyektiv metod meyarına uyğun yaradıldıqları üçün həm düzgün, həm də obyektivdir.

Metod elm quruculuğunun ən zəruri ünsürü hesab olunur. Dilçilikdə də metod həlledici amildir. Elə buna görədir ki, metodla bağlı təsviri metod – təsviri dilçilik, tarixi metod – tarixi dilçilik, müqayisəli metod – müqayisəli dilçilik, müqayisəli-tarixi metod – müqayisəli-tarixi dilçilik, dilçilikdə riyazi metodlar – riyazi dilçilik və sair anlayışlar və terminlər əmələ gəlmişdir. Bu hal, ümumiyyətlə, təsadüfi hal deyildir. Başqa elm sahələrində də belə vəziyyəti görmək olur. Lakin unutmamalı ki, görkəmli rus dilçisi N.V.Kruşevskinin dediyi kimi: "Elm onun metodu ilə yox, onun obyekti ilə adlandırılır".

Dərin tədqiqat aparmağa imkan verən dilçiliyin metodları və üsulları sistemi heç də asanlıqla və az müddətdə formalaşmamışdı. Dilçilik elmi bu vasitələrə öz inkişaf tarixinin müxtəlif mərhələlərində gərgin axtarış və ardıcıl sınaqlar apar-

maq nəticəsində nail ola bilmişdi. Deməliyik ki, dilçilik metodlarının yaradılması prosesində bəzi səhvlərə də yol verilmişdir.

Metod məsələləri dilçilikdə müxtəlif dövrlərdə müxtəlif mahiyyətli olmuşdur. XX əsrin dilçiliyi əvvəlki yüziliklərdən yeni-yeni faydalı metodların çoxalması ilə fərqlənir. Bu əsrdə dilçilik deduktiv riyazi modellərə daha çox meyil göstərmişdi. Buna görə də diaqramlar, sxemlər və başqa vasitələrdən elmi tədqiqatlarda geniş istifadə olunmağa başlanmışdır. XX əsr dilçiliyində Azərbaycan dilçilik elmi xüsusi mövqeyə malikdir. Azərbaycan dilçiliyi metod probleminin nəzəri işlənilməsində və praktik olaraq təbliğində xeyli nailiyyət əldə etmişdir. Dilçi alimlərimiz yeni və orijinal metodların hazırlanmasında, bununla yanaşı, başqa elmlərin metodlarından əxz edib ona filoloji xarakter verməkdə fəallıq göstərmişlər.

1950-ci ilə kimi dilçiliyin metodları sahəsində diqqəti cəlb edə biləcək mühüm işlər aparılmamışdı. Bu dövrdə, xüsusilə 30-cu illərdə linqvistik təhlil üçün yeni-yeni üsullar, rasional metodlar axtarılmışdır. Dil haqqında elmdə 50-ci ilə qədər bir sıra səhv baxışlar da var idi. Məsələn, bəzi dilçilərin fikrincə, guya, müxtəlif elmlərin, o cümlədən dilçiliyin də *metodları hazır şəkildə* qəbul edilməlidir. Bəs metodları kim hazırlamalıdır? Bu sual həmin mülahizənin tərəfdarlarını, demək olar ki, qəti maraqlandırmamışdır.

1950-ci ilə kimi olan dövrdə bir sıra alimlər "dilçiliyin xüsusi (məxsus) metodları" anlayışının tam əleyhinə çıxmışlar. Onlara görə, madam dialektik metod var, dilçiliyə müqayisəli-tarixi metod və eləcə də digər heç bir xüsusi metod lazım deyildir[1]. Bu, tamamilə səhv mülahizədir. Hər bir elm sahəsinə dair xüsusi metodların olması son dərəcə zəruridir. Çünki "xüsusi metodlarsız heç bir elm mövcud ola bilməz"[2].

[1] А.С.Чикобаева. «Проблема языка как предмета языкознания». М., 1959, с.8.
[2] Yenə orada.

Dilin tədqiqinin xüsusi metodları problemi dilçilikdə həmişə diqqət mərkəzində olmuşdur. 1950-ci ildən sonrakı dövrlərdə metod məsələləri dilçilər tərəfindən geniş müzakirə edilmiş, yeni-yeni yollar axtarılmışdır. A.İ.Smirnitski, B.A.Serebrennikov, A.A.Reformatski, V.İ.Yartseva, A.M.Şerbak, V.İ.Koduxov, İ.P.Raspopov, Y.S.Stepanov, V.N.Miçirin, T.İ.Deşeriyeva və başqaları öz əsərlərində metod məsələlərinə xüsusi yer vermişlər[1]. Metod probleminə dair bir sıra şəhərlərdə – Moskva, Sankt-Peterburq, Ufa, Pyatiqorsk, Aşqabadda konfranslar təşkil edilmişdir. Bütün konfranslarda belə bir ümumi fikrə gəlinmişdir ki, dilçilik daima öz xüsusi metodları problemi ilə məşğul olmalı və onu durmadan inkişaf etdirməlidir.

Son illərdə metod məsələlərinə maraq daha da güclənmişdir. Metodoloqlara görə, metoda marağın belə artmasının səbəbi müasir elmin və texnikanın sürətlə inkişaf etməsidir, böyük elmi kollektivlərin meydana çıxmasıdır. Hazırda dilçiliyin xüsusi metodları dil haqqında elmin həllinə böyük ehtiyacı olan ən aktual problemlər sırasındadır. Buna görə də metod məsələsinə dair dövrümüzün tələbi belədir: "Müntəzəm olaraq tədqiqatın yeni metodlarını axtarmaq və artıq təcrübədə sınanmış köhnə metodları isə təkmilləşdirmək lazımdır".

Dilçilikdə istifadə olunan metodlar mənşəyinə görə fərqlənir. Belə ki, bəzi metodun varlığı ancaq dilçiliklə bağlıdır. Lakin elə metodlar da mövcuddur ki, onlar başqa elmlərin yetişdirməsidir. Metodlara bu baxımdan yanaşdıqda "dilçiliyin öz xüsusi metodu" və dilçilikdə "özgə – alınma metodu" anlayışları meydana çıxır.

Adətən, müqayisəli-tarixi metod dilçiliyin öz metodu hesab olunur[2]. Bu metod dilçiliyin tarixində xüsusi əhə-

[1] Bax: İstifadə olunmuş ədəbiyyatın siyahısı.
[2] В.И.Кондухов. «Общее языкознание». М., 1974, с.214.

miyyətə malikdir. Onun yaranması dilçilik elmində böyük nailiyyətlərə səbəb olmuşdur.

Başqa elmlərin yaratdığı bir çox metod və üsuldan dilçilik tədqiqatlarında geniş istifadə olunur. Məsələn, riyazi metodlar, statistik metod, eksperiment, induktiv və deduktiv, sübutetmə və s. Bütün bunların hamısı dilçilik üçün alınmadır. Yeri gəlmişkən deməliyik ki, dilçilikdə başqa elmlərin metodlarından bu və ya digər forma və dərəcədə istifadə edilməsi həm də dilçilik elminin müstəqilliyinə, onun qüdrətinə xələl gətirmir. Belə bir cəhət bütün elmlərdə vardır və olmalıdır.

Lakin unutmamalı ki, bu məsələdə yenilik şüarı altında başqa elmin metodlarına həddindən artıq həvəs göstərmək zəruri haldır. Başqa elmin metoduna yalnız və yalnız xüsusi zərurət olanda müraciət edilir və edilməlidir. Xüsusi ehtiyac nəticəsində başqa elmdən metod götürüləndə bəzən ona qarşı çıxanlar və maneçilik törədənlər də tapılır. Belə vəziyyət dilçilik elmində də olmuşdur. Məsələn, riyazi metodlardan istifadənin ilk illərində bəzi dilçilər tərəfindən əks müqavimət göstərilmişdir. Bununla bərabər, həm də 50-ci illərə qədər və bir az da ondan sonra yaranmış şəraitlə bağlı olaraq "... dilçilikdə dəqiq metodların inkişafı ləngidilmişdir"[1].

Alınma metodlardan istifadə etmək hər bir tədqiqatçıdan xüsusi ehtiyat və bacarıq tələb edir. Təcrübə göstərir ki, bir elmin metodunu heç bir cəhəti nəzərə almadan eyni ilə başqasına tətbiq etmək həmin elmə ancaq zərər gətirə bilər. Belə hal dilçiliyin tarixində də olmuşdur. XIX əsrdə təbiətşünaslığın metodu dilçiliyə tətbiq edilərkən elm üçün olduqca böyük təhlükə doğuran bir nəticə alınmışdır. Həmin nəticədə "dilin doğub-törəyən" varlıq olduğu

[1] Методологические проблемы науки.

göstərilirdi. Deməli, başqa elmin metodunu mexaniki olaraq tətbiq etmək elmdə, o cümlədən dilçilikdə də vulqarlaşdırmağa aparıb çıxarır[1].

Özgə elmdən alınmış metod filolojiləşdirildikdə, başqa şəkildə desək, dilin təbiətinə uyğunlaşdırıldıqda tədqiqat müvəffəqiyyətlə başa çatdırıla bilir və faydalı elmi nəticə əldə olunur.

12.05. DİLÇİLİK METODLARININ NƏZƏRİ-FİLOLOJİ ƏSASLARI

Metod ümumfəlsəfi ideyalarla bağlı olduğu kimi, ixtisasa aid elmi-nəzəri müddəalarla da əlaqədardır. Buna görə də yaradılan – hazırlanan hər bir xüsusi metod üçün tədqiqat obyektinə dair müəyyən elmi-nəzəri bilik tələb olunur.

Dilçiliyin elmi-nəzəri bazası və onun ənənələri hələ keçmiş dövrlərdə əmələ gəlmiş, əsrlər boyu zənginləşmiş və inkişaf etmişdir. Bu elmi baza, başqa formada desək, dil haqqında linqvistik bilik *dilçilik metodlarının nəzəri-filoloji əsasını* təşkil edir.

Məsələni aydın dərk etmək üçün dilçiliyin xüsusi metodu hesab edilən müqayisəli-tarixi metodun nəzəri əsaslandırılmasına fikir verək. Elmi ədəbiyyatda bu haqda deyilir: "Dilçilikdə müqayisəli-tarixi metodun tətbiqi faktik olaraq dilin uzun tarixi inkişaf mərhələsində özünü necə aparması, onun nə kimi dəyişikliklərə məruz qalması və inkişafında nə baş verə biləcəyi hadisəsi haqqındakı biliyə əsaslanmadan mümkün deyil. Tarixi inkişaf nəzəriyyəsi ilə əhatə olunan və tədqiq edilən bu obyektlərlə bağlı olan dil

[1] В.И.Кодухов. «Общее языкознание». М., 1974, с.204-205.

haqqında elm, ümumiyyətlə, tarixi planda onun tədqiqi metodunun əsasını təşkil edir"[1].

Təcrübə göstərir ki, hər bir konkret dilçilik metodu nəzəri-filoloji cəhətdən tam əsaslandırıldıqda elmi-tədqiqat işinin müvəffəqiyyətlə həll olunmasında, doğru nəticələr çıxarılmasına kömək edə bilir.

Yuxarıda qeyd etdiyimiz kimi, elmi metod tədqiqatın obyektindən asılı olur. Obyektin tələblərinə uyğun hər bir elm sahəsi öz xüsusi metodunu yaradır. Buna görə də "müxtəlif elmlərin xüsusi metodları eyni olmur"[2]. Dilçilik tədqiqatına tətbiq edilən metod və üsullar linqvistik bünövrə üzərində hazırlandığına görə başqa elm sahələrindəki metod və üsullardan əsaslı şəkildə fərqlənir. Müxtəlif elmlərin xüsusi metod və üsullarının adı eyni ola bilir. Lakin ad eyniliyi və uyğunluğu bizi çaşdırmamalıdır. Çünki hər bir elmin xüsusi metod və üsulu onun adı ilə deyil, məzmunu və mahiyyəti ilə xarakterizə edilir. Məsələn, eksperiment üsuluna nəzər yetirək. Bu üsuldan ilk dəfə eksperimental elmlərin tədqiqatlarında istifadə olunmuşdur. İndi isə həm eksperimental elmlərdə, həm də filoloji və sair elmlərdə işlənilir. Lakin kimya eksperimenti heç də linqvistik eksperimentin eyni deyil və ola da bilməz. Çünki *kimyaçı* müəyyən kimyəvi xassələri aydınlaşdırmaq üçün müxtəlif maddələrdən və bunların kombinasiyalarından istifadə edir, bir neçə maddədən yenisini alır və sairə. Dilçi isə bunu edə bilmir. Deməli, linqvistik eksperiment məzmunca başqa elmlərin eksperimentlərindən tam fərqlənir.

Nəhayət deməliyik ki, istər fəlsəfi-metodoloji, istərsə də nəzəri-filoloji bünövrədən ayrı düşən hər hansı bir me-

[1] Общее языкознание (методы лингвистических исследований). М., 1973, с.161.
[2] А.С.Чикобаева. «Проблема языка как предмета языкознания». М., 1959, с.7.

tod ancaq səhv metodoloji mövqe tutmuş olur və bununla da onun aqibəti uğursuzluqla nəticələnir.

12.06. DİLÇİLİKDƏ İSTİFADƏ OLUNAN METODLAR VƏ ONLARIN TƏSNİFİNƏ DAİR

Müasir dilçiliyin ən böyük nailiyyətlərindən biri çoxlu və zəngin linqvistik metodların, üsulların işlənib hazırlanmasıdır. Müasir dilçilik hazırda dilin müxtəlif sahələrinə dair elmi-tədqiqat işində bir sıra faydalı və səmərəli metodlardan istifadə edir. Bu metodların hər biri dil haqqında elmi yeni-yeni müvəffəqiyyətlərlə zənginləşdirir.

1. DİLÇİLİK METODLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ TƏSNİFİ PROBLEMİ

Hazırda müasir dilçiliyin başlıca metodlarının elmi təsnifini vermək ən vacib problemlərdən birini təşkil edir. Bu problem olduqca çətin və mürəkkəbdir. Problemi çətinləşdirən bir sıra səbəblər vardır. Onlardan biri indiyə kimi dilçilikdə metod anlayışının tam və dürüst müəyyənləşdirilməməsidir.

Demək olar ki, dilçilikdə metodun hələ *vahid meyarı* yoxdur. Buna görə də *metod* anlayışı ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif şəkildə təsəvvür olunur. Məsələn, bəzi alimlər *transformasion təhlili* metod, bəziləri isə üslub hesab edirlər. Metod məsələləri ilə xüsusi məşğul olan dilçi alim V.İ.Koduxov yazır: "Transformasion metod öz-özlüyündə mövcud deyildir, o, başqa təhlil metodunun üsuludur"[1]. Ümumi dilçilik mütəxəssisi B.İ.Kosovski *müşahidəni* metod

[1] В.И.Кодухов. «Общее языкознание». М., 1974, с.214.

adlandırır[1]. Lakin başqa dilçilər bu fikrin tam əksini söyləyirlər. Metod anlayışındakı qarışıqlığa hələ ənənəvi dilçilikdə də təsadüf olunurdu. Məsələn, *mühazirə, müsahibə* və sair kimi anlayışlar metod hesab edilirdi. Belə bir vəziyyət problemi daha da çətinləşdirmişdir.

Müasir dilçiliyin başlıca metodlarının elmi təsnifinə səy göstərənlər də az olmamışdır. İstər bizim dilçilikdə, istərsə də xarici ölkə elmində bu məsələyə bir sıra əsər həsr olunmuşdur. Deməliyik ki, həmin əsərlərdə metodla bağlı məsələlərə dair bir çox nailiyyətlərin əldə edilməsinə baxmayaraq, metodların təsnifi problemi həll olunmamış şəkildə qalmış, əksəriyyətin qəbul edə biləcəyi elmi bölgü meydana çıxmamışdı.

Dilçiliyin metodlarının təsnifində müxtəlif prinsiplərə əsaslanıldığı müşahidə edilir. Bu prinsip müxtəlifliyi nəticəsində də filoloji tədris ədəbiyyatında dilçiliyin başlıca metodları bir-birindən fərqli miqdarda (yəni 3, 4, 8 və 9 metod olduğu) göstərilir.

Ali məktəblər üçün tərtib edilmiş "Ümumi dilçilik" dərsliyində dilçiliyin başlıca üç metodu olduğu qeyd edilir[2]:

1) Təsviri metod;
2) Müqayisəli metod;
3) Normativ-üslubi metod.

B.İ.Kosovskinin nəşr etdirdiyi "Ümumi dilçilik" adlı əsərində dilçilik elminin dörd metodu olduğu göstərilir[3]:

1) Təsviri metod;
2) Müqayisəli-tarixi metod;
3) Transformasion təhlil metodu;
4) Distributiv təhlil metodu.

[1] Б.И.Косовский. «Общее языкознание». Минск, 1969, с.19.
[2] Bax: В.И.Кодухов.« Общее языкознание». М., 1974, с.218
[3] Bax: Б.И.Косовский. «Общее языкознание». Минск, 1969, с.31.

B.İ.Qolovin "Dilçiliyə giriş" adlı dərs vəsaitində dilçiliyin yeddi metodundan bəhs edir[1].

1) Təsviri metod;
2) Müqayisəli-tarixi metod;
3) Tarixi metod;
4) Qarşılaşdırma metodu;
5) Struktur metod;
6) Üslubi metod;
7) Kəmiyyət metodu.

Müasir dilçiliyin doqquz metodu olduğu isə "Dilçilik tədqiqatlarının metodologiya və metodikası məsələləri" adlı məcmuədə aşağıdakı şəkildə verilmişdir[2]:

1) Təsviri metod;
2) Müqayisəli-tarixi metod;
3) Müqayisəli-tipoloji metod;
4) Qarşılaşdırma metodu;
5) Struktur metod;
6) Riyazi metod;
7) Eksperimental metod;
8) Linqvistik-coğrafi metod;
9) Estetik-üslubi metod.

Bizcə, bu təsniflərdə qeyri-dəqiqlik vardır. Hər şeydən əvvəl deməliyik ki, transformasion təhlil, distributiv təhlil, eksperimental metod (bu, üsuldur) dilçiliyin müstəqil metodları hesab edilə bilməz, həmçinin dil materialının avtomatik təhlilini də metod adlandırmaq bir o qədər əsaslı deyildir.

Müasir dilçiliyin başlıca müstəqil metodları bunlardır: *təsviri metod, tarixi metod, müqayisəli metod, kəmiyyət metodu, üslubi metod, areal metodu* və s. Bunlarla bərabər, dilçilikdə başqa elmlərin metodlarından da geniş istifadə olunur.

[1] Bax: Б.И.Головин. «Введение в языкознание». М., 1977, с.262-272.
[2] Вопросы методологии и методики лингвистических исследований. Уфа, 1966, с.265.

2. DİLÇİLİK METODLARININ ÖYRƏNİLMƏSİ PROBLEMİ

Dilçiliyin başlıca metodlarının ətraflı təhlil edilib öyrənilməsi hazırda dil haqqında elmin mərkəzi problemlərindəndir. Dilçiliyin hər bir metodunun və üsulunun özünəməxsus cəhətləri, tətbiqolunma sahəsi, istifadə edilmə dairəsi, başqa metodlarla qarşılıqlı əlaqəsi vardır.

Məlumdur ki, müəyyən bir metodu eyni ilə dilin bütün hadisələrinin tədqiqinə tətbiq etmək olmur. Buna görə də leksikoloq öz tədqiqatının mövzu və xarakterinə uyğun iş apardığı kimi, morfologiya sahəsinin tədqiqatçısı da müvafiq cəhətlər axtarıb tapır. Tədqiqatda istifadə edilən hər bir metodun tətbiqinin müəyyən sərhədi vardır[1].

Dilin bu və ya başqa bəhsinin tədqiqində müxtəlif metodların vəhdətindən – kompleksindən də istifadə edilə bilər. Dil hadisələrinə belə kompleks şəkildə yanaşılması nəticəsində tədqiq edilən hadisənin hərtərəfli açılması təmin olunur və onun düzgün elmi qiyməti verilir.

Tədqiqatçı elmi işə tətbiq etdiyi hər bir metodu tam mənimsəməlidir. Çünki belə olduqda tədqiqatçı iş prosesində daha müvəffəqiyyətlə irəliləyə bilir. Metodu dərk etmək, bütövlükdə mənimsəmək dilçi-tədqiqatçı üçün də əsas şərtlərdəndir. Tədqiqatçı metodu tam dərk etmiş olduqda həmin metodun mahiyyətini dərindən qavrayır, bu metodun səmərəliliyini, qüsurlu cəhətlərini dəqiq müəyyənləşdirir və nəhayət, hansı dil hadisəsinin onunla öyrənildiyini təyin etməyi bacarır. Buna görə də dilçilik tədqiqatlarında tətbiq olunan metodların hər birinin elmi şəkildə tədqiq olunması və təsvir edilməsi çox vacib məsələlərdəndir.

Məlumdur ki, elmi metodlar müxtəlif baxımdan öyrənilə bilir. Məsələn, hər bir metodun meydana gəlməsi, for-

[1] Общее языкознание (методы лингвистических исследований). М., 1973, с.259.

malaşması və inkişaf etməsi prosesini izləmək, metodun xüsusiyyətlərini təsvir etmək, onun metodlar sistemində mövqeyini müəyyənləşdirmək, başqa metodlarla əlaqə və münasibətini aydınlaşdırmaq və s.

Dilçilik metodlarının öyrənilməsi ilə son illərdə az-çox məşğul olunmuşdur. Bunun nəticəsidir ki, dilçiliyə aid elmi ədəbiyyatda metodların mahiyyətindən bəhs edən bir sıra əsərlərə rast gəlmək olur.

Lakin qeyd etməliyik ki, dilçiliyin başlıca metodlarını ətraflı şərh etmək, onun dərk edilməsini müəyyən mənada asanlaşdıran əsər, demək olar ki, hələ meydana çıxmamışdır. Ona görə də hazırda linqvistik metodların hər birinin konkret şəkildə öyrənilməsi, onların mövqe və mahiyyətinin aydınlaşdırılması dilçilik elminin aktual və ən zəruri məsələləri cərgəsində qalmaqdadır. Bu məsələnin ətraflı həlli dil haqqında elmin inkişafının indiki səviyyəsində onun təxirəsalınmaz vəzifəsidir.

XIII FƏSİL

MÜASİR DİLÇİLİYİN ÜSUL VƏ METODLARI

13.01. MÜASİR ELMİ ÜSULLAR

Dilçilik tədqiqatlarında bir çox vasitələrdən istifadə olunur ki, bunlardan biri də üsuldur. Adətən, *"üsul"* termini ilə *"metod"*u qarışdıranlar olur. Bunların hər birinin dəqiq mənası və vəzifəsi vardır. Buna görə də onları nəinki qarışdırmaq, hətta eyniləşdirmək, sinonim kimi də işlətmək doğru olmaz.

Tədqiqat zamanı tətbiq olunan hər bir *üsul* (əməl, yol, fənd) dil faktının məzmununun elmi şəkildə təhlilinə xidmət edir. Müasir dilçilikdə dil və nitqin təhlilində onlarca üsuldan istifadə olunur. Məsələn, *müşahidə üsulu, eksperiment üsulu, distributiv təhlil üsulu, avtomatik təhlil üsulu, struktur təhlil üsulu, transformasiya təhlil üsulu* və s. Son zamanlar dilçilikdə daha bir sıra yeni üsullar meydana gəlmişdir.

Analogiya üsulu. Bu üsul müxtəlif dil hadisələrinin daxili vəhdətini açmağa, onlarda müşahidə oluna bilən ümumi cəhətləri üzə çıxarmağa kömək edir.

Modelləşdirmə üsulu. Linqvistik modelləşdirmə dil hadisələrinin mahiyyətinin müəyyən modellərlə öyrənilməsinə xidmət edir. Linqvistik modelləşdirmə tədqiqatın obyekti bilavasitə müşahidə olunmadıqda tətbiq edilir. Modelləşdirmə əşyavi və ya mücərrəd ola bilir. Simvol, cədvəl, qrafik və s. vasitələrə modelləşdirmədə geniş yer verilir.

Göstərilən dilçilik üsullarının hamısından eyni dərəcədə istifadə edilmir. Bəzi üsullar hələ məhdud dairədə özünə yer tapır. Lakin dilçilikdə sistemləşdirmə, ümumiləşdirmə, müşahidə və eksperiment üsullarından daha geniş istifadə olunur. Bunlardan sonunculara xüsusi nəzər salaq.

1. LİNQVİSTİK MÜŞAHİDƏ ÜSULU

Müşahidə geniş və ümumelmi anlayışdır. Elmi ədəbiyyatda obyektiv aləmin əşya və hadisələrinin dərk edilməsi müşahidə adlanır. Müşahidə prosesində mənimsəmə hiss üzvləri və beynin köməyi ilə olur. Hər bir müşahidə fəaliyyət növü olaraq əmək prosesində meydana çıxır. İnsan özünün müşahidə fəaliyyəti zamanı nəzər yetirdiyi əşya və hadisələrə heç bir cəhətdən müdaxilə etmir, hər şey təbii halda izlənir.

Adi və elmi müşahidə. Mövcud insani müşahidələr mahiyyətcə eyni səviyyəli olmur. Buna görə də adi müşahidəni elmi dərketmədən – elmi müşahidədən fərqləndirmək gərəkdir. Adi müşahidə seyr etməkdən bir qədər irəli gedərək sadə şəkildə əşya və hadisəni mənimsəməkdir. Lakin elmi müşahidə müəyyən əşya və hadisənin ardıcıl davamlı və ətraflı öyrənilməsidir. Bu növ müşahidə prosesində tədqiqatçı adi adamın görə bilmədiyini görür, hadisənin birinci dərəcəli cəhətlərini başqalarından seçir, əşya və hadisələrin xüsusiyyət və münasibətlərini aça bilir. Bununla bərabər, müşahidə olunan faktlar tədqiqatçı tərəfindən dəqiq, inandırıcı şəkildə təsvir edilir.

Deməli, elmi müşahidə üçün iki cəhət başlıca şərtdir:

a) Əşya və hadisənin əlamətlərini dərindən dərk edə bilmək;
b) Müşahidə olunanların elmi təsvirini vermək.

Bu cəhətlər əsasında adi müşahidə yox, yalnız *elmi müşahidə elmi-tədqiqat üsulu* hesab edilir. *Elmi müşahidə üsulu tədqiqatın daha geniş yayılmış, təbii və ümumi elmi üsuludur.*

Bu üsuldan hər elmdə, o cümlədən coğrafiyada, biologiyada, psixologiyada, tarixdə, dilçilikdə və başqa elmlərdə istifadə olunur. Müşahidə üsulu hər elmin xüsusiyyət və tələblərinə uyğun tətbiq olunur. Bütün müasir ictimai və digər elmlərdə olduğu kimi, dilçilikdə də ancaq başqa üsullara deyil, həm də müşahidəyə böyük ehtiyac vardır. Dil hadisələrinin xarici ifadəsinin izlənilib öyrənilməsinə *linqvistik müşahidə üsulu* deyilir. Dilçilik tədqiqatlarında bu üsulun xüsusi rolu və yeri vardır.

Linqvistik müşahidənin təşkili. Dilçilik müşahidəsi dilin tədqiqi üçün başlıca şərtdir. Müşahidənin müvəffəqiyyətli və səmərəli olması dilçi-tədqiqatçının doğma ədəbi dili mükəmməl bilməsindən, onun ümumnəzəri linqvistik hazırlığından, müşahidəçilik bacarığından, təşkilatçılıq qabiliyyətindən çox asılıdır. Yüksək dilçi həssaslığına malik olan tədqiqatçının nəzərindən heç bir şey yayına bilməz.

Linqvistik müşahidənin keyfiyyətli olması üçün onun obyektinin dəqiqləşdirilməsi, məqsədinin müəyyənləşdirilməsi, düzgün planlaşdırılması, nəticənin sistemli qeydə alınması, faktların ətraflı təsviri əsas şərtlərdəndir. Bunları qrafik şəklində aşağıdakı kimi təsvir etmək olar:



1. Müşahidənin obyekti. Dilçilik tədqiqatlarında elmi müşahidə təşkil edilərkən ilk növbədə onun obyekti müəyyənləşdirilir. Obyekt seçilərkən aktuallığa xüsusi nəzər yetirilir. Çünki obyektin aktuallığı müasir elmin

başlıca tələbidir. Hazırda müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinin müxtəlif söz qrupları üzrə araşdırılmasına xüsusi ehtiyac vardır. Bu söz qruplarının dildəki yeri və işlənmə sahələri ifadə etdiyi məna və ya mənaların müşahidə edilməsi iki cəhətdən əhəmiyyətlidir. Birincisi, *dilimizin mükəmməl lüğətlərinin hazırlanmasında, ikincisi, nitq mədəniyyəti məsələlərinin düzgün həll edilməsində.*

2. Müşahidənin məqsədi. Linqvistik elmi müşahidənin həmişə müəyyən məqsədi olur. Deyək ki, tədqiqatçı dilin leksik sistemini izləyib lüğət tərtib etməyi qarşıya məqsəd qoyubdur. Bu zaman tədqiqatçı dilin lüğət tərkibini müşahidə etmək üçün sözlərin işlənməsi, onların həqiqi və məcazi mənaları üzərində külli miqdarda müşahidələr aparır, material toplayır. Bu məqsədlə ayrı-ayrı sözlər, məsələn, leksik vahid olan *"bir"* sözü götürülür, işləndiyi cümlələrlə birlikdə misallar seçilir və onun semantik tutumu və quruluşu haqqında elmi təsəvvür əldə edilir. Məqsəddən asılı olaraq müəyyən obyekti tam və ya hissə-hissə müşahidə etmək olur. Linqvistik müşahidə zamanı əgər dil hadisə və prosesləri tam əhatə olunursa (məsələn, dilin leksik sistemi bütövlükdə müşahidəyə cəlb edilərsə), buna *tam müşahidə* deyilir. Əgər dilin leksik sistemində ancaq bir sahəyə aid sözlər (deyək ki, bitki adlarını bildirən vahidlərin əlamətləri) nəzərdən keçirilərsə, bu *seçmə müşahidə* adlanır. Deməli, belə halda ümumi mövzudan bir hissə seçilib müşahidəyə cəlb edilir.

3. Müşahidənin planlaşdırılması. Linqvistik müşahidə üsulunun səmərəli olması onun planlaşdırılması ilə də bağlıdır. Planlı və sistemli müşahidə dilçilik tədqiqatlarının keyfiyyətinin yüksəldilməsində öz təsirini aydın göstərir. Tədqiqatçı nədən başlayıb işi necə başa çatdırmağı qabaqcadan planlaşdırmalıdır. Hadisəni planauyğun müşahidə edib öyrənmək səmərəli nəticə verir.

4. Müşahidə nəticələrinin qeydə alınması. Linqvistik müşahidənin nəticələrini yadda saxlamadan və ya yazıya almadan tədqiqata cəlb etmək qeyri-mümkündür. Buna görə də hazırda hər bir elmi-linqvistik müşahidə tədqiq olunan dil hadisəsinin dəqiq və aydın qeydə alınmasını tələb edir.

Linqvistik müşahidələrin nəticələri üç formada qeydə alınır:

a) Söz-yazı vasitəsilə;

b) Cədvəl, sxem, şəkillə;

c) Maqnitofon yazısı ilə.

Üçüncü formadan daha çox dialektlərin öyrənilməsində istifadə edilir.

Dialektoloqların maqnitofondan istifadə etmələri müşahidə materialını uzun zaman saxlamağa, yenidən eşitməyə şərait yaradır və onun elmi təhlilini yüngülləşdirir.

5. Müşahidə nəticələrinin təsviri. Linqvistik müşahidənin mahiyyəti ancaq dil hadisələrindəki cəhətləri seçib qeydə almaqdan ibarət deyil, həm də bunların elmi tərzdə ümumiləşdirilib təhlil olunmasıdır. Hadisə və faktlar təsvir edilərkən onların reallığı gözlənilib əslində olduğu kimi verilməlidir. Əks təqdirdə müşahidənin nəticəsi nəticəsizliyə çevrilə bilər.

Nəhayət deməliyik ki, linqvistik müşahidə üsulu bütün dilçilik metod və üsulları ilə vəhdət yaradıb əlaqəli şəkildə hər bir tədqiqat prosesinə daxil olur. Belə bir cəhət onun ümumelmi xarakterini göstərir.

Linqvistik müşahidə üsulunun müsbət cəhətləri ilə yanaşı, çatışmayan tərəfləri də yox deyildir. Müşahidə üsulu çoxdan dilçilikdə işlənilib təkmilləşməsinə baxmayaraq, onun vasitəsilə bütün dil hadisələri əhatə olunmur. Elə buna görə də başqa üsullara, o cümlədən eksperimentə də müraciət olunur.

2. LİNQVİSTİK EKSPERİMENT ÜSULU

Ayrı-ayrı obyekt və hadisələrin əlamət və keyfiyyətlərinin öyrənilməsi üçün elmi şəkildə təşkil olunan təcrübəyə *eksperiment* deyilir. Eksperiment (eksperimentum) sözü latın mənşəli olub, "təcrübə" mənasını bildirir. Qədim zamanlarda təşkil olunmuş geniş təcrübələr *eksperiment* adlanırdı.

Eksperiment üsulu ilə hər hansı bir hadisə və ya proses öyrənilərkən ona aktual şəkildə müdaxilə edilir. Bunun vasitəsilə əldə edilən nəticələri təkrar-təkrar yoxlamaq olur. Düzgün təşkil olunmuş eksperiment tədqiqatçını hər cür şübhə və tərəddüdlərdən azad edir. Elmi şəkildə aparılan təcrübənin eksperiment üsulunun köməyi əsasında müəyyən obyektin əlamət və xüsusiyyətləri tam dəqiqliyi ilə öyrənilir. Eksperiment həm təbiət hadisələrinin, həm də ictimai hadisələrin tədqiqinə tətbiq olunur. Bu üsuldan ilk dəfə təbiət elmlərində, o cümlədən fiziologiyada, fizikada, kimyada geniş istifadə olunmuşdur. Eksperimentin işlənilməsi daha çox istehsalla, texnika ilə bağlıdır. Lakin bu üsulla dilin hadisə və proseslərini də izləmək, tədqiq etmək, öyrənmək mümkündür[1].

Dil hadisələrinin təbii vəziyyətinə müdaxilə edib tədqiqat aparılmasına ***linqvistik eksperiment üsulu*** deyilir. Eksperiment dilçilik tədqiqatlarında ayrıca üsul deyildir. Lakin bu üsul bir sıra dil hadisələrinin elmi cəhətdən düzgün dərk edilməsi üçün vacibdir.

Dilçilikdə eksperiment üsulu XIX əsrin ortalarından tətbiq edilməyə başlanılmışdır. XX əsrdə bu üsula xüsusi əhəmiyyət verilmişdir. Eksperiment əsasında bir sıra qiymətli tədqiqat əsərləri yaradılmışdır. Linqvistik eksperimentdən

[1] Bax: Afad Qurbanov. "Ümumdilçilik fənlərinin tədrisi vəziyyəti və onların təkmilləşdirilməsi vəzifələri. Ümumi dilçilik fənlərinin tədrisi problemləri". Bakı, 1989, səh.11.

müasir dilçilikdə daha geniş istifadə olunur. Dilçiliyin inkişafında bu üsul öz müsbət təsirini göstərməkdədir.

Linqvistik eksperiment üsulundan dilin müxtəlif sahələrinin tədqiqində istifadə etmək mümkündür.

1. Fonetik eksperiment. Fonetik hadisələrin araşdırılması, dəqiqləşdirilməsi və öyrənilməsində eksperimentin rolu çoxdan elm aləminə məlumdur. Hələ XIX əsrdən başlayaraq bu üsulla müxtəlif dillərin fonetik hadisələri tədqiqata cəlb edilmiş, böyük fonoloji elmi nəticələr əldə edilmişdir. Müasir dilçilikdə fonetik eksperimentə daha geniş yer verilir. İndi eksperimentsiz aparılan fonetik tədqiqatlar yüksək qiymətləndirilmir və bəlkə də mənasız hesab olunur.

2. Orfoepik eksperiment. Eksperiment orfoepiya sahəsində də aparılır. Bu sahədə tətbiq olunan hər bir eksperiment (yəni orfoepik eksperiment) tələffüz qaydalarının dəqiqləşdirilməsinə xidmət edir. N.D.Andreyev rus dilində -kuü şəkilçisinin iki variantda (-кьи, -къи) işləndiyini yoxlamaq üçün 2280 adamın nitqini eksperiment üsulu ilə yoxlamışdır. Bunlardan ancaq üç nəfərin sərt (k) ilə tələffüz etdiyini müəyyənləşdirmişdir[1].

3. Lüğəvi eksperiment. Linqvistik eksperiment üsulunun tətbiqi dilin leksik və frazeoloji vahidlərinin dəqiq və düzgün tədqiqində də öz rolunu göstərir. Lüğəvi eksperimentin köməyi ilə sözlərin məna miqdarını, onun quruluşunu daha dəqiq müəyyənləşdirmək olur.

Məsələn, eksperiment vasitəsilə "süzmək", "düşmək", "görmək" sözlərinin məna yükünü, məna tutumunu, məna çalarlarını daha dəqiqliyi ilə aydınlaşdırmaq olur və s.

4. Qrammatik eksperiment. Qrammatik eksperiment son zamanlarda qrammatikləri də maraqlandırmağa başla-

[1] Bax: Н.Д.Андреев. Об одном эксперименте в области русской орфоэпии. "ВР", вып. 4, М., 1963, с.51.

mışdır. Bu sahədə eksperimentin tətbiqi dilin başqa cəhətlərinə nisbətən daha çətindir. Burada qrammatik forma, vasitə və kateqoriyalar kimi çox mürəkkəb dil faktlarının, hadisələrinin elmi dəqiqliyi yoxlanılır. İndiyə qədər təsviri aspektdə aparılmış qrammatik tədqiqatların elmiliyinin artırılmasında linqvistik eksperiment üsulu xüsusi əhəmiyyət kəsb edir.

5. Üslubi eksperiment. Dilçilikdə üslubi eksperiment üslubiyyatın bir sıra başlıca məsələlərinin aydınlaşdırılmasına yönəldilmişdir. Dilin leksik və qrammatik vahidlərinin üslubi əlamət və keyfiyyətlərinin müəyyənləşdirilməsində eksperiment üsulunun rolu olduqca böyükdür. *Üslubi eksperiment* dedikdə, bu və ya başqa mətndəki dil vahidlərinə (söz, morfem, söz birləşməsi, cümlə) variant və ekvivalent seçmək nəzərdə tutulur. Mətnin tərkib hissəsini təşkil edən hər bir kiçik və ya böyük dil vahidinin digər variantı ilə əvəz edilməsi nəticəsində müəyyən vahidin rolu aydınlaşdırılır. Eksperiment prosesində tədqiq olunan dil hadisəsi qabarıq şəkildə gözə çarpır və hiss olunur. Bununla da həmin hadisənin filoloji mövqedən qiymətləndirilməsinə imkan yaranır.

Üslubi eksperimentin mahiyyətinə şair və yazıçı yaradıcılığında da xüsusi əhəmiyyət verilir. Söz sənətkarları dil vasitələri üzərində diqqətlə düşünür, fikri dəqiq ifadə etməyə, münasib forma tapmağa cəhd göstərirlər. Şairlər təkcə dil vahidlərinə yox, həm də yaratdıqları misraların da yüksək bədii tələblərə cavab verə bilməsinə nail olmağa çalışmışlar. S.Vurğun sözün poetik yükünü artırmaq üçün bəzi misraları 2, 3, 4 və hətta 5 variantda yazmış, bunlardan daha təsirli və məqsədəmüvafiq olanı mətnə daxil etmişdir:

1. Şaxta qılıncını çəkmişdir qına.

2. Şaxta qılıncını yerə qoyaraq.

3. Şaxta qılıncını qoymuşdur qına.

4. Şaxta qılıncını qoysa da qına.

Yaxud:

1. Buludlar sıxlaşır, qaralır göylər.
2. Gah tutur göyləri qara buludlar.
3. Gah qara geyinir əyninə göylər.
4. Gah sıxır gözünü qara buludlar.
5. Gah qara buludda oynayır şimşək.

Göründüyü kimi, şair bu misralar üzərində ciddi üslubi iş aparmış, dil vasitələrini işlədərkən onların poetik mənasına, ekspressiv çalarlığına xüsusi fikir vermişdir. Bax, bu, həqiqi üslubi eksperimentdir[1].

6. Dialektoloji eksperiment. Ədəbi dildən fərqli olaraq, dialektlərdə bir çox lüğəvi və qrammatik vasitələr mövcuddur. Bu vasitələrin çalarlığını tapmaq heç də asan məsələ deyildir. Bunun üçün dil vasitələri üzərində işləmək, axtarışlar aparmaq gərəkdir. Dialekt ünsürlərinin eksperiment yolu ilə tədqiqi *dialektoloji eksperiment* adlanır.

Elmi üsul kimi linqvistik eksperimentin iki forması vardır:

1. Linqvistik laborator eksperiment. Dil hadisələrinin xüsusi laboratoriya şəraitində öyrənilməsinə *laborator eksperiment* deyilir. Bu formada aparılan eksperimentlərdə cihazlardan istifadə edilir.

Dilçilikdə fonetik hadisələr asanlıqla laborator eksperimentlə öyrənilir. Linqvistik eksperiment üsulu ilə dilin fonetik sisteminin tədqiqində palataqrafiya, rentgenoqrafiya, fotoqrafiyaya geniş yer verilir.

Xüsusi şəraitdə – fonolaboratoriyalarda yerinə yetirilən işlərin nəticələri daha dəqiq olur. Bu növ eksperiment şəxs üzərində aparılır. Buna görə də informatorun düzgün seçilməsi ən vacib məsələlərdəndir. Təcrübə göstərir

[1] Bax: Afad Qurbanov. "S.Vurğun bədii əsərlərin dili və üslubu haqqında". Bakı, 1961, səh.40.

ki, belə tədqiqatın təşkilində informator monodilli olanda (yəni qeyri dilləri bilməyən, ancaq doğma dildə danışan şəxs seçilərkən) daha inamlı və etibarlı nəticələr əldə edilə bilir. Müasir dilçilikdə bir çox dillərin fonetik hadisələri bu üsulla ətraflı tədqiq edilmişdir. Dilçilikdə bu yolla aparılmış tədqiqatlar bəzən "eksperiment fonetika" adlanır.

2. Linqvistik təbii eksperiment. Bu forma eksperiment təbii şəraitdə aparılan eksperimentə deyilir. Burada laborator eksperimentdən fərqli olaraq, cihazlardan istifadə edilmir. Təbii eksperimentdə tədqiqatçı daha sərbəst olur. Təbii eksperimentdən *dialekt materiallarının şivələrdə yoxlanılmasında və üslubiyyatda* istifadə olunur.

Təbii eksperiment öz mahiyyətinə görə müşahidə üsuluna daha yaxındır. Linqvistik eksperiment üsulun səmərəsi onun düzgün təşkili və aparılması ilə bağlıdır. Burada da obyektin müəyyənləşdirilməsi, məqsədin dəqiqləşdirilməsi əsas şərtlərdəndir. Dilçilikdə eksperimentin məqsədyönlü planlaşdırılması işin gedişini asanlaşdırır, düzgün nəticə əldə etməyə imkan verir.

Dil sahəsində təşkil edilən hər bir eksperiment müşahidə üsulu ilə sıx bağlı olur. Tədqiqatçılar bu üsul vasitəsilə eksperimentin gedişinə nəzər yetirir, oradakı hər bir ünsürü, vəziyyəti öyrənə bilir.

13.02. MÜASİR ELMİ METODLAR

Müasir dövrdə dilçilik elmi çox şaxələnmiş və onun qarşısına yeni-yeni mürəkkəb problemlər çıxmaqdadır. Dilçiliyin indiki inkişaf səviyyəsi elmi-tədqiqat üçün daha mükəmməl, daha səmərəli metodlar tələb edir. Məlum olduğu üzrə, hər bir elmin qüvvəsi onun metodlarının zənginliyindədir.

Metod – elmin tərkibinin zəruri ünsürüdür. Buna görə də elmin inkişafı metodların tərəqqisi ilə bağlıdır. Dilçilik elmi tarixən inkişaf etdikcə onun bir sıra metodları meydana çıxmışdır. Dilçilik metodlarının adı, mahiyyəti haqqında elmdə çox müxtəliflik hökm sürməkdədir. Bəziləri metodlardan bəhs edərkən onları dilin tarixini öyrənən – *diaxronik* və dilin müasir sistemini öyrənən *sinxronik* metodlar deyə iki yerə bölürlər. Bir sıra alimlər isə metodları dilin komponentləri ilə bağlayaraq bunları fonetikanın metodu, leksikanın metodu, qrammatikanın metodu kimi adlandırırlar. Dilçilikdə metodlar adlandırılarkən həm tarixi, həm də ənənəvi prinsiplərə istinad olunmuşdur.

Müasir dilçiliyin hər bir metodu bir neçə müxtəlif üsulun komponentidir. Bu üsullar mahiyyətcə *aparıcı, başlıca və əlavə xarakterli* olur.

Aparıcı üsul aid olduğu metodun bünövrəsini təşkil edir və onun əsasında müstəqil dilçilik metodu formalaşır. Həmin metodla aparılan elmi tədqiqatların cəmi isə bəzi alimlər tərəfindən *dilçilik sahəsi* adlandırılır.

Sıra №-si	**Aparıcı üsul**	**Dilçilik metodu**	**Dilçilik sahəsi**
1.	Təsviri üsul	Təsviri metod	Təsviri dilçilik
2.	Müqayisəli üsul	Müqayisəli metod	Müqayisəli dilçilik
3.	Areal üsul	Areal metod	Areal dilçilik və s.

Başlıca və əlavə üsullar hər hansı bir aparıcı üsulun vasitəsilə yaradılan metodun tərəqqi və təkmilləşməsində iştirak edir. Bunlardan aparıcı üsulların rolu və əhəmiyyəti daha böyükdür.

Dil hadisə və faktlarının təhlilində tədqiqatçı müxtəlif metodlara müraciət etməli olur. Hər bir tədqiqatın müsbət nəticəsi düzgün metod müəyyənləşdirməklə bağlıdır.

Metod yerində və düzgün işləndikdə müsbət və doğru nəticələr əldə etmək mümkün olur. Təsadüfi, qeyri-müvafiq şəkildə istifadə edilən hər hansı bir metod elmi işin nəticəsizliyinə gətirib çıxara bilər.

Dilçilikdə bu və ya başqa elmi-tədqiqat mövzusu üçün metod müəyyənləşdirilərkən, adətən, iki cəhət nəzərə alınır:

a) Tədqiq olunan dil hadisələrinin xüsusiyyətləri;

b) Qarşıya qoyulan konkret məqsəd.

Müasir dilçilik elmində aşağıdakı (21-ci cədvəl) başlıca metodlardan daha geniş istifadə olunur.



Cədvəl 21.

Dilçilik elmində bu metodların hər birinin öz üstünlüyü vardır və bunlar tədqiqat prosesində əlaqələnir, bir-birini tamamlayır.

1. MÜASİR DİLÇİLİKDƏ TƏSVİRİ METOD

İnsan fəaliyyətinin müxtəlif sahələrində müşahidə edilən hər hansı bir əşya və ya hadisə təsvir olunur. Obyekt

və məqsəddən asılı olaraq təsvirin müxtəlif növləri mövcuddur. Bunlardan *elmi təsvir* hər hansı *adi təsvir və ya bədii təsvirdən* əsaslı şəkildə fərqlənir. Elmi təsvirdən tədqiqatçıların müxtəlif axtarışlar prosesində kəşf etdikləri qanun və yenilikləri əks etdirməkdə, onları gələcək nəsillərə çatdırmaqda istifadə olunur. Elmi təsvirdə dil hadisələri hər cəhətdən təhlil olunur, nəzəri mövqedən aydınlaşdırılır. Onların hər birinin dildəki yeri, vəzifəsi göstərilir.

Elmi təsvir prosesində dil hadisə və faktlarını tam əhatə etmək üçün müxtəlif elmi üsullara müraciət edilir. *Dilçilik elmində hər hansı dilin hazırkı anda inkişafının tədqiqinə cəlb edilən elmi-tədqiqat üsullarının cəmi təsviri metod adlanır.* Təsviri metodun özünə xas olan xüsusiyyətləri, tətbiq edilmə metodikası vardır. Bu metod dilçiliyin ən qədim metodudur. Onun tədqiqata tətbiq olunması dilçiliyin yaranma tarixi ilə bağlıdır. Belə ki, uzaq keçmişdə təşəkkül tapmış *qədim hind, çin, yunan və ərəb* dilçiliyində bu metodla dil hadisələrinin elmi təsvirinə qədəm qoyulmuşdur. Əsrlər boyu dilçiliyin tarixində təsviri metod daha da zənginləşmə yolu keçib yüksək inkişaf etmişdir. Müasir dilçiliyin bütün sahəsində bu və ya başqa şəkildə təsviri metoddan geniş istifadə olunur.

Linqvistik təsviri metod vasitəsilə dil quruluşunun komponentlərində (dilin səs sistemi, lüğət tərkibi və qrammatik quruluşunda) müşahidə olunan qanunauyğunluqlar tədqiq edilir. Bu komponentlərin hissələri müəyyən bir zəncirin ünsürləri kimi təsəvvür olunur.

Məsələn, müasir ədəbi dilin fonemlər sistemi – *saitlər* sistemini təşkil edən qalın və incə fonemlər; *samitlər* sistemini əmələ gətirən kar və cingiltili səslər və s.

Təsviri istiqamətdə aparılan elmi tədqiqatlar dilçilikdə *sinxronik tədqiqat* hesab olunur. Dilin sinxronik öyrənilməsi ilə əlaqədar elmdə təsviri dilçiliyin sinonimi olaraq sinxronik dilçilik anlayışı da meydana gəlmişdir.

Məlum olduğu kimi, hər bir metodun müəyyən məqsədi olur. Elmi metodun məqsədi öyrənilən obyektin xüsusiyyətlərini açmaq və aşkar etməkdən ibarətdir. Linqvistik təsviri metodun da məqsəd və vəzifəsi hər bir dil vahidinin elmi təhlilini verməkdir. Bu metodun köməyi ilə dil vahidlərinin, onların əlaqədar hadisələrinin ümumi sistemdə və konkret qruplarda tutduğu mövqe və vəzifələri müəyyənləşdirilir. Təsviri istiqamətdə əldə edilən hər bir elmi nəticə *nəzəri dilçiliyə aid olub*, onun zənginləşməsində xüsusi əhəmiyyət kəsb edir.

Hər bir tədqiqat işinin icrasında müxtəlif mahiyyətli elmi üsullardan kompleks şəkildə istifadə olunur. Linqvistik təsviri metodu təşkil edən *başlıca elmi üsullar* aşağıdakılardır:

1. Dil vahidlərinin müəyyənləşdirilməsi üsulu.
2. Dilin sistem şəklində öyrənilməsi üsulu.
3. Təsviri-normatik üsul.
4. Təsviri-semantik üsul.
5. Təsviri-müqayisəli üsul.
6. Təsviri-ümumiləşdirmə üsulu.
7. Təsviri-şərhetmə üsulu.

Bu elmi üsulların hər biri xüsusi mahiyyətə malikdir. Sonuncu üsula nəzər yetirək.

Şərhetmə üsulu dil hadisə və faktlarının məzmununu, onların daxili cəhətlərini, varlığını şərtləndirən qanunlarını real formada açmaqda böyük əhəmiyyət kəsb edir. Bunun məqsədi hadisə və faktı şərh etmək, onlara aid olan hər cür qanunları aşkara çıxarmaqdır. Dil hadisəsi şərh edilərkən onun dildə başvermə səbəbinin şərhindən başlanılır. Hadisənin səbəbini açmaq onun elmi cəhətdən dərk edilməsinə, mənimsənilməsinə şərait yaradır. Elmdə hadisənin funksional və struktural şərhi də əsas amillərdən hesab olunur.

Dünya dilçiliyinin inkişafında təsviri metodun böyük rolu və əhəmiyyəti olmuş və indi də bu öz qiymətini azaltmamışdı. Təsviri metod əsasında bir çox milli dillərin elmi şəkildə *təsviri fonetikası, təsviri leksikologiyası, təsviri qrammatikası* yaradılmışdır. Bununla yanaşı, müxtəlif dillərə dair geniş izahlı lüğətlər də hazırlanmışdır. Təsviri istiqamətdə yazılmış lüğətlər, digər əsərlər – ali, orta məktəb dərsləri *tətbiqi dilçiliyə* məxsus olub, onun inkişafına xüsusi təsir göstərməkdədir.

Linqvistik təsviri metod Azərbaycan dilçiliyində də geniş inkişaf yolu keçmişdir. Bu metod əsasında onlarca monoqrafiya, dərslik və lüğət yaradılmışdır.

2. MÜASİR DİLÇİLİKDƏ TARİXİ METOD

Dil tarixən dəyişən, inkişaf yolu keçən və təkmilləşən hadisədir. Ona görə də hər bir dili ətraflı öyrənmək üçün yalnız sinxronik istiqamətdə aparılan işlər kifayət etməmiş və bu məqsədlə diaxronik planda tədqiqatlara xüsusi zərurət meydana çıxmışdır. Belə zərurət və tələbatlar nəticəsində elmi üsullar və onlarla əlaqədar xüsusi tarixi metod formalaşmışdır.

Dilçilikdə *dil tarixi inkişafının bütün əlamət və xüsusiyyətlərinin tədqiqində istifadə edilən üsulların cəmi tarixi metod adlanır.*

Tarixi metodun tədqiq obyekti konkret bir dilin bütün əsrlər boyu struktural və funksional istiqamətdə olan inkişaf tarixinin xüsusiyyətləridir. Məlum olduğu üzrə, dil yarandığı gündən onun quruluşunda müəyyən obyektiv səbəblərlə bağlı tədricən dəyişikliklər baş verir. Bu dəyişikliklər dilin səslərində, sözlərində, morfemlərində və cümlələrində müşahidə edilir. Bununla bərabər, dilin ədəbi formada istifadə edilməsində də müxtəlif sahələr, mövqelər meydana gəlir. Tarixi metodun məqsədi dilin

quruluş və sistemlərinin, ədəbi formasının inkişaf tarixini izləməkdir. Dilin inkişaf qanunauyğunluqlarının dildaxili və dilxarici amillərin dəyişmə səbəblərinin araşdırılmasında da bu metodun xüsusi rolu var.

Linqvistik tarixi metod aşağıdakı *başlıca* və *əlavə* üsullarla səciyyələnir:

1. Tarixi-təsviri üsul. Bu üsul linqvistik tarixi metodun əsasını təşkil edir. Belə ki, hər bir elmi nəticə təsvir üsulu vasitəsilə əks olunur. Buradakı elmi təsvir tərzi, şübhəsiz ki, başqa metodlardan öz mahiyyətinə görə seçilir. Tarixi mövzuda yazılan dilçilik əsərlərində tarixilik ön plana çəkilir.

2. Tarixi dövrləşdirmə üsulu. Dilin inkişaf tarixi bütün əsrlərdə eyni məzmun və səviyyədə olmur. Belə bir qanunauyğunluq ictimai, siyasi, mədəni və digər səbəblərin nəticəsi kimi özünü göstərir. Buna görə də hər hansı bir dil tədqiq olunarkən onun keçib gəldiyi yolun inkişaf tarixinin *dəqiq dövrləşdirilməsi* başlıca elmi məsələlərdəndir. Dil tarixi dövrləşdirilərkən iki cəhətə ciddi nəzər yetirilir:

a) Dövrləşdirmə tədqiq olunan dilin real materialları üzərində qurulur;
b) Dövrləşdirmə üçün xüsusi prinsiplər müəyyənləşdirilir.

3. Tarixi-xronoloji üsul. Məlumdur ki, dil tədricən, zaman-zaman inkişaf edir. Bu prosesdə dilin xarakterik cəhətləri ardıcıl olaraq əsrlər üzrə öz izini saxlayır. Buna görə də dil tarixi əsrlər, mərhələ və dövrlər üzrə öyrənildikdə düzgün nəticə əldə edilir.

Xronoloji tədqiqatdan – dil hadisələrinə xronoloji mövqedən yanaşmaq üsulundan tarixi istiqamətli bütün dilçilik tədqiqatlarında istifadə olunur. Xronoloji üsul dilin daxili inkişaf *dinamikasının* göstərilməsində xüsusi əhəmiyyət kəsb edir.

4. Tarixi-müqayisəli üsul. Bu üsulda müqayisə istiqaməti daha üstünlük təşkil edir. Hər bir tarixi faktın ma-

hiyyəti elmi müqayisə əsasında müəyyənləşir. Müqayisə üçün əsas meyar müasir dil götürülür. Mövcud tarixi faktlar müasir dilin müvafiq ünsürləri ilə müqayisə edilərkən onun dildəki yeri və rolu aydın şəkildə meydana çıxır.

Konkret bir dilin inkişaf tarixini açmaqda tarixi-müqayisəli üsul ən başlıca vasitədir. Dilçilikdə bu üsulun tətbiqinə həmişə geniş yer verilmiş və yüksək nəticələr əldə edilmişdir.

5. Daxili bərpaetmə üsulu. Dil tarixi öyrənilərkən həmin dilə aid yazılı abidələrdən geniş istifadə olunur. Bu mənbə tədqiqata cəlb edilərkən bəzi axtarılan zəruri faktı tapmaq qeyri-mümkün olur. Belə hallarda daxili bərpaetmə üsulu tədqiqatçının köməyinə gəlir.

Daxili bərpaetmə üsulundan yazılı abidələrdə əks olunmamış dil quruluşuna aid vahidin bərpasında istifadə edilir. Bərpaetmənin özünəməxsus metodikası vardır. Bu proses belə olur. Bərpa edilməsi nəzərdə tutulan dil ünsürü ona məna və formaca yaxın olan bir hadisə ilə müqayisə edilir. Bu müqayisə əsasında nəzərdə tutulan hadisə haqqında müəyyən fərziyyə irəli sürülür.

6. Tarixi-areal üsulu. Hər hansı bir dilin tarixi öyrənilərkən onun yalnız ədəbi formasının dil vasitələrinə əsaslanıldıqda aparılan tədqiqatlar birtərəfli ola bilir. Çünki qədim və müasir elə dil faktları, hadisələri vardır ki, onlara ancaq danışıq dilində – dialekt və şivələrdə rast gəlmək olur. Dil tarixinin tədqiqində bu cəhətin nəzərə alınması başlıca şərtdir.

7. Mədəni-tarixi araşdırma üsulu. Dilin inkişafı mənsub olduğu xalqın tarixinin ayrılmaz hissəsidir. Buna görə də dil tarixi tədqiq edilərkən xalqın mədəni inkişaf yollarına da nəzər salınır. Mədəni-tarixi araşdırma yolu ədəbi dilin tarixinin dövrləşdirilməsinə xidmət edir. Bu üsul ədəbi dilin üslubi keyfiyyətlərinin açılmasında xüsusi rol oynayır.

8. Mətnşünaslıq üsulu. Tarixi metodun tərkibində bu üsul əlavə və köməkçi xarakter daşıyır. Burada məqsəd hər hansı mətnin ilk variantını axtarmaq, onu çapa hazırlamaqdır. Tədqiqatçı – mətnşünas əsas mətn və onun variantlarını tutuşdurur, fərqləri, dəyişiklikləri, təhrifləri meydana çıxarır. Bu qaydada aparılan mətnşünaslıq işləri tədqiqatçının, o cümlədən dilçilərin düzgün nəticələr əldə edə bilmələrinə kömək edir.

Tarixi metodla tədqiqat aparılarkən dil tarixinə dair bir çox mənbələrə, qaynaqlara müraciət olunur. Həmin mənbələrin ən mötəbəri aşağıdakılardır:

1. Qədim abidələr.
2. Dialekt və şivələr.
3. Yazılı ədəbiyyat.
4. Şifahi ədəbiyyat.
5. Elmi ədəbiyyat.
6. Tarixi sənədlər.
7. Arxiv materialları.
8. Dövri mətbuat.
9. Qohum dillər.
10. Yad dillər.
11. Qədim və müasir lüğətlər.
12. Qədim və müasir xəritələr.

Bu mənbələrin hər birindən müəyyən elmi yollarla istifadə olunur. Dünya dilçiliyinin müvəffəqiyyətləri bu metodla da bağlıdır. Tarixi metodla bir çox dillər struktural istiqamətdə tədqiq edilərkən onların *tarixi fonetikası, tarixi leksikologiyası, tarixi qrammatikası* yaradılmışdır. Funksional istiqamətdə görülən elmi-tədqiqat işləri nəticəsində isə ədəbi dil tarixləri yazılmışdır.

Linqvistik-tarixi metod hər hansı bir dilin ümumi tarixinin (struktural və funksional cəhətdən birləşdirən) yaradılmasına əsas verir. Bunun vasitəsilə *Azərbaycan dilinin*

tarixinin mükəmməl formada yaradılması müasir dilçilik qarşısında duran əsas vəzifələrdəndir.

3. MÜASİR DİLÇİLİKDƏ MÜQAYİSƏLİ METOD

Müqayisəli metod dil haqqında elmin ən başlıca metodudur. Dilçilik metodu kimi, onun əsasını *elmi müqayisə* təşkil edir.

Müqayisə iki və daha artıq obyektin birini başqasından fərqləndirməkdir. Bunun vasitəsilə dil hadisələrinin əlamət və münasibətləri aşkar edilir. Hər bir müqayisə əməliyyatının faydalı olması üçün aşağıdakı şərtlər gözlənilir.

1) Müqayisə obyekti, yəni müqayisə ediləcək dil hadisəsi dəqiq müəyyənləşdirilir.
2) Bir-biri ilə əlaqəsi olan dil hadisə və vahidləri müqayisəyə cəlb edilir.
3) Müqayisə əməliyyatında dil hadisə və vahidlərinin başlıca cəhətləri nəzərə alınır.
4) Müqayisə sadədən mürəkkəbə prinsipi ilə aparılır. Məsələn, dillərin müqayisəsi ilk mərhələdə ən yaxın qohum olan dildən başlanır, sonra onun dairəsi genişlənir və axırda bütün qohum dillər əhatə olunur.

Müqayisə geniş ümumelmi xarakterə malikdir. Bundan bir çox elmlərin tədqiqində istifadə olunur. Tarixçilər, sosioloqlar, hüquqşünaslar və başqaları müqayisədən həmişə istifadə etmişlər. Bu üsul müəyyən elm sahələrinə dair tədqiq edilən obyektlərin təbiətinə uyğun şəkildə tətbiq olunmuşdur.

Dil hadisələrinin öyrənilməsi ilə bağlı dilçilik müqayisəsi, onun üsulları başqalarından fərqlənir. *Bir sıra elmi üsulların cəmi olan müqayisəli metod* vasitəsilə konkret dilin və ya dillərin oxşar və fərqli hadisələri, cəhətləri üzə çıxarılmış, elmi formada aydınlaşdırılmışdır.

Dilçilikdə aparılan elmi-tədqiqat müqayisələrinin iki forması mövcuddur: *dildaxili müqayisə və dillərarası müqayisə.* Bunların hər birinin konkret məqsəd və vəzifələri vardır.

Dildaxili müqayisə. Dildaxili müqayisənin obyekti konkret bir dilin hadisələri olur. Burada ədəbi dil ilə danışıq dilinin (dialekt və şivələrin) fonetik sisteminə, lüğət tərkibi və qrammatik quruluşuna dair müqayisələr edilir, onların fərqləri aşkar olunur.

Dillərarası müqayisə. Bu formada aparılan işlərdə bir neçə dilin faktları müqayisə edilir. Əvəzliklər üzrə dillərarası müqayisəyə misal.

Azərbaycanca	*Türkcə*	*Şorca*
mən	ben	men
sən	sen	sen
o	o	ol
biz	biz	pis
siz	siz	siler
onlar	onlar	ılar

Belə yaxınlıq bu dillərin təkcə lüğət tərkibində deyil, morfoloji və sintaktik cəhətlərində də özünü göstərir. Deməli, bunlar qohum dillərdir. Elmdə müqayisənin tətbiq tarixi çox qədimdir. Hələ uzaq keçmişdə ictimai elmlərdə bundan geniş istifadə olunaraq ilk dövlətlərin tarixi öyrənilmişdir. Bu metoddan dilçilikdə istifadə olunmasının da xüsusi tarixi vardır. Dilçilik metodu kimi müqayisənin tədqiqata tətbiqi sahəsində ziddiyyətli fikirlər mövcuddur. Bəzi alimlər onun tarixini XIX əsrlə bağlayır, digər qrup alim isə XVIII əsrdən müqayisəli metoda müraciət olunduğu fikrini əsaslandırmağa çalışmışlar. Həqiqətdə isə müqayisəli metod ideyasının tarixi dilçilikdə daha qədimdir. Hələ XI əsrdə *Şərq dilçiliyinin bahadırı Mahmud Qaşqarlı* müqayisəli metoddan geniş istifadə etmişdir. Onun türk dillərinin lüğət tərkibinə dair yazdığı məşhur əsərlərində dil materiallarının tədqiqinə bu metodun tətbiqinin gözəl nümunəsini görmək olar. XII əsrdə Çin dilçisi

Çju Si (1130–1200) də qədim Çin abidələrinin lüğət tərkibi və qrammatik quruluşu üzərində axtarışlar apararkən tədqiqata müqayisəli metod tətbiq etmişdir.

Linqvistik müqayisə metodu təşəkkül tapdığı dövrdən xüsusi inkişaf yolu keçərək get-gedə təkmilləşmiş və onun yeni-yeni üsulları meydana çıxmışdır.

Müasir dilçilikdə müqayisəli metod aşağıdakı *başlıca üsullarla* səciyyələnir:

1. Müqayisəli-təsviri üsul.

2. Müqayisəli-tipoloji üsul.

3. Müqayisəli tutuşdurma üsulu.

4. Müqayisəli-tarixi üsul.

Bu üsullardan axırıncısı geniş intişar taparaq *müqayisəli-tarixi metodun əsasına* çevrilmişdir.

MÜQAYİSƏLİ-TARİXİ METOD

Dilçilikdə mövcud olan hər bir müqayisəli-tarixi tədqiqat işi müqayisəli-tarixi metod əsasında meydana çıxır. Bu metod *"müqayisə"* və *"tarixilik"* anlayışları əsasında formalaşmışdır.

Müqayisə üsulu ———— Dillərarası müqayisə

Müqayisə-tarixi metod

Bu metoda dilçilikdə *"müqayisəli-genetik metod"* da deyilir.

Müqayisəli-tarixi metod XIX əsrin I yarısında meydana gəlmişdir. Dilçiliyin başqa elmi üsul və metodları kimi bu da xüsusi inkişaf yolu keçmişdir. Hazırda müqayisəli-tarixi metod dilçiliyin ən sınanmış və təkmilləşmiş metodları sırasında xüsusi yer tutur[1].

[1] Başqa bir sıra elmlərdə də bu metoda müraciət olunur. Məsələn, pedaqogikada tərbiyə və təhsilin, xalq maarifinin müxtəlif sistemlərinin tarixi öyrənilərkən müqayisəli-tarixi metoddan geniş istifadə edilir.

Müqayisəli-tarixi metod qohum dilləri öyrənilməsində tətbiq olunur. Bunun məqsədi qohum dilləri ulu dildən başlamış müasir dövrə kimi olan inkişaf qanunauyğunluqlarını açmaqdan ibarətdir. Buna görə də müqayisəli-tarixi metod ölü və canlı qohum dillərdəki qohumluq, eynilik faktlarının, hadisələrinin, qanunlarının cəminə əsaslanır. Bu qaydada aparılan tədqiqatlar üzərində elmdə müəyyən edildiyinə görə lap gədimdə *ulu türk dili* olmuş, sonradan ayrılma – mürəkkəb diferensiasiya əsasında bir sıra türk dilləri meydana gəlmişdir.

Müqayisəli-tarixi metodun özünə xas olan tətbiqi texnikası mövcuddur. Tətqiqat prosesində onun tələblərinə ciddi əməl edilməsi əsasında həqiqi nəticələrə gəlmək olur. Bu metodla iki və daha artıq qohum dil eyni vaxtda öyrənilir. Rus və ləzği, yapon və özbək, çin və qazax dillərinin tətqiqində bu metoddan istifadə etmək olmaz. Çünki həmin dillərdə qohumluq əlaqələri yoxdur.

Müqayisəli-tarixi metodun vəzifəsi dünyanın qohum dillərinin – dil ailə və qruplarının keçmiş qanunlarını kəşf etmək və onları aydınlaşdırmaqdır. Dillər müqayisəli-tarixi metodla öyrənilərkən onların səs sistemi, lüğəti və qrammatik formaları müqayisə olunur. Bu prosesdə iki cəhət diqqət mərkəzində durur: a) qohum dillərin ümumi qanunauyğunluqlarını açmaq; b) onların inkişaf yollarını müəyyənləşdirmək.

Müqayisəli-tarixi metodun tətbiqində bir sıra məsələlərə ciddi diqqət yetirilməsi tələb edilir:

1) Qohum dillərin ən qədim vahidlərini tədqiqata cəlb etmək;
2) Təsadüfi faktları deyil, dilin öz vahidlərini müqayisə etmək;
3) Dillərin qeyri-bərabər inkişafetmə qanununu nəzərə almaq.

Genetik ümumiliyə əsaslanan müqayisəli-tarixi metod bir deyil, bir neçə üsulun vəhdəti kimi mövcuddur. Bu metodun üsullarının dəqiqləşdirilməsi ilə hələ keçən əsrdən məşğul olunmağa başlanılmışdır.

Müasir müqayisəli-tarixi metod kompleks şəkildə aşağıdakı *başlıca üsullar* əsasında fəaliyyət göstərir:

1. Genetik eyniliyin müəyyənləşdirilməsi üsulu. Dillərin genetik eyniliyi onların quruluşu və sistemlərində axtarılır. "Genetik eynilik" anlayışı müəyyən bir hadisə və ya vahidin ayrı-ayrı dillərdə müxtəlif formada inkişafıdır.

Genetik eynilik dilin müxtəlif vahidlərində ola bilir. Hər hansı bir morfemin eyniliyində səs fərqləri meydana çıxır. Məsələn, türk dillərində I şəxsin təkini bildirən morfem Azərbaycan dilində *mən*, türk dilində isə ben formasında işlənir ki, burada fonem fərqləri (*m-b, ə-e*) aydın görünür.

Dillərin genetik eyniliyi onların qohumluğunu şərtləndirir. Dillərin qohumluğu onların keçmişdə ümumi mənbə dildən ayrılıb inkişaf etməsi kimi dərk olunur. Dillərin inkişafı tarixi faktlardır.

Linqvistik eyniliyin müəyyənləşdirilməsində ən başlıca cəhət *genetik yaxınlıqla tipoloji uyğunluğun* qarışdırılmamasıdır.

2. Qədim dil formalarının bərpa edilməsi üsulu. Müasir dilçilikdə müəyyən olunmuşdur ki, dil vahidlərinin qədim formalarını bərpa etmək üçün *səs qanunlarını* bilmək ən başlıca şərtlərdəndir.

Bərpaetmənin vəzifəsi dil vahidlərinin arxetipini müəyyənləşdirməkdən ibarətdir. Sözlərin, sözdüzəldici və sözdəyişdirici formaların arxetipi bərpa olunarkən müxtəlif növ yollardan istifadə edilir. Belə hallarda *bərpaetmə fərziyyəsi* ilə ulu dilin sxemi hazırlanır, buna uyğun tədqiqat aparılır.

3. Mütləq və nisbi xronologiya üsulu. Müqayisəli-tarixi metod üçün xronologiyanın müəyyənləşdirilməsinin də əhəmiyyəti az deyildir. Buna uyğun olaraq tədqiqat iki mərhələdə aparılır:

a) Mənbə dilin haçalanmasına qədərki dövr;

b) Mənbə dilin haçalanma, bölünmə dövrü.

Mənbə dilin – ulu dilin haçalanana, bölünənə qədərki dövründə olan əlamətlərin bərpasında xüsusi ardıcıllıq, sistem, əsrlər nəzərə alınır. Hər bir hadisə vaxta uyğun, dövrlərə müvafiq izlənilir.

4. Etimoloji təhlil üsulu. Dil qohumluğunun öyrənilməsində etimoloji axtarışlar məsələnin açıqlanmasında xüsusi imkanlar yaradır. Etimoloji yolla sözün səs quruluşu, morfemlərin əlamətləri üzə çıxarılır. Söz köklərinin tədqiqi, ilk formanın aşkar edilməsi daha çox etimologiya ilə bağlı olur. Qohum dillərdə söz köklərinin eyniliyi onların bir dildən yarandığını əsaslı sübut edir.

5. Yazılı abidələrin düzgün istifadə üsulu. Dillərin qohumluğunu aydınlaşdırmaq üçün qədim yazılı abidələrin dili zəngin faktlar verir. Müqayisəli-tarixi müşahidələr əsasında yazılı abidələr üzərində həkk olunmuş faktlar müəyyənləşdirilərkən dillərin qohumluğu aşkar olur.

Dünyanın bir sıra dillərinə məxsus qədim abidələr mövcuddur. Eradan əvvəl XIV–XIII əsrlər *hett dilinə*, X–IV əsrlər *qədim yunan*, VI–V əsrlər *qədim fars*, III əsr *sanskrit dilinə* aid yazılı abidələr saxlanmaqdadır.

Bizim eranın V–VI əsrlərinə aid *qot dilinə*, V–X əsrlərdə isə *qədim türk dillərinə* məxsus abidələr dilçilərin istifadəsindədir.

Qohum dillərin müəyyənləşdirilməsində, dillərin ailə və qruplara görə təsnif olunmasında müqayisəli-tarixi metodun rolu olduqca böyükdür. Bu metodun tətbiq olunması nəticəsində bir çox linqvistik nailiyyətlər qazanılmışdır.

Müqayisəli-tarixi metodla qohum dillərin *fonetik sistemi və morfoloji əlamətləri* ətraflı öyrənilmişdir. Lakin sintaksis və semantika məsələləri hələ lazımi səviyyədə işlənilməmişdir. Bu, sintaksisin mürəkkəbliyi və semantikanın qəlizliyi ilə əlaqədardır. Dildəki sözlərin ilkin semantikasını müəyyənləşdirmək olduqca çətindir. Çünki dilin lüğət tərkibi sürətlə dəyişir və inkişaf edir. Bunun da nəticəsində bəzi sözlərin mənaları ilk mənadan çox-çox uzaqlaşmış olur.

Müasir dilçiliyin bu sahədə vəzifəsi leksikologiya, derivatologiya, semasiologiya, sintaksis bəhsləri üzrə də fundamental müqayisəli-tarixi elmi-tədqiqat işləri yaratmaqdan ibarətdir.

4. MÜASİR DİLÇİLİKDƏ QARŞILAŞDIRMA METODU

Dilçilikdə müxtəlif dil faktlarının bir-biri ilə qarşılaşdırılaraq tədqiq edilməsi, öyrənilməsi *linqvistik qarşılaşdırma metodu* adlanır. Bu metodda müasir qarşılaşdırma üstünlük təşkil edir.

Qarşılaşdırma ilə müqayisə anlayışları bəzən elmi ədəbiyyatda fərqinə varmadan eyniləşdirilir. Bunlar bir-birindən ciddi şəkildə seçilən, fərqlənən anlayışlardır. İlk növbədə müqayisə və qarşılaşdırma anlayışlarının sərhədini dəqiq müəyyənləşdirmək lazımdır.

Müqayisəli tədqiqatlarda tarixilik aparıcı istiqamət olur. Hadisələr müşahidə edilib qeydə alınaraq müqayisə edilir, əsasən dillərin *oxşar cəhətləri araşdırılır.*

Qarşılaşdırma isə başqa xarakterdədir. Burada dil faktları qarşı-qarşıya qoyulur, bir-biri ilə tutuşdurulur. Qarşılaşdırma metodunda sinxroniya – müasirlik aparıcı rol onayır. Burada dillərin quruluşundakı fərqlər aşkar edilir, fərqli cəhətlərə əsaslanılır. Bununla bərabər, müqayisə qarşılaşdırmaya, qarşılaşdırma metodunda isə müqayisəyə müraciət olunur.

Linqvistik qarşılaşdırma metodu müxtəlif dillərin quruluşunun öyrənilməsinə həsr olunur. Bunun məqsədi

qarşılaşdırılan dillərin fonetik, leksik və qrammatik cəhətlərinin öyrənilməsidir. Müxtəlif dillərin səs sistemini filoloji əsasda qarşı-qarşıya qoymaq, leksik faktları qarşılaşdırmaq, qrammatik quruluşu tutuşdurmaqla dil hadisələrinin dərindən öyrənilməsi mümkün olur.

Dilçilikdə qarşılaşdırma metodu əsasında onlarca tədqiqat işi aparılmışdır. Azərbaycan dili ilə rus dili də qarşılaşdırılmışdır. Həmin əsər "Azərbaycan və rus dillərinin müqayisəli qrammatikası" adlanır. Bu məzmunlu əsərlər həmin dillərin "müqayisəli" yox, "qarşılaşdırma" qrammatikası adlandırılsa, daha düzgün olar.

Qarşılaşdırma metodunun xüsusi tətbiqi metodikası və bir sıra elmi prinsipləri vardır. Bu metodla həm qohum, həm də yad dillərin materialları qarşılaşdırılır.

Qohum dillərə aid

Azərbaycanca	***Türcə***
müstəqillik	*bağımsızlıq*
məruzə	*bildiri*
bəli	*evet*
yaxşı	*iyi*
bu	*şu*
özü	*kendi*
müəllif	*yazan*
sifət	*zamir*
müzakirə	*tartışma* və s.

Qohum olmayan dillərə aid

Azərbaycanca	***Rusca***
feil	*глагол*
hərf	*буква*
səs	*звук*
cümlə	*предложение* və s.

Qarşılaşdırma ancaq iki dil üzərində deyil, bir neçə dildə aparıla bilir. Bu sahədə dilçilik elmində keçmişdən başlayaraq müəyyən ənənə yaranmışdır.

Dillərin qarşılaşdırma metodu əsasında tədqiqinin ən başlıca prinsiplərindən biri sistemlilikdir. Bu məntiqi metodoloji vasitədən bütün metodlarda istifadə olunur. Lakin elmi sistemliliyə bəzən layiqli yer verilmir. Qarşılaşdırma tətqiqatının müvəffəqiyyəti həmişə bu prinsipə ciddi riayət olunması ilə bağlı olur.

Linqvistik qarşılaşdırma metodu aşağıdakı üsulların cəmi ilə xarakterizə edilir:

1. Qarşılaşdırma-müqayisəli üsul.
2. Qarşılaşdırma-statistik üsul.
3. Qarşılaşdırma-tipoloji üsul.
4. Dil paralellərinin müəyyənləşdirilməsi üsulu;
5. Dil universalilərini açmaq üsulu.

Dilçilikdə qarşılaşdırma metodunun xüsusi əhəmiyyəti vardır. Bu metoddan bir sıra nəzəri və tətbiqi problemlərin həllində istifadə olunur.

1. Dillərin kontaktı problemi. Müxtəlif sistemli dillərin qarşılaşdırılması vasitəsilə bir dilin başqasına olan təsir dərəcəsi müəyyənləşdirilir. Dillər arasında olan qarşılıqlı münasibət və əlaqələrin açılmasında da qarşılaşdırma müstəsna rol oynayır.

2. Dil ittifaqı problemi. Paris Dilçilik Dərnəyi tərəfindən qarşılaşdırma-tipoloji üsul irəli sürülmüş və onun köməyi ilə Baltik dillər ittifaqı təşkil edən alban, bolqar, yeni yunan və rumın dillərinin fonetik və qrammatik əlamətləri təhlil olunmuşdur. Qafqaz dillər ittifaqının öyrənilməsində də bu üsula, az da olsa, müraciət edilmişdir.

3. Universali problemi. Qarşılaşdırma metodu dillərdəki hər hansı bir hadisənin dərindən öyrənilməsinə şərait yaratmaqla bərabər, nəyin ümumi xarakterli olduğunu və

nəyin ancaq bir dilə mənsubluğunun aydınlaşdırılmasına da kömək edir. Dil universaliləri bir dilin başqası ilə qarşılaşdırılması əsasında müəyyənləşdirilir. Dünya dillərindəki universalilərin kəşfində qarşılaşdırma metodu ən etibarlı metod hesab olunur.

4. Lüğət problemi. Məlumdur ki, lüğət tərtibi tətbiqi dilçiliyin başlıca məsələlərindəndir. Lüğət hər hansı bir xalqın dünyagörüşünün nitq və mədəniyyətinin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Lüğət hazırlamaq sahəsində XVII–XVIII əsrlərdə əhəmiyyətli işlər görülmüşdür. Həmin əsrlərdə qarşılaşdırma metoduna əsaslanaraq bir çox ikidilli lüğətlər yaradılmışdır.

Müasir dövrdə də lüğətçilik sahəsində qarşılaşdırma metoduna başlıca metod kimi müraciət olunur. İstifadə olunan terminoloji lüğətlər iki dil materiallarının qarşılaşdırılması əsasında hazırlanır.

5. Dil tədrisi problemi. Tətbiqi dilçilik sahəsində qarşılaşdırma metodunun əhəmiyyəti daha böyükdür. Bu metoddan başqa dillərin – xarici dillərin öyrənilməsi və tədrisi prosesində geniş istifadə edilir. Qarşılaşdırma ana dili ilə yabançı dilin paralel öyrənilməsində mənimsəmənin keyfiyyətini yüksəltməkdə xüsusi rol oynayır. Dillərin qarşılaşdırma metodu ilə öyrənilməsi ikinci dilin linqvistik əsasını təşkil edir. Məsələn, məktəbdə Azərbaycan və ingilis dili paralel öyrəniləndə birinci dil etalon kimi götürülür və qarşılaşdırma onun materialları əsasında aparılır.

6. Linqvistik tərcümə problemi. Qarşılaşdırma linqvistik tərcümə tədqiqatında başlıca metoddur. Tərcümə prosesində bəzən informasiyanın müəyyən hissəsi itə bilər. Belə hallar obyektiv və subyektiv səbəblərlə bağlıdır. Belə ki, tərcüməçinin təcrübəsizliyi, yaxud dillərin quruluşu imkan vermədikdə tərcümədə belə natamamlıqlar yaranır. İngilis dilində II şəxsin həm təki, həm də cəmi *"sız"* sözü ilə bil-

dirilir. Türk dillərindəki *"sən"* və *"siz"* sözləri xüsusi məna incəliyi ifadə edir. Tərcümədə bunlar nəzərə alınmalı olur.

Tərcümə prosesində buraxılmış səhvləri aşkar etmək üçün sistemli şəkildə qarşılaşdırmaya müraciət olunur. Bu məqsədlə aparılan qarşılaşdırmada orijinal mətnlə tərcümə variantı tutuşdurulur. Nəticədə uyğunsuzluq, çatışmazlıqlar üzə çıxarılır.

Tərcümə haqqında olan linqvistik təlimdə deyilir ki, qarşılaşdırma metodunun tərcüməşünaslığa tətbiqi tərcümənin keyfiyyətinin yüksəlməsində əvəzsiz vasitədir.

Qarşılaşdırma metodunun tədqiqatda sınanmış, sübutedici metod olduğu qəbul edilmişdir. Dil faktlarını qarşı-qarşıya qoymağın tarixi uzaq keçmişlə bağlıdır.

Belə ki, antik dövrdə Demokrit, Pifaqor, Sokrat və başqaları bu elmi üsuldan istifadə etmişlər. Bu metod XVI–XVII əsrlərdə daha geniş yayılmışdır. Müasir dilçilikdə də qarşılaşdırmanın xüsusi yeri və mövqeyi vardır, tədqiqatlarda ona tez-tez müraciət olunur.

5. MÜASİR DİLÇİLİKDƏ KƏMİYYƏT METODU

Dilçilikdə ictimai elmlərin metodları ilə yanaşı, təbiət elmlərinə məxsus metodlardan da istifadə olunur. Dilçilikdə işlənən kəmiyyət metodu riyaziyyat elmindən götürülmüşdür. Dilçilik elmində "kəmiyyət metodu" anlayışı "riyazi metod", "statistik metod" kimi də adlanır.

Kəmiyyət metodundan dilçilikdə istifadə edilməsi yeni məsələ olmayıb, müəyyən tarixə malikdir. Tədqiqatçılar hələ XIX əsrdə kəmiyyət metodundan müəyyən elmi-linqvistik məqsədlər üçün istifadə etmişlər. Dil hadisələrinin hesablanmasında ***rəqəmlər, dəqiq ölçülər, cədvəl*** və ***qrafiklər*** alimlərin xidmətində olmuşdur.

Kəmiyyət metodunun dilçiliyə yol tapması bütün tədqiqatçılar tərəfindən rəğbətlə qarşılanmamışdır. Bəzi

alimlər kəmiyyət metodunun dil hadisələrinə tətbiqini dilçiliyi bütövlükdə riyaziləşdirmək kimi təsəvvür etmiş və bu metodun işlənməsinin əleyhinə olmuşlar.

Dilin quruluş ünsürlərinin, onun vahidlərindən istifadə edilməsinin həm keyfiyyət, həm də kəmiyyət əlamətləri mövcuddur. Məlum olduğu kimi, dilin vahidlərinin işlənmə dərəcəsi müxtəlif şəkildə özünü göstərir. Belə ki, bəzi vahidlərdən çox istifadə edildiyi halda, digər vahidlərə az müraciət olunur, bununla bərabər, dildə nadir hallarda işlənən ünsürlər də yox deyildir. Bu əlamətlər dil vahidlərini kəmiyyətcə səciyyələndirməyə imkan verir.

Kəmiyyət metodu ilə dil hadisələri tədqiq edilərkən bir sıra riyazi üsullardan (statistik üsul, informasiya nəzəriyyəsi və s.) istifadə olunur. Bu üsullar dil tədqiqində, təbii olaraq, linqvistik xarakter alır.

Statistik üsul. Linqvistik xarakter almış statistik üsul dilçilik statistikası müasir elmi tədqiqatın ən təkmilləşmiş üsuludur[1]. Bu üsul müasir dilçilikdə çox geniş tətbiq olunur.

Linqvistik-statistik üsuldan dil quruluşunun bütün komponentlərinin tədqiqində istifadə edilir.

Dilin fonetik sisteminin tədqiqində statistik üsulun tətbiqi. Hər bir dilin fonetik sisteminin xarakteristikasını vermək üçün müxtəlif janrlarda yazılmış bir neçə mətn götürülür və onun üzərində təhlil, hesablama işi aparılır. İlk dəfə olaraq 1911-ci ildə filoloqlar bu üsulla alman və fransız dillərinin statistik təhlilini vermişlər. Onlar fonetik-statistik yolla hər iki dildə ayrı-ayrı fonemlərin işlənmə kəmiyyətini dəqiq müəyyənləşdirmişlər.

[1] "Statistika" termini XVIII əsrdə meydana çıxmışdır. 1749-cu ildə alman alimi H.Axenval dövlət məsələləri ilə əlaqədar bu termini işlətmişdir. İlk zamanlarda statistika müxtəlif dövlətlərin əhalisi, şəhərlər haqqında biliklərin cəmi anlayışını bildirmişdir. Sonralar, xüsusilə XX əsrdə bu terminin mənası dəyişmiş, şaxələnib müxtəlif sahələri ifadə etmişdir. Statistika riyaziyyat elmində işlənərək riyazi statistika", dilçilikdə istifadə olunmaqla "linqvistik statistika" terminləri yaranmışdır.

Dilin lüğət tərkibinin öyrənilməsində statistik üsulun tətbiqi. Leksik statistik üsul vasitəsilə dilin lüğət tərkibindəki leksem və frazemlərin statistik xarakteristikası verilir. Burada hər bir söz və ifadənin işlənmə miqdarı, digər əlamətləri müəyyənləşdirilir.

Müxtəlif dillərdə mətnin statistik-leksik təhlili nəticəsində dilçiliyin leksikologiya sahəsi daha çox inkişaf etmişdir. Leksikoqrafik-statistik müvəffəqiyyətlər nəticəsində aşağıdakı sahələrdə nailiyyətlər əldə edilmişdir.

1. *Müəyyən dilin lüğətinin hazırlanmasında.* Statistik nəticələr əsasında P.Qnirand fransız dilinin lüğətini hazırlamışdır[1]. Bu üsulla başqa bir sıra dillərin də lüğəti meydana çıxmışdır.
2. *Şair və yazıçıların dilinin lüğətinin tərtib edilməsində.* Rus ədəbiyyatı klassiklərinin, o cümlədən A.S.Puşkinin əsərlərinin dili leksik-statistik üsulla tədqiq edilib, lüğəti hazırlanmışdır.
3. *Müəyyən dillərə dair tezlik lüğətlərinin hazırlanmasında.* Dilçilik tarixində bu üsuldan ilk dəfə alman dilinin öyrənilməsində istifadə olunmuşdur. Alman alimi Kedinq alman *dilinin tezlik lüğətini* hazırlayıb 1898-ci ildə çap etdirmişdir[2].

Tezlik lüğəti – müəyyən mətn parçasında sözlərin işlənilmə miqdarını təyin etmək əsasında yaradılır. Leksikoqrafik Kedinq öz lüğətini hazırlayarkən alman dilində on bir milyon söz olan mətn üzərində iş aparmışdır. O, mətndə sözləri sözlük halına saldıqdan sonra mətndə bir sözün bir neçə dəfə işləndiyini hər birinin qarşısında göstərmişdir. Ümumiyyətlə, bu növ lüğətlərin həm nəzəri, həm də praktik əhəmiyyəti az deyildir. Tətbiqi dilçilik üçün belə lüğətlərə böyük ehtiyac vardır.

[1] P.Qnirand. "Les caracte'res statistiques du vocabulaire". Paris, 1954.
[2] F.W.Keding. "Naufıgkeltsworterbuch der Deutschen Sprache". Berlin, 1898.

Dil hadisə və faktlarının tədqiqinə statistik üsulun tətbiqi *mətnşünaslıq məsələləri və bədii əsərlərin dil və üslub xüsusiyyətlərinin* öyrənilməsi sahəsində də xüsusi əhəmiyyət kəsb edir. Amerika dilçisi M.Svodost mətnşünaslıq problemlərinin həllinə dair statistik üsulla müəyyən tədqiqatlar aparmışdır. M.Svodost müəyyən etmişdir ki, dilin lüğət tərkibində dəyişikliklər əmələ gəlir. Bu dəyişiklik daimidir. Onun sürəti müəyyən ictimai və digər səbəblərlə bağlıdır.

Yazıçı və şairlərimizdən M.F.Axundovun, M.Ə.Sabirin, N.Nərimanovun, Ə.Haqverdiyevin, C. Məmmədquluzadənin, Y.V.Çəmənzəminlinin, A.Şaiqin və başqalarının əsərlərində linqvistik-statistik üsullardan geniş istifadə edilmişdir.

Azərbaycan dilçiliyinin indiki vəziyyəti aydın göstərir ki, kəmiyət metodundan istifadəyə xüsusi yer verilməlidir. Hazırda Azərbaycan dili onomastik sisteminin statistik üsul əsasında tədqiqinə böyük ehtiyac hiss olunur. Məsələn, Azərbaycan şəxs adlarının dəqiq miqdarı, ayrı-ayrı adların işlənmə tezliyi müxtəlif əsrlərdə zonalar, rayonlar, şəhərlər, kəndlər üzrə işlənən şəxs adlarının hər birinin faizi, Azərbaycan ədəbiyyatında yaradılan obrazların adlarının ümumi sayı, rəsmi və qeyri-rəsmi şəxs adlarının miqdarı və s. məsələlər ancaq statistik üsul vasitəsilə işıqlandırıla bilər. Eyni zamanda, statistik təhlil xüsusi adların məhsuldarlığını, onların xarakterik modellərini, dinamikasını müxtəlif dövrlər üzrə açmaqda xüsusi rol oynayır[1].

Kəmiyyət metodundan dilçilikdə geniş istifadə edilməsinin gələcək üçün böyük əhəmiyyəti vardır. Bu metodun tətbiqi dilçilikdə bir sıra açılmamış məsələlərin, öyrənilməmiş problemlərin həllində, o cümlədən maşınla tərcümədə, tədrisin proqramlaşdırılmasında mötəbər vasitədir.

[1] Afad Qurbanov. "Azərbaycan dilinin onomalogiyası". Bakı, 1988, səh. 112.

6. MÜASİR DİLÇİLİKDƏ AREAL METODU

Müasir dilçilik tədqiqatlarında geniş istifadə olunan metodlardan biri *areal* metodudur. Bu metodla müəyyən dil hadisəsinin bir dilin dialekt və şivələrində, yaxud qohum dillərdə yayıldığı öyrənilir. Dilçilikdə areal metoduna linqvistik-coğrafi metod da deyilir.

"Areal" termini dilçiliyə coğrafiya elmindən keçmişdir. Areal (area) latın sözü olub, *"meydan"*, *"sahə"*, *"ərazi"* mənasını bildirir. Bu termin dilçilikdə bu və ya başqa dil hadisəsinin yayıldığı ərazi anlayışını ifadə edir.

Dilçilik elminə areal metodunun bünövrəsi dialektoloqlar tərəfindən qoyulmuşdur. Dialektologiya sahəsində aparılan tədqiqatlar əsasında dil haqqında elmdə *"areal dilçilik"*, *"dilçilik coğrafiyası"*, *"coğrafi tipologiya"* ifadələri meydana çıxmışdır.

Areal metodu ilə yalnız dialekt materialları deyil, dilin başqa sahələrinə aid hadisələr də öyrənilir. Son zamanlar dilçi onomoloqlar areal metoduna daha tez-tez müraciət etməyə başlamışlar. Bunun nəticəsində *"areal toponimlər"*, *"areal hidronimlər"*, *"areal antroponimlər"* və s. onomastik ifadələr yaranmışdır. Areal metodunun tərkibini bir sıra üsullar təşkil edir. Burada *linqvistik müsahibə, yazılı sorğu və xəritəçilik üsulu* daha xarakterikdir.

1. Linqvistik müsahibə üsulu. Dil hadisələrinin öyrənilməsində tədqiqat üsulu kimi elmi müsahibəyə geniş yer verilir. Tədqiqat müsahibəsi dilçilikdə birbaşa elmi üsul kimi də xarakterizə olunur.

Məlum olduğu üzrə, hər bir dildə arxaikləşmiş və ya ərazi ilə bağlı işlənən rəngarəng dil hadisələri yaşlı nəslin nitqində yaşayır və ya müəyyən dərəcədə öz izini saxlayır. Bu dil hadisələri tədqiqat müsahibəsi prosesində meydana çıxarılır. Tədqiqat müsahibəsi aparmaq hər bir dilçi alimdən xüsusi həssaslıq və hazırlıq tələb edir. Bu üsulun faydası onun təşkili və aparılmasından çox asılıdır.

Linqvistik tədqiqat üsulunun özünəxas qaydaları vardır. Əvvəlcə onun məqsədi aydın olmalı, dilçi dialektoloq, onomoloq nəyi öyrənməyi əsaslı planlaşdırmalıdır. Əks təqdirdə müsahibə adi danışığa çevrilə bilər.

2. Linqvistik yazılı sorğu üsulu. Yazılı sorğu aparmaq dialektoloji və onomaloji tədqiqatların başlıca üsuludur. Bu üsulun müsbət cəhəti kütləvi yolla dil faktları toplamaqdır.

Dilçilik tədqiqatında yazılı sorğu üsuluna bir sıra linqvistik tələblər verilir. Bu üsulda iş aparılarkən anket doldurmaq yolu daha münasib hesab olunur.

3. Linqvistik xəritə tərtibi üsulu. Bu üsuldan, əsasən, dünya dillərinin yayıldığı ərazini bildirməklə qohum dillərə aid hadisələri göstərməkdə, müəyyən dilin dialektoloji və onomaloji materiallarının tədqiqində istifadə olunur.

İndiyə kimi dilçi alimlər tərəfindən ümumi şəkildə *"dünyanın linqvistik xəritəsi"* bir neçə formada hazırlanmışdır. Lakin ayrı-ayrı dil ailə və qruplarının, o cümlədən *"türk dillərinin linqvistik xəritəsi"* hələ meydana çıxmamışdır. Buna böyük ehtiyac vardır. Linqvistik xəritə tərtibi üsulu ilə dil faktları, o cümlədən müşahidə olunan dialektoloji hadisələr xəritələrdə əks edilir. Çoxsaylı müxtəlif hadisələrin xəritədə əks olunması bir-biri ilə bağlı mürəkkəb xətlər əmələ gətirir. Müəyyən ərazidə yayılmış bu və ya başqa dil hadisələrini xəritədə bildirən bu xətlər izoqlossa adlanır. İzoqlossa iki yunan sözü olub, *isso (isos) "eyni", "bərabər", qlossa (glossa) "dil", "nitq"* deməkdir.

Dialektoloji axtarışlar əsasında hazırlanan xəritə və atlaslarda, başlıca olaraq, aşağıdakı elmi nəticələr göstərilir.

a) Dialektlərin inkişaf qanunauyğunluqları;
b) Dialektlərarası dialektik əlaqənin mövcudluğu;
c) Dialektlərlə ədəbi dilin qarşılıqlı münasibətdə olması.

Linqvistik xəritə tərtibi üsulu bir tərəfdən dil faktlarının tədqiqinə, elmi şəkildə ümumiləşdirilməsinə, digər tərəfdən isə təbliğinin əyaniləşdirilməsinə xidmət edir.

Azərbaycan dilçiliyində areal metodu ilə yaradılmış əsərlər az deyildir. M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" (1968), R.Rüstəmovun "Quba dialekti" (1961), M.İslamovun "Azərbaycan dilinin Nuxa dialekti" (1968), A.Hüseynovun "Azərbaycan dialektologiyası" (1979), B.Əhmədovun "Azərbaycan dili şivələrində söz yaradıcılığı" (1987) və s. əsərlərdə areal metodundan yeri gəldikcə müvəffəqiyyətlə istifadə olunmuşdur.

7. MÜASİR DİLÇİLİKDƏ ÜSLUBİ METOD

Dilin üslubi əlamət və keyfiyyətlərinin öyrənilməsi dilçilik elmi üçün xüsusi əhəmiyyət kəsb edir. Dil və nitqin üslubi cəhətlərinin tədqiqində *üslubi metoddan* istifadə olunur. Bu metodu adlandırmaq üçün nəzəri ədəbiyyatda *"üslubi metod" termini ils yanaşı, "normativ-üslubi metod", "estetik-üslubi metod", "normativ-estetik metod"* ifadələri də işlənilir.

Üslubi metod dilçiliyin yeni metodlarındandır. Bu metodun gec meydana gəlməsinin başlıca səbəbi dilin funksional üslubi təhlilinə son zamanlarda başlanılmasıdır. Dünyanın müxtəlif ölkələrində bu problem eyni dərəcədə diqqəti özünə cəlb etməmişdir. Dünyada elə ölkələr vardır ki, orada hələ dilin üslubi məsələləri tədqiq olunmamışdır. Hazırda elm dil və nitq hissələrinin üslubi tədqiqi sahəsində qarşıya yeni və ciddi tələblər qoymuşdur. Ən başlıca tələb ədəbi dilin ayrı-ayrı funksional üslublarının əlamətlərini dəqiq müəyyənləşdirməkdən, hər bir dil vahidinin üslubi imkanını açıqlamaqdan ibarətdir. Dildəki bu və ya başqa ədəbi üslubu öyrənmək – həmin üslubu təşkil edən vasitələri, janrları, dil əlamətlərini, bu üslubun insan fəaliyyətinin hansı sahəsində işləndiyini aydınlaşdırmaq deməkdir.

İlk baxışda elə görünə bilər ki, guya, dil vahidləri -səs, söz, söz birləşməsi, cümlə işləndiyi hər yerdə eyni vəzifə-

ni yerinə yetirir. Bu cür təsəvvür, əlbəttə, düzgün deyildir. Çünki eyni dil vahidi müxtəlif üslublarda işlənərkən başqa-başqa vəzifələrdə çıxış edir. Məsələn, dilin ən kiçik vahidi olan səslərə nəzər yetirək. Hər bir səs elmi üslubda müəyyən rəsmi informasiyanın dəqiq ifadə olunmasına xidmət edir. Lakin bədii üslubda səslər xoş ahəng, emosionallıq, ekspressivlik və digər bu kimi keyfiyyətlərin ifadəsində də iştirak edir.

Üslubi metodla dilin funksional üslublarının təbiəti və əlamətləri tədqiq olunarkən bir sıra üslubi üsullardan istifadə edilir. Həmin üsulların ən başlıcaları bunlardır: üslubi normativ, üsul, üslubi söz mikroobraz üsulu, üslubi eksperiment üsulu.

Dilçilikdə üslubi metodla bir sıra əsaslı elmi və elmi-metodik əsərlər meydana gəlmişdir. Azərbaycan dilçiliyində Ə.Dəmirçizadənin "Azərbaycan dilinin üslubiyyatı" (1962), Ə.A.Bağırovun "Sadə cümlənin üslubi xüsusiyyətləri" (1975), K.Əliyevin "Köməkçi nitq hissələrinin üslubi xüsusiyyətləri" (1981), T.Hacıyevin "Molla Nəsrəddinin dili və üslubu" (1983), M.Məmmədovun "Nəriman Nərimanovun publisistik üslubu" (1985) və başqa əsərlər başlıca olaraq bu metod əsasında yaradılmışdır.

13.03. DİLÇİLİK METODLARININ QARŞILIQLI ƏLAQƏSİ

Başqa elm sahələri kimi, dilçiliyin də inkişafı tədqiqat metodlarından düzgün istifadə edilməsindən və onların yeni-yeni vasitələrlə təkmilləşdirilməsindən asılıdır.

Elmi-tədqiqat işlərinə tətbiq edilən bu və ya digər dilçilik metodu hər bir tədqiqatın məzmun və məqsədinə müvafiq işlədilir. Müəyyən mövzu ancaq bir metodla öz

həllini tapa bilmir. Buna görə də elmi-tədqiqat prosesində metod və üsullardan kompleks şəkildə istifadə olunur. Bu zaman üsul və metodlar bir-biri ilə əlaqələnir, sıx qarşılıqlı münasibət yaranır. Təsviri metod (TSM) bütün metodlarla, tarixi metod (TM), müqayisəli metod (MM) və qarşılaşdırma metodu (QM), üslubi metod (ÜM) kəmiyyət metodu ilə (KM), areal metodu (AEM) təsviri və qarşılaşdırma metodları ilə daha çox əlaqələnir.



Cədvəl 22.

Göstərilən metodların hər biri elmi-tədqiqat işvələrinin həllində öz zəruriliyi ilə xüsusi rol oynayır. Bu zəngin tədqiqat metod və üsullarından elmi tələblərə uyğun istifadə etmək nəticəsində fundamental nailiyyətlər əldə etmək mümkün olur.

XIV FƏSİL

TRANSKRİPSİYA VƏ TRANSLİTERASİYA PROBLEMLƏRİ

TRANSKRİPSİYA VƏ ELMİ TƏDQİQAT

Hər bir xalqın öz yazı sistemi vardır. Bu sistemlər mənşəcə bir-biri ilə bağlı olub, müxtəlif xarakterlidir. Dünya xalqlarının müəyyən hissəsi şəkli yazıdan (nasi), bəziləri heroqlif yazıdan (çin, yapon) və bir çoxları da hərfli yazıdan (ərəb, ingilis, alman və s.) istifadə edir. Növündən, quruluşundan asılı olmayaraq, bütün adi yazılar praktik məqsəd daşıyır.

14.01. TRANSKRİPSİYA ANLAYIŞI

Dilin xüsusiyyətlərini dərindən və bütün incəliyi ilə öyrənməkdə adi yazı sistemləri kifayət etmir. Belə ki, mövcud olan onlarca müasir hərfli yazıların hər biri söz və ifadənin yazılışında səsin bütün keyfiyyətlərini özündə əks etdirmir. Sözün yazılışı ilə deyilişi bir-birinə uyğun gəlmir. Belə bir cəhət isə dilin bütövlükdə elmi təhlilini verməyə imkan yaratmır. Buna görə də dünya elmində dil hadisələrinin elmi tədqiqi üçün xüsusi yazı formasına müraciət edilmişdir ki, bu da dilçilikdə *transkripsiya* adlanır. Transkripsiya termini (transeriptio) latın sözü olub, mənası *"üzünü köçürmə"* deməkdir. Transkripsiya müəyyən zəruri elmi və praktik tələblər əsasında yaranıb formalaşmışdır. Müasir dilçilikdə transkripsiyadan geniş istifadə edilməsi nəticəsində bir neçə transkripsiya forması meydana çıx-

mışdır. Məsələn, *morfofonematik transkripsiya, sözfonematik transkripsiya, məhdud transkripsiya, geniş transkripsiya* və s.

a) TRANSKRİPSİYANIN ELMİ MƏQSƏDİ VƏ ƏHƏMİYYƏTİ

Transkripsiyadan xüsusi elmi məqsəd və tələblər üçün istifadə olunur. Bu vasitədən istifadə etməyin başlıca elmi məqsədi rəngarəng ahəngə, əlamət və keyfiyyətlərə, geniş ehtiyat və imkanlara, qüvvət və qüdrətə malik olan səsli dilin bütün daxili aləmini, varlığını aşkara çıxarmaqdan ibarətdir. Tədqiqatlar, elmi nəticələr sübut edir ki, fonetik transkripsiyadan məharətlə istifadə olunması hər bir dilin incəliyi ilə eşidilməsinə, duyulmasına və qavranılmasına kömək edir. Transkripsiya vasitəsilə öyrənilən *obyektlər* bunlardır: *ədəbi dil, dialektlər, şivələr və fərdi nitq.* Digər sahələrlə yanaşı, fərdi nitqin səciyyəvi cəhətlərinin açılmasında transkripsiya xüsusi rol kəsb edir. Dialekt və şivələr transkripsiya ilə elmi tədqiqata cəlb edildikdə aparılmış hər bir qeyd bu sahədə ilk və orijinal yazı hesab olunur, nəhayət, həmin qeydlər gələcəkdə elmi mənbə və məxəzə çevrilir.

Elmi-tədqiqat sahəsinə transkripsiyanın tətbiq olunmasının *xüsusi əhəmiyyəti* vardır. Bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Transkripsiyanın köməyi ilə dilin orfoepiya və orfoqrafiya qaydalarının yaxın və fərqli cəhətləri, bunların səbəbləri elmi şəkildə aydınlaşdırılır.
2. Dilin hər bir foneminin səciyyəvi əlamətləri açılır və onların mənimsənilməsi asanlaşdırılır.
3. Transkripsiyanın tətbiqi dilin fonemlər sisteminin əsaslı və inandırıcı elmi-linqvistik təhlilini verməyə imkan yaradır.
4. Xarici dillərin dərindən öyrənilməsində də transkripsiya xüsusi əhəmiyyətə malikdir.

b) TRANSKRİPSİYANIN TƏRTİBİ PRİNSİPLƏRİ

Qrafik işarələrin elmi sistemindən ibarət olan transkripsiya müasir yazıların qeyri-adi, başqa şəkildə desək, çox mürəkkəb formasıdır. Bu qrafik vasitənin yaradılmasında bir sıra prinsip və üsullardan istifadə olunur. Transkripsiyanın tərtib edilməsi üçün *başlıca prinsip* onun müəyyən bir əlifba əsasında qurulmasıdır. İkinci mühüm prinsip nəzərdə tutulan əlifbaya başqa əlifbalardan hərflər və eləcə də bir sıra şərti işarələr əlavə edilməsidir. Sonuncu prinsipdə aşağıdakı üsullara müraciət olunur:

1. *Başqa əlifbalardan hərf götürmək üsulu.* Slavyan dillərindəki (y) səsini bildirmək üçün transkripsiyaya (y) hərfi əlavə edilmişdir. Məsələn, я (ya) – *"mən"*, стоять (stayat) – *"durmaq"*, ярус (yarus).
2. *Səslərin əlavə keyfiyyətlərini* (uzunluq, qısalıq, burunda deyilmək, yumşaqlıq) *bildirmək üçün diakritik işarələr artırmaq üsulu.* Slavyan dillərində samitin yumşaqlığını əks etdirmək üçün hərfin sağ tərəfinin üstündə apostrof işarəsi qoyulur. Məsələn: мел (me'l') – *"tabaşir"*, соль (sol') – *"duz"*
3. *Hərfi çevirmək üsulu.* Müəyyən səsin variant xüsusiyyətini göstərmək üçün, məsələn, böyük [E] hərfini geri [Ǝ], kiçik [e] hərfini başı üstə [ə] çevirmək və s. qaydalardan istifadə olunur.
4. *Liqatur üsulu.* Transkripsiyalarda iki və üç hərf birləşdirilərək bir səsi bildirir.

Buradaca qeyd olunmalıdır ki, bir hərflə iki səs bildirmək halları transkripsiyada yolverilməzdir. Məsələn, slavyan əlifbasındakı <Я> hərfi iki səsi <y>+<a> bildirir. Belə hərflərdən qrafik işarə kimi transkripsiyada istifadə olunmur.

14.02. TRANSKRİPSİYANIN NÖVLƏRİ

Məqsəd və vəzifəsindən asılı olaraq transkripsiyanın iki növü meydana çıxmışdır. Bunları səciyyələndirən cəhətlərə nəzər yetirək.

1. FONETİK TRANSKRİPSİYA

Dildəki hər bir səs, söz və ifadənin tələffüzünün dəqiqliyi ilə əks etdirilməsində istifadə olunan transkripsiya növü fonetik transkripsiya hesab olunur. Deməli, fonetik transkripsiyanın *meyarı tələffüzdür* və buna görə də elmi tədqiqatda tələffüz mövqeyinə əsaslanılır.

Məlumdur ki, dil vahidləri müasir yazılarda tələffüz cəhətdən özünün tam əksini tapa bilmir. Buna orfoqrafiya qaydaları və əlifbanın qrafik vasitələri imkan yaratmır. Dilin səs, söz və ifadələrinin adi yazıda əks olunmayan cəhətləri çoxdur. Bununla bərabər, bəzən bir hərfin bir neçə səsi bildirməsi halları da olur. Məsələn, əlifbamızdakı [k] hərfinə nəzər yetirək. Azərbaycan yazısında *"kölgə"* və *"komitə"* sözlərinin birinci səsi [k] hərfi ilə göstərilir. Göründüyü kimi, misallarda bu hərf bir yox, iki fonemi bildirib, iki vəzifəni yerinə yetirir. Fonetik transkripsiya vasitəsilə həm fonemlər, həm də onların variantlarını göstərməyə cəhd edilir. Bunun üçün fonetik transkripsiyada çoxlu müxtəlif işarə işlədilir.

Dillər	Sözlər	Transkripsiyası	Mənası
1	2	3	4
İngilis dili	Pleader	[ˈpli:də]	müdafiəçi
	fire	[ˈfaıə]	ocaq
	honey	[ˈhʌnı]	bal
	purge	[pə:dʒ]	təmizləmək
	meek	[mi:k]	yumşaq

1	2	3	4
Rus dili	люди	[lyudi]	insanlar
	лес	[les]	meşə
	мячь	[myaç]	top
	юг	[yuq]	cənub
	еж	[yoj]	kirpi

Fonetik transkripsiyada, bir qayda olaraq, düz mötərizələrdən [ ] istifadə olunur.

Yuxanda qeyd edildiyi kimi, xarici dillərin mükəmməl öyrənilməsində bu vasitənin rolu və əhəmiyyəti əvəzsizdir. Belə ki, transkripsiyanın köməyi ilə başqa dillərin öyrənilməsi yüngülləşir və sürətlənir. Bunu cədvəldə verilmiş nümunələrdən də aydın görmək olur.

Mövcud lüğət növlərinin bir çoxunda, əsasən tərcümə səciyyəli lüğətlərdə fonetik transkripsiyaya geniş yer verilərək hər sözün konkret və dəqiq tələffüzü göstərilir.

2. FONEMATİK TRANSKRİPSİYA

Fonematik transkripsiya nəzəri dilçilik ədəbiyyatında *filoloji* transkripsiya da adlanır. Bunun məqsədi hər bir söz və ifadəni *fonem tərkibinə* görə göstərməkdən ibarətdir. Belə yazıda nitqdəki səslər incəliyinə qədər əks olunur, ayrı-ayrı fonemlərin vəzifələri qeyd edilir. Bu növ transkripsiyanın başlıca prinsipi hər hansı bir fonemi hər yerdə eyni işarə ilə göstərməkdir. Fonetik transkripsiyada bir fon em in variantı üçün müxtəlif işarələrdən istifadə olunursa, burada bir işarə yalnız bir fonemi bildirməyə xidmət edir. Elə buna görə də fonematik transkripsiyada fonetik transkripsiyaya nisbətən az işarə olur.

Fonematik transkripsiyada söz və ifadənin vurğusu göstərilmir. Bu növ transkripsiyada fonemləri bildirmək

üçün bucaq mötərizədən <a>, <t>, <v> və ya maili mötərizədən /o/, /d/, /s/ istifadə olunur.

14.03. TRANSKRİPSİYA SİSTEMLƏRİ

Məlum olduğu kimi, müəyyən qrafik işarələrin elmi surətdə quruluş və düzülüşü bu və ya başqa bir transkripsiya sistemini təşkil edir. İndiyə qədər dünya elmində bir neçə transkripsiya sistemi meydana çıxmışdır. Bunlar xaraktercə iki yerə bölünür: universal və xüsusi transkripsiyalar.

a) UNİVERSAL TRANSKRİPSİYA SİSTEMİ

Müasir elm aləmində ən universal hesab edilən Beynəlxalq Fonetika Birliyi BFB transkripsiyasıdır. Bu transkripsiya sistemi *latın əlifbası əsasında* yaradılmışdır. Beynəlxalq Fonetika Birliyi ilk dəfə 1908-ci ildə çap olunmuşdur. Get-gedə genişlənmiş və təkmilləşmiş bu transkripsiya sistemində indi sait səsləri əks etdirmək üçün 25 işarə, samitləri bildirməkdən ötrü isə 80 şərti işarə vardır. BFB geniş imkanlara malik olduğu üçün hazırda bir sıra dünya dillərinin öyrənilməsinə tətbiq olunur. İngilis alimləri (PA "International Phonetic Association"), fransız tədqiqatçıları (AP – "Association Internationale Phonetique"), rus dilçiləri (МФА – "Международная Фонетическая Ассоциация") öz dillərinin elmi tədqiqində bu sistemdən lazımi dərəcədə istifadə edirlər.

Qeyd etməliyik ki, konkret bir dil üçün BFB transkripsiyasında göstərilən külli miqdarda işarənin – 105 işarənin hamısından istifadə olunmasına ehtiyac olmur. Burada ancaq müəyyən miqdar işarə işlədilir.

Universal transkripsiyadan istifadə etmək təcrübəsində bir sıra dil qrupları və ailələrində lazımi əhəmiyyət ve-

rilmədiyinə rast gəlmək olur. Məsələn, Afrika dillərində, eləcə də türk dillərində vahid transkripsiya sistemindən hələ istifadə olunmur.

Dünya elmlərinin təcrübəsi göstərir ki, universal transkripsiya müxtəlif dillərin, əsasən qohum dillərin ətraflı elmi tədqiqi üçün çox faydalı vasitədir və gələcəkdə buna nail olmaq dilçilik üçün zəruri şərtdir.

b) XÜSUSİ TRANSKRİPSİYA SİSTEMLƏRİ

Yalnız bir dilə aid hazırlanmış sistemlər xüsusi *transkripsiya* adlanır. Bir sıra dillərin, o cümlədən ingilis, alman, fransız, rus və başqa dillərin transkripsiyaları əsaslı şəkildə işlənilmişdir.

Rus dilinin transkripsiyası rus qrafikası əsasında 1936-cı ildə hazırlanmışdır. Bu transkripsiya RFA – Русский Фонетический Алфавит adlanır. Yaradılmasının əsas məqsədi rus dilinin dialekt xüsusiyyətlərini öyrənməkdən ibarət idi. Dialektoloji ekspedisiyalarda geniş tətbiq edilmiş və material toplamaqda xüsusi əhəmiyyəti olmuşdur.

Son dövrlərdə bir sıra dillərə dair, o cümlədən Azərbaycan dilinə aid də transkripsiya sistemi yaradılmışdır.

c) AZƏRBAYCAN TRANSKRİPSİYASI SİSTEMİ

Azərbaycan Transkripsiya Sisteminin (ATS) özünəməxsus yaranma və formalaşma tarixçəsi vardır[1].

Hələ XX əsrin 30-cu illərindən başlayaraq dilimizin elmi əsasda öyrənilməsinə, xüsusilə dialekt və şivələrə dair yazılmış ayrı-ayrı tədqiqat işlərində fonetik transkripsiyanın müxtəlif ünsürlərindən, qaydalarından istifadə edilməsi halları olmuşdur.

[1] Bax: A.M.Qurbanov. "Azərbaycan transkripsiyası sistemi. Azərbaycan onomastikası problemləri". III cild, Bakı, 1990.

Azərbaycan xüsusi adlarının transkripsiyası və transliterasiyasına dair ilk tədqiqat aparanlardan biri M.Q.Mamayev olmuşdur. O, 1950-ci ildə "Azərbaycan SSR coğrafi obyektlərinin adlarının düzgün transkripsiyasına dair" adlı kitabça nəşr etdirmişdir[1]. Burada müəllifin, əsasən, rus dili transkripsiyasına meyil etməsi və bu əsasda Azərbaycan yer adlarının rus dilində verilməsi əksər halda təhriflə nəticələnmişdir. Lakin bununla belə, M.Q.Mamayev Azərbaycan yer adlarının sonunda (ь) hərfinin (yumşaq) işarəsindən istifadə edilməsinin (məsələn, Ленкорань) və yenə də bəzi yer adlarının sonuna (ы) hərfi artırılmasının (məsələn, Мардакяны, Шувеляны) əleyhinə olmaqda düzgün mövqe tutmuşdur.

Azərbaycan dilçiliyində transkripsiyanın təşəkkül tapması və formalaşması tədrici yol keçmiş və bir sıra tədqiqat işləri ilə bağlı olmuşdur.

Kirili əsaslı müasir milli əlifbamız üzərində yaranmış Azərbaycan fonetik transkripsiyasınm (AFT) sistemini aşağıdakı qrafem və şərti işarələr təşkil edir.

1. Azərbaycan əlifbasının hərfləri. Əlifbamızdakı 9 sait – [a], [ə], [e], [ı], [i], [o], [ö], [u], [ü] və 23 samit – [b], [v], [q], [ğ], [d], [j], [z], [y], [k], [g], [1], [m], [n], [p], [r], [s], [t], [f], [x], [h], [ç], [c], [ş].

II. Başqa əlifbalara aid hərflər. Müəyyən məqsədlə bağlı iki hərf əlavə edilir:

1. Kar, dilarxası partlayan fonemi bildirmək üçün (Q, q) hərfindən istifadə olunur. Məsələn, [qapı], [qız], [qış].

2. Dilarxası burun fonemi, sağır nunu bildirmək üçün [n, nq] hərfi işlənir. Məsələn, *qardaşın,ı, gözün,ü, səsin,i* və s.

[1] Bax: М.Г.Мамаев. «О правильности транскрипции названии географических объектов Азербайджана». Баку, 1950.

III. Müxtəlif şərti işarələr. Səslərin rəngarəng keyfiyyət və əlamətlərini bildirmək üçün hərfin müxtəlif tərəflərində işarələr qoymaq qaydalarından istifadə olunur.

1. Səsin uzunluğunu bildirmək üçün iki qayda vardır:
   a) Hərfin üstündə üfüqi düz xətt [¯] qoyulur. Məsələn, *[Tāhir], [sāhil], [Māhir], [Füzūli], [xüsūsi], [mə̄bəd], [mə̄lum], [mȫcüzə], [mȫtəbər], [mȫmin], [mēmar], [mēbel]* və s.
   b) Hərfdən sonra qoşa nöqtə [a:] işlədilir. Məsələn, *[müa:sir], [Va:qif], [sa:hib], [ə:la], [nö:vbə], [tu:fan]* və s.
2. Səslərin qısalığı hərfin üstünə ağzı yuxarı yarımdairəcik (˘) qoyulmaqla bildirilir. Məsələn, [ki˘şi], [ki˘mi], [ki˘tab], [bŭcaq], [bĭçaq] və s.
3. Səsin burnunda deyildiyini bildirməkdən ötrü hərfin üstündə dalğavari (~) qoyulur. Məsələn, *[añа], [mãa], [saã], [əluã]* və s.
4. Hərfin altında nöqtə (.) işarəsi qoymaqla kar səs bildirilir. Məsələn, *[zəng̣], [nəhəng̣], [doqq̣uz], [diqq̣ət], [kənḍ], [buluḍ], [qənḍ]* və s.
5. Səsin nəfəsli deyildiyini bildirmək üçün hərfin üstündə üzü sağa doğru yarımdairəcik (m^{c}) qoyulur. Məsələn, *[k^{c}ük^{c}ürd], [k^{c}ükrədi], [k^{c}ütüm], [t^{c}ar], [at^{c}], [it^{c}], [it^{c}i]* və s.
6. Səsin arxada deyildiyini göstərmək üçün hərfin altında bucaq işarəsi (ı̨) qoyulur. Məsələn, [qı̨jı̨ltı̨], [bu̧ru̧q], [o̧du̧n], [a̧rı̨] və s.
7. Sürtünən dilarxası kar səsi bildirmək üçün [x̂] hərfinin üstünə vurğu işarəsi qoyulur. Məsələn, [gələx̂], [inax̂], [iləx̂j, [ürəx̂j, [ərix̂], [görüx̂], [hörüx̂] və s.
8. Heca təşkil etməyən səsi bildirmək üçün hərfin altında ağzı aşağı yarımdairəcik (‿) işlədilir. Məsələn, [a‿u], [u‿a] və s.
9. Nitq axınını birləşdirmək – iki sözü bir-birinə bağlamaq üçün sözlərin alt tərəfində, iki sözün ortasında ağzı yuxarı yarımdairəcik (‿) işlədilir. Məsələn, [mən‿ilə], [siz‿ilə], [yol‿ilə], [biri‿ilə], [sürü‿ilə] və s.

10. Mətnin nitq parçalarını sintaqm və fonetik ifadəyə bölmək üçün tək şaquli xətdən (/) istifadə olunur.
11. Sözlərin müxtəlif variantlı tələffüzünü bildirmək üçün qoşa şaquli xətdən (//) istifadə edilir. Məsələn, hayıf// heyif, Soltan//Sultan və s.
12. Sözün vurğusunu göstərmək üçün əsas vurğu akut (/) və ikinci dərəcəli vurğu isə qravis (/) işarəsi ilə göstərilir.

Bu transkripsiya dilimizin dialekt xüsusiyyətlərini öyrənmək üçün hazırlanmışdır. Yeri gəlmişkən, deməliyik ki, Azərbaycan dilinin dialektoloji atlasının yaradılması üçün də bunun vasitəsilə lazımi dialekt materialı toplanılmışdır.

Yuxarıda göstərdiyimiz transkripsiya ilə yanaşı, Azərbaycan dilçiliyində latın qrafikası əsasında transkripsiyaya da müraciət olunur. Latın hərflərinə əlavə edilmiş qrafik işarələrin bəziləri bunlardır: a – ə [hayat] *həyat*, [tasdiq] *təsdiq*, [rafdar] rəftar; o – ö [goz] göz, [dovlat] dövlət, [kohna] köhnə; u – ü [duyu] *düyü*, [boyuk] *böyük*, [kurk] *kürk*; g – ğ [sag] *sağ*, [ogul] *oğul*, [nağara] *nağara*; s – ş [sir] *şir*, [kisi] kişi, [yas] *yaş* və s.

Müasir türkoloji ədəbiyyatda latın qrafikası əsasında hazırlanmış aşağıdakı beynəlxalq fonetik transkripsiya sistemindən istifadə edilir.

SAİTLƏR:

Aa – a	Oo – o
Əə – ə	Öö – ö
Ee – e	Uu – u
Iı-ı	Üü- ü
İi-i	

SAMİTLƏR:

Bb – b	Xx – x	Rr – r
Cc – c	Jj – j	Ss – s
Çç – ç	Kk – k	Şş – ş
Dd – d	Qq – q	Tt – t
Ff – f	Ll – l	Vv – v
Gg – g	Mm – m	Yy – y
Ğğ – ğ	Nn – n	Zz – z
Hh – h	Pp – p	

DİAKRİTİK İŞARƏLƏR:

– , : Səsin uzun tələffüzü

ˇ Səsin qısa tələffüzü

~ Səsin burunda tələffüzü

' Səsin yumşaq tələffüzü

Göründüyü kimi, bu beynəlxalq fonetik transkripsiya sistemində bəzi ərəb hərfləri də öz əksini tapmışdır.

14.04. TRANSKRİPSİYA VƏ TRANSLİTERASİYA

Dilçilikdə transkripsiya ilə yanaşı, transliterasiyadan da istifadə olunur. Bunlar öz məqsəd və vəzifələrinə görə bir-birindən fərqlənir. Əgər transkripsiya söz və ifadələrin səslənməsindən çıxış edirsə, transliterasiya səslənməyə yox, nitq vahidlərinin yazılmasına əsaslanır.

Transliterasiya *bir yazı sisteminin başqa yazı sistemi ilə verilməsidi*[1]. Məsələn, türkcə mətnin Azərbaycan əlifbası ilə əks olunması, yaxud farsca, gürcücə söz, ifadə və mətnin bizim hərflərlə qeyd olunması və s.

[1] Bəzi nəzəri ədəbiyyatda ancaq hərfli yazının transliterasiya olunması göstərilir. Fikrimizcə, bu, düzgün deyildir.

Nümunə:

Dillər	Əsli	Transliterasiyası	Mənası
Türk dili	1. Uçak 2. Köylü 3. Fiyatı 4. Türlü 5. Konuşma	uçak köylü fiyatı türlü konuşma	təyyarə kəndli qiyməti növlü danışmaq
Fars dili	سنگ درخت دختر سر چهار	səng dərəxt doxtər sər çəhar	daş ağac qız baş dörd
Gürcü dili	[illegible]	deida vardi lamazi büri sanati	xala qızılgül gözəl çörək çıraq

Verilmiş nümunələrdən göründüyü kimi, əlifbaya heç bir işarə artırılmır. Əgər oraya əlifbamızda olmayan hərf və ya işarə artırılsa idi, oxucu həmin yazının yad ünsürlərini oxumaqda çətinlik çəkərdi.

Transliterasiya termini (translitera) latın sözü olub, "hərflə", "hərflər vasitəsilə" mənasını ifadə edir. Transliterasiyada ancaq əlifbanın imkanlarından istifadə olunur.

Yazının hər növü – şəkli, ideoqrafik, heca və hərfli yazı transliterasiya edilə bilər və təcrübədə buna rast gəlmək olur.

14.05. TRANSLİTERASİYANIN NÖVLƏRİ

Transliterasiyanın həm elmi, həm də təcrübi-əməli əhəmiyyəti vardır. Bunu nəzərə alaraq onun iki növü mövcuddur.

a) NƏZƏRİ TRANSLİTERASİYA

Transliterasiyadan elmi-nəzəri məqsədlər üçün geniş istifadə olunur. Məlumdur ki, ölü və qədim dillərin öyrənilməsi elm üçün olduqca vacibdir. Həmin dillərin yazıları müasir qrafik sistemlərdən xeyli dərəcədə fərqlənir və beləliklə, tədqiqatçı üçün çətinlik törənir. Belə hallarda (yəni başqa dilin qrafikası çətin dərk edildikdə) həmin yazı transliterasiya olunur və bununla əsaslı tədqiqat üçün imkan və şərait yaradılır. Məsələn, qədim Orxon, Yenisey, Uyğur, Tonyukuk abidələrinin dilinin öyrənilərək müasir əlifbalara, o cümlədən Azərbaycan əlifbasına transliterasiya olunması xüsusilə zəruri olmuşdur. Başqa dillərin yazı sistemini latın əlifbası ilə əks etdirməyin elm aləmində qəbul olunmuş bir sıra zəruri qaydaları vardır. Nəzəri transliterasiyada həmin qaydalar geniş tətbiq olunur.

b) TƏCRÜBİ TRANSLİTERASİYA

Transliterasiyanın təcrübi əhəmiyyəti az deyildir. Bu növ transliterasiyanın məqsədi hər hansı bir əcnəbi xüsusi adın istifadə olunan qeyri-dildə müvafiq şəkildə yazılmasıdır. Bundan müxtəlif əcnəbi adların – antroponim, toponim və hidronimlərin, kitab, qəzet və jurnal adlarının yazılışında istifadə olunur.

Nümunə üçün Avropa mənşəli xüsusi adların azərbaycanca transliterasiyasına diqqət yetirək.

Mənbə dildə yazılışı	**Mənbə dildə deyilişi**	**Azərbaycan dilində yazılışı**
Byron (ing.)	Bayrn	Bayron
Shakespeare (ing.)	Şekspiə	Şekspir
Herbet Wells (ing.)	Hə:bət Vuels	Herbert Uells
Eduard Sapir (ing.)	Edvard Sapir	Eduard Sepir
Leonard Blumfild (ing.)	Leonard Blümfild	Leonard Blümfild
Franz Bopp (alm.)	Frans Bop	Frans Bopp
August Schleicher (alm.)	Auqust Şlayxer	Avqust Şleyxer
Aeimann Steinthal (alm.)	Eyman Şteyntal	Heyman Şteyntal
Yohann Aezbart (alm.)	Yohan Erbart	İohann Herbart
Antoine Meillet (fr.)	Antuan Meyye	Antuan Meye

Misallardan göründüyü kimi, hər bir söz transliterasiya edilərkən ana dilinin tələbləri – tələffüz və qrammatik cəhətləri, yazının isə qrafik xüsusiyyətləri nəzərə alınır.

Transliterasiya olunan sözlər *mənbə* dildən və həm də *vasitəçi* dildən alına bilir. Mənbə dilə əsaslanmaq hər zaman uğurlu olmur. Məsələn, türk şəhərlərindən birinin adı olan İstanbul sözü slavyan dillərində Stam bul kimi işlənir. Azərbaycan dilində həmin sözün tərkibində [n] hərfi əvəzinə [m] hərfinin yazılması slavyan dillərinin təsiri kimi qiymətləndirilməlidir. Həmin söz dilimizdə İstanbul kimi yazılmalıdır. Xüsusi adlar transliterasiya edilərkən bir çox hallarda əslindən fərqlənir, onun ekvivalenti yaranır. Məsələn:

Bakı – *Баку*
Gəncə – *Ганджа*
Salyan – *Сальяны*
Mingəçevir – *Мингечаур*
Alma-Ata – *Алматы*
Səngəçal – *Сангачал**
Zaqatala – *Закаталы*
Beyləqan – *Бейлаган*
Şəki – *Шеки*
Ufa – *Уфа* və s.

*Birinci cərgədə hər xalqın ana dilində işlətdiyi sözlər göstərilir.

Beynəlxalq aləmdə bir ölkədən başqa ölkəyə teleqram və teletayp göndərilərkən mətnlərin latın əlifbası əsasında transliterasiya edilməsi üsulu geniş yayılmış və dünya təcrübəsində qəbul edilmişdir.

Nəhayət deməliyik ki, hələ bütün dillər üçün eyni olan transkripsiya sistemi yaranmamışdır. Bunun müxtəlif səbəbləri vardır. Xüsusilə yazı tiplərinin çoxluğu buna imkan vermir. Lakin hər cür çətinlik olmasına baxmayaraq, nitqin elmi-linqvistik təhlili üçün xüsusi yazı formasına – vahid transkripsiyaya dünya elminin böyük ehtiyacı duyulmaqdadır.

BİBLİOQRAFİYA

I. Türk dillərində

1. Azərbaycan dilində

1. Afad Qurbanov. Dilçiliyin sistemi. Bakı, 1976.
2. Afad Qurbanov. Dilçiliyin metodları. Bakı, 1978.
3. Afad Qurbanov. Dil və nitq. Bakı, 1991.
4. Afad Qurbanov. Dil və norma. Bakı, 1992.
5. Afad Qurbanov. Dil və üslub. Bakı, 1992.
6. Afad Qurbanov. Ümumi dilçilik. II hissə, Bakı, 1993.
7. Afad Qurbanov. Ortaq türk ədəbi dili. Bakı, 1999.
8. Ağaməmməd Abdullayev. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1968.
9. Ağamusa Axundov. Ümumi dilçilik. Bakı, 1979.
10. Buta Sadıqov. Bədii sözün qüdrəti. Bakı, 1977.
11. Əbdüləzəl Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
12. Əbdürrəhman Cavadov. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı, 1977.
13. Əlisa Şükürov. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1981.
14. İsmayıl Məmmədov. Ekran, efir və dilimiz. Bakı, 1989
15. Kamil Vəliyev. Azərbaycan dilinin poetik sintaksisi. Bakı, 1982.
16. Kamil Əliyev. Üslubiyyat və üslublar sistemi. Bakı, 1985.
17. Məsud Mahmudov. Mətnin formal təhlili sistemi. Bakı, 2002.
18. Musa İslamov. Azərbaycan dilinin Nuxa dialekti. Bakı, 1968.
19. Müseyib Məmmədov. Nəriman Nərimanovun publisist üslubu. Bakı, 1985.
20. Nizami Xudiyev. Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı. Bakı, 1986.

21. Samət Əlizadə. XVI əsr Azərbaycan ədəbi dili. Bakı, 1966.
22. Tofiq Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Bakı, 1983.

2. Türk dilində

23. Muharrem Ergin. Azeri Türkçesi. İstanbul, 1981.
24. Tahsin Banguoğlu. Türkçenin Grameri. Ankara, 1983.

II. Digər dillərdə

1. Rus dilində

25. Актуальные проблемы современной интерлингвистики. Тарту, 1982.
26. Ахманов Н.Д. Статистико-комбинаторные методы в теоретическом и прикладном языкознании. Л., 1958.
27. Ахманова О.С. Словарь лингивистических терминов. М., 1966.
28. Ахманова О.С., Бокарев Е.А. Международный вспомогательный язык как лингвистическая проблема. XV, № 6, 1956.
29. Ахманова О.С., Мельчук И.А., Падучева Е.В., Фрумкина Р.М. О точных методах исследования языка. М., 1961.
30. Базиев А.Г., Исаев М.И. Язык и нация. М., 1973.
31. Баранникова Л.И. Основные сведения о языке. М., 1982.
32. Березин Ф.М., Головин Б.Н. Общее языкознание. М., 1979.
33. Биржакова Е.Э., Войкова Л.А., Кутина Л.Л. Очерки по исторической лексикологии русского языка XVIII века. Языковые контакты и заимствования. Л., 1972.
34. Гринберг Дж., Оскуд Ч., Дженкинс Дж. Меморандум о языковых универсалиях. Новое в лингвистике. Вып. V, М., 1970.
35. Демирчизаде А.М. Сравнительный метод лингвиста XI века Махмуда Кашгари. Известия АН Азерб. ССР. Серия общественных наук, № 4, 1964.

36. Дрезен Э.К. За всеобщим языком. М.-Л., 1928.
37. Дрезен Э.К. Проблема международного языка на текущем этапе его развития. М., 1932.
38. Д-р Эсперанто (Л.Заменгоф). Международный язык. Варшава, 1887.
39. Дукиченко А.Д. Международные вспомогательные языки. Таллин, 1990.
40. Ефимов А.И. Стилистика художественной речи. М., 1961.
41. Жинкин Н.И. Механизмы речи. М., 1958.
42. Жирков Л.И. Почему победил Эсперанто? М., 1939.
43. Изаренков Д.И. Обучение диалогической речи. М., 1981.
44. Ильяшенко Т.П. Языковые контакты. М., 1970.
45. Исаев М.И. Язык Эсперанто. М., 1983.
46. Истрина Е.С. Нормы русского литературного языка и культура речи. М.-Л., 1948.
47. История и современное состояние интерлингвистики. Тарту, 1984.
48. Кодухов В.И. Методы лингвистического анализа. Л., 1963.
49. Кодухов В.И. Общее языкознание. М., 1979.
50. Кононов А.Н. Опыт анализа термина турок. "Советская этнография", № 1, 1947.
51. Кузнецов П.С. О языке и речи. "Вестник МГУ". Серия VII, 1961.
52. Кузнецов С.Н. Основные понятия и термины интерлингвистики. М., 1982.
53. Кузнецов С.Н. Направления современной интерлингвистики. М., 1984.
54. Майтинская К.Е. Местоимения в языках разных систем. М., 1969.
55. Ломтев Т.П. Язык и речь. "Вестник МГУ", № 4, 1961.
56. Лурия А.Р. Язык и сознание. М., 1979.
57. Миллер Дж.А. Речь и язык. Сб. "Экспериментальная психология". Т.2, М., 1963.
58. Пеевский В. Наука и международный язык. "Мир науки". Ч. 2, 1977.

59. Проблемы интерлингвистики. М., 1975.
60. Розенталь Д.Э., Теленкова М.А. Справочник лингвистических терминов. М., 1972.
61. Розенцвейг В.Ю. Языковые контакты. Л., 1972.
62. Рождественский Ю.В. Техника, культура, язык. М., 1984.
63. Русско-эсперантский словарь. М., 1959.
64. Серебренников Б.А. О лингвистических универсалиях. XV, № 2, 1972.
65. Общее языкознание. Методы лингвистических исследований. М., 1973.
66. Свадост Э. Как возникает всеобщий язык. М., 1968.
67. Семенова Э.В., Исаев М.И. Учебник языка Эсперанто. М., 1984.
68. Сергеев И.В. Основы Эсперанто. М., 1961.
69. Спротинина О.Б. Современная разговорная речь и ее особенности. М., 1974.
70. Теория и история международного языка. Тарту, 1983.
71. Успенский Б.А. Проблема универсалий в языкознании. Новое в лингвистике. Вып. 5. М.,1970
72. Улман С. Семантические унивверсалии. Новое в лингвистике. Вып I, М., 1970.
73. Хоккетт Ч.Ф. Проблемы языковых универсалий. Новое в лингвистике. Вып. V, М., 1970
74. Шарадзенидзе Т.С. Проблема взаимоотношения языка и речи. Тбилиси, 1971.
75. Шор Р.И. Язык и общество. М., 1926.
76. Шербак А.М. О методике исследования языковых параллелей. М., 1960.
77. Язык и общество. М., 1968.
78. Языковые универсалии и лингвистическая типология. М., 1969.

1. İngilis dilində

79. Uriel Weinreich. Languages in Contact. N.Y., I 1953.

MÜNDƏRİCAT

GİRİŞ **5**

V BÖLMƏ. DİLLƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRİN NƏZƏRİ ƏSASLARI **7**

I FƏSİL. DİL VƏ DÜŞÜNCƏ **8**
"DİL VƏ DÜŞÜNCƏ" PROBLEMİNİN MAHİYYƏTİ 8
1.01. Dil ilə düşüncə və təfəkkürün vəhdəti nəzəriyyəsi 11
Dil haqqında anlayış 11
Düşüncə haqqında anlayış 13
Təfəkkür haqqında anlayış 16
Dil və düşüncənin mənbəyi 21
Dillə düşüncənin münasibəti və əlaqəsi 22
1.02. DİL VƏ TƏFƏKKÜRÜN VAHİDLƏRİ 26
1. Dil vahidləri 26
2. Təfəkkür vahidləri 30
1.03. SÖZLƏ ANLAYIŞIN MÜNASİBƏTİ 34
1.04. CÜMLƏ İLƏ MÜHAKİMƏNİN MÜNASİBƏTİ 37
1.05. DİL VƏ DÜŞÜNCƏNİN İNKİŞAFI 40

II FƏSİL. DİL VƏ NİTQ **43**
DİL VƏ NİTQ PROBLEMİNİN AKTUALLIĞI 43
2.01. DİL VƏ NİTQİN MAHİYYƏTİ – VƏZİFƏLƏRİ 44
Dil və onun xarakteri 46
Nitq və onun xüsusiyyətləri 47
Dil ilə nitqin münasibəti 52
Dilin inkişafında nitqin rolu 52
2.02. NİTQİN TİPLƏRİ 56

1. Daxili nitq 56
2. Xarici nitq 59
2.03. NİTQİN NÖVLƏRİ 60
1. Monoloji nitq 61
Monoloji nitqin xarakteri 62
Monoloji nitqin formaları 67
a) Nəqletmə monoloqu 67
b) Təsviri monoloq 68
c) Məlumatverici monoloq 69
2. Dialoji nitq 71
a) Dialoji nitqin əlamətləri 71
b) Dialoji nitqin növləri 80
2.04. NİTQİN FORMALARI 81
1. Şifahi (akustik) nitq 82
Şifahi nitqin xüsusiyyətləri 82
Şifahi nitq və tələffüz 83
Şifahi nitq və vurğu 84
Şifahi nitq və intonasiya 87
Şifahi nitq və fasilə 89
Şifahi nitq və söz sırası 90
Şifahi nitq və təkrar 91
Şifahi nitq və mimika – jest 93
Mimika və jestlərin növləri 96
2. Yazılı (optik) nitq 100
Yazılı nitqin xüsusiyyətləri 100
Yazılı nitq və qrafemlər 101
Yazılı nitq və abzas 102
Yazılı nitq və durğu işarələri 104
Yazılı nitq və sitat 112
2.05. NİTQİN TƏRZİ 114
1. Vasitəsiz nitq 114
2. Vasitəli nitq 115
2.06. NİTQ HİSSƏLƏRİ 116
2.07. NİTQ HİSSƏLƏRİNİN TƏSNİFİ 116
1. Əsas nitq hissələri 120
2. Köməkçi nitq hissələri 121
3. Qeyri-müəyyən nitq hissələri 123

III FƏSİL. DİL VƏ NORMA **128**
ÜMUMXALQ DİLİNİN TƏRKİB HİSSƏLƏRİ 128
3.01. ƏDƏBİ DİL 130
1. Ədəbi dilin əlamətləri 130
2. Ədəbi dilin yaranması 131
3. Ədəbi dilin xronoloji sərhədi 133
4. Şifahi ədəbi dilin tərkibi 134
5. Ədəbi dilin inkişaf yolları 134
3.02. DANIŞIQ DİLİ 136
1. Danışıq dilinin xüsusiyyətləri 138
2. Danışıq dilinin tərkibi 139
a) Dialekt danışığı 139
b) Jarqon danışığı 139
c) Loru danışıq 140
3.03. DANIŞIQ DİLİ İLƏ ƏDƏBİ DİLİN QARŞILIQLI MÜNASİBƏTİ 142
3.04. ƏDƏBİ DİL VƏ NORMA 143
1. "Ədəbi dil norması" anlayışı 144
2. Ədəbi dildə norma meyarı 146
3. Norma variantları 147
4. Normanın dəyişilməsi 149
3.05. ƏDƏBİ DİL NORMALARI VƏ ONLARIN FORMALAŞMASI 150
1. Fonetik normalar 150
2. Orfoepik normalar 151
3. Leksik normalar 153
4. Onomastik normalar 155
5. Semantik normalar 156
6. Frazeoloji normalar 157
7. Sözyaratma normaları 158
8. Morfoloji normalar 159
9. Sintaktik normalar 159
10. Üslubi normalar 159
3.06. ƏDƏBİ DİL NORMASI VƏ İZAHLI LÜĞƏTLƏR 160
3.07. ƏDƏBİ DİL VƏ DİALEKT 163
1. Yerli dialektlərin taleyi 164
2. Elm və dialektlər 165

3. Dialektologiyanın növləri 167
3.08. ƏDƏBİ DİL NORMALARI VƏ BƏDİİ ƏDƏBİYYATIN DİLİ 168
3.09. ÜMUMTÜRK ƏDƏBİ DİLİ MƏSƏLƏSİ 170
1. Ümumtürk lüğəti 171
2. Ümumtürk əlifbası 172
3. Türk dillərinin öyrənilməsi 173

IV FƏSİL. DİL VƏ ÜSLUB 174
DİL – ÜSLUB VƏ ÜSLUBİYYAT..... 174
Üslub anlayışı 174
Üslubiyyat və onun növləri 177
4.01. MÜASİR DİLÇİLİKDƏ ÜSLUBİYYAT PROBLEMLƏRİ 178
1. Üslubiyyatın başlıca anlayış və kateqoriyaları 179
2. Sinonimlik üslubiyyatın bünövrəsi kimi 179
3. Üslubiyyatın əsas istiqamətləri 180
4.02. DİL VAHİDLƏRİNİN ÜSLUBİ İMKANLARI 180
1. Üslubi fonetika 180
2. Üslubi leksika 183
3. Üslubi onomastika 185
4. Üslubi frazeologiya 187
5. Üslubi derivatologiya 188
6. Üslubi morfologiya 189
7. Üslubi sintaksis 191
4.03. FUNKSİONAL ÜSLUBLAR VƏ ONLARIN TƏSNİFİ 192
1. Yazıyaqədərki dövrlərdə funksional üslublar 195
2. Yazı ənənəsindən sonrakı dövrlərdə funksional üslublar 196
4.04. MÜASİR DÖVRDƏ FUNKSİONAL ÜSLUBLAR 198
1. Ədəbi danışıq üslubu 199
2. Bədii üslub 202
3. Elmi üslub 206
4. Publisistik üslub 210

5. Rəsmi üslub 212
6. Epistolyar üslub 214
4.05. FUNKSİONAL ÜSLUBLARIN ƏLAQƏ VƏ MÜNASİBƏTİ 216
4.06. FUNKSİONAL ÜSLUBLARIN ÖYRƏNİLMƏSİ YOLLARI 217

V FƏSİL. DİL VƏ MƏDƏNİYYƏT 221
DİL İLƏ MƏDƏNİYYƏTİN MÜNASİBƏTİ 221
1. Mədəniyyət anlayışı 221
2. Mədəniyyətin dil ilə əlaqəsi 224
3. Mədəniyyət və ortologiya 225
5.01. XALQIN DİL MƏDƏNİYYƏTİ 227
5.02. XALQIN YAZI MƏDƏNİYYƏTİ 237
5.03. AZƏRBAYCANDA YAZI MƏDƏNİYYƏTİ 238

VI FƏSİL. DİL VƏ CƏMİYYƏT 240
"DİL VƏ CƏMİYYƏT" PROBLEMİNİN MƏZMUNU 240
6.01. DİL İLƏ CƏMİYYƏTİN ƏLAQƏSİ 241
6.02. DİLİN VƏ CƏMİYYƏTİN İNKİŞAFI 243
1. Dilin inkişafına cəmiyyətin təsiri 243
2. Cəmiyyətin inkişafında dilin rolu 244
6.03. DİLLƏRİN SOSİAL TİPLƏRİ 245
1. Qəbilə dilləri 245
2. Tayfa dilləri 245
3. Xalq dilləri 246
4. Milli dillər 246
6.04. DİL VƏ İCTİMAİ FORMASİYALAR 248
İbtidai icma və dillər 248
Quldarlıq və dillər 250
Feodalizm və dillər 251
Kapitalizm və dillər 251
Sosializm və dillər 252

VII FƏSİL. DİL VƏ SİYASƏT 253
SİYASƏT VƏ DİL SİYASƏTİ NƏZƏRİYYƏSİ 253
7.01. DÖVLƏT DİLİ SİYASƏTİ 256

1. Qədim dövlətlər və onların dili 257
2. Müasir dövlətlər və onların dili 258
7.02. AZƏRBAYCANIN DÖVLƏT DİLİ 263
7.03. DİL SİYASƏTİNDƏ BİLİNQVİZM MƏSƏLƏLƏRİ 265
7.04. POLİLİNQVİZM VƏ ONUN ƏLAMƏTLƏRİ 271
a) Monolinqvizm 271
b) Polilinqvizm 271
7.05. BMT VƏ DİL SİYASƏTİ 272

VIII FƏSİL. DİL VƏ KONTAKT 274
DİL KONTAKTI VƏ DİLLƏRİN İNKİŞAFI 274
8.01. DİL KONTAKTININ İSTİQAMƏTLƏRİ 277
1. Dillərin çarpazlaşması 278
2. Dil ittifaqının yaranması 279
3. Hibrid dillərin meydana gəlməsi 281
8.02. DİLLƏRİN QARŞILIQLI TƏSİRİ 281
1. Fonetik sistem sahəsində dillərin qarşılıqlı təsiri 282
2. Lüğət tərkibi sahəsində dillərin qarşılıqlı təsiri 284
3. Qrammatik sistem sahəsində dillərin qarşılıqlı təsiri 286

IX FƏSİL. DİL VƏ UNİVERSALLIQ 287
DİL UNİVERSALİLƏRİ NƏZƏRİYYƏSİ 287
Universali problemi 287
Problemin tarixindən 289
9.01. UNİVERSALİLƏRİN NÖVLƏRİ 293
1. Mütləq və statistik universalilər 293
2. Sadə və mürəkkəb universalilər 294
3. Diaxronik və sinxronik universalilər 294
9.02. DİL SƏVİYYƏLƏRİNƏ GÖRƏ UNİVERSALİLƏR 295
1. Fonetik universalilər 295
2. Leksik universalilər 299
3. Semantik universalilər 300
4. Derivatoloji universalilər 312

5. Qrammatik universalilər 313
9.03. DİL UNİVERSALİLƏRİNİN KƏŞFİ 322
9.04. DİL UNİVERSALİLƏRİ VƏ DİLÇİLİK TƏDQİQATLARI 327

X FƏSİL. VAHİD ÜMUMDÜNYA DİLİ 332
ÜMUMBƏŞƏRİ ÜNSİYYƏT VASİTƏSİ PROBLEMİ VƏ ONUN QOYULUŞU 332
10.01. ÜMUMBƏŞƏRİ ÜNSİYYƏT ANLAYIŞI 333
10.02. ÜMUMBƏŞƏRİ DİLİN ƏSASI 341
10.03. SÜNİ DİL ƏSASINDA ÜMUMDÜNYA DİLİ YARATMAQ 344
1. Süni dil ideyasına münasibət 344
2. Mövcud süni dil layihələri və onların tarixi 348
10.04. GENİŞ YAYILMIŞ SÜNİ DİLLƏR 364
1. Volyəpük (Wolapük) dili 364
2. Esperanto (Esperanto) dili 369
10.05. ESPERANTO DİLİNİN XÜSUSİYYƏTLƏRİ 371
10.06. AZƏRBAYCAN DİLÇİLİYİ VƏ ESPERANTO DİLİ 391
10.07. TƏBİİ DİL ƏSASINDA ÜMUMDÜNYA DİLİ YARATMAQ PROBLEMİ 393
1. Təbii dil ideyasına münasibət 393
2. Milli dillərdən birini seçmək nəzəriyyəsi 394
3. Kiçik xalqlardan birinin dilini götürmək nəzəriyyəsi 400
4. Bütün dünya dillərinin qovuşması nəzəriyyəsi 401
10.08. GƏLƏCƏK İNSANLAR ÜÇÜN ÜMUMBƏŞƏRİ DİL ZƏRURİLİYİ 404

VI BÖLMƏ. DİL TƏDQİQİNİN MƏRHƏLƏLƏRİ VƏ METODLARI 413

XI FƏSİL. DİLÇİLİK TƏDQİQATININ MƏRHƏLƏLƏRİ 414
DİLÇİLİK TƏDQİQATI VƏ ONUN AKTUALLIĞI 414

11.01. DİLÇİLİK ELMİ-TƏDQİQAT İŞLƏRİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ 415
11.02. DİLÇİLİK TƏDQİQATININ MƏRHƏLƏLƏRİ ANLAYIŞI HAQQINDA 418
Birinci mərhələ – material toplamaq 419
İkinci mərhələ – materialı qruplaşdırmaq 423
Üçüncü mərhələ – materialı təhlil etmək 424

XII FƏSİL. DİLÇİLİYİN TƏDQİQAT METODLARI 425
METOD PROBLEMİ VƏ ELMİN İNKİŞAFI ÜÇÜN ONUN ƏHƏMİYYƏTİ 425
12.01. METOD ANLAYIŞI 426
1. Metodların növləri 427
2. Elmi metod 428
3. Elmi metod necə yaranır 429
12.02. METODOLOGİYA ANLAYIŞI 431
12.03. METODİKA ANLAYIŞI 433
12.04. DİLÇİLİYİN ELMİ METODLARI 434
12.05. DİLÇİLİK METODLARININ NƏZƏRİ-FİLOLOJİ ƏSASLARI 438
12.06. DİLÇİLİKDƏ İSTİFADƏ OLUNAN METODLAR VƏ ONLARIN TƏSNİFİNƏ DAİR 440

XIII FƏSİL. MÜASİR DİLÇİLİYİN ÜSUL VƏ METODLARI 445
13.01. MÜASİR ELMİ ÜSULLAR 445
1. Linqvistik müşahidə üsulu 446
2. Linqvistik eksperiment üsulu 450
13.02. MÜASİR ELMİ METODLAR 454
1. Müasir dilçilikdə təsviri metod 456
2. Müasir dilçilikdə tarixi metod 459
3. Müasir dilçilikdə müqayisəli metod 463
4. Müasir dilçilikdə qarşılaşdırma metodu 469
5. Müasir dilçilikdə kəmiyyət metodu 473
6. Müasir dilçilikdə areal metodu 477
7. Müasir dilçilikdə üslubi metod 479
13.03. DİLÇİLİK METODLARININ QARŞILIQLI ƏLAQƏSİ 480

XIV FƏSİL. TRANSKRİPSİYA VƏ TRANSLİTERASİYA PROBLEMLƏRİ **482**
TRANSKRİPSİYA VƏ ELMİ-TƏDQİQAT 482
14.01. TRANSKRİPSİYA ANLAYIŞI 482
a) Transkripsiyanın elmi məqsədi və əhəmiyyəti 483
b) Transkripsiyanın tərtibi prinsipləri 484
14.02. TRANSKRİPSİYANIN NÖVLƏRİ 485
1. Fonetik transkripsiya 485
2. Fonematik transkripsiya 486
14.03. TRANSKRİPSİYA SİSTEMLƏRİ 487
a) Universal transkripsiya sistemi 487
b) Xüsusi transkripsiya sistemləri 488
c) Azərbaycan transkripsiyası sistemi 488
14.04. TRANSKRİPSİYA VƏ TRANSLİTERASİYA 492
14.05. TRANSLİTERASİYANIN NÖVLƏRİ 494

BİBLİOQRAFİYA **497**
I. Türk dillərində 497
II. Digər dillərdə 498

Afad Qurbanov
Ümumi dilçilik
III cild

Dizayn: Novruz Novruzov
Texniki tərtibat: Gülnar Səfərova,
Vüsal Qurbanlı, Rüstəm Əliyev
Məsul katib: Jalə Muradova
Korrektor: Kəmalə Cəfərova, Tünzalə Xəlilova

Çapa imzalanmış: 10.01.2019.
Kağız biçimi: 84x108 1/32.
Ümumi həcmi: 32 ç.v.
Sayı: 1000 nüsxə.
Ofset çap üsulu.
Sərbəst qiymətlə.

www.afadgurbanov.az

Kitab "Imak" (İstanbul, Türkiyə) mətbəəsində çap edilmişdir.